AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX VƏ ETNOLOGİYA İNSTİTUTU

TOFİQ MUSTAFAZADƏ

# XVIII-XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QONŞU DÖVLƏTLƏR VƏ AZƏRBAYCAN

BAKI - 2026

**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur**

**Elmi redaktor:** **İradə Məmmədli**
tarix üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Mərziyə İskəndərova**
tarix üzrə fəlsəfə doktoru, dosent ,
**Səidə Hacıyeva**
tarix üzrə fəlsəfə doktoru, dosent

**Mustafazadə Tofiq**. XVIII-XIX əsrin əvvəllərində qonşu dövlətlər və Azərbaycan. Bakı, "Nəşriyyat" şöbəsi, 2026, 532 s.

Monoqrafiyada Rusiya və Türkiyə arxivlərindən toplanan sənədlər və çap olunmuş ilk mənbələr əsasında XVIII-XIX əsrin əvvəllərində qonşu böyük dövlətlərin – Rusiya, Osmanlı imperiyası, XVIII əsrin sonlarından isə həm də Qacarlar İranının Azərbaycanla münasibətləri tədqiq olunmuşdur. Bu dövlətlərin, göstərilən xronoloji çərçivədə, Azərbaycan siyasətində baş vermiş dəyişikliklər göstərilmiş, həmin dövlətlərin siyasətinin fərqli cəhətləri müəyyənləşdirilmişdir.

Kitab tarixçi alimlər, doktorantlar, magistrantlar, ali məktəb tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

©AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, 2026

## MÜNDƏRİCAT

**GİRİŞ**........................................................................................ 7

**I FƏSİL. XVIII əsrin birinci rübündə Azərbaycan Rusiya və Osmanlı imperiyalarının siyasətində**

I.1. XVIII əsrin əvvəllərində Azərbaycanın geosiyasi vəziyyəti..................................................................... 39

I.2. Azərbaycan Rusiya və Osmanlı dövlətlərinin planlarında..45

I.3. I Pyotrun Xəzəryanı ərazilərə hücumu və regionda Rusiya-Osmanlı ziddiyyətlərinin kəskinləşməsi....................... 54

I.4. 1724-cü il İstanbul Rusiya - Osmanlı müqaviləsi və Azərbaycan.................................................................... 78

**II FƏSİL. XVIII əsrin 20-30-cu illərində Azərbaycanda müvəqqəti Osmanlı və Rusiya idarəçiliy**

II.1. Azərbaycan torpaqlarının Rusiya və Osmanlı imperiyaları arasında bölüşdürülməsinin davam etdirilməsi...104

II.2. Azərbaycan torpaqlarında Osmanlı idarəçiliyi.................116

II.3. Müvəqqəti rus işğalı dövründə Xəzəryanı vilayətlərdə rus idarəçiliyi..............................................................126

**III FƏSİL. XVIII əsrin ikinci rübündə Rusiya və Osmanlı imperiyalarının Azərbaycan siyasəti**

III. 1. I Pyotrun ölümündən sonra Rusiyanın Azərbaycana dair siyasətində baş verən dəyişikliklər..................................137

III. 2. Nadir Əfşarın yüksəlişi və Səfəvi ərazilərinin geri qaytarılması ....................................................................144
III.3. Nadir şahla Rusiya arasında diplomatik danışıqların intensivləşməsi..................................................... 169

**IV FƏSİL. XVIII əsrin 30-cu illərinin ikinci yarısı – 40-cı illərində Xəzəryanı regionda rus-osmanlı-əfşar rəqabəti**
IV. 1. Nadir şahın Hindistana və Mərkəzi Asiyaya yürüşləri..186
IV.2. Rusiyaya böyük elçilik. Elçiliyin məqsədi nə idi?.........193
IV.3. III Dağıstan yürüşü və Rusiya ilə münasibətlərin kəskinləşməsi.................................................197
IV.4. XVIII əsrin 30-40-cı illərində Xəzərdə üstünlük uğrunda rus-osmanlı-əfşar beynəlxalq rəqabəti......................207
IV.5. Nadir şahla Osmanlı dövləti arasında münasibətlərin yenidən kəskinləşməsi. Sülh danışıqları və sülh müqaviləsinin imzalanması.......................................223

**V FƏSİL. XVIII əsrin 50-80-ci illərində Azərbaycan xanlıqlarının Rusiya və Osmanlı imperiyası ilə münasibətləri**
V.1. Müstəqil Azərbaycan xanlıqlarının yaranması................234
V.2. Müstəqil Azərbaycan xanlıqlarının yaranmasına Rusiya və Osmanlı imperiyalarının münasibəti.......................244
V.2.1. Rusiyanın Azərbaycan xanlarına münasibəti................245
V.2.2. Osmanlı dövləti ilə Azərbaycan xanlıqları arasında əlaqələrin yaranması................................................252
V.3. XVIII əsrin 60-cı illərinin ikinci yarısı - 70-ci illərdə Azərbaycan Rusiya və Osmanlı imperiyalarının siyasətində..253
V.3.1. 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi və Azərbaycan xanlıqları.........................................................254
V.3.2. Kiçik Qaynarca sülhündən sonra Rusiya və Osmanlı imperiyalarının Qafqaz siyasəti və Azərbaycan........259

**VI FƏSİL. XVIII əsrin 80-ci illərində Azərbaycan xanlıqları Rusiya və Osmanlı imperiyalarının siyasətində**
VI.1. Rusiyanın Azərbaycan ərazisində vassal dövlətlər yaratmaq planı....279
VI.2. Qraf Voynoviçin başçılığı ilə hərbi-dəniz ekspedisiyası..287
VI.3. Rusiyanın Azərbaycan ərazisini zəbt etmək niyyətləri...289
VI.4. Osmanlı dövlətinin Qafqazda Rusiya ekspansiyasına qarşı birlik təşkil etmək cəhdləri....305
VI.5. Qubalı Fətəli xanın Azərbaycanın cənubunu birləşdirmək cəhdinə Rusiyanın müqaviməti....308
VI.6. Rusiyanın Qarabağ xanlğına dair məkrli siyasəti. Osmanlının bölgədə Rusiya ekspansiyasına müqavimət cəhdləri....313
VI.7. Rusiya hökumətinin İsfahanlı Əlimurad xanla sövdələşmə cəhdi....317
VI.8. 80-ci illərin ortalarında Rusiya və Osmanlı dövlətlərinin Azərbaycan xanlıqları ilə münasibətləri....321
VI.9. Rus və gürcü hərbi dəstəsinin Azərbaycana yürüşünün uğursuzluğu....327
VI.10. Şəmkirçay sahilində görüş....330

**VII FƏSİL. XVIII yüzilliyin 90-cı illərində Azərbaycanda Rusiya-Qacarlar İranı və Rusiya-Osmanlı qarşıdurması**
VII.1. XVIII əsrin 90-cı illərində Cənubi Qafqazda Rusiya-Qacar qarşıdurması....338
VII.1.1. Ağa Məhəmməd xan Qacarın yüksəlişi və Azərbaycanın cənub xanlıqlarını tabe etməsi....338
VII.1.2. Ağa Məhəmməd xan Qacarın Azərbaycanın şimalına birinci yürüşü....346

VII.2. Rusiyanın Azərbaycanda möhkəmlənmək üçün göstərdiyi ikinci cəhd. V.Zubovun başçılığı ilə rus ordusunun Azərbaycana hərbi müdaxiləsi..............................352
VII.2.1. Rusiya ordusunun Azərbaycana hücumunun səbəbləri və əsas strateji hədəflər............................................352
VII.2.2. V. Zubovun başçılığı ilə rus ordusunun Azərbaycana yürüşü və Azərbaycan xanları ilə münasibətlər.357

**VIII FƏSİL. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycan Rusiya-Qacar-Osmanlı münasibətlərində. Gülüstan müqaviləsi**
VII.1. Ağa Məhəmməd şah Qacarın Azərbaycanın şimalına ikinci yürüşü...................................................................379
VIII.2. XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycan Rusiya və Qacarlar İranının siyasətində.................................380
VIII.3. I Rusiya-Qacar müharibəsi və Gülüstan müqaviləsi....394

**XÜLASƏLƏR**
Azərbaycan dilində..................................................................418
İngilis dilində...........................................................................443
Rus dilində...............................................................................469
**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT** .......................................497

# GİRİŞ

XV əsrdən başlayaraq Azərbaycan qonşuluğunda yaranmış qüdrətli dövlət – Osmanlı imperiyası və XVI əsrdən əvvəlcə Moskva knyazlığı, daha sonra isə Rusiya adlandırılan dövlətlə sıx iqtisadi və siyasi əlaqədə olmuşdur. Bu dövlətlərlə münasibətlərdə XVIII-XIX əsrin əvvəlləri xüsusi yer tutur. XVIII əsrin ortalarında yaranmış müstəqil Azərbaycan xanlıqları Rusiya və Osmanlı imperiyası ilə yanaşı, həm də İranda mövcud olmuş Zəndlər dövləti ilə, habelə Azərbaycan türkü Ağa Məhəmməd xan Qacarın yaratdığı, Azərbaycanın cənub hissəsini və İranı əhatə edən Qacarlar dövləti ilə intensiv münasibətlərdə olmuşdur. Bu dövlətlərlə münasibətlər, onların Azərbaycanla əlaqəli yürütdükləri siyasət xalqımızın sonrakı müqəddəratına həlledici təsir göstərdiyindən qonşu dövlətlərin Azərbaycana yönəlik yürütdükləri siyasətin tədqiqinə ciddi zərurət vardır.

Qeyd etmək lazımdır ki, XVIII-XIX əsrin əvvəllərində qonşu dövlətlər və Azərbaycan mövzusuna hələ XIX əsrdən başlayaraq bir sıra tarixçilərin əsərlərində bu və ya digər dərəcədə toxunulmuşdur. Əsrin ortalarında nəşr olunmuş, əsasən Qarabağ xanlığına həsr edilmiş salnamə səciyyəli əsərlərdə [1] Çarlıq Rusiyasının, Osmanlı dövlətininin və Qacar İranının Azərbaycana münasibətdə yürütdükləri siyasətin bəzi məqamları da öz əksini tapmışdır. Yeni tipli Azərbaycan tarixçiliyinin əsasını qoymuş böyük mütəfəkkir Abbasqulu Ağa Bakıxanovun

---

[1]Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr (Tərtib edəni və çapa hazırlayanı t.e.n. Akif Fərzəliyev).I kitab. Bakı: Yazıçı,1989, s.28-102; Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Qarabağnamələr. I kitab, s.106-148; Əhməd bəy Cavanşir. Qarabağ xanlığının siyasi vəziyyətinə dair (1747-ci ildən 1805-ci ilə qədər). Qarabağnamələr. I kitab, s.157-183; Mirzə Yusif Qarabaği. Tarixi-Safi. Qarabağnamələr. II kitab (Tərtib edəni və çapa hazırlayanı prof. Nazim Axundov). Bakı:Yazıçı, 1991, s. 9-92; Mir Mehdi Xəzani. Kitabi-Tarixi-Qarabağ. Qarabağnamələr. II kitab, s. 96-202 və başqaları.

məşhur “Gülüstani-İrəm” əsərində [1] Nadir şah Əfşarın Azərbaycanda yürütdüyü siyasət, bu şahın Osmanlı dövləti və Rusiya ilə münasibətlərinə dair xeyli məlumatlar verilmişdir. “Gülüstani-İrəm” kitabında XVIII-XIX əsrin əvvəllərində mövcud olmuş Azərbaycan xanlıqlarının tarixinə həsr edilmiş ayrıca bir fəsil (V fəsil) vardır. Həmin fəsildə müəllif Quba, Qarabağ, Şəki, Urmiya və Şamaxı xanlıqlarının qonşu dövlətlərlə münasibətlərinə xeyli diqqət ayırmışdır.

1917-ci il Oktyabr çevrilişinə qədərki bir sıra Rusiya tarixçiləri Rusiyanın Qafqaz siyasətinə həsr etdikləri əsərlərində çarizmin Azərbaycanla bağlı yürütdüyü siyasətə də müəyyən yer ayırmışlar. Belə əsərlərdən danışarkən ilk növbədə Nikolay Dubrovinin və Vasili Pottonun əsərlərini[2] qeyd etmək lazımdır. Rusiya böyük dövlətçiliyi mövqeyindən çıxış edən bu müəlliflər rusların Cənubi Qafqazdakı işğallarına haqq qazandırmağa çalışırlar. Məsələn, Dubrovin Car-Balakəni Gürcüstanın ən narahat qonşularından biri sayaraq onların Gürcüstana tez-tez basqınlar etmələrini qabartmaqla əslində bu bölgənin ruslar tərəfindən zəbt olunmasını guya Gürcüstanın təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə əsaslandırır.[3] Lakin ədalət naminə qeyd etmək lazımdır ki, Dubrovin əsərlərini yazarkən minlərlə əsər, sənəd və arxiv materiallarından istifadə etdiyindən əsərləri çarizmin regionda yürütdüyü siyasəti öyrənmək baxımından çox qiymətlidir. Eyni sözləri Pottonun əsərləri haqqında da söyləmək

---

[1] Аббаскули Ага Бакиханов. Гюлистани-Ирам (редакция, комментарии и примечания акад. Зия Буниятова). Баку: Элм, 1991.

[2] Николай Дубровин. Закавказье от 1803 по 1806 году. СПб.:1866; Николай Дубровин. История войны и владычества русских на Кавказе. Т.1, СПб.: 1871, т.Т.2-3.СПб.:1886; Василий Потто. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Т.2, выпуск 1-3. Тифлис:1885; Василий Потто. Исторический очерк кавказских войн от их начала до присединение Грузии (Под ред.ген.-м. Потто). Тифлис:1899; Утверждение русского вадычества на Кавказе (Под ред. В.Потто).т.1.Тифлис:1901, т.2. Тифлис:1902, т.3, ч.1-й. Тифлис:1904, т.3. ч.2-й.,Тифлис: 1904, т.4, ч.1,Тифлис: 1906.

[3] Николай Дубровин. Закавказье от 1803..,с.9.

olar. Bununla yanaşı qeyd etmək lazımdır ki, Pottonun əsərlərində daha çox Rusiya qoşunlarının Azərbaycan xanlıqlarına, Qacarlar İranına və Osmanlı imperiyasına qarşı apardıqları hərbi əməliyyatlara diqqət ayrılmışdır.

Dubrovin və Potto kimi çarizm məddahları imperiyanın müstəmləkəçilik fəaliyyətinin hərbi-feodal metodlarını pərdələməyə çalışırdılar. Digər rus dvoryan-burjua tarixçisi P.İ.Kovalevski Rusiyanın Qafqazı işğal etməsinin ümümi prosesini əks etdirən əsər yazmışdır. Müəllif Rusiya-Qacarlar İranı və Rusiya-Osmanlı müharibələrinin səbəblərini araşdırarkən haqsız olaraq günahı qacarların və osmanlıların üzərinə yıxmağa çalışmışdır.[1]

1920-ci ildə XI Qırmızı Ordunun süngüləri üzərində Şimali Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra tədricən Azərbaycan sovet tarixşünaslığı formalaşmağa başlayır. Sovet dövrü tarixçiləri Azərbaycan tarixinin digər dövrlərinə nisbətən XVIII-XIX əsrin əvvəllərinə qismən az diqqət yetirmişlər. Bu bir yandan həmin dövrün tənəzzül dövrü kimi səciyyələndirilməsi ilə, digər tərəfdən xanlıqlara lüzumsuz, mürtəce qurumlar kimi yanaşılması ilə bağlı idi.

Sovet hakimiyyəti illərində Azərbaycanın XVIII əsr tarixinə həsr olunmuş ilk əsərlərdən bəhs edərkən ilk növbədə Yevgeni Zevakinin 1927-ci ildə nəşr etdirdiyi iki məqaləsinin[2] adını xatırlamaq lazımdır. Müəllif 1722-1735-ci illərdə Rusiya işğalı altında olan Xəzəryanı vilayətlərdə Rusiyanın yürütdüyü sosial-iqtisadi siyasətin mahiyyətini açmağa çalışmışdır. Zevakin Azərbaycan əhalisinin işğalçılara münasibətini düzgün xarakterizə edərək müsəlman əhalinin xristian Rusiya

---

[1]Павел Ковалевский. Завоевание Кавказа Россией: Исторические очерки. СПб.:1911, с.98

[2]Евгений Зевакин. Прикаспийские провинции в эпоху русской оккупации XVIII века. Известия общества обследования и изучения Азербайджана, 1927, №5, сс.122-133; Его же.Азербайджан в начале XVIII. Известия общества обследования и изучения Азербайджана, 1929, №8, вып.4, Баку: 1929,№8,вып.4. 32 с.

hakimiyyətinə düşmən münasibət bəslədiyini, gah Türkiyədən, gah da şah II Təhmasibdən mədət umduğunu yazmışdır.[1] Zevakin Azərbaycan tarixçiləri içərisində birinci olaraq Moskva arxivlərində saxlanan sənədlərdən istifadə etmiş, Xəzəryanı vilayətlər uğrunda mübarizəyə Rusiya-Şahlıq dövləti və Rusiya-Osmanlı münasibətlərinin tərkib hissəsi kimi baxmışdır. O, bu mübarizəni Rusiya və Osmanlı imperiyası arasında İran (həm də Azərbaycan-T.M.) ipəyi, Avropadan Türkiyə, yaxud Rusiya vasitəsilə ticarət yolu uğrunda rəqabət kimi səciyyələndirmişdir. İkinci məqaləsində Zevakin 1716-1718-ci illərdə Rusiyadan şah sarayına elçi kimi göndərilmiş Artemi Volınskinin səyahət gündəliyindən Azərbaycanla bağlı bəzi hissələri nəşr etdirmişdir.

XX əsrin 30-cu illərinin ortalarında Mixail Poliyevktov adlı müəllif 1722-1735-ci illərdə Rusiya işğalı altında olan Xəzəryanı vilayətlərin iqtisadi vəziyyəti, Rusiyanın bu vilayətlərdə keçirdiyi və keçirmək istədiyi tədbirlərə həsr olunmuş broşür nəşr etdirmişdir.[2] Poliyevktov yazır ki, bu işğalın iki səbəbi vardı. Birinci, iqtisadi - Gilan ipək bazarını və buradan Kiçik Asiyaya və Hindistana gedən yolları ələ keçirmək; ikincisi, preventiv – Osmanlının Xəzər dənizinə çıxışına imkan verməmək.[3] O, Butkovun, Pottonun və Zevakinin söylədikləri belə bir mülahizəni təkrar edir ki, gəlirlər tədricən artsa da, Xəzəryanı vilayətləri əldə saxlamaq Rusiya üçün sərfəli deyildi; gəlirlər xərcləri və adam itkilərinin yerini doldurmurdu.[4]

Poliyevktov rus hakimiyyət dairələrinin Xəzəryanı vilayətlərin iqtisadi potensialını artırmaq üçün heç bir ciddi tədbir görmədiklərini yazaraq, eyni zamanda RİXSA-da (Rusiya İmperiyası Xarici Siyasət Arxivi) saxlanan, rus artilleriya

---

[1] Евгений Зевакин. Прикаспийские..,с.125

[2] Михаил Полиевктов. Проект хозяйственной эксплуатации оккупированных в XVIII веке Россией прикаспийских областей Кавказа. Материалы по истории Грузии и Кавказа, выпуск IV,Тбилиси:1937, сс.245-371

[3] A. k. əsər, s.253

[4] Михаил Полиевктов...,с. 253

mayoru, bu vilayətlərdə bir neçə il olmuş İohan Qustav Gerberin 1732-ci ildə tərtib etdiyi Xəzəryanı əyalətlərin gəlirliliyini artırmaq məqsədi güdən layihəsi haqqında məlumat verir.

Poliyevktovun və ondan əvvəl Zevakinin gəldiyi nəticələr Çarlıq Rusiyasının xarici siyasətinə bəraət qazandıran 1917-ci ilə qədərki rus tarixçilərinin baxışlarının əsassızlığını sübuta yetirmək üçün mühüm əhəmiyyətə malik idi.

1941-ci ildə nəşr olunan Azərbaycan tarixinin qısa xülasəsi kollektiv monoqrafiyasında [1] XVIII-XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətlərinə xeyli yer ayrılmışdır. Qısa xülasədə Azərbaycan hakimlərinin, qabaqcıl şəxslərin guya Rusiyaya meyil etməsi iddia olunsa da[2] müəlliflər haqlı olaraq qeyd edirlər ki, Rusiya çarları Azərbaycan xalqının və digər xalqların taleyi haqqında qətiyyən düşünmürdülər və Rusiya Azərbaycana münasibətdə işğalçı məqsədlər güdürdü. Fətəli xan Qubalıya düşmənlərinə qarşı mübarizədə Rusiyanın yardımından bəhs edən müəlliflər eyni zamanda doğru olaraq qeyd edirlər ki, rus zadəganları və tacirləri Cənubi Qafqazda Rusiyanın işğalçılıq meyillərinə mane ola biləcək iri, birləşmiş müsəlman ölkəsinin olmasını arzulamırdılar.[3]

Eyni zamanda müəlliflərin Valerian Zubovun başçılığı ilə Rusiya ordusunun 1796-cı ildə Azərbaycana hücumunun guya Azərbaycan xanlarının yardım haqqında müraciətlərinə cavab olaraq həyata keçirilməsi haqqında iddiası ilə razılaşmaq təbii ki, çətindir. Kitabda Çarlıq Rusiyasının işğalçılıq siyasətinə bir növ bəraət qazandırılır, Azərbaycanın şimalının Rusiyaya birləşdirilməsi yaranmış şəraitdə yeganə düzgün yol kimi qiymətləndirilərək "daha az bəla" hesab edilirdi.[4] Qeyd edək ki, adı çəkilən "Xülasələr" 1946-cı ildə Azərbaucan SSR Elmlər Akademiyasının Xəbərlərində dərc olunmuşdur.

---

[1] История Азербайджана. Краткий очерк ( На правах рукописи). Баку: 1941.

[2] A. k. əsər,s.184.

[3] A. k. əsər, s.182.

[4] A. k. əsər, s.207-208.

Təəssüflər olsun ki, sonrakı illərdə mərkəzdən verilən göstərişlər nəticəsində Rusiyanın Cənubi Qafqazda, ilk növbədə Azərbaycanda yürütdüyü siyasətin guya Azərbaycan xalqının mənafelərinə uyğun gəlməsi kimi yanlış səciyyələndirmə meyli yaranır. Tarixçilərdən heç də Rusiya ilə münasibətlərin tarixinin obyektiv araşdırılması tələb olunmur, bu dövrdə meydana çıxan "birləşdirmə" konsepsiyasını təsdiq edən faktlar tapmaq və bu ruhda müddəaları əsaslandırmaq tələb edilirdi.

II Dünya müharibəsindən sonrakı dövrdə Azərbaycanda tarix üzrə elmi tədqiqatların daha da genişlənməsi müşahidə olunur. Təsadüfi deyil ki, xatırlanan dövrə aid ilk ciddi tədqiqat 1948-ci ildə meydana çıxmışdır. Həmin ildə Vadim Leviatovun "XVIII əsr Azərbaycan tarixinə aid xülasələr" kitabı nəşr olunmuşdur. [1] Əsərdə Osmanlı imperiyası və Rusiyanın Azərbaycan siyasətinə, XVIII yüzilliyin ikinci yarısında Azərbaycan uğrunda rəqabətinə xeyli yer ayrılmışdır. Bu sahədə ilk addım olduğundan, kitabın mənbə bazası geniş deyil, müəllif arxiv sənədlərindən heç istifadə etməmişdir. Bəlkə də bunun nəticəsidir ki, əsərdə bir sıra tarixi yanlışlıqlara yol verilmişdir. Məsələn, müəllif səhvən Şamaxı şəhərinin Hacı Davudun başçılıq etdiyi Şirvan üsyançıları tərəfindən iki dəfə - 1712 və 1721-ci illərdə alınııb dağıdılması haqqında Abbasqulu Ağa Bakıxanovun səhvini təkrarlamışdır. [2] Leviatovun əsərinin ən böyük qüsurlarlndan biri ondan ibarətdir ki, müəllif Osmanlı, Əfşarlar və Qacarlar dövlətlərinin Azərbaycana dair siyasətini kəskin tənqid etdiyi, bu siyasətin ölkədə dağıntılar, qırğınlarla müşahidə olunduğunu yazdığı halda, Rusiyanın daha humanist siyasət yürütdüyünü iddia edir.

Leviatovun əsərində qubalı Fətəli xanın Rusiya ilə münasibətlərinə xüsusi diqqət yetirilir, Rusiyanın Fətəli xana münasibəti əsasən düzgün səciyyələndirilmişdir. Rusiya bir

---

[1] Вадим Левиатов. Очерки из истории Азербайджана в XVIII веке. Баку: Издательство АН Азербайджанской ССР,1948.

[2] A.k. əsər,s. 69-72.

tərəfdən Fətəli xanın rəğbətini qazanmaq üçün ona müəyyən kömək göstərsə də, eyni zamanda onun çox güclənməsini, Rusiya sərhəddində yeni, iri dövlətin yaranmasını istəmirdi.[1] Fətəli xanın da Rusiyaya münasibəti əsasən düzgün səciyyələndirilərək onun öz müstəqilliyini qorumaqda israrlılığı vurğulanır.[2]

Müəllif Azərbaycan xanlarının 1792-ci ildə Qafqaz xəttindəki rus qoşunlarının komandanı general Qudoviçlə münasibətlərindən bəhs edərək düzgün olaraq bildiririr ki, xanlar Rusiya himayəsinə yalnız və yalnız Qacar təhlükəsindən qorunmaq üçün girmək istəyirdilər. V.Leviatov xanların manevr edərək öz hakimiyyətlərini saxlamaq naminə Rusiyaya müraciət etmələrini yanlış olaraq xanların həqiqətən rus təbəəliyini qəbul etmək istəkləri kimi yozur, bəzi xanların Rusiyaya ümumiyyətlə düşmən münasibətlərini demək olar ki, unudur. Müəllif 1796-cı ildə rus qoşunlarının Azərbaycana hərbi yürüşünü Ağa Məhəmməd Qacarın yürüşlərinə cavab kimi səciyyələndirir, yürüşün işğalçı məqsədlərini inkar edir, Dərbəndin rus qoşunlarına müqavimətini yerli əhalinin işğalçılara mənfi münasibətinin təzahürü kimi deyil, Şeyxəli xan və ətrafındakıların subyektiv münasibəti kimi dəyərləndirir.[3] Rusiya hərbi hakimiyyət orqanlarının Azərbaycandakı hərəkətlərini "əhaliyə qayğı" kimi qiymətləndirən Leviatov bunun sayəsində Azərbaycanın geniş əhali kütlələrində guya Rusiyaya meyil yarandığını iddia edir.[4] Əvvəlki müəlliflərin Azərbaycanın Rusiyaya birləşdirilməsini "daha az bəla" kimi səciyyələndirməsini yanlış sayan Leviatov bunu "uğurlu çıxış yolu" sayaraq, iddia edir ki, XVIII əsrin sonunda Azərbaycanın inkişafının alternativi yox idi.

Bütövlükdə V.Leviatovun xatırlanan əsəri XVIII-XIX əsrin əvvəllərində Azərbaycanın qonşu ölkələrlə münasibətlərinin tədqiqində mühüm rol oynamışdır. Bu problemin ilkin qaynaqlar

---

[1] Вадим Левиатов. A. k. əsəri, s.137-138.
[2] A. k. əsər, s.144.
[3] A. k. əsəri, s.175-176.
[4] A. k. əsər, s.189.

(ancaq çap olunmuş qaynaqlar olsa da) əsasında işıqlandırıldığı ilk əsərlərdəndir.

1951-ci ildə rus sovet tarixçisi Vikenti Lısçovun I Pyotrun Xəzəryanı yürüşünə həsr olunmuş kitabı nəşr edilmişdir. Təəssüf doğuran cəhət ondan ibarətdir ki, müəllif Azərbaycanı İrandan ayıra bilmir, yaxud da ayırmaq istəmir, azərbaycanlıları bir çox hallarda yanlış olaraq fars adlandırır.[1]

Lısçovun əsərinin başlıca dəyəri zəngin mənbə bazasına malik olmasında, müəllifin çoxlu çap olunmuş, və ya çap olunmamış sənədlərə istinad etməsindədir. Ən başlıcası, müəllif Rusiya çarının işğalçılıq siyasətinin mahiyyətini düzgün aça bilmişdir. O, yazır ki, rus çarizminin mülkədarların və burjuaziyanın mənafeyinə uyğun həyata keçirdiyi işğalçı siyasətin məqsədi ədalətsiz olaraq yad əraziləri ələ keçirmək və qeyri-rus xalqlar üzərində müstəmləkə zülmünü bərqərar etməkdən ibarət idi.[2] Lısçov öz əsərində rus qoşunlarının Bakını zəbt etmək əməliyyatına geniş yer versə də, əsasən Rusiyanın gürcülərlə və ermənilərlə əlaqələrinə daha çox diqqət ayırmışdır. Müəllif yanlış olaraq 1722-1723-cü illərdə Rusiya-Osmanlı danışıqlarında Gürcüstan və "Ləzgi məsələsi"nin başlıca rol oynadığını iddia edir.[3]

XX əsrin 50-ci illərinin əvvəllərindən başlayaraq qeyri-rus xalqların Rusiyaya tabe edilməsi məsələsinə yenidən baxılmağa başlanır. Q.Mehdiyev adlı bir müəllif 1952-ci ildə nəşr etdirdiyi məqaləsində [4] feodal-ara müharibələri nəticəsində ölkədə yaranmış iqtisadi tənəzzül və siyasi dağınıqlıq şəraitində Azərbaycanın Rusiya ilə iqtisadi əlaqələrinin xüsusi əhəmiyyəti olduğunu vurğulayır, Azərbaycanda əhalinin əksəriyyətinin Rusiyaya meyil etdiyini iddia edir. Həm də Mehdiyev yazırdı ki,

---

[1] Викентий Лысцов. Персидский поход Петра I 1722-1723. Москва: 1951, с.102.

[2] A. k. əsər, s.14.

[3] Orada, s.227

[4] М. Мехтиев. Историческое значение присоединения Азербайджана к России.Вопросы истории,№ 3,сс.83-98

əgər feodal hakimlər Rusiyaya meyildə öz məqsədlərini güdürdülərsə, xalq kütlələri arzularında təmənnasız və ardıcıl idilər. Gülüstan müqaviləsindən bəhs edən müəllif Şimali Azərbaycanın Rusiyaya ilhaqının işğalçı mahiyyətini inkar edir.

50-ci illərdə “daha az bəla” konsepsiyasına son qoyulmuş, Şimali Azərbaycanın Rusiyaya ilhaqına mütərəqqi addım kimi baxılmağa başlanmışdır.

Bir neçə il sonra nəşr olunmuş “Azərbaycanın Rusiyaya birləşdirilməsi və mədəniyyət sahəsində mütərəqqi nəticələri” adlı əsərdə Rusiyaya birləşdirilənə qədər və birləşdirilmədən sonrakı dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafını təhlil etməyə (Azərbaycanın Rusiyaya birləşdirilməsinin onun daxili vəziyyətinin nəticəsi olduğunu sübut etmək üçün) cəhd göstərilmişdir. Kitabın birinci hissəsində Azərbaycanın Rusiyaya ilhaqının ilkin şərtləri, birləşdirmənin gedişi və “əhəmiyyəti” işıqlandırılmışdır. Müəlliflər XVIII əsrdə Azərbaycanın sosial-iqtisadi vəziyyətini qısaca təsvir edərək ölkənin iqtisadi tənəzzülünün dərinləşdiyini, xarici siyasi vəziyyətin kəskinləşdiyini yazır və yeganə çıxış yolunu Rusiyaya birləşdirilməkdə görür, Şimali Azərbaycanın Rusiya tərəfindən zəbt olunmasına bəraət qazandırmağa çalışırlar. Onlar Şimali Azərbaycanın Rusiyaya ilhaqında “feodal dağınıqlığını ləğv etmək, Osmanlı, İran işğalçılarının qarşısını almaq, xalqın iqtisadi və mədəni həyatını inkişaf etdirmək üçün yeganə çıxış yolu olaraq görürdülər”.[1]

Görkəmli Azərbaycan tarixçisi Əlövsət Quliyev XV-XVIII əsrlərdə Azərbaycan-Rusiya münasibətlərinin icmalına broşür həsr etmişdir.[2] Bu əsərdə I Pyotrun Xəzəryanı ərazilərə yürüşünə də xeyli yer verilmişdir. Lakin bu zaman müəllif dövrün tələblərinə uyğun olaraq həmin yürüşü çox təriфləmiş və az qala

---

[1] Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvəlləri).Əlövsət Quliyev və b. redaktəsi ilə. Bakı: Elm,1955,s.10.

[2] Əlövsət Quliyev. Azərbaycan-Rusiya münasibətləri tarixindən (XV-XVIII əsrlər).Bakı:1958

Azərbaycan və digər Cənubi Qafqaz xalqlarının mənafeyinə cavab verdiyini iddia etmişdir. Şah və Sultan hakimiyyətini Cənubi Qafqaz xalqları üçün dösülməz hal kimi qiymətləndirdiyi halda Xəzəryanı ərazilərin Rusiya tərəfindən işğalını mütərəqqi hadisə kimi dəyərləndirmişdir. Bir çox sovet müəllifləri kimi Ə.Quliyev də V.Zubovun başçılıq etdiyi rus ordusunun yürüşünün Azərbaycan xanlarının xahişi ilə təşkil olunduğunu iddia edir. [1] Belə bir yanlış nəticə çıxarır ki, Azərbaycan xanlarının XVIII əsrin sonunda İran və Osmanlı tərəfindən təhlükə gücləndiyi şəraitdə müstəqil varlıqlarını davam etdirmələri mümkün deyildi. Buna görə də könüllü surətdə Rusiyaya birləşməyi üstün tutmuşlar. [2] Quliyevin adı çəkilən əsərində Rusiyanın Azərbaycan xanlıqlarına münasibətdə yürütdüyü siyasət öz obyektiv əksini tapmamışdır.

Asif Əbdürrəhmanovun 1964-cü ildə nəşr olunmuş əsərində[3] ilk dəfə olaraq XVIII əsrin birinci yarısında Azərbaycanın Rusiya, İran və Osmanlı dövlətinin siyasətində yeri tədqiq olunmuşdur. Əbdürrəhmanov da Leviatov kimi, Osmanlı dövləti və Nadir Əfşarın Azərbaycanla bağlı siyasətini kəskin tənqid etdiyi halda, Rusiyanın siyasətinə haqq qazandırmağa çalışır. O da arxiv sənədlərindən istifadə etməmiş, başlıca olaraq Rusiya İmperator Tarix Cəmiyyətinin nəşr etdirdiyi Rusiyadakı xarici diplomatların raport və məruzələr toplusundan istifadə etmişdir. Halbuki, XVIII əsrin birinci yarısında qonşu dövlətlərin Azərbaycana münasibətdə yürütdüyü siyasəti arxiv materiallarını, ilk növbədə Moskvadakı Rusiya İmperiyasının Xarici Siyasəti Arxivinin materallarını nəzərdən keçirmədən dolğun və dərindən tədqiq etmək mümkün deyil. Həm də A.Əbdürrəhmanov kitabında Rusiya-İran (daha doğrusu Əfşar dövləti) danışıqlarında Azərbaycanın yeri məsələsini geniş

---

[1] A. k. əsər, s.48.

[2] Orada, s.51.

[3] Асиф Абдурахманов. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII века. Баку: Изд. АН Азерб. ССР,1864.

işıqlandırdığı halda, Xəzəryanı regionda Rusiya-Osmanlı rəqabətinə ötəri toxunmuşdur.

Sovet dönəmində ilk dəfə olaraq Həsi Abdullayev XVIII əsrdə Azərbaycanın qonşu dövlətlərlə münasibətləri mövzusuna iri həcmli, sanballı və əhatəli monoqrafiya həsr etmişdir.[1] Bu zaman Həsi Abdullayev əsas diqqətini XVIII əsrin 50-70-ci illərində cərəyan edən hadisələrə yönəltmiş, özünün qeyd etdiyi kimi, Asif Əbdürrəhmanovun XVIII əsrin 30-40-cı illərində Azərbaycanın Rusiya, Türkiyə və İran arasındakı münasibətlərdə yerinə həsr edilmiş kitabı ilə kifayətlənərək əsrin birinci yarısına çox səthi toxunmuşdur. Bununla yanaşı qeyd etmək yerinə düşər ki, zəngin mənbə bazası H.Abdullayevə imkan vermişdir ki, XVIII əsrin 50-80-ci illərində Azərbaycan xanlıqları ilə Rusiya arasında mövcud olmuş münasibətləri geniş və dərindən tədqiq etsin.

Müəllif rus diplomatları, məmurları, işgüzar adamlarının yazışmalarında Azərbaycan-Rusiya ticarət əlaqələrini yanlış olaraq "İran ticarəti" kimi qələmə verildiyini tənqid edərək, bunu çar hökumətinin XVIII əsrin ikinci yarısında da Azərbaycan xanlıqlarının müstəqilliyini görmək istəməməsi ilə izah edir. Rusiyanın Quba xanlığına münasibətdə yürütdüyü gömrük siyasətinin timsalında Rusiya-Azərbaycan ticarətinin qeyri-bərabər xarakterdə olması nəticəsinə gəlir. H.Abdullayev Azərbaycan-Rusiya ticarət əlaqələrinə xüsusi diqqət yetirərək ticarətin dövriyyəsi, xarakteri, ticarətlə bağlı iki dövlət qarşısında meydana çıxan mübahisələr haqqında geniş məlumat vermişdir.

H.Abdullayevin bu kitabında region uğrunda Rusiya, Osmanlı imperiyası və İran arasında rəqabətin tədqiqinə də geniş yer verilmişdir. Qeyd etmək lazımdır ki, bu zaman müəllifin Rusiyaya rəğbəti, qərəzli yanaşması açıq-aydın hiss olunur. Ancaq, ədalət naminə qeyd etməliyik ki, Həsi Abdullayev Rusiya çarizminin Cənubi Qafqaza, o cümlədən Azərbaycana

---

[1] Гаси Абдуллаев. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией.Баку: Изд.АН Азерб.ССР, 1965.

münasibətdə yeritdiyi siyasətin müstəmləkəçi mahiyyət daşıdığını bildirməkdən də çəkinməmişdir. Təəssüf ki, bu zaman Rusiyanın siyasətinin Osmanlının və Qacarların siyasətindən "mütərəqqi" olduğunu yazmaqdan da qalmamışdır.

Olqa Markovanın XVIII əsrdə Cənubi Qafqazda və onun ətrafında cərəyan edən beynəlxalq münasibətlərə həsr etdiyi monoqrafiyasında[1] müəllif I Pyotrun Xəzəryanı ərazilərə yürüşü ilə bağlı İstanbuldakı Qərbi Avropa diplomatlarının reaksiyasına xeyli yer vermişdir. Markovanın əsəri XVIII əsrdə Azərbaycanın xarici siyasi vəziyyətini anlamağa xeyli yardım edir. Markova I Pyotun yürüşünü yarımçıq dayandırmasının səbəbləri haqqında tarixi ədəbiyyatada hökm sürən fərziyyələrdən fərqli, zənnimizcə, doğru fikir irəli sürərək I Pyotrun Osmanlı ilə vaxtından əvvəl müharibədən qaçmaq üçün Qafqazı tərk etdiyini yazır.[2]

Sovet dövründə Azərbaycanın XVIII əsr tarixini daha geniş tədqiq edən görkəmli alim Fuad Əliyev olmuşdur. 1960-cı ildə nəşr etdirdiyi əsərində[3] müəllif XVIII əsrin birinci yarısında Azərbaycanda ticarətin vəziyyətini tədqiq etmişdir. F.Əliyevin RİXSA, RDQAA (Rusiya Dövlət Qədim Aktlar Arxivi), RDHTA (Rusiya Dövlət Hərbi-Tarix Arxivi) və Həştərxan Vilayət Dövlət Arxivində saxlanan materiallardan geniş istifadə etdiyini xüsusi qeyd etmək lazımdır. Əsərdə müəllif digər məsələlərlə yanaşı Rusiya və Osmanlı imperiyasının Azərbaycan torpaqlarını ələ keçirmələri, Nadir şah Əfşarın hakimiyyəti dövründə Azərbaycanda baş verən hadisələr haqqında da qısa məlumatlar vermişdir.

Əsərin xarici və tranzit ticarətə həsr olunmuş III fəslində müəllif düzgün olaraq məhz xarici ticarət sayəsində Azərbaycanın XVIII əsrin birinci yarısında müstəqil dövlət olmadığı halda, bir çox Qərb və Şərq ölkələrində zəngin bir ölkə

---

[1] Ольга Маркова. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва: Наука,1966

[2] A. k. əsər, s.27.

[3] Fuad Əliyev. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət.Bakı: Azərb. SSR EA Nəşriyyatı,1960.

kimi tanındığını, müxtəlif ölkələrin, o cümlədən, Rusiya, İngiltərə, Fransa, Almaniya, Polşa, Hollandiya, İsveç, Hindistan, İran və Türkiyə tacirlərinin Azərbaycan şəhərlərindən gəlib keçdiyini, yaxud aylarla burada qalıb ticarətlə məşğul olduqlarını qeyd edir.[1] Azərbaycanın başqa ölkələrə nisbətən Rusiya ilə daha geniş ticarət əlaqələrinə malik olduğunu vurğulayan F.Əliyev Azərbaycanın bir çox yerlərində külli miqdarda ipək istehsal olunduğundan və bir sıra başqa səbəblərə görə Şərq ölkələri arasında Azərbaycaın Rusiya üçün daha böyük əhəmiyyət kəsb etdiyini yazır. F. Əliyev qeyd edir ki, əgər I Pyotrdan əvvəl Şərq ölkələri ilə ticarət əsas eibarilə tranzit səciyyəsi daşıyırdısa, Pyotra görə bu ticarət başlıca olaraq artmaqda olan rus sənayesinə xidmət etməli idi. I Pyotr Volqa-Xəzər ticarətindən böyük gəlir əldə oluna biləcəyini nəzərə alaraq Xəzər ticarətini qaydaya salmağı, hətta Xəzər dənizini Rusiyanın "daxili gölünə çevirməyi qərara almışdı.[2]

I Pyotrun 1716-cı ildə şah sarayına göndərdiyi Artemi Volınskinin başçılıq etdiyi elçilik haqqında geniş məlumat verən F.Əliyev Volınskinin Şah Sultan Hüseynin baş vəziri Fətəli xanla bağladığı 21 maddədən ibarət ticarət müqaviləsini ətraflı təhlil edir. Müəllif Azərbaycanın Rusiya ilə ticarətini geniş və dərindən tədqiq etsə də, başqa ölkələrlə, o cümlədən Osmanlı imperiyası ilə ticarət əlaqələrinə demək olar ki, toxunmamışdır.

Xəzər ticarəti uğrunda Rusiya ilə İngiltərə rəqabətinə toxunan F.Əliyev yazır ki, Azərbaycan öz təbii sərvətləri ilə, satış bazarı kimi ingilis tacirlərinin və ingilis hökumətinin diqqətini çoxdan cəlb etdiyindən ingilislər öz mövqelərindən istifadə edərək 1734-cü ildə Rusiya hökuməti ilə bağladıqları ticarət müqaviləsində onların Rusiyadan keçib Azərbaycan və İranla ticarət etmək hüququnun təsbit edilməsinə nail olmuşdular.[3] İngilislərə bu hüququ verməklə rus hökuməti tranzit ticarətdən böyük gəlir

[1] Fuad Əliyev. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət, s 46.
[2] Yenə orada, s.48.
[3] Fuad Əliyev. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət, s.87.

götürəcəyinə, ingilislərin xam ipəyi Volqa-Xəzər yolu ilə Rusiyaya daşıyacaqlarına ümid edirdi. Lakin rus hökumətinin gözləntiləri doğrulmadı. İngilislər 1735-ci ildə dəniz kapitanı Con Eltonu Rusiyaya göndərdilər. F.Əliyevin qənaətinə görə, Elton rusları Xəzər ticarətindən sıxışdırmaq, Nadir Əfşarı Rusiyaya qarşı qaldırmaq məqsədilə göndərilmişdi.

1739-cu ildə Eltonun İrana gəlib Nadir şah Hindistanda olduğu üçün dövləti idarə edən böyük oğlu Rzaqulu Mirzədən Britaniya şirkəti üzvlərinin hər zaman və qeyri-məhdud miqdarda mallarını Şahlıq dövlətinin Xəzər dənizində olan hər hansı bir limanına aparılması barədə icazə aldığını yazan müəllif, eyni zamanda Eltonun tövsiyyəsi ilə Britaniya hökumətinin Rusiya hökumətindən ingilislərin Xəzərdə sərbəst üzmələri və xam ipək məhsullarının Rusiya ərazisindən keçməklə İngiltərəyə aparmalarına, habelə Kazan şəhərində iki ticarət gəmisi quraşdırmalarına icazə aldığını da qeyd edir. [1] Ancaq rus tacirlərinin daha böyük maliyyə imkanlarına malik və daha bacarıqlı ingilis tacirləri ilə rəqabətdə uduzduğunu görən Rusiya hökuməti peşman olub 1746-cı ildə ingilislərin Rusiya ərazisindən keçib İrana və digər Şərq ölkələrinə getmək hüququnu ləğv etdi. F.Əliyev haqlı olaraq hesab edir ki, Rusiya hökumətinin bu qərarı almasına həm də Eltonun Nadir şahın xidmətinə keçib onun üçün müasir donanma yaratmaq yönündə fəaliyyəti də təsir göstərmişdi.[2]

1975-ci ildə nəşr etdirdiyi monoqrafiyasında Fuad Əliyev XVIII əsrin 20-40-cı illərində Azərbaycanda şahlıq üsul-idarəsinə qarşı çıxışları, Osmanlı işğalına qarşı mübarizəni tədqiq etmişdir. Kitabda qonşu dövlətlərin, ilk növbədə Rusiya və Osmanlı imperiyalarının Azərbaycanla bağlı yürütdükləri siyasətə də mühüm yer ayrılmışdır. Osmanlı ordusunun 1723-1725-ci illərdə Azərbaycanın içərilərinə doğru irəliləməsi, Rusiya hakimiyyətini qəbul etmək məsələsində Bakıda Rusiya tərəfdarları ilə

---

[1] Yenə orada, s. 86.

[2] Yenə orada, s.100

əleyhdarları arasında gedən mübarizə kitabda öz əksini tapmışdır.

Təəssüf doğuran cəhət, müəllifin zamanın tələblərinə uyğun olaraq Osmanlının Azərbaycanda keçirdiyi hərbi əməliyyatlara kəskin mənfi münasibət göstərdiyi halda, Rusiyanın eyni mahiyyətdə olan hərəkətlərinə münasibətdə nisbətən yumşaq mövqe sərgiləməsidir. O, Osmanlı hakimiyyətinin Azərbaycan xalqının başına olmazın müsibətlər gətirdiyini, Rusiya işğalı altında olan ərazilərdə isə əmin-amanlıq, iqtisadi vəziyyətin qənaətbəxş olduğunu iddia edir.

Ümumiyyətlə, kitabın ən mühüm nöqsanlarından biri kimi, müəllifin dövrün tələbi ilə hərəkət edərək Osmanlının və Şah hakimiyyətinin siyasətini ifrat dərəcədə tənqid etməsi, işğalçılıq məqsədləri daşıdığına baxmayaraq Rusiyanın siyasətini təriflənməsini göstərmək olar. Lakin buna baxmayaraq geniş mənbə bazasına malik olması, Rusiya arxiv mənbələrini cəlb etməklə XVIII əsrin birinci yarısı Azərbaycan tarixinin bir sıra məsələlərinə aydınlıq gətirdiyini nəzərə alaraq, F.Əliyevin bu əsərini tarixşünalığımıza əhəmiyyətli bir töhfə kimi qiymətləndirmək olar.

1979-cu ildə nəşr etdirdiyi kitabında F.Əliyev Rusiya səfiri A.P.Volınskinin Səfəvi şah sarayına gedərkən və oradan qayıtdığı zaman Azərbaycandakı hərəkət marşrutunu, səfirliyin fəaliyyətini işıqlandırmışdır.[1]

Fuad Əliyev 1985-ci ildə XV əsrdən XVIII əsrin birinci yarısınadək Azərbaycan-Rusiya münasibətlərinə həsr olunmuş kitab nəşr etdirmişdir. Əsər iki əsr yarımlıq dövrə həsr olunsa da, XVIII əsrə qədər Rusiya-Azərbaycan münasibətlərinə yalnız ümumi bir baxış verilmiş (cəmi 35 səhifədə) və əslində kitab XVIII əsrin birinci yarısında Rusiya-Azərbaycan münasibətlərinə həsr olunmuşdur.

Kitabda Artemi Volınskinin səfarətinə, daha doğrusu, əsasən səfirliyin Azərbaycanda olmasına ayrıca bölmə həsr olunmuşdur

---

[1] Фуад Алиев. Миссия посланника Русского государства А.П.Волынского в Азербайджане (1716-1718 гг.) Баку: Элм, 1979.

ki, bu zaman müəllif 6 il öncə Volınskinin Azərbaycandakı missiyasına ayrıca həsr etdiyi kitabını müəyyən ixtisarlarla və dəyişikliklərlə demək olar ki, təkrar edərək, elmi dövriyyəyə heç bir yeni fakt və məlumat cəlb etməmiş, yeni fikirlər az söyləmişdir.[1]

F. Əlyevin Azərbaycanın Xəzəryanı ərazilərinin 1722-1735-ci illərdəki Rusiya tərəfindən işğalı, Rusiyanın Şahlıq dövləti ilə bağladığı 1732-ci il Rəşt, 1735-ci il Gəncə müqavilələri, bu müqavilələrin Azərbaycanla bağlı maddələri haqqında ətraflı məlumat bu əsərində XVIII əsrin 30-40-cı illərində Rusiya-Azərbaycan iqtisadi əlaqələrinə aid bir sıra maraqlı fakt və məlumatlar vardır. Lakin onların bir çoxunun Fuad Əliyevin 1975-ci ildə çap etdirdiyi kitabı ilə eyniyyət daşıdığını qeyd etmək lazımdır. Müəllif tək-tək şəxslərin, müəyyən qrupların himayə üçün Rusiyaya müracıət etmələri faktları əsasında guya Azərbaycan əhalisinin əksəriyyətinin Rusiyaya meyil etməsi barədə yanlış nəticə çıxarır.

XVIII əsrin birinci yarısı Azərbaycan tarixinin tədqiq olunduğu mühüm əsərlərdən Süleyman Məmmədovun XVII əsrin ikinci yarısı - XVIII əsrin birinci otuzilliyində Azərbaycan və erməni xalqlarının tarixi əlaqələrinə həsr olunmuş əsəridir. Bu əsərin ən böyük dəyəri müəllifin rus, Azərbaycan və erməni dilli mənbələrdən və elmi-tədqiqat əsərlərindən istfadə etməsindədir. Əsərdə Azərbaycanın xarici ticarətinə dair xeyli fakt və rəqəmlərin verilməsi diqqəti cəlb edir. Azərbaycan xalqının xarici hərbi müdaxiləyə qarşı müqavimətini işıqlandıran müəllif, Gəncənin müsəlman feodalları ilə onların vassalları olan Qarabağın dağlıq hissəsindəki alban soyköklü xırda irsi feodallar arasında qarşılıqlı hərbi yardım haqqında razılığın əldə edilməsinə xeyli yer ayırmışdır.[2] Təəssüf ki, bu zaman müəllif

---

[1] Фуад Алиев. Азербайджано-русские отношения. ч. 1 (XV-XVIII вв.), Баку: Элм, 1985.

[2] Сулейман Мамедов. Исторические связи азербайджанского и армянского народов ( вторая II половина XVII-первой трети XVIII вв.), Баку: Элм, 1977, с.173-175.

dövrün tələblərinə uyğun hərəkət edərək yalançı beynəlmiləlçilik mövqeyindən çıxış etmiş, üstəlik erməni tarixçisi P.Arutunyanın məlum kitabının təsiri altına düşərək Qarabağın dağlıq hissəsində yaşayan bir qrup alban soyköklü xristian feodalın qiyamçı hərəkətlərini "erməni xalqının azadlıq mübarizəsi" kimi təqdim etməyə çalışmışdır.

Tofiq Mustafayevin (1993-cü ildən Mustafazadə) "XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi" (Bakı:1986) adlı əsərində adından göründüyü kimi öyrənilən dövrdə Azərbaycanda Rusiyaya meylin yaranması və "güclənməsi" prosesi işıqlandırılmışdır. T.Mustafayev də dövrün tələblərindən çıxış edərək ölkənin ağır durumunda qüdrətli xarici dövlətin himayəsini axtaran müəyyən qrupların arzusunu xalqın əksəriyyətinin arzusu kimi qələmə verməyə çalışmışdır. Həm də əsərdə Rusiyaya meyil mütərəqqi bir hal kimi qiymətləndirildiyi halda, Osmanlı dövlətinə meyil mənfi hal kimi səciyyələndirilmişdir. Müəllif Azərbaycanın Rusiya tərəfindən işğalı kimi mürtəce bir aktı "Azərbaycan xalqının tarixi seçimi" kimi qiymətləndirərək, guya bunun Azərbaycan xalqının yeganə qurtuluş yolu olduğunu "isbatlamağa" çalışmışdır.[1]

Təxminən eyni vaxtda işıq üzü görmüş Leyla Yunusovanın əsərində [2] İngiltərənin Xəzər hövzəsində ticarət ekspansiyası tədqiq olunmuşdur. Müəllif qeyd edir ki, 1734-cü ildə Rusiya ərazisi vasitəsilə Azərbaycan və İranla tranzit ticarət hüququ alan ingilislər XVIII əsrin 40-cı illərində regionda ticarət əməliyyatlarını genişləndirmişlər.

L.Yunusova ilk mənbələrə əsaslanaraq Azərbaycanın XVIII əsrin 30-40-cı illərində alovlanan ingilis-rus rəqabətinin mərkəzlərindən biri olduğunu yazır. [3] Müəllifin fikrincə, Azərbaycan Rusiyanın şərqlə ticarətində mühüm rol oynayırdı. O

---

[1] Tofiq Mustafayev. XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi. Bakı: Eim,1986, s.88.

[2] Лейла Юнусова. Торговая экспансия Англии в бассейне Каспия в первой половине XVIII века. Баку:Элм,1988

[3] A.k. əsər,s.160

öz təbii sərvətləri ilə, burada istehsal olunan xam ipəklə, həm də ingilis sənayesinin manufaktura məhsulları üçün satış bazarı kimi, həm də strateji mövqeyi ilə ingilislərin diqqətini cəlb edirdi. Onlar burada möhkəmlənməklə Rusiyanın cənuba genişlənməsinin qarşısını ala biləcəklərini, Azərbaycan ərazisindən platsdarm kimi istifadə edərək qonşu ölkələrə nüfuz edə biləcəklərini düşünürdülər.

L.Yunusovanın fikrincə, ingilis malları rus mallarından daha ucuz və daha keyfiyyətli olduğuna görə, daha varlı və bacarıqlı ingilis tacirləri rus tacirləri ilə rəqabətdə əlçatmaz idilər ki, bu da Rusiya hökumətini qorxudurdu. Rusiya hökuməti bu halı özünün regiondakı maraqları üçün təhlükə hesab edirdi. İngilislər də öz növbəsində Xəzər regionunda real hərbi-siyasi qüvvələri olmadığından Nadir şah Əfşarı Rusiyaya qarşı qoymaq qərarına gəldilər. İngilislərin "Rus kampaniyası"nın agentləri Con Elton və başqaları nəinki Şahı Rusiyaya qarşı müharibəyə təhrik edir, baş verəcək müharibədə yardım göstərəcəklərini də vəd edir, üstəlik Xəzərdə Şah üçün donanma yaradılmasında hərtərəfli yardım göstərirdilər. İrəlidə Fuad Əliyevin məlum əsərində Eltonun Xəzərdə donanma yaratmaq sahəsində göstərdiyi fəaliyyətini müəyyən dərəcədə işıqlandırdığını qeyd etmişdik. L.Yunusova Eltonun fəaliyyətini daha geniş işıqlandırmış, bu məsələ ilə bağlı bir çox yeni faktları və mənbələri elmi dövriyyəyə gətirmişdir.

Sonda müəllif İngiltərənin Rusiya ilə Xəzər hövzəsində rəqabətdə məğlubiyyətə uğraması və İngiltərənin ticarət-müstəmləkə ekspansiyasının iflas etməsi nəticəsinə gəlir. L.Yunusovanın ingilislərin Xəzər hövzəsində möhkəmlənmək cəhdlərini hər məqamı gələndə pisləyib ekspansiya adlandırdığı halda, rusların analoji hərəkətlərinə bəraət qazandırması yumşaq söyləsək təəccüb doğurur.

1989-cu ildə Gövhər Məmmədova XVIII əsrdə rus konsullarının Azərbaycan haqqında yazılarının təhlil olunduğu

bir kitab çap etdirmişdir.[1] Kitabda İrandakı Rusiya konsullarının məlumatları, raportları, gündəlikləri, qeydləri, məktubları əsasında Azərbaycanın XVIII əsrin 20-60-cı illəri tarixi tədqiq olunur. Müəllif bir sıra sənədləri, o, cümlədən konsul Avramovun "jurnalı", 30-40-cı illərdə Azərbaycanda xalq hərəkatı haqqında məlumatları ilk dəfə elmi-tədqiqata cəlb etmişdir. G.Məmmədova belə bir maraqlı mülahizə irəli sürür ki, XVIII əsrin 40-cı illərindən başlayaraq ingilis tacirlərinin İran bazarına doluşması, Nadir şah imperiyası daxilində üsyanların baş verməsi Gilanda rus ticarətinin zəifləməsinə səbəb olduğundan Rəştdəki rus konsulu İ.Bakunin konsulluğun Bakıya köçürülməsini təklif etmişdir.[2]

Təxminən eyni vaxtda işıq üzü görmüş Camal Mustafayevin məlum əsərində[3] XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın şimal xanlıqları ilə Rusiya arasındakı münasibətlər araşdırılmışdır. Əsərdə V.Zubovun başçılıq etdiyi rus qoşunlarının Azərbaycana yürüşü və yerli əhalinin bu yürüşə münasibəti nisbətən geniş əks olunmuşdur. Lakin sovet dövrünün ənənələrinə sadiq qalan müəllif Azərbaycan əhalisinin bu yürüşə guya müsbət münasibət göstərdiyini vurğulamışdır.

Həsənbala Sadıqovun 1991-ci ilin sonunda, yəni SSRİ-nin dağıldığı dövrdə nəşr etdirdiyi kitabında[4] bütün Cənubi Qafqazla birlikdə Azərbaycanın da XVIII-XIX əsrin əvvəllərində Rusiya-Osmanlı münasibətlərində tutduğu yer araşdırılmışdır. Müəllif sovet dövründəki ənənəni qıraraq Rusiyanın Cənubi Qafqaza münasibətdə yürütdüyü siyasətin işğalçı mahiyyətini açmağa çalışmışdır.

---

[1] Гевхар Мамедова. Русские консулы об Азербайджане (20-60-е годы XVIII века). Баку: Елм, 1989.

[2] A. k. əsər,s. 26-27.

[3] Джамал Мустафаев. Северные ханства Азербайджана и Россия ( конец XVIII –нач.XIX в.).Баку:1989.

[4] Həsənbala Sadıqov. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829-cu illər).Bakı:1991

2004-cü ildə çıxan digər, daha samballı əsərində[1] H.Sadıqov tədqiqatın əsas ağırlığını XIX əsrin birinci otuzilliyinə salmışdır. Kitabda diqqəti çəkən məziyyətlərdən biri müəllifin Rusiya, İngiltərə və Fransanın şərq diplomatiyasında Azərbaycanın yerini yeni yanaşmaya uyğun tərzdə müəyyənləşdirməyə çalışmasıdır. Əsərin ikinci müsbət xüsusiyyəti müəllifin Avropa, qismən də Türkiyə tarixşünaslığında yayılmış təhlil metodlarından geniş istifadə etməsi, tarixşünaslığımıza bir sıra yeni terminlər gətirilməsidir. Lakin müəllifin kitabın nəşr olunması ərəfəsindəki son on beş ildə Azərbaycanda bu problemlə bağlı nəşr olunan tədqiqatlardan istifadə etməməsi təəssüf doğurur.

XVIII-XIX əsrin əvvəllərində Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinə həsr olunmuş tədqiqat əsərlərindən biri Hüseyn Rəhimovun dissertasiya işidir.[2] Təəssüf ki, müəllif mövzu ilə bağlı mənbələrin çoxunu tədqiqata cəlb etməmiş, mövzuya aid əsərlərin heç də hamısı ilə tanış olmamışdır. Məsələn, Rəhimov iddia edir ki, ona qədər XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəlləri Rusiya-İran və Rusiya-Osmanlı münasibətlərində Azərbaycanın yeri məsələsi xüsusi tədqiqat obyekti olmamışdır.[3] Bu mövzuyla bağlı təkcə S.Hacıyevanın və H.Sadıqovun əsərlərinin adlarını xatırlamaq kifayətdir ki, müəllifin yanıldığı sübut olunsun. Digər tərəfdən H.Rəhimov arxivlərdən geniş istifadə etdiyini yazsa da, buna inanmaq çətindir. Çünki Rəhimov da Fuad Əliyev kimi Rusiya Dövlət Hərbi-Tarıx Arxivindəki “Voyenno-uçenıy Arxiv” fondunun adını yanlış olaraq “Voyenno-uçetnıy arxiv” kimi yazmışdır.

H.Rəhimovun əsərində H. Abdullayevin məlum kitabları ilə müqayisədə yeni faktlar və mülahizələr tapmaq çətindir. Burada bir sıra yanlışlıqlara da yol verilmişdir. Nəhayət, müəllif

---

[1] Həsənbala Sadıqov. Azərbaycan Avropa dövlətlərinin diplomatiyasında (1747-1829).Bakı:2004

[2] Гусейн Рагимов. Отношения между азербайджанскими ханствами и Россией во второй половине XVIII -начале XIX вв. АКД.Москва:1994

[2] A. k. əsər,s. 26-27.

[3] A. k. əsər, s.3.

Rusiyanın Azərbaycana münasibətdə yürütdüyü müstəmləkəçilik siyasətini səciyyələndirən bir cümlə belə işlətməmişdir. Bu tip nöqsanları H.Rəhimovun dissertasiya işini Moskva şəhərində müdafiə etməsi ilə izah etmək olar.

Hüseyn Rəhimovun digər əsərində[1] Azərbaycan xanlarının Osmanlı imperiyası, Rusiya və İranla siyasi və diplomatik münasibətləri işıqlandırılmışdır. Müəllif xanlıqların beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirməyə çalışmışdır. Əsərdə həmçinin XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Cənubi Qafqazda siyasi vəziyyət təsvir olunmuş, əsas regional oyunçuların siyasi və iqtisadi maraqları açılıb göstərilmişdir.

Dağıstan tarixçisi Nadirpaşa Sotavovun əsərində[2] I Pyotrun Xəzəryanı ərazilərə hücumu da öz əksini tapmışdır. Müəllif bu yürüşdə Pyotrun əsas məqsədinin Şimali və Cənubi Qafqazı öz imperiyasına birləşdirməkdən ibarət olduğunu yazır. Sotavovun kitabında XVIII əsrin ilk 70 ilində Rusiya-Osmanlı münasibətləri tədqiq olunmuşdur.[3]

XX əsrin 60-cı illərindən başlayaraq ayrı-ayrı xanlıqların tarixinə həsr olunmuş tədqiqatlar meydana çıxmışdır. Həmin tədqiqatların hər birində tədqiqat obyekti olan xanlığın qonşu iri dövlətlərlə münasibətləri işıqlandırılmışdır. Bu cür əsərlərdən danışarkən ilk növbədə Hüseyn Dəlilinin Urmiya xanlığının tarixinə həsr olunmuş və 1967-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyasını qeyd etmək olar. Müəllif ilk dəfə olaraq Azərbaycan xanlıqları içərisində mühüm rol oynamış olan Urmiya xanlığının tarixini tədqiq etməklə yanaşı, Urmiya xanlarının Rusiya və Osmanlı imperiyası ilə münasibətlərinə dair müəyyən məlumatlar vermişdir.

---

[1] Гусейн Рагимли. Азербайджанские ханства в дипломатических отношениях Турции, России и Ирана во второй половине XVIII-начале XIX века Баку: ИПО Турхан, 2018.

[2] Надирпаша Сотавов. Северный Кавказ в русско-иранских и русско-турецких отнощениях XVIII века. От Константинопольского договора до Кучюк Кайнарджийского мира 1700-1774 гг. Москва: 1991.

[3] A. k. əsər, s.63

XVIII əsrdə qonşu dövlətlər və Azərbaycan mövzusuna bir sıra xarici ölkələrin tarixşünaslığında da bu və ya digər dərəcədə toxunulmuşdur. Müasir Türkiyə tarixçilərinin əsərlərindən ilk növbədə İsmayıl Həkki Uzunçarşılının çoxcildli "Osmanlı tarihi" əsərininin dördüncü cildini [1] qeyd etmək lazımdır. Bu cilddə 1723-1735-ci illərdə Azərbaycanda osmanlı hakimiyyəti və Xəzəryanı hövzədə Osmanlı-Rusiya rəqabəti məsələləri yığcam şəkildə şərh olunmuşdur.

Munir Aktepe Mehmet Emni bəyin Rusiya elçiliyinə həsr etdiyi əsərində [2] XVIII əsrin 20-30-cu illərində Xəzəryanı regionda Rusiya-Osmanlı rəqabəti məsələsinə toxunarkən belə bir maraqlı mülahizə irəli sürür ki, 1735-1739-cu illər Rusiya-Osmanlı müharibəsi Polşa məsələsi və Krım tatarlarının rus ordusunun nəzarəti altında olan yerlərdən Qafqaza keçməsinə görə başlamışdır. Müəllif qeyd edir ki, 1724-cü il Rusiya-Osmanlı müqaviləsinin bağlanmasına baxmayaraq o zaman Rusiya-Osmanlı ziddiyyətləri yumşalmamış, yalnız pərdələnmiş forma almışdır. Osmanlı sultanı I Mahmudun hakimiyyətinin əvvəllərində Osmanlı Dövlətinin İran və Azərbaycanda üzləşdiyi uğursuzluqlarla əlaqədar bu ziddiyyətlər yenidən ön plana çıxmışdır.[3]

Türkiyə alimi Camal Gökçənin əsəri Osmanlı imperiyasının 1774-1829-cu illərdə yürütdüyü Qafqaz siyasətinə həsr olunmuşdur.[4]

XVIII-XIX əsrin əvvəllərində Azərbaycanla qonşu dövlətlər arasında münasibətlər mövzusuna Qərbi Avropa tarixşünaslığında da müəyyən dərəcədə toxunulur. İlk növbədə bunu qeyd etmək lazımdır ki, istifadə etdikləri İran mənbələrinin təsiri altına düşən Qərbi Avropa müəllifləri də Azərbaycan

---

[1] İsmail Hakkı Uzunçarşılı.Osmanlı tarihi.IV cild.Ankara:1956.

[2] M.Munir Aktepe. Mehmet Emni Beyefendinin Rusya sefareti ve sefaretnamesi. Ankara: 1974

[3] A. k. əsər, s.4.

[4] Cemal Gökçe. Kafkasya ve Osmanlı imparatorluğunun Kafkasya siyaseti.. ( Doktora tezi). İstanbul:1973.

ərazilərini İranın bir hissəsi, Azərbaycan hökmdarları və sərkərdələrini İran hökmdarları və sərkərdələri kimi təqdim etmişlər və təqdim etməkdə davam edirlər.

Hələ XIX əsrin əvvəllərində V. Berqman I Pyotra xüsusi, iri həcmli bir əsər[1] həsr etmişdir. Bu əsərdə Pyotrun Xəzəryanı vilayətlərə hərbi yürüşü haqqında çox qısa məlumat verilmiş, və müəllif demək olar ki, bu mövzu ilə bağlı o zamankı Rusiya tarixşünalığında olan faktları təkrarlamışdır.

Öyrəndiyimiz problemin az və ya çox dərəcədə əks olunduğu ilk Qərbi Avropa müəlliflərinin əsərlərindən danışarkən birinci növbədə alman alimi İosif Hammerin çoxcildli "Osmanlı tarixi"[2] əsərini qeyd etmək lazımdır. Əsərin VII və VIII cildlərində Azərbaycandakı osmanlı hakimiyyəti və Nadir şah Əfşarın hakimiyyəti dövrünə aid Osmanlı mənbələrindən alınmış xeyli maraqlı məlumatlar var.

İngilis tarixçisi Ser Peri Sayks özünün "İran tarixi" adlı əsərində[3] bir sıra məsəsələrlə yanaşı Nadir Əfşarın hakimiyyət zirvəsinə yüksəlişi, Osmanlı qoşunlarını Azərbaycan və İran ərazilərindən qovması, Rusiyanın işğal etdiyi Bakı və Dərbəndi 1735-ci ildə Şahlıq səltənətinə təslim etməsi haqqında məlumatlar verilir.

Digər ingilis tarixçisi Lourens Lokhartın iki samballı əsəri üzərində ayrıca dayanmaq lazımdır. 1940-cı ildə nəşr oluhmuş birinci kitab[4] Nadir şahın həyat və fəaliyyətinə həsr olunmuşdur. Bu əsərin çox müsbət cəhəti müəllifin Qərbi Avropa mənbələri ilə yanaşı, Şərq mənbələrindən və hətta bir sıra Rusiya mənbələrindən bəhrələnməsidir. Səfəvi mirası uğrunda Osmanlı-Rusiya münaqişəsində Fransanın mövqeyini əsasən düzgün

---

[1] В.Бергман. История Петра Великого.Т. 5 (Пер. с немецкого А. Аладыш). СПб:1844.

[2]Josef Hammer Purqstale. Geshite der Osmanishen Reishes. Gras (Austria): 1963,vol.7,part.2.

[3] Ser Peri Sayks. Tarix-e İran. C.II, Tehran:1381( mil:2002).

[4] Laurence Lockhart. Nadir Shah. A critical study based mainly upon contemporary sources. London:1940.

qiymətləndirən müəllif yazır ki, Fransa Osmanlı imperiyası ilə Rusiya arasında hərbi əməliyyatların alovlanmasına yol verməmək üçün əlindən gələni edirdi. Fransa əzəli düşməni Avstriyaya qarşı mübarizədə istifadə edə bilməsi üçün Osmanlı imperiyasının Rusiyaya qarşı müharibəyə girib qüvvəsini tükəndirməsini istəmirdi. [1] Lokhartın əsərində bəzi yanlış mülahizələrə də rast gəlmək mümkündür. I Pyotrun Xəzəryanı vilayətlərdən müsəlman əhalini köçürüb yerinə xristianları yerləşdirmək kimi mənfur müstəmləkəçi planını o, "Gürcüstanın və Ermənistanın (o zaman olmayan ölkənin-T.M.) xristian əhalisinə yardım" məqsədi güdən "qayda"nın, "humanizmin təzahürü" kimi qələmə verməyə çalışmışdır.

İngilis tarixçisi Jon F.Chance iri həcmli bir məqaləsində XVIII əsrin 20-ci illərində Rusiya-Osmanlı münaqişəsində Fransanın mövqeyini düzgün qiymətləndirərək yazırdı ki, Fransanın siyasəti Türkiyə zəifləməsin və Avstriyaya qarşı dura bilsin deyə iki dövlət arasında sülhü saxlamağa çalışmaqdan ibarət olmuşdur.[2]

J.Yakobun almanca yazılmış və 1945-ci ildə Bazeldə nəşr olunmuş əsərində [3] 1718-1727-ci illərdə İngiltərə, Rusiya və Osmanlı imperiyası arasında münasibərlər işıqlandırılmışdır. Bu əsərdə Osmanlı-Rusiya münaqişəsinin dərinləşməsində İngiltərənin rolu öyrənilir. Yakob eyni zamanda bu münaqişədə Fransanın rolunu düzgün qiymətləndirərək, İstanbuldakı Fransa səfiri Markiz de Bonakın Rusiya-Osmanlı münasibətlərindəki gərginliyi azaltmağa çalışdığını yazır.[4]

Əslən rus olub Avropaya mühacirət etmiş Vladimir Minorski "Nadir şahın tarixçəsi"[5] adlı əsərində Nadirin təvəllüdü, mənşəyi,

---

[1] A. k. əsər,s.219.
[2] John F. Chance. George I and Peter the Great after the peace of Nishatd. The English Historical review.Vol.XXVI, No.2/102,p.191.
[3] J.Yakob.Reziehuden England zu Rusland and zur Turkei den Zahren 1718-1727. Bazel: 1945
[4] A. k. əsər, s.75.
[5] V.Minorsky.Esquissed une der Nadir shah. Paris,1934

gəncliyi, hakimiyyət zirvəsinə yolu, hərbi yürüşləri və qətli barədə ətraflı məlumar verir. Müəllif I Pyotrun Xəzəryanı regiona yürüşünü, Xəzər hövzəsində Rusiya-Osmanlı rəqabətini işqlandırmış, 1722-1735-ci illərdə Rusiya və Osmanlının işğalı altında olan Azərbaycan torpaqlarında durumu tədqiq etmişdir. Əsərin ən mühüm elmi yeniliyi müəllifin özündən əvvəlki müəlliflərdən fərqli olaraq hadisələri dərindən təhlil edib qiymətləndirməyə çalışmasındadır.[1]

Azərbaycan yenidən müstəqllik qazandıqdan sonra onun tarixinə diqqət daha çox artmış, tarixə baxışlarda köklü dəyişikliklər baş vermişdir.

Tofiq Mustafazadə 1993-cü ildə işıq üzü görmüş "Azərbaycan XVIII əsrin birinci qərinəsində rus-türk münasibətlərində" adlı monoqrafiyasında[2] Rusiya və Türkiyə arxivlərində uzun illər ərzində topladığı materiallar əsasında Xəzəryanı regionda Rusiya-Osmanlı rəqabətini dərindən və ətraflı araşdırmışdır. Əsərdə Rusiya və Osmanlı imperiyalarının siyasətində Azərbaycanın yeri öyrənilmiş, rəqabət aparan tərəflərin qüvvələr nisbəti müqayisə edilmişdir. Müəllif sənədlər əsasında sovet tarixşünaslığında kök salmış belə fikri təkzib edir ki, Səfəvi dövlətinin ərazisini ilk növbədə Osmanlı imperiyası zəbt etməyə çalışmış, guya Rusiya yalnız rəqibini Xəzər sahillərinə buraxmamaq üçün regiona qoşun yeritmişdir. T.Mustafazadə sübut edir ki, hər iki imperiya bir-birindən asılı olmayaraq Cənubi Qafqazı ələ keçirməyi planlaşdırmışdı. "Türkiyə təhlükəsi" buranı zəbt etmək üçün Rusiyanın əlində yalnız bir bəhanə olmuşdur.[3]

Müəllif I Pyotrun Xəzəryanı regiona yürüşü və 1722-1723-cü illərdə rus-türk münasibətlərinin kəskinləşməsini tədqiq etmişdir.

---

[1] Yenə orada,s. 51.

[2] Tofiq Mustafazadə. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləi.Bakı: Elm, 2002.

[3] Тофиг Мустафазаде . Азербайджан и русско-турецкие отношения в Прикаспийском регионе в первой трети XVIII века. Баку: Элм,1993, сс.29-38.

O, bu yürüşlə bağlı tarixi ədəbiyyatda zəif işıqlandırılmış bəzi məqamlara aydınlıq gətirmişdir. Məsələn, tarixşünaslıqda ilk dəfə olaraq I Pyotr Dərbəndə yaxınlaşarkən bu şəhərdə rus ordusuna müqavimət göstərmək cəhdi haqqında məlumat verir. Digər yenilik bundan ibarətdir ki, adətən tarixşünaslıqda I Pyotrun Dərbənddən Rusiyaya döndüyü yazılırdı. T.Mustafazadə isə I Pyotrun Dərbənddən cənuba-Bakıya doğru hərəkət etdiyini, Mollakənd yaxınlığındakı düşərgədə Rusiyaya dönmək haqqında qərar qəbul etdiyini, əvvəlcə Dərbəndə, oradan da Rusiyaya döndüyünü qeyd edir. Bu zaman Rusiya ordusunun öncül hissələri Samurdan cənubda yerləşən Müşkür mahalını belə zəbt etmişdi. [1] T.Mustafazadənin adı keçən monoqrafiyasının ən başlıca yeniliklərindən birini 1722-1724-cü illərdə İstanbulda Rusiya nümayəndəsi İvan Neplyuyevlə Osmanlı rəsmiləri arasında danışıqları, İ.Neplyuyevin məruzə, məlumat və qeydlərini və bir sıra digər sənədləri tədqiqata cəlb etməklə təfərrüatı ilə işıqlandıraraq təhlil etməsi olmuşdur. O, bu danışıqlarda ən çox Azərbaycan əraziləri ilə bağlı mübahisələrin yarandığını göstərmişdir. Müəllif qeyd edir ki, özünü "xristianların müdafiəçisi" kimi təqdim edən Rusiya çarı xristian Gürcüstanının Osmanlının hakimiyyəti altına keçməsi ilə asanlıqla barışsa da, yalnız müsəlmanların yaşadığı Xəzəryanı ərazilər uğrunda Osmanlı ilə müharibəyə girməyə belə razı idi.[2]

İstanbul müqaviləsinin şərtlərini şərh edən müəllif həmin müqaviləni "özgə torpaqlarını bölüşdürmək haqqında sövdələşmə" kimi xarakterizə edir. Qeyd olunur ki, İstanbul müqaviləsinin bağlanması tərəflərin əl-qolunu açdı və onlar Səfəvi ərazilərini zəbt etmək işini daha qətiyyətlə və arxayın davam etdirdilər.

Təhlil olunan kitabın bir fəsli Osmanlı hakimiyyəti altında olan Azərbaycan ərazilərinin, digər fəsli isə Rusiya işğalı altında olan Xəzəryanı vilayətlərin vəziyyətinə həsr edilmişdir. Rus

---

[1]Тофиг Мустафазаде . Азербайджан и русско-турецкие отношения,с.46.
[2]Yenə orada, s.78-86.

hakimiyyətinin ələ keçirilən ərazilərin Rusiyanın xammal əlavəsi və satış bazarına çevirmək üçün gördüyü və görmək istədiyi tədbirlərdən bəhs edilir, I Pyotrun Xəzəryanı vilayətlərdə demoqrafik durumu Rusiyanın xeyrinə dəyişmək, müsəlman əhalini buradan köçürüb yerinə xristianları yerləşdirmək cəhdləri haqqında çoxlu yeni faktlar verilir.

T.Mustafazadə XVIII əsrin 20-ci illərinin sonu-30-cu illərinin birinci yarısında Xəzər hövzəsində Rusiya-Osmanlı, Rusiya-Səfəvi və Osmanlı-Səfəvi rəqabətini ətraflı araşdırmış, 1724-cü il İstanbul müqaviləsinin Rusiya-Osmanlı münasibətlərindəki ziddiyyəti aradan qaldırmadığını, yalnız qısa müddətə yumşaltdığını faktlarla sübut etmişdir. İndi osmanlılara qarşı açıq çıxış etmək imkanına malik olmayan ruslar Cənubi Qafqazın xristian əhalisini Osmanlılara qarşı təhrik etmək taktikası tətbiq edirdilər.

Daha sonra əsrin 20-ci illərinin ortalarında Nadir xan Əfşarın başçılığı ilə yenidən dirçələn Şahlıq dövlətinin Azərbaycanda möhkəmlənərək Rusiya və Osmanlı imperiyasını regiondan sıxışdırmağa başladığını qeyd edən müəllif yazır ki, məsafə uzaqlığından və ökənin daxili siyasi gərginliyi səbəbindən Xəzər hövzəsində fəal siyasət yürüdə bilməyən I Pyotrun xələfləri yeni ələ keçirilmiş əraziləri Rusiya üçün əlverişli şərtlərlə geri qaytardılar. 1732-ci ilin yanvarında imzalanmış Rəşt müqaviləsinə görə Kür çayından cənubda yerləşən Xəzəryanı ərazilər güzəştə gedildi, əvəzində isə rus tacirləri Şahlıq dövləti ərazisində gömrük rüsumu ödəmədən icarət etmək hüququ və bir sıra digər imtiyazlar əldə etdilər. T.Mustafazadə tarixşünaslıqda ilk dəfə olaraq Gəncə müqaviləsinin Osmanlı dövlətinə qarşı yönəlməsi məsələsinə diqqəti cəlb edir.

Əsərdə verilən belə bir maraqlı fakt da diqqəti cəlb edir: Öz qüvvəsi ilə Nadirin təzyiqinin qarşısını ala bilməyən Osmanlı hökuməti Krım xanına Cənubi Qafqaza gəlməsi barədə göstəriş vermiş, Krım tatarlarının yolu Rusiyaya məxsus ərazilərdən keçdiyinə görə rus hərbi dəstələrinin müqaviməti ilə üzləşmişdi. Bu və bir sıra digər faktlara əsaslanan T. Mustafazadə belə bir

nəticəyə gəlmişdir ki, 1735-1739-cu illər Rusiya-Osmanlı müharibəsinin başlanmasında Xəzəryanı regionda Rusiya-Osmanlı münasibətlərinin kəskinləşməsinin də müəyyən rolu olmuşdur.

Tofiq Mustafazadənin başqa bir monoqrafiyası ayrıca olaraq XVIII-XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətlərinə həsr olunmuşdur. Sovet dönəmində Osmanlı-Azərbaycan münasibətlərinin öyrənilməsinə qeyri-rəsmi olaraq qadağa qoyulduğundan bu mövzuya həsr olunmuş monoqrafiyanın nəşri müsbət hadisə idi. Müəllif mövzunu dərindən və hərtərəfli tədqiq etmək üçün Rusiya və Türkiyə arxivlərində saxlanan sənədlərin bir çoxuna Azərbaycan tarixçiləri içərisində ilk dəfə müraciət etmişdir.

XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin faktiki süqutu ilə əlaqədar Osmanlı dövlətinin Qafqaz siyasətinin fəallaşması, Rusiya çarı I Pyotrun Xəzəryanı ərazilərə həmləsinə Osmanlı sarayının münasibəti, 1724-cü il İstanbul müqaviləsində Azərbaycanın yeri, müvəqqəti osmanlı hakimiyyəti dövründə Azərbaycanın vəziyyəti, XVIII əsrin ikinci rübündə Xəzəryanı regionda Rusiya-Osmanlı və Osmanlı-Əfşar rəqabəti kimi məsələlər əsərdə ətraflı tədqiq olunmuşdur.

Səidə Hacıyevanın 2004-cü ildə nəşr olunmuş əsəri [1] Rusiyanın XVIII əsrin II yarısında yürütdüyü şərq siyasətində Azərbaycanın yerininin müəyyənləşdirilməsinə həsr olunmuşdur.

Güntəkin Nəcəflinin 2002-ci ildə nəşr olunmuş əsərində[2] Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri araşdırılmışdır.

Güntəkin Nəcəflinin 2007-ci ildə çap etdirdiyi digər

---

[1] Саида Гаджиева. Азербайджан во внешней политике правительства Екатерины II.Баку: Елм,
2004

[2] Güntəkin Nəcəfli. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı: Nurlan,2012

kitabında [1] Rusiya hakim dairələrinin şərq siyasətini reallaşdırmaq prosesində Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması üçün təşəbbüslər və onun nəticələri araşdırılmışdır.

XVIII-XIX əsrin əvvəllərində Azərbaycan tarixinin müxtəlif problemlərinə, ilk növbədə ayrı-ayrı xanlıqların tarixinə həsr olunmuş əsərlərdə də öyrəndiyimiz mövzuya bu və ya digər dərəcədə toxunulmuşdur. Fuad Əliyevin M.Əliyevlə birgə yazdığı "Naxçıvan xanlığı" kitabında bu xanlığın qonşu dövlətlərlə münasibətlərinə, Fuad Əliyevin Urfan Həsənovla birgə yazdığı "İrəvan xanlığı" əsərində adı keçən xanlığın qonşu dövlətlərlə münasibətlərinə müəyyən yer verilmişdir. Yalçın Ağamalının əsərində[2] isə Qarabağ xanlığının qonşu dövlətlərlə münasibətlərinə qısa şəkildə toxunulmuşdur. Elgün Babayevin 2003-cü ildə nəşr olunmuş kitabında[3] Gəncə xanlığnın qonşu dövlətlərlə münasibətlərinə geniş yer ayrılmışdır.

İradə Məmmədovanın 2007-ci ildə nəşr edilmiş əsərində[4] Birinci Rusiya-Qacar müharibəsi dövründə Lənkəran xanlığının Rusiya və Qacarlar İranı ilə münasibətləri tədqiq olunmuşdur. Fəxri Abasovun həmin ildə Qarabağ xanlığının tarixinə həsr etdiyi əsərində [5] bu xanlığın Rusiya ilə münasibətlərinə də müəyyən yer ayrılmışdır.

Tofiq Mustafazadənin Quba xanlığına həsr olunmuş monoqrafiyasında bu xanlığın Rusiya və Osmanlı dövləti ilə münasibətlərinə xeyli yer ayrılmışdır.[6] Müəllifin 2010-cu ildə

---

[1] Güntəkin Nəcəfli. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı:2007

[2] Yalçın Ağamalı. Qarabağ xanlığının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri. Bakı: Azərbaycan
Ensiklopediyası,1998.

[3] Эльгюн Бабаев. Из истории Гянджинского ханства. Баку:Нурлан, 2003.

[4] İradə Məmmədova. Lənkəran xanlığı I Rusiya-İran müharibəsi dövründə. Bakı: Elm,2007.

[5] Фахри Абасов. Карабахское ханство.Баку: Тахсил,2007.

[6] Tofiq Mustafazadə. Quba xanlığı. Bakı: Elm, 2005.

Qarabağ xanlığına həsr etdiyi kitabında[1] Qarabağ xanlığının Rusiya, Osmanlı imperiyası və Qacarlar İranı ilə münasibətləri müəyyən dərəcədə tədqiq olunmuşdur.

T.Mustafazadə daha sonra XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətlərinə sanballı bir monoqrafiya[2] həsr etmişdir. Kitabda çoxu tədqiqata ilk dəfə cəlb edilən arxiv sənədləri əsasında Azərbaycan xanlıqlarının Rusiya ilə münasibətləri kompleks halında tədqiq olunub. Müstəqil Azərbaycan xanlıqlarının yaranmasına Rusiyanın münasibəti, XVIII əsrin ikinci yarısında Azərbaycan-Rusiya ticarəti, XVIII əsrin 70-80-ci illərində Azərbaycan xanlıqlarının Rusiya ilə siyasi münasibətləri, əsrin 90-cı illərində Rusiyanın Azərbaycanı işğal etmək cəhdi, XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətləri və Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması kimi məsələlər müəllifin ən çox diqqət yetirdiyi məsələlərdir.

Tofiq Mustafazadə 2021-ci ildə nəşr etdirdiyi digər əsərində[3] XVIII-XIX əsrin əvvəllərində böyük qonşu dövlətlərin Azərbaycan siyasəti, əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının beynəlxalq əlaqələri məsələlərinə də müəyyən yer vermişdir. Eyni müəllif yaxın dövrdə çap etdirdiyi digər bir əsərində[4] XVIII əsrin ikinci rübündə Xəzəryanı regionda beynəlxalq münasibətlər, Nadir Əfşarın Osmanlı imperiyası, Rusiya və Böyük Moğol imperiyası ilə münasibətlərini daha ətraflı tədqiq etmişdir. 2023-cü ildə nəşr etdirdiyi digər bir əsərində isə müəllif Qarabağ xanlığının beynəlxalq əlaqələrini

[1] Tofiq Mustafazadə. Qarabağ xanlığı. Bakı: Sabah,2010.
[2] Tofiq Mustafazadə. Azərbaycan-Rusiya münasibətləri (XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində). Bakı: Şərq-Qərb,2013
[3] Tofiq Mustafazadə. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri.Tarixi oçerklər. Bakı: Avropa, 2021.
[4] Tofiq Mustafazadə.XVIII əsrin II rübündə Xəzəryanı regionda beynəlxalq münasibətlər və Nadir şah Əfşarın diplomatiyası. Bakı:2022

ayrıca işıqlandırmışdır.[1]

Mərziyə İskəndərovanın XVIII-XIX əsrin əvvəllərində Azərbaycan-Rusiya münasibətlərinin tarixşünaslığına həsr etdiyi əsərində[2] Azərbaycan xanlıqlarının Rusiya ilə münasibətlərinin XX əsrin 20-80-ci illərində, yəni sovet dövründə yazılmış əsərlərdə öyrənilməsi vəziyyəti işıqlandırılmışdır.

AMEA A.A.Bakıxanov adına Tarix institutunun o zaman direktoru olan akademik Yaqub Mahmudovun rəhbərliyi ilə hazırlanmış kollektiv monoqrafiyada[3] İrəvan xanlığının Rusiya, Osmanlı dövləti və İranla münasibətləri tədqiq olunmuşdur.

Elçin Qarayevin, Zemfira Hacıyevanın və Nigar Gözəlovanın əsərlərində də tədqiq etdiyimiz mövzunun müəyyən məqamlarına toxunulmuşdur.[4]

Müstəqillik dövründə Azərbaycan tarixçilərinin bütövlükdə tariximizə olduğu kimi XVIII-XIX əsrin əvvəllərində qonşu dövlətlər və Azərbaycan mövzusuna münasibət də dəyişmiş, qonşu dövlətlərin Azərbaycana münasibətdə yürütdüyü siyasətə daha obyektiv qiymət verilmişdir. Bununla bağlı xatırlanan mövzuya həsr olunmuş fundamental tədqiqatların nisbətən az olduğunu da qeyd etməliyik. Həm də yazılan əsərlərin heç də hamısı eyni səviyyədə deyil. Əksər hallarda köhnə stereotiplərdən imtina edilib Rusiyanın mütərəqqi rolu, Türkiyənin, İranın isə yalnız irticaçı rol oynaması haqqında konsepsiyadan imtina edilməsini alqışlamaqla yanaşı bunu təəssüflə qeyd edilməlidir ki,

---

[1] Tofiq Mustafazadə.Qarabağ xanlığı və onun beynəlxalq əlaqələri. Bakı: "Optimist",2023

[2] Марзия Искендерова. Азербайджано-русские отношения XVIII-начала XIX вв. в азербайджанской историографии. Баку: Елм,2009.

[3] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi ( Yaqub Mahmudov, Tofiq Mustafazadə, Güntəkin Nəcəfli və başqaları). Bakı:2009.

[4] Elçin Qarayev. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində.Bakı: 2005; Zemfira Hacıyeva. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı: Təhsil, 2007; Нигяр Гезалова. Вопросы истории Азербайджана в. (На основе сведений англоязычных источников и историографии). Москва: 2010.

indi də bəzi müəlliflər ayrı tərəfə ifrata varırlar. Tarixi faktları nəzərə almadan yeri gəldi-gəlmədi Osmanlı dövlətinin Azərbaycana "qayğı" göstərdiyini vurğulamağa çalışırlar. Təəssüf doğuran digər cəhət budur ki, bir sıra müəlliflər sovet dövründə yazılmış əsərlərin müddəalarını təkzib etmək üçün elə bu kitabların özündə verilmiş fakt və məlumatlarla kifayətlənərək, özləri dövriyyəyə heç bir yeni fakt və məlumat daxil etmirlər.

# I FƏSİL

## XVIII ƏSRİN BİRİNCİ RÜBÜNDƏ AZƏRBAYCAN RUSİYA VƏ OSMANLI İMPERİYALARININ SİYASƏTİNDƏ

### I.1. XVIII əsrin əvvəllərində Azərbaycanın geosiyasi vəziyyəti.

Min illərlə dövlətçilik tarixi olan Azərbaycan çox qədim zamanlardan qonşu, bəzən də uzaq ölkələrlə geniş əlaqələr qurmuşdur, Asiya ilə Avropanın, Şərqlə Qərbin qovuşuğunda yerləşən Qafqaz bərzəxinin çox mühüm şərq hissəsini əhatə etdiyindən həmişə böyük geosiyasi və geoiqtisadi əhəmiyyətə malik olmuşdur.

XVIII yüzilliyin əvvəllərində Azərbaycanın geoiqtisadi və geosiyasi əhəmiyyəti daha da artmışdı. Bu dövrdə ölkəmiz Səfəvi imperiyasının çox mühüm, aparıcı hissəsini təşkil edirdi. XVI əsrin əvvəlində ilk vahid Azərbaycan dövləti kimi yaranmış bu dövlət çox qısa zamanda fəal xarici siyasəti və uğurlu müharibələri sayəsində 3 milyon $km^2$-ə yaxın bir ərazini, bir çox ölkə və vilayətləri əhatə edən dünyanın ən güclü dövlətlərindən birinə çevrilmişdi.

Sonralar, Səfəvilərin o zaman dünyanın ən böyük hərbi gücü olan Osmanlı imperiyası ilə bir neçə onilliklər davam edən qanlı müharibələrinin gedişində Azərbaycan hərb meydanına çevrilib, görünməmiş dağıntılara məruz qaldığından, onun əsas şəhəri Təbriz bir neçə dəfə Osmanlı dövləti tərəfindən işğal olunduğu üçün Səfəvi şahları paytaxtı Təbrizdən əvvəlcə Qəzvinə, daha sonra isə Azərbaycandan xeyli uzağa-İsfahana köçürməyə məcbur oldular.

Azərbaycan imperiyanın inzibati mərkəzi mövqeyini itirsə də, yenə onun aparıcı qüvvəsi olaraq şahların arxalandığı əsas ölkə idi. Qoşunların çox mühüm hissəsini Azərbaycandan toplanmış qüvvələr təşkil edir, əmirlər də daxil olmaqla komanda heyəti demək olar ki, ancaq Azərbaycan türklərindən ibarət idi;

nəinki şah sarayındakı başlıca vəzifələr, eləcə də bütün vilayət hakimlikləri onların əlində idi. İmperiyanın ikinci böyük xalqı farslar yalnız mülki bürokratiya daxilində nisbi çoxluq təşkil edirdilər. Kargüzarlıq işləri onların nəzarəti altında olduğundan rəsmi sənədlər əsasən farsca tərtib olunurdu. Bu isə avropalıların diplomatik yazışmalarında özlərinin də siyasi niyyətlərinə uyğun olaraq dövləti "Persiya" adlandırmalarına səbəb olurdu. Halbuki, süqut etdiyi 1736-cı ilədək bu dövlət rəsmi sənədlərdə Səfəvi, yaxud Qızılbaş dövləti adlanırdı.

Səfəvi dövlətinin əsas ərazi vahidi olan 13 bəylərbəylikdən dördü Azərbaycan ərazisində yerləşirdi: Azərbaycan və ya Təbriz, Qarabağ (Gəncə), Şirvan və Çuxursəd (İrəvan). Ərdəbil və onun ətrafi Səfəvi nəslinin müqqədəs xanəgahı kimi Şah xanədanının irsi mülkü sayıldığından heç bir bəylərbəyliyin tərkibinə daxil edilməyərək şah tərəfindən təyin edilən vəqf mütəvəllisi tərəfindən idarə olunurdu. Xalxal mahalını da adətən şah tərəfindən təyin olunmuş hakimlər idarə edirdilər.[1]

Bəylərbəyliklərdən birinin Azərbaycan adlandırılması, digər bəylərbəyliklərin Azərbaycan coğrafiyasına aid edilməməsi kimi yanlış təsəvvür yarada bilər. Əslində isə məsələ başqa cürdür: 1590-cı ildə Səfəvilərlə Osmanlılar arasında bağlanmış İstanbul sülh müqaviləsinə görə Azərbaycan ərazilərinin çox hissəsi müvəqqəti olaraq Osmanlıların əlinə keçmişdi. Səfəvi hökmdarı Şah I Abbasın göstərişi ilə Səfəvilərin əlində qalmış nisbətən kiçik Azərbaycan ərazisində mərkəzi Təbriz şəhəri olmaqla Azərbaycan bəylərbəyliyi təşkil edilmişdi. Sonralar, digər Azərbaycan əraziləri geri alınarkən onlarda yuxarıda adları çəkilən daha üç bəylərbəylik təşkil olundu, Azərbaycan bəylərbəyliyinin adı isə dəyişilməz qaldı. Coğrafi mənada isə Azərbaycan adı bütün adı çəkilən dörd bəylərbəyliyin və Ərdəbil vəqfinin ərazisini əhatə etməkdə davam edirdi. Buna bariz bir nümunə kimi Rusiyanın İstanbuldakı diplomatik agenti İvan

---

[1] Абульхасан Рахмани. Азербайджан в конце XVI и в XVII вв. (1590-1700). Баку, 1981, с.89.

Neplyuyevin 1723-1724-cü illərdə Osmanlı ordusunun İrəvan, Gəncə vilayətləri ərazilərində hərbi əməliyyatlar aparmasından bəhs edərkən onları Azərbaycan əraziləri kimi qeyd etməsini göstərmək olar. Və ya digər bir nümunə: Məlumdur ki, şah Sultan Huseynin göstərişi ilə 1699-1702-ci illərdə imperiya ərazisində əhalinin siyahıya alınması keçirilmiş, yeni vergi və mükəlləfiyyətlər müəyyənləşdirilmişdi. Sonra yeni qayda əsasında vergilərin toplanmasına başlanmışdı. XVIII əsrin əvvəlarində Albaniya patriarxı olmuş İsa Həsən Cəlal yazır ki, Azərbaycan vilayətinin vəziri Mirzə Tahir Qarabağa gəlib vergilərin toplanmasına nəzarət etməyə başladı.[1] Prinsipcə bir bəylərbəyliyin maliyyə məmurunun digər bəylərbəylikdə vergilərin toplanmasına müdaxilə etməyi mümkünsüzdür. Deməli Azərbaycan bəylərbəyinin Azərbaycan ərazisində yerləşən digər bəylərbəyliklərə nisbətən müəyyən üstün hüququ vardı. Şirvan, Qarabağ (Gəncə), Cuxursəd (İrəvan), Azərbaycan (Təbriz) bəylərbəyliklərinin və Ərdəbil hakimliyinin bir ölkənin hissələri kimi anlaşılmasının nəticəsi idi ki, Nadir şah Əfşar inzibati-ərazi islahatı keçirərkən bütün bu əraziləri vahid bir bəylərbəylik - Azərbaycan bəylərbəyliyi adı altında cəmləmişdi.

Dediklərimiz həm də bədxah qonşularımızın guya 1918-ci ilə kimi Azərbaycan anlayışının Arazdan şimaldakı torpaqlara heç bir aidiyyatı olmaması barədə iddialarının tarixi gerçəklikdən uzaq sayıqlama olduğunu bir daha sübut edir.

XVII yüzilliyin sonu - XVIII yüzilliyin əvvəllərində Səfəvi dövləti çox dərin və hərtərəfli iqtisadi, siyasi və ideoloji tənəzzül dövrünə qədəm qoymuşdur. Bu böhranın səbəbləri tarixi ədəbiyyatda kifayət qədər araşdırıldığından biz bu məsələnin üstündə dayanmayacağıq. Sadəcə onu qeyd edək ki, ağır vergi və mükəlləfiyyətlər, feodal zülmü və özbaşınalığın güclənməsi

---

[1] Есаи Хасан Джалалян. Краткая история страны Албанской (1702-1722 гг). (Пер. с древн. арм. языка.Т.И-тер Григоряна. Предисловие и подготовка к изданию академика З.М. Буниятова) Баку; «Элм», 1989,с. 19.

imperiyanın hər yerində hökümətə qarşı çıxışların baş verməsinə səbəb olurdu. İqtisadi istismara və sosial-siyasi zülmə dini ayrı-seçkiliyin də əlavə olunduğu sünnilərin əksəriyyət təşkil etdiyi Əfqanıstanda və Azərbaycanın şimalında (Şirvanda) xalq çıxışları daha kəskin və ardıcıl səciyyə daşıyırdı. Şirvanda başlayan üsyana Müşkür mahalının Dədəli kəndinin sakini Hacı Davud başçılıq edirdi. O, şiələrin sünnilərə qarşı zülmünə qarşı mübarizəyə çağırış şüarı ilə öz ətrafına xeyli tərəfdar toplaya bildi. Hacı Davud Qazıqumuq hakimi Surxay xanı özünə müttəfiq edərək 1720-ci ildə Şabran şəhəri və Xudat qalasını tutmuşdu. Daha sonra İlisu hakimi Əli Sultan da öz dəstələri ilə Şirvan üsyançılarına qoşuldu. 1721-ci ilin avqustunda şəhər əhalisinin də yardımı ilə üsyançılar Şirvan bəylərbəyliyinin inzibati mərkəzi olan Şamaxı şəhərini ələ keçirən zaman qarət və talanlar baş verdi; o cümlədən, o vaxt Şamaxıda olan bir neçə rus taciri qarət edildi və öldürüldü.[1]

Rəsmi sənəddən görünür ki, rus tacirlərinə cəmi 236. 420 rubl (472.840 tümən) məbləğində zərər vurulmuşdu. Ən çox zərər çəkən Matvey Yevreyinov olmuşdu – 176.996 rubl 22 altın və ya 353.993 tümən 22 altın.[2]

Rusiyanın İstanbuldakı nümayəndəsi İ.Neplyuyev Şamaxıda rus tacirlərinin qarət və qətl edilməsi ilə bağlı 8 fevral 1722-ci il tarixli gizli təhriratında yazırdı ki, üsyançılar rus tacirlərinə dəyməyəcəklərinə zəmanət verərək onların hamısının malları ilə birlikdə bir yerə toplaşmalarını tələb etmiş, rus tacirləri isə tamahkarlıq edərək şəhərdəki bütün yerli tacirlərin və şah tacirlərinin mallarını alıb gizlətmişdilər. Bundan qəzəblənən üsyançılar rus tacirlərini öldürmüş və mallarını qəsb etmişlər. Neplyuyevin yazdığına görə, 20-25 tacir öldürülmüş, 115-118 min levki məbləğində mal və pul talan edilmişdi.[3]

Neplyuyev qeyd edirdi ki, Şamaxını ələ keçirən üsyançılar

---

[1] Тофиг Мустафазаде. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века. Баку, 1993,с.21

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1721 г., д. 2, лл. 7-10 об.

[3] Orada; оп. 1, 1722 г., д. 6, ч. 1, л. 31.

gizli surətdə adam göndərərək sultan sarayından yardım istəmiş, sultanın təbəəliyini qəbul etdiklərini, onun adına pul zərb etdiklərini, məscidlərdə cümə günlərində sultan Əhmədin adına xütbə oxunduğunu bildirmişdilər. Rus rezidentinin yazdığına görə, Osmanlı hökuməti bu xahişə müsbət yanaşır, lakin Şirvan nümayəndələrinin gəlməsini məxfi saxlayaraq şah elçisinin geri dönməsini gözləyir. Şah elçisi, sədrəzəmlə görüşmək istəsə də, buna nail ola bilmirdi.[1] Hollandiya səfiri Kolyer Neplyuyevlə söhbətində Şahlıq səltənətindən qiyamçıların gizli surətdə sultan sarayına nümayəndə göndərdiklərini təsdiq edərək demişdi ki, onlar Sultanın himayəsini xahiş etmiş, osmanlı qanunları ilə yaşayacaqlarını, Krım tatarlarının malik olduqları imtiyazlara malik olmaq istədiklərini bildirmişlər. Osmanlı hökuməti şah səfirini aldadaraq bildirir ki, qiyamçıları cəzalandırıb Şaha itaətlərinə nail olmaq üçün qoşun göndərir.[2]

Səfəvi dövlətinin vəziyyəti isə ağırlaşmaqda davam edirdi.

Əfqanıstanın Qəndəhar vilayətində yaşayan Gilzay (qəlcayı) tayfasının başçısı Mir Veysin qiyamı nəticəsində 1709-cu ildə Qəndahar vilayətində hakimiyyəti ələ keçirən Mir Veysin oğlu Mir Mahmudun dövründə (1716-1725) Gilzay tayfasının hakim təbəqəsi qonşu vilayətlərə talançı yürüşlər etməyə başladı. Əldə edilən zəngin qənimət əfqanların iştahasını daha da artırdı və 1722-ci ilin əvvəlində Səfəvilərin paytaxtı İsfahana böyük yürüş təşkil etməyə şirnikləndirdi. 1722-ci ilin martın 8-də İsfahan yaxınlığında Gülnabad ətrafında əfqanlar şah ordusunu darmadağın etdilər.[3]

Mühasirəyə alınan İsfahan 1722-ci il oktyabırın 22-də təslim oldu. Şah Sultan Hüseyn tacı öz əli ilə Mir Mahmuda təslim etdi.[4] Bu Səfəvi dövlətinin faktiki süqutu idi. Çünki, Sultan Hüseyn

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1722 г., д. 6, ч. 1, л.30 и об.

[2] Yenə orada.

[3] Николай Миклухо-Маклай. Из истории афганского владычества в Иране (20-е года XVIII века) Учёные записки ЛГУ, 1954, №179, сер. востаковедческих наук . Вып.4,с.139-140.

[4] Миклухо-Маклай. Göst .əsəri,s141

şahlıqdan əl çəkdikdən sonra onun özünü şah elan etmiş üçüncü oğlu Təhmasibin hakimiyyəti dövlətin ərazisinin cüzi bir hissəsinə, Xəzərin cənub sahilinə - Mazandaran və Astrabada yayılırdı.

Səfəvi dövlətinin şərq və mərkəz əyalətlərinin əfqanların hakimiyyətinə keçməsi, qalan hissələrində isə hərc-mərcliyin hökm sürməsi Azərbaycanın da daxil olduğu böyük regionda bir hakimiyyət boşluğu yaratmışdı ki, qonşu Rusiya və Osmanlı imperiyaları bu boşluğu doldurmaq üçün bir-birilərini qabaqlamağa çalışırdılar.

Azərbaycan öz təbii sərvətləri, tranzit ticarətdə tutduğu qovşaq statusu, habelə çox mühüm hərbi-strateji əhəmiyyəti ilə bu dövlətlərin, eləcə də bəzi Qərbi Avropa ölkələrinin diqqətini cəlb edirdi. Azərbaycanda istehsal olunan xam ipək və ipək parçalar, meyvə qurusu, neft qonşu dövlətlərin hakim dairələrini daha çox cəlb edirdi. Rusiya çarı tərəfindən elçi kimi şah sarayına göndərilən A.P.Volınski 1716-cı ildə Niyazabadda olarkən yerli tacirlərdən öyrənmişdi ki, Osmanlı sultanı "bütün ipək ticarətinin Türkiyə vasitəsi ilə aparılması üçün" Şah Sultan Hüseynə təzyiq göstərir.[1]

Qeyd edək ki, o zaman Səfəvi dövlətində olan üç ipəkçilik mərkəzindən ikisi Azərbaycanda yerləşirdi. Bunlar Şirvan və Gəncə bəylərbəylikləri idi. Rusiyada və Osmanlı imperiyasında işıqlandırıcı yanacaq kimi istifadə olunan Bakı nefti də qonşu ölkələrin rəsmilərinin diqqətini çox cəlb edirdi. Rus çarı I Pyotr Bakı nefti ilə xüsusi maraqlanır və ona yiyələnməyə can atırdı. Neft həm də o zaman dəniz döyüşləri zamanı düşmən gəmilərini yandırmaq üçün bir vasitə kimi də istifadə olunurdu. İrandakı rus konsulu Arapov 1738-ci ildə həyəcanla yazırdı ki, Osmanlılar Bakıdan 40 dəvədə 4 dəfə neft daşıyıb aparmışlar ki, ondan rus gəmilərini yandırmaq üçün istifadə etsinlər.

Təbii sərvətləri, tranzit-ticarət qovşağı kimi əhəmiyyəti ilə

[1] Фуад Алиев. Миссия посланника русского государства А.П.Волынского в Азербайджане (1716-1718). Изд-во АН Азерб.ССР, Баку,1979, с.24

yanaşı Azərbaycan həm də hərbi-strateji əhəmiyyətə malik idi. Osmanlı imperiyasına arxadan zərbə vurmaq, İrana və daha sonra Hind okeanına çıxmaq üçün platsdarm kimi də Azərbaycan Rusiyanın diqqətini cəlb edirdi.

## I.2. Azərbaycan Rusiya və Osmanlı dövlətlərinin planlarında.

XVII əsrin sonlarında Rusiyada hakimiyyətə gələn I Pyotr öz ölkəsini iqtisadi və hərbi cəhətdən gücləndirmək üçün çox intensiv və hərtərəfli fəaliyyət göstərirdi. Ölkənin gəlirlərini artırmaq üçün Şərq ölkələri, o cümlədən Azərbaycanla ticarəti inkişaf etdirməkdən ötrü hər cür tədbirlərə əl atırdı.

O zaman rus tacirləri Azərbaycandan başlıca olaraq xam ipək və ipək parçalar, pambıq parçalar, quru meyvə aparırdılar. Rusiyadan Azərbaycana isə kağız, müxtəlif metal məmulatlar, kəhrəba, inək dərisi, müxtəlif növ xəzlər, eləcə də Qərbi Avropadan gətirilib Rusiyada satılan mahud, bez və bir sıra manufaktura məhsulları ixrac olunurdu.

I Pyotr hökuməti Xəzəryanı ölkələrlə ticarət əlaqələrini genişləndirmək üçün həvəsləndirici tədbirlərə əl atırdı.1710-cu ildə İran ermənilərinin "Yeni Culfa" şirkəti ilə saziş bağlanmışdı. Həmin sazişə görə, bu şirkətin tacirləri Səfəvi dövlətindən ixrac olunan bütün xam ipəyi Rusiyaya aparmalı idilər. Buna görə onlara gömrük rüsumu alınmasında güzəştlər edilirdi.[1]

Xəzəryanı ölkələrlə ticarəti genişləndirmək Xəzərdə gəmiçiliyin vəziyyətindən xeyli dərəcədə asılı idi. Bu dənizdəki rus gəmiləri isə çox köhnə modifikasiyalı idi, bəziləri də çox aşınmağa məruz qalmışdı.

Daha mükəmməl quruluşa malik, holland ustaları tərəfindən hazırlanmış gəmilər çox istismar olunduqlarından az qala dağılırdılar; Kazanda inşa olunmuş şkoutlar möhkəm deyildilər, yelkənləri çox ağır idi, onların da bəziləri köhnəlmiş, təmirə

---

[1] Петр Бутков. Материала для новой истории Кавказа с 1722 по 1803 г., ч. 1, СПб: 1869, с. 4.

ehtiyacı var idi.[1]

XVIII əsrin ikinci onilliyinin sonlarına doğru köhnə gəmilər yeni tipli gəmilərlə əvəz olunmağa başlanmışdı. 1717-ci ildə I Pyotr Həştərxandan şərq ölkələrinə və geriyə malları və sərnişinləri daşımaq üçün 15 "tyalka" adlanan yeni tipli gəminin inşası haqqında sərəncam imzalamışdı.[2] 1719-cu ildə tacirlərə məxsus malların daşınması ilə 9 tyalka və 6 şkout məşğul idi. Lakin bu çox azlıq edirdi.[3] Vəziyyətdən istifadə edən gəmi kapitanları yük sahiblərindən daşınma haqqından əlavə rüşvət tələb edirdilər.[4]

Xəzər dənizində Rusiya gəmiləri ilə yanaşı azərbaycanlılara və qismən gilanlılara məxsus çoxlu kirjim adlanan avarlı gəmilər də üzürdü. XVIII əsrin əvvəllərində Xəzərsahili vilayətlərdə olmuş Holland səyyahı Korneli de Bryuin yazırdı ki, Xəzər dənizində əsasən ruslar və türklər (yəni azərbaycanlılar) üzürlər.[5]

Xəzəryanı regionda iqtisadi ekspansiya metodlarını az təsirli sayan I Pyotr Xəzər ticarətində üstünlüyü ələ almaqdan ötrü Xəzəryanı bölgələri işğal etmək qərarına gəldi. XVIII əsrin əvvəlində Rusiyanın yeganə açıq çıxışı olan isti dəniz Xəzər dənizi idi. Pyotr Xəzəri Rusiyanın "daxili gölünə" çevirmək, beləliklə Rusiyanı Qərblə Şərq arasındakı ticarətdə vasitəçiyə çevirməyə çalışırdı. Təbii ki, çar bu zaman təkcə ticari məqsədlər güdmürdü. Rusiyanın qonşu dövlətlərlə, xüsusən də Şərq ölkələri ilə münasibətlərinin əsas məzmununu müstəmləkəçilik cəhdləri təşkil edirdi.

---

[1] А.Штылко. Волжско-Каспийское судоходство в старину. СПб. 1896,с 37.

[2] Михаил Чулков. Историческое описание российской коммерции при всех портах и границах от прежних времен до ныне настоящего и всех преимущественных узаконений по оной государя Петра Великого и ныне благополучно царствущей императрицы Екатерины Великия, сочиненное Михаилом Чулковым.Т.2, кн.2. СПб.:1785, с 71.

[3] А.Штылко.Göst.əsəri,s.37-39.

[4] Yenə orada.

[5] Корнелий ле Брюин. Извлечения из путешествия. Научный архив Истории и Этнологии НАНА, инв. 2, единица хранения 114, с. 4

XVI-XIX əsrlərdə Rusiya çox sürətlə torpaqlar zəbt edirdi və onun sərhədləri obrazlı şəkildə ifadə olunsa “hərəkət edən sərhədlər” səciyyəsi almışdı. I Pyotrun hakimiyyəti dövründə Rusiyanın xarici siyasətində “Üç dəniz” (Baltik, Qara və Xəzər dənizləri) mühüm istiqamət idi. Bu üçbucaqda Vislanın mənsəbindən Volqadan keçməklə Xəzər istiqamətində hərəkət marşrutu təşkil etmək mühüm rol oynayırdı.[1]

1711-ci ildə Osmanlı imperiyasına qarşı yürüşdə ağır məğlubiyyətə uğrayıb Osmanlı dövləti ilə biabırçı sülh müqaviləsini imzalaması Pyotrun Qara dəniz sahillərinə çıxış ümidlərinin üstündən xətt çəkdiyi üçün o, artıq bütün səylərini Baltik və Xəzər istiqamətlərinə yönəltdi. İsveçlə 1701-ci ildə başlayıb, 1721-ci ildə Rusiyanın qələbəsi ilə bitən “Şimal müharibəsi”nin başlıca məqsədi məhz Baltik sahillərinə çıxış əldə etmək idi. Şimal müharibəsi və Xəzərsahili vilayətlərin işğalı I Pyotrun strateji planının iki taktiki məqamı idi.[2]

XIX əsr görkəmli rus tarixçisi S.M.Solovyov yazırdı: “I Pyotru bitərəflilikdə təqsirləndirmək olmaz: bütün gücünü İsveçi tam darmadağın edib Baltik sahillərini ondan almağa yönəlməklə yanaşı o, Şərqdən də gözünü çəkmirdi, çünki onun Rusiya üçün əhəmiyyətini yaxşı bilir və anlayırdı ki, əgər yoxsul rus xalqı Avropa ilə Asiya arasında vasitəçi olsa necə varlanar”. Baltik dənizinin sahillərində möhkəmlənməklə yanaşı I Pyotr onu Xəzərlə birləşdirmək üçün kanal çəkdirdi.[3]

XX əsrin 30-cu illərində tanınmış tədqiqatçı M.A.Poliyevktov yazırdı ki, XVI-XVIII əsrlərdə Rusiyanın “Şimal-Qərbi Avropa” siyasətini “Cənub-Şərqi Asiya” siyasəti

---

[1] И.В. Зеленева. Россия в системе международных отношений (XVIII-первая половина XIX века) геополитические и геостратегические аспекты. АКД, СПб., 2005, с. 18.

[2] Михаил Полиевктов. Проект хозяйственной эксплутации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа // Материалы по истории Грузии и Кавказа. Вып. IV, Тбилиси, 1937, с. 24.

[3] Сергей Соловьев С. Петр Великий на Каспийском море. Вестник Европы, год третий, 1868, № 2, с. 163.

ilə sıx surətdə əlaqələndirmək lazımdır. Həmin bağlantıda bu dövrdə Rusiya iqtisadiyyatının onurğa sütunu olan Baltik-Volqa-Xəzər yolunu nəzərə almaq lazımdır.[1]

Cənubi Qafqazda özü üçün sosial dayaq yaratmaqdan ötrü I Pyotr gürcü çarı VI Vaxtanqın başçılığı altında gürcü-erməni asılı çarlığı yaratmağı düşünürdü.

İsveçlə uzunmüddətli və qanlı Şimal müharibəsinin davam etdiyi müddətdə çar əlbəttə ki, cənub istiqamətində yeni bir cəbhə aça bilməzdi.

Buna görə də hələlik Xəzərin cənub - qərb sahilini və bu regionda hərbi-siyasi durumu öyrənmək üçün göstəriş verdi. 1716-1718-ci illərdə Səfəvi dövlətinə elçi kimi göndərilən polkovnik A.P.Volınskiyə rəsmən Şah Sultan Hüseynlə ticarət müqaviləsi bağlamaq, bir sıra ticari məsələləri nizamlamaq tapşırılsa da, ona verilmiş gizli və çox geniş təlimatın ikinci maddəsindən məlum olur ki, əslində Volınskinin səfərinin başlıca məqsədi Xəzərin cənub-qərb sahilini və bu regionda hərbi-siyasi durumu öyrənmək olmuşdur. Volınskiyə keçdiyi yerləri diqqətlə öyrənmək, Xəzər dənizinə hansı çayların axdığını, onlarla hansı yerlərə kimi gəmi ilə üzməyin mümkünlüyünü müəyyənlədirmək, başlanğıcını Hindistandan götürüb Xəzər dənizinə tökülən çayların olub-olmadığını dəqiqləşdirmək tapşırılmışdı.[2]

Gizli təlimatın dördüncü maddəsində elçiliyə tapşırılırdı ki, hər bir üsulla, lakin ehtiyatla Şahın vilayətlərində hansı qalalarının, onlarda neçə nəfərlik qarnizonun, atlı və piyadanın, artilleriya və digər silahın olmasını, qalanın qoşunun və artilleriyasının vəziyyətini, Avropa müharibə üsulları tətbiq edib-etmədiklərini öyrənsin.[3]

---

[1] Михаил Полиевктов. Проект хозяйственной эксплутации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа, с. 248.

[2] РГАДА, ф.77 (СРП), 1715-1717 гг., д.1, л. 46; Bax həmçinin: Корсаков Дмитрий А. А.П.Волынский. Библиографический очерк. Древняя и Новая Россия, 1879 ч.1, сс.53-54; Фуад Алиев. Миссия посланника.., с.19.

[3] РГАДА,ф.77 (СРП),1715-1717 гг., д.1, лл.47-48.

Beşinci maddədə Volınskiyə tapşırılırdı ki, gizlicə şahın osmanlılarla hansı münasibətdə olduğunu, iranlıların (yəni səfəvilərin – T.M.) osmanlılara qarşı müharibəyə başlamaq niyyətində olub-olmadığını, osmanlılara qarşı mübarizədə kiminləsə ittifaqa girmək niyyətində olub-olmadıqlarını öyrənsin. Bunlar haqqında dərhal rus sarayına yazmalı olan elçi, səfəvilərə hər bir üsulla təlqin etməli idi ki, osmanlılar onların dövlətinin və xalqının başlıca düşmənidir, rus sarayı isə Şahla xeyirxah dost-qonşuluq münasibəti bəsləyir.[1]

1716-cı ilin iyulunda Həştərxandan gəmi ilə yola düşüb, sentyabrda Niyazabad limanına çatıb, sonra quru yolu ilə Şamaxıya hərəkət edən Volınski çarın gizli tapşırıqlarını ciddiyyətlə yerinə yetirdi. Məhz bu məqsədlə də Şamaxıda uzun müddət – 2 aydan çox qaldı və daha sonra səfərini davam etdirib 1717-ci ilin əvvəllərində İsfahana çatdı.

1717-ci il iyulun 30-da Sultan Hüseyn şahın baş naziri etimad üd-dövlət Fətəli xanla Rusiya üçün əlverişli ticarət müqaviləsi bağlayan[2] Volınski gəldiyi yolla yox, Gilandan gedib dəniz yolunu da ətraflı öyrənmək üçün dənizlə Rusiyaya üzmək istədi. Lakin gec də olsa elçinin həqiqi niyyətini anlayan şah hökuməti buna icazə vermədi. Elçilik gəldiyi yolla geri qayıtmalı oldu, və dekabrın sonunda Şamaxıya çatdı. Burada Rusiya ilə dəniz rabitəsi dövrünün bərpasını gözləyib, 1718-ci ilin iyulunda Şamaxıdan çıxıb Niyazabada gedərək oradan da gəmi ilə Rusiyaya üzdü.[3]

Volınski Səfəvi dövlətinin iç durumu, yollar, qalalar və istehkamlar haqqında ətraflı məlumat toplamaqla yanaşı, Şamaxıda bir sıra gizli görüşlər də keçirdi. İsfahanda olarkən o, Şah qoşunlarının sepahsaları (sərkərdəsi) Hüseynqulu xanla (gürcü çarı VI Vaxtanq müsəlmanlığı qəbul etdikdən sonra bu adı

[1] РГАДА,ф.77 (СРП),1715-1717 гг., д.1,л. 48.

[2] В.А.Ульяницкий. Русские консульства за границею в XVIII веке. ч.1, Москва, 1898, с.103; Фуад Алиев. Миссия,с.51-52.

[3]Фуад Алиев Ф. Миссия…, с.58,8-85.

almışdı) gizli əlaqə yaratdı. Elçi geri dönərkən Şamaxıda olduğu zaman isə Vaxtanqın nümayəndəsi Fərsədan bəy gizli surətdə onun yanına gəlib Vaxtanqın Rusiyaya meyl etdiyini, Gürcüstanı azad etmək işində rus çarının köməyinə ehtiyac duyduğunu bildirdi.[1]

Volınski Rusiyaya qayıtdıqdan sonra Səfəvi dövlətinin acınacaqlı vəziyyətini təsvir edib, I Pyotra Xəzəryanı regiona sahib olmaq məqsədilə yubanmadan hərbi əməliyyatlara başlamağı təklif etdi. Onun rəyincə, Səfəvi dövləti parçalandığı üçün Rusiya az qüvvə ilə onun ərazisinin bir hissəsini ələ keçirə bilərdi.[2]

İsveçlə Şimal müharibəsi davam etdiyindən Pyotr cənubda yeni cəbhə açmaqdan ehtiyat edirdi, buna görə də hələlik qarşıdakı yürüşlə bağlı bir sıra kəşfiyyat xarakterli tədbirlər gördü. A.Volınskini Həştərxan qubernatoru təyin edib ordunun yürüşü üçün hazırlıq göstərməsini tapşırdı. 1719-cu ilin mayında isə kapitan-leytenant Karl fon Verden və Fyodor Soymonovun başçılığı ilə Xəzərin qərb sahillərini tədqiq etmək üçün ekspedisiya göndərildi. 1720-ci il mayın sonunda həmin ekspedisiya işini tamamlamaq üçün təkrar Xəzərin qərb və cənub sahillərinə yönəldi.[3] Verden və Soymonov tədqiqatın nəticələrini əks etdirən xəritə tərtib edib Pyotra təqdim etdilər.[4]

1717-ci ildə şah hökuməti ilə bağlanmış müqaviləyə əsasən Rusiyanın İsfahanda konsulluğu, Şamaxıda isə vitse-konsulluğu açılmalı idi. Rusiya Karla Şamaxıda vitse-konsul vəzifəsinə hərbçinin təyin olunmasını tapşırdı ki, o, Şamaxı yolunun dəqiq xəritəsini tərtib etsin.[5]

Tarixşünaslıqda Semyon Avromovun Səfəvi dövlətinə konsul, Aleksey Baskakovun isə vitse-konsul təyin olunması

---

[1] РГАДА, ф.77(СРП),1716 г. д. 1,л.420 об.

[2] Сергей Соловьёв. Пётр Великий на Каспийском море. Вестник Европы, 1868, №№ 2-3, с. 67

[3] Федор Соймонов. Описание Каспийского моря, с. 38, 48-49.

[4] Петр Бутков. Göst. əsəri, I his., s. 49.

[5] В.А. Ульяницкий. Русские консульства…, ч. II, с. 200.

qeyd edilir. Tarixi sənədlərin diqqətlə nəzərdən keçirilməsi göstərir ki, əvvəlcə, 1720-ci ilin oktyabrında çar kapitan Aleksey Baskakovun konsul təyin olunması haqqında fərman vermiş, lakin dekabrın 11-də fikrini dəyişərək Semyon Avramovun konsul, Baskakovun isə vitse-konsul təyin olunması barədə yeni fərman vermişdir.[1]

İsveçlə müharibəni qalibiyyətlə başa çatdırıb Baltik dənizinə çıxış əldə etdikdən sonra I Pyotr özünün Baltik-Xəzər strategiyasının ikinci hissəsini gerçəkləşdirməyə başladı. Həm də bu zaman yalnız Cənubi Qafqaz deyil, perspektivdə Kiçik Asiya, İran, Xəzərin şərq sahilləri və hətta Hindistanda möhkəmlənmək nəzərdə tutulurdu.

Böyük iqtisadi potensialına və geostrateji əhəmiyyətinə görə Azərbaycan Osmanlı imperiyasının da diqqətini cəlb edirdi. Qərblə Şərqin ayrıcında yerləşən Osmanlı imperiyası XV-XVII əsrlər ərzində dünyanın hərbi cəhətdən ən qüdrətli dövləti olmuşdu və ayrı-ayrılıqda onun qarşısında duruş gətirə bilməyən Avropa dövlətləri tez-tez anti-osmanlı koalisiyaları təşkil edirdilər. XVII-XVIII əsrlərdə Osmanlı imperiyasında hakim feodal istehsal üsulunun böhranı, mərkəzi hakimiyyətin zəifləməsi, əyalətlərdə hərc-mərcliyin və separatçılığın güclənməsi müşahidə olunur. Bunların nəticəsində zəifləyən Osmanlı dövləti 1683-1698-ci illərdə Avropa dövlətlərinin "Müqəddəs liqa" adlanan koalisiyası ilə müharibədə məğlubiyyətə uğradı, Mərkəzi Macarıstanı, Transilvaniyanı, Sloveniyanı, Bucağı, sağsahil Ukraynasının cənub hissəsini, Moreyanı və Avropada daha bir sıra əraziləri itirdi. Osmanlı hakim dairələri itkilərinin yerini başqa istiqamətlərdə doldurmağa çalışırdılar. I Pyotrun uğursuz Prut səfərində (1711) acınacaqlı məğlubiyyətə uğraması ilə Azovu yenidən geri alan osmanlılar şərqdə daha fəal hərəkət etmək imkanı əldə etdilər.

1718-ci ildən baş vəzir olan "rahatlıq tərəfdarı" Damad İbrahim paşa Nevşehirli böyük dövlətlərlə müharibələrdən

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1720 г., д. 3, л. 2 и об.

çəkinirdi. O, Avstriya ilə münasibətləri normallaşdırmaq üçün çox iş görmüşdü. Rusiya ilə münasibətlərdə də ehtiyatlı mövqe tuturdu.

Səfəvi dövlətinin süqut prosesinə daxil olması Osmanlı hakim dairələrində Səfəvi irsinə sahib olmaq həvəsi yaratmışdı. 1716-cı il oktyabrın 27-də ingilis tacirlərinin Şamaxıdakı nümayəndəsi Berns Bulqar Rusiya elçisi A.Volınskinin yanına gələrək ona Sultan elçisinin İsfahana gəlib Şahdan Tiflis və İrəvan şəhərlərini osmanlılara verməsini tələb etmiş, xam ipəyin və ipək parçaların həm Volqa-Xəzər, həm də Fars körfəzi yolu ilə ixracının artmasından Osmanlı sarayının narazılığını ifadə etmişdi.[1] Osmanlı elçisi şah təbəələrinin Osmanlının müharibə vəziyyətində olduğu xristian dövlətləri ilə ticarət etməsindən narazılığını da ifadə etmişdi. Şah isə bu tələbləri rədd etmiş və Sultanın xristian dövlətləri ilə müharibə vəziyyətində olmasına baxmayaraq Şahın onların münasibətlərinə qarışmayacağını bildirmişdi.[2]

Səfəvi dövlətinin həqiqi vəziyyəti haqqında dəqiq məlumat almaq məqsədilə Osmanlı hökuməti 1720-ci ildə Dürri Əhməd əfəndinin başçılığı ilə şah sarayına elçilik göndərdi. Elçi şah hökumətindən Avropa ölkələri ilə ticarətin Osmanlı əraziləri vasitəsilə aparılmasını, İrəvan vilayətinin sultana verilməsini tələb etdi, və Rusiya ilə lüzumsuz dostluğuna, xüsusilə də ona öz torpağında Nizovaya (Niyazabad) qalasını tikməyə icazə verdiyinə görə öz narazılığını bildirdi.[3] Şahın vəzirləri isə cavabında demişdilər: “Onlar tacirləri güclə bir yol seçməyə məcbur edə bilməzlər, tacirlər malları satmağa sərfəli olmayan yerlərə getmirlər, rusların tikdiyi qalaya gəldikdə isə, Niyazabad qala yox, gəmilər üçün sığınacaq yeridir və həm də münbit olmayan düzənlikdə ticarət məqsədilə tikilmişdir”.[4]

---

[1] РГАДА,ф 77(СРП), 1715г., д.2, лл.34-35.

[2] Yenə orada, v. 35 və arxa üzü; Фуад Алиев. Миссия…., с.33

[3] А.Н.Попов Сношения России с Хивою и Бухарою при Петре Великом. СПб.1853,с 365.

[4] РГАДА, ф 77(СРП), 1715.,д 2, л.35 и об.; Фуад Алиев.Миссия..,с 33

Dürri Əfəndi 1721-ci ildə İstanbula qayıdıb hökumətinə Səfəvi dövlətinin acınacaqlı vəziyyəti haqqında məlumat verərək bu dövlətin uzun müddət davam gətirməyəcəyini qeyd etmişdi.[1] Elə bu dövrdə İstanbula gələn şah elçisi Murtuzaqulu xan ölkədaxili qiyamçılara qarşı mübarizədə yardım xahiş etmiş, lakin müsbət cavab almamışdı. Osmanlı vəziri qiyamçıların müsəlman olmaları səbəbindən osmanlıların onlara qarşı çıxa bilməyəcəklərini demişdi.[2]

Şamaxını ələ keçirdikləri zaman əvvəldə də xatırlandığı kimi burada olan bir neçə rus tacirinin qətl və talan edilməsinə cavab olaraq Rusiyanın intiqamından qorxan Şirvan üsyançılarının rəhbərləri Hacı Davud və Surxay xanın himayə üçün Sultana müraciət etməsi osmanlıların Cənubi Qafqazda dinc yolla möhkəmlənməsi üçün zəmin yaratdı. Eyni zamanda sultan hökuməti Rusiyanın etirazı ilə qarşılaşacağından ehtiyat edərək Hacı Davudu rəsmən himayəyə götürməkdən çəkinirdi. Bu ehtiyatlanma əbəs deyildi. 1722-ci il martın 7-də I Pyotr kansler Qolovkinə İstanbuldakı rus rezidenti İvan Neplyuyevin yanına kuryer göndərmək gərəkdiyini yazaraq göstəriş vermişdi ki, şirvanlıların Osmanlı himayəsinə qəbul olunmasına müqavimət göstərilməli və onların Rusiya dövlətinə zərər vurmaları vurğulanmalıdır.[3]

Rusiyanın etirazı üzündən 1722-ci il fevralın 19-da keçirilən divanda qərara alınmışdı ki, indi şirvanlıları Osmanlı himayəsinə qəbul etmək mümkün deyil[4]. Mayın 2-də İ.Neplyuyevlə söhbətində sədrəzəm İbrahim paşa Nevşehirli Şirvan nümayəndələrinin İstanbula gəldiklərini təsdiqləyərək onların Krım xanı ilə bərabər hüquqda Osmanlı təbəəliyinə qəbul olunmaq barədə xahiş etdiklərini bildirmişdi. İbrahim paşa bunu da əlavə etmişdi ki, nümayəndələrə şirvanlıların rəsmi ərizəsi

---

[1] Сергей Соловьев. Петр Великий…, s.215-216.

[2] АВПРИ,Ф 89(СРТ), оп. 1, 1722 г., д.6, .ч. 1, л. 73.

[3] АВПРИ,Ф.89 (СРТ), оп.1,1722 г., д.6, ч.1, л.72 и об.

[4] АВПРИ,Ф.89(СРТ), о 1,1722г.,д.6, ч. 1, л. 72 и об.; Yenə orada, iş 16, v. 18.

təqdim olunduğu vaxt, divan çağrılacağı və lazım gələrsə şirvanlıların himayəyə alınması haqqında qərar qəbul ediləcəyi bildirilib. Neplyuyev Osmanlı sarayının Şirvan üsyançılarını himayəyə almaq niyyətində olduğunu, sadəcə Rusiya ilə münasibətləri pozmamaq üçün manevr etdiyini yazırdı.[1]

## I.3. I Pyotrun Xəzəryanı ərazilərə hücumu və regionda Rusiya-Osmanlı ziddiyyətlərinin kəskinləşməsi.

1721-ci ildə İsveçlə savaşı qələbə ilə başa vurub özünü imperator elan edən I Pyotr artıq Səfəvi dövlətinin ərazilərini ələ keçirmək üçün hərbi səfərə başlamaq imkanı əldə etdi. 1722-ci ilin martında şah qoşunlarının İsfahan yaxınlığında qiyamçı əfqanlar tərəfindən darmadağın edilməsi xəbərinin alınması Pyotru öz niyyətini gerçəkləşdirmək üçün tələsdiməyə sövq etdi. Əvvəla, məlum idi ki, mərkəzi hakimiyyəti iflic vəziyyətinə düşmüş, əyalətlərində hərc-mərclik sürən Səfəvilər artıq rus qoşunlarına mütəşəkkil və ciddi müqavimət göstərmək imkanına malik deyildilər. İkincisi, Pyotr qorxurdu ki, Səfəvi dövlətinin çıxılmaz durumunu görən Osmanlı dövləti hərbi əməliyyatlara başlayıb Səfəvi ərazilərini ələ keçirər. Bundan sonra isə, əlbəttə, çar onları tutduqları ərazilərdən çıxara bilməzdi.

Yeri gəlmişkən, Pyotrun bu qorxusu heç də əsassız deyildi. Rusiyanın Səfəvi ərazilərini ələ keçirmək üçün yürüşə hazırlaşdığını eşidən Osmanlı hökuməti də Səfəvi mirasını ələ keçirmək üçün hərbi əməliyyatlara başlamağı qərara almışdı. Rus rezidenti İ.Neplyuyev xəbər verirdi ki, 1722-ci il mayın 15-də keçirilmiş divanda əksər vəzirlər Səfəvi ərazilərini ələ keçirmək üçün əməliyyatların başlanmasına razılıq vermiş, "təhlükəsizlik naminə" Osmanlı imperiyasının sərhəddində yerləşən Səfəvi əyalətlərinin tutulması haqqında qərar qəbul olunmuşdu.[2]

Bu zaman Səfəvi dövlətində siyasi böhran ən yüksək həddə çatmışdı. Konsul S.Avramov Qəzvində olarkən Mir Veysin oğlu

---

[1] АВПРИ,ф 89 (СРТ), 1,1722 г., д. 6, ч.1, л,199 и об.

[2] Петр Бутков. Материалы, ч.1.s 19

Mir Mahmudun bir çox şəhərləri, o cümlədən Kirmanı zəbt etdiyini eşitmişdi. Qəzvindən Savaya gedən konsul burada İsfahandan Təbrizə gedən fransız missionerlərindən Mir Mahmudun İsfahanın 60 verstliyinə çatdığını öyrənmişdi.[1]

Martın əvvəlində Quma gələn Avramov Mir Mahmudun artıq İsfahan ətrafında şah qoşunlarını məğlubiyyətə uğratdığını, bundan sonra saray əyanlarının Şahdan taxtını oğluna verməsini xahiş etdiyini eşitmişdi. Şah böyük oğlu Mahmud Mirzəni yerinə təyin etmək istədiyini bildirmişdi. Mahmud Mirzə sarayın qarşısında çadır qurdurmuş, çadırda oturaraq vəzirlərin və əfqanların təzimini qəbul etmişdi. Həkimbaşını, mollabaşını qəbul edən vəliəhd onları təhqir etmişdi. Etimad-üd-dövlə qəbulunda olarkən Mahmud Mirzə ona döyüş meydanından qaçdığına görə edama layiq olduğunu demişdi. Sonra hər üç əyanın boynunun vurulmasını əmr etmişdi. Əyanlar tez şahın yanına gedib Mahmud Mirzənin guya ağılsız olduğunu söyləyib, yerinə ayrı şahzadənin təyin olunmasını xahiş etmişdilər. Belə olduqda Şah Sultan Hüseyn taxta ikinci oğlu Səfi Mirzənin çıxarılmasını təklif etmişdi. Bir gün sonra isə üçüncü oğul Təhmasib Mirzənin taxta çıxarılması qərara alınmışdı.[2]

Avramov bunu da qeyd edir ki, Yeni Culfa qəsəbəsində məskunlaşmış ermənilər Mir Mahmudun tərəfinə keçiblərmiş.[3]

Yeni ərazilər ələ keçirmək, Səfəvi dövlətinin məhsuldar və zəngin torpaqlarına yiyələnmək arzusu ilə I Pyotr yürüşə son hazırlıqları başa çatdırmaq üçün 1722-ci ilin mayında arvadı Yekaterina ilə birlikdə Moskvadan yola çıxmış və iyunun 26-da Həştərxana çatmışdı. Pyotr Həştərxandan gürcü knyazı Türkestanşvilini Kartli çarı, eyni zamanda şah qoşunlarının sərkərdəsi olan VI Vaxtanqın yanına göndərdi. Türkestanşvilinin vasitəsilə Pyotr Vaxtanqa Dərbənd və Bakı istiqamətində hərəkət etdiyini bildirib sonuncudan tələb edirdi ki, öz qüvvələri ilə

---

[1] АВПРИ, ф 77(СРП), оп.1,1722 г.,д. 2, ч.1, л,2.

[2] Yünə orada, v. 2 a.ü.

[3] Yenə orada, v. 4 a.ü.

Pyotrla birləşmək üçün hərəkət etsin.[1] Qeyd edək ki, I Pyotrun bu yürüşü barədə tarixi ədəbiyyatda [2] kifayət qədər məlumat verildiyindən biz yürüşün əsas məqamlarını qeyd edib, bəzi az işıqlandırılan məsələlərə diqqət yetirməklə kifayətlənəcəyik.

Həştərxanda olarkən I Pyotr rus qoşunlarının irəliləyişi yerli əhalinin müqaviməti ilə qarşılaşmasın deyə tarixi ədəbiyyatda "I Pyotrun manifesti" adı ilə tanınan müraciətnamə hazırlatdırıb onu Azərbaycan türkcəsinə də çevirtdirərək [3] nəşr etdirdi. Müraciətnamə yayılması üçün qoşunların keçəcəyi yerlərə göndərildi. Müraciətnamədə gələcək yürüşün işğalçı məqsədləri pərdələnərək guya yürüşün yalnız və yalnız 1721-ci ildə Şamaxıda rus tacirlərinin qarət və qətlinin başlıca günahkarları Hacı Davud və Surxay xanın cəzalandırılması üçün təşkil olunduğu elan edilirdi. Sakinlərə əmlak və həyatlarının toxunulmazlığı vəd edilirdi.[4]

1722-ci il iyulun 29-da I Pyotrun özü də daxil olmaqla göyərtəsində piyadaların olduğu donanma Həştərxandan cənuba üzdü.[5] Süvari dəstələri isə bir qədər tez, quru yolla Saritsından Qrebenə doğru göndərilmişdi. Yürüşdə iştirak edəcək qoşunların

---

[1] АВПРИ, ф 77(СРП), оп.1,1722 г.,д. 2, ч.1, л,2.л.11.

[2] Василий Комаров.Персидская война 1722-1725(Материалы для истории царствования Петра Великого). Русский Вестник, т.68,№4, СПб.: 1867; Федор Туманский. Описание похода государя Петра Великого к лежащим при Каспийском море персицким провинциям. Российский магазин,ч.3, СПб.:1793: Григорий Мельгунов. Поход Петра Великого в Персию. Русский Вестник,1874,т.110; Сергей Соловьев. Петр Великий на Каспийском море.Вестник Европы,1868,№ 3; Викентий Лысцов. Персидский поход Петра I.Москва:1951; Фуад Алиев.Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине века. Баку: Элм,1975, сс.38-50;Тофиг Мустафазаде. Азербайджан и русско-турецкие отношения в первой трети века. Баку;Элм,1993, сс.43-52 и т. п.

[3] Hüseyn Dəlili. Azərbaycan – rus münasibətləri Azərbaycan və farsdilli sənədlərdə. Bakı, 1976, s.9.

[4] АВПРИ, ф. 77(СРП),оп.1, 1722 г., д.14,лл.125-126.

[5] АВПРИ, ф. (СРП), оп.1,1722 г.,д.13,Л.44.

ümumi sayı 106 min nəfərə çatırdı.[1]

Avqustun 7-də rus donanması Aqraxan burnuna çatdı; burada piyada qoşunlar sahilə çıxarıldılar və bir həftəyə yaxın süvari dəstələrinin gəlib çatmasını gözlədilər.[2]

Süvarilər də gəlib çatdıqdan sonra rus ordusu Dərbəndə tərəf hərəkət etdi. Rusiya qoşunları Dərbəndə yaxınlaşdığı zaman bu şəhərdə siyasi vəziyyət çox gərgin idi. Şəhər hakimi Alxas sultan hələ bundan xeyli əvvəl qiyamçıların basqınlarından qorunmaqdan ötrü yardım almaq ümidi ilə İsfahana getmişdi.

Müvəqqəti olaraq şəhər hakimi vəzifəsini icra edən yüzbaşı İmamqulu bəyin başçılıq etdiyi dəstə isə çoxsaylı Rusiya ordusuna müqaviməti mənasız sayır və rusların yardımı ilə şəhəri qonşu Dağıstan feodallarının hücumlarından qorumağın mümkün olacağına ümid edirdi.[3] Buna görə də avqustun 23-də rus ordusu Dərbəndə yaxınlaşdığı zaman İmamqulu bəy I Pyotru şəhərin girəcəyində qarşılayaraq şəhər darvazalarının açarlarını ona təslim etdi.[4] Dərbəndin alınmasından çox sevinən çar Senata yazırdı: "Allahın köməyi ilə bu diyarlarda bir fut yer almağımız münasibətilə sizi təbrik edirəm".[5]

Sentyabrın 5-də I Pyotr podporuçik Lunini Bakıya göndərdi. Lunin Rusiya imperatorunun Bakıya gələcəyini bildirib, şəhərlilərə onu qarşılamağa hazırlaşmalarını tapşırmalı idi.[6] Ancaq, Lunini Bakıya buraxmayaraq özgə köməyinə ehtiyacları olmadıqlarını bildirdilər.[7]

I Pyotr bir həftə Dərbənddə dincəldikdən sonra Bakıya doğru hərəkətə başladı. Mollakənd yaxınlığındakı düşərgədə çar

---

[1] В. Бергман. История Петра Великого СПб.,1844, с.65.

[2] АВЙРИ, ф. 77(СРП),оп.1,1722 г., д. 13, л. 45.

[3] А.А.Неверовский. Краткий исторический взгляд на Северный и Средний Дагестан до уничтожения влияния лязгин на Закавказья: отрывок из рукописи подполковника Неверовского. СПБ, 1898, с.13.

[4] РГАДА, ф. 9( Петра I), отделение 2, кн.54,л.634 и об.

[5] Материалы для новой истории русского флота. ч.4,с. 328.

[6] АВПРИ, ф.77(СРП),1,1722 г., д.13, л.104 и об.

[7] Yenə orada.

Luninin Bakıya buraxılmadığından və bakılıların rus ordusunun şəhərə girməsinə qarşı olduqlarından xəbər tutdu. Ancaq, fikrindən dönməyib Bakını hərbi yolla ələ keçirmək qərarını elan etdi.[1] Bununla belə tezliklə fikrini dəyişən çar yürüşü dayandırıb Rusiyaya dönmək qərarına gəldi.

Tarixşünaslıqda adətən Rusiya ordusunu bir sıra səbəblər üzündən – ordu üçün ərzaq daşıyan gəmilərin qəzaya uğraması, atların uzun, çətin yürüşdən, yem çatışmazlığından, dözülməz istilərdən kütləvi şəkildə qırılması, yerli şəraitə uyğunlaşa bilməyən əsgərlər arasında xəstəliklərin artması və bir sıra digər səbəblər üzündən imperatorun öz yürüşünü məqsədlərinə çatmadan dayandırmağa vadar olduğu qeyd edilir.[2] Lakin fikrimizcə, I Pyotrun yürüşünü dayandırmaq üçün bunlar həlledici səbəblər olmamışdır. Çünki adətən işğalçı ordular öz ərzaq ehtiyaclarını tutduğu yerlərin hesabına ödəyirdilər. Bizcə, Osmanlı sarayının I Pyotrun yürüşünə qarşı kəskin etirazı və Hacı Davudun 10 minlik qoşunla Samur çayının cənub sahilində qərar tutaraq çayı keçəcəyi zaman Rusiya ordusuna basqın etməyə hazırlaşmasına dair xəbər alması yürüşün dayandırılmasında mühüm amillər olmuşdur.[3] Rus tarixçiləri adətən yazırlar ki, guya I Pyotr ələ keçirəcəyi torpaqları almaq üçün çox qüvvə lazım olmadığını görüb, geri qayıtdı ki, işğalları kiçik hərbi ekspedisiyalar göndərmək yolu ilə davam etdirsin. Lakin bu qədər hərbi qüvvəni bir yerə cəmləyib, xeyli miqdarda vəsait sərf edən çar imkanı olsaydı heç olmazsa hədəfləri arasında ən mühüm yer tutan Bakını və Şamaxını zəbt edib, sonra özü dəniz yolu ilə rahatca Rusiyaya qayıda bilərdi.

I Pyotr Mollakənd düşərgəsindən əvvəlcə Dərbəndə döndü. Orada qarnizon qoyub ordunun əsas hissəsi ilə Rusiyaya qayıtdı.

---

[1] Yenə orada, АВПРИ, ф.77(СРП),1,1722 г., д.13, л.102 об.103.

[2] Материалы для новой истории русского флота , IV,с. 531; Викентий Лысцов.A.k. əsəri, s. 131.

[3] Петр Бутков. Göst. əsəri, I his., s.30; АВПРИ, ф.77 ( СРП), оп.1,1722 г., д.20, лл. 67-68.

Rusiyaya qayıtsa da Xəzərsahili əraziləri, ilk növbədə Bakını ələ keçirmək fikri Pyotru tərk etmirdi. Bakını zəbt etmək işini general-mayor Matyuşkinə tapşırıb əmr etdi: "Yazda buzlar əriyən kimi Bakıya yaxınlaş və Allahın yardımı ilə həmin şəhəri almağa çalış. Çünki bizim bütün işlərin açarları bu diyarlardadır"[1]

Lakin Bakıya dəniz vasitəsi ilə yürüş hazırlandığı bir zamanda, 1722-ci ilin oktyabırında Səfəvi dövlətinin paytaxtı İsfahan şəhərinin əfqanlar tərəfindən zəbt edilməsi xəbəri alındı. Əfqanların Xəzərin cənub sahilindəki mühüm strateji əhəmiyyətə malik Gilan əyalətini də tutmaq təhlükəsi vardı. Bunu nəzərə alan I Pyotr Bakıya ekspedisiya üçün hazırlanmış gəmilərin və silahlı qüvvələrin dərhal Gilana tərəf üzməsini əmr etdi. 1722-ci ilin dekabırında polkovnik Şipov başda olmaqla rus eskadrası Ənzəli limanına daxil olaraq heç bir müqavimətə rast gəlmədən Rəşt şəhərini zəbt etdi.[2]

I Pyotrun Xəzəryanı vilayətlərə yürüşü Rusiya-Osmanlı ziddiyyətlərini kəskinləşdirdi. Bunu öncədən görən I Pyotr hələ yürüş ərəfəsində İstanbuldakı nümayəndəsi İ.Neplyuyevə tapşırmışdı ki, Osmanlı sarayını guya ruslar işğal üçün yox, qiyamçıları cəzalandırmaq üçün gəldiyinə inandırsın". [3] Rus hökumətinin niyyətini araşdırmaq üçün Rusiyaya gələn Osmanlı nümayəndəsi Mustafa ağaya bildirildi ki, guya yürüş Şahla müharibə üçün yox, yalnız və yalnız Şamaxını ələ keçirmiş qiyamçılardan "haqsızlıqlarına görə qisas və layiqli intiqam almaq üçün" həyata keçirilir.[4]

Səfəvi dövləti ərazilərinə hərbi müdaxiləyə başlayarkən I Pyotr osmanlılar tərəfindən ola biləcək müdaxilənin qarşısını almaq üçün diplomatik tədbirə əl atdı.O, hələ yürüş ərəfəsində Həştərxanda olarkən Osmanlı ilə münasibətlərdə rus diplomatiyasının taktikası belə müəyyənləşdirilmişdi: Ona

---

[1]Василий Комаров.,Göst.əsəri c. 599-601.

[2] Yenə orada, s.578-579

[3] Петр Бутков. Göst.əsəri, I his., s.10.

[4] Владлен Гаджиев. Роль России в истории Дагестана. Москва,1965, c.110.

(Osmanlı sarayına T.M.) "o, İrandan özünə ərazi götürmək istəyirmi?" sualı verilsin, lakin əgər Osmanlı tərəfindən Rusiya rezidentinə Səfəvi torpaqlarının bölüşdürülməsi təklif olunarsa, rus çarının bu məsələ üzrə saziş bağlamağa razılaşacağı yalnız şifahi bildirilməli, heç bir halda yazılı vəd verilməməlidir.[1]

1722-ci il iyunun 25-də çarın S.Avramova verdiyi fərmanda sonuncuya tapşırılırdı ki, mümkünsə şahla, olmasa onun vəliəhdi və ya baş vəziri ilə görüşüb rus çarının guya yalnız Şirvan üsyançılarını cəzalandırmaq üçün yürüşə çıxdığına inandırmağa çalışsın. Xəbər alınmışdır ki, qiyamçılar bir güclü dövlətdən (Osmanlı imperiyası nəzərdə tutulur) himayə xahiş etmişlər, həmin dövlət isə Səfəvi dövlətinin yalnız dənizkənarı vilayətlərinə deyil, digər vilayətlərinə də göz dikmişdir.[2]

Yürüşü yarımçıq dayandırıb Rusiyaya qayıdan I Pyotr 1722-ci il sentyabrın 28-də VI Vaxtanqa rus çarının məqsədinin qiyamçıları cəzalandırmaq və dəyən zərərə görə Xəzər dənizi ətrafında yerləşən torpaqları tutmaqdan ibarət olduğunu şah sarayına bildirməsini tapşırmışdı. Dərbənd artıq rusların əlindədir, bir sıra başqa yerlər isə Hacı Davudun əlindədir və Şahın onları geri alması mümkünsüzdür. Əgər Xəzərsahili vilayətlər Rusiyaya güzəşt edilsə, I Pyotr qiyamçılara qarşı mübarizədə Şaha yardım göstərməyə hazırdır. Məlumdur ki, vəziyyət belə qalsa, Osmanlı imperiyası həmin əraziləri ələ keçirəcək, buna isə çar qətiyyən razı deyil.[3]

Yürüş başlayan kimi Neplyuyevə göndərilən buyruqda rus çarının öc almaq niyyəti ilə yürüşə başladığını Osmanlı sarayına bəyan etmək tapşırıldı. Neplyuyevə bildirildi ki, I Pyotr "Şirvan və Gilan vilayətlərinin, habelə həmin əyalətlər arasında yerləşən bir əyalətin" (söhbət Təbriz əyalətindən gedir) Rusiyaya birləşdirilməsini istəyir.[4]

---

[1] АВПРИ,ф.77(СРП),1, 1722 г., д.4, лл.5, 25, 29; д. 6, л.51.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1723 г., д. 4, л. 1 и об.

[3] Yenə orada, v. 3.

[4] АВПРИ, ф. 89 (СРТ),оп.1, 1722 г., д. 6, ч.1,лл. 26, 30 об.

Əvvəlcə Osmanlı hökuməti Rusiya çarının həqiqətən yalnız məruz qaldığı zərər üçün əvəz alması haqqında sözlərinə inandı və rus qoşunlarının Xəzəryanı əyalətlərə daxil olmasına maneçilik göstərmədi. Ancaq, tezliklə I Pyotrun özünün başçılığı ilə böyük rus ordusunun Xəzəryanı regionda görünməsi Osmanlı hökumətində rusların uzunmüddətli işğalçı niyyətlərə malik olması ilə bağlı şübhə oyandırdı.

J.F.Hammer yazır ki, Rusiya çarının Xəzər dənizi ətrafında irəliləməsi Osmanlı sarayında təlaş və çaxnaşmaya səbəb olmuşdu.[1]

Bir sıra Avropa diplomatları da, ilk növbədə ingilis diplomatiyası Osmanlı hakim dairələrini qızışdırır, Rusiyanın Trabzona yaxın olan Gürcüstanı da işğal etmək niyyətində olduğunu bildirirdi. İngiltərənin dövlət katibi lord Karteret I Pyotrun öz planlarını həyata keçirməsini Hindistandakı ingilis mülklərini təhlükəyə məruz qoyacağından ehtiyatlanırdı. İngilis hakim dairələri bu halda Hindistanda ticarətin bütünlüklə Rusiyanın əlinə keçəcəyindən, ipək ticarətinə inhisarı öz əlinə alacağından qorxurdular. Bəzi ingilis dövlət xadimləri hətta sonradan Rusiyanın güclənib Osmanlı ərazilərində özündən asılı "Yunan imperiyası" yaradacağını düşünürdülər. [2] Karteretin göstərişi ilə İstanbuldakı ingilis səfiri S.Stenyan Osmanlı-Rusiya münaqişəsinin kəskinləşməsi üçün hər imkandan istifadə edirdi. Karteret Stenyana 5 yanvar 1723-cü il tarixli məktubunda bütün vasitələrdən istifadə etməyi, Osmanlı impriyasının tacirlərinə, əgər rus çarı nəzərdə tutduğu ölkələri ələ keçirərsə, ticarətdə öz mövqelərini itirəcəklərini, Rusiyanın ipək ticarətində inhisarçı olacağını təlqin edib qorxutmağı məsləhət görürdü.[3]

---

[1] Y.Von Hammer-Purqstale.Vekke I, band 7-8. Geschite des Osmanis hen Reicher Gras (Austriya),1965, p.297.

[2] J.Jakov.Rezichudan England zu Rusland an zur Turkei in Yahren 1718-1727. Bazel,1945, p. 71-72.

[3] Yenə orada. J.Jakov.Rezichudan England zu Rusland an zur Turkei in Yahren 1718-1727. Bazel,1945, p. 71-72.

[3] Yenə orada.

Osmanlının baş vəziri İ.Neplyuyevə bildirdi ki, Osmanlı dövləti gürcülərin rus təbəəliyinə keçməsinə yol verməyəcək və müharibəyə başlayacaq, “qoy əlahəzrət (yəni I Pyotr) İran ölkələrindən öz imperiyasına yola düşsün”.[1]

Avqust ayında sədrəzəm İbrahim paşa Neplyuyevi öz yanına çağırıb demişdi: ”Sizin hökmdarınız, düşmənlərini təqib edərək Portadan (Osmanlı İmperiyasından) asılı olan vilayətlərə daxil olur. Məgər bu əbədi sülhün pozulması deyilmi?... Dağıstanlılara qarşı belə xırda işdən ötrü sənin hökmdarının şəxsən özünün böyük qoşunla gəlməsi lazım deyildi, iddiası bizim vasitəmizlə təmin oluna bilərdi”.[2]

1722-ci il sentyabrın 14-də Xarici İşlər Kollegiyasında İ.Neplyuyevə belə bir buyruq göndərmək qərara alındı: Əgər Osmanlı hökuməti Səfəvi dövlətinin bölünməsini təklif edərsə, Rusiyaya da “öz sərhədlərinin təhlükəsizliyi üçün bəzi əyalətlərin” zəruriliyi nəzərə alınmaqla razılıq versin.[3] Əgər Osmanlı hökuməti Rusiyanın Səfəvi dövlətinin məhz hansı torpaqlarını tutmağa hazırlaşdığını daha konkret göstərməyi tələb edərdisə, Neplyuyev onun dövləti “Osmanlı sərhədləri yaxınlığında yerləşən İran əyalətlərindən heç birini öz ərazisinə qatmaq istəmir, cavabını verməli idi”.[4]

Vyanadan İstanbula çatan xəbərlərə görə, rus çarı Səfəvi sərhədlərinə 105 min nəfərlik ordu yeritmiş, Ukraynadakı qoşunlarının sayını 15 min nəfər artırmışdı. İngiltərə, Avstriya və Venesiya səfirləri Osmanlı hökumətinə rus çarının Azərbaycandakı İrəvan bəylərbəyliyini və Gürcüstanı da ələ keçirmək istəməsi fikrini təlqin edirdilər.[5]

---

[1] J.Jakob.A.k.ə.,s.144.

[2] Кочубинский А.А Граф А.И.Остерман и раздел Турции. Одесса , 1899, с.15; Маркова О. Göst.əsəri, s.109.

[3] Сергей М.Соловьёв История России, кн.IX ( тт 17-18).М.,1963,сс.393-394.

[4] АВПРИ,Ф 89 ( СРП), 1, 1722 г., д 4, л.51; Армяно –русские отношения в XVIII веке. Т. 1,.ч.2, лл. 125-126

[5] АВПРИ, ф. 89 (СРП), оп. 1, 1722 г., д. 4, л. 45 об.

Eyni zamanda rus çarı Səfəvi ərazilərini ələ keçirməsini qanuniləşdirmək istəyirdi. Konsul Avramov 8 oktyabr 1722-ci il tarixli təhriratında yazırdı ki, çarın göstərişinə görə, onun Şah Sultan Hüseynlə görüşü mümkün olmadığından o, vəliəhd Təhmasibin Qəzvinə gəlməsini eşidib mehmandarını çağırıb tapşırmışdı ki, indi Təhmasibin yanında olan və ehtimad-üd-dövlənin əvəzinə dövlət işlərinə başçılıq edən divanbəyiyə desin ki, Səfəvilər Rusiya imperatorundan yardım almaq istəyirlərsə, dərhal Rusiyaya səlahiyyətli səfir göndərməlidirlər. Sentyabrın 2-də mehmandar Avramova şahzadənin onu qəbul etmək istədiyini bildirdi. Həmin gün şahzadə Təhmasiblə görüşən rus konsulu I Pyotrun Şah Sultan Hüseynin adına göndərdiyi fərmanı şahzadəyə təqdim etdi. Təhmasib bildirdi ki, o, Rusiyaya səlahiyyətli səfir göndərmək qərarına gəlmişdir.[1] Ehtimad-üd-dövlənin xidmətçilərindən olan və həmin vaxt Avramova mehmandarlıq edən İsmayıl bəyi çar sarayına göndərmək qərara alınmışdı.[2]

Elə bu zamanlarda şah sarayına göndərilmiş Əhməd ağa İstanbula qayıdır. Sədrəzəm onun Səfəvi ərazilərində siyasi şərait haqqında məlumatını dinləyəndən sonra bu vaxt Belqradda olan Neplyuyevi yanına çağırtdırıb Rusiya çarını həyata keçirdiyi hərbi əməliyyatlarla Osmanlı İmperiyasının mənafelərinə zərər vurmaqda ittiham etdi. Neplyuyev baş vəziri inandırmağa çalışırdı ki, I Pyotr yalnız cəza məqsədi güdür və tutulmuş ərazilərdə möhkəmlənmək fikrində deyil. O, buna əmin olmaq üçün Rusiyaya nümayəndə göndərilməsini təklif etdi və əyanlardan biri – Nişli Mehmet ağa Rusiyaya göndərildi. Eyni zamanda Krım xanına Rusiyaya qarşı hər hansı düşmənçilik hərəkətindən çəkinməsi barədə göstəriş verildi. Elə həmin vaxt, yeni xəbərləri gözləməyərək, İbrahim paşaya Ərzurumda cəmləşdirilmiş ordu ilə Gürcüstana daxil olması, Kartli çarını itaətə gətirməsi haqqında fərman göndərilməsi, Trabzon və

[1] АВПРИ, ф. 100 (СРА), оп. 1, 1722 г., д. 2, лл. 6-8.
[2] Yenə orada, v. 8.

Azova qoşun və ərzaq yola salınması qərara alındı.[1]

Neplyuyev xəbər verirdi ki, Osmanlı sarayı əvvəlcə Şərqi Gürcüstana sahib olmağı, sonra isə rus qoşunlarını Xəzəryanı bölgələrdən sıxışdırıb çıxarmağı planlaşdırır, "bütün qüvvə ilə İrana qarşı hərəkət etməyə" hazırlaşır. Ona görə də Azova və Ərzuruma aramsız olaraq hərbi sursat və artilleriya göndərilir.[2]

Cənubi Qafqazda hərbi əməliyyatlara hazırlaşan Osmanlı sarayı nəhayət ki, Hacı Davudu və özünü müstəqil elan etmiş Şirvan xanlığını himayəyə almaq qərarına gəldi. Şirvan ruhaniləri və feodalları tərəfindən göndərilmiş üç nəfərdən ibarət nümayəndəlik Hacı Davudun üç ildən bəri onları iranlılardan qoruduğunu bildirib, onun Osmanlı sultanının himayəsi altında Şirvan xanı təyin olunmasını xahiş etdilər.[3] Lakin çağırılan divanda əksəriyyət şirvanlılara yardıma tərəfdar çıxsa da, baş vəzir Osmanlı dövlətinin Şirvana görə Rusiya ilə müharibəyə cəlb oluna biləcəyindən narahatlığını bildirdi və buna görə də yarımçıq qərar qəbul edildi. Şah Şirvana qarşı hər hansı hərəkət edərsə, hərbi əməliyyatlara başlanılsın, Hacı Davud isə hələlik rəsmən himayəyə qəbul olunmasın.[4]

Osmanlı hökumətinin daha qətiyyətli dairələrinin təzyiqi altında nəhayət ki, şirvanlılara yardım göstərmək haqqında qərar qəbul olundu. Oktyabrın 12-də Osmanlı hökumətinin tərcüməçisi İ.Neplyuyevin yanına gəlib hökuməti adından divan keçirildiyini və divanda qiyamçı gürcü çarının dağıstanlılara və şirvanlılara qarşı çıxdığına görə Ərzurum paşasının 50 minlik qoşunla Şərqi Gürcüstana daxil olmasına dair qərar qəbul edildiyi bildirdi.[5] Sədrəzəm tərcüməçisi vasitəsilə Neplyuyevə Osmanlı sarayının Gürcüstanın Səfəvilərə məxsus hissəsəsini tutmaq niyyətində olmadığını, yalnız onu yenidən Şaha itaətə vadar etmək istədiyini

---

[1] АВПРИ, 89 (СРТ) 1,1722 г., д. 4, л 51

[2] Сергей Соловьев. История России, кн.9 (тт 17-18), с 394-395; M.Z. Shay. The Ottoman empire from 1720 to 1734. Urbana: 1944, p. 95.

[3] АВПРИ,ф. 89 ( СРТ), 1,1722 г,д.6, ч.2,л.287 и об.

[4]İsmail H. Uzuncarşılı.Osmanlı tarihi Ankara ,1956, c. IV,s.188 .

[5] АВПРИ , ф. 89( СРТ), 1,1722, д.6, ч.2, л.402.

də bildirməli idi.[1]

Neplyuyev vəziyyəti o dərəcədə gərgin sayırdı ki, kansler Qolovkinə 15 oktyabr 1722-ci il tarixli məktubunda yazırdı: hər ehtimala qarşı Hollandiya səfiri ilə razılışdırılmışdır ki, əgər Osmanlı ilə Rusiya arasında müharibə başlasa, yaxud Neplyuyev həbs olunsa Hollandiya səfiri vasitəsi ilə öz dövləti ilə əlaqə saxlasın. Neplyuyev Rusiyaya göndərdiyi gizli təhrirat və məktubların surətlərini rəqəmlərlə şifrələyib holland səfirinə vermişdi, şifrələnməsini başa çatdırmaq imkanında olmadığı yazılarını isə yandırmaq niyyətində idi. [2] Çox keçməmiş Neplyuyev hər ehtimala qarşı oğlunu Hollandiyaya göndərdi.[3]

Neplyuyev Rusiya ilə münasibətlərin kəsilməməsinə çalışsınlar deyə sədrəzəm kahyasına və rəis-ül-kitaba 2 min əşrəfi (çervon) rüşvət vermişdi.[4]

Rusiyaya qarşı sərt tədbirlər görməməsi isə sədrəzəmin vəziyyətinə mənfi təsir göstərirdi. Buna görə də sədrəzəm Damad İbrahim paşa çox şeyi gizlədirdi.[5]

Eyni zamanda 1722-ci ilin noyabrında İstanbuldakı Fransa səfiri Neplyuyevə Osmanlı sarayını Rusiya ilə sülhü pozmaqdan çəkindirməsi üçün kraldan göstəriş aldığını bildirdi.[6]

Rusiya-Osmanlı münasibətləri günü-gündən kəskinləşirdi. Noyabr ayında dəftər əmiri Hacı Mustafa Osmanlı sarayının Rusiya çarının Səfəvi torpaqlarını tərk etməsi haqqında tələbini Neplyuyevə bildirmiş və bu tələbi rus hökumətinə çatdırmasını istəmişdi.[7]

Neplyuyev 4 noyabr 1722-ci il tarixli təhriratında yazırdı ki, Krım xanının nümayəndələri Rusiya çarının öz hərəkətləri ilə Osmanlı hökumətinin mənafeyinə zərər vurduğunu, baş vəzirin

---

[1] Yenə orada, v. 402 a.ü.
[2] Yenə orada, 1722-ci il, iş 6, his. II, v. 417 və a.ü.
[3] Yenə orada,v.488 a.ü.
[4] АВПРИ , ф. 89( СРТ), 1,1722, д.6, ч.2, л.488 об.
[5] Yenə orada,v.492.
[6]АВПРИ , ф. 89( СРТ), 1,1722, д.6, ч.2, л. 492 и об.
[7] Yenə orada, v.442, 444.

isə həqiqəti gizlətdiyini sultana bildirdilər. Sultan III Əhməd qəzəblənərək baş vəziri edam etdirmək istədi. Lakin İbrahim paşa ordunun Gürcüstana hərəkət etməsi haqqında tələsik göstəriş verərək öz həyatını qurtardı.[1] 1722-ci ilin sonunda Neplyuyev öz hökumətinə osmanlıların Rusiya ilə müharibəyə hazırlaşdığını, ancaq qış vaxtı olduğu üçün hələlik əməliyyatlara başlamayacaqlarını yazırdı.[2]

İsveçlə qanlı müharibəni yenicə bitirmiş, həm də 1711-ci il Prut səfərinin acınacaqlı nəticəsini unutmayan I Pyotr Osmanlı ilə yeni hərbi münaqişəyə girməkdən çəkinirdi. Fransanın Rusiyadakı səfiri de Kamredon kardinal Dübuaya 29 yanvar 1723-cü il tarixli raportunda yazırdı: "Məncə, çar müharibəyə (Osmanlı ilə-T.M) başlamağa hədsiz ehtiyat edir, çünki yaxşı sonluqla belə onun qüvvəsi xeyli azalacaq. Çarın Həştərxanadan özü ilə götürdüyü süvari qoşunu tamamilə pozulmuşdur və (ölkənin – T.M.) maliyyə vəziyyəti də həmçinin pisdir".[3] Rus hökuməti Osmanlı imperiyası ilə münaqişənin sırf sülh yolu ilə nizamlanması üçün maksimum səy göstərirdi. Kansler Q.Qolovkin dekabrda Pyotra Neplyuyevə Osmanlı imperiyası ilə münasibətlərin kəskinləşməsinin qarşısının alınması üçün zəruri tədbirlər görülməsi haqqında göstəriş verdiyini yazırdı. Kampredon rus hökumətinin təkidi ilə İstanbuldakı Fransa səfirinə yazmışdı: "O, hər cür vasitələrdən istifadə edərək sultan sarayını (Rusiya ilə-T.M) əlaqələrin kəsilməsindən saxlasın.[4]

I Pyotrun ordusunun əsas qüvvələri ilə Xəzəryanı regiondan geri dönməsi Osmanlı hökumətini sakitləşdirdi və iki dövlət arasında münasibətlərdəki gərginlik azaldı. İlin sonunda İbrahim paşa Nevşehirli Neplyuyevə indi şübhələrin yox olduğunu, Osmanlı hökumətinin Rusiya ilə dostluğun saxlanılması və

---

[1] Сергей Соловьёв. История России , кн. IX ( тт.17-18); АВПРИ, ф. 89 (СРТ), оп. 1,1722 г, д. 6, ч.2, л. 452.
[2] Yenə orada
[3] СИРИО, т. 49, сс. 245-296.
[4] АВПРИ, ф. 89 (СРТ), оп. 1,1722 г., д.6, ч.2, л.456 об.

möhkəmləndirilməsini arzuladığını bildirdi.[1]

Rusiya ilə müharibəyə başlamaq niyyətindən vaz keçən Osmanlı hökuməti eyni zamanda Cənubi Qafqaz barədə planlarını gerçəkləşdirilməyə çalışırdı. Lakin qış mövsümü başladığından hələlik Cənubu Qafqazda açıq hərbi əməliyyatlara başlamaq imkanı olmayan Osmanlı dövləti Hacı Davudu rəsmi himayəyə qəbul etməklə regionda mövqələrini möhkəmləndirmək qərarına gəldi.

1723-cü il yanvarın 11-də Osmanlı sarayından qapıçıbaşı Dərviş Mehmet ağa sultan fərmanı ilə Hacı Davudun yanına göndərildi. Hacı Davuda Krım xanının malik olduğu şərtlərlə Osmanlı himayəsinə qəbul edildiyi bildirilirdi. Eyni zamanda Hacı Davuda "bütün vasitələrlə rus qarnizonunu Dərbəddən və oradakı digər diyarlardan qovmaq" barədə məxfi əmr də verilmişdi.[2]

Şirvan xanlığının Osmanlı himayəsi ilə bağlı Sultan III Əhmədin "Dərbənd xanlığının, qədimdən ona məxsus olduğu üçün", Osmanlı imperiyasına könüllü birləşməsi haqqında bəyannaməsi elan olundu və bəyannamə xarici ölkə səfirlərinə paylanıldı.[3]

Hacı Davudun dünənki müttəfiqləri – Surxay xan Qazıqumuqlu və Qaytaq usmisi Əhməd xan onun Şirvana xan təyin olunmasından incidilər və Hacı Davuda qarşı müxalif olmağa başladılar. Bu səbəbdən də Osmanlı hökuməti Qara Mustafa paşanı 1000 süvaridən ibarət atlı dəstə ilə Hacı Davudun hakimiyyətini möhkəmləndirmək üçün Şamaxıya göndərdi.[4]

Şirvan Osmanlı himayəsinə qəbul edildikdən sonra qapıçıbaşı Nişli Mehmet ağa vasitəsilə rus hökumətinə bildirildi ki, Sultanın himayəsi altında olduğu üçün rusların Şirvana yürüşü

---

[1] Сергей Соловьев. Петр Великий на Каспийском море, с. 194.

[2] АВПРИ, ф. 89 (СРТ), оп. 1,1723 г., д. 5, ч.1, л. 11 и об.

[3] Ольга Маркова Göst. əsəri, s. 110.

[4] АВПРИ, ф. 89 (СРТ), оп. 1,1723 г., д. 5, ч.1, л. 73 и об.

iki dövlət arasındakı sülhə ziddir.[1] Osmanlı elçisi rusların Xəzəryanı əyalətləri tərk etməsi tələbini də çatdırıb, çara şirvanlılarla münaqişənin təmzimləməsində sultanın vasitəçiliyini təklif etdi[2]. Osmanlı hökuməti bildirirdi ki, Hacı Davud Osmanlı dövlətinə tabe olduğu üçün, Dərbəndin ruslar tərəfindən tərk edilməsi dostluğun saxlanılması üçün yeganə vasitədir. Rusiya ordusu heç bir bəhanə ilə Səfəvi ərazilərinə daxil olmamalı, çar daha bu işlərə qarışmamalı, həmçinin gürcülərə silah verilməsinə son qoyulmalıdır.[3]

Qeyd edək ki, Səfəvilərin Osmanlı imperiyasına qonşu bəzi digər Azərbaycan vilayətlərində də Osmanlı dövlətinə meyil vardı. 1723-cü il fevralın 9-da keçirilmiş divanda Ərzurum hakimi İbrahim paşanın məktubu oxundu. Paşa yazırdı ki, İrəvan naibi Osmanlı himayəsinə qəbul olunmaq xahişi ilə müraciət etmişdir.[4]

Osmanlı-Rusiya münasibətlərində müəyyən mülayimləşmə ingilis diplomatiyasını açmır, ingilis diplomatları iki dövlət arasında münasibətləri gərginləşdirmək üçün əllərindən gələni edirdilər. İngiltərənin dövlət katibi Karteretin göstərişinə əsasən A.Stenyan Osmanlı sədrəzəminə təlqin etməli idi ki, rus çarının Xəzəryanı regiondan geri qayıtması onun bu regionda işğalçılıq planlarından imtina etməsi demək deyil; gələcəkdə o daha böyük qüvvə ilə yenidən burada görünəcək.[5] Stenyan maksimum qüvvə sərf etməli idi ki, Osmanlı tacirlərini rusların yürüşü münasibətilə etirazlara sövq etsin.[6] Stenyanın 1723-cü ilin əvvəlində Osmanlı hökumətinə təqdim etdiyi memorandumda çarın Xəzər sahilinə yeni yürüş üçün böyük qoşun topladığı və öz torpaqlarını Qara

---

[1] İsmail Hakkı.Uzunçarşılı Göst. əsəri, IV c, s. 189; Николай Смирнов. Göst. əsəri, s. 67; Ольга Маркова. Göst. əsəri, s. 27.
[2] Ольга Маркова. Göst. əsəri, s. 27.
[3] M.Z.Shay. Göst. əsəri, s. 105.
[4] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1723 г., д. 5, ч. 1, л. 73 и об.; Армяно-русские отношения, т. 2, ч. 2, сс. 130-131.
[5] J.Jaков. Reziehuden England zu Rusland.., p.144.
[6] Yenə orada, p.144.

dənizə qədər genişləndirmək niyyətində olduğu vurğulanır, rus çarının "Avropa ölkələrinin heç biri ilə dostluq etmədiyinə" görə ona qarşı mübarizənin asan olması fikri aşılanırdı.[1]

İnglislərin qızışdırıcı mövqeyi öz təsirini göstərdi. Nəhayət fevralın 9-da divan qəti qərara gəldi ki, əgər rus çarı İran və Cənubi Qafqaza girəcəksə, Osmanlı himayəyə qəbul olunmuş Şeyx Davudu müdafiə edəcək və onun vasitəsilə Rusiya ilə müharibəyə girəcək.[2] Fevralın 21-də Neplyuyevi qəbul edən sədrəzəm İbrahim paşa ona bildirdi: Bu yaxınlarda Səfəvi irsinin iki imperiya arasında bölünməsinə razılıq verilsə də, indi bölməyə heç nə yoxdur, çünki əfqanların başçısı Mir Mahmud artıq Səfəvi dövlətinin paytaxtı İsfahanı tutmuş və hətta Qəzvinə çatmışdır. Hacı Davud Şirvanı ələ keçirmiş və sultanın himayəsini qəbul etmişdir. Mir Mahmud da sultanın himayəsini qəbul etməyə hazırdır. Osmanlı hökuməti onların hər ikisini öz tabeliyində saxlayacaq və adı çəkilən ərazilərdə əvvəlki tək sərbəst ticarət edə biləcəklər.[3] Çarın Hacı Davuddan və müttəfiqlərindən hələ qisas almadığını xatırladan Neplyuyevə vəzir cavabında Rusiya qonşularının artıq Dərbəndə qədər irəlilədiyini, yolu üzərindəki yerləri viran etdiyini demişdi. Neplyuyev sultanın Şirvan üsyançılarını himayə etməyəcəyi barədə verdiyi sözə əməl etmədiyini xatırladanda sədrəzəm hədəyə keçərək rus monarxının ordusuyla Xəzəryanı bölgələrə gələcəyi təqdirdə, Hacı Davud, Mir Veys və digər hakimlərin birləşərək ona qarşı çıxacağı və sultanın da müsəlman xalqlarının müdafiəçisi kimi müharibəyə girməli olacağını bildirdi. Sonra vəzir elan etdi ki, Rusiya güclə bəzi əraziləri ələ keçirə bilər, amma onları özündə saxlamamalıdır, çünki bu torpaqların əhalisi müsəlmanlardır.[4]

1723-cü illin fevralında sultanın yanında keçirilən növbəti divanda Krım xanının I Pyotrun gələn yazda Şirvanda hərbi

---

[1] Сб.РИО, т. 52, с. 695; Сергей Соловьёв. История России, кн. XI (т.т. 17-18) ,с397; А.А.Абдуррахманов. Азербайджан., с.34.

[2] АВПРИ, ф.89 (СРТ), 1,1723 г..д.5,ч.1,л л.95 об-96.

[3] Yenə orada,v. 98 və a.ü.

[4] Yenə orada,v.100 a.ü.

kampaniyanı davam etdirmək niyyəti barədə xəbər verən məktubu oxundu. Qərara alındı ki, Rus hökümətinə aşağıdakı məzmunda tələb elan olunsun: Əgər çarın şirvanlılara və Mir Mahmuda iddiası varsa, qoy bunun Sultan vasitəsilə ödənilməsini tələb etsin, özünün bütün qoşunlarını Cənubi Qafqazdan çıxarsın və bundan sonra "İran işləri"nə müdaxilə etməsin. Əks təqdirdə iki ölkə arasında olan "əbədi" sülh pozulacaq və Sultan Səfəvi mirası uğrunda onunla müharibəyə girməyə məcbur qalacaq.[1]

Rusiya ilə müharibəyə tələsən Osmanlı hököməti qoşunlara yürüş əmri verdi.[2] Rusiya və Osmanlı imperiyaları arasında qarşılıqlı münasibətləri və ümumi şəraiti dəyərləndirən fransız naziri Kardinal Dübua 1723-cü ilin yazında müharibə olacağını labüd sayaraq, öz ölkəsinin Sankt Peterburqdakı səfiri de Kampredona yazırdı: "Öz torpaqlarını eyni istiqamətdə genişdirilməyə can atan işğalçılar arasında toqquşma labüddür".[3]

İrəlidə qeyd olunduğu kimi, osmanlılarla müharibə I Pyotrun planlarına daxil olmasa da o, yenicə işğal etdiyi Xəzəryanı əraziləri də əldən buraxmaq niyyətində deyildi. Buna görə də Rus hökuməti diplomatik manevr etdi. 1723-cü il aprelin 13-də Neplyuyevin yanına gedən kuryerin apardığı çar əmrində Osmanlı hökümətinə I Pyotrun razılığa gəlmək istədiyi və bu məsələdə bütün səlahiyyətlərin Neplyuyevə verildiyi elan olunurdu. Eyni məzmunlu məktub Rusiyadakı Osmanlı nümayəndəsi Nişli Mehmet ağadan da gəldi. Mehmet ağa bildirirdi ki, çar "əbədi dostluq sarsılmasın" deyə Osmanlı höküməti ilə razılaşmaq barədə Neplyuyevə sərəncam vermiş, Hacı Davuda qarşı hərbi əməliyyatların dayandırılması barədə Osmanlı sultanının xahişinin yerinə yetirilməsi barədə söz vermiş, əvəzində Osmanlı imperiyasının da Səfəvi ərazilərinə öz qoşunlarını göndərməməsini və Hacı Davuda Rusiya himayəsində olan şəhərlərə hücuma keçməsini qadağan etməsini

---

[1] АВПРИ, ф. (СРТ), 1,1723 г., д.5, ч.2, л. 102.
[2] Yenə orada.
[3] СИРИО, т. 52, д. 44; В.Н.Левиатов. Göst. əsəri, s.85.

xahiş etmişdir. Çar bunu da bildirmişdi ki, Sultan məsuliyyəti öz üzərinə götürdüyü üçün Xəzəryanı regiona yürüşlə bağlı çarın xərc və zərərlərininin ödənilməsinə kömək etməlidir. [1]

Əslində I Pyotr Dərbənddən imtina etmirdi və işgallarını davam etdirmək niyyətində idi. Yalnız Səfəvi mirasının bölünməsinə dair danışıqlara başlamaq üçün şərait yaratmaqdan ötrü hər iki tərəfin qoşunlarının Səfəvi ərazilərinə göndərilməsinin müvəqqəti dayandırılmasını təklif edirdi. Çar Xəzər dənizi sahilində bəzi limanları işğal etmək niyyətini gizlətməyərək bu regionda nə Osmanlı, nə də hər hansı digər bir dövlətlə vuruşmaga hazırlaşmadığını qeyd edirdi. Gürcüstana (daha doğrusu, Şərqi Gürcüstana – T.M) gəldikdə isə o nə Osmanlı sultanından, nə də Rusiyadan asılıdır. Çar onun müqəddaratı haqqında danışıq aparmaq niyyətində deyil. Bundan başqa, I Pyotr Deli sultan tərəfindən Krıma köləliyə aparılmış 30 min nəfərin qaytarılmasını tələb edirdi.[2]

27 fevral 1723-cü il tarixli buyruğunda I Pyotr İ.Neplyuyevin qarşısında aşağıdakı vəzifələri qoyurdu – Xəzəryanı əyalətlər istisna olmaqla, digər Cənubi Qafqaz əyalətlərinin Osmanlı imperiyasına verilməsinə bu şərtlə razılaşmaq olar, gərək o, öz ordusunu bu ərazilərə daxil etməsin. Hər iki tərəf Gürcüstana qoşun göndərməkdən imtina etməlidir.[3]

Beləliklə, rus çarı Xəzəryanı əraziləri şərti olaraq iki zonaya bölürdü:

1) Dənizdən nisbətən uzaq ərazilər. Rusiya həmin əraziləri işğal etməkdən imtina edir və hərbi əməliyyatları dayandırmağa hazır olduğunu bildirirdi. Ancaq, Osmanlı dövləti də bu ərazilərə qoşun göndərməməli idi.

2) Dənizin bilavasitə yaxınlığında yerləşən ərazilər. Rusiya bu əraziləri heç vəchlə güzəştə getmək istəmirdi. Dənizkənarı torpaqlarda yaşayan, əksəriyyəti sünni müsəlman olan sakinlərə

---

[1] АВПРИ,ф.89(СРТ), оп.1,1723г,д.5,ч.2, лл.192 об. -193.
[2] M.Z. Shay.Göst.əsəri,s.106.
[3]Викентий П Лысцов. Göst.əsəri.137.

gəldikdə isə onlar Rusiya təbəəliyini qəbul etməkdən imtina etdikləri halda Osmanlı imperiyasına məxsus olan torpaqlara köçürülməli idilər.[1]

Osmanlı tərəfi ilə sonrakı danışıqlarda, Neplyuyev 27 fevral 1723-cü il tarixli buyruqda olan şərtləri təkidlə müdafiə edirdi. Çünki, I Pyotr Osmanlı imperiyasının Xəzər dənizinə çıxacağından və Bakını tutacağından ehtiyat edirdi. O, general Matyuşkinə məktubunda özünün bu xüsusda keçirdiyi təlaşı açıq ifadə edirdi.[2]

Kansler Q.Qolovkin İ.Neplyuyevə 9 aprel 1723-cü il tarixli məktubunda ona Osmanlı sarayı ilə razılığa gəlmək üçün səlahiyyət verildiyini yazırdı. Rusiyanın mənafeləri heç bir digər dövlətin Xəzər sahillərinə buraxılmamasını tələb edir. Rusiyanın ələ keçirdiyi Dərbənd və digər yerlər heç vaxt qiyamçıların və Mir Mahmudun əlində olmamışdır. Onların sakinlərinin xahişi ilə bu yerlər Rusiya hakimiyyəti altına alınmışdır. Bu yerlər Osmanlı sərhədlərindən çox uzaqdadır. Osmanlılar verdikləri vədi pozaraq Şirvan üsyançılarını öz himayəsi altına alırlar.[3]

Kansler Qolovkin I.Neplyuyevə 20 aprel 1723-cü il tarixli məktubunda yazırdı ki, əgər Osmanlı höküməti bundan ötrü sülhü pozacaqsa, onda Rusiya da müdafiə olunmağa hazırdır. Rus qoşunlarına sərhədlərdə toplaşmaq və hazır olmaq əmri verilmişdir.[4] Peterburqdakı fransız səfiri Kampredon 1723-cü il mayın 2-də de Bonaka yazırdı ki, I Pyotr osmanlıların Şirvanı himayəyə alması ilə razılaşır, bu şərtlə ki, onlar Rusiyaya qarşı heç bir hərəkət etməsinlər. Osmanlı sarayı da Şirvana hərbi qüvvə göndərməsin. Rus imperatoru da həmetiqad olduğuna görə gürcüləri himayəsiz qoya bilməz, ancaq Gürcüstana qoşun göndərməyəcək. Xəzər sahillərinə gəldikdə isə, I Pyotr buranın

---

[1] Yenə orada.s.138

[2] Собственноручный указ императора Петра ген. Матюшкину: Bax: В.Комаров. Göst. əsəri, Əlavələr, s. 60.

[3] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1723 г., д. 2, л. 141.

[4] Сергей Соловьев.История России, кн.9 (тт.17-18), с.397.

digər hansısa bir dövlətin əlinə keçməsinə qətiyyən razı deyil.[1] Doğrudan da aprelin 4-də I Pyotr knyaz M. Qolitsinin komandan təyin edilməsi və Ukrayna ordusunun döyüş hazırlığına gətirilməsi barədə əmr vermişdi.[2] Rus hökuməti eyni zamanda Cənubi Qafqazın mərkəzi vilayətlərində möhkənləməyə də cəhd göstərirdi. I Pyotr A.Baskakovun komandanlığı altında 2 min nəfərlik dəstəni çar VI Vaxtanqa yardım üçün Gürcüstana göndərdi.[3] Ancaq, 1723-cü ilin iyununda Kartlidən qayıdan İvan Tolstoyla rastlaşan Baskakov Vaxtanqın Məhəmmədqulu xan (Konstantin) tərəfindən məğlub edildiyini və Tiflisin osmanlılara təslim olunduğunu eşidib, ona verilmiş əmrin yerinə yetirilməsini qeyri-mümkün sayaraq Həştərxana qayıtdı.[4]

Rus hökumətinin diplomatik və başqa addımları öz bəhrəsini verdi. Neplyuyevin sözlərinə görə, "dinclik həvəskarı olan" Osmanlı sədrəzəmi Damad İbrahim paşa həm Rusiyanın Səfəvi ərazilərini bölmək üçün sövdələşmə təklifindən, həm də rus çarının ordunun əsas hissəsi ilə Rusiyaya qayıtmasından xəbər tutan kimi dövlətin döyüşkən ovqatlı dairələrini sakitləşdirməyə başladı, rus ordusunun Xəzəryanı regiondan çıxdığını bildirdi. Osmanlı ordusunun hərbi hazırlıqları dayandırıldı. [5]

Lakin tezliklə Osmanlı hökuməti yanıldığını anladı. İyunun 5-də Rusiyadan dönən Nişli Mehmet ağa I Pyotrun Xəzəryanı regiona yeni yürüşünün gözlənildiyi barədə məlumat verdi. Nişli Mehmet ağanın apardığı danışıqlarının nəticələrini və rus kanslerinin fransız diplomatik kuryeri vasitəsilə əldə olunan məktubunu öyrənən baş vəzir rus çarının Xəzər dənizinin bütün sahilini ələ keçirmək niyyətində olması barədə qəti qənaətə gəldi. Bundan bərk hiddətlənən sədrəzəm vəziyyəti Sultana necə çatdıracağını təsəvvür edə bilmir. O anlayırdı ki, məhz onu "vaxt itirməkdə və səhlənkarlıq etməkdə günahlandıracaqlar".

---

[1] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1723 г., д. 3, л. 32 и об.

[2] Василий Комаров. Göst.əsəri, s.601-602.

[3] Василий Комаров. Göst.əsəri,s.601-602.

[4] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1723 г., д. 5, ч. 2, лл. 240 об. - 241.

[5] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1723 г., д. 5, ч. 2, лл 241.

Neplyuyev güman edirdi ki, Nişli Mehmet ağanın danışıqlarının nəticələri divanda məlum olsa, vəzirin hakimiyyəti itirəcəyi və Osmanlının Rusiya ilə diplomatik münasibətləri kəsəcəyi çox mümkündür.[1]

Beləliklə, rus diplomatiyası Osmanlı dövləti ilə müharibə təhlükəsini tamamilə aradan qaldıra bilməsə də, onu müəyyən müddətə hərbi əməliyyatlardan çəkindirməyə və osmanlıların yay kampaniyasına hazırlıq vaxtını əldən buraxıb gecikdirməyə nail oldu. İ.Neplyuyev 1723-ci il 29 may (9 iyun) tarixli diplomatik məruzəsində yazırdı ki, onun gümanına görə, Osmanlı sarayı Rusiyaya müharibə elan etsə belə yaz və yay kampaniyalarında Rusiyaya qarşı ciddi təhlükə yarada bilməyəcək, yalnız Kartlini və İrəvan bəylərbəyliyini ələ keçirə bilər. Daha sonra Neplyuyev bildirirdi ki, əgər rus qoşunları Cənubi Qafqazın içərilərinə doğru hərəkət etməsə, iki imperiyanın hərbi toqquşması ehtimalı istisna olunur.[2]

Bunu da qeyd etmək lazımdır ki, ingilislərin əksinə olaraq fransız diplomatiyası Osmanlı imperiyası ilə Rusiya arasında müharibə arzulamırdı; Belə müharibənin Osmanlı dövlətini zəiflədəcəyindən və onun Fransanın əzəli rəqibi olan Avstriyaya qarşı müharibə aparmasına mane olacağından qorxurdu. Fransa həm də Rusiya ilə ittifaq bağlamağa çalışırdı.

Buna görə də Fransanın Rusiyadakı səfiri de Kampredon Fransanın Rusiya-Osmanlı münaqişəsini nizanlamağa yardım göstərəcəyi təqdirdə, bunun Rusiya hökuməti ilə danışıqların gedişinə müsbət təsir edəcəyini fikiləşirdi. De Kampredon öz hökumətinə Rusiya-Osmanlı münaqişəsində vasitəçiliklə məşğul olmağı təklif etdi və bu təşəbbüs Parisdə bəyənildi. İstanbuldakı Fransa səfiri de Bonaka Rusiya-Osmanlı münaşiqəsinin dinc yolla nizama salınması üçün bütün qüvvələri sərf etməyi tövsiyyə edən təlimat göndərildi.[3]

---

[1] Yenə orada, v.243.

[2] İsmail Hami Danışmend. İzahlı Osmanlı tarihi kronoloji. IV cilt, İstanbul,1956, s.13.

[3] АВПРИ, ф. 89(СРТ), оп. 1,1723г., д.5,ч.2, л.35.

Nəticədə ingilis diplomatiyasının fitnələrinə baxmayaraq rus hökuməti de Bonakın vasitəçiliyi ilə Osmanlı sarayını Rusiya ilə münasibətləri kəsməkdən çəkindirdi və yenidən danışıqlara başlanıldı.

Mayın sonunda de Bonakın iştirakı ilə İ.Neplyuyevlə Osmanlı rəsmiləri arasında görüş oldu. Rus tərəfinin hərbi əməliyyatları dayandırmaq barədə təklifinə cavab olaraq Osmanlı tərəfi bildirdi ki, Ərzurum hakimi İbrahim paşaya Gürcüstanın Səfəvilərə məxsus hissəsinə və İrəvana daxil olmasına dair göstəriş verilmişdir. Göstərişdə on tapşırılırdı ki, Təbrizin yaxınlığında mövqe tutsun, Mir Mahmud Osmanlı himayəsini qəbul etməkdən imtina etsə, Bağdad paşası ilə birləşib ona qarşı çıxsın. Mir Mahmud sabit əqidəli adam deyil. İsfahanı aldıqdan sonra ilk cümədə məsciddə Osmanlı sultanının adına, ikinci cümədə Böyük Moğolun adına xütbə oxutdurmuşdur. Üçüncü cümədə isə hətta özünü bütün müsəlmanların başçısı elan etmişdir. Buna görə də ona inanmaq, əməliyyatları dayandırmaq mümkün deyil. Bu səbəbdən də rus rezidenti hərbi əməliyyatları dayandırmaq barədə şərti kənara qoyub müqavilənin hazırlanması barədə danışıqlara başlamalıdır.[1]

Bunun cavabında de Bonak osmanlıların Mir Mahmudla bağlı dediklərinin doğru olduğunu bildirirdi. Amma bir məsələ də var ki, rus rezidenti öz hökmdarının göstərişinə görə hərbi əməliyyatları dayandırmaq barədə razılıq əldə edilməsə, müqavilə ilə bağlı danışıqlara başlaya bilməz. Tərəflərin mübahisəni dayandırıb ümumi bir məxrəcə gəlməsi lazımdır.[2]

Rezident Osmanlı sarayının Mir Mahmuddan qorunmaq barədə mülahizəsi ilə razılaşaraq bunun doğru olduğunu bildirirdi. Lakin, əgər sonuncu osmanlı sərhədlərinə yaxınlaşarsa ona qarşı Bağdaddakı qoşunları göndərmək olar və bu Rusiya sarayında heç bir şübhə doğurmaz. Bunun əvəzində isə Osmanlı Gürcüstanda və İrəvanda əməliyyat aparır, bu yerlərə çatmaq

---

[1] АВПРИ, ф 89 (СРТ) 1, 1723 г., д 6, ч. 1, л. 80 об.

[2] Yenə orada, v. 80 a.ü. -81.

üçün isə Mir Mahmud əvvəlcə Qəzvini və bir sıra başqa yerləri tutmalıdır. Əgər Mir Mahmud Xəzər dənizinə yaxınlaşarsa, bu Rusiya üçün də təhlükə törədər, onda Rusiya müdafiə tədbirləri görməli olar.[1]

İyulun 18-də keçirilən ikinci görüşdə osmanlı məmurları bildirdilər ki, onlar birinci görüşdəki danışıqların məzmununu sədrəzəmə söylədikdə o, rezidentin Osmanlıya Şirvanda, Gürcüstanda, Ərdəbildə və Gilanda hərbi əməliyyatları dayandırmağı təklif etməsindən çox təəccüblənmişdi. Çünki, şah hakimiyyəti olmadığı üçün bu ərazilər qanuni olaraq Osmanlı sultanına çatır. Rus hökmdarı isə qapıçıbaşı Nişli Mehmet ağaya bildirmişdir ki, guya onun Xəzərin bütün sahillərinə hüququ çatır. Çar demişdir ki, o Qara dənizlə bağlı məsələlərə qarışmır, sultan da Xəzərlə bağlı məsələlərə qarışmamalıdır. Osmanlı nümayəndələri isə bu müqayisəni yersiz sayıb Qara dənizin bütünlüklə Osmanlının əlində, Xəzərin sahillərinin bir hissəsinin də Osmanlının hakimiyyəti altında olduğunu bildirmişdilər. Dərbənd şəhəri də Xəlifə Ömərin hakimiyyəti altında olmuşdur. Rus hökmdarlarının Xəzər sahillərində heç vaxt şəhərləri və limanları olmamışdır. Həştərxan müsəlman tatarların şəhəri olmuş, sonra rus qoşunları tərəfindən zəbt edilmişdir. Tatarlar oranı tərk edib Kabardaya köçmüş və indi Osmanlı təbəəsidirlər. Buna görə də Rusiyanın Xəzərə hüququ çatmır.[2]

Cavabında rezident vəzirin mühakiməsindən təəcübləndiyini söyləyərək qeyd etdi ki, Osmanlı sarayı rus çarına Şirvan qiyamçılarına qarşı hərbi əməliyyatları dayandırmağı təklif etdikdə çar qarşılıqlı hörmət xatirinə qiyamçılar Rusiyaya milyonlarala zərər vurduğu halda bununla razılaşmışdır. Osmanlı hökuməti əvvəllər ona məxsus olduğu Dərbəndə və Xəzər sahillərinə iddiasını bildirir. Həştərxana və Xəzərin sahillərinə gəldikdə demək lazımdır ki, həmin yerlər iki yüz ildən çoxdur ki, Rusiyanın hakimiyyəti altındadır. Dərbənd və Bakı şəhərlərini isə

---

[1] Yenə orada,v.81 a.ü. – 82.

[2] АВПРИ, ф 89 (СРТ) 1, 1723 г., д 6, ч. 1, лл. 83 об.-84.

rus imperatoru ona görə himayəsinə almışdır ki, onlar şaha məxsus olmuşdur və sultana heç bir aidiyyatı yoxdur.[1]

Daha sonra Neplyuyev osmanlıların səfəvilərə məxsus ərazilərdə hərbi əməliyyatları dayandırmamasından narazılığını bildirdi.[2]

Osmanlı nümayəndələri rusların Həştərxandan cənuba tərəf onlara məxsus olmayan əraziləri tutmaqla kifayətlənməyib, vaxtilə osmanlının hakimiyyəti altında olan Dərbəndi, Bakını və digər Xəzərsahili əraziləri də işğal etməsindən narazılıqlarını ifadə etdilər. Halbuki, şah hakimiyyətdən salınıb həbs edildiyi üçün ona məxsus ərazilər həmetiqad osmanlılara keçməlidir.[3]

Osmanlı nümayəndələri irad bildirdilər ki, rus çarı bilə-bilə ki, Şirvan Sultanın hakimiyyəti altındadır, Bakını tutur. Osmanlı dövləti hərbi əməliyyatları dayandırsa, rus hökuməti qoşunlarını səfəvilərə məxsus bütün ərazilərdən çıxarmalıdır. Neplyuyev Bakının rus hakimiyyətini könüllü qəbul etdiyini, həm də bu şəhərin Xəzər sahilində yerləşdiyini qeyd edərək Rus hökumətinin dəfələrlə Xəzər sahillərinə heç bir ayrı dövləti buraxmayacağını bəyan etdiyini bildirdi.[4]

Cavabında Osmanlı nümayəndələri Xəzərin qərbindəki hakimlər – şamxal və digərlərinin müsəlman olduqları üçün Rusiyanın onlara heç bir hüququ çatmadığını bildirdilər. Rus çarı hərbi əməliyyatları dayandırmağı vəd etsə də, sözünə əməl etmir. Rusların Xəzər sahillərində istehkamlar inşa edilməsi haqqında xəbər alındığını deyən Osmanlı nümayəndələri bunun təəccüb doğurduğunu bildirdilər.[5]

Neplyuyev cavabında dinbirliyinə görə Osmanlının Tarki şamxalını və digər dağlı hakimlərini, Dərbənd şəhərini özünə aid etməsinin siyasi qaydalara uyğun gəlmədiyini bildirdi. Hacı

---

[1] Yenə orada,v. 85 a.ü. – 86.

[2] АВПРИ, ф 89 (СРТ) 1, 1723 г., д 6, ч. 1,л. 73 об.

[3] Yenə orada, v. 74 a.ü.-75.

[4] Yenə orada, v. 79-80.

[5] Yenə orada, v. 88 a.ü.-89.

Davudun ağalıq etdiyi Şirvanda rusların istehkamlar tikməsinə gəldikdə isə burada təəcüblü bir hal yoxdur. Çünki Rusiya Şirvanı Hacı Davudun mülkü kimi tanımır.[1]

Hər iki tərəfdən çoxlu lazımsız sözlər deyildiyini söyləyən de Bonak qeyd edirdi: Bir şey həqiqətdir ki, hər iki tərəf sülhün pozulmasını istəmir. Buna görə də hərbi əməliyyatlar dayandırılmalı və sonra müqavilə mətni razılaşdırılmalıdır. Osmanlı nümayəndələri görüşdə deyilənləri sədrəzəmə çatdıracaqlarını və üçüncü görüşdə onun fikrini bildirəcəklərini söylədilər. Rezident də iki görüşdə deyilən fikirləri öz hökumətinə çatdırmaq üçün Rusiyaya kuryer göndərmək niyyətində olduğunu, buna görə də həmin kuryerin göndərilməsinə icazə istədiyini söylədi.[2] Beləliklə də, ikinci görüş də heç bir əməli nəticə olmadan bitdi.

### I.4. 1724-cü il İstanbul Rusiya–Osmanlı müqaviləsi və Azərbaycan.

Rusiyaya qarşı yay kampaniyasına hazırlıq üçün yaz vaxtını əldən verən Osmanlı hökuməti yalnız Cənubi Qafqazda hərbi əməlyyatların fəallaşdırılması ilə kifayətlənməli oldu. Osmanlı ordusunun vəzifəsi Mir Mahmudu qabaqlayaraq, Qərbi İran və Azərbaycanın cənub hissəsini ələ keçirmək, başlıcası isə ruslardan əvvəl Bakını tutmaqdan ibarət idi.[3]

Səfəvi dövlətinə qarşı açıq silahlı müdaxiləyə başlamazdan əvvəl öz hərəkətlərinə diplomatik don geyindirmək üçün Osmanlı höküməti Bəkir ağa adlı bir şəxslə Şaha məktub göndərdi. Məktubda Mir Mahmuda qarşı osmanlıların yardım göstərəcəyi vəd olunur, buna görə də Osmanlı qoşunlarının Səfəvi sərhəddində cəmləndiyi bildirilirdi.[4] Lakin Səfəvi dövlətinin sərhədyanı vilayətlərinin sakinləri Bəkir ağanı İsfahana

---

[1] Yenə orada, v. 83 a.ü.-84.
[2] АВПРИ,ф,89(СРТ) 1, 1723 г,д 6, ч.2,л. 358.
[3] АВПРИ,ф,89(СРТ) 1, 1723 г,д 6, ч.1, л. 238 об
[4] Yenə orada II his ., v. 441.

buraxmadılar və sonuncu geri dönməyə məcbur oldu. [1]

Osmanlı ordusu 1723-cü il iyun ayının 23-24-də Tiflisi döyüşsüz ələ keçirdi. İbrahim paşa burada Osmanlı qarnizonun yerləşdirdi. [2]

Osmanlı ordusunun Cənubi Qafqazda hərbi əməlyyatlara başlaması, eyni zamanda ingilis diplomatiyasının qızışdırıcılıq fəaliyyəti Rusiya-Osmanlı münasibətlərini yenidən gərginləşdirdi. Neplyuyev 25 iyul (5 avqust) 1723-cü il tarixli məruzəsində yazırdı: "Stenyan Osmanlı sarayını inandırır ki, ingilis kralı Danimarka kralı ilə ittifaqda Rusiyaya qarşı qanlı müharibəyə başlamaq niyyətindədir. O, Osmanlı sarayını rus sarayı ilə vuruşdurmaq üçün bütün vasitələrə əl atır".[3] Rezident sözünü davam etdirərək yazırdı ki, ingilis səfiri Osmanlı hökümətini inandırır ki, Rusiyadakı mürəkkəb daxili şərait onunla müharibəni risksiz edir. Stenyan Rusiya ilə müharibə başlayarsa, Ukrayna kazaklarını ona qarşı qaldırmağı vəd edən keçmiş Ukrayna getmanı Orliklə əlaqələr yaratmışdı.[4]

Avqustun 8 (19)-də de Bonak, Neplyuyev, rəis-ül-kitab (xarici işlər naziri vəzifəsini icra edən) Mehmet və dəftərxana emini Hacı Mustafa arasında keçirilən yeni görüşdə də Osmanlı tərəfi Neplyuyevin Cənubi Qafqaz və İranda hərbi əməliyyatların qarşılıqlı surətdə dayandırılması təklifini qəbul etmədi, Neplyuyev də bildirdi ki, bu şərt yerinə yetirilməsə, o, danışıqları davam etdirmək hüququna malik deyil. De Bonakın təklifinə əsasən avqustun 19-da danışıqlara 3 ay müddətinə fasilə verilməsi haqqında qərar qəbul edildi.[5]

Rus hökumətindən 1723-cü il oktyabrın 24-də İ.Neplyuyevə göndərilən buyruqda Osmanlıların İsfahanın alınması və şah

---

[1] АВПРИ,ф 89( СРТ), оп. 1, 1723., д.5, ч. 2, л. 310.

[2] Г.Г.Пайчадзе. Русско-грузинские политические отношения в первой половине XVIII века Тбилиси,1970,с.41

[3] Сергей Соловьев.История России, кн.9 (тт.17-18), 399.

[4] J. F.Chance.George I and Peter the Great after the peace of Nishtad. English Historical review, vol. XX VI, No. 2/102, p.291.

[5] АВПРИ,ф.89 (СРП) оп.1,1723 г.,д.5,ч.2, л. 475.

Sultan Hüseynin həbs edilməsi ilə bağlı bütün Səfəvi ərazilərinə iddiasının əsassız olduğu deyilirdi. Çünki şahın oğlu Təhmasib azaddır və o qanuni hökmdardır. Osmanlı sarayı rus hökumətindən ruslara böyük zərər vurmuş qiyamçılardan öc almamış onlara qarşı hərbi əməliyyatları dayandırmağı xahiş etmiş və rus hökmdarı dostluq münasibətləri naminə bu xahişə əməl etmişdir. Osmanlı dövləti isə Səfəvi ərazilərində hərbi əməliyyatları dayandırmamışdır. Biz də Xəzər sahillərindən imtina etmək fikrində deyilik. Biz heç vəchlə razılaşa bilmərik ki, osmanlılar bütün Səfəvi ərazisini tutsunlar, xüsusən də Xəzər dənizinə yaxınlaşıb, bu dənizin sahilində bir futa belə sahib olsunlar.[1]

Qolovkin bununla bərabər rus hökumətinin Osmanlı dövləti ilə razılaşmağa hazır olduğunu Neplyuyevə yazaraq bildirirdi ki, hər hansı xoşagəlməz hadisə baş verməsin deyə tərəflər armistisiya (hərbi əməliyyatların dayandırılması barədə razılıq) elan olunan zaman tutduqları mövqelərdə qalmalıdırlar. Müqaviləyə dair danışıqlar başladıqda isə Neplyuyev Rusiya osmanlıların bütün Səfəvi ərazilərini tutmasına, xüsusən də Xəzər dənizinə yaxınlaşmasına və Xəzər sahilində bircə fut belə ələ keçirməsinə qəti imkan verməyəcəyini, Osmanlı qoşunlarının Kür çayını keçməməli olduğunu bildirməli idi. Hacı Davud Şamaxıda hakimiyyətdə olsa da burada Osmanlı qoşunları olmamalı və istehkam inşa edilməməlidir. Qolovkin yazırdı ki, osmanlılar bu şərtləri qəbul etməsələr Neplyuyev hər vasitə ilə danışıqları uzatmalıdır.[2]

Sülh danışıqlarına fasilə verildiyi bir zamanda Osmanlı höküməti Azərbaycanın hələ ruslar tərəfindən işğal edilməmiş Xəzəryanı ərazilərini ələ keçirməyə təşəbbüs göstərdi. Bunu da qeyd etmək lazımdır ki, Osmanlı dövlətində dağılmaqda olan Səfəvi dövlətinə qarşı hərbi təcavüzün əleyhinə olanlar da vardı. Belə ki müfti Abdulla əfəndinin şiələrə qarşı müharibə elan

---

[1] АВПРИ, ф.89 (СРТ),оп.1, 1723 г.,д.4, л. 90 об.

[2] Yenə orada,v. 93-96.

edilməsi haqqında fətvası divanda oxunanda (fətvada şiələr kafir elan olunur, şiə kişilərini öldürməyə, arvadlarını və uşaqları əsir götürməyə icazə verilirdi) sarayın keçmiş kadisi Kamal əfəndi etiraz edərək bildirdi ki, üzünü qibləyə tutan heç kəs təhqir olunmamalıdır. Bu sözlərinə görə Kamal əfəndi Lemnos adasına sürgün edildi.[1] 1723-cü il avqustun 17-18-də sultan III Əhmədin şəxsən iştirakı ilə keçirilən divanda danışıqların yenidən başlanmasınadək rus qoşunlarının hələ zəbt etmədiyi ərazilərin, o cümlədən Xəzəryanı ərazilərin ələ keçirilməsi qərəra alındı. Qərara uyğun olaraq Ərzurumlu İbrahim paşa Tiflis istiqamətində, Trabzon canişini Qara Mustafa paşa isə Bakı istiqamətində hərəkət etməli idilər.[2]

Osmanlının hərbi hazırlıqlarını artırması və Xəzər dənizi sahilinə çıxmağa çalışması Rusiyanın Xəzəryanı regiondakı vəziyyətini mürəkkəbləşdirirdi. Bu regiondakı şərait o zaman Rusiya üçün daha az əlverişli idi. Bunu nəzərə alaraq rus hökuməti 1723-cü il hərbi kampaniyasının planında əhəmiyyətli dəyişikliklər etdi. 20 min nəfərlik qoşun ilə Svyatoy Krest qalasından Bakıya qədər və Bakıdan Şamaxıdan keçməklə Gürcüstana əvvəllər nəzərdə tutulmuş yürüş ləğv olundu. Dəniz ekspedisiyaları göndərməklə Şirvanın və Gilanın sahilyanı zonasında hərbi əməliyyatları genişləndirmək qərara alındı. İlk növbədə isə Salyan zəbt edilməli idi. I Pyotr Kür çayının mənsəbində qoşunların toplanması və gələcək hərbi ekspansiyanın genişlədirilməsi üçün platsdarm yaratmaq istəyirdi. 1723-cü ilin yazında Həştərxanda Bakıya üzmək üçün ekspedisiya artıq hazır idi. Lakin əfqan qoşunlarının Gilana yaxınlaşması xəbərinin alınmasına görə Bakıya ekspedisiya bir qədər təxirə salındı və aprelin sonunda general Levaşovun komandası altında 2 min nəfərlik hərbi qüvvə Gilana göndərildi.

Osmanlı qoşunlarının Bakı istiqamətində irəliləyişi

---

[1] İsmail Asim Çələbizadə. Tarix-e Çələbizadə. İstanbul, 1740, s. 48; J.von Hammer. Göst. əsəri, II c., II his., s. 306-307.

[2] АВПРИ,ф.89 (СРТ),оп.1, 1723 г., д.5, ч.2, л. 80

xəbərinin alınması I Pyotru bu şəhəri tutmaq üçün tələsməyə vadar etdi. Çar 1722-ci il oktyabrın 4-də general Matyuşkinə verdiyi təlimatda yaz gələn kimi fon Verdenin 5 gəmisi və 20 bus ilə Bakıya doğru üzməsini tapşırırdı. Buslar az olarsa daha 20 gəmi götürsün; onlarda 20 min adam və artilleriya daşımaq olar. Kazandan gələcək gəmiləri gözləmək lazım deyil, onlar Matyuşkinin arxasınca üzərlər. Allahın köməyi ilə həmin şəhəri ələ keçirmək lazımdır, çünki bu şəhər bizim o diyarlardakı bütün işlərimizin açarıdır.[1]

Təlimatda daha sonra Matyuşkinə yayda 20 minlik ordu üçün Bakıda bir illiyə, Dərbəndə iki aylığa təchizat ambarı, Dərbənddə min nəfərlik, Bakıda isə iki min nəfərlik lazaret inşa olunması tapşırılırdı.[2]

I Pyotrun general Matyuşkinə 4 noyabr 1722-ci il tarixli "Allah qoysa Bakını alsaq nə etməli?" adlı təlimatında deyilirdi: " Əgər şəhər müqavimətsiz təslim olarsa sakinləri şah xəzinəsinə olan borclarını ödətməklə əmlakları ilə buraxmaq olar. Əgər şəhəri tərk etmək istəməsələr, onlara möhlət verib söyləmək olar ki, siz dərbəndlilər kimi könüllü təslim olmaq istəməmiş, üstəlik podporuçik Luninlə göndərdiyiniz məktuba təhqiramiz cavab vermişiniz və buna görə də sizi şəhərdə saxlamaq, sizə inanmaq olmaz. Ancaq vergiləri ödəyənləri, üzümlüklərə qulluq eləyənləri və zəruri ehtiyacımız olanları şəhərdə saxlamaq olar.

Əgər şəhər müqavimət göstərib təslim olarsa, sakinləri silahsız buraxmalı, şəhər həmlə ilə alınarsa sağ qalanları Həştərxana sürgün edib əmlaklarını hərbçilərin arasında bölüşdürmək; gömrük rüsumları və vergilər, xüsusən neft və zəfəranla maraqlanmalı; Bakıda qüllələrin altında iki və ya üç su ambarı tikməliyik".[3]

Tiflisin osmanlılar tərəfindən ələ keçirilməsi xəbəri I Pyotru təşvişə saldı. Bu səbəbdən də o, Matyuşkindən tələb etdi:

---

[1] Василий Комаров. Персидская война, с. 594.

[2] Yenə orada.

[3] Василий Комаров. Персидская война, док. 35, с. 598.

"Gürcüstandan xəbər alınmışdır ki, türklər artıq gürcüləri təbəəliyə məcbur etmişlər və paşa Şamaxıya gəlir. Onun Bakını tutmaq təhlükəsi var, mümkün qədər tələs".[1] Nəhayət, 1723-cü il iyulun 1-də rus donanması Həştərxandan çıxdı və iyulun 28-də irəlidə üzən gəmilərin birində Bakıya yan alan Matyuşkin mayor Neçayevlə Bakı sultanı Məhəmməd Hüseyin bəyə öz məktubunu və şah səfiri İsmayıl bəyin məktubunu göndərdi. Məktublarda şəhərin könüllü təslim olması məsləhət görülürdü.[2] Lakin Neçayevi şəhərə buraxmayıb Bakı sakinlərinin özgə yardımına ehtiyacı olmadığını bildirdilər.[3] Belə olduğu təqdirdə ruslar Bakı qalasını mühasirəyə aldılar.

Bakı qarnizonunun döyüşçüləri uğursuz həmlə etdilər. Bundan sonra qala gəmilərdəki uzaqvuran toplardan atəşə tutuldu. Dördgünlük atəşdən sonra qala divarlarında yarıq əmələ gəldi və vəziyyətin çıxılmaz olduğunu görən qarnizon təslim oldu. Avqustun 8-də rus hərbi dəstələri Bakıya daxil oldu.[4]

Şəhərdəki yerli qarnizonun rəisi yüzbaşı Dərgahqulu bəy həm şəhərin sultanı, həm də Rusiya xidmətinə qəbul olunmuş yerli qarnizonun rəisi təyin olundu. Əvvəlki sultan Məhəmməd Hüseyn bəy isə qardaşları ilə birlikdə Həştərxana, oradan isə Roqaçevskə sürgün olundu, orada da öldü.

I Pyotr Bakının tutulmasından çox məmnun qaldı və Matyuşkinin rütbəsini general-leytenanta yüksəltdi. Pyotr Peterburqdakı xarici ölkə səfirlərinə bu şəhərin ələ keçirilməsi onu bütün Xəzər dənizinin amiri etdiyini bəyan etdi. Bakının zəbt olunması şərəfinə Sankt-Peterburqda toplardan yaylım atəşləri ilə atəşfaşanlıq keçirildi.

Bakı rusların əlinə keçdikdən sonra Salyan naibi Məhəmməd

---

[1]Yenə orada s. 602.

[2]РГВИА, ф. 846, оп. 16, д. 1539, л. 2 и об.; д. 1540 л. 58 об; Федор Соймонов. Описание Каспийского моря и чиненных на оном российских завоеваний, с. 160.

[3]РГАДА, ф. 9 (Каб. Петра I), отд. 2, кн. 63, лл. 737-739.

[4]РГВИА, ф. 846, оп. 16, д. 1539, л. 2 и об.; д. 1540 л. 60 об; Федор Соймонов. Göst. əsəri, c. 163.

Həsən bəy də ehtimal ki, Bakı sultanının aqibətinə tuş gələcəyindən ehtiyat edərək rusların himayəsinə keçmək arzusunda olduğunu bildirdi. Polkovnik-leytenant Zimbulatovun komandanlığı altında 50 nəfərlik rus dəstəsi Salyan yaxınlığında, Kür çayındakı adalardan birində yerləşdirildi.[1]

Bakının ruslar tərəfindən ələ keçirilməsi Osmanlı hakim dairələrini qəzəbləndirdi. Osmanlının Şirvandakı nümayəndəsi Bakıdakı rus hərbi rəisinə məktub göndərərək Bakının ruslar tərəfindən tutulmasından Osmanlı hökümətinin narazılığını ifadə etdi.[2]

Osmanlı sarayı Bakının rusların əlinə keçdiyini görüb əvəzini çıxmaq üçün Azərbaycanda hərbi əməlyyatlarını fəallaşdırdı. Birinci zərbə Gəncəyə yönləndirildi, çünki Gəncə Qarabağ bəylərbəyinin inzibati mərkəzi və Xəzəryanı istiqamətində mühüm məntəqə idi. Gəncə ələ keçirilərdisə Osmanlı himayəsini qəbul etmiş Hacı Davudla birləşmək imkanı yaranardı. 1723-cü ilin oktyabırında Ərzurumlu İbrahim paşanın komandanlığı, Mustafa, İshaq və digər daha dörd paşanın qoşunlarının iştirakı ilə osmanlı qoşunları Tiflis yolu ilə hərəkət edib Gəncəyə yaxınlaşdı və şəhərin yaxınlığındakı Səlim təpəsində düşərgə saldı. Şəhərdəki müdafiəçilərin sayı 10-12 mindən çox deyildi. Osmanlı ordusunun ön hissələri şəhərə daxil ola bilsələr də oradan sıxışdırılıb çıxarıldılar. Bundan sonra Gəncə müsahirəyə alındı və şəhər sakinlərini susuz qoymaq məqsədi ilə Gəncəbasar çayının qarşısı kəsilib ayrı məcraya yönəldildi. Osmanlıların şəhərə hücumundan 12 gün sonra Qarabağ bəylərbəyi Məhəmmədqulu xan topladığı yeni qüvvələrlə Gəncəyə qayıtdı. Bundan xəbər tutan Osmanlı ordusu geriyə çəkildi. III Əhməd uğursuluğuna görə İbrahim Paşaya qəzəbləndi, onun əvəzinə Arifi Əhməd paşanı sərəsgər təyin

---

[1] Петр Бутков. Göst. əsəri, I his., s. 50.

[2] АВПРИ, ф. 100 (Сношения России с Арменией), оп.1, д. 1723, л. 2, лл. 28-29.

edərək ona İrəvan şəhərini almasını tapşırdı.[1]

Danışıqlara verilmiş üç aylıq fasilə 1723-cü il noyabrın 22-də bitdi. Sülh danışıqlarının yeni mərhələsi 1723-cü il dekabrın 20-də başladı. Neplyuyev, de Bonak, Mehmet ağa və Hacı Mustafanın iştirakı ilə növbəti (sayca dördüncü) konfrans oldu. Neplyuyev və de Bonak ümumi armistisiya tələbini irəli sürdülər.[2] Səhəri günü sədrəzəm İbrahim paşa nümayəndələri vasitəsilə Neplyuyevə Səfəvi ərazilərində hərbi əməliyyatları dayandırmaqdan imtina etdiyini bildirdi. Səbəb kimi onların türk torpaqları olduğunu göstərdi.[3]

Gərginliyi azaltmağa çalışan de Bonak Neplyuyevə qismən armistisiya tələb etməyi məsləhət gördü. Neplyuyev bu məsləhətə əməl edərək dekabrın 23-də keçirilmiş konfransda Qafqazda iki imperiyanın qoşunları arasında toqquşumaya səbəb ola biləcək hərbi əməlliyatları dayandırılmağı təklif etdi. Osmanlı nümayəndələri bu təklifi rədd etsələr də, öz qoşunlarının Cənubi Qafqazdakı əməliyyatlarını dayandırmasalar da, Xəzər dənizi sahilinə çıxmasına yol verməyəcəklərini bildirdilər. Eyni zamanda Osmanlı tərəfi rus qoşunlarının Xəzəryanı ərazilərdə əməliyyatlarının dayandırılmasını tələb etdi. Neplyuyev əvvəlcə bu tələbi rədd etdi, ancaq sonra sülh münasibətlərinin saxlanması naminə tələbi qəbul etdiyini bildirdi. Beləliklə də qismən armistisiya haqqında razılıq əldə olundu.[4]

İki dövlət arasında münasibətlərdə əldə olunan nisbi yumşalma tezliklə yenidən, həm də ifrat dərəcədə kəskinləşdi. Buna səbəb rus hökümətinin birtərəfli qaydada şah nümayəndəsi İsmayıl bəylə "müqavilə" bağlaması xəbərinin alınması oldu. Məsələ burasındadır ki, ruslardan yardım almaq məqsədilə əvvəllər II Təhmasib İsmayıl bəyi Rusiyaya göndərmək qərarına gəlmiş, ancaq sonuncu hələ Rəştdə olarkən şah artıq rusların

[1]Фуад Алиев. Антииранские.., с. 56-57.
[2]АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1723 г. д. 5, ч.2, л. 433 об.
[3]Yenə orada, v. 434
[4]Yenə orada, v. 444, 446.

özbaşına Rəşti tutduqlarını öyrənib İsmayıl bəyi sülh bağlamaq səlahiyyətindən məhrum edərək geri qayıtmasını əmr etmişdi. Bu xəbəri ona çatdırmaq üçün Rəştə gəldikdə burdakı rus qarnizonunun komandiri çaparı şəhərə buraxmayaraq, guya elçinin mindiyi gəminin artıq Rusiyaya üzdüyünü bildirmişdi. Halbuki gəmi hələ Rəştdən aralanmamışdı. Beləcə səlaliyyətlərinin alınmasından xəbərsiz olan İsmayıl bəyi Rusiyaya aparmışdılar. 1723-cü il senyabrın 23 (oktyabrın 4)-də Sankt-Peterburqda rus hökuməti İsmayıl bəylə özü üçün əlverişli bir "müqavilə" imzalamışdı. Müqavilədə Rusiyanın Sulak çayından başlayaraq Mazandaran və Astrabad da daxil olmaqla Xəzəryanı ərizilərini tutmaq hüququ rəsmiləşdirilir, əvəzində rus hökümətinin əfqanları dəf etməkdə II Təhmasibə yardım göstərəcəyi vəd olunurdu. Təbii ki, II Təhmasib hiylə ilə imzaladılmış bu müqaviləni təsdiqləmədi və müqavilənin mətnini gətirmiş Meşerskini qəbul etməyərək həqarətlə Ərdəbildən qovdu.[1]

Sual oluna bilər: Pyotr şahın bu müqaviləni təsdiq etməyəcəyini bilə-bilə niyə onu bağlamışdı? Məsələ burasındadır ki, çar müqaviləni Avropa diplomatlarına göstərib Xəzəryanı əyalətləri qanuni yolla tutduğunu nümayiş etdirmək istəyirdi.

Osmanlılar da 1723-cü ilə Peterburq müqaviləsini etibarsız elan etdilər. Bildirdilər ki, Təhmasib vəliəhd olsa da, hələ şah deyil. Buna görə də rəsmi müqavilə bağlamaq hüququ yoxdur. Divanın bəzi üzvləri dərhal Rusiyaya müharibə elan etməyi tələb etdilər, ancaq İbrahim paşa belə müharibənin sərfəli olmayacağını anlayaraq bu tələbi rədd etdi.[2]

Elə bu əsnada Şah yardım üçün Osmanlı sarayına müraciət edir. Ancaq İstanbulda şah elçisi Murtuzaqulu bəyə açıqcasına bildirdilər ki, Dərbənd və Bakı artıq rus çarının, İsfahan Mir Mahmudun, Qəndəhar isə Mir Qasımın əlinə keçdiyindən Osmanlı dövləti də Təbriz və ətrafındakı torpaqları digərlərinin

---

[1] РГАДА. ф. 4 (Госархив), оп. 1, д. 51, л. 7 и об.

[2] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724, г. д. 8, л. 68

əlinə keçmədən tutmaq qərarına qəlib.Təhmasibə həmin əraziləri könüllü surətdə Osmanlı imperiyasına güzəştə getmək, əvəzində isə Osmanlının da Səfəvilərin qalan əraziləri üzərində onun hakimiyyətini tanıyacağı təklif olundu.[1]

1724-cü il yanvarın 7-də daha bir konfrans keçirildi. Osmanlı nümayəndələri Neplyuyevin əvvəlki təklifini qəbul etmədiklərini açıqlayıb, ondan yeni təkliflər verməsini tələb etdilər. Neplyuyev cavabında yeni təkliflər verə bilməyəcəyini, çünki bunun üçün səlahiyyət almadığını söylədi.[2]

İki gün sonra Nepluyevə əgər yeni təklifləri yoxdursa, danışıqların dayandırıldığı bildirildi. Neplyuyev kansler Qolovkinə 13 yanvar 1724-cü il tarixli məktubunda müharibəni labud sayaraq yazırdı: "Bu gün və ya sabah sülh pozulacaq".[3]

İstanbuldakı ingilis elçisi Stenyan əlverişli şəraitdən istifadə edərək Rusiya ilə Osmanlı imperiyası arasında müharibə törətmək üçün canfəşanlıq edirdi. O, rus hökümətinin İsmayıl bəylə bağladığı müqavilənin Osmanlı-Səfəvi ticarətinin tənəzzülünə səbəb olacağını, gələcəkdə rus çarının yaranmış vəziyyətdən faydalanaraq şah taxt-tacını da ələ keçirə biləcəyi israrla bildirilirdi.[4] Stenyan Hacı Mustafanı inandırdı ki, Rusiya Xəzəryanı regionda yeni ərazilərin işğalını gələcəkdə Avropa və Şərq ölkələri arasında bütün tranzit ticarətini də öz əlinə almaq məqsədilə müvəqqəti dayandırmışdır. İngilis elçisinin fikrincə, o zaman ingilislər Osmanlı imperiyasından çıxıb getməyə məcbur olacaqlar ki, bu da Osmanlı xəzinəsinə böyük zərər vuracadıq.[5]

Stenyandan fərqli olaraq Fransa səfiri də Bonak 1723-cü il Sankt-Peterburq müqaviləsi ilə əlaqədar gələcək perpektivləri tamamilə başqa cür şərh edir və sədrəzəm İbrahim paşanı müqavilənin onun ölkəsinə heç nə ilə təhlükə törətmədiyinə

---

[1] J.F. Hammer. Göst. əsəri, c. 7, his. 1, s. 303
[2] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1723 г., д. 5, ч. 2, л. 476 об.
[3] Yenə orada.
[4] J. Jakob. Göst. əsəri, s. 75; Ольга П. Markova. Göst. ə., s. 30.
[5] J. Jakob. Göst. əsəri, s. 75.

inandırırdı.[1]

İ.Neplyuyev 20 yanvar 1724-cü il tarixli məlumatında yazırdı ki, Rusiyaya müharibə elan edilməsi məsələsi üzrə keçirilən geniş tərkibli divanda sədrəzəm iki imperiya arasında sülhün pozulmaması üçün çox çalışmış, fəqət divan Rusiyaya müharibə elan olunması haqqında qərar qəbul etmişdir.[2] Cənubi Qafqazdakı Osmanlı qoşunlarına Xəzər istiqamətində hərəkəti sürətləndirmək barədə göstəriş verilmişdi.[3]

Qeyd etmək lazımdır ki, de Bonak və sədrəzəm İbrahim paşa tezliklə Osmanlı dövlətinin Rusiyaya qarşı müharibəyə başlaması haqqında qərarın ləğvinə nail oldular.[4] Damad İbrahim paşanın simasında Osmanlı imperiyasının ən ehtiyatlı siyasətçiləri Qafqazda və İranda davam edən hərbi əməliyyatlar şəraitində Rusiya ilə müharibəyə girməyi təhlükəli və əlverişsiz sayırdılar. Türkiyə tarixçisi İsmayıl Hami Danişmend İbrahim paşanın belə mövqeyini xeyli dərəcədə yeniçərilər arasında narazılıqla əlaqədar onun orduya inamsızlığı ilə izah edir.[5] Sədrəzəmin səyləri sayəsində İ.Neplyuyevə öz hökmdarından yeni təkliflər almaq üçün vaxt vermək qərara alındı. 100-110 gün ərzində Rusiyadan yeni təkliflər daxil olmazsa ona qarşı müharibə elan olunması razılaşdırıldı.[6] De Bonakın qohumu Dusyo Dalyon yeni göstərişlər almaq üçün Rusiyaya göndərildi. Osmanlı sarayı Cənubi Qafqazdakı komandirlərinə rus hökuməti ilə danışıqlar tamamilə kəsilməyincə bölgədəki rus komandirləri ilə "dostcasına davranmaları" barədə göstəriş verildi.[7]

I Pyotrun göstərişi ilə Xarici İşlər Kollegiyasında Rusiyadakı

---

[1] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724 г., д. 6, ч. 1, л. 231 об.

[2] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724 г., д. 6, ч. 1, л. 231 об.

[3] Osmanlı devleti ile Kafkasya. Türkistan ve Kırım hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri (1687-1908 yılları arası). Ankara, 1992, belge nr. 4, s. 4, 66.

[4] Ольга Markova. Göst. əsəri, s. 30.

[5] İsmail Hami Danismend. Göst. əsəri, s. 30.

[6] РГАДА, ф. 15, д. 37 (1724-1726 гг.), ч. II , л. 81 о6.

[7] РГАДА, ф. 15, д. 37, ч. 1, л. 20.

Fransa səfiri Kampedonun iştirakı ilə 28 mart 1724-cü ildə İ.Neplyuyevə göndərilmək üçün aşağıdakı müqavilə layihəsi tərtib olundu: Rezident bu layihənin sözbəsöz qəbul olunmasına təkid etməməli, lazım gələrsə, əhəmiyyətsiz düzəlişlər oluna bilərdi. Giriş hissəsində 5 noyabr 1720-ci ildə İstanbulda Osmanlı imperiyası ilə Rusiya arasında imzalanmış "əbədi sülhə sədaqət" təsbit olunurdu.[1]

Layihənin birinci maddəsində deyilirdi ki, Səfəvi dövlətində hərc-mərclik yaşandığı üçün Rusiya və Osmanlı imperiyaları bu dövlətdə sabitliyi bərpa etmək üçün razılaşdırılmış hərəkət etmək qərarına gəlirlər. İkinci maddədə isə deyilirdi ki, razılığa gələn tərəflər itkilərini əvəz etmək üçün Səfəvi dövlətinin müqavilənin maddələrində göstəriləcək vilayətlərinə sahib olurlar.[2]

Layihəyə görə Dərbənd, Bakı, Şirvan vilayəti (Şamaxı və vilayətin dənizdən uzaq hissəsi istisna olmaqla) Gilan, Mazandaran və Astrabad vilayətləri Rusiyanın mülkiyyətinə keçirdi. Həmin ərazilərin Rusiyaya keçməsinə II Təhmasib də razılaşmışdı.[3]

Layihənin beşinci maddəsində deyilirdi ki, sədrəzəm Neplyuyevlə söhbətində dənizdən Şamaxı istiqamətdə 14 saat at yerişi məsafəsində ərazinin Rusiyaya keçməsini, 10 saatlıq məsafənin Şamaxı xanlığının tərkibində qalmasını istəyir. Buna uyğun olaraq məsafənin üçdə iki hissəsi Rusiyanın, üçdə bir hissəsi isə Şirvan xanlığının əlində qalmalıdır. Osmanlı sarayı Hacı Davudun Şirvan hakimi qalmasını istədiyindən Rusiya bununla o şərtlə razılaşır ki, Şamaxı heç vaxt möhkəmləndirilməməli, Osmanlı hökuməti orada nə qarnizon, nə vali, nə komendant, heç bir mülki və ya hərbi vəzifəli şəxs saxlamamalıdır. Yalnız əgər Hacı Davud, yaxud bu şəhərin digər hakimi Sultana tabeçilikdən imtina edərsə, yaxud dağlıların Şamaxıya basqınları güclənərsə, Osmanlı hökuməti burada

---

[1] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724 г., д. 4, л. 27.

[2] Yenə orada, v.8 a.ü.

[3]Yenə orada,v. 29.

sabitlik yaratmaq üçün rus komandanlığını xəbərdar etmək şərtilə osmanlı qüvvələri Kür çayını keçə bilərlər. Xanlıqda sabitlik bərpa olunan kimi osmanlı qüvvələri geri qayıtmalıdırlar. Osmanlı hərbçilərinin rus təbəələrinə zərər yetirmələri qadağan olunmalıdır.[1]

Neplyuyevə Osmanlıların Təbrizin onlara keçməsini istəməsi, lakin bu şəhərin Rusiyaya keçən ərazilərə yaxın olduğundan iki ölkə arasında baryer qalmadığı yazılmışdı. Həm də Təbriz indi Təhmasibin iqamətgahıdır və onun Təhmasibin hakimiyyəti altında qalması arzuolunandır. Osmanlılar onun əvəzinə Bağdad tərəfdə yer götürə bilərlər. Təbrizə qonşu olan Ərdəbilin osmanlılara keçməsinə də Rusiya qətiyyən razı ola bilməz.[2]

Layihənin onuncu maddəsində tərəflərin sərhədə beş saatlıq məsafədən yaxın istehkamlar tikməmələri nəzərdə tutulurdu.[3]

Müqavilə layihəsində Osmanlı hökumətinin II Təhmasibi qanuni hökmdar kimi tanıyacağı və Təhmasib Rusiya ilə Osmanlı imperiyası arasında bağlanmış müqaviləni tanıyarsa, tərəflərin ona hərbi yardım edəcəyi nəzərdə tutulurdu.[4]

Rusiyadakı Fransa səfiri de Kampredon de Bonaka yazırdı ki, I Pyotr Osmanlı dövləti və Rusiya arasında məsafəni artırmaq üçün Təbriz şəhərinin II Təhmasibin nəzarətində saxlanılmasını arzulayır. Çar israrla De Bonakdan Osmanlı tərəfinin bu təklifi qəbul etməsi üçün bütün vasitələrdən istifadə etməsini xahiş edirdi. Eyni zamanda I Pyotr bəd ayaqda Ərdəbilin Səfəvilərdə qalması şərti ilə Təbrizin Osmanlılara keçməsinə razı idi. Bu zaman Ərdəbil Rusiya və Osmanlı mülklərini bir-birindən ayıran yeganə şəhər olacaqdı. Şamaxı ilə Xəzər dənizi arasındakı torpaqlara gəlincə isə, I Pyotr bu ərazilərin heç olmazsa üçdə

---

[1] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724 г., д. 4, л.31об.

[2] Yenə orada, v. 33 a.ü.

[3] Yenə orada, v. 36.

[4] Yenə orada, 37.

ikisinin ona verilməsini istəyirdi.[1]

Dalyonun Rusiyadan qayıtması ilə danışıqlar yenidən davam etdirildi və mayın 12 (24)-də Neplyuyev, de Bonak, Mehmet əfəndi və Hacı Mustafanın iştirakı ilə yeni konfrans başladı.

İ.Neplyuyev Peterburqdan göndərilən layihə əsasında italyan dilində tərtib etdiyi 8 maddədən ibarət müqavilə layihəsini təqdim etdi.

Giriş səciyyəsi daşıyan birinci maddədə iki imperiya arasında "əbədi sülh" təsdiqlənir, qarşılıqlı iddiaların, sərhəd ixtilaflarının unudulduğu qeyd edilir və sərhəd komandirlərinə bundan sonra baş verəcək sərhəd ixtilaflarının aradan qaldırılması üçün müvafiq göstərişlər verilməsi qeyd olunurdu.

İkinci maddədə deyilirdi ki, Rusiya imperatoru və Osmanlı sultanı öz dövlətlərinin təhlükəsizliyi üçün Səfəvi dövlətində baş verən qiyamları yatırır, bu dövləti qəsbkardan azad edirlər. Bunun əvəzində isə aşağıda adları çəkilən vilayətlər iki imperiyanın mülkiyyətinə keçir: Dərbənd, Bakı şəhərləri, Gilan, Mazandaran, Astrabad, Şirvan və Xəzər sahillərində olan digər vilayətlər Rusiya imperiyasına çatır. Osmanlı sultanı Rusiya çarı ilə Səfəvi nümayəndəsi arasında bağlanmış 12 sentyabr 1723-cü il tarixli Peterburq müqaviləsini tanıyır.

Üçüncü maddəyə görə, Şirvanın Şamaxı şəhəri daxil olmaqla Şamaxıdan dənizə tərəf üç saatlıq məsafədə olan hissəsi Osmanlı sultanının himayəsində olan Hacı Davudun hakimiyyəti altında qalırdı. Şamaxı şəhəri möhkəmləndirilməməli, Osmanlı orada qarnizon saxlamamalı, burada osmanlıların heç bir sərkərdəsi və rəsmi şəxsi iqamət etməməli idi. Yalnız Şamaxı hakimi sultana qarşı itaətsizlik nümayiş etdirdikdə, və ya Şamaxıda həyəcan baş verdikdə Osmanlı hökuməti əvvəlcədən rus komendantına xəbər verməklə bura qoşun yeridə bilərdi. Şamaxıda sabitlik bərpa olunduqdan sonra Osmanlı hərbçiləri buranı tərk etməli idilər. Kürlə Arazın qovuşduğu yerdən o tərəfə olan bütün Səfəvi

---

[1] От г. де Кампредона к маркизу де Бонаку Москва, 16 апреля 1724 г. СИРИО , т. 52, док.55,с. 198-199.(190-208)

əraziləri Ordubada kimi, Urmiyadan Təbrizə qədər olan ərazilər Osmanlı dövlətinə keçirdi. Təbriz şəhəri ətrafı ilə birlikdə səfəvilərə qalmalı idi.[1]

Layihənin dördüncü maddəsində tərəflərin müqavilədə göstərilən ərazilərin onlara verilməsinə nail olmaq üçün şaha təzyiq göstərəcəkləri deyilirdi. Beşinci maddədə tərəflərin sərhədlərdən 5 saat yaxınlıqda istehkam inşa etməməli olduğu qeyd olunurdu. Müqavilə üzrə tərəflərə çatacaq ərazilərin demilitasiyası üçün komissarlar göndərəlicəkdi. Fransız nümayəndəsi bu prosesdə vasitəçi kimi iştirak etməli idi.

Layihənin altıncı maddəsinə görə, tərəflər Təhmasibi şah kimi tanımalı, uzurpator Mir Mahmudu taxtdan salıb II Təhmasibi taxtda oturtmalı idilər.

Yeddinci maddədə deyilirdi ki, həmetiqad olduğu üçün Osmanlı hökuməti Mir Mahmuda qarşı silah işlədə bilməz, lakin onunla əlaqə də saxlamayacaq. Layihənin səkkizici maddəsinə görə, II Təhmasib Osmanlı-Rusiya müqaviləsini tanımaqdan imtina edərdisə, tərəflər müqavilə şərtlərinin reallaşması üçün zəruri tədbirləri görməli idilər.[2]

Mayın 24-də (iyunun 10-da) isə Osmanlı tərəfi öz müqavilə layihəsini təqdim etdi. Layihə Osmanlı sarayının tərcüməçisi tərəfindən fransız səfirinin iştirakı ilə İ.Neplyuyevə təqdim olundu. Layihənin müqəddimə hissəsində deyilirdi ki, Mir Veysin oğlu Mir Mahmud Səfəvi şahı Sultan Hüseynə qarşı qiyam etmiş, dövlətin paytaxtı İsfahan şəhərini mühasirəyə almış və ələ keçirmiş, Sultan Hüseyni də uşaqları ilə birlikdə həbs etmişdi. Səfəvi dövləti dağıldığı üçün Babi-Ali Osmanlı imperiyasına həmsərhəd olan vilayətləri tutmaqdan ötrü qoşun göndərmiş, Gürcüstanı ələ keçirmişdi. Rusiya çarı da Səfəvi dövlətindəki hərc-mərcliklərə görə Şirvan vilayətində olan Dərbənd və Bakıya yiyələnmişdi. Qəzvin və Təbrizdə olan Şah Sultan Hüseynin oğlu Təhmasib çar hökuməti ilə Dərbənd və Bakının Rusiyanın əlində

[1] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724, д. 6, ч. 2, л. 389-390 об.

[2] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724, д. 6, ч. 2, л. 389-390 об.

qalması, Gilan, Mazandaran və Astrabadın da rus çarının mülkiyyətinə keçməsinin əvəzində Rusiyann ona yardım etməsi haqqında müqavilə bağlamışdı. Rus çarı Babi-Alini də Təhmasibi müdafiə etməyə, əvəzində Təhmasibin ona müəyyən əraziləri güzəştə getməsinə razı salmışdı.[1]

Müqavilə layihəsinin birinci maddəsində Şirvan vilayətinin əhalisinin müsəlman olduğu üçün Babi-Alinin himayəsinə sığındığı deyilirdi. Şirvan vilayəti aşağıdakı hissələrə bölünür:

Vilayətin dəniz sahili Rusiya imperiyasına keçir, Dərbənddə dənizdən başlayaraq dağa qədər 22 saatlıq məsafədə nişan qoyulur və bu nişandan Şamaxı ilə Xəzər dənizi arasında məsafənin üçdə bir hissəsinin qurtardığı yerdə qoyulmuş nişana qədər düz xətt çəkilir. Xəttdən qərbdəki ərazi Babi-Alinin hakimiyyətinə keçir. Şamaxı ilə Xəzər dənizi arasında qoyulmuş nişandan Kürlə Arazın qovuşduğu yerədək, dəniz tərəfdə qalan ərazi də Rusiyaya keçir. İki çayın qovuşuğundan cənuba doğru dənizkənarı ərazilər Rusiyaya, qərbə doğru ərazilər Osmanlı imperiyasına çatır, iki imperiyaya çatan ərazilər arasındakı torpaqlar isə Səfəvi dövlətinə qalır. Üç dövlətin ərazilərinin kəsişdiyi yerdə hər bir dövlət istehkam inşa edə bilərdi.[2]

Layihənin ikinci maddəsində qeyd olunurdu ki, Şamaxı şəhəri möhkəmləndirilə bilməz, Babi-Ali burada qarnizon saxlaya bilməz, burada Osmanlı sərkərdəsi iqamət edə bilməz, yalnız əgər şəhərdə Babi-Aliyə qarşı qiyam, yaxud sakinlər arasında çaxnaşma yaranardısa, sabitlik yaratmaq üçün Osmanlı qoşunu göndərilə bilərdi. Sabitlik bərpa olunduqdan sonra isə Osmanlı qoşunları Şirvan xanlığını tərk etməli idi. Əgər Şirvana göndərilən Osmanlı qoşununun sayı çox olardısa, qoşunlar Kür çayını keçməmiş bu barədə Xəzər sahillərindəki rus qoşunlarının komandanına xəbərdarlıq edilməli idi.[3]

Layihənin üçüncü maddəsinə görə, Mosul vilayətinin

---

[1] АВПРИ, ф. 89, (СРТ), оп 1, д. 6, ч. 2, л. 378.

[2] Yenə orada, v. 379 və a.ü.

[3]Yenə orada.s.380 və a.ü.

sərhədindən Həmədana kimi, oradan da Kirmanşaha kimi xətt Osmanlı dövlətinin sərhədi olacaq. Bu xəttdən Təbriz tərəfə Ordubad, Marağa, Urmiya, Çors, Xoy və Salmas Osmanlının hakimiyyəti altına keçir. Qeyd olunan xətlərin içərisində yerləşən Azərbaycan əraziləri – Gəncə, Qarabağ, Naxçıvan və bütün İrəvan vilayəti Osmanlının hakimiyyəti altına keçir. Kür və Araz çaylarının qovuşuğundan Kirmanşaha kimi olan yerlər baryer kimi Səfəvi dövlətinə qalır. Təhmasib razılaşmayıb müqavimət göstərərdisə, Osmanlı dövləti həmin əraziləri almaq üçün Rusiya ilə razılaşdırılmış hərəkət edəcəkdi.[1]

Dördüncü maddəyə görə, Təhmasib adı çəkilən əyalətləri könüllü olaraq Babi-Aliyə güzəştə gedərsə, Babi-Ali Təhmasibi qanuni şah kimi tanıyacaqdı, və tərəflər Təhmasibə lazımi hərbi yardımı göstərəcəkdilər.[2]

Beşinci maddədə qeyd olunurdu ki, əgər Təhmasib inadkarlıq göstərib müqavilə ilə nəzərdə tutulan torpaqları Babi-Aliyə güzəştə getməsə tərəflər onlara düşən əraziləri özlərinə götürəcək, sonra Səfəvi ərazilərində çaxnaşmaları yatırıb ləyaqətli bir şəxsi şah taxtına çıxaracaqlar.[3]

Sənədlə tanışlıq başabəla erməni “tarixçiləri”nin guya nə vaxtsa nəinki Qarabağ və Naxçıvanın xəyali Ermənistanın ərazisi olması haqqında iddialarının əsassız olduğunu sübut edir, hətta İrəvan vilayətinin də əzəli Azərbaycan ərazisi olduğunu təsdiqləyir. Belə ki, müqavilə layihəsində nəinki “Ermənistan”ın adı çəkilmir, üstəlik Qarabağ, Naxçıvan və İrəvanın adı digər Azərbaycan əraziləri ilə yanaşı çəkilir.

Osmanlı nümayəndələri Neplyuyevin təklif etdiyi müqavilə layihəsində Kür çayının osmanlıların ələ keçirdikləri ərazilərin şimal sərhədləri kimi nəzərdə tutulmasına, Təbrizin II Təhmasibə saxlanılması təklif olunmasına [4] qarşı qəti surətdə çıxaraq

---

[1] АВПРИ, ф. 89, (СРТ), оп 1, д. 6, ч. 2, лл.381 об.-382.

[2] Yenə orada, v. 382.

[3] Yenə orada, v. 382 a.ü.-383.

[4]Yenə orada,v.304.

bildirdilər ki, Kür çayı təkçə yeni işğal olunmuş ərazilərdən deyil, eləcə də əzəli Osmanlı ərazilərindən keçir, buna görə də adı çəkilən çay iki imperiya arasında sərhəd rolunu oynaya bilməz. Osmanlı tərəfi Şirvanın bir hissəsinin də Rusiya nəzarətinə keçməsinə etiraz edir və bildirirdi ki, rus rezidenti unutmamalıdır ki, bütün Şirvan Hacı Davuda verilmişdir və rus sarayına bu barədə dəfələrlə məlumat çatdırılmışdır. Osmanlı dövləti iki imperiya arasında sülhün qorunması naminə yalnız Şirvanın dənizkənarı hissəsini – Dərbənd və Bakını güzəştə getməyə razılaşdı, amma Təbrizə iddiasından imtina etmədi. De Bonak Təbrizin əvəzinə Xuzistan və ya hər hansı digər əyalətin Osmanlı dövlətinə birləşdirilməsini təklif etdi. Lakin, Osmanlı nümayəndələri bu təklifi rədd edib hədələyici tonla bildirdilər ki, əgər rus tərəfi onları qəbul etməsə, Osmanlı dövləti lazım olan əraziləri silah gücünə özünə götürəcək və "Rusiya monarxına bu barədə hesabat verməyəcək". De Bonak Neplyuyevə Təbriz haqqında bir daha xatırlatmamağı, həmçinin Şirvandan Rusiyaya eni dənizdən başlayaraq 15 saatlıq yola bərabər olan zolaq keçməsi ilə razılaşmağı məsləhət gördü. Lakin Neplyuyev bu şərtləri qəbul etməkdən imtina etdi. Beləliklə, danışıqların bu mərhələsində də razılıq əldə edilmədi.

Üç gün sonra Osmanlı nümayəndələri rus rezidenti Təbrizin onlara keçməsinə razılıq verməsə, hər cür sülh danışıqlarını dayandırıcaqlarını elan etdilər. Belə olduqda de Bonak Osmanlı nümayəndələrinə Təbriz məsələsini onların xeyrinə həll etmək barədə öz üzərinə öhdəlik götürüb, digər bəndlər haqqında razılığa gəlmələrini xahiş etdi. De Bonak Şirvanda rus işğal zonasında dənizdən Şamaxıya tərəf məsafənin 2/3 hissəsini saxlamağı, Araz çayı ilə Kür çayı arasındakı əraziləri Osmanlı imperiyasına, Arazdan cənubdakı əraziləri isə Səfəvilərə verməyi təklif etdi. [1] Konfrans yarımçıq dəyandırıldı və Osmanlı nümayəndələrindən biri birbaşa sədrəzəmin yanına məsləhətləşməyə getdi. Damad İbrahim paşa sülhü saxlamaq

---

[1]АВПРИ, ф. 89, (СРТ), оп 1, д. 6, ч. 2, л.309.

naminə Şamaxı yaxınlığındakı ərazinin yarıdan bir qədər çoxunun Rusiyaya keçməsi ilə razılaşdı.[1]

Neplyuyev elə həmin gün razılaşdırılmış düzəlişlər nəzərə alınmaqla müqavilənin 10 bənddən ibarət layihəsini italyan dilində təqdim etdi. Həmin layihəyə uyğun olaraq, Dərbənddən Astrabada qədər bütün sahilyanı zolaq Rusiyaya keçməli, Rusiyaya keçməli olan sahilyanı zolaq istisna olmaqla Şirvanın qalan bütün hissəsi Osmanlı imperiyasının himayəsi altında Hacı Davudun idarəçiliyində qalmalı idi. Burada heç vaxt heç bir istehkam tikilməməli və Osmanlı imperiyasının bu ərazidə nə qarnizon, nə də komendant saxlamaq hüququ olmamalı idi. Yalnız əhali arasında hər hansı çaxnaşma yarandıqda Osmanlı hökuməti sabitliyi bərpa etmək üçün ora lazım olan sayda qoşun göndərə bilərdi, həm də Osmanlı əsgərləri sabitlik bərpa olunan kimi Şirvanı tərk etməliydilər. Layihədə Kür və Araz çayları arasındakı ərazilərin, habelə Ordubad-Urmiya xəttindən qərbdəki torpaqların Osmanlı imperiyasına keçməsi nəzərdə tutulurdu. Rus elçisinin lahiyəsində həmçinin gələcəkdə həm Rusiya, həm də Osmanlı imperiyasının Səfəvi dövlətinə qarşı daha heç bir ərazi iddiası irəli sürməmələri təklif olunurdu. Layihədə nəzərdə tutulurdu ki, Osmanlı yalnız rus sərhədlərindən 5 saatlıq yol məsafəsində istehkama malik ola bilər. Iki imperiya arasında ərazilərin dəqiq müəyyən edilməsi, müqaviləyə görə hər iki tərəfdən komissarlar göndərilməklə, Fransa nümayəndəsinin iştirakı ilə həyata keçirilməli idi. Osmanlı sarayı II Təhmasibi yeganə qanuni şah kimi tanımağı və Rusiya ilə birlikdə "qəsbkar Mir Mahmudun" İrandan qovulmasına kömək etməyi də öhdəsinə götürməli idi.[2]

Layihənin son bəndinə görə, II Təhmasib Rusiya-Osmanlı müqaviləsinin tanımaqdan imtina etdiyi halda tərəflər öz aralarında razılığa gəlib birgə hərəkət edərək, "İranın

---

[1] Yenə orada.

[2]АВПРИ, ф. 89, (СРТ), оп 1, д. 6, ч. 2, л. 391 об.

sakitləşdirilməsi naminə" düzgün tədbirlər görməli idilər.[1]

İyunun 2 və 4-də (4 və 15-də) Osmanlı və Rusiya nümayəndələrinin daha üç görüşü keçirildi. Sonuncu görüşdə uzun mübahisədən sonra Təbrizin Osmanlı imperiyasına güzəştə gedilməsi barədə razılaşma əldə edildi.[2]

İyunun 15-də Osmanlı sarayından tərcüməçi göndərildi və o, de Bonakın yanında sədrəzəm İbrahim paşa tərəfindən imzalanmış 6 bənddən ibarət müqavilənin layihəsini İ.Neplyuyevə verdi. Osmanlı tərəfinin təqdim etdiyi müqavilə layihəsinin giriş hissəsində tərəflərin Səfəvi irsini bölüşdürməsi əsaslandırılırdı. Eyni zamanda rus hökumətinin 1723-cü ilin sentyabrında artıq səlahiyyələrini itirmiş şah elçisi İsmayıl bəylə imzaladığı müqavilə tanınır və Osmanlı dövlətinin də səfəvilərdən münasib ölkə və vilayətlərin xoşluqla, və ya zorla almaq hüququ təsdiqlənirdi.[3]

Şirvanın yarımmüstəqil xanlıq kimi statusu məsələsində Osmanlı tərəfi Rusiya tərəfi ilə razılaşdı və Osmanlı tərəfi Şirvanda qoşun saxlamamaq, istehkamlar inşa etməmək barədə öhdəlik götürdü. Osmanlılar sərhədçəkməni aşağıdakı qaydada aparmağı təklif etdilər: Şamaxıdan Xəzər dənizinə qədər olan məsafə üç bərabər hissəyə bölünsün, dəniz tərəfə olan üçdə iki hissəsi Rusiyaya, üçdə bir hissəsi isə Şirvan xanlığına keçsin. Kür və Araz çaylarının qovuşduğu yerin bir tərəfi (yəni çaylararası ərazi) Osmanlıya, dəniz tərəfi Rusiyayı keçməli, Arazdan cənubdakı hissə isə səfəvilərə saxlanılmalı idi.[4]

Səfəvilərə qalan Ərdəbil şəhərindən Təbriz tərəfə bir saat atla hərəkət edib orada bir nişan qoymaq, bu nişandan Kürlə Arazın qovuşduğu yerə bir düz xətt çəkmək, xətdən Ordubad və Təbriz tərəfdə olan Azərbaycan əraziləri (Ordubad, Təbriz, Mərənd, Marağa, Urmiya, Xoy, Çors, Salmas və digər yerlər, o

---

[1] Yenə orada, v. 392.

[2] АВПРИ, ф. 89, (СРТ), оп 1, д. 6, ч. I, лл. 1-2.

[3] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724, д.6, ч.2, л. 374 и об.

[4] BOA, Namei Humayun Defteri, nr. 7, s. 79. Belgeler II c., NR 21, s. 30-31, 286.

cümlədən Qarabağ, Naxçıvan, İrəvan, Üçkilsə) Osmanlı dövlətinə keçməli idi; Ərdəbilin bir saatlığındakı nişandan Həmədana doğru, Həmədandan Osmanlı imperiyasına keçəcək Kirmanşaha kimi bir düz xətt çəkilməli, bu xəttin daxilinə düşən ərazilər (Ərdəlan, Kürdüstan və s.) Osmanlılara qalmalı idi. Ərdəbildən Kürlə Arazın qovuşduğu yerə kimi çəkilən xətdən dənizə tərəf olan ərazi Rusiyaya keçməli, yerdə qalan ərazilər Səfəvilərə qalmalı idi.[1]

Rusiya layihəsindən fərqli olaraq, Osmanlı layihəsində tərəflərə onlara ayrılmış torpaqların hər hansı məntəqəsində hərbi istehkam qurmağa icazə verilirdi. Layihədə qeyd olunurdu ki, II Təhmasib yuxarıda adları çəkilən əraziləri verməkdən imtina etdiyi halda razılığa gələn tərəflər bu torpaqları, o cümlədən bufer kimi qalan əraziləri zorla almalı, sonra Səfəvi taxtına başqasını oturtmalıdırlar.[2] Neplyuyev Osmanlıların Ərdəbilə iddiasını nəzərdə tutduğuna və qəsbkar Mir Mahmudla əlaqələr saxlamayacağı haqqında bənd daxil edilmədiyinə görə layihəni qəbul etmədi.[3] De Bonak layihəni Mir Mahmud haqqında bəndsiz qəbul etməsi üçün Neplyuyevi inadla dilə tutdu, əks halda vasitəçilikdən imtina edəcəyi və rezidentin ağılsızcasına sazişi pozduğu, öz hökmdarına fayda arzu etmədiyi haqqında Rusiyaya yazacağı ilə hədələdi. Neplyuyev isə cavabında bildirdi ki, əgər bu bənd müqaviləyə daxil edilməzsə, onda Osmanlı hökuməti Mir Mahmudu, Hacı Davudla münasibətdə etdiyi kimi, himayəyə qəbul edər.[4]

İyunun 11(22)-də daha bir konfrans keçirildi. Osmanlı nümayəndələri Səfəvi dövlətinin saxlanılması, prinsipcə qəsbkar Mir Mahmudla münasibət haqqında Neplyuyevlə razılaşdılar. Lakin hələ müvafiq bəndin mətnə daxil edilməsinə razılıq

---

[1] BOA, Nameyi Humayun Defteri, nr. 7, s. 79. Belgeler II c., NR 21, s. 32-33, 289-287.

[2] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724, д.6, ч. 2, лл. 380-382.

[3] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724, д.6, ч. 2, 366 об.

[4] Yenə orada, 367 a.ü.

verməmiş yenidən Ərdəbillə bağlı iddialarında israr etməyə başladılar. De Bonak da, Neplyuyev də buna etiraz edərək çardan ciddi tapşırıq alındığını bildirdilər. Tapşırığa görə, Nepluyuyev Ərdəbilin Osmanlılara keçməsinə razılaşmamalı idi, çünki, bu iki imperiyaya keçəcək ərazilər arasında qalan yeganə şəhərdir.[1] Ərdəbilin əvəzində Sultaniyyə şəhərini tələb edən Osmanlı nümayəndələrinə bildirildi ki, Sultaniyyə də əzəli Osmanlı ərazilərindən uzaqda yerləşir. Bundan əlavə, II Təhmasibə cəmi üç iri şəhər-Qəzvin, Ərdəbil və Sultaniyyə qaldığından bunların alınması yolverilməzdir.[2]

1724-cü il iyunun 13(24)-də keçirilən sonuncu konfransda Ərdəbil haqqında 6 saat səmərəsiz mübahisələr getdi. Nəhayət, gecə saat 2-də Osmanlı nümayəndələri sülh arzuladıqları üçün Ərdəbil şəhərinin Səfəvilərə saxlanmasına, lakin ona bitişik bütün torpaqların Osmanlı dövlətinə birləşdirilməsinə razı olduqlarını bildirdilər. Son nəticədə tərəflər de Bonakın Ərdəbilin və birsaatlıq məsafədə ona bitişik torpaqların II Təhmasib üçün saxlanılması təklifi ilə razılaşdılar. Hər bir tərəfin sonradan təsdiq olunmaq üçün müqavilənin mətnini hazırlaması qərara alındı.[3]

Müqavilənin son variantı giriş, nəticə və 6 bənddən ibarət idi. Giriş hissəsində deyilirdi ki, Mir Mahmud Səfəvi dövlətinin paytaxtı İsfahan şəhərini zəbt edib Şah Sultan Hüseyni uşaqları ilə birlikdə həbsxanaya saldığı üçün Osmanlı dövləti onunla həmsərhəd olan torpaqları tutmaq üçün qoşunlarını göndərmişdir. Rusiya isə Dərbənd və Bakını tutmuşdur. Rus hökuməti ilə İsmayıl bəy arasında 12(23) sentyabr 1723-cü ildə bağalanmış müqavilə təsdiq olunurdu.[4]

Birinci maddəyə görə, Kür və Araz çaylarının birləşdiyi, Rusiya, Osmanlı və Səfəvi dövlətlərinin sərhədlərinin qovuşduğu yerdə, Osmanlı və Rusiya tərəfərinə hərbi istehkamlar və

---

[1] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724 г., д.6, ч. 2, лл. 371об. 372 и об.
[2] Yenə orada, v. 372 a.ü. – 373.
[3] Yenə orada, v. 374- 376.
[4] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724 г., д.7, лл. 1 об.-2.

qarnizonlara malik olmağa icazə verilirdi (sərhəddən üç saatlıq yol məsafəsindən yaxın olmamaqla və bu barədə digər tərəfə məlumat verməklə). Rusiya və Osmanlı imperiyalarının yeni sərhədlərinin müəyyənləşdirilməsi üçün tərəflər öz komissarlarını bölgəyə göndərməli, komissarlar Fransa nümayəndəsi ilə birlikdə sərhədləri çəkməli idilər.

İkinci maddəyə görə, Şirvan mərkəzi Şamaxı olmaqla xüsusi xanlıq hesab olunurdu. Şamaxının özü möhkəmləndirilməməli idi. Orada Osmanlı qarnizonunun saxlanmasına icazə verilmirdi. Yalnız bu xanlığın hakimi sultana tabe olmaqdan imtina etdikdə və ya sakinlər arasında qarışıqlıq yarananda Osmanlı qoşunları Şamaxıya girə bilərdi, lakin bu zaman Osmanlı tərəfi qoşunları Kür çayını keçənə qədər rus qoşunlarının komandirini bu barədə xəbərdar etməli idi. Sakitlik bərpa olunandan sonra bir osmanlı əsgəri də Şamaxıda qalmamalı idi.[1]

Üçüncü maddəyə görə, bütün Şərqi Gürcüstan, Azərbaycanın əksər əraziləri, o cümlədən İrəvan, Ordubad, Təbriz, Gəncə, Marağa, Mərənd, Urmiya, Çors, Salmas, Qarabağ, Qaradağ və Naxçıvan, eləcə də İranın Həmədan, Qum və Kirmanşah vilayətləri Osmanlı imperiyasına çatırdı. Rusiya və Osmanlı imperiyalarının yeni sərhədləri arasındakı ərazilər şahın hakimiyyəti altında qalırdı; bu ərazilər iki imperiya arasında bufer rolunu oynamalı idi. [2] Müqavilənin dördüncü maddəsində deyilirdi ki, əgər II Təhmasib üçüncü maddədə qeyd olunan əraziləri Osmanlı imperiyasına verməyə qarşı çıxardısa, Rusiya həmin maddənin şərtlərini yerinə yetirmək üçün bütün qüvvəsini sərf etməlidir.[3]

Beşinci maddədə qeyd olunurdu ki, əgər II Təhmasib müqavilədə göstərilən torpaqları könüllü verməyə razılaşarsa, Rusiya və Osmanlı imperiyası əfqanların İrandan qovulmasında ona yardım göstərəcək. Əksinə, II Təhmasib müqavilənin

---

[1] АВПРИ, ф. 89, (СРТ), оп 1, 1724 г., д.7, лл. 3-7.

[2] Yenə orada,v. 7-9.

[3] Yenə orada, v. 12-13.

şərtlərini qəbul etməkdən imtina edərdisə, altıncı maddədə göstərildiyi kimi, Osmanlı imperiyası və Rusiya birləşərək onu devirməli və taxta öz adamlarını çıxarmalı idilər.[1]

Beləliklə, 1724-cü il iyunun 13(24)-də uzun və çətin danışıqlardan sonra Səfəvi irsini bölüşdürmək haqqında Rusiya-Osmanlı müqaviləsi imzalandı. Bununla da iki imperiya arasında müharibə təhlükəsi müəyyən müddətə aradan qaldırıldı.

Bununla yanaşı, 1724-cü il İstanbul müqaviləsinin Cənubi Qafqaz xalqları, o cümlədən Azərbaycan xalqı üçün mühüm mənfi nəticələri olmuşdur. Müqavilə ilə Azərbaycan əraziləri süni sürətlə dörd yerə (Rusiyaya, Osmanlıya keçən ərazilər, Şahın nəzarəti altında qalan ərazilər və yarımmüstəqil Şirvan xanlığı) bölünürdü ki, bu da ölkədə siyasi və iqtisadi şəraitin qeyri-sabitliyinə gətirib çıxarırdı. İstanbul müqaviləsi ədalətsiz, açıq-aşkar işğalçı mahiyyət daşıyırdı və əslində iki işğalçı dövlətin yad əraziləri bölüşdürməsi haqqında sövdələşmə idi. Məhz bu səbəbdən də o, normal münasibətlərin möhkəm və etibarlı zəmini olmadı. J.F.Hammer bu müqavilə haqqında haqlı olaraq yazır:"Bütün vilayətləri ikiyə parçalayan, dağlar və çaylar üzrə təbii sərhədi olmayan bu sərhəd Rusiya və Osmanlı imperiyası arasında İran dövlətinin bölünməsi haqqında bağlanmış müqavilənin özü kimi etibarsız idi, sonrakı tarixdə Polşanın bölünməsinin sələfi və ona nümunə idi".[2]

İstanbul müqaviləsi Rusiya və Osmanlı imperiyası arasında olan ziddiyətləri tamamilə aradan qaldırmadı, yalnız bir qədər yumşaltdı. Qeyd etmək lazımdır ki, I Pyotr özü bu müqaviləni müvəqqəti saziş kimi dəyərləndirirdi. Rus tarixçisi P.Q.Butkovun yazdığına görə, I Pyotr Rusiyanın Azov və Qara dənizə çıxış hüququnu ləğv edən Prut sülhünün şərtlərini dəyişməyə nail olmaqdan ötrü Osmanlı imperiyası ilə müharibəyə başlamaq üçün münasib məqam gözləyirdi. Donda hərbi sursat toplanmış, yürüşün başlanması üçün bütün sərəncamlar verilmişdi, lakin

---

[1] Yenə orada,v. 13-15.

[2] J.F. Hammer J.F. Göst. əsəri, s. VII, his., s. 307-308.

Pyotrun ölümü bu planın gercəkləşdirilməsinə mane oldu.[1]

Beləliklə, göründüyü kimi, Asiya ilə Avropanın, Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan Qafqaz bərzəxinin çox mühüm şərq hissəsini təşkil etdiyindən, mühüm geosiyasi və geoiqtisadi əhəmiyyətə malik olduğundan çox qədim zamanlardan qonşu iri dövlətlərin diqqətini cəlb etmişdir. XVIII əsrin birinci rübündə Azərbaycan Rusiya və Osmanlı imperiyalarının siyasətində mühüm yer tutmuşdur.

1711-ci ildə Osmanlı ilə Prut müharibəsində ağır yenilgiyə uğradığı üçün Qara dənizə çıxış ümidini tamamilə itirən rus çarı I Pyotr cənubda bütün diqqətini Xəzər dənizinə və ətraf ərazilərə yönəltmişdi. Lakin onun 1722-ci ildə Səfəvi dövlətinin faktiki dağılmasından yararlanaraq yüzminlik ordusu ilə Səfəvi dövlətinin ərazisinə yürüşü Osmanlı sarayının kəskin etirazı ilə qarşılanmış və bir sıra səbəblər üzündən yarımçıq qalmışdı. I Pyotr kiçik dəniz ekspedisiyaları göndərmək yolu ilə Bakı, Salyan və Rəşti ələ keçirmişdi.

Osmanlı imperiyası da həm 1699-cu ildə Karlovça müqaviləsinə görə Avropada itirdiyi ərazilərin yerini doldurmaq, həm də Səfəvi ərazilərinin, ilk növbədə Cənubi Qafqazın rəqibinin əlinə keçməsinə mane olmaq üçün 1723-cü ildən bölgədə hərbi fəaliyyətə başlamışdı.

Eyni istiqamətdə irəliləmələri iki imperiya arasında müharibə təhlükəsi doğurduğundan İsveçlə qanlı Şimal müharibəsini (1700-1721) təzəcə bitirmiş I Pyotr yeni ciddi müharibəyə girməyi arzulamırdı və Fransa diplomatiyasının araçılığı ilə Səfəvi ərazisini bölüşdürməkdən ötrü Osmanlı ilə sövdələşmək üçün danışıqlara başıladı. Bu danışıqlarda əsas mübahisə obyekti Azərbaycan torpaqları olmuşdur. Osmanlı tərəfi rus çarının heç bir hüququ olmadığı üçün Dərbənd və Bakıdan əl çəkməsini, Rusiya tərəfi isə bütün Xəzəryanı zolağın onda, Ərdəbil, Təbriz və Sultaniyyə şəhərlərinin Səfəvilərdə qalmasını tələb edirdi. 1724-cü il iyunun 24-də İstanbulda iki

---

[1] Петр Г.Бутков. Göst. əsəri, I his., s. 181.

dövlət arasında bağlanmış müqaviləyə görə Osmanlı dövləti Azərbaycanın çox hissəsinə, İranın qərb hissəsinə nəzarəti əldə edir, lakin Bakı, Dərbənd, Salyan, Lənkəran, Gilan və digər Xəzəryanı ərazilərin Rusiyaya keçməsinə razılıq verirdi. Şirvan vilayəti, onun Rusiyaya keçən dənizkənarı zonası istisna olmaqla, Osmanlı sultanının himayəsi altında yarımmüstəqil xanlıq elan olunurdu.

İstanbul müqaviləsi Azərbaycanı süni surətdə dörd yerə (Rusiyaya, Osmanlıya keçən ərazilər, Şahın nəzarəti altında qalan ərazi və yarımmüstəqil Şirvan xanlıığı) bölən ədalətsiz sövdələşmə idi. Bu müqavilə Osmanlı-Rusiya ziddiyyətlərini aradan qaldırmadı, yalnız müəyyən müddətə yumşaltdı.

# II FƏSİL

## XVIII ƏSRİN 20-30-cu İLLƏRİNDƏ AZƏRBAYCANDA MÜVƏQQƏTİ OSMANLI VƏ RUSİYA İDARƏÇİLİYİ

### II.1. Azərbaycan torpaqlarının Rusiya və Osmanlı imperiyaları arasında bölüşdürülməsinin davam etdirilməsi.

İstanbul müqaviləsi imzalandıqdan dərhal sonra Osmanlı hökuməti müqavilə ilə ona ayrılmış Səfəvi ərazilərinin ələ keçirilməsi üçün hərbi əməliyyatları fəallaşdırdı. Qeyd edək ki, Kür çayından şimaldakı ərazilərin əhalisi əsasən sünnilərdən ibarət olduğu üçün həmməzhəb osmanlılara rəğbət bəsləyirdilər. Onlar Osmanlı himayəsini könüllü qəbul etdilər. Azərbaycanın digər ərazilərində isə vəziyyət başqa cür idi. Osmanlı müftisinin əsgərləri şiələrə qarşı cihada çağıran fətvasından qorxuya düşən şiə əhali osmanlılara qarşı dirəniş göstərdi.

Hələ 1724-cü ilin yazında Arifi Əhməd paşa 60 min nəfərlik ordu ilə Tiflisdən İrəvana doğru hərəkətə başlamışdı. İyunun ortalarında Əhməd paşanın ordusu Arpaçay vadisinə çatıb burada düşərgə saldı.[1] Şəhərin müdafiəsinə 1722-ci ilin sonundan Qarabağ (Gəncə), vəzifəsində qalmaqla həm də Çuxursəd bəylərbəyi olan Məhəmmədqulu xan başçılıq edirdi. Məhəmmədqulu xan Gəncə, Şəmsəddil və İrəvandan olan azərbaycanlı döyüşçüləri, habelə Ağcaqaladan olan gürcü döyüşçüləri birləşdirib osmanlılara müqavimət göstərdi,[2] lakin osmanlılar müdafiəçilərin müqavimətini dəf edib şəhərin böyük hissəsini ələ keçirdilər.[3] İçqalaya çəkilən qızılbaş döyüşçüləri avqustun sonunadək müqaviməti davam etdirdilər.[4] II

[1] M.Münir Aktepe. 1720-1724 Osmanlı-İran münasibetleri ve silahşör Kemani Mustafa ağanın Revan fetihnamesi. İstanbul, 1970, s. 34.
[2] Yenə orada, s. 50-51.
[3] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724г., д.6, ч. 2, лл. 433, 444-446.
[4] Osmanlı-İran-Rus ilişkilerine ait iki kaynak. 2. Nadir şah devrine ait anonim kronologisi. İstanbul, 1974, s. 65.

Təhmasibin İrəvan müdafiəçilərinə yardıma göndərdiyi 10 minlik qoşunu darmadağın edildi, Naxçıvan döyüşsüz təslim oldu.[1]

Cənub cinahında hərəkət edən Bağdad hakimi Həsən paşa hələ 1723-cü ilin sonu-1724-cü ilin birinci yarısında Kirmanşahı tutmuş, sonra II Təhmasibin Çava və Əlişparada mövqe tutmuş sərkərdəsi Əlimərdan xanın qoşununu darmadağın etmişdi. Ətraf yerlərin bəzi bəyləri Osmanlı himayəsini qəbul etdilər. Vəziyyətinin çıxılmaz olduğunu görən Əlimərdan xan da təslim oldu.[2] Marağa hakimi Firidun bəy könüllü olaraq Osmanlı təbəəliyini qəbul etdi və Marağa bəylərbəyi titulunu alaraq öz vəzifəsində qaldı.[3]

İstanbul müqaviləsi bağlanandan cəmi 5 gün sonra atası Həsən paşanı sərəsgər vəzifəsində əvəz etmiş Əhməd paşanın komandasındakı Osmanlı ordusu Həmədan istiqamətində hərəkətə etməyə başladı. Həmədan şəhəri yaxşı möhkəmləndirilmişdi. Ətrafında dərin və enli xəndəklər vardı. İki yüzdən artıq bürcü olan ikiqat qala divarları mövcud idi, qalanın mərkəzində isə iki qəsr dururdu.[4]

54 günlük hücumlar bir nəticə vermədiyindən, Osmanlılar 55-ci gün hər tərəfdən hücuma keçdilər, lakin güclü müqavimətlə qarşılaşıb geri çəkildilər.[5] Daha sonra onlar qala divarlarından birini partladaraq qalaya daxil oldular.[6] Şəhərin müdafiəçiləri daha bir neçə gün müqaviməti davam etdirsələr də,[7] nəhayət, iki aylıq mühasirədən sonra Həmədan ələ keçirildi.[8]

Təbrizə doğru hərəkət edən Abdulla paşanın komandası altındakı Osmanlı ordusu 1724-cü ilin yayında yolüstü Salmas və

---

[1] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724г., д.6, ч. 2, л. 446.

[2] Jon F. Hammer. Göst. əsəri, VII c., II his., s. 320.

[3] Yenə orada.

[4] Yenə orada, s. 320.

[5] Nadir şah devrine ait anonim kronolojisi, s. 69.

[6] Şeyx Məhəmməd Əli Həzin. Tarixe əhvale be təzkireye hale mövlana, London, 1831, s. 120, 157.

[7] Nadir şah devrine ait anonim kronolojisi. s. 23.

[8] John F. Hammer Göst. əsəri. VII c., II his., s. 319.

Ordubadı ələ keçirdi.[1]

II Təhmasib Təbrizin müdafiəsini təşkil etmək əvəzinə canını qurtarmaq üçün şəhəri tərk edib getdi. 1724-cü il avqustunda Abdulla Köprülü paşa Xoy və Çorsu tutduqdan sonra Təbrizə doğru hərəkət etdi, Tasuc kəndi yaxınlığında Urmiya çayı sahilində Təbrizdən çıxan dəstələrlə rastlaşdı. Baş verən toqquşma osmanlıların qələbəsi ilə başa çatdı. Lakin, bu zaman Ərdəbildə olan II Təhmasibin yardım göndərməsi təbrizlilərin vəziyyətini xeyli yaxşılaşdırdı. Təbriz sakinləri yardıma gələn dəstə ilə birləşib osmanlılara qarşı hücuma keçdilər və onları şəhər ətrafından çəkilməyə vadar etdilər.[2]

1725-ci ilin fevralında İrəvanda yerləşən Osmanlı ordusu da Təbrizə doğru hərəkət etməyə başladı. Tasuc kəndi yaxınlığında iki Osmanlı ordusu birləşdi və Abdulla paşanın ümumi komandanlığı altında Təbrizə yaxınlaşdı.[3] İyulun ortalarında Osmanlı ordusu Təbrizin yaxınlığında düşərgə saldı.[4]

Təbriz şəhərinin müdafiəsinə başçılıq edən Allahqulu xan öz dəstəsi ilə osmanlıların qarşısına çıxsa da məğlubiyyətə uğrayıb geri çəkildi.[5] İyulun 17-də Osmanlı ordusu şəhəri mühasirəyə aldı. Şəhər müdafiəçilərinin əksəryyəti silahla rəftar edə bilən, amma hərbi təcrübəsi olmayan sakinlərdən ibarət idi. Hammerin yazdığına görə, dörd günlük həmlədən sonra osmanlılar şəhərin doqquz məhəlləsindən yeddisini ələ keçirməyə nail oldular.[6] Müdafiəçilərin bir hissəsi iki möhkəm və sıx məhəlləyə sığınaraq müdafiəni davam etdirdilər. Nəhayət, döyüşən tərəflər razılığa gəldilər və nahaq qan tökülməməsi üçün müdafiəçilər arvadları, uşaqları, daşınan əmlaklarını götürüb şəhərdən çıxdılar.[7] Təbrizin fəthi münasibətilə İstanbulda şənlik keçirildi, Təbrizin

---

[1] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1724г., д. 6, ч. 2, лл. 433, 451 об.

[2] АВПРИ, ф.89 (СРТ), оп. 1, 1724 г., д. 6, ч. 2, л. 492.

[3] Yenə orada, 1725-ci il, iş 6, v. 258.

[4] J. F.Hammer. Göst. əsəri, VII c., II his., s. 327.

[5] Nadir şah dariül ait anonim kronolojisi, s. 18.

[6] J. F. Hammer. Göst. əsəri, VII c., II his., s. 325.

[7] АВПРИ, ф.89 (СРТ), оп. 1, 1725 г., д. 6, л. 258.

alınmasında göstərdiyi xidmətlərinə görə Sultan Abdulla paşaya Rakkanın canişinliyini tapşırdı; oğlu Əbdürrəhmana isə üç buncuqlu paşa rütbəsi verdi.[1]

Təbrizin osmanlıların əlinə keçməsi ingilis hökumətinin də sevincinə səbəb oldu. İngiltərə kralı hətta rusları Xəzər dənizinə iddialarından imtina etməyə məcbur etmək üçün Osmanlı ordusunun yürüş planını tərtib etmişdi.[2] İngilislər osmanlılara deyirdilər ki, onlar üçün indiki qədər əlverişli məqam ola bilməz: Rusiyada hakimiyyət qadının əlindədir, rus dövləti zəifləmiş və sarsılmışdır. İstanbuldakı ingilis səfiri Stenyana Osmanlı hökumətini rusların Xəzəryanı vilayətlərdən sıxışdırıb çıxarılması üçün ən əlverişli məqam olduğuna inandırmaq tapşırıldı. Çünki Rusiya Holştin məsələsinə cəlb olunmuşdu və onun xatirinə güman ki, Xəzəryanı ərazilərdə ələ keçirdiyi torpaqları qurban verərdi.[3]

Təbrizin fəthi ilə eyni vaxtda Arifi Əhməd paşanın ordusu Luristanı ələ keçirdi.[4]

1725-ci ilin sentyabr ayında Krım tatarlarının da yardım etdiyi Sarı Mustafa paşanın başçılıq etdiyi Osmanlı ordusu çox böyük önəm verdiyi Gəncə şəhərinə yiyələndi.[5] İlin sonunda isə osmanlılar İstanbul müqaviləsini pozaraq Səfəvilərin əlində qalmalı olan Ərdəbili fəth etdilər. Kür çayından cənubda yerləşən rus qoşunlarının komandanı general Levaşov Təbriz hakimi vəzifəsini icra edən Abdulla paşadan İstanbul müqaviləsinə əməl etməyi və Ərdəbili boşaltmağı tələb etsə də, bu tələbə məhəl qoyulmadı.[6] Abdulla paşa cavab məktubunda II Təhmasib İstanbul müqaviləsinə görə osmanlılara çatmalı olan Təbriz şəhərini könüllü veməkdən imtina etdiyini və osmanlıların bu şəhəri silah gücünə aldıqları üçün müqaviləyə dəqiqliklə əməl

[1] J. F. Hammer. Göst. əsəri, VII c., II his., s. 327.
[2] J.Jakov. Göst. əsəri, s. 146-147.
[3] J.Jakov. Göst. əsəri, s. 149.
[4] John F.Hammer. Göst. əsəri, VII c., II his., s. 326.
[5] РГАДА, ф. 9 (Каб. Петра I), отд. 2, кн. 66, л. 550.
[6] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д. 15, л. 116.

etməyi lazım bilmədiklərini və Ərdəbili ələ keçirdiklərini bildirirdi.[1]

Üstəlik osmanlılar müqaviləyə görə rus işğal zonasına aid edilmiş Astara və Kərgərud mahallarını da 1726-cı ildə ələ keçirdilər.[2] Ərdəbil hakimi Əli paşa həmin mahalların tutulmasını belə əsaslandırmışdı: bu mahallar üç tərəfdən heç birinə tabe olmur və osmanlıların nəzarət zonasından bir çox sakinlər qaçıb oralarda toplaşaraq, osmanlı hərbçilərinə basqınlar edirdilər. Buna son qoymaq üçün həmin əraziləri tutmaq zəruri olmuşdur.[3] General Levaşovun kansler Qolovkinə verdiyi məlumata görə, osmanlılar Astara mahalına sakinlərin bir hissəsi tərəfindən dəvət olunmuşdular. Bu sakinlər Astaranın ruslar tərəfindən işğal olunacağını eşidib, həmdin Osmanlı imperiyasına tabe olmağı üstün tutmuşdular.[4]

İstanbul müqaviləsi Cənubi Qafqaz regionunda Rusiya-Osmanlı münasibətlərində gərginliyi bir qədər zəiflətsə də tamamilə aradan qaldırmadı. Rusiya Xəzər sahillərində yalnız Dərbənd, Bakı və Rəşt şəhərlərini işğal etməyə nail olmuşdu, Dərbəndlə Bakı arasındakı əraziləri, habelə Kür çayının mənsəbindən Rəştə qədər olan dənizyanı ərazini İstanbul müqaviləsinin şərtlərinin reallaşdırılması əsasında dinc yolla ələ keçirməyi düşünürdü. Çar I Pyotrun 28 avqust (8 sentyabr) 1724-cü il tarixli sərəncamına görə, Cənubi Qafqazda Rusiya ilə Osmanlı imperiyası arasındakı sərhədləşdirməni həyata keçirməkdən ötrü ruslar tərəfdən general-mayor Rumyantsev komissar, polkovnik fon Lukey və artilleriya mayoru İ.Herber onun köməkçiləri təyin olundu.[5]

1725-ci ilin əvvəlində İstanbula gələn Rumyantsev rus rezidenti İ.Neplyuyevlə birlikdə sədrəzəm İbrahim paşanın

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д.4, ч. 2, л. 279.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д. 15, л. 78 об.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д. 6, лл. 97 об.-98.

[4] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д. 6, л. 65.

[5] РГАДА, ф. 15, д. 37, ч. 1, лл. 3-4 об.; Сергей Соловьев. История России. кн. IX (тт. 17-18), Москва, 1884, с. 403.

qəbulunda oldu və missiyasının məqsədləri barədə ona məlumat verdi. İbrahim paşa qış vaxtı belə bir çətin yola çıxmağın, hələ Gəncə tutulmadığından, oradan Şirvana getməyin mümkünsüz olduğunu əsas gətirərək səfəri yaza kimi təxirə salmağı məsləhət gördü.[1] Yanvarın 16-da Rumyantsev Neplyuyevlə birlikdə Sultan III Əhmədin özü tərəfindən qəbul olundu. Rumyantsev çar fərmanını və İstanbul müqaviləsinin I Pyotr tərəfindən təsdiq olunmuş mətnini sultana təqdim etdi.[2] Yanvarın 30-da isə Rumyantsevə müqavilənin sultan tərəfindən təsdiqlənmiş nüsxəsi təqdim edildi. Dərviş Mehmet ağa Osmanlı tərəfindən sərhədləşdirmə üzrə komissar təyin olundu.[3]

Osmanlı hökuməti nümayəndəsini Xəzəryanı regiona göndərməyə tələsmirdi. Çünki Salyanda rus hərbçilərinin qətlə yetirilməsi Osmanlı hökumətində regionda rusların mövqelərinin zəifləyəcəyi gözləntisi yaratmışdı. Osmanlı hakim dairələri sərhədləşdirmə keçirməyin mənası olmadığını düşünürdülər, rus qoşunları regionu tərk edib Rusiyaya qayıtdıqdan sonra osmanlılar özləri Xəzəryanı əyalətləri tuta bilərdilər.[4] Eyni zamanda I Pyotrun ölümündən sonra Rusiya xarici siyasətinin cənub-şərq istiqamətinin arxa plana çəkilməsi də osmanlıların ümidlərini artırırdı. I Pyotr öləndən sonra mərkəzi hakimiyyətin zəifləməsi, hakimiyyət uğrunda mübarizənin güclənməsi şəraitində ümumiyyətlə dövlətin xarici siyasətində bir qeyri-ardıcıllıq müşahidə olunurdu. Həm də I Yekaterina (1725-1727) dövründə rus hökuməti “Holştin və Kurlandiya işlərinə” şişirdilmiş maraq göstərirdi. Yalnız Şlezviq məsələsində Holştin hersoquna yardım göstərmək cəhdi iflasa uğradıqdan sonra 1726-cı ilin ikinci yarısından Rusiya xarici siyasətində şərq yönümü mühüm yer tutmağa başladı. Artıq Şərq problemi Rusiyanın

---

[1] АВПРИ, ф. 89 (СРП), оп. 1, 1725 г., д. 6, л. 17 и об.

[2] Yenə orada, v.18 a.ü.-20.

[3] Петр Бутков. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. ч. 1, СПб., 1863, с. 90.

[4] От гр. Де Морвиля г де-Кампредону. Фонтенебло, 23 ноября 1724 г.СИРИО, т. 8, д.89,с. 340.

Yaxın Şərqdə Qərbi Avropa ölkələri ilə münasibətlərinə böyük təsir göstərərək, mühüm beynəlxalq əhəmiyyət kəsb edirdi. Şərqlə ticarətdə və Xəzəryanı ölkələrin zəngin bazarlarında marağı olan İngiltərə, əvvəllər olduğu kimi, Rusiyanın bu regionda irəlilməsinə mane olmağa çalışırdı. 20-ci illərin ortalarından fransız hökuməti də Rusiyaya münasibətində barışmaz düşmən mövqeyi tutmağa başladı ki, bu da Rusiya və Fransanın Avropada bir-birinə qarşı duran qruplaşmalarda iştirakları ilə bağlı idi.

1725-ci il yanvarın 30-da Avstriya ilə İspaniya arasında İngiltərə, Hollandiya və Fransaya qarşı Vyana İttifaq müqaviləsi bağlanmışdı. Buna cavab olaraq, 1725-ci il sentyabrın 9-da İngiltərə, Fransa və Prussiya arasında Avstriya və İspaniyaya qarşı Hannoner müqaviləsi bağlandı.[1] Həmin ittifaqın iki üzvü Rusiyanın barışmaz düşməni olduğu üçün, bu müqavilə müəyyən dərəcədə Rusiyaya qarşı da yönəlmişdi. Bu, Avstriya və Rusiyanı yaxınlaşdırdı. Onların Osmanlı imperiyasına qarşı münasibətdə mənafe ümumiliyi vardı. Həm də Avstriya Şlezviqin Holştin hersoqu Karl-Fridrixə (I Pyotr və Yekaterinanın qızının əri) qaytarılmasına etiraz etmirdi.[2] İngiltərə və Osmanlı imperiyası hər cür vasitələrlə Rusiya və Avstriyanın yaxınlaşmasına mane olmağa çalışırdılar. İngiltərənin İstanbuldakı səfiri Stenyanın təhriki ilə Osmanlı hökuməti İstanbuldakı rus rezidenti Neplyuyevdən və bu zaman orada olan komissar Rumyantsevdən Rusiyanın Avstriya ilə ittifaqa daxil olmayacağına dair təminat istədi. Bununla əlaqədar 1725-ci il 16 (27) aprel tarixli buyruğunda rus hökuməti Rumyantsev və Neplyuyevə Osmanlılara Rusiya ilə Avstriya arasında əzəldən dostluq olduğunu, Avstriya imperatorunun I Yekaterinanın taxta çıxması münasibətilə təbriklə elçi göndərdiyini bildirmələrini tapşırırdı. Rumyantsev və Neplyuyev Osmanlı imperiyasının İranda və Cənubi Qafqazda hərəkətlərinin Rusiyanı narahat etdirdiyini də

---

[1] Очерки истории СССР (XVIII век, II четверт), Москва, 1954, с. 336.

[2] Yenə orada.

Osmanlı hökumətinin nəzərinə çatdırmalı idilər. Osmanlı dövləti bundan sonra İranda və Cənubi Qafqazda əks hərəkətlər etməməyi öhdəsinə götürərdisə, Rusiya Avstriya və digər dövlətlə ittifaqa girməməyi vəd edirdi.[1]

I Pyotrun ölümündən sonra Xəzəryanı ərazilərlə bağlı məsələdə Rusiyanın siyasətini "Osterman planı" deyilən plan müəyyənləşdirməyə başladı. Həmin planın mahiyyəti artıq əldə edilmiş torpaqlarda möhkəmlənməklə eyni vaxtda ehtiyatlı taktikanın həyata keçirilməsi və hərbi əməliyyatların tədricən məhdudlaşdırılmasından ibarət idi. Osterman real şəraiti, o cümlədən rus qoşunlarının Xəzəryanı regionda ağır vəziyyətini nəzərə alaraq, Şahlıq dövləti ilə münasibətlərin tezliklə tənzimlənməsini və onun Xəzəryanı əyalətlərinin Rusiyaya birləşdirilməsini qəbul etməsinə nail olmağı məsləhət görürdü. II Təhmasib buna müqavimət göstərəcəyi təqdirdə, İstanbul müqaviləsinin müvafiq maddəsinə əsasən Rusiya Osmanlı dövləti ilə birlikdə Səfəvi taxt-tacına yeni şah çıxarmalı idi.[2]

"Osterman planı"na uyğun olaraq 1725-ci ilin yazında general Matyuşkinə bir müddətə "İran əyalətləri"nin işğalını təxirə salmaq, artıq zəbt edilmiş əyalətlərdə möhkəmlənmək əmr olunurdu. [3] Xəzəryanı vilayətlərdə Rusiyanın mövqelərini möhkəmləndirmək üçün buraya 4 piyada alayı, 3 draqun alayı daxil olmaqla 10 min nəfərlik qüvvə göndərildi. Həştərxandan Dərbənd və Bakıya silah-sursatla dolu 54 gəmi göndərildi.[4]

Bu zaman Səfəvi dövlətinin özündə vəziyyət əvvəlki kimi mürəkkəb və qeyri-müəyyən idi. Mazandarana sığınan II Təhmasiblə əfqanlar arasında mübarizə davam edirdi. Əfqanların başçısı Əşrəf əmisi oğlu Mir Mahmudu öldürüb 1725-ci ildə özünü şah elan etmişdi.

İstanbul müqaviləsinin pozulmasına əsas verməmək üçün rus

[1] РГАДА, ф. 15, д. 37, ч. 3, л. 227.

[2] Г. Г. Пайчадзе. Русско-грузинские политические отношения в первой половине XVIII в. Тбилиси, 1970, с. 53-59.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1725 г., д. 5, л. 134.

[4] Асиф Абдурахманов. Göst. əsəri, с. 40; Сб.РИО, т. 75, сс. 359-360.

hökuməti Xəzəryanı regionda Osmanlı dövlətinə qarşı açıq çıxış etməyə cürət etmir, eyni zamanda dolayı vasitələrlə Osmanlıların regionda möhkəmlənməsinə maneçilik göstərməyə çalışırdı. Kansler İ.Qolovkin erməniləri yardıma çağırmağı və bu məqsədlə sabiq gürcü çarı Vaxtanqı Xəzəryanı regiona göndərməyi təklif edirdi. Rus qoşunlarının Kür çayının mənsəbinə daxil olması və burada əlverişli yerdə gürcülər və ermənilərlə su yolu ilə əlaqəni təşkil etmək məqsədilə qala inşa olunması təklif olunurdu.[1]

II Yekaterinanın göstərişi ilə Vaxtanq və Xəzəryanı regiondakı rus qoşunlarının komandanı təyin olunmuş general-feldmarşal Vasili Dolqoruki Gilana yola salındı. Verilən təlimata görə, osmanlılar hərbi əməliyyatlara başlayardılarsa, Dolqoruki Vaxtanqın yardımı ilə təkcə gürcüləri və erməniləri deyil, hətta müsəlmanları da onlara qarşı qaldırmalı idi.[2]

Xəzəryanı regionda Rusiya-Osmanlı ziddiyyətlərinin kəskinləşməsi, həmçinin İngiltərənin düşmənçiliyi Rusiyanın 1725-ci ildə Vyanada imzalanmış Avstriya-İspaniya İttifaqına qoşulmasını sürətləndirdi. 26 iyun (6 avqust) 1726-cı il tarixdə bağlanmış Avstriya-Rusiya müqaviləsinin gizli maddəsinə görə, Avstriya və Rusiya Osmanlı imperiyasının onlardan birinə hücum edəcəyi təqdirdə Avropa ərazilərində 30 min nəfərlik qüvvə ilə bir-birinə yardım göstərməyi və ya Osmanlı imperiyasına müharibə elan etməyi öhdələrinə götürürdülər.[3] Vyana ittifaqına daxil olan Rusiya hökuməti bununla Osmanlı imperiyasını qorxudacağını güman edirdi.[4] Lakin Avstriyaya yaxınlaşmaqla Rusiya müstəqil xarici siyasət kursundan uzaqlaşdı, "qüvvələrin tarazlığı" adlanan siyasətin orbitinə düşdü və nəticədə Rusiyanın Osmanlı dövləti ilə münasibətləri ciddi surətdə gərginləşdi. Eyni zamanda Fransa ilə də münasibətlər pisləşdi, çünki Fransa onun çoxdankı rəqibi Avstriya ilə Rusiyanın yaxınlaşmasından narahat

[1] Петр Бутков. Göst. əsəri, I, c. 88.
[2] Г. Г.Пайчадзе. Göst. əsəri, s. 99-100.
[3] Ольга Маркова. Göst. əsəri, s. 42.
[4] Записки А.И. Остермана о политических отношениях России в 1726 году. Русский Вестник, 1841 г., том 2, сс. 151-152.

idi. Nəticədə, yaxın zamana kimi Rusiya və Osmanlı imperiyaları arasında münsif rolunda çıxış edən Fransa öz mövqeyini 180 dərəcə dəyişərək Rusiyaya qarşı açıq düşmən mövqeyi tutdu. Elə bu ərəfədə yenicə özünü şah elan etmiş Əşrəf Osmanlı qoşunlarının keçmiş Səfəvi dövlətinin ərazisindən çıxarılması tələbi ilə öz nümayəndəsi Əbdüləziz xanı İstanbula göndərdi. Lakin, Osmanlı hökuməti təbii ki, bu tələbi rədd etdi.[1]

1726-cı il fevralın 12-də keçirilən divandan sonra Sədrəzəm İbrahim paşa Rusiya nümayəndələrinə iki sərkərdənin komandanlığı altında Əşrəfə qarşı ordu göndərildiyini bəyan etdi.[2] Osmanlı hökuməti hətta II Təhmasibi öz tərəfinə cəlb etməyə cəhd göstərdi və bu məqsədlə Mustafa əfəndini Şahla danışıqlar aparmaq üçün Təbrizə göndərdi.[3] Əşrəf də osmanlıları silah gücü ilə Səfəvi ərazilərindən sıxışdırıb çıxarmaq qərarına gəldi. Təbrizdə Osmanlı hərbçiləri arasında epidemiyanın yayılması əfqanların hücumu üçün şərait yaratdı. Əfqanlar yolüstü Həmədan şəhərini ələ keçirmək istədilər, lakin uğur qazanmadılar. Buna görə də Təbrizə doğru hərəkətlərini davam etdirməyə cürət etməyib geri döndülər və Falxanda dayandılar.[4]

Rəqibin uğursuzluğundan istifadə edən sərəskər Əhməd paşa 70-80 minlik ordu ilə Əşrəfə qarşı əks-hücuma keçdi, lakin Həmədan yaxınlığında baş verən döyüşdə əhəmiyyətli itki verib məğlub oldu.[5] Osmanlı sarayı Əşrəflə sülh danışıqlarına getməli oldu. 1726-cı ildə bağlanmış Avstriya-Rusiya ittifaqı da Osmanlı imperiyasını Cənubi Qafqazda və İranda daha ehtiyatlı hərəkət etməyə vadar edirdi. 1727-ci il sentyabrın 22-də (oktyabrın 3-də) Həmədanda Əhməd paşa ilə Əşrəfin nümayəndəsi İsmayıl arasında 12 maddəlik sülh müqaviləsi imzalandı.[6] Müqavilənin

[1] РГАДА, ф. 15, д. 37, ч. 3, л. 382.
[2] Yenə orada, v. 225 a.ü.
[3] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1726 г., д. 5, л. 76.
[4] Nadir şah devrine ait anonim kronolojisi.., s. 67.
[5] Hammer J. Göst. əsəri, VII c., II his., s. 337.
[6] J.Hammer. Göst. əsəri, VII c.,II his., s. 339; İsmail H. Uzunçarşılı. Göst. əsəri, s. 186.

şərtlərinə görə, Osmanlı dövləti Sultaniyyə, Əhər, Zəncan şəhərlərini əfqanlara güzəştə getməyi və əfqanların əlindən aldığı torpaqları qaytarmağı öhdəsinə götürürdü.[1] Öz növbəsində Əşrəf Səfəvi dövlətinə məxsus olmuş Cənubi Qafqaz əraziləri (Rusiyaya keçmiş Xəzəryanı əyalətlər istisna olmaqla) üzərində, həmçinin Təbriz, Həmədan, Kirmanşah və onların ətrafında yerləşən ərazilər üzərində Sultanın hakimiyyətini tanıyırdı.[2]

Rusiyanın israrlı tələbləri nəticəsində Osmanlı hökuməti Xəzəryanı ərazilərdə sərhədlərin müəyyənləşdirilməsinə razı oldu. Həm də Osmanlı sarayı artıq ona düşmən mövqedə dayanan Fransanın vasitəçiliyindən imtina etdiyi üçün sərhədlərin vasitəçi olmadan çəkilməsinə razılıq verdi.[3] Komissarlar qrupuna başçılıq edən A.Rumyantsev 1726-cı il avqustun 15-də Şamaxıya gəldi. Ancaq, Hacı Davudun qohumları və tərəfdarları komissiyanın öz işini yerinə yetirməsinə maneçilik törətməyə başladılar, çünki sərhədləşmə həyata keçiriləcəyi təqdirdə Hacı Davudun qohumlarının mülkləri Rusiyaya keçəcəkdi. [4] Yalnız Rumyantsevin səyləri nəticəsində sentyabrın əvvəllərində sərhədlərin müəyyənləşdirilməsinə başlandı. Şamaxıdan dənizə qədər olan məsafə üç hissəyə bölündü və üçdə iki hissəsinin sonunda (atla 7 saat 30 dəqiqəlik məsafədə) əsas nişan qoyuldu.[5]

Hacı Davud hələ uzun müddət sərhədlərin müəyyənləşdirilməsinə müqavimət göstərdi. O, hətta Rusiyaya keçən ərazilərdəki sakinləri öz hakimiyyəti altında olan torpaqlara köçürürdü.[6]

Bu müddətdə komissarlar dənizlə Şamaxı arasındakı işarədən Dərbəndə və oradan dağlara tərəf hərəkət etdilər. Tabasarandan Maysumun mülklərindən keçən komissarlar Surxay xanın

---

[1] J.Hammer. Göst. əsəri, VII c.,II his., s. 339; İsmail H. Uzunçarşılı. Göst. əsəri, IV c., s. 186.
[2] Петр Бутков. Göst. əsəri, I his., s. 99.
[3] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1726 г., д. 9, л. 28.
[4] Yenə orada, iş 15, v. 32.
[5] Yenə orada, v. 31 və a.ü.
[6] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1726 г., д. 9, л. 28.

torpaqlarına girməyə hazırlaşırdılar. Lakin Surxay xan komissiyanın işini davam etdirməsinə mane oldu.[1] Komissarların Dərbənddən usminin mülklərindən keçmək cəhdləri də usminin düşmən hərəkətləri ilə qarşılaşdı.[2] Komissarlar Şamaxıya qayıtdılar. Osmanlı nümayəndəsi Nabur kəndindən Samura qədər düz xətt aparmağı, Samurdan şimala isə yalnız Dərbəndi rus zonasına daxil etməyi təklif etdi. Rumyantsev sərhədləşmə işinin dayandırılmaması xatirinə, gələcəkdə Surxay xanı sazişə razı salmağa ümid edərək, bu təklifi qəbul etdi.[3]

Osmanlı komissarları tezliklə Hacı Davuda məxsus mülklərin ən yaxşı yerlərinin, o cümlədən Hacı Davudun Təngə dağının qarşısında inşa etdirdiyi Təngə qalasının Rusiyanın nəzarəti altına keçəcəyini anladılar və buna mane olmağa çalışdılar. Rus tərəfi isə Təngənin Rusiya nəzarəti altına keçməsində israrlı idi. Belə olduqda Hacı Davud oğlunun qoşun toplayıb Təngəni müdafiə edəcəyinı dair şayiə yaymağa başladı. Osmanlı komissarı Derviş Mehmet ağa sərhədçəkməni dayandırdı və Gəncə paşasına Təngəni Hacı Davud üçün saxlamaq xahişi ilə məktub göndərdi.[4] Gəncə mühafizi Sarı Mustafa paşa Derviş Mehmet ağaya məktub göndərərək, qışın gəlməsi ilə əlaqədar hələlik işləri dayandırmağı təklif etdi. Rus komissarları qışı keçirmək üçün Dərbəndə, Derviş Mehmet ağa isə Şamaxıya getdi.[5]

1726-cı ilin sonu-1727-ci ilin əvvəlində Quba xanlığının ərazisi Rusiya imperiyasına ilhaq olundu. 1726-cı il oktyabrın sonunda Dərbəndə gələn, 1720-ci ildə qiyamçılar tərəfindən öldürülmüş Sultan Əhməd xanın azyaşlı oğlu Hüseynəli bəy Rusiya himayəsini qəbul etmiş və rus imperatoruna sədaqət andı içmişdi.[6]

1727-ci ilin yanvarında ruslar Astaranı, bir qədər sonra isə

---

[1] Yenə orada, v. 32.

[2] Yenə orada.

[3] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1726 г., д. 15, v. 46 və a.ü.

[4] Yenə orada, v. 55 və a.ü.

[5] Yenə orada, v. 56 a.ü.

[6] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1728 г., д. 4, лл. 101-102.

Lənkəranı ilhaq etdilər.[1] 1724-cü il İstanbul müqaviləsinə görə, rus işğal zonasına daxil edilmiş Kür çayından cənubdakı Xəzəryanı əyalətlərin hakimlərinin əksəri rus ordusunun üstün qüvvələrinə müqavimətin mümkünsüzlüyünü anlayırdılar. Məhz buna görədir ki, hakimiyyətlərini saxlamaq üçün Ucarud, Salyan, Qızılağac mahallarının və Muğan, Şahsevən, Mazarıq düzlərinin hakimləri Xəzəryanı ərazilərdəki rus qoşunlarının komandanı Vl.Dolqorukinin hüzuruna gedərək rus təbəəliyini qəbul etmək istəklərini bəyan etdilər. Muğanlı Ramazan sultan və onun naibi Əliqulu bəy, Salyan naibi Əli bəy, həmçinin ətraf kəndlərin kəndxudaları və nümayəndələri də Rusiyaya sədaqət andı içdilər. 1727-ci il martın sonunda qızılağaclı Becan sultan və onun kəndxudaları Dolqorukinin qərargahına gəlib Rusiya çarına sədaqət andı içdilər.[2]

## II. 2. Azərbaycan torpaqlarında Osmanlı idarəçiliyi.

Osmanlı hökuməti Azərbaycan torpaqlarında özünün hərbi-inzibati, məhkəmə və maliyyə idarəçiliyi sistemini tətbiq etdi. Hərbi-inzibati sahəyə bəzən bəylərbəyi, bəzən həm də mühafiz adlanan yüksək rütbəli Osmanlı hərbçisi, məhkəmə işinə qazi, maliyyə işlərinə isə dəftərdar başçılıq edirdi. Hərbi rəislər məhkəmə və maliyyə işlərinə müdaxilə edə bilirdilər. Sultan sərəsgərləri ən çox fərqlənən sərkərdələrdən seçirdi.

Osmanlı hakimiyyəti, əsasən Səfəvi zamanı mövcud olan inzibati bölgünü cüzi dəyişikliklər etməklə saxlamışdı. Ərazilər hərbi-inzibati vahidlərə – vilayətlərə, əyalətlərə və ya sancaqlıqlara bölünmüşdü. Əyalətlər və onların sərhədləri müəyyən dərəcədə keçmiş bəylərbəyliklərin sərhədlərinə uyğun idi, lakin bir sıra hallarda onların ərazisi nisbətən kiçik idi. Məsələn, Ucarud, Astara, Lahican, Qızılağac və Muğanın bir hissəsi Rusiyanın nəzarətinə keçdiyi üçün Təbriz əyalətindən kənarda qalmışdı. Gəncə əyalətinin ərazisi də Qarabağ (Gəncə)

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1727 г., д. 9, 59 об., 241 об.

[2] Yenə orada, 94-95.

bəylərbəyinin ərazisi ilə müqayisədə xeyli az idi. Sultan III Əhmədin imzaladığı 1727-ci il tarixli "Gəncə əyaləti qanunnamə"sində göstərilirdi ki, Gəncə əyalətinin hüdudları əvvəllər Qarabağ bəylərbəyliyinə daxil olmuş, indi isə Tiflis əyalətinə daxil edilmiş Qazax sancağından başlayaraq Kür çayı sahili ilə şərqə 35 saatlıq məsafədə uzanıb Kürlə Arazın qovuşduğu yerə çatır, buradan Araz çayı boyunca qərbə doğru 39 saatlıq məsafədə uzanıb Bərgüşad və Çavlundura – dağlıq zonaya çatınca, buradan da Qazaxa qədər 8-10 saatlıq məsafədə uzanırdı.[1]

Vilayətlərin (sancaqlıqların) ərazisi keçmiş "ölkə", bəzi hallarda isə mahalların sərhədlərinə uyğun gəlirdi. Sancaqlıqlar öz növbəsində daha kiçik inzibati vahidlərə – adətən onlarla kəndi əhatə edən nahiyələrə bölünürdü. Nahiyə də öz növbəsində bir neçə qəryəyə bölünürdü.

Sancaqbəyi və naiblər həm osmanlı, həm də yerli feodallardan təyin olunurdu. Kəndxudalar isə kənd icmalarının daxilindən seçilir, yaxud təyin olunurdu.

Kür çayından şimaldakı Azərbaycan əraziləri xüsusi statusa malik idilər. 1724-cü il İstanbul müqaviləsinə görə, osmanlılar bu ərazilərdə hərbi qüvvə və komendant saxlamaq hüququna malik deyildilər. Bunlar Şəki, Ərəş və Qax sultanlqları idi. Həmin ərazilər Osmanlı himayəsini qəbul etmiş yerli hakimlər tərəfindən idarə olunurdu. Şəki mahalının hakimi paşa titulu almış Əli Sultan idi.[2] Osmanlılardan vassal asılılığında olan kiçik feodallardan biri də Ərəş hakimi Əli Sultanzadə idi. Digər vassal hakimi Qax bəylərbəyi idi. Bu vəzifəyə usmi Məhəmmədin kiçik oğlu təyin olunmuşdu.

Keçmiş Şirvan bəylərbəyliyinin mərkəzi hissəsində sultandan yarıasılı vəziyyətdə olan Şirvan xanlığı mövcud idi. İrəlidə də qeyd olunduğu kimi 1722-ci ilin dekabrında xan titulu verilməklə

---

[1] BOA, Tapu Tahrir Defteri, nr. 903; Osmanlı devletinin Azerbaycan türk.., II c., nr. 24, s. 41, 242.

Hacı Davud bu vəzifəyə təsdiqlənmişdi. Məlumdur ki, Hacı Davudun keçmiş müttəfiqi Surxay xan Qazıqumuqlu bu vəzifəyə onun yox, Hacı Davudun təyin edilməsindən möhkəm narazı qalmışdı və bu səbəbdən də tez-tez Şirvana talançı basqınlar edirdi. Surxay xan və onun müttəfiqi dağlı feodallarının Şirvana basqınları osmanlıları narahat etdiyindən onlar dağlıların yolunu kəsmək məqsədilə Topkaraqan qalasını tikməyə başladılar. Lakin Surxayın tərəfdarı olan carlılar hücum edib bu istehkamı dağıtdılar. [1] Osmanlı hökuməti Surxayı bitərəfləşdirmək məqsədilə 1727-ci ildə ona illik məvacib ödənilməklə iki bunçuqlu paşa rütbəsi və Qəbələnin idarəçiliyini verdi. Lakin Surxay xan bununla kifayətlənməyərək, Ağdaşı da ələ keçirdi və yalnız bundan sonra sultana sədaqət andı içdi.[2] Təbii ki, bu, Hacı Davudu möhkəm narahat etdiyindən onun Osmanlı dövlətinə münasibətində tərəddüd yaratdı və hətta Şamaxıdakı Osmanlı nümayəndəsi Hacı Davudun sultana sədaqətindən şübhələnməyə başladı. Hacı Davudun Surxay xana müqavimət göstərə bilməməsi, həm də sərhədçəkmə işinə maneçilik törətməsi osmanlılarda ondan narazılığı artırmışdı. Ən əsası isə Hacı Davudun Osmanlı hakimiyyət orqanlarının göstərişlərinə kifayət qədər can-başla əməl etməməsi, müstəqilliyə meyl etməsi osmanlıların xoşuna gəlmirdi. Buna görə də Osmanlı hökuməti Hacı Davudu Surxay xanla əvəz etməyi qərara aldı. Həm də bununla Surxay xanın basqınlarının qarşısı alınacaqdı. 1728-ci ilin iyulunda Hacı Davud hakimiyyətdən kənarlaşdırıldı və ailəsi ilə birlikdə Gəncəyə aparıldı. [3] Bundan sonra Surxay xan Şamaxıya girib Şirvan xanlığını idarə etməyə başladı.[4]

Osmanlılar ələ keçirdikəri Azərbaycan torpaqlarında aqrar münasibətlərdə mühüm dəyişikliklər etmədilər. Bütövlükdə torpaqların bir hissəsi divani (dövlət), digər hissəsi isə "miri"

---

[1] Петр Бутков. Материалы.., ч. 1, с. 88; Владлен Гаджиев. Роль России в истории Дагестана. Москва, 1965, с. 117.

[2] Петр Бутков. Göst. əsəri, I his., s. 88-89.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1729 г., д. 6, л. 212.

[4] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1728 г., д. 4, л. 109 об.

(yəni Sultan torpaqları) kateqoriyalarına bölündü. Osmanlı dövlətinə loyal münasibət bəsləyən tiyuldarlar və mülkədarların mülkiyyət hüquqlarına toxunulmadı. Divani torpaqlarının bir hissəsi Osmanlı dövlətinə xidmət göstərən yerli feodalların şərti mülkiyyətinə verilirdi. Eyni zamanda Osmanlı döyüşçüləri, xüsusilə də yeniçərilər işğal olunmuş torpaqlarda mülk və malikanə sahibi olurdular.

Osmanlı hakimiyyət orqanları dini idarələrə də torpaq və digər əmlak paylayırdılar. Məsələn, Ordubadda Sultan III Murad məscidinə 150 dükan, bir hamam və bir karvansara bağışlanmışdı.[1]

Miri mülkləri tez-tez satılırdı, alıcılar isə yerli torpaq sahibləri, tacirlər, osmanlı hərbçiləri, məmurlar və ayrı-ayrı ruhanilər olurdu.[2]

Bu və ya digər ərazini özünə tabe edən Osmanlı hökuməti orada əhalinin siyahıya alınmasını həyata keçirir, ətraflı siyahı (dəftəri-müfəssəl) tərtib olunurdu. Dəftərdə əhalinin (daha doğrusu kişi və oğlanların) sayı, əkilən torpaqların sahəsi, gəlirlər qeyd olunurdu. Siyahıyaalmanın nəticəsinə əsasən hər sancağın (əyalətin) qanunnaməsi tərtib olunurdu. Qanunnamədə əhalidən alınan bütün vergilər, onların yığılma üsulu və vaxtı, yığılan verginin kimə (dövlətə və ya hər hansı feodala) verilməsi, əhalinin bu və ya digər qruplarına verilmiş müxtəlif vergi güzəştləri qeyd olunurdu.[3] Həddi-buluğa çatmış, sağlamlıq vəziyyətinə görə əmək fəaliyyətinə yararlı bütün kişi əhalisi dəftərdə qeyd olunurdu. 1727-ci ildə Gəncə əyalətinin, 1718-ci ildə Ərdəbil, Təbriz, Tiflis, Həmədan, İrəvan əyalətlərinin və Naxçıvan sancağının "müfəssəl dəftərləri"nin tərtib olunması

---

[1] Ziya Bünyadov, Hüsaməddin Məmmədov H. Dəftəri Naxçıvan // Ədəbiyyat və İncəsənət qəzeti. 1985, 13 sentyabr.

[2] Арон Папазян. Источниковедческое значение турецких документов Матенадарана //Средневековый Восток. История, культура, источниковедение. Москва, 1980, с. 213.

[3] Гусамеддин Мамедов. Османская налоговая система в Азербайджане. Диссертация кандидаа исторических наук. Баку, 1985, с. 54.

başa çatdırıldı.[1] Bu dəftərlərin orijinalı hal-hazırda Türkiyənin İstanbul şəhərindəki Baş Arxiv Dairəsində saxlanılır.

Yeni birləşdirilmiş əyalətlərin idarəçiliyi üçün tərtib olunmuş Osmanlı "qanunnamə"lərindən aydın olur ki, əyalətlərdə Səfəvi dövründə alınan vergilər saxlanmışdı. Bununla yanaşı bəzi vergilərin, o cümlədən "rəsmi-arusane" (gəlin alanda ödənilən vergi), "tapuyi-zəmin (üzərində yardımçı qurğu və binaların olduğu torpaq sahəsi üçün vergi)" vergilərinin, habelə "rəsmi-bənnak" vergisinin alınması dayandırılmışdı. Osmanlı hökuməti qadınları və uşaqları, qocaları və əlilləri, xəstələri, həmçinin əqli əmək adamlarını vergi ödəməkdən azad etmişdi.[2] Ticarət rüsumları və yığımlarına gəldikdə isə, onlar tamamilə səfəvi dövründə olduğu kimi saxlanmışdı.

Bəzi hallarda Osmanlı hakimiyyət orqanları vergilərin toplanmasını icarəyə verirdilər.

Osmanlı imperiyasının və Rusiyanın Azərbaycanda apardıqları hərbi əməliyyatlar və ölkənin bu dövlətlər arasında bölüşdürülməsi xarici və daxili ticarətə böyük ziyan vurmuşdu. Sonralar, ticarətin canlanması üçün osmanlılar bəzi tədbirlər görmüşdülər. Məsələn, Arifi Əhməd paşa İrəvanı tutandan sonra hökumətə yazırdı ki, əgər Araz və ona tökülən Zəngi çayları təmizlənib gəmiçilik üçün yararlı hala salınsa, Xəzər dənizindən İrəvanın özünə qədər naviqasiya təşkil etmək olar. Tezliklə çayların təmizlənməsi üçün bir sıra tədbirlər görüldü və Arpaçayın məcrası gəmiçilik üçün yararlı vəziyyətə gətirildi.[3]

Osmanlı hakimiyyət orqanları daha az gömrük rüsumları tətbiq etməklə ipəyin tranzit ticarətini genişləndirməyə çalışırdılar.

Osmanlı hakimiyyət orqanlarının səylərinə baxmayaraq xəzinəyə daxil olan gəlirləri səfəvilər dövründəki səviyyəyə

---

[1] Yenə orada,s. 10.

[2] Ziya Bünyadov, Hüsaməddin Məmmədov. Göst. məqaləsi.

[3] İsmail Hakkı Uzunçarşılı. Göst. əsəri, IV c., s. 178-179; Ziya Bünyadov, Hüsaməddin Məmmədov. Göst. əsəri, məqaləsi.

çatdırmaq mümkün olmurdu. Dağıdıcı hərbi əməliyyatlar, qarətlər, məmurların və bəzi yeniçərilərin özbaşınalığı nəticəsində bir sıra mahal və kəndlərin sakinləri yaşayış yerlərini tərk edib getmiş, bununla da vergi verənlərin sayı kəskin surətdə azalmışdı.

Yığılan vergilərin xeyli hissəsi osmanlı məmurlarına, hərbçilərinə məvacib kimi verilir, yaxud strateji cəhətdən mühüm məntəqələrin möhkəmləndirilməsinə sərf olunurdu. Məsələn, 1726-cı ilin əvvəlinə kimi Gəncədə xan sarayı ətrafında 4 qülləli qala tikilmişdi. Hər qülləyə 3 mis və 4 çuqun top qoyulmuşdu, qalanın daxilində isə Uzun Həsən və Mehdi Sahib-əz-Zaman məscidlərinin yaxınlığında uzunluğu 1000 zirai (1 zirai təqribən 0,7 m idi) və eni 800 zirai olan qalanın inşasına başlanmışdı.[1] Qala üçbucaqlı formada idi. Qalanı daşdan və bişmiş kərpicdən tikilmiş daxili və gildən tikilmiş xarici divar əhatə edirdi. Qalanın 8 böyük və 4 kiçik darvazası vardı. Qala divarlarının eni 2 arşın idi. Qalanın tikintisinə artıq 20 ilə yaxın osmanlı xidmətində olan alman mütəxəssis rəhbərlik edirdi.[2]

Osmanlı hakimiyyət orqanları Azərbaycanda sosial-siyasi vəziyyəti sabitləşdirməyə çalışsalar da, buna nail ola bilmirdilər. 1726-cı ildə Gülüstan və Çiləbyurd (Çiləbörd) mahallarında Osmanlı döyüşçüləri ilə yerli sakinlər arasında toqquşma baş vermişdi. Bərdədə osmanlı paşasının öldürülməsinə cavab olaraq Sarı Mustafa paşanın qoşunları Hacı Davudun da dəstələrini özünə birləşdirərək Şuşakənd ətrafındakı bir neçə sığnaqı (qiyamçıların və narazı sakinlərin gizləndiyi dağlıq ərazilərdəki yerlər – T.M.) ələ keçirmişdi.[3]

1726-cı ildə Gəncədən Təbriz və Ərdəbilə qədər geniş bir ərazidə silahlı çıxışlar baş verirdi. Həmin ilin may ayında Köprülü Abdulla paşanın oğlu vəzir Əbdürrəhman paşa 15-20 minlik ordu ilə Şəqqaqi və Şahsevən tayfalarına qarşı çıxmış və Ərdəbil

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д. 6, л. 105.

[2] Yenə orada, v 81-82 a.ü., 105.

[3] Asim Çələbizadə. Tarix-e Çəlibizade. İstanbul, 1740, vər. 107.

yaxınlığında döyüş baş vermişdi.[1] "Qarət və quldurluqla məşğul olan" tayfalar itaətə gətirilmişdilər.[2]

Osmanlı tarix salnaməçisi Asim Çələbizadənin verdiyi məlumata görə, 1727-ci ildə Təbrizin Osmanlı hakimi Qarabağın Dizaq və Bərgüşad mahallarına, qaraçorlu kürd tayfalarına və Muğan düzünə şahsevənlərə qarşı 15 minlik qoşun göndərmişdi. Lakin yenicə səfərbərliyə alınmış döyüşçülər müsəlmanlara qarşı vuruşmaq istəmədiklərindən, həmçinin Türkiyə əhalisinin geniş təbəqələri müsəlmanlara qarşı silahlı mübarizənin əleyhinə olduğundan osmanlı komandanlığı qaraçorlularla saziş bağlamağa vadar olmuşdu. Həmin sazişə əsasən qaraçorlulara Osmanlı hakimiyyətini qəbul etmələri müqabilində gəlirin yarısını xəzinəyə ödəmək şərti ilə dövlət fondundan torpaqlar verilirdi.[3]

Osmanlılara xidmətə qəbul olunmuş Əbdürrəzzaq xan Qaradağlı 1727-ci ilin sonunda şahsevənlərlə gizli saziş bağlayıb qiyam qaldırdı.[4] Təbriz hakiminin ona qarşı göndərdiyi qüvvəni məğlubiyyətə uğratdı.[5] Bundan sonra şahsevənlər də ayağa qalxıb Əbdürrəzzaq xanla birləşdilər.[6] 1728-ci il martın sonunda Təbriz hakimi Abdulla paşa 20 minlik qoşunla Əbdürrəhman paşanı Şahsevən və Şəqqaqi tayfalarına qarşı göndərir.[7]

Osmanlı ordusunun 3 min nəfərdən ibarət ön dəstəsi sayı 40 minə çatan üsyançılar tərəfindən mühasirəyə alınmış, osmanlılar böyük itki hesabına mühasirədən xilas ola bilmişdilər.[8] 1728-ci ilin iyulunda isə Əbdürrəhman paşa Əhər çayı yaxınlığında sayı 7 minə çatan üsyançıları məğlubiyyətə uğrada bildi. Osmanlı

---

[1] Yenə orada, vər. 96.

[2] Yenə orada; АВПРИ. ф. 89 (СРТ), оп. 1, 1726 г., д. 15, л. 79 и об.

[3] Армяно-русские отношения в XVIII веке. т. 2, ч. 1, с. XC.

[4] АВПРИ. ф. 77 (СРП), оп. 1, 1726 г., д. 5, л. 76.

[5] Yenə orada, v. 92.

[6] Yenə orada, iş 8, v. 21 a.ü.

[7] Asim Çələbizadə. Göst. əsəri, v. 96.

[8] Yenə orada, v. 125.

hərbçiləri Muğan düzündə üsyançıları xeyli təqib etdilər.[1]

1728-ci ilin əvvəlində saxta şahzadə İsmayıl Mirzənin də fəallığı güclənir. Xəzərin cənub sahilində fəaliyyətə bağlayan "İsmayıl Mirzə" əvvəlcə Mazandaran hakimi tərəfindən məğlubiyyətə uğradılmış, bundan sonra isə öz ətrafına daha çox tərəfdar toplayaraq rus işğal zonasında yerləşən Şaft və Qum mahallarında fəaliyyət göstərmiş, lakin rus hərbçiləri tərəfindən məğlub edilmişdi.

Sonralar "İsmayıl Mirzə" partizan mübarizəsini davam etdirərək daha bir neçə dəfə rus işğal zonasına hücumlar etmişdi. Fevral ayında general Levaşov Gilandan Bakıya general-feldmarşal Vl.Dolqorukiyə yazırdı: "Podpolkovnik Vasili Ozerov başda olmaqla rus dəstəsi tərəfindən "saxta şahzadə və həmfikirləri" üç dəfə məğlub edilmişdir: əvvəlcə Şaftda, sonra isə Pumində və Kesmədə".[2] Rus işğal zonasında möhkəmlənmək ümidini itirən saxta şahzadə Osmanlı zonasına keçmiş və burada Qızılağac sultanını öz tərəfinə çəkməyə nail olmuşdu. General Rumyantsev muğanlı Əliqulu xana Becan sultanı tutub edam etməyi əmr etmiş,[3] onun bu əmrini yerinə yetirən kapitan Kozlov və Əliqulu xan Becan sultanın yüz nəfərdən bir qədər çox olan dəstəsini məhv etmişdilər. Becan sultan isə qaçıb xilas olaraq meşədə gizlənmişdi.[4]

Sonradan Becan sultan "İsmayıl Mirzə" ilə birləşə bilmiş, saxta şahzadə min nəfərdən ibarət tərəfdarı ilə yenidən rus işğal zonasına daxil olmuşdu. General Rumyantsev 600 nəfərlik dəstəni ona qarşı göndərmiş, həmin dəstə Əliqulu xanın yardımı ilə saxta şahzadəni darmadağın etmiş, "İsmayıl Mirzə" qaçmaqla canını qurtara bilmişdi.[5]

Rus işğal zonasında demək olar ki, bütün qüvvəsini itirən

---

[1] Yenə orada.

[2] РГВИА, ф. 20, оп. 1/47, д. 1, л. 205.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1728 г., д. 4, л. 116.

[4] Yenə orada.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1728 г., д. 4, лл.155-156.

“İsmayıl Mirzə” Osmanlı işğal zonasına – Xalxal və Ərdəbilə daxil olmuşdu. Təbriz hakimi Əli paşanın əmri ilə Mehmet ağanın komandası altında 400 nəfərlik dəstə Xalxal hakimi Məhəmmədqulu xanın yardımına getsə də, həmin yardım yetişməmiş “İsmayıl Mirzə” qəflətən Xalxala basqın etmişdi. Məhəmmədqulu xan şəhəri müdafiə edə bilməyərək Gərmrud tərəfə qaçmışdı. Mehmet ağa bununla əlaqədar Əli paşadan əlavə yardım göndərilməsini xahiş etmişdi.[1]

“İsmayıl Mirzə” bu vaxta qədər dağınıq hərəkət edən partizan qüvvələrini, o cümlədən Əbdürrəzzaq xan Qaradağlının qüvvələrini və şahsevən dəstələrini öz ətrafında birləşdirib Ərdəbilə hücuma başladı. Mənbənin verdiyi məlumata görə, Əbdürrəzzaq xan Ərdəbil şəhərinə hücum edərək, Qarasu qəsəbəsi yaxınlığında osmanlıları məğlubiyyətə uğratdı.[2]

Dövrün salnaməçi tarixçisi Məhəmməd Kazımın yazdığına görə, “İsmayıl Mirzə” Xalxalı tutandan sonra yalnız Ərdəbil və Muğanı yox, bütün Azərbaycanı hakimiyyəti altına almağa qərar vermişdi. Ərdəbilin keçmiş hakimi Osman paşa saxta şahzadəyə qarşı çıxmış, ancaq şəhər sakinləri “İsmayıl Mirzə”yə qoşulduğundan osmanlı qoşunları məğlubiyyətə uğrayaraq geri çəkilmiş və Təbrizə qayıtmışdı. “İsmayıl Mirzə” təntənəli surətdə Ərdəbilə daxil olmuş və “öz babası” Şeyx Səfinin məqbərəsini, həmçinin dağıdılmış evləri bərpa etməyə başlamışdı. Məhəmməd Kazımın sözlərinə görə, camaat onu öz hökmdarı kimi tanımışdı.[3]

Nəhayət, 1728-ci ilin avqustunda osmanlılar üsyançıların birləşmiş qüvvələrini Ərdəbildə məğlub etməyə və onların Muğan düzü tərəfə çəkilmələrinə nail oldular.[4] 1728-ci ilin sonu – 1729-cu ilin əvvəlində isə osmanlılar üsyançıları daha bir sarsıdıcı məğlubiyyətə uğradaraq, Muğan düzündə Əbdürrəzzaq

---

[1] Asim Çələbizadə. Göst. əsəri, v. 147.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1728 г., д. 11, л. 44 и об.

[3] Məhəmməd Kazım Mərvi. Tarix-e alam-araye Nadiri (факсимиле). Moskva, 1960, s. 82-83.

[4]АВПРИ. ф. 77 (СРП), оп. 1, 1728 г., д. 8, л. 127.

xanı ələ keçirdilər.[1] Məğlubiyyətə uğradıldılmış Əbdürrəzzaq xan yardım üçün Surxay xan Qazıqumuqluya müraciət etmiş, Surxay xan onları guya danışıqlar aparmaqdan ötrü yanına dəvət edərək, xaincəsinə tutub osmanlı komandanlığına təslim etmişdi.[2]

"İsmayıl Mirzə", Əbdürrəzzaq xan və Səfi xanın başçılıq etdikləri əsas üsyançı qüvvələri darmadağın edildikdən sonra üsyançı dəstələrinin qalıqları hələ bir müddət partizan mübarizəsini davam etdirdilər. Məsələn, Becan sultan xeyli müddət həm osmanlılara, həm də ruslara qarşı mübarizə aparmışdı. Becan özü 1729-cu ilin yazında II Təhmasibə yazırdı ki, artıq yeddi ildir ki, 600-1000 nəfərlik qüvvə ilə osmanlılara, ruslara və əfqanlara qarşı vuruşur.[3] Maraqlı bir məqamı da qeyd etmək yerinə düşər: açıqda Becan sultan rusların düşməni sayılsa da, rus hərbçiləri gizlində onu osmanlılara qarşı mübarizəyə təşviq edir və müəyyən yardım göstərirdilər.[4]

Sarsıdıcı məğlubiyyətlərə baxmayaraq "İsmayıl Mirzə" bir müddət fəaliyyətini davam etdirdi. Yalnız 1729-cu ilin yayında osmanlılar saxta şahzadənin qüvvələrini qəti surətdə darmadağın etdilər. [5] Bundan sonra "İsmayıl Mirzə" 2.000 tərəfdarı ilə Muğanın rus hakimiyyəti altında olan hissəsinə keçmiş və burada yaşayan Şahsevənləri ayağa qaldırmağa cəhd göstərmişdi. Lakin Şahsevənlər ona inamlarını itirdiyindən çağırışa cavab verməmişdilər. Rumyantsev "İsmayıl Mirzə"yə qarşı 650 nəfərlik dəstə göndərmiş, iyulun 26-da "İsmayıl Mirzə" məğlubiyyətə uğradılaraq 10-15 tərəfdarı ilə qaça bilmiş və Mosul qəsəbəsində gizlənmişdi.[6] Bir müddət sonra rus komandanlığı yerli feodal Mir Fazilin əli ilə İsmayıl Mirzə və tərəfdarlarının qətlinə nail olmuşdu.[7]

---

[1]Yenə orada, f. 89 (SRT), siy. 1, 1729-cu il, iş 6, v. 212.
[2]Yenə orada, f. 77 (SRP), siy. 1, 1729-cu il, iş 6, v. 82.
[3]АВПРИ, ф 77 (СРП), оп. 1, 1729 г., д. 4, л. 125.
[4]Yenə orada, iş 1, v. 14.
[5]Yenə orada, iş. 13, v. 107 və a.ü.
[6]РГВИА, ф. 846, д. 1540, л. 3.
[7] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1729 г., д. 3, л. 107 и об.

## II.3. Müvəqqəti rus işğalı dövründə Xəzəryanı vilayətlərdə idarəçilik.

Rusiyanın Azərbaycanda işğal etdiyi ərazilərin sərhədləri şimalda Dərbənddən 100 verst qərbə, Gilanda Rəştdən 124 verst aralıyadək uzanırdı. Şirvanda rus qoşunlarının işğal zonasının eni 50-dən 100 verstə kimi idi.

1727-ci ildə rus işğal zonasına aşağıdakı ərazilər daxil idi: Dərbənd və onun ətrafı. Keçmiş Dərbənd sultanlığı ləğv edilərək rus hərbçilərindən təyin olunan komendantın idarə etdiyi əyalətə çevrilmişdi. Dərbəndin ilk komendantı polkovnik Yunger olmuşdur.[1] Mülki hakimiyyətə Dərbənd naibi başçılıq edirdi. Bu vəzifəyə Səfəvilər dövründə yerli qarnizonun rəisi olmuş yüzbaşı İmamqulu bəy təyin olunmuşdu.[2]

Quba xanlığı Dərbənddən cənubda yerləşirdi. Dərbənddən fərqli olaraq burada komendant vəzifəsi təsis olunmamışdı. Bütün hakimiyyət xana məxsus idi. Rus qəyyumluğu altında olan Quba xanı rus hakimiyyət orqanlarının tələbi ilə müəyyən miqdarda döyüşçü verməli idi.[3]

Bakı sultanlığı ləğv olunmasa da, burada əsas söz sahibi komendant idi. İlk komendant briqadir Baryatinski olmuşdur. Sultan vəzifəsinə keçmişdə yerli qarnizonun rəisi olmuş və əvvəlcə naib təyin edilmiş yüzbaşı Dərgahqulu bəy təyin olunmuşdu.[4]

Salyan xanı vəfat etdiyinə görə buranı naib Həsən bəy idarə edirdi.

Muğan çölündəki tayfaları sultan titulu daşıyan yerli feodal idarə edirdi.

Qızılağac və Ucarud da sultanlar tərəfindən idarə olunurdu.

Lənkəran və Astara asılı xanlıqlar idi. Lənkəran hakimi Mir

---

[1] Тофиг Мустафазаде. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века. Баку, 1993, с. 129.

[2]Yenə orada.

[3] ВПРИ, ф. 77 (СРП), 1727 г., д. 9, л. 101 и об.

[4]Тофиг Мустафазаде. Азербайджан…, с. 130.

Əziz xan, Astara hakimi isə Musa xan idi.

Qeyd edək ki, ruslar İstanbul müqaviləsində nəzərdə tutulmuş heç də bütün Azərbaycan ərazilərini nəzarət altına ala bilməmişdilər. Məsələn, Altıpara azad camaatlarını tabe etmək mümkün olmamışdı.

Rus hökuməti ali siyasi-hərbi hakimiyyəti öz hərbçilərinə həvalə edərək Xəzəryanı ərazilərdə əvvəlki inzibati-ərazi idarəçiliyini saxlamışdı. Bakı zəbt olunduqdan sonra Xəzəryanı əyalətlərin idarəçiliyi general-leytenant M.Matyuşkinə tapşırılmışdı.[1] Sonra onu general-feldmarşal V.Dolqoruki əvəz edir. 1728-ci ildə Dolqorukinin Rusiyaya dönməsi ilə Gilan və Astaranın idarəçiliyi general Levaşova, Kür çayından şimaldakı ərazilərin, Salyan əyalətinin, Muğan, Şahsevən və Məzariq düzlərinin idarəçiliyi isə general A.Rumyantsevə tapşırıldı. 1730-cu ildə Rumyantsevin Moskvaya çağrılması ilə əlaqədar Xəzəryanı ərazilərdəki qoşunların baş komandanlığı general Levaşova tapşırıldı.[2]

Rus hakimiyyəti dövründə Xəzərsahili ərazilərdə mahal və nahiyələrə bölgü saxlanmışdı. Onları adətən rus hakimiyyətini qəbul etmiş azərbaycanlı feodallar idarə edirdilər. Mahallar bir qayda olaraq bir neçə kənddən ibarət nahiyəyə bölünürdü və nahiyələr yüzbaşılar tərəfindən idarə edilirdi. Kəndləri kəndxudalar və kovxalar idarə edirdi.[3]

Rus işğalı zamanı Azərbaycan feodallarının bir çox hüquq və imtiyazları saxlanmışdı. Məsələn, Quba xanı öz təbəələrinə maaflıq vermək hüququna malik idi.[4]

Hakim Azərbaycan feodallarının vəzifələri irsi keçirdi. Məsələn, 1728-ci ildə Dərbənd naibi İmamqulu bəy vəfat etdikdə onun 9 yaşlı oğlu Məhəmməd Hüseyn şəhər naibi elan olunmuş, bir il sonra isə ona xan rütbəsi verilmişdi. Məhəmməd yüzbaşı və

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1724 г., д. 5, л. 29.

[2] Петр Бутков. Göst. əsəri, I his., s. 108.

[3] Иоган Гербер. Göst. əsəri, s. 207.

[4] Указы кубинских ханов (пер. Ростопчина). Серия памяти Марра. кн. 3, Тбилиси, Изд. Груз. Филиала АН СССР, 1937, док. 3, с. 20-21, 59.

Mustafa bəy onun qəyyumları idi.[1]

Xəzəryanı əraziləri tutduqca rus hökuməti köhnə qalaları möhkəmləndirir, yenilərini inşa etdirirdi. I Pyotrun planına görə yerli sakinlərin qüvvəsi ilə Dərbənddə on il ərzində daş divarlar və liman inşa olunmalı idi. Sonralar Dərbənd divarlarının tikintisini sürətləndirmək qərara alındı və Rusiyadan işçi qüvvəsi gətirildi.[2]

1725-ci ilin payızında Dərbənd divarları və limanın inşası ilə 2.510 nəfər, o cümlədən 1340 Ukrayna kazakı məşğul idi. General Matyuşkin 1726-cı ilin yazına kimi tikintini başa çatdırmaqdan ötrü Rusiyadan daha 6 min daş ustası, 700 dəmirçi göndərilməsini tələb edirdi.[3]

Astara, Lənkəran, Müşkür və digər yerlərdə də qalalar və istehkamlar inşa olunmuşdu.[4]

I Pyotr əvvəlcə Bakını Xəzəryanı ərazilərdəki rus qoşunlarının əsas dayaq məntəqəsinə çevirməyi planlaşdırırdı. Lakin sonra Bakı ətrafında ot-alaf və oduncağın az olduğunu öyrənib öz qərarını dəyişdirdi və 1723-cü ildə Matyuşkinə yeni təlimat verdi. Həmin təlimata görə, Matyuşkin kapitan-poruçik Soymonovu özü ilə götürüb Kür çayının mənsəbinə getməli, orada böyük şəhər salınması üçün yer seçməli idi.[5] Gələcəkdə bu qalanı gürcülər və ermənilərlə ticarətin mərkəzinə çevirmək nəzərdə tutulurdu. Bu əlaqəni saxlamaq üçün Kür çayından istifadə edilməli idi.[6] 1725-ci il oktyabrın 23-də Ali Məxfi Şura mühəndis general-mayor Debrinini bu qalanın inşasına rəhbərlik etmək üçün göndərməyi qərara aldı. Debrini həm də Xəzər

---

[1] Петр Бутков. Göst. əsəri, I his., s. 98.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1725 г., д. 5, л. 204 об.

[3] АВПРИ,ф. 77 (СРП), оп. 1, 1725 г.,д.5, л. 204 об.; РГВИА, ф. 20, оп. 1/47, . 11, л. 8.

[4] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1727 г., д. 9, л. 26.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д. 4, л. 4; Василий Комаров. Göst. əsəri, s. 600-601.

[6] Василий Комаров. Göst. əsəri, s. 606-607.

dənizinin yaxın sahillərinin xəritəsini tərtib etməli idi.[1] Debriniyə özü ilə mühəndislər və bələdçilər götürərək bütün qalaların və limanların, həmçinin Xəzərə tökülən böyük çayların çertyojunu çəkmək tapşırılmışdı.[2]

1726-cı ilin oktyabrından Kür çayı mənsəbində qalanın tikintisinə başlandı. Görünür 1727-ci ilə kimi qala əsasən, inşa olunmuşdu, çünki orada 3 alay yerləşdirilmişdi.[3] Ancaq əlverişsiz iqlim şəraitinə görə həmin il burada xeyli əsgər ölmüşdü. 1728-ci ildə general Rumyantsevə Kürün mənsəbində kiçik bir dəstə qoyub qalan hərbçiləri Astaraya köçürmək əmr olundu.[4] Rus hökuməti nəzərlərini yenidən Bakıya yönəltməli oldu.

I Pyotr Xəzəryanı əyalətləri Rusiyanın xammal bazasına çevirməyə çalışaraq yeni ərazilərin iqtisadi cəhətdən mənimsənilməsinə diqqət yetirirdi. Hələ Dərbənddə olduğu vaxt o yerli üzümlüklərə heyran qalmış və Dərbənddə şərabçılığı inkişaf etdirmək arzusunu bildirərək, bu məqsədlə də Macarıstandan təcrübəli usta gətirilməsini əmr etmişdi. 1723-cü il mayın 22-də çar yeni işğal olunmuş ərazilərdə faydalı qazıntılar, ilk növbədə mis haqqında, sitrus və digər meyvələr haqqında məlumat toplanmasına dair şəxsən göstəriş vermişdi.[5] Abşeron yarımadasında neft hasilatına xüsusi diqqət yetirilirdi. I Pyotr Matyuşkinə 1723-cü ildə Bakıdan bir neçə pud ağ neft, 1724-cü ilin mayında isə artıq min pud və ya nə qədər mümkünsə ağ neft göndərilməsini əmr etmişdi.[6]

Rus xəzinəsi Bakı neft quyularını öz əlinə almışdı. Eyni zamanda yerli feodalları Rusiya ilə əməkdaşlığa cəlb etmək üçün kiçik quyular onlara icarəyə verilirdi.[7] 1725-ci ildə Bakı ətrafında sutkada 4.710 batman, il ərzində isə 1.718.150 batman qara neft

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1725 г., д. 16, л. 13.

[2] РГВИА, ф. 20, оп 1/47, д. 11, л. 92.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1725 г., д. 19, л. 21об.

[4] Yenə orada.

[5] Василий Комаров. Göst. əsəri, s. 606.

[6] Василий Комаров. Göst. əsəri, s.  603-609.

[7] Михаил Полиевктов. Проект хозяйственной эксплуатации…, с. 261.

hasil olunan istismara yararlı 48 quyu vardı.[1] Bundan əlavə yararlı və yararsız 4 ağ neft quyusu vardı.[2]

Qara neftin bir batmanı 4 rubla, ağ neftin bir batmanı isə 19 rubl 50 qəpiyə satılırdı. Bakı nefti Rusiya xəzinəsinə xeyli gəlir gətirirdi. Təkcə 1723-cü il avqustun 10-dan 1725-ci il yanvarın 12-dək müddətdə qara neft satışından 23.306 rubl 57 qəpik, ağ neft satışındansa 1.971 rubl 80 qəpik gəlir götürülmüşdü.[3]

Rus sənayeçiləri Xəzəryanı əyalətlərdən öz ipək və yun manufakturaları üçün ucuz xammal əldə etməyə çalışırdılar. Bu məqsədlə göndərilmiş mahud fabriki ustası Qriqori Şamıkin Dərbənddə mahud hazırlamaq üçün yararlı yunun 1 batmanının 30-40 qəpiyə, Bakıda isə hətta 10-15 qəpiyə satıldığını müəyyənləşdirmişdi. Müqayisə üçün qeyd edək ki, bu zaman Moskvada 1 funt türk yununun qiyməti 8,25 qəp. (yəni bir batmanı 1 rubl 15,25 qəp.) idi. Deməli, Dərbənd və Bakıda yunun Moskvadan müvafiq surətdə 3-4 və 8-10 dəfə ucuz olduğu aydınlaşır.[4]

Xəzəryanı vilayətlərə xəzinəni doldurmağın vacib mənbələrindən biri kimi baxan çar məmurları nəinki bütün illik vergi məbləğlərini toplamağa çalışırdılar, hətta əvvəlki dövrlərdə toplanmamış vergi kəsirlərini almağa çalışırdılar. Məsələn, general Matyuşkin I Pyotra yazırdı ki, əvvəllər 5 il üç ay müddətində Bakıda neft quyuları ildə 50 min rubl müqabilində icarəyə verilmişdi. Bu icarə haqqını Bakı sultanı özünə saxlayıbmış. Buna görə də keçmiş sultanın bütün əmlakı müsadirə olunmuşdu.[5]

I Pyotrun göstərişi ilə Bakı ətrafında zəfəran plantasiyası salınmışdı.[6] Ən böyük xəzinə təsərrüfatı Dərbənd ətrafında təşkil olunmuşdu. Burada əncir, alma, armud, tut, gavalı, nar və böyük

---

[1] РГАДА, Ф. 9 (Каб. Петра), отд. 2, кн. 72, л. 357 и об.

[2] Yenə orada, v. 358.

[3] Yenə orada, 63-cü kitab, v. 597, a.ü. – 58.

[4] РГАДА, ф. 9, (Каб. Петра I), от. 2, кн. 72, л. 671 a.ü. – 672.

[5] РГАДА, ф. 9, (Каб. Петра I), от. 2, кн.  63, л.780.

[6] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1727 г., д. 11, л. 1 и об.

miqdarda üzüm toplanırdı. Dərbənddə şərab da istehsal olunurdu. Şərabçılığın keyfiyyətini qaldırmaq üçün Macarıstandan şərab üzrə mütəxəssis – mayor Turqul dəvət olunmuşdu.[1] Xarici ustaların yardımı ilə Dərbənddə yüksək keyfiyyətli ağ və qırmızı şərab hazırlanırdı.[2]

Dərbəndin xəzinə təsərrüfatında zəfəran yetişdirilməsinə də xüsusi diqqət yetirilirdi. Əgər 1724-cü ildə Dərbənddəki xəzinə təsərrüfatlarında 119 funt, yaxud 8 batman 7 funt zəfəran yetişdirilmişdisə,[3] 1728-ci ildə bu rəqəm artıq 13 batman 5 funta çatmışdı.[4]

Rus hakimiyyət orqanları Xəzəryanı əyalətlərdə əvvəllər mövcud olan vergi və mükəlləfiyyətləri saxlamışdılar. Başlıca vergilər "malcəhət"(sinonimi bəhrə, dəhyek), "cütbaşı", "çöpbaşı" idi. Malcəhət torpaqdan istifadəyə görə alınırdı və taxıl məhsulunun onda birini, ipəyin isə beşdə birini təşkil edirdi. Cütbaşı (hərfiyyən xışa görə vergi) hər qoşqu öküzü üçün 50 qəpik təşkil edirdi. Çöpbaşı otlaqdan istifadəyə görə alınırdı, otlağın sahəsindən asılı olaraq 10 manatdan 50 manata qədər təşkil edirdi.[5]

Dərbənd şəhərində rus xəzinəsinin gəliri əsasən şəhərə gətirilən və şəhərdən aparılan mallar və heyvanlara görə alınan vergidən (ildə 1000-1100 rubl) və şərab satışından əldə edilən gəlirdən (ildə 1000 rubl) ibarət idi.[6] Bakıda başlıca gəlir mənbəyi neft satışından, idxal və ixrac olunan mallardan alınan rüsumlar idi.[7] Salyan əyalətində xəzinə malcəhətlə yanaşı, duz satışı və kiçik qayıqların icarəsindən gəlir əldə edirdi.[8]

---

[1] Петр Г. Бутков. Göst. əsəri, I his., s. 147.
[2] Yenə orada; Г. Мельгунов. Göst. əsəri, s. 17.
[3] РГАДА, ф. 9 (Каб. Петра I), отд. 2, кн. 64, л. 1031.
[4] Yenə orada, 68-ci kitab, v. 1188.
[5] Иоган Гербер. Известия., с. 221; Бутков П. Göst. əsəri, I his., s. 95.
[6] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1731 г., д. 10, л. 18; Евгений Зевакин. Прикаспийские.., табл. 4.
[7] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1731 г., д. 10, л. 17.
[8] Yenə orada, v. 18.

Ara müharibələri və xarici hərbi müdaxilə nəticəsində var-yoxdan çıxmış əhalidən vergi toplamaq o qədər də asan məsələ deyildi. Rus hakimiyyət orqanları vergiləri verməyən və mükəlləfiyyətləri yerinə yetirməyən şəxslərlə çox amansız rəftar edir, bəzən onlara qarşı cəza dəstələri göndərirdilər.[1] Lakin, belə ifrat tədbirlər də kömək etmirdi. Buna görə də rus hakimiyyət orqanları, ayrı-ayrı ərazilərdən vergi və rüsumların toplanmasını həvəslə icarəyə verirdilər. Məsələn, Salyan balıq vətəgələri ildə 1600 rubla Əliqulu xan Muğanlıya verilmişdi.[2]

I Pyotrun göstərişi ilə 1723-cü ildə Xəzəryanı ölkələr və vilayətlərdə ticarətlə məşğul olmaq üçün səhmdar cəmiyyəti təşkil olunmuşdu. Səhmlərinin dəyəri 600 min rubla çatan bu cəmiyyət 1762-ci ilə kimi mövcud olmuşdu.[3]

Xəzəryanı vilayətlər işğal olunduqdan sonra Rusiya bu yerlərə ərzaq və bir sıra malların ixracı qadağasını aradan qaldırdı. Senatın 1724-cü ilin avqustunda verdiyi fərmana əsasən yeni işğal olunmuş ərazilərə taxıl, şərab və digər ərzaq mallarının ixracına icazə verildi.[4] Bununla bərabər bu yerlərə silah, barıt, qurğuşun ixracına əvvəlki məhdudiyyət qalırdı. Dəmir ixracına yalnız müstəsna hallarda icazə verilirdi.[5]

Yerli tacirlərə Rusiya ilə ticarətdə rus ticarət gəmilərindən istifadə etməyə icazə verilirdi. Yerli tacirlər yalnız rus hakimiyyət orqanlarının icazəsi ilə gəmilərə malik ola bilərdilər. İcazəsiz dənizə çıxan gəmilər məhv edilirdi.[6]

Rus gəmilərində malların daşınması üçün isə Azərbaycan və Gilan tacirləri həm gəmi sahiblərinə haqq ödəməli, həm də rus xəzinəsinə rüsum ödəməli idilər.[7]

---

[1] Петр Бутков П. Göst. əsəri, I his., s. 87.
[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1728 г., д. 14, л. 10.
[3] Петр Бутков. Göst. əsəri, I his., s. 147; Владлен Гаджиев. Роль России.., с. 122; Нина Куканова. Русско-иранские торговые отношения., с. 117.
[4] ГААО, ф. 394 (Астраханская губернская канцелярия) оп.1, д. 592, л. 39.
[5] Петр Бутков. Göst. əsəri, I his., s. 147-148.
[6] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1726 г., д. 4, лл. 113-114.
[7]Тофиг Мустафазаде. Азербайджан и рус…, с.139-140.

Vəziyyətin nisbi sakitləşməsi vergi və gəlirlərin alınmasının nizamlanması sayəsində Rusiyanın işğal etdiyi Xəzəryanı əyalətlərdən toplanan gəlirlər müəyyən qədər artmışdı. Qeyd etmək lazımdır ki, bir çox hallarda yerli əhali rus hərbi hakimiyyət orqanlarına vergiləri verməkdən, hətta ruslara zəruri malları satmaqdan imtina edirdilər. Adətən belə hallarda kəndlərə cəza dəstələri göndərilir, ərzaq zorla müsadirə olunurdu. Təsadüfi deyil ki, bununla əlaqədar II Pyotr 12 iyun 1727-ci il tarixdə xüsusi fərman vermişdi. Vergi verməyənlər və zəruri malları ruslara satmaqdan imtina edənlər sərt cəzalandıracaqları ilə hədələnirdi.[1]

Fərmanda diqqəti çəkən bir məqam da rus rəsmi sənədində əvvəlki dövrlərdən fərqli olaraq Səfəvi dövlətinin "Persiya" deyil İran adlandırılmasıdır.[2]

Lakin bir sıra səbəblər, o cümlədən Surxay xan Qazıqumuqlunun basqınları nəticəsində vilayətlərin təsərrüfatına əhəmiyyətli zərər dəyirdi. 1728-ci ildə Surxay xanın basqını nəticəsində 23 kənd qarət olunmuş və 7-də bütün evlər yandırılmışdı. 229 adam öldürülmüş, 266 nəfər əsir alınmışdı. Əyalətlərdə rus xəzinəsinə dəyən zərər 216.109 rubl dəyərində qiymətləndirilmişdi.[3]

Çarizm xristianları, xüsusən də erməniləri cəlb edib məskunlaşdırmaq və müsəlman əhalisinin xüsusi çəkisini azaltmaqla Xəzəryanı əyalətlərdə özünə sosial dayaq yaratmağa çalışırdı. Məlumdur ki, hələ Xəzəryanı əyalətlərə yürüş ərəfəsində I Pyotr erməni və gürcüləri bu əyalətlərdə məskunlaşmağa çağırmışdı. O,1722-ci ilin sentyabrında Kartliyə yola düşən podporuçik Tolstoya tapşırmışdı ki, orada Dərbənd və Şamaxı ətrafında məskunlaşmağa meylli adamların olub-olmadığını, onlardan xidmətə adamlar cəlb etməyin mümkün

---

[1] АВПРИ, ф.77 (СРП), оп.1, 1727 г., д.9, лл. 266-271 об.

[2] Yenə orada, v. 279 a.ü., 270.

[3]АВПРИ, ф.77 (СРП), оп.1, 1735 г., д.6, лл.95 об.-96.

olub-olmadığını araşdırsın.[1]

I Pyotr sonralar o gürcüləri və erməniləri Xəzəryanı əyalətlərə cəlb etmək məqsədilə sabiq Kartli çarı VI Vaxtanqı “Müqəddəs Xaç” qalasında məskunlaşdırmaq istəyirdi. Köçüb gələnləri Dərbənd və Bakı yaxınlığında məskunlaşdırmaq, aralarından döyüşçülər toplamaq planlaşdırılırdı.[2]

General M.Matyuşkin 1723-cü il avqustun 18-də P.A.Tolstoya yazırdı ki, çarın əvvəlki fərmanına görə bakılıları şəhərdən sürgün etmək tələb olunsa da, indi bunu yerinə yetirmək olmaz, çünki bununla Salyan sakinləri və ətraf kəndlərin sakinlərinin Bakıya ərzaq məhsulları gətirmələrinə son qoyular, hətta ətraf kəndlərin sakinləri yaşayış yerlərini tərk edib gedərlər.[3] I Pyotrun sonra verdiyi digər fərmanda yazılırdı ki, yerli sakinlərlə ehtiyatla davranılsın, əks halda sonra ərzaq məhsulları və neft almaq olmaz.[4]

Bakı ələ keçirildikdən sonra, 1723-cü il sentyabrın 14-də I Pyotr Matyuşkinə məktub yazaraq Bakı sakinləri ilə şəraitdən asılı olaraq lazım bildiyi kimi rəftar etməsini, bununla bərabər mümkün olduğu qədər zərər yetirmədən yerli sakinləri azaltmağı tapşırırdı. Pyotr məsləhət görürdü ki, Bakıdan əsasən Türkiyə ilə həmetiqad olan sünniləri sürgün etsin.[5]

Çarın general Matyuşkinə 22 may 1724-cü il tarixli təlimatına əlavə bəndlərdə göstərilirdi ki, Bakıda yalnız onlarsız keçinmək mümkün olmayan sakinləri saxlayıb, digərlərini Həştərxana və oradan da daha uzaq yerlərə sürgün etmək lazımdır. Əlavə maddələrdə Bakı sakinləri şəhəri tərk etməsinlər deyə onların arvadlarını və uşaqlarını nəzarət altında saxlamaq, Bakıda və

---

[1]Документы по взаимоотношениям Грузии с Северным Кавказом в XVIII в. Составитель Гамрекели В.Г. Тбилиси, 1968, с.29; И.Киняпина, М.Блиев В.Дегоев. Кавказ и Средняя Азия во внешней политике России. М., Изд-во МГУ, 1984, с.16.

[2]Г. Пайчадзе. Göst. əsəri, s. 71.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1723 г., д. 8, л. 133 об.

[4] Там же, л. 134.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1723 г., д. 8, л. 134.

digər yerlərdə şübhəli adamları edam etmək tövsiyə olunurdu.[1]

1724-cü ilin oktyabrında Bakıda Rusiya əleyhinə çıxış hazırlanması haqqında xəbər alan I Pyotr yerli sakinlərə qarşı rəftarı sərtləşdirməyi tələb etdi. Matyuşkinə Bakı sakinlərini Həştərxana, oradan da Moskvaya sürgün etmək, yalnız az miqdarda sakini şəhərdə saxlamaq, onların da üzərində ciddi nəzarət qoymaq, bütün şübhəliləri isə edam etmək əmr olunurdu.[2]

Bundan bir qədər əvvəl, 1724-cü ilin sentyabrın 24-də I Pyotr İstanbula yola düşən general A.Rumyantsevə erməniləri Xəzərsahili vilayətlərə köçmək üçün dilə tutmaq, və ermənilər bu vilayətlərə gələrlərsə, yerli sakinlər sürgün olunduqdan sonra torpaqlarının onlara (ermənilərə) veriləcəyini vəd etmək barədə göstəriş vermişdi.[3]

1724-cü ilin noyabrın 10-da M.Matyuşkinə ermənilər Gilan, Mazandaran, Bakı, Dərbənd və digər Xəzəryanı əyalətlərə gəlsələr, onlara hər cür yardım göstərərək məskunlaşmaları üçün əlverişli torpaqlar ayrılması, boş həyətlər və evlərin, həmçinin Rusiyaya sadiq münasibət göstərməyənləri sürgün edərək evlərinin ermənilərə verilməsi barədə fərman göndərildi.[4]

Bakı komendantı polkovnik Ostafyevə və Dərbənd komendantı polkovnik Yungerə erməniləri həm şəhərdə, həm də şəhər ətrafında məskunlaşdırmaq əmr olunurdu.[5]

1724-cü ilin noyabrında Xarici İşlər Kollegiyasından polkovnik Yungerə erməni keşişi Antoni və ailəsinin, onunla birlikdə gələn ermənilərin yerləşməsi üçün Dərbənddə əlverişli yerlər ayırması barədə sərəncam göndərilmişdi.[6] 1725-ci ildə Dərbəndə gələn Antoni və bir çox başqa ermənilər guya əvvəllər kilsə olmuş məscidi kilsəyə çevirməyə icazə verilməsini xahiş

---

[1] РГАДА, ф. 15, д. 37, ч. 2, л. 218 об.

[2] Yenə orada,v. 319.

[3] Петр Бутков. Göst. əsəri, I his., s. 67.

[4] АВПРИ, ф. 100 (СРА), оп. 1, 1724 г., д. 2, лл. 68-69; Герасим Эзов. Göst. əsəri, sənəd 259.

[5] АВПРИ, ф. 100 (СРА), оп. 1, 1724 г., д. 2, лл. 68-69.

[6] РГАДА, ф. 15, д. 37, ч. 2, л. 234.

etmişdilər. Rus komandanlığı məscidin 300 il əvvəl tikildiyini əsas gətirərək bu həyasız xahişi rədd etmişdi.[1]

1728-1731-ci illərdə Müşkürdə, Şabranda və digər qonşu mahallarda xeyli köçkün erməninin məskunlaşmasına dair məlumat var.[2]

Ancaq, bütövlükdə XVIII əsrin 20-30-cu illərində rus hökumətinin erməniləri və digər xristianları Xəzəryanı vilayətlərə köçürmə siyasəti uğur qazanmadı. Rus hökuməti 1724-cü ildə Rusiyaya sürgün olunmuş bakılıların çoxunu vətənə qaytarmağa məcbur olmuşdu.[3]

İstanbul müqaviləsi Osmanlı dövlətinə Səfəvi ərazilərini ələ keçirmək üçün diplomatik əsas yaratdı və müqavilədən sonrakı il yarım müddətində müqavilə üzrə osmanlılar onlara ayrılmış bütün ərazilər üzərində nəzarəti gerçəkləşdirdilər. Çar Rusiyası da İstanbul müqaviləsinə söykənərək Kür çayından cənubdakı sahilyanı Azərbaycan ərazilərini, habelə Dərbənd və Bakı arasındakı sahilyanı zolağı ələ keçirdi.

Osmanlı və Rusiya imperiyaları işğal etdikləri Azərbaycan ərazilərində əsaslı iqtisadi dəyişikliklər etmədilər. Onları yalnız təbii sərvətlərdən istifadə maraqlandırırdı. Rus hökuməti ilk növbədə Bakı neftini mümkün qədər çox həcmdə daşıyıb aparmağa çalışırdı. Eyni zamanda rus hökuməti Azərbaycanda özünə sosial dayaq yaratmaqdan ötrü xristianları, ilk növbədə erməniləri Xəzəryanı vilayətlərə köçürüb məskunlaşdırmağa çalışırdı.

Azərbaycan əhalisi içərisində Rusiya və Osmanlı hakimiyyətindən narazılıq mövcud olduğundan qeyri-mütəşəkkil çıxışlar baş verirdi.

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1725 г., д. 5, лл. 41-42.

[2] СИРИО, т. 104, с. 74.

[3] РГАДА, ф. 15, д. 37, ч. 2, л. 324.

# III FƏSİL

## XVIII ƏSRİN İKİNCİ RÜBÜNDƏ RUSİYA VƏ OSMANLI İMPERİYALARININ AZƏRBAYCAN SİYASƏTİ

### III.1. I Pyotrun ölümündən sonra Rusiyanın Azərbaycana dair siyasətində baş verən dəyişikliklər.

Pyotrun ölümündən sonrakı ilk aylarda Xəzəryanı vilayətlərə münasibətdə onun siyasəti davam etdirildi. I Yekaterinanın 26 sentyabr 1726-cı ildə VI Vaxtanqa verdiyi fərmanda deyilirdi: "II Təhmasib nəinki 1723-cü il sentyabrın 12-də Peterburqda bağlanmış müqaviləni qəbul etməyib, üstəlik müqavilə mətnini ona təqdim edən rus rezidenti və onun katibini pis söyüşlərlə söyüb qovub, hər tərəfdə rus qoşunlarına qarşı düşmənçilik edilir. [1] Eyni zamanda Osmanlı hökuməti Səfəvi dövlətinin böhranlı vəziyyətindən istifadə edərək onun bir çox ərazilərini tutmuşdur və görünür ki, bütün ərazilərini tutmaq fikrindədir. II Təhmasibin osmanlılara müqavimət göstərmək gücü yoxdur, ona osmanlılara qarşı yardım göstərsin deyə Rusiya ilə də razılaşmır. Buna görə də rus hökuməti osmanlıların Səfəvi ərazilərinə yiyələnməsinin qarşısını almaq üçün Səfəvi ərazilərinin bir hissəsinin bölüşdürülməsi, bir qismində isə Şahın suverenliyinin saxlanılması haqqında müqavilə imzalamışdır (Söhbət 1724-cü il Osmanlı-Rusiya müqaviləsindən gedir)". Lakin II Təhmasib bu müqaviləni də qəbul etməkdən imtina etmişdi. Bütün bunlara baxmayaraq rus hökuməti Şahla normal münasibətlər qurmağa çalışır. Bu məqsədlə də Vaxtanqı İrana göndərir. Vaxtanq Xəzərsahili vilayətlərdəki rus qoşunlarının komandanı general Vasili Dolqorukovla görüşməli, ondan yerli vəziyyəti öyrənib razılaşmış şəkildə hərəkət etməli idi.[2]

Vaxtanq və Dolqorukov Təhmasibin yanına adam göndərib

---

[1] РГАДА, ф. 4, д. 51, л. 11.

[2] Yenə orada, v. 12-13.

onun Rusiyaya qarşı hərəkətlər etməsinə baxmayaraq, Rusiya çarının Səfəvi dövlətinin tamamilə dağılmasını istəmədiyini və Şahlıq səltənətinin bərpası üçün müqavilə bağlanmasına çalışdığını bildirməli idilər. Bundan ötrü Şah dərhal Gilana, yaxud istədiyi digər bir yerə gəlməli, Vaxtanq, ruslarla razılığa gəlməsə, onun üçün yaxşı olmayacağını Şaha bildirməli idi. Rus imperatoru Dolqorukovun başçılığı ilə qoşun da göndərmişdi.[1]

Əgər Şah Gilana və yaxud digər bir yerə gələrdisə, onunla görüşən zaman Vaxtanq və Dolqorukov Rusiya imperatoru I Pyotrun və indi də I Yekaterinanın ona necə xeyirxah münasibət bəslədiklərini bildirməli idilər. Şah həm qiyamçılar tərəfindən, həm də osmanlılar tərəfindən necə sıxışdırıldığını özü görür. Buna görə də Rusiyanın ona yardım göstərməsi üçün Rusiya ilə razılığa gəlməlidir. Yalnız, Şah 1724-cü il İstanbul müqaviləsini qəbul edərsə, ona yardım oluna bilər.[2]

Təhmasibə rus hökumətinin xristianlarla məskunlaşmış Səfəvi ərazilərinin Osmanlının əlində qalmasını istəmədiyi deyilməli idi. Lakin bundan ötrü Osmanlı ilə böyük savaşa girmək lazımdır. Bu cür müharibəni aparmaq üçün isə müttəfiqlər lazımdır. Həmin səbəbdən də hal-hazırda Rusiya Avstriya ilə danışıqlar aparır və ittifaq müqaviləsi bağlanmaq üzrədir. Eyni zamanda Səfəvi dövləti də Osmanlı ilə müharibədə Rusiyaya yardım edə bilsin deyə daxilindəki çaxnaşmaları aradan qaldırıb güclənməlidir.[3]

Əgər II Təhmasib Rusiya ilə razılığa meyil etməzdisə, Vaxtanq və Dolqorukov Rusiyanın ona güzəştə gedib Astrabad və Mazandaran vilayətlərini qaytara biləcəyini bildirməli idilər. Bu şərtlə ki, Təhmasib əvəzində pul kompensasiyası versin.[4] Qeyd etməliyik ki, adı çəkilən vilayətlər rus qoşunları tərəfindən tutulmamışdı, yalnız saxta 1723-cü il Peterburq müqaviləsində həmin vilayətlərin Rusiyaya verilməsi nəzərdə tutulmuşdu.

---

[1] РГАДА, ф. 4, д. 51, лл.13 об.-14.

[2] Yenə orada, v. 15.

[3] Yenə orada, v. 16 a.ü.-17.

[4] Yenə orada, v. 18 a.ü.-19.

Göründüyü kimi, rus hökuməti ələ keçirə bilmədiyi əraziləri "güzəştə gedib", hətta əvəzində ödənc almaq istəyirdi. Əgər Şah heç bir güzəştə getməzdisə, 1724-cü il İstanbul müqaviləsini qəbul etməz və Rusiya ilə də razılığa gəlməzdisə, belə halda Rusiyanın Şahı düşmən elan edəcəyi və Osmanlılarla birlikdə onu hakimiyyətdən kənarlaşdıracağı II Təhmasibə bildirilməli idi.[1]

1726-cı ilin əvvəlində Rusiyanın Avstriya ilə ittifaq müqaviləsi bağlaması Osmanlı sarayını bərk narahat etmiş və bu barədə rus hökumətinə sorğu vermişdi. Hətta İ. Neplyuyevin 17 noyabr 1726-cı il tarixli relyasiyasında yazdığına görə, adı çəkilən müqavilənin imzalanmasını 1724-cü il İstanbul müqaviləsinə zidd sayan Babi-Ali Şirvanda mərzləşdirməni dayandırmış və öz ordusuna İsfahana doğru hərəkət etməsini əmr etmişdi.[2]

Şirvanda mərzləşdirmədə Rusiyanı təmsil edən general Rumyantsev isə 1726-cı ilin noyabrında Dərbənddən yazdığı məruzəsində mərzləşdirmənin dayandırılmasını belə izah edirdi: Hacı Davuda məxsus mülklərin ən yaxşı hissələri Rusiya tərəfinə düşdüyündən Osmanlı komissarı Derviş Mehmet ağa mərzləşdirməni davam etdirməkdən imtina etmişdir.[3]

20 fevral 1727-ci il tarixində I Yekaterina knyaz Dolqorukovun Səfəvi dövləti ərazisində vəziyyətə dair məlumatını dinləmişdi. Dolqorukov Təhmasibin zəif olduğunu, onunla razılaşma əldə edilməsinə baxmayaraq onunla müqavilə imzalamağın təhlükəli olduğunu, çünki bu halda Əşrəfin osmanlılarla müqavilə bağlayacağını yazırdı. Türklər də indi zəif olduqları üçün Əşrəflə razılığa gəlməyə çalışacaqlar. Osterman, Məxfi Şura və İmperatriçə Dolqorukovun mülahizəsi ilə razılaşsa da ona çox böyük məxfiliklə bildirilmişdi ki, Avstriya, əgər Osmanlılar birinci olaraq Rusiyaya hücum etsələr, yardım etməyi öhdəsinə götürmüşdür. Buna görə də Rusiya yerli xristianlarla birləşib Cənubi Qafqazda osmanlılara qarşı çıxsa, Avstriya

---

[1] Yenə orada, v. 19 a.ü.-20.

[2] РГАДА, ф. 37, ч. 5, л. 277 и об.

[3] Yenə orada, v. 263 və a.ü.

Rusiyaya yardım etməli deyil.[1]

Qeyd olunurdu ki, 1725-ci ildə Fransa, İngiltərə və Prussiya arasında hər şeydən əvvəl Avstriya və Rusiyaya qarşı yönəlmiş Hannover ittifaqı bağlanmışdı. Beləliklə, Avropada demək olar ki, bütün dövlətlər iki qrupa bölünmüşdü. Bir hissə Avstriya imperatoruna, digər hissə isə İngiltərəyə qoşulmuşdu. Avstriya İspaniya və Rusiya ilə ittifaqdadır, bir çox alman kurfürstləri də bu ittifaqa qoşulmuşdur. Lakin, Prussiya bu yaxınlarda yenə Rusiya və Avstriya ilə ittifaqa girmişdir ki, bu da onun Hannover ittifaqından çıxması deməkdir. Danimarka İngiltərənin tərəfindədir, çünki İngiltərə Şlezviq hersoqluğunun ona keçməsinə təminat vermişdir. İsveç Rusiya ilə qarşılıqlı müdafiə ittifaqına malik olsa da, İngiltərə cidd-cəhdlə onu öz tərəfinə çəkməyə çalışır.[2] İngiltərə hələ 1726-cı ildə işi müharibə həddinə çatdırmaq üçün bütün qüvvəsini sərf edirdi ki, bunun üçün nəinki İspaniyaya və İspaniya Hindistanına (Vest-Hind-T.M.), habelə Rusiya sahillərinə, Baltik dənizinə güclü dəniz ekspedisiyaları göndərmişdi. Bir neçə ingilis və Danimarka gəmisi bütün 1726-cı il boyu Revelin qarşısında durdu, cari 1727-ci ildə isə İngiltərə, eləcə də Fransa və Hollandiyanın həm dənizdə, həm də quruda sürətlə silahlanması müşahidə olunur, yazda və ya yayda müharibə başlaya bilər. Bu müharibə ya İspaniyaya, ya Rusiyaya qarşı, ya da onların hər ikisinə qarşı başlaya bilər. Polşa kralı son günlərini yaşayır, onun ölümü təqdirində Rusiyanın maraqları Polşa işlərinə qarışmasını tələb edir.[3]

Digər tərəfdən də Babi-Ali Rusiyadan 1724-cü il müqaviləsinin şərtlərinə əməl etməyi və Əşrəfə qarşı hərbi əməliyyatlara başlamağı tələb edir.[4]

Rus hökuməti hesab edirdi ki, belə bir şəraitdə öz xarici-siyasi maraqları naminə aşağıdakı prinsipləri rəhbər tutmalıdır:

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1727 г., д. 6, лл. 11-12.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1727 г., д. 6, л. 12 и об.

[3] Yenə orada, v. 13.

[4] Yenə orada, v. 140 a.ü.

“İran işlərini” mümkün qədər tez həll etmək. Məsafə uzaqlığına görə Rusiya üçün Xəzərsahili ərazilərdə hərbi əməliyyatlar aparmaq ölçüyəgəlməz dərəcədə çətin və israflıdır; əsgərlər bu cür iqlimə alışqan deyillər, buna görə də çoxlu əsgər ölür. Bu işləri Osmanlı ilə müharibəyə səbəb olmadan başa çatdırmaq lazımdır; Rusiya Avropada sərbəstliyə nail olanadək osmanlıların İran işlərindən çıxa bilməmələri ruslara sərf edir; İmkan vermək olmaz ki, Osmanlı ya Əşrəflə barışmaq, ya da digər yolla “İran işləri”ndən çıxsın, Rusiya isə bu işlərdə qalsın, çünki belə işlərdə osmanlılar iranlılarla Rusiyaya qarşı birləşə bilərlər.[1]

Rus hökuməti bu prinsiplərdən çıxış edərək göstəriş verdi –II Təhmasibin nəzərinə çatdırılsın ki, dərhal 1724-cü il müqaviləsinin şərtlərini qəbul etməzsə, düşmən sayılacaq. Babi-Aliyə də təlqin etmək lazımdır ki, Əşrəflə birtərfli qaydada barışmaq yolu ilə Səfəvi ərazisində təhlükəsizliyini təmin edə bilməz. Əgər Əşrəflə sülh bağlamaq istəyirsə, rusların vasitəsilə hərəkət etməlidir. “İran işləri”ndə aşağıdakı qaydada hərəkət etmək lazımdır: Təhmasiblə danışıqları davam etdirmək. Əgər Təhmasib müqaviləni qəbul edərsə, onda onunla doğrudan sülh müqaviləsi bağlamaq, bu müqavilənin bağlanmasına Osmanlı imperiyasını da cəlb etmək. Təhmasiblə Babi-Ali arasında danışıqlar Rusiya vasitəsilə aparılmadır. Qeyddə deyilirdi ki, əgər Təhmasib 1724-cü il müqaviləsini qəbul edərsə onunla elə məharətlə davranmaq lazımdır ki, rusların əlindən çıxmasın; Təhmasib inadkarlığında davam edərsə və Dolqorukov onunla danışıqların davam etdirilməsində bir fayda görməzsə, danışıqları kəsməli; Təhmasiblə danışıqlar dayandırılarsa, osmanlıları şübhələndirmədən Əşrəflə danışıqlar aparmalıdır.[2]

Çox tezliklə Rusiya Xəzəryanı regionda yürütdüyü siyasəti korrektə etməli oldu. Şahla danışıqlarda Vaxtanqı əvəz edən baron Şafirova və general Levaşova verilən gizli təlimatda deyilirdi ki, əgər II Təhmasib razılığa gəlmək istəməsə, onlar

[1] Yenə orada, v. 14 a.ü. – 15 a.ü.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1727 г., д. 6, лл. 15-18.

şəraitə baxaraq Mazandaran və Astrabad əyalətlərinin qaytarılmasını vəd etsinlər. Şah bundan razı qalmazdısa, Gilan əyalətinin, Astara və Lənkərana qədər ərazilərin güzəştə gediləcəyini, ən son halda isə Kür çayına qədər ərazilərin qaytarılmasını vəd etmək olardı. Bu güzəştlər üçün hansısa bir məbləğdə pul kompensasiyasının ödənilməsi şərti qoyulmalı idi. Güzəştlər müqaviləyə belə şərtlə salınmalı idi – İranda çaxnaşmalar başa çatmayınca və Şah öz taxtında möhkəmlənməyincə adı çəkilən ərazilər ona qaytarıla bilməz, çünki əks təqdirdə osmanlılar həmin əraziləri tuta bilər, rusların onları bu ərazilərdən çıxartması isə çətin olar.[1]

Şafirov və Levaşov osmanlıların ruslardan əvvəl Şahla razılığa gəlməsinə imkan verməməli idilər. Belə olan halda Təhmasibə adları çəkilən ərazilərin qaytarılması şifahi şəkildə vəd olunmalı idi.[2]

Knyaz V.Dolqorukovun general Levaşova verdiyi 21 mart 1728-ci il tarixli təlimatda deyilirdi ki, İmperator əlahəzrətlərinin Ali Məxfi Şurasının verdiyi fərmana əsasən o, Moskvaya qayıdır, buna görə də Rumyantsev Kür çayından şimaldakı qoşunların komandanı təyin olunur. Kürdən cənubdakı ərazilərdəki qoşunların komandanı vəzifəsində isə əvvəlkitək general Levaşov qalır. Təlimatın birinci bəndinə əsasən Levaşov Gilandakı və Kürə qədərki ərazilərdə (Rumyantsevin komandasına verilən Muğan, Şahsevən və Məzariq çölləri, habelə bütün Salyan əyaləti istisna olmaqla) yerləşən rus qoşunlarının komandanı vəzifəsini icra etməli idi.[3]

Təlimatda deyilirdi ki, Levaşov əfqanları Rusiya tərəfə çəkmək üçün danışıqları davam etdirməli idi; iş müqavilə imzalamağa çatardısa Bakı istisna olmaqla ondan cənubdakı bütün ərazilər əfqanlara güzəştə edilə bilərdi.[4] Təhmasib Rusiya

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1727, д. 8, лл. 29 об. -30.

[2] РГВИА ф. 20 (Воинская экспедиция военной коллегии), оп. 1/47 (Материалы о военных действий против Персии в 1725-1728 гг.), д. 19, л. 213.

[3]РГВИА ф. 20, оп. (1725-1728 гг.), д. 19, л. 213.

[4] РГВИА ф. 20, оп.1/47 (1725-1728 гг.), д. 19, л. 213.

ilə dostluğun bərpasına ümidlərdən məhrum olunmamalı, lakin Peterburq sarayından göstəriş alınmayana qədər onunla müqavilə imzalanmamalı idi.[1]

Təlimatda daha sonra deyilirdi ki, Kür qalasında iqlimin dözülməzliyinə görə ötən 1727-ci ildə böyük insan tələfatı olmuşdur. Oradakı üç alaydan sağ qalmış əskərləri Astaraya aparmalı, Kürün mənsəbində isə kapitan Kozlovun komandası altında kiçik bir heyət saxlanmalıdır.[2]

Levaşova osmanlılarla ehtiyatlı davranmaq məsləhət görülürdü.[3]

Dolqorukovun general Rumyantsevə verdiyi eyni tarixli təlimatda ona Svyatoy Krest (Müqəddəs Xaç) qalasından Kür çayına qədər ərazilərdə, eləcə də Kür çayından cənubda yerləşən Muğan, Şahsevən və Məzariq çöllərində, habelə bütün Salyan əyalətində idarəçilik həvalə olunduğu bildirilirdi.[4]

II Təhmasiblə münasibətlər gərgin olduğu üçün və Osmanlı dövlətinin 1727-ci ildə Əşrəflə müqavilə imzaladığını görərək rus hökuməti də 1729-cu il fevralın 13-də Əşrəflə Rəşt müqaviləsini imzaladı. Müqaviləni Rusiya adından general-leytenant V.Levaşov Əşrəfin adından onun baş sərkərdəsi Məhəmməd Seydal (Seydalı?) və daha üç nəfər imzalamışdı.[5]

Tərəflər qarşı tərəfin ələ keçirdiyi Səfəvi mülklərini onun ərazisi kimi tanıyırdı. Rusiya Astrabad və Mazandaran əyalətlərinin Əşrəfə "güzəştə getdiyini" bəyan edirdi. Lakin həmin ərazilər heç bir halda digər dövlətin əlinə keçə bilməzdi.[6]

---

[1] Yenə orada, v. 213 a.ü.

[2] Yenə orada.

[3] Yenə orada, v. 214 və a.ü.

[4] РГВИА, ф. 20, оп. 1/47, д. 19, л. 210 и об.

[5] Договоры России с Востоком.., с. 189.

[6] Договоры России с Востоком.., сс.189-193; Советско-Иранские отношения в договорах, конвенциях и соглашениях. Москва, 1946, сс. 11-13; Yaqub Mahmudov, Kərim Şükürov. Azərbaycan Beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828) I cild. Bakı: 2009, s. 171.

## III. 2. Nadir Əfşarın yüksəlişi və Səfəvi ərazilərinin geri qaytarılması.

XVIII əsrin 20-ci illərinin ortalarından Əfşar tayfasından çıxmış qeyri-adi sərkərdəlik qabiliyyətinə malik Nadirin yorulmaz fəaliyyəti sayəsində Səfəvi dövləti yenidən dirçəlməyə başlayır.

XV əsrin sonu-XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranmasında müstəsna rol oynamış Azərbaycan türk tayfalarından biri olmuş əfşarlar Azərbaycanın Marağa, Təbriz, Ərdəbil, Zəncan, Gəncə və Qarabağ bölgələrində, İranın bir sıra yerlərində yaşayırdılar. Səfəvi şahı I Abbas Xorasanı özbəklərdən qorumaq üçün xeyli əfşar ailəsini Xorasana köçürüb məskunlaşdırmışdı.[1] Nadirin mənsub olduğu əfşarların qıraqlı, qırıqlı, yaxud qırıxlu (Mirzə Mehdi Astrabadi və bir çox müəlliflər bu adı qırxlı kimi yazırlar) boyu Xorasanda Allahü-Əkbər dağ silsiləsindən bir qədər cənubda, Mayab Kubkan adı ilə tanınan su mənbələrinin yanında öz yaylaqlarını salmışdılar. Payızda qırxlı (qıraqlı) əfşarları adətən dağları aşaraq şimalda nisbətən aşağıda yerləşən isti Dərəgəzdəki qışlağa köçürdülər.[2] Elin köçü zamanı Dərgəz mahalının Dəstgird kəndində qıraqlı əfşarlarından İmamqulunun oğlu dünyaya gəlir.[3] Atasının adına uyğun olaraq onun adını Nadirqulu qoydular.[4] M.Astrabadi Nadirin hicri 1101-ci il məhərrəm ayının 28-də (miladi 1689-cu il noyabrın 11-i) doğulduğunu yazır.[5]

Hələ gəncliyində Abivərd hakimi Babaəli bəy

---

[1]Hüseyn Ə.Dəlili.XVIII əsrdə Azərbaycanın siyasi həyatında əfşarların rolu // Azərb.SSR EA xəbərləri,Tarix,fəlsəfə və hüquq seriyası. 1969,№3,s. 36

[2] Məhəmməd Quddusi. Nadir şah. (Nadir şah Əfşarın həyatı). Farscadan tərcümə edəni Məhəmmədəli Mürsəddiq. Bakı: Gənclik, 1999, s.6.

[3] Mirzə Mehdi xan Astrabadi.Tarix-e cahanqoşayi-Nadiri. H. 1370 (m. 1991) ,s24; Elnur Hüseynov. Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə..., s.l7

[4] Elnur.Hüseynov.Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə. Bakı:Elm, 2013,s.17.

[5] Mirzə Mehdi xan Astrabadi.Tarix-e cahanqoşayi-Nadiri. H. 1370 (m. 1991) ,s24; Elnur Hüseynov. Azərbaycan Nadir şah Əf.arın hakimiyyəti dövründə,s. 17.

Kosaəhmədlinin xidmətinə daxil olan Nadir öz igidliyi və bacarığı sahəsində tez bir zamanda onun rəğbətini qazanaraq, bir müddət sonra mühafizə dəstəsinin komandiri təyin edilir və Baba Əli bəyin kürəkəni olur.[1]

1723-1724-cü illərdə Baba Əli bəy öldükdən sonra digər tayfa üzvlərinin müqaviməti üzündən Nadir onun yerini tuta bilmədi və Məşhədə gedib Məlik Mahmud Sistaninin qulluğuna girdi. Ancaq bir müddət sonra onların arası dəydi, Nadir Abivərdə qaçdı və burada müxtəlif qəbilə üzvlərindən ətrafına dəstə toplamağa başladı. Bir neçə ay ərzində ona 3 min süvari qoşuldu. Nadir hücum edib Məşhədi ələ keçirsə də, sonra Xorasana tez-tez basqınlar edən özbəkləri cəzalandırmaq üçün şəhəri tərk etdiyindən Məlik Mahmud şəhəri təkrar geri aldı.[2]

Elə bu zaman II Təhmasib də Məşhədi azad etmək üçün yaxınlaşanda Nadir öz tərəfdarları ilə ona qoşuldu, "Təhmasibqulu", yəni Təhmasibin qulu adını götürdü.[3] Bu zaman II Təhmasib tamamilə etimad-üd-dövləsi Fətəli xan Qaçarın təsiri altında idi və bu təsirdən Nadirin köməyi ilə qurtulmaq istəyirdi. Tezliklə saray əyanlarının da təhriki ilə Fətəli xanın qətlə yetirilməsi Nadirin xeyrinə oldu. Rəqibi aradan çıxdıqdan sonra Nadir, Şahı bütün səlahiyyətləri ona, yüksək vəzifələri isə öz tərəfdarlarına verməyə razı sala bildi.

Məşhəddən 3 km aralıda baş vermiş şiddətli döyüşdə Nadir Məlik Mahmuda sarsıdıcı zərbə vurdu və sonuncu qalaya çəkildi. Şəhər iki ay mühasirədə qaldı.[4] 1726-cı il oktyabrın ortalarında Məşhəd təslim oldu.[5] Məşhədin azad olunması bütün Xorasan vilayətini nəzarət altına almaq imkanı verdi və bir sərkərdə kimi Nadiri məşhurlaşdırdı.

Nadir 1729-cu ilin yazında Herata doğru yürüşə başladıqda

---

[1] Лоуренс Локкарт. Надир-шах, сс.26-27.

[2] Məhəmməd Quddusi, s.l6.

[3] История о персидском государе шахе Тахмас Кули хане. С французского на русский язык переведенная С.Решетовым. СПб., 1762.

[4] Məhəmməd Quddusi. Nadir şah, s.29.

[5] Yenə orada.

Herat yolunda baş verən döyüşdə məğlubiyyətə uğrayan Herat əfqanları aman istədilər və yenidən səfəvilərin hakimiyyətini qəbul etdiklərini bildirdilər.

1729-cu il sentyabrın 29-da Mehmandust yaxınlığında Nadir əfqanların başçısı Əşrəf şah üzərində parlaq qələbə çaldı.[1] Bir müddət sonra, noyabrın 13-də Murçexort yaxınlığında Nadir Əşrəfin ordusunu tamamilə darmadağın etdi. Əşrəf İsfahana qaçıb gizləndi. Onun qaçması əfqan ordusunun tamamilə dağılmasına səbəb oldu.[2] İsfahanda duruş gətirə bilməyəcəyini anlayan Əşrəf gecə ikən şəhəri tərk edib Şiraza yollandı.[3] Noyabrın 16-da sakinlər tərəfindən sevinclə qarşılanan Nadir İsfahana daxil oldu. Ayın 29-da II Təhmasib də İsfahana daxil olub taxta oturdu.[4]

İsfahanı azad etdikdən az sonra Nadir Şirazda sığınacaq tapmış Əşrəfi məhv etmək üçün hərəkət etdi. Əşrəf şəhərdən qaçdı.[5] Lakin Nadirə sadiq olan Qəndəhar hakimi Hüseyn sultanın göndərdiyi dəstə Əşrəfi yaxalayıb qətlə yetirdi.[6]

Əfqanları keçmiş Səfəvi mülklərindən demək olar ki, tamamilə qovub çıxaran Nadir Şirazdan Böyük Moğol imperatoru Məhəmməd şaha elçi ilə məktub göndərərək yaxın zamanda Qəndəhar istiqamətində yürüş edəcəyini xəbər verib, əfqanlardan kimlərsə Hindistana qaçarsa, onları ora buraxmamağı xahiş etdi.[7]

Eyni zamanda Səfəvilərlə Osmanlılar arasında danışıqlar başladı. Lakin Nadir danışıqların müqavilə ilə sənədləşdirilməsini gözləməyib, 1730-cu ilin iyununda Osmanlılara qarşı geniş hərbi

---

[1] Лоуренс Локкарт.Надир-шах, с.45

[2] Mehman Süleymanov. s.167; Məhəmməd Quddusi.Göst.əsəri,s.40

[3] Süleymanov M., s.168-169

[4] Лоуренс Локкарт.Надир-щах,сс.47-48

[5] Maykl Aksvörti. Nadir şah (Tərcüməçilər: Aytən Süleymanova, Əsmər Həbibullayeva, Nazlı İbişova). İdeyanın və ön sözün müəllifi, Azərb. Nəşrinin redaktoru akad. Ramiz Mehdiyev. Bakı: Şərq-Qərb,2018,s. 209

[6] Yenə orada, s. 209-210.

[7] Maykl Aksvörti. Nadir şah, s. 210.

əməliyyatlara başladı.[1] O, Həmədanı azad etdi, daha sonra hücumu davam etdirib Ərdəlan və Kirmanşahı da tutdu. Belə olduqda Osmanlılar Nadirin nümayəndələri ilə danışıqlarını dayandırıb 24 iyul tarixində müharibəyə başladıqlarını elan etdilər.[2]

Miyanduab adlı yerdə mövqe tutmuş Osmanlı ordusuna ağır zərbə vuran Nadir Təbrizə yaxınlaşdı.[3] Təbriz və Kirmanşahın alınması ilə Səfəvi dövlətinin cənub-şərq sərhədləri bərpa olundu.

Səfəvi dövlətinin ərazi bütövlüyünü bərpa etmək üçün indi osmanlıları işğal etdikləri Cənubi Qafqazdakı və İranın qərbindəki Səfəvi mülklərindən sıxışdırıb çıxarmaq lazım idi. Əvvəlcə həmin əraziləri diplomatik yolla geri almaq üçün cəhd göstərildi. Şahın bu məqsədlə göndərdiyi Rzaqulu xan Şamlının elçiliyindən bir nəticə hasil olmasa da[4] Osmanlı hökuməti Mehmet Əfəndini iyulun əvvəlində Şahla müqavilə bağlamaq üçün göndərdi. Sonuncu Təbriz yaxınlığında Nadirlə görüşərək müqavilə layihəsini ona təqdim etdi. Nadir müqavilənin imzalanmasının Şahın iradəsindən asılı olduğunu bildirərək, eyni zamanda Təbrizdəki osmanlı qoşunlarının komandanından Təbrizi boşaltmasına dair əmr verməsini tələb etdi. Təbriz sərəskəri səhəri boşaltmağa razılaşsa da, şəhərdəki yeniçərilər buna etiraz edərək Nadirə qarşı çıxmış, lakin məğlub olmuşdular. Sərəskər özünə yaxın adamlarla Təbrizi tərk etdikdən sonra Nadir şəhərə hücum etmiş, 4 minədək yeniçəri həlak olmuş, sağ qalanlar İrəvana, oradan da Ərzuruma gedərək qiyam qaldırmışdılar.[5]

Qiyamçı yeniçərilər Təbriz Osmanlılar tərəfindən alındıqdan sonra onlara satılmış evlərin və dükanların dəyərinin ödənilməsini tələb edərək İstanbuldakı yeniçərilərə məktub göndərib müdafiə olunmalarını xahiş etdilər. Avqustun sonlarında bu barədə xəbər İstanbula çatdıqda sədrəzəm İbrahim

[1] Yenə orada, s. 211.
[2] Yenə orada.
[3] Yenə orada, s. 47-48.
[4] Mehman Süleymanov. Göst. əsəri, s.
[5] АВПРИ, ф. 89 (СРТ), оп. 1, 1730 г., д. 8, л. 39 об.

paşa Nevşehirli çox narahat oldu və dərhal yeniçərilərə pul verilməsini əmr etdi.[1] Lakin sədrəzəmdən narazı olan qüvvələr məqamdan istifadə edib İstanbulda da yeniçərilərin qiyamını təşkil etdilər. Əslən alban olan Patrona Xəlilin başçılıq etdiyi qiyam getdikcə genişlənərək sədrəzəm İbrahim paşa Nevşehirli və ona yaxın bir neçə əyanın qətli, Sultan III Əhmədin taxtdan salınması və qardaşı oğlu Mahmudun taxta çıxarlması ilə nəticələnmişdi.[2]

1730-cu il avqustun 12-də ordusu ilə Təbrizə daxil olan Nadiri yerli əhali böyük sevinclə qarşıladı.[3]

Dövlət çevrilişi nəticəsində ölkədə siyasi vəziyyət qarışdığından Osmanlı sarayı Nadirlə müharibəni davam etdirmək iqtidarında deyildi. Nadir də Məşhəddən Rzaqulu Mirzədən abdalilər arasında ara müharibəsinin başlaması, Nadirə sadiq qüvvələrin Heratdan sıxışdırılıb çıxarılması və qiyamçıların Məşhədə hücumu haqqında xəbər alıb Xorasana getməli oldu.[4]

Bu vaxt isə II Təhmasib sarsılmış nüfuzunu bərpa etmək üçün müstəqil surətdə İrəvan və Naxçıvanı azad etmək qərarına gəldi, lakin məğlubiyyətə uğradı.[5] Osmanlılar bundan istifadə edib əks-hücuma keçdilər və böyük itkilər hesabına Urmiyanı aldılar.[6] 1731-ci ilin oktyabrında Həkimoğlu Əli paşa artıq Təbrizi mühasirəyə almışdı və Şah sərkərdələrinin birinin xəyanəti sayəsində dekabr ayında Əli paşa çətinlik çəkmədən şəhəri ələ keçirdi.[7] Təbrizin təkrar geri alınması münasibətilə sultan Mahmuda "qazi" fəxri adı verildi.[8]

Şah II Təhmasib Osmanlı imperiyasından sülh sazişi bağlamağı xahiş etdi. Bu xəbəri eşidən Nadir təcili olaraq II

---

[1] Yenə orada, v. 40 və a.ü.

[2] Yenə orada, v. 51 a.ü.-52.

[3] Süleymanov M., s.188

[4] Aksvörti M. Göst. əsəri, s. 214.

[5] АВПРИ, ф.89 (СРТ), оп.1, 1731 г., д.8, л.110

[6] Yenə orada. v.405 və a.ü.; Uzunçarşılı İ.H. Göst. əsəri, s.219-221

[7] АВПРИ, ф.89 (СРТ), оп.1, 1731 г., д.8, л.405

[8] Yenə orada. v. 405 və a.ü.; İsmail Həkki Uzunçarşılı. Göst. əsəri, s.219

Təhmasibə məktub göndərib Osmanlı ilə sülh bağlamamasını, torpaq güzəştə getməməsini tələb etdi. Bu tələbə məhəl qoymayan Şahın göstərişi ilə 1732-ci il yanvarın 10-da Kirmanşah şəhərində Osmanlılarla sülh bağlandı. Müqavilənin şərtlərinə görə, İrəvan, Gəncə, Tiflis, Şamaxı şəhəri ilə birlikdə Şirvan vilayəti, habelə Dağıstan Osmanlı dövlətinin əlində qalır, Təbriz və Kirmanşah Səfəvilərə qaytarılırdı. Araz çayı iki dövlət arasında sərhəd olmalı idi.[1]

Osmanlılarla danışıqlarla eyni zamanda Xəzəryanı vilayətlərin ruslardan geri alınması üçün danışıqlar gedirdi. II Təhmasib Rusiyadan Xəzəryanı ərazilərin qaytarılmasını tələb edirdi. İrəlidə qeyd olunduğu kimi, I Pyotra nisbətən daha az iddialı olan xələfləri yeni əraziləri əldə saxlamağa bir o qədər maraqlı deyildilər və yalnız həmin ərazilərin əzəli rəqib olan Osmanlı imperiyasının əlinə keçəcəyindən ehtiyat edirdilər. İstedadlı sərkərdə Nadirin başçılığı ilə Səfəvi dövlətinin yenidən dirçəldilməsi, əfqanların İran ərazisindən qovulması, osmanlılara qarşı müharibələrdə qazanılan uğurlar Xəzəryanı əyalətlərin Osmanlı imperiyasının əlinə keçməyəcəyinə zəmanət yaradırdı. Həm də Rusiya hakim dairələri bu ərazilərə görə yenidən güclənməkdə olan Qızılbaş dövləti ilə toqquşa biləcəyindən, bu zaman isə həmin dövlətlə Osmanlı dövləti arasında yaxınlaşma baş verəcəyindən, nəticədə Rusiyanın regionda iki dövlətə qarşı mübarizə aparmalı olacağından ehtiyat edirdilər. Həm də 1730-cu ildən Rusiyada hakimiyyətdə olan birončular Avropa işlərinə daha çox diqqət ayırmaq istəyirdilər. Bütün bu səbəblərdən rus hökuməti yeni ələ keçirilmiş Xəzəryanı əraziləri özü üçün əlverişli şərtlərlə səfəvilərə qaytarmaq niyyətində idi.

Hələ, 1730-cu ilin yayında Təhmasibqulu xanın Təbrizi tutmaq, ardınca Gilana doğru hərəkət etmək niyyəti haqqında məlumat aldıqdan sonra Rusiya Xarici İşlər kollegiyası Xəzərsahili vilayətlərdəki rus qoşunlarının komandanı general Levaşova məsləhət gördü ki, Kür çayından cənuba Xəzərsahili

[1] Асиф Abduraxmanov. Göst.əsəri, s.58

əyalətləri rəsmi müqavilə bağlanmasını gözləmədən Şaha öz hakimiyyəti altına almasını təklif etsin.[1]

Şah nümayəndəsi ilə danışıqlarda general Levaşovun köməkçisi olan baron Şafırova imperatriçə Anna İoanovna tərəfindən 1730-cu ilin avqustunda verilmiş gizli təlimatda deyilirdi: "Görünür II Təhmasib qüvvə toplayır və İsfahanı artıq geri almışdır, digər yandan əldə olunan məlumatlara görə, Osmanlı imperiyası Təhmasibin qələbələrini görərək, şahla danışıq üçün hər cür vasitələr axtarır, ona görə Rusiyanın mənafeyi osmanlılardan əvvəl II Təhmasiblə müqavilə bağlamağı və Şahı Osmanlı imperiyası ilə müqavilə bağlamaqdan çəkindirməyi tələb edir".[2]

Rus hökuməti 1730-cu ilin oktyabrında İstanbuldakı nümayəndəsi İ.Neplyuyevdən Nadirin Təbriz və Xalxalı geri alması və II Təhmasibin Xəzəryanı vilayətlərə yürüşə başlamaq niyyətində olması xəbərini alan kimi Levaşova Gilan və digər Xəzəryanı ərazilərin osmanlılar tərəfindən tutulması təhlükəsi yoxdursa, Kür çayına tərəf geri çəkilməyi və osmanlılar Xəzər dənizinə yaxın ərazilərdən qəti sıxışdırılana qədər orada qalmağı əmr etdi. Sonra o, qoşunlarla Bakıya çəkilməli, ancaq Kür çayının sahilini nəzarətdə saxlamalı idi.[3]

1731-ci ilin ortalarında Osmanlı-Səfəvi müharibəsində üstünlüyün yenidən osmanlıların əlinə keçməsindən xəbər tutan Rusiya hökuməti Levaşov və Şafırova Gilanın şaha verilməsini qızılbaş qüvvələrinin osmanlıları səfəvilərin ərazilərindən sıxışdırıb çıxarana kimi yubatmağı əmr etdi.[4]

Yalnız bir müddət keçəndən, Osmanlı-Səfəvi müqaviləsinin hazırlanması xəbərini alandan sonra, Səfəvilərin Osmanlı imperiyası ilə Rusiyaya qarşı birləşməsindən ehtiyat edən Peterburq sarayı Şahla razılığa gəlməyə tələsdi. 1732-ci il fevralın 10-da (Yulian təqvimi ilə yanvarın 31-də) Rəştdə 8 maddədən

---

1 АВПРИ,ф.77(СРП), оп.1,1730 г., д.5,л.14 и об.

[2] АВПРИ, ф.77 (СРП), оп.1, 1730-1733 гг., д.10, лл. 23-24.

[3]Yenə orada,v.227.

[4] АВПРИ, ф.77 (СРП), оп.1, 1730-1733 гг., д.10, л.237.

ibarət müqavilə bağlandı. Müqavilənin birinci bəndində deyilirdi ki, Rusiya imperatriçəsi müqavilənin bağlanması və mətnlərin mübadiləsindən bir ay sonra, ratifikasiyanı gözləmədən, Şahın nümayəndəsi Məhəmməd İbrahimə Səfidrud çayı üzrə Lahican, Ranəkuq mahallarının təhvil verilməsini öz öhdəsinə götürür. Gilan, Astara və habelə Kür çayından cənubdakı digər torpaqları Rusiya ratifikasiyadan 5 ay sonra Şaha verməyi öz öhdəsinə götürürdü. İkinci maddədə deyilirdi ki, Səfəvi dövləti 20-ci illərdə Osmanlı imperiyasının tutduğu torpaqları geri alandan sonra Rusiya Kür çayından şimalda yerləşən keçmiş Səfəvi ərazilərindən öz qoşunlarını geri çəkəcəkdir. Bunun əvəzində Şah Rusiya ilə əbədi dost olacağına, "onun düşmənlərini öz düşmənləri sayacağına" söz verirdi.[1]

Ərazilərin döyüşsüz qaytarılmasına minnətdarlıq əlaməti olaraq Şah rus tacirlərinə dövlətin hər yerində gömrüksüz ticarət hüququ verirdi (Səfəvi tacirləri isə Rusiya ərazisində 5 faiz gömrük verməli idilər).[2] Şah eyni zamanda rus tacirlərinin gömrük vermədən İrandan keçərək Hindistana getməsinə razı oldu. Müqaviləyə əsasən, rus təbəələrinə həmçinin İran dövlətinin hər yerində özləri üçün ev, karvansara və dükan tikməyə icazə verilirdi. Müqavilənin yeddinci maddəsində deyilirdi ki, vaxtilə Rusiya təbəəliyini qəbul edən yerlilərə heç bir təzyiq göstərilməyəcəkdir.

Rəşt müqaviləsi bağlandıqdan sonra II Təhmasib müqavilənin təsdiqlənmiş nüsxəsini Mirzə Kazımla Rusiyaya göndərmişdi.[3]

Haşiyə çıxaq ki, Nadir ruslara bir qədər şübhə ilə yanaşırdı və Şah Təhmasibə ruslarla müqavilə bağlamağı məsləhət görməmişdi: "Ruslar kimdir ki, mənə əmr versinlər, gedib onların hamısını məhv edəcəyəm". Şah Nadirə təpinərək siyasi işlərə

[1] Договоры России с Востоком. Политические и торговые, с.13-19
[2] Yenə orada.
[3] АВПРИ, ф.77 (СРП), оп.5, (1734-1781 гг.), д.5 (выписки по персидским делам), л. 3.

qarışmamasını əmr edibmiş.[1]

Əfqanlara qalib gəlib Heratı alan Nadir Məşhədə qayıdıb Osmanlılarla bağladığı sülh müqaviləsini etibarsız elan etdi və Osmanlılarla yeni müharibəyə hazırlaşmağa başladı. Eyni zamanda Nadir II Təhmasibdən tələb etdi ki, onu vəkil elan edib bir neçə illiyə dövlətin bütün idarəçiliyini ona tapşırsın. Nadir vəd edirdi ki, osmanlıları dövlət ərazisindən bütünlüklə çıxardıqdan sonra səlahiyyətləri yenidən Şaha qaytaracaq.[2] Görünür Şah bu tələblərlə razılaşmamış, buna görə də Nadir onu taxtdan salmışdı. O, 1732-ci il avqustun 22-də (sentyabrın l) II Təhmasibin 8 aylıq (bəzi qaynaqlara görə 3 aylıq) oğlu Abbas Mirzəni III Abbas adı ilə şah, özünü isə onun vəkili elan etdi[3] və faktiki olaraq dövlətin tam səlahiyyətli hökmdarı oldu.

II Təhmasiblə Osmanlı komandanlığı arasında bağlanmış 1732-ci il müqaviləsini ləğv edən Nadir 1723-cü ildən bəri işğal etdiyi bütün torpaqları qaytarmağı Osmanlı dövlətindən təkidlə tələb etdi. Osmanlıların bu tələbi yerinə yetirməkdən imtina etməsi qızılbaş qoşunlarının iri miqyaslı hərbi əməliyyatlara başlamasına səbəb oldu. Nadirin güclü zərbələrinə tab gətirməyən Osmanlı komandanlığı sülh təklif etdi. 1733-cü ilin fevralında Bağdad şəhərində Nadir və Bağdad hakimi Əhməd paşa arasında hərbi əməliyyatları dayandırmaq haqqında müqavilə imzalandı. Bağdad müqaviləsinin şərtlərinə görə, Osmanlı tərəfi, son on ildə işğal etdiyi bütün torpaqları Şahlıq səltənətinə qaytarmağı öhdəsinə götürürdü. Müqavilədə iki dövlət arasındakı sərhədi 1639-cu il Osmanlı-Səfəvi müqaviləsinə uyğun müəyyənləşdirmək nəzərdə tutulurdu. [4] Lakin Osmanlı hökuməti müqaviləni təsdiq etməkdən boyun qaçırdığından iki dövlət arasında döyüşlər yenidən başlandı.

Hərbi əməliyyatlar yenidən başlanmazdan əvvəl bir müddət

---

[1] Mikael Aksvörti. Göst. əsəri, s. 172.

[2] АВПРИ, ф.77 (СРП), оп.1, 1732 г., д.7, лл. 76 и об.

[3] АВПРИ, ф.77 (СРП), оп.1, 1732 г., д.5, л.54, 248; P.Q.Butkova görə o zaman uşaq 8 aylıq idi. Петр Бутков. ч.1, с.114

[4] Yaqub Mahmudov, Kərim Şükürov. Göst. əsəri, s.181

sülh danışıqları aparıldı. Osmanlı sarayının nümayəndəsi Qazi Əbdülkərim Əfəndi İsfahana Nadirin yanına gəlib sülh danışıqlarını bərpa etməyi təklif etdi. Osmanlı hökuməti danışıqları aparmağı mənzil qərargahı Diyarbəkirdə olan Abdulla paşa Körpülüyə həvalə etmişdi. Lakin, Osmanlı sarayının Nadirin bütün tələblərini yerinə yetirmək niyyətində olmadığı və sadəcə vaxtı uzatdığı məlum oldu. Bununla belə ordusunun qüvvəsini bərpa etmək üçün fasiləyə ehtiyac duyan Nadir nümayəndəsini Abdulla paşanın yanına yolladı. Eyni zamanda Abdulla paşaya Araz çayından şimaldakı Səfəvi ərazilərini geri qaytarmağa razılaşmasını, yaxud da qonaq qəbul etməyə hazır olmasını məsləhət gördü, yəni Nadir özü bu ərazilərə gələcəkdir.[1]

Sultan I Mahmud keçmiş vəzir Topal Osman paşanı Osmanlı ordusunun yeni baş komandanı təyin edərək 80 minlik ordu ilə Nadirə qarşı göndərdi. Topal Osman paşanın ordusu Samirə şəhərinə gəlib çatanda Nadir əsgərlərinin 12 min nəfərlik hissəsini Bağdadı mühasirə üçün saxlayıb, özü 70 minlik ordu ilə Topal Osmana qarşı çıxdı. Osmanlı ordusu çox əlverişli mövqe tutmuşdu.[2]

İyulun 19-da səhər saat 8-də tərəflər arasında qanlı döyüş başladı. Döyüşün əvvəlində üstünlük Nadirin tərəfində olsa da, osmanlı əsgərlərindən biri Nadirin atını güllə ilə başından yaraladı. At Nadiri yerə bərk çırpdığından döyüşçüləri onun öldüyünü zənn edib vahimə içində nizamsız şəkildə döyüş meydanından çəkilməyə başladılar. Vəziyyətin tamamilə ümidsiz olduğunu görən Nadir ordunun geri çəkilməsi əmrini verdi. Tarixi ədəbiyyatda olan məlumatlara görə, həmin gün Nadir 30 min döyüşçü itirmiş, 3 min döyüşçüsü isə əsir alınmışdı. Osmanlı tərəfinin itkisi 20 min nəfər təşkil edirdi.[3]

Nadirin məğlub olması xəbərini eşidən Əhməd paşa Bağdad

---

[1] Lawrence Lockhart. Nadir shah. A critical study based mainly upon contemporary sources. London, 1938, p.59; Mehman Süleymanov. Göst. əsəri, s. 256.

[2] Maykl Aksvörti. Göst. əsəri, s. 229.

[3] Maykl Aksvörti. p. 230-231.

şəhərini mühasirədə saxlayan qızılbaşlara qəfil hücum etdi və mühasirəyə son qoyuldu.[1]

Osmanlılardan uzaq, təhlükəsiz bir yerə çəkilib ordusunun qüvvələrini bərpa edən Nadir 1733-cü il oktyabrın 2-də, Həmədandan çıxaraq Kərkükə doğru irəlilədi. Oktyabrın 24-də tərəflər arasında baş vermiş qızğın döyüşdə Nadirin ordusu qalib gəldi. Döyüşün gedişində osmanlıların sərkərdəsi Topal Osman paşa həlak oldu. Bundan sonra nizamsız şəkildə geri çəkilən Osmanlı əsgərləri 20 min nəfərdən çox itki vermişdilər.[2]

Təbrizi yenidən ələ keçirən Nadir burada kiçik bir qarnizon qoyub Bağdada tərəf hərəkət etdi. Bağdadlı Əhməd paşa yenidən barış təklif etdi. 1733-cü il dekabrın 19-da tərəflər arasında barışıq imzalandı. Osmanlılar 1723-cü ildən sonra ələ keçirdikləri bütün əraziləri geri verməyə razılaşdılar. Səfəvi təbəəsi olan zəvvarlara Osmanlı ərazisindən istifadə etməklə Məkkəyə getmələrinə icazə verildi.[3]

Lakin elə bu zaman Xuzistanda üsyanın başlaması xəbərini alan Nadir ora hərəkət etməyə məcbur oldu. Osmanlı hökuməti vəziyyətdən istifadə edib Əhməd paşanın imzaladığı yeni müqaviləni də təsdiqləmədi.[4] Bununla belə, tezliklə Nadirin ordusuna müqavimət göstərməyin mənasız olduğunu anlayan Osmanlı hökuməti Cənubi Azərbaycan ərazisində hərbi əməliyyatları dayandırmaq qərarına gəldi.[5]

Demək olar ki, Azərbaycanın bütün cənub hissəsini Osmanlı ordusundan təmizləyən Nadir 1734-cü ildə nəzərlərini Cənubi Qafqaza, ilk növbədə isə, Şirvana yönəltdi. Nadirin ordusunun yaxınlaşdığını eşidən qazıqumuqlu Surxay xan Şamaxını tərk edib Dağıstana çəkildi. İki aylıq mühasirədən sonra avqustun ortalarında Nadirin qoşunları şəhərə daxil oldular.[6]

---

[1] Yenə orada, s.231.

[2].234-235.

[3] Yenə orada, s. 235.

[4] Yenə orada, s. 235-236.

[5] Фуад Алиев.., Антииранские.., с. 106-107

[6] Yenə orada, s.108-109

Şamaxını ələ keçirdikdən sonra Nadir əhalinin gələcəkdə gözlənilən müqavimətini qırmaq üçün şəhəri dağıtmağı, onun sakinlərini isə sonralar "Yeni Şamaxı" adı ilə şəhərə çevrilən Ağsuya köçürməyi əmr etdi.[1]

Şamaxını alandan sonra qızılbaş ordusu Surxay xanın sığındığı Qazıqumuğa doğru hərəkət etdi. 1734-cü il sentyabrın 17-də Qəbələ ilə Şamaxı arasında Dəvəbatan adlı yerdə Surxay xanın və ona yardım edən Osmanlı və Krım xanının qüvvələri ilə Nadirin ordusu arasında baş verən döyüşdə Surxay xan məğlub olub[2] Qazıqumuğa, onun müttəfiqi olan osmanlılar və Krım tatarları isə Gəncəyə qaçdılar. Nadir xan Surxayın arxasınca Qazıqumuğa yönəldi və Qumuq şəhəri yaxınlığında onu məğlubiyyətə uğratdı.[3] Sonuncu Avarıstana qaçdı. Dağıstanın dərinliklərinə getməyən Nadir Gəncəyə doğru hərəkət etdi. Əli Paşa və Krım sultanının başçılıq etdiyi osmanlılardan və Krım tatarlarından ibarət olan Gəncə qarnizonu ciddi müqavimət göstərirdi. Mühasirə 4 ay davam etdi.

Nadirin Osmanlı ordusu üzərində qələbələrini görən rus hökuməti Bakı, Dərbənd şəhərlərini və digər Xəzərsahili əraziləri də Şahlıq səltənətinə qaytarmaq qərarına gəldi. Nadirin yanına göndərilən elçi S.Qolitsinə verilmiş 29 oktyabr 1734-cü il tarixli fərmanda adları çəkilən ərazilərin qaytarılması labüd sayılır, lakin əvvəlcə Nadirin Rəşt müqaviləsinin şərtlərini təsdiq etməsini, yəni Xəzəryanı vilayətlərin digər dövlətə verilməyəcəyi, Rusiyanın düşməninin onun düşməni kimi qəbul edəcəyi barədə təəhhüd götürməsini məsləhət görülürdü.[4]

Elə bu zaman Osmanlı sərkərdəsi Abdulla paşanın böyük ordu ilə Gəncədəki Osmanlı qarnizonunun yardımına gəlməkdə olduğu xəbərindən təşvişə düşən rus hökuməti osmanlıların

---

[1] Yenə orada, s.109, 112.

[2] Надирпаша Сотавов. Крах «Грозы вселенной» в Дагестане. Махачкала, 2013, с. 139.

[3] Yenə orada,s. 156-157.

[4] АВПРИ, ф.77 (СРП), оп.1, 1735 г., д.13, л. 58 и об.

Cənubi Qafqazdan çıxarılması barədə əvvəllər irəli sürdüyü şərti götürüb Bakı və Dərbəndi Nadirə verməyə razılaşdı. S.Qolitsinə tapşırıldı ki, Nadirə Rusiyanın bütün Xəzəryanı əyalətləri qaytarmağa razı olduğu bildirilsin, bu şərtlə ki, əvvəla, Nadir rus qoşunlarının çıxarılmasına heç bir maneçilik törətməyəcəyinə, ikincisi, bu vilayətlərin digər dövlətin əlinə düşməsinə imkan verməyəcəyinə, üçüncüsü, bütün Səfəvi ərazilərini Osmanlılardan geri alacağına söz versin.[1] Bu göstərişə əməl edən S.Qolitsin Nadirə imperatriçənin onun osmanlıları Cənubi Qafqazdan tamamilə sıxışdırıb çıxaracağına əmin olduğunu və buna görə də 1722-ci ildən sonra Rusiyanın ələ keçirdiyi bütün əraziləri qaytarmağa hazır olduğunu bildirdi; bu şərtlə ki, Nadir həmin əraziləri heç vaxt Osmanlılara verməyəcəyi barədə öhdəlik götürsün və Rusiyanın düşmənlərinə öz düşmənləri kimi yanaşsın.

Nadir xan 1735-ci il fevralın 2-də Anna İoannovnaya göndərdiyi məktubda, onun elçisi Əhməd xan Tüfəngçinin Rusiya paytaxtına və oradan geriyə göndərilməsinə görə təşəkkürünü ifadə edərək Hüseyn Xatəmi adlı yeni elçini göndərdiyini bildirirdi. Xatəmi hələ də Rusiyanın əlində qalan üç Xəzəryanı bölgənin geri qaytarılmasını tələb edirdi.[2]

Nadir xan Gəncənin alınmasında rus hərbçilərinin ona yardım göstərməsini istəmişdi. Bu məsələ ilə bağlı Anna İoannovna 19 fevral 1735-ci il tarixdə fövqəladə elçi S.Qolitsinə verdiyi buyruqda indi Osmanlıları Rusiyaya qarşı qaldırmamaq üçün vəkil Nadir Əli xanın bu tələbini yerinə yetirməyin məqsədəuyğun olmadığını bildirirdi. Buyruqdan aydın olur ki, S.Qolitsin Nadirin Sulak çayı sahilindəki "Müqəddəs Xaç" (Svyatoy Krest) qalasının ona verilməsini tələb edəcəyini güman edirmiş. Qolitsin belə olan təqdirdə hökumətdən necə hərəkət edəcəyinə dair təlimat istəmişdi. Bununla əlaqədar olaraq A.İoannovna əlverişsiz mövqeyinə görə həmin qalanı əldə

---

[1] Yenə orada.

[2] АВПРИ, ф.77 (СРП), оп.1, 1735 г., д.1, л. 2 и об.

saxlamağın qeyri-mümkün olduğunu, buna görə də onu dağıtmaq lazım gəldiyini bildirirdi.[1]

Nadir həm də əsgərlərini Astrabad əyalətinə daşımaq üçün gəmilər və gəmi ustaları istəyibmiş. İmperatriçə bununla bağlı Nadirə gəmilər və ustaların olmadığını, olan gəmilərə isə rusların ehtiyacı olduğunu demək lazım gəldiyini yazırdı.[2]

Buyruqdan həm də Gilandakı rus rezidenti S.Avramovun öldüyü məlum olur. Buna görə də imperatriçə Qolitsinə general V.Levaşovla birlikdə İranda olan rus diplomatlarından iki nəfəri seçmələrini əmr edirdi ki, birinə rezident vəzifəsini, digərinə isə konsul vəzifəsini tapşırmaq olsun.[3]

1735-ci il martın 3 (14)-də S.Qolitsin ilə Nadirin birinci vəziri Xüləfa Mirzə Kafi arasında iki dövlət arasında müqavilənin bağlanması üzrə görüşdə Qolitsin tərtib etdiyi müqavilə layihəsini müzakirəyə çıxarmışdı. Layihənin birinci bəndi oxunan zaman Xüləfa bildirmişdi ki, əvvəla, Bakı və Dərbənd şəhərlərinin təhvil verilməsi üçün qısa müddət qoyulmalıdır. İkincisi, maddədə qədimdən Səfəvilərin torpağı olan Dağıstanla bağlı, eləcə də həmişə şahların hakimiyyəti altında olan şamxal, usmi və digər Dağıstan hakimləri ilə bağlı heç nə deyilmir. Birinci maddədə göstərmək lazımdır ki, Bakı və Dərbənd şəhərləri ilə yanaşı, bütün dağlı hakimləri, bir sözlə qədim sərhədləri ilə Şirvan və bütün Dağıstan Şahlıq səltənətinə qaytarılır.[4] Qolitsin Xüləfanın iradı ilə bağlı demişdi:"Əlbəttə adları çəkilən şəhərlərin qaytarılması üçün qısa, lakin icrası mümkün olan müddət müəyyənləşdirilməlidir. Xəzəryanı vilayətlər Rusiyanın əlində olduğu müddətdə buraya xeyli miqdarda ağır silah-sursat gətirilib toplanmışdır. İndi qısa müddətdə onları Rusiyaya daşımaq çətindir. Dağıstan haqqında, şamxal, usmi və digər dağlı hakimləri ilə bağlı irada gəldikdə isə, onları Rusiya Şahlıq

[1]АВПРИ, ф.77 (СРП), оп.1, 1735 г., д.1, 6-7.

[2] Yenə orada, v. 7 a.ü.

[3] Yenə orada, v. 8.

[4] АВПРИ, ф.77 (СРП), оп.1, 1735 г., д.13, лл. 15-16.

səltənətindən zorla almamışdır. Rusiya qoşunları bu diyarlara daxil olduqda vilayətlərin sakinləri özləri könüllü olaraq Rusiya himayəsini qəbul etmişlər. Buna görə də onlarla bağlı maddədə şərh verməyə ehtiyac yoxdur, çünki Bakı və Dərbəndin qaytarılması ilə bağlı aydındır ki, onlar Şahlıq səltənətinin hakimiyyəti altında olmalıdırlar. Xüləfanın iki ölkə arasındakı sərhədlərin dəqiq göstərilməsi təklifinə gəlincə isə, Qolitsində onların keçmişdə hansı şəkildə olması haqqında məlumat yoxdur, buna görə də bu haqda müqavilədə bəhs etmək olmaz”.[1]

Martın 6-da Xüləfa ilə Qolitsin arasında ikinci görüşdə Xüləfa yenə də şəhərlərin qaytarılmasından bəhs edərkən sərhədin əvvəllərdə olduğu kimi Terek çayına çatması barədə qeydin olmasını tələb etmişdi. Qolitsin yenə də sərhəd barədə aydın təsəvvürünün olmadığını əsas gətirərək bu tələbi qəbul etmədi. Xüləfa isə bildirdi ki, bu məsələ ilə bağlı mübahisə etməyə lüzum yoxdur, çünki hər şey aydındır. Hamıya məlumdur ki, əvvəllər sərhəd Terekə qədər və indi Sulak qalasının (söhbət Müqəddəs Xaç qalasından gedir) salındığı yerdə olmuşdur. Qalanın inşa olunduğu ərazi isə şamxalın otlaq yeri olmuşdur. İmperatriçə həzrətləri də Nadir xana yazaraq əvvəllər Şahlıq səltənətinə məxsus olan bütün yerlərin geri verilməsini əmr etmişdir.[2]

Qolitsin mövqeyindən geri çəkilməyərək hal-hazırda iki dövlət arasında sərhədin müəyyənləşdirilməsində çətinlik heç də rus tərəfinin əvvəllər Şahlıq səltənətinə məxsus olmuş hər hansı yeri özündə saxlamaq istəyindən dogmadığını, səbəbin sərhəd haqqında aydın təsəvvürün olmaması ilə bağlı olduğunu bildirmişdi. Həm də ola bilər ki, Xüləfanın təsəvvür etdiyi sərhəd hansısa müqavilə ilə dəyişdirilmişdir. Ola da bilər ki, Dağıstanda hansısa yer dağlılar tərəfindən rus kazaklarından zorla alınmışdır və ya əksinə kazaklar onu zorla dağlı hakimlərindən almışlar.[3]

---

[1] Yenə orada, v. 16-17.

[2] Yenə orada,v. 18.

[3] АВПРИ, ф.77 (СРП), оп.1, 1735 г., д.13, лл. 18 об. -19.

Nəhayət, gərgin danışıqlardan sonra 1735-ci il martın 10(21)-da Qolitsinlə Xüləfa müqaviləni imzaladılar. Bizcə müqavilənin imzalanması üçün məhz həmin günün seçilməsi təsadüfi deyildi, yəqin ki, həmin gün Novruz bayramına təsadüf etdiyindən Nadir xan bir növ Novruz bayramı təntənəsinə töhfə vermək istəmişdi.

Qolitsin Nadirin Gəncə ətrafındakı düşərgəsindən 15(26) mart tarixli məruzatında yazırdı: "…Martın 10-da əbədi ittifaq haqqında məlum traktat imzalanmış və nüsxələri mübadilə olunmuşdur… mənim xüsusi səylərim sayəsində müqavilədə Svyatoy Krest qalası haqqında heç nə salınmasa da… Təhməs (Təhmasibqulu xan) düşünür ki, bu yer əvvəlki tək o tərəfdə qalır və müqavilə mətnləri mübadilə olunarkən o, özü şifahi şəkildə mənə dedi ki, Sulakın Şahlıq səltənəti tərəfində qaldığına şübhə etmir".[1]

Müqaviləyə görə, Rusiya Astrabad, Mazandaran (bu vilayətləri Rusiya heç vaxt tutmamışdı – T.M.), Gilan vilayətlərini, Şirvanın bir hissəsini və Dağıstanın Şamxal və Usmiyə məxsus olan mülklərini Səfəvilərə qaytarmalı idi.[2]

Müqavilə bağlandıqdan 2 həftə sonra Bakı, 2 ay sonra isə Dərbənd təhvil verilməli idi. Bundan əlavə, hər iki dövlət bir-birindən xəbərsiz Osmanlı dövləti ilə danışıqlar aparmamağı öhdələrinə götürdülər. Nadir Rusiyanın müttəfiqi olmağı, Bakı və Dərbəndi üçüncü dövlətə verməməyi öhdəsinə götürdü.

28 mart 1735-ci il tarixli relyasiyasında (məruzatında) S.Qolitsin müqaviləyə Dağıstan, şamxal, usmi və digər dağlı hakimlərinin adlarının salınmasına qarşı tərəfin güclü təzyiqi qarşısında razılaşdığını yazırdı.[3] Qolitsinin həmin məruzatından bu da aydınlaşır ki, rus tərəfi yalnız Nadirin Rusiyanın düşmənini öz düşməni sayıb onunla müharibə aparmaq barədə təəhhüd götürməsini istəyirmiş. Lakin Nadir bunu qəbul etməmiş,

---

[1] Yenə orada, v. 13.

[2] Договоры России с Востоком. Политические и торговые. с. 110.

[3] АВПРИ, ф.77 (СРП), оп.1, 1735 г., д.13, л. 27.

nəticədə hər iki tərəfin belə öhdəlik götürməsi razılaşdırılmışdı.[1]

Rus hökuməti Nadirin nəinki Gəncə, İrəvan və Tiflis şəhərlərini, eləcə də Ərzurumu geri alana qədər müharibəni davam etdirəcəyi barədə təəhhüd götürməsinə çalışırdı. Lakin Qolitsin anlamışdı ki, müqaviləyə Ərzurumun alınması ifadəsini salmaqda təkid etsə, bu Nadirdə rusların onu osmanlılarla barışmaz düşmənçiliyə təhrik etməsi haqqında şübhə yarada bilər. Buna görə də Qolitsin müqavilədə bunun üstüörtülü şəkildə ifadə edilməsinə nail olmuşdu. Belə ki, 2-ci maddədə deyilirdi ki, Nadir nəinki indiki dövrdə, eləcə də əvvəlki dövrlərdə Şahlıq səltənətindən qoparılmış bütün yerləri geri almağı öhdəsinə götürür.[2]

Qolitsinin yazdığına görə, Nadir 1732-ci il Rəşt müqaviləsinin rus tacirlərinə Şahlıq səltənətində gömrüksüz ticarət etmələrinə icazə verən maddəsinin saxlanmasını istəmir, Şahlıq səltənəti tacirlərinə də Rusiyada gömrüksüz ticarət hüququnun verilməsini tələb edirdi. Qolitsin buna etiraz edərək, rus tacirlərinə bu hüququn böyük illik gəliri olan Gilan və digər əyalətlərin qaytarılması müqabilində verildiyini bildirmişdi. Lakin qarşı tərəfin israrını görən Qolitsin güzəştə gedərək müqavilənin beşinci maddəsinə belə bir ifadənin salınmasına razılaşmışdı ki, Şahlıq dövləti tacirlərinə Rusiyada dost ölkələrin tacirlərinə göstərilən münasibət sərginlənəcəkdir.[3]

Beləliklə, giriş və 7 maddədən ibarət Gəncə müqaviləsinin giriş hissəsində deyilirdi ki, Rəşt müqaviləsində Şahlıq səltənəti bütün ərazilərini düşmənlərdən azad edənədək Bakı və Dərbənd şəhərlərinin Rusiyanın əlində qalması nəzərdə tutulsa da, Rusiya hökmdarı xeyirxah münasibətini nümayiş etdirərək bu şəhərləri və ətraf məntəqələrini vaxtından əvvəl geri qaytarır.

Müqavilə imzalanandan sonrakı Bakı və ətrafı iki həftə ərzində, Dərbənd şəhəri isə 2 ay müddətində boşaldılır. Dağıstan,

[1] Yenə orada,v. 28 об.-30.
[2] Yenə orada, v. 29 a.ü.
[3] Yenə orada, v. 30 a.ü.

şamxala və usmiyə məxsus digər yerlər qədimdən olduğu kimi Şahlıq səltənətinin tərkibində olacaqdır.[1]

Birinci maddədə yazılmışdır ki, Rusiyanın bu xeyirxah hərəkətinə görə Şahlıq səltənəti əbədi olaraq Rusiya ilə dostluq və ittifaqda olmağı, Rusiyanın dostlarını dost kimi, düşmənlərini isə düşmən kimi qəbul etməyi vəd edir. Kimsə bu yüksək tərəflərin birisinə qarşı müharibəyə başlarsa, digər tərəf hökmən müttəfiqinə yardım göstərməlidir. Bakı və Dərbənd şəhərləri heç bir vəchlə digər dövlətin əlinə keçə bilməz. Bu şəhərlərin Rusiyaya xidmət göstərmiş sakinləri, buna görə heç bir təqibə məruz qala bilməzlər.[2]

İkinci maddəyə görə, Nadir Osmanlı dövlətinə qarşı müharibəni nəinki bu yaxınlarda, eləcə də keçmişdə Şahlıq səltənətindən qoparılmış bütün əraziləri geri alana kimi davam etdirməli idi.[3]

Tərəflər (III maddə) Osmanlılarla heç bir danışığa getməməyə söz verirdilər. Əgər buna ehtiyac yaranarsa və danışıqlar başlardısa, şahlıq hökuməti danışıqlara Rusiyanı da cəlb etməyi öhdəsinə götürürdü. Əgər nə vaxtsa Rusiya ilə Osmanlı imperiyası arasında sülh müqaviləsi bağlanması məsələsi qalxarsa, Şahlıq dövləti də sülh danışıqlarına cəlb olunmalı idi.[4]

Gəncə müqaviləsinin beşinci maddəsində 1732-ci il Rəşt müqaviləsi ilə rus tacirlərinə tanınmış hüquq və imtiyazlar təsdiq olunurdu. Eyni zamanda Şahlıq səltənətindən Rusiyaya gedəcək tacirlərə dost ölkələrin tacirləri kimi rəftar olunması vəd edilirdi.[5]

---

[1] Договоры России с Востоком, с. 204; Azərbaycan və beynəlxalq münasibətlər tarixi, s. 206-207.

[2] Azərbaycan: beynəlxalq münasibətlər…, s. 207;Советско-иранские отношения в договорах..,с21

[3] Azərbaycan: beynəlxalq münasibətlər.., s. 207-208;Советско-иранские отношения в договорах..,с.22

[4] Договоры… , с. 213; Советско-Иранское отношения в договорах.., с.22-23 ; Azərbaycan beynəlxalq…, s. 208.

[5] Договоры… , с. 214; Советско-Иранские.., с. 22-23; Azərbaycan beynəlxalq…, s. 208-209.

6-cı maddədə Rusiyada olan Səfəvi vətəndaşlarının və Şahlıq dövlətində olan Rusiya vətəndaşlarının ölkələrinə dönməsinə şərait yaradılması nəzərdə tutulurdu.[1]

Rusiya Bakı və Dərbəndi razılaşdırılmış müddətdə təhvil verdi və üstəlik müqavilədə göstərilməsə də Svyatoy Krest qalasından əl çəkib onu dağıtdı.[2]

Qeyd edək ki, Gəncə müqaviləsi imzalanandan cəmi 10 gün sonra Nadir xan Xüləfanı aşağıdakı təkliflə Qolitsinin yanına göndərmişdi: indi iki monarxiya sıx ittifaqda olduğundan Nadir ümumi düşmənə qarşı müharibəni davam etdirməlidir. Bu səbəbdən də Osmanlı hökuməti Gəncə, İrəvan və Tiflisi qaytarmaq şərti ilə sülh müqaviləsi bağlamağa razılaşsa da, Nadir Gəncə müqaviləsinə uyğun olaraq osmanlılara Rusiyanı da sülh danışıqlarına cəlb etməyi təklif etmişdir. Ancaq osmanlılar bununla razılaşmamışdılar.[3] Əgər Nadir yaxınlıqda olan Abdulla paşanın ordusuna qalib gələrsə, müharibəni artıq Osmanlı hüdudlarında davam etdirəcəkdi və İstanbulun özünə qədər irəliləmək fikrində idi. Bu səbəbdən də o, Osmanlı imperiyasına qarşı birgə hərəkətlər haqqında saziş bağlamaq üçün rus sarayına elçilik göndərmək istəyirdi. Rusiya Qara dəniz tərəfdən, Nadir xan isə qurudan hərəkət etməlidirlər. Qolitsin asessor Tevkelov vasitəsi ilə rus hökumətinin hansı əməliyyatları apara biləcəyini öyrənməlidir. Qolitsin Nadirin Rusiyaya yeni elçilik göndərmək istəyini təqdir etmiş, ancaq indi Qara dənizdə rus gəmiləri olmadığını, həm də bu dənizə Osmanlı dövlətinin sahib olduğunu əlavə etmişdi.[4] Ertəsi gün Xüləfa yenə Qolitsinlə görüşüb vəkilin onun Rusiyaya elçilik göndərməsinə rusların razılıq verməsini məmnunluqla qarşıladığını demişdi. Nadir xan İstanbula kimi getmək əzmindədir, lakin ora quru yolla gedib çatmaq mümkün deyil, Qara dənizdə isə gəmiləri yoxdur. Üsküdara çatdığı zaman

---

[1] Договоры… , с. 214; Советско-Иранские.., с. 23; Azərbaycan beynəlxalq…, s. 209.

[2] Laurence Lokhart. Göst. əsəri, s.106

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1735 г., д. 24, л. 3.

[4] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1735 г., д. 24, л. 3 об.

boğazı keçmək üçün rusların ona gəmilər verməsini istəyir. Martın 28 (1735-ci il aprelin 8)-də, Tevkelov Rusiyaya yola salınan gün Xüləfa gələrək yenə Nadir xanın rusların gəmilərlə ona yardım edib-etməyəcəkləri barədə fikirlərini açıq bildirmələrini istədiyini dedi. Bu barədə aydın cavab alandan sonra Nadir Rusiyaya yeni elçilik göndərəcəkdir.[1]

Maraqlıdır ki, Anna İoannovna 1735-ci il 7 iyun tarixində Nadir xana türk dilində fərman göndərmişdi.[2] Fərmanda iki dövlət arasında müqavilə imzalanmasından məmnunluq ifadə olunurdu. Bu fərmanın türkcə yazılması belə güman etməyə imkan verir ki, Nadir də bəzən rus sarayına türk dilində fərman göndərirmiş.

Gəncənin mühasirəsi davam etdiyi bir vaxtda Sultan Gəncə qarnizonunun yardımına Abdulla paşanın başçılığı ilə bir ordu göndərdi. Bunu eşidən Nadir xan Gəncənin ətrafında müəyyən qüvvə saxlayaraq Abdulla paşanın qarşısına yönəldi. Abdulla paşanın qoşunlarının sayı 80 min nəfərdən çox, Nadirin qoşunlarının sayı isə 40-55 min nəfər arasında idi.[3] Qüvvələr nisbətinin onun zərərinə olmasına baxmayaraq Nadir iyulun 19-da Üçkilsə yanında baş verən döyüşdə parlaq qələbə qazandı.[4] Çoxlu osmanlı döyüşçüsü, o cümlədən sərəskər Abdulla Köprülü paşanın özü, daha dörd ikinci dərəcəli paşa həlak oldu.[5]

Abdulla paşanın ordusunun sarsıdıcı məğlubiyyətə uğraması xəbəri sultan sarayında böyük məyusluğa səbəb oldu. Hətta sədrəzəm Əli paşa vəzifəsindən azad edildi. Bağdadlı Əhməd paşa Şərq cəbhəsindəki qoşunların sərəskəri (komandanı) təyin olundu.[6] Sultan hökuməti Nadirə qarşı vuruşan orduya kömək üçün Krım qüvvələrini göndərmək niyyətində idi. Krımlılar Rusiyanın Xəzərsahili ərazilərindən keçib getməli idilər ki, bu da

---

[1] Yenə orada, l. 4 a.ü.-5.
[2] АВПРИ. ф. 77 (СРП), оп. 1, 1735 г., д. 1, л. 10.
[3]Laurence Lokkart.Nadir shah,p.l06
[4] РГВИА, ф.20,оп.1,д.2, л.299 и об.
[5] РГВИА, ф.20,оп.1,д.2, л.299 и об
[6] РГВИА,Ф.20,оп.1,д.2,л.300

rus hökumətini çox narahat etmişdi. Mərkəzdən general Veysbaxa verilən əmrdə Krım qoşunlarının keçidinə mane olmaq üçün hazır olması tapşırılırdı.[1]

Nadir irəliləyib Qarsı mühasirəyə aldı. Qars qarnizonunu xaricdən ərzaq almaq ümidindən məhrum etmək məqsədi ilə Ərzurum və Çıldır istiqamətində güclü dəstələr göndərildi. Ancaq qala kifayət qədər ərzaqla təmin olunduğundan Nadirə burada uzun müddət qalmaq lazım gəlirdi. Nadir qarnizonu təslim etməyə məcbur etmək üçün şəhərin ortasından keçən Qars çayının axarını dəyişməyi qərara aldı. Kanal çəkilişinə başladılar və 3 həftədən sonra bu iş başa çatdı.[2]

Bir aylıq mühasirədən sonra Osmanlı sarayı Gəncə, İrəvan və Tiflisi təslim etməyə razılaşdığına görə Nadir Qarsın mühasirəsini ləğv etdi. 1735-ci il iyulun 9-da Gəncə, avqustun 12-də Tiflis və oktyabrın 3-də İrəvan Osmanlı qüvvələri tərəfindən tərk edildi.[3] Nadir Qars ətrafından Tiflisə hərəkət etdi. O, Teymuraz və qardaşı oğlu Əli Mirzəni, gürcü tavadları və aznaurlarını yanına çağırdı. Müsəlmanlığı qəbul etmiş Əli Mirzəni Kartli və Kaxetinin hakimi təyin etdi. Teymuraz bundan çox incidi və fürsət düşən kimi Pşavs ölkəsinə və Çərkəzistana qaçdı. Əli Mirzə nominal hakim idi, çünki Nadir Səfi xan Buqxairi ona nəzarətçi təyin etmişdi.[4] Vaxtilə İrəvan bəylərbəyisi olmuş Məhəmmədqulu xan yenidən İrəvan hakimi təyin olundu.[5] Nadirə Tiflisdə böyük ehtiram göstərildi, onun keçdiyi küçələr xalça ilə döşənmişdi. O, itaətini bildirən gürcülərlə yaxşı davrandı, ancaq müqavimət göstərən 6 min ailəni Xorasana göndərdi.[6]

Beləliklə də, Nadir şah osmanlılarla apardığı müharibənin yeni mərhələsini də uğurla başa vurdu və Cənubi Qafqazın şərq

---

[1] РГВИА,ф.2,оп.3,д.17,лл.116-117
[2] Степан Кишмишев, s.292
[3] Mehman Süleymanov.Göst. əsəri, s.277
[4] Степан Кишмишев. Göst.əsəri, s.292
[5] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1735 г., д. 25, л. 74.
[6] Mehman Süleymanov. Göst. əsəri, s.277

hissəsinə nəzarəti bütünlüklə öz əlinə aldı. Tiflisdə Nadirlə Osmanlı nümayəndəsi arasında əldə edilən anlaşmaya görə iki imperiya arasında sərhəd Gürcüstandan keçməklə Ağrı dağı, Kürdüstan dağları, Zaqros dağları xətti üzrə keçməklə Fars körfəzinə uzanırdı. Tiflis anlaşmasına görə Nadir şah öz qoşunlarını Bağdad ətrafından geri çəkdi.[1]

Osmanlılara qarşı əməliyyatlarda qələbə qazanan Nadir şah 1735-ci ilin oktyabrında Dağıstandakı iğtişaşları yatırmağa yönəldi. O, əvvəlcə Altıağac yolu ilə Car və Talaya doğru hərəkət etdi. Burada olan Surxay xan Qazıqumuqlu, usmi Əhməd xan və Eldar Dağıstana qaçdılar. Nadir Car, Şəki və Tabasaranı itaətə gətirib noyabrın sonlarında Dərbəndə yaxınlaşdı. Tarixçilərin Nadirin İkinci Dağıstan səfəri adlandırdığı bu səfər onun üçün çox uğurlu oldu. Nadirin yaxınlaşdığını eşidən Krım xanının qoşunları tələsik Qafqazı tərk etdilər. Yolda, Məcalisdə dar dərədə möhkəmlənmiş usminin oğlu Məhəmməd xanın müqaviməti ilə üzləşsə də Nadir Məcalisi aldı, Məhəmməd isə Qalaqüreyşə, atası Əhməd xanın yanına qaçdı. Məcalisdən Nadir Xaspoladın idarəçiliyində olan Qubdenə getdi.[2] Nadirin qarşısında duruş gətirə bilməyəcəyini anlayan Surxay xan, Əhməd xan və Eldar şamxal hər kəs öz mülklərinə qaçdı.

Nadir bir il əvvəl olduğu kimi əvvəlcə barışmaz düşməni olan Surxay xana divan tutmaq qərarına gəldi. Dekabrın 17-də o, Qazıqumuğa tərəf hərəkət etdi. Üç gün sonra Qumuqdan 3 mil Aralıda-Sarraf çayı sahilində həlledici döyüşdə darmadağın edilən Surxay xan əvvəlcə Qazıqumuğa, oradan da Avarıstana qaçdı.[3]

Dekabrın 21-də Qazıqumuq ağsaqqalları Nadirin yanına gəlib itaətlərini bildirdilər.[4] Surxayın iqamətgahı Qalaqureyşə daxil olan Nadir xan qış olduğu üçün Avarıstana getməyin çətinliyini anlayaraq oraya daxil olmayıb Dərbəndə getdi.

---

[1] Laurence Lokhart, p.112

[2] Надирпаша Сотавов. Göst. əsəri, s. 156-157.

[3] Надирпаша Сотавов. Göst. əsəri, (2013), s. 157.

[4] Yenə orada, s. 158.

Yolüstü Tabasaranı itaət altına aldı, Akuşa kadisi Hacı Eyyubun qoşunlarını darmadağın etdi, Qaytaqa daxil olub, usmi Əhməd xanı itaətə məcbur etdi. Usmi "Şərqin birinci gözəli" adlandırılan qızı Patimat xanımı Nadirə ərə verdi.[1] Dərbənddə güclü qarnizon qoyan Nadir Muğan düzünə hərəkət etdi.

Dağıstanda hakimiyyətini nisbətən möhkəmləndirən Nadir xan 1736-cı ilin əvvəllərində əvvəlcədən hazırlanmış plana əsasən Muğanda böyük bir qurultay çağırdı. Bu qurultayda keçirilən şah seçkisi əslində hərbi qüvvənin təzyiqi altında həyata keçirilən dövlət çevrilişi idi. Səfəvi sülaləsinin devrilməsinə etiraz edən bir sıra Azərbaycan feodallarının və mollabaşının cəzalandırılması da bu fikri təsdiqləyir. Nadirin şah seçilməsinə qarşı olduqlarına görə ilk növbədə Ziyadoğlu nəslindən olan Qarabağ bəylərbəyi sərt cəzalandırıldı, Qazax və Borçalı bəylərbəyiliyin tərkibindən çıxarılıb Nadiri müdafiə edən Kartli hakiminin təbəəliyinə verildi. Qarabağın xristian məlikləri bəylərbəyin tabeliyindən çıxarılıb, Azərbaycan hakimi təyin edilmiş Nadirin qardaşı İbrahim xanın bilavasitə tabeliyinə keçirildi. Otuz iki, Kəbirli və Cavanşir tayfalarının başçıları ailələri ilə birlikdə Xorasanın Sərəxs bölgəsinə sürgün edildilər.

5 fevral tarixində Nadir "şah elan olunmasına razılaşması" müqabilində 3 tələb irəli sürdü: l. Əgər bundan sonra haradasa şahın oğlu və ya onun nəslindən kimsə meydana çıxsa, siz gərək onu qəbul və müdafiə etməyəsiniz. 2. Şiəliyin əvəzinə sünniliyin cəfəri təriqətinə etiqad etməlidirlər. Bundan sonra Ömərin və Osmanın lənətlənməsi təkrar olunmasın...3. Mənə sadiq olduğunuz kimi məndən sonra mənim nəslimə və xanədanıma da sadiq olmalısınız və bu üç tələbi qarğışla möhkəmləndirib yazılı surətdə ifadə edib möhürlə təsdiq edin və mənə verin.

Nadir şah güman edirdi ki, Səfəvi dövləti şiəlik üzərində qurulduğundan və əhalinin əksəriyyəti bu məzhəbə etiqad etdiyindən, şiəliyin mövcudluğu öz-özlüyündə Səfəvilərin hakimiyyətə qaytarılması üçün zəmin ola bilər. Buna görə o,

---

[1] Yenə orada, s. 159.

şiəliyi dəyişməklə və əhalini başqa məzhəbə tapındırmaqla Səfəvilərin nüfuzunu tamamilə aradan qaldırmaq istəyirdi.[1] Digər bir mülahizəyə görə isə Nadir şah əhalini sünniliyə yaxınlaşdırmaqla Osmanlı təbəələrinin şiəliyə sərt münasibətini dəyişdirmək istəyirdi. Nadir şah Osmanlı imperiyasına hücum etmək istəyir, amma şiə ölkəsinin hökmdarının sünni ölkəsində qəbul edilməyəcəyindən ehtiyatlanırdı.[2] Başqa bir mülahizəyə görə isə Nadir şah şiəliklə sünnilik arasında fərqi aradan qaldırmaqla bütünlükdə islam dünyasının möhkəmlənməsinə çalışırdı. Belə bir fikir də mövcuddur ki, Nadir şah bütün islam dünyasını öz hakimiyyəti altına almaq istəyirdi. Məhz bunun üçün şiəliyi dəyişməklə bütün müsəlmanlar üçün yaxın olan bir mövqedən çıxış etmək istəyirdi. [3] Nadirin subyektiv niyyətlərindən asılı olmayaq onun dini islahat təşəbbüsü olduqca mütərəqqi addım idi.

Nadir şah elan olunduqdan sonra vilayət hakimlərinə göndərdiyi elaniyyələrində məzhəb islahatı məsələsinə toxunur və tələb edirdi ki, bundan sonra islamın dörd xəlifəsinin adları çəkiləndə hər birinə ehtiram nümayiş etdirilsin, şiələr tərəfindən əzan oxunanda və iqamətdə işlədilən "Əliyyən vəli-yullah" ifadəsi çıxarılsın. Nadir şaha görə sünnilər tərəfindən qəbul olunmayan bu ifadənin saxlanılması iki məzhəb arasındakı ixtilafı daha da dərinləşdirə bilərdi.[4]

Nümayəndələr tərəfindən onun şahlığa namizədliyinin yekdilliklə bəyənilməsinə nail olduqdan sonra Nadir hələ bir müddət guya şahlığı istəmədiyini göstərdi və nəhayət əyanların və hakimlərin "xahişini qəbul etdiyini bildirdi".[5]

Bu vaxt ərzində Nadirin nümayəndələri ilə Əli paşa sülh

---

[1]Ser Con Melkolm. Göst. əsəri,s.266.

[2] Möqtəder. Göst. əsəri, s.189.

[3] Nader şah. Axverin keşvər-qoşa-ye Asiya. Tehran: 1377 h. (mil. 1998). s.168; Lawrence Lockhart. Nadir shah., s.304

[4] Conas Hanvey C. Zendegiye Nader şah. Tehran, Tərcümeyi İsmayıl Dövlətşahi h.1346 (mil 1997), s. 161

[5] Laurence Lokhart.Nadir shah,p.122.

müqaviləsi şərtlərini müzakirə edirdilər. Nadirin irəli sürdüyü əsas şərtlərdən biri Osmanlının Cəfəri təriqəti isə sünniliyin beşinci məktəbi kimi tanınması, sünniliyin mövcud dörd məktəbindən hər birinin Kəbədə öz sütunu (ruku) olduğu üçün İmam Cəfərin ardıcılları üçün beşinci sütun ayrılması haqqı idi.[1]

Sülh müqaviləsinin şərtlərini öz sarayına çatdırmaq üçün Əli paşa İstanbula döndü. Nadir şah tərəfindən Osmanlı sarayına elçi təyin olunmuş Əbdülbaqi xan da Əli paşa ilə birlikdə İstanbula yola düşdü. Əbdülbaqi xan Nadirin taxta çıxması xəbərini bildirməli idi. Sonuncuya Osmanlı dövləti ilə sülh müqaviləsi bağlamaq üçün səlahiyyət də verilmişdi. Əbdülbaqi xanın elçiliyinin tərkibində olan sədr, yaxud şeyxülislam Mirzə Əbdül Qasım Kaşani və yeni mollabaşı Əli Əkbər osmanlı üləmaları ilə dini məsələləri müzakirə etməli idilər.[2] Elçilər 1736-cı il martın 4-də Türkiyəyə yola düşdülər.

Əbdül Baqi xan 4 ay yarımdan sonra-1736-cı il avqustun 6-da İstanbula çatdı. O, xristian hökmdarların heç birinin elçisinin layiq görülmədiyi ehtiramla qəbul olundu.[3]

Osmanlı sarayı ilə danışıqlar zamanı əsirləri dəyişdirmək, hər iki ölkədə diplomatik nümayəndəliklər açmaq və İranın əmir-ül-həccinin təyin edilməsi barədə asanlıqla razılıq əldə edildi. Ancaq osmanlılar Nadir şahın dini islahatla bağlı təkliflərini qəbul etməyərək qətiyyətlə rədd cavabı verdilər. Tərəflərin heç biri bu məsələdə güzəştə getmək istəmədiyindən ancaq ilk üç şərti əhatə edən müqavilə hazırlamaq və bu barədə Şaha xəbər çatdırmaq üçün elçi göndərmək qərara alındı.

Beləliklə, sentyabrın 28-də həmin üç maddəni ehtiva edən müqavilə imzalandı. Müqaviləyə əlavədə qeyd edilirdi ki, iki dövlət arasında sərhədlər 1639-cu il 7 may Qəsri-Şirin müqaviləsi ilə müəyyənləşdirilmiş sərhədlərə uyğun olmalıdır.[4]

---

[1]Laurence Lokhart.Nadir shah,p.123.

[2] Yenə orada, s.124.

[3] Yenə orada.

[4] Lawrence Lockhart. Nadir shah, p..129

## III.3. Nadir şahla Rusiya arasında diplomatik danışıqların intensivləşməsi

Nadir şahla Osmanlı sultanı arasında sülh danışıqları davam etdiyi zamanda Rusiya-Osmanlı münasibətləri pisləşməkdə davam edirdi. Qaplan Gireyin Dağıstana, general Leontyevin isə Krıma yürüşlərindən sonra iki dövlət arasında müharibə artıq labüd görünürdü.

1736-cı il mayın 28-də Osmanlı dövlətinə müharibə elan edən Rusiya Nadir şahın nəinki Osmanlı ilə separat sülh müqaviləsi bağlamayacağına, hətta Osmanlı ilə müharibədə onunla birgə hərəkət edəcəyinə əmin idi. Nadir şahın sarayında olan Rusiya nümayəndəsi İvan Kaluşkinə göndərilmiş göstərişdə rus qoşunlarının Azov qalasını mühasirəyə alması haqqında şah sarayına məlumat verilməsi tapşırılır və məsləhət görülürdü ki, şah sarayına Osmanlı imperiyası Rusiyaya qarşı müharibə ilə məşğul olduğu məqamda Nadir şahın osmanlılara qarşı hərbi əməliyyatlara başlamasının məqsədəuyğun olması çatdırılsın. Kaluşkin ona verilən göstərişi yerinə yetirsə də, bu zaman Nadir şah diqqətini Şərqə yönəltdiyindən hələlik Osmanlıya qarşı düşmənçilik hərəkətləri etməyəcəyini, onun başını sülh danışıqları ilə qataraq, ancaq Rusiya cəlb olunmayınca sülh müqaviləsi bağlamayacağını bildirdi.[1] Kaluşkin, Şahın Rusiya və Osmanlı dövlətinin arasını vurmaq üçün ciddi-cəhd göstərdiyi halda, indi müttəfiqlik borcunu yerinə yetirməkdən imtina etməsindən və əslində İranı məhv etmək niyyəti olan Osmanlı ilə dost olmaq istəməsindən təəcübləndiyini söylədi. Nadir şah Rusiyanın həyata keçirdiyi hərbi əməliyyatların onun üçün maraq kəsb etmədiyini, onun Azova ehtiyacı olmadığını, eləcə də Rusiyanın Bağdada ehtiyacı olmadığını bildirdi. Rusiya İstanbula qarşı əməliyyat keçirməli, İmperatriçə ordusunu bu şəhərə doğru göndərməlidir. Ancaq hələlik tələsmək lazım deyil, çünki Rusiya

---

[1] Сергей Соловьев. История России.кн.XI (тт. 21-22), с.356.

və Nadir şah əvvəlcə əməliyyat planı hazırlamalıdırlar.[1]

Hələ bundan əvvəl Sankt-Peterburqa gəlmiş Nadirin elçisi Mirzə Məhəmməd Kafi Xüləfa da İmperatriçəyə Nadirin şah taxtına çıxması haqqında rəsmi məlumat verəndən sonra onu və nazirlərini Şahın Osmanlı dövləti ilə separat müqavilə bağlamayacağına əmin etdi. Qarşı tərəf də elçini Rusiyanın da Nadir şahdan xəbərsiz Osmanlılarla sülh müqaviləsi bağlamayacağına əmin etdi.[2]

1736-cı il iyunun 17- də vitse-kansler qraf Osterman Mirzə Məhəmməd Kafi Xüləfanı öz evində qəbul edən zaman kənar adamlar otaqdan çıxdıqdan sonra elçi Nadir şahdan aldığı bir fərmanı Ostermana göstərmişdi. Fərmanda Osmanlı sarayının danışıqlarda rusların iştirakı haqqında şərt istisna olmaqla Şahın irəli sürdüyü bütün tələbləri qəbul etdiyi, Şahın isə rus tərəfinin iştirakı olmadan sülh müqaviləsini imzalamayacağı bildirilirdi.[3]

Vitse-kansler osmanlıların hiylə ilə Şahı Rusiya ilə dostluqdan çəkindirmək istədiklərini, Şaha sülh təklif etdikləri kimi, Avstriya imperatoru, İngiltərə kralı və Hollandiya respublikası nazirləri vasitəsilə Rusiyadan da sülh xahiş etdiklərini, indi isə artıq Fransanı da bu işə cəlb etməyə başladıqlarını söyləmişdi.[4]

Osterman bildirdi ki, həm bizim, həm də sizin qoşunlarınız düşmən vilayətlərində olacağı və düşmənin boğazından yapışacaqları halda sülhdən danışmaq faydalı olar. Ancaq, indi müharibə yenicə başlamışdır və İmperatriçə Şah ali-həzrətlərinin və bütün İran dövlətinin arzusu ilə Osmanlılara qarşı güclü hərbi əməliyyatlara başlamağı əmr etmişdir və səfirə də məlum olduğu kimi rus ordusu Osmanlı ərazilərində hərbi əməliyyatlar keçirir. Şah ali həzrətləri də əgər səfirin yazdığı kimi sözünün üstündə

---

[1] Yenə orada.

[2] Yenə orada. Maraqlıdır ki, Nadir şahın 1736-cı il mayın 26-da Anna İoannovnaya göndərdiyi fərmanda Şah özünü " Nadir Əli Bahadır şah" adlandırılmışdır. Bax: ГААО, ф. 394, оп 4, д. 40, лл. 63 об. – 64

[3] ГААО, ф. 394, оп. 1, д. 40, лл. 32 об.

[4] ГААО, ф. 394, оп. 4, д. 40, лл. 32 об. – 33.

durursa, Osmanlı imperiyasına hücum etməlidir. Çünki, osmanlılar bütün qüvvələrini bizə qarşı yönəldirlər və artıq baş vəzir İstanbuldan yola düşmüşdür, İranın yaxınlığında isə osmanlı qoşunu yoxdur. İndi Şah ali həzrətlərinin hərəkət edib mühüm yerləri tutması üçün əlverişli məqamdır. Sonra isə sülh haqqında Rusiya ilə razılığa gəlmək olar.[1]

Səfir bildirdi ki, onun başa düşdüyündən qısaca deyilsə ruslar Şahın da ümumi düşmənə qarşı hərəkət etməsini və düşmənin hər tərəfdən sıxışdırılmasını istəyirlər. Onda osmanlılar sülh xahiş etməyə məcbur olacaqlar, belə olduqda isə müttəfiq saraylar öz aralarında razılığa gələrək faydalı şərtlərlə müqavilə bağlayacaqlar.[2]

Xüləfanın, Nadir şahın Rusiyanın iştirakı olmadan sülh bağlamayacağı haqqında əminlik ifadə etməsinə baxmayaraq rus hökuməti çox narahat oldu. Sankt-Peterburqdan 1736-cı il iyunun 22-də İ.Kaluşkinə göndərilən fərmanda onun məruzatından Ərzurumda Şahın nümayəndəsi ilə Osmanlı sərəskəri Əhməd paşa arasında sülh danışıqlarının getdiyi məlum olduğu deyilirdi. Bu da məlum olur ki, osmanlılar danışıqlarda rusların iştirakına qəti etiraz edirlər.[3]

Bununla əlaqədar rus hökumətinin göstərişi ilə İ.Kaluşkin Nadir şaha bildirməli idi ki, Şahın xahişi ilə və onun xeyri üçün Rusiya Osmanlı imperiyası ilə müharibəyə başlamış və artıq yazın lap əvvəlindən güclü əməliyyatlar gedir. Ruslar Şahın öz vədinə uyğun olaraq bütün ordusu ilə osmanlılara qarşı gedəcəyini gözləyir. Artıq, Şah rusların sülh danışıqlarına cəlb edilməsinə çalışmaqdansa, müharibəni davam etdirməlidir. İndi iki tərəf Osmanlılara qarşı birgə hərəkət edərək möhkəm sülhə nail olmaq üşün düşməni darmadağın etməlidir. Osmanlılar Rusiya ilə müharibə başladığına görə iki cəbhədə vuruşmaqdan xilas olmaq, Şahı Rusiyadan ayırmaq üçün onunla sülh

---

[1] Yenə orada,v.32 a.ü. – 33.
[2] Yenə orada.
[3] Yenə orada,v.17.

bağlamağa çalışırlar. Sonra isə ruslarla sülh bağlayıb bütün qüvvələrini Şaha qarşı yönəldəcəklər. Onda artıq Rusiya da Şaha yardım göstərə bilməyəcək. [1] Kaluşkin Nadir şaha indi Osmanlının əsas qüvvələrinin Rusiyaya qarşı yönəldiyindən Nadir şahın irəliləyib asanlıqla Ərzurumu ala biləcəyini deməli idi.[2]

Haşiyə çıxaraq qeyd edək ki, arxiv sənədindən məlum olduğuna görə, Nadir hələ şah seçilməzdən əvvəl elçisi Xüləfaya göstəriş veribmiş ki, rus hökumətindən osmanlılara qarşı müharibəyə cəlb etmək üçün hansı Avropa ölkəsinə elçi göndərməyin məqsədəuyğun olması haqqında məsləhət alsın. Bu müraciətə cavab olaraq Kaluşkin Avropada hansısa monarx taxta çıxarkən bu barədə xəbər etmək üçün digər saraylara elçilər göndərdiyini Şaha bildirməli idi. İndi Nadir şah taxta çıxmasını bildirən elçilik təşkil edib Avstriya sarayına göndərsə yerinə düşər. Avstriya Osmanlı dövləti ilə həmsərhəd olduğundan Nadirin elçisi Avstriya imperatorunu Osmanlı ilə müharibəyə təşviq edə bilər. Rusiya da bu məsələdə yardım göstərə bilər.

Mirzə Məhəmməd Kafi hələ Sankt-Peterburqda olduğu zaman artıq şah seçilmiş Nadir İrəvan bəylərbəyi Mehrəli bəyi də Rusiyaya göndərmiş və sonuncu 1736-ca il iyunun 26-da Sankt-Peterburqa çatmışdı. Şahın Mehrəli bəylə göndərdiyi fərmanda deyilirdi ki, Allah Təalanın köməyi ilə İran dövlətində işlər sahmana salınmış və o, artıq öz yurduna qayıdıb dincəlmək istədiyi zaman dövlətin hər yerindən müxtəlif elat tayfaları və millətlərindən ağsaqqallar və hərbi rəislər, əsilzadələr, məmurlar Muğan əyalətinə toplaşaraq qurultay keçirdilər və yekdil yalvarışla Nadirdən öz niyyətindən əl çəkməsini xahiş etdilər. Qurultay nümayəndələrinin Nadirə müraciətinin surəti də fərmana əlavə olunmuşdu.[3]

Qeyd edək ki, Nadir şahın yeni elçisi Mehrəli bəy Sankt-

---

[1] ГААО, ф. 394, оп. 4, д.40,л.20 об.

[2] Yenə orada, v. 21-22.

[3] ГААО, ф. 394, оп. 4, д.40,лл.49-51.

Peterburqa gəlib çıxdıqdan az sonra - 1736-cı il iyulun 6-dan Peterburqda olan səfir Mirzə Məhəmməd Kafi Xüləfa ilə birlikdə Anna İoannovna tərəfindən qəbul olunmuşdu.

Diplomatiya tarixi ilə maraqlananlar üçün faydalı olar deyə biz bu qəbulun bəzi təfərrüatları haqqında məlumat verməyi məqsədəuyğun sayırıq. Qəbul mərasimi çox möhtəşəm təşkil olunmuşdu. Yüksək vəzifəli rus məmurları elçiləri yaşadıqları yerdə qarşılayıb, imperator karetasında çoxlu hərbçinin müşaiyəti ilə saraya gətirmişdilər.[1]

Sarayın qarşısında səfirlər karetdən düşüb piyada sarayın içərisində getdilər. Dəhlizdə qəbul zalının önündə zəngin geyinmiş pajlar dayanmışdı. Qəbul salonunda qapının ağzında ştalmeyster knyaz Kurakin səfirlərlə görüşüb onları başında kiçik tac, bəzəkli talvarın altında taxtda oturmuş İmperatriçənin oturduğu zala apardı. Həmin zalda əsilzadə xanımlar taxtın sağında, hərbçilər və mülki məmurlar isə solunda dayanmışdılar. Səfirlər qəbul zalına daxil olmazdan əvvəl başmaqlarını çıxardılar, xəncər və qılıncsız zala daxil oldular. Səfirlik heyətindən cəmi 8 nəfər qəbul zalına daxil oldu, qalanları isə öndəki otaqda qaldılar.[2]

Qəbul zalına daxil olan səfirlər və onları müşayiət edənlər, İmperatriçə Anna İoannovnaya üç dəfə təzim etdilər. Sonra birinci səfir İmperatriçəyə ünvanlanmış farsca mətni oxudu. Dəftərxana müşaviri Pyotr Qurbanov səfirin nitqini ruscaya çevirdi.[3]

"Ali həzrətləri, böyük xaqan, allahın kölgəsi", İran dövlətinin hökmdarı Nadir şahın dostluq fərmanı ilə böyük hökmdar İmperatriçə ali-həzrətlərinin aliməqam sarayına gəldiklərini bəyan edən səfirlər Rusiyada onlara göstərilən hörmət və ehtirama görə təşəkkürlərini bildirirdilər.

Səfirin nitqi qurtardıqdan sonra kabinet naziri knyaz Aleksey

---

[1] ГААО,ф.394, оп.1,д.590, лл. 67 об.-68.
[2] Yenə orada, v.48 və a.ü.
[3] ГААО,ф.394, оп.1,д.590, лл. 67 об.-68.

Çerkasski imperatriçənin fərmanını oxudu. Asessor Tevkelevin səfirlərə tərcümə etdiyi nitqdə deyilirdi ki, İmperatriçə Şah alihəzrətlərinə ünvanlandığı fərmanda yazılı surətdə ona dostluğunu bildirsə də, qayıdandan sonra Şaha imperatriçənin həmişə bu dostluğa sadiq qalacağını, Şah ali həzrətlərinin qələbələri haqqında xəbərləri həmişə sevincə qarşıladığını çatdırmalarını səfirlərdən xahiş edir. İmperatriçə səfirliyin gəlməsindən və səfirlərin davranışından məmnunluğunu da ifadə edirdi.[1]

Kabinet naziri nitqini bitirdikdən sonra taxtın sağ tərəfində qoyulmuş zər saçaqlı al-qırmızı qumaş məxmərlə örtülmüş masadan İmperatriçənin qızılı parçaya bükülmüş fərmanını götürərək imperatriçənin yanına apardı və İmperatriçə əli ilə fərmana toxundu. Sonra nazir taxtdan uzaqlaşaraq fərmanı səfirlərə verdi və onlar fərmanı başları üzərinə qaldıraraq yanlarında duran katibə verdilər. Katib fərmanı səfirlərin qaldığı mənzilə kimi apardı.[2]

Sonra səfirlərə, onları müşayiət edənlərə İmperatriçənin əlini öpməyə icazə verildi. Sonda səfirlər dalı-dalı hərəkət edərək zalı tərk etdilər və çıxışda da İmperatriçəyə üç dəfə təzim göstərdilər. Gəldikləri qaydada öz mənzillərinə döndülər.[3]

Səfir və elçi İmperatriçənin qəbulunda olduqdan sonra Xüləfa çar sarayı nazirləri ilə görüşərək elçi Mehrəli bəyin gətirdiyi iki şah fərmanı haqqında danışdı. Fərmanların əsas məzmunları bundan ibarət idi:1) Şah onun yanına sülh danışıqları üçün göndərilmiş Əli paşanı və özünün səfirini Osmanlı sarayına hansı cavabla göndərmişdir; 2) Əgər ruslar sözlərinin üstündə durub Osmanlıya qarşı müharibəyə başlasalar, Şah da osmanlılara qarşı hərbi əməliyyatlara başlayacaq; 3) Şah səfir Xüləfaya əmr edir ki, elçi Mehrəli bəyi rus hökumətindən cavab alan kimi dərhal geri göndərsin.[4] Görüş zamanı Xüləfa şah buyruğunu çatdırdı - əgər sabiq Kartli hakimi Vaxtanq və onun oğlu Bakar Gürcüstana,

---

[1] ГААО, ф. 394, оп.1, дополнения, д. 13, л.44
[2] Yenə orada, v. 49
[3] Yenə orada
[4] ГААО, ф. 394, оп.1, дополнения, д. 13, лл. 55 об. – 56.

yaxud İrana dönmək istəsələr buna icazə verilsin. Nazirlər Vaxtanqın ailəsi ilə Rusiyaya qaçdığını və imperatorun onu qəbul etdiyini, öz vətəninə qayıtmaq istəsə, ona heç bir maneçilik törədilməyəcəyini bildirmişdilər. Nazirlər səfirdən əgər Vaxtanq oğlu ilə birlikdə Gürcüstana qayıtmaq istəyərsə, ruslar onlara dinlərini dəyişmək üçün təzyiq göstərilməyəcəyinə, öz vətənlərində malikanəyə sahib olmaq hüququ alacaqlarına ümid edə bilib-bilməyəcəklərini öyrənmək istəyirdilər. Səfir bu barədə Şaha yazmalı və Vaxtanq Rusiyanı tərk etməzdən əvvəl lazımi təlimatları almalı idi.[1]

Anna İoannovnanın Kaluşkinə göndərdiyi fərmanda deyilirdi ki, şah elçisi Rusiyada qətiyyən ləngidilməyəcəkdir və artıq ona cavab fərmanı verilmişdir. O nə vaxt istəsə yola düşə bilər. Yalnız Xüləfa elçinin uzun yoldan gəldiyi üçün bir qədər dincəlməli olduğunu bildirmişdir. Səfirə həmçinin bildirilmişdir ki, özü də şahiddir, Şahın arzusu ilə Rusiya xeyli vaxtdır Osmanlı dövləti ilə müharibəyə başlamışdır. Lazımdır ki, Şah da osmanlılara qarşı hərbi əməliyyatlara başlasın. Sonra çar fərmanında rusların uğurları barədə məlumat verilirdi. Rus hökuməti indi Şahın osmanlılara qarşı haralarda hərbi əməliyyatlar apardığını bilmək istəyirdi. Əgər Şah Osmanlılarla sülh danışıqlarına dair verdiyi sözün üstündə durursa, ona demək lazımdır ki, biz onun arzusuyla Osmanlılara qarşı hərbi əməliyyatlara başlamışıq. İndi sülh danışıqlarından söhbət gedə bilməz, Şah da hərbi əməliyyatlara başlamalıdır.[2]

Kaluşkinə göndərilmiş fərmanda şahın elçisi Mehrəli bəyin (bəzi tarixi sənədlərdə onun adı  Mirəli bəy kimi yazılmışdır) yolda törətdiyi özbaşınalıqlar və zorakılıqlar barədə giley də var idi. Kaluşkin 1736-cı il sentyabrın 29-da Mirzə Mehdi xan vasitəsilə Nadir şaha Mehrəli bəyin yolda rus təbəələrinə qarşı törətdiyi özbaşınalıqlar barədə rus hökumətinin şikayətini çatdırdı. Bildirilirdi ki, yolda elçiyə həm ərzaq, həm də atları üçün ot-alaf tədarükündə hər cür yardım göstərilsə də, o, hər yerdə

---

[1] ГААО, ф.394,оп.1, д.40,лл.59 об.-60.

[2] ГААО, ф.394,оп.1, д.40,л. 59.

amansızlıqlar etmişdir. Don şəhərciklərinin birində Mehrəli bəy çaydan keçməsinə yardım etmək üçün göndərilən adamların az olduğunu bildirərək kazak atamanını döymuş, zabiti isə təhqir etmişdi. Sankt-Peterburqa gedərkən yolda onun olduğu gəminin qarşısına içərisində cəmi iki işçi olan bir ticarət qayığı çıxmışdı. Elçinin əmri ilə qayıqdakıların əl-qolunu bağlayıb elçinin olduğu gəmiyə gətirmiş, möhkəm döymüşdülər. Sonra, onları guya elçinin olduğu gəminin yolunu kəsməkdə ittiham edərək birini suya atdıraraq boğdurmuş, ikincisini də suya atdırmaq istəyərkən digər gəmidə gedən mehmandar gəlib xilas etmişdi. Mir Əli (ya Mehrəli) bəy mehmandarın özünü suya atmaqla hədələyərək bunun onun üçün böyük qəbahət olmadığını və onu cərimələməyəcəklərini bildirmişdi.[1] Mir Əli bəy Nadir şah tərəfindən göndərildiyi üçün rus hökuməti onun özünə bu haqda heç nə bildirməmiş, elçi izzət-mərifətlə geri yola salınmışdı. İndi isə rus hökuməti onun layiqincə cəzalandırılmasını istəyir.[2]

Mir Əli bəyin hərəkətləri barədə Nadir şaha xəbər veriləndə Şah qəzəblənmiş, elçi geri qayıtdıqda onun sərt cəzalandırılacağını bildirmişdi.[3]

Kaluşkinə verilmiş 10 iyun 1736, 22 iyun 1736 və 8 iyul 1736-cı il tarixli çar fərmanlarında[4] Nadir şahın osmanlılarla müharibəni davam etdirməsi tələbi yenə də təkrarlanırdı.

Kaluşkin Peterburqa göndərdiyi 5 oktyabr 1736-cı il tarixli məxfi raportunda yazırdı ki, Nadir şah Bəxtiyarilərin qiyamını yatırıb, sentyabrın 28-də İsfahana qayıdan kimi çarın fərmanlarından Şahın osmanlılara qarşı müharibəyə təhrik etmək barədə mülahizələrini yazılı surətdə Şaha təqdim etmişdir. Şah Kaluşkindən ona rus dövlətinin qoşunları və artilleriyası, onların harada birləşə biləcəkləri haqqında məlumat verilməsini tələb etmişdi. Saziş bağlanmaq üçün İmperatriçə Qəndəhara xüsusi

---

[1] ГААО, ф. 394, оп. 4, д.40,лл.43-45

[2] Yenə orada, v. 59 об.-60.

[3] Yenə orada, v. 48 və a.ü.

[4] Yenə orada,f.394,siy.4,iş 40, v.57 a.ü.-58.

səlahiyyətli nümayəndə göndərməli idi. Kaluşkin yazırdı ki, Qəndəharın yolu çətin və təhlükəli olduğundan Nadir şah rus səfirinin oraya gələ bilməyəcəyini anlayır, yəqin ki, bu yolla vaxt qazanmaq istəyir. [1] O, demişdi ki, rus sarayı Nadir şahın Rusiyanın osmanlılarla müharibəyə başlamasını eşidib osmanlılarla müharibəni bərpa edəcəyini fikirləşirdi. İndi çoxsaylı rus qoşunları Osmanlı ərazilərinə daxil olmuşdur və bu səbəbdən də Osmanlılar şaha rusları danışıqlara buraxmamaq şərtilə sülh müqaviləsi bağlanmasını təklif edirlər.[2] Rusiya öz mövqeyində qətidir və istəyir ki, Şah da sözünə əməl edib, osmanlılarla müharibəni bərpa etsin. [3] Səfir rus ordusunun uğurlarını sadalayaraq bildirirdi ki, Krım Perekopu və orada yerləşən istehkamlar qarnizonları ilə birlikdə, o cümlədən dağ körpüsünün yanındakı başlıca liman və Qezlev, Dneprin mənsəbində Özinin (Oçakov) qarşısındakı Kinburn qalası alınmış, Krım xanı məğlub olaraq qaçıb xilas olmuşdur. Rus ordusu Krımın içərilərinə, xanlığın paytaxtı Baxçasaraya doğru irəliləyir; bütün Kuban ruslara tabe edilmişdir.[4]

Kaluşkin rus hökumətinin adından müvafiq saziş bağlamaq üçün Nadir şahın səlahiyyətli nümayəndəsini Rusiyaya göndərməsini təklif edirdi. Çünki Xüləfa rusların təkliflərini şifahi surətdə qəbul etsə də, ona bu cür səlahiyyət verilmədiyi üçün yazılı təsdiq etmir.[5]

Kaluşkin əlavə olaraq bildirirdi ki, osmanlılar Nadir şahla sülh danışıqları aparmaqla yanaşı Avropa dövlətləri arasında şaiyə yayılır, guya Nadir şah Osmanlı sultanına tabe olmuşdur, hətta öz dövlətinin məzhəbindən tamamilə əl çəkərək sünni məzhəbini qəbul etmişdir və sülh xahişi ilə öz səfirini Osmanlı sarayına göndərmişdir.[6]

---

[1] ГАAO, ф. 394, оп. 1, д.590, v. 1-3.
[2] Yenə orada, f. 394, siy.1, iş 590, v. 15-16.
[3] Yenə orada, f. 394, siy. 1, iş 590, v. 19.
[4] ГАAO,ф. 394, siy. 1, iş 590, v. 22 və a.ü.
[5] ГАAO, ф. 394, siy. 1, iş .590, v. 24.
[6] ГАAO, ф. 394, siy. 1, iş .590, лл. 24 об. – 26.

Şahı təqdimatla tanış etmək üçün onun qəbul otağına girən Mirzə Mehdi çıxıb Kaluşkinə təqdimatı Şaha oxuduğunu və Şahın cavabını, yəni Şahın sözündən dönmədiyini və Rusiyasız Osmanlı ilə sülh bağlamayacağını bildirdi. Əhməd paşa Şahı Rusiyasız sülh bağlamağa razı salmağa çalışsa da, Şah buna getməyəcək. O, Rusiya sarayından nə qədər qoşun, artilleriyanı hara göndərməsi və harada birləşib Osmanlı dövləti ilə müharibəni davam etdirməsi haqqında həqiqi məlumat alanadək bir ildir ki, Osmanlıların başını danışıqlarla qatır.[1] Ancaq, Rusiya Şahla razılaşdırmadan tələsik müharibəyə başlamışdır. Xüləfa rus kanslerindən Rusiyanın Osmanlıya qarşı müharibəni hansı yerləri tutanadək və nə vaxtadək aparacağı barədə məlumat verilməsini tələb etmişdi. Kansler isə ona Rusiyanın mənafeyi tələb edən yerlər tutulanadək müharibənin davam etdiriləcəyi cavabını vermişdi. Bu cür yayğın cavab isə Şahı qane etmirdi.[2]

İndi yazışmalarda vaxt itirilməməli, rus sarayı ya knyaz Qolitsini, yaxud da digər bir nüfuzlu şəxsi göndərərək ona bu məsələ barədə razılıq əldə edilməsi üçün səlahiyyət verməlidir. O,(Şah-T. M.) Xülafəyə tam səlahiyyət verməyəcək. Rusiyanın səlahiyyətli nümayəndəsi gəlib onunla birgə əməliyyatlar barədə razılıq əldə edilsə, onda bütün qüvvələri ilə osmanlılara qarşı müharibəyə gedər. Nümayəndə gəlib çıxanadək isə osmanlılarla sülh danışıqlarını uzadacaq. Əgər Rusiyanın səlahiyyətli nümayəndəsi gəlsə belə hər hansı səbəbə görə birgə müharibə haqqında qərar qəbul edilməsə və Şah osmanlılarla müqavilə bağlamalı olsa, onda Şah Rusiyasız sülh bağlamayacaq.[3]

İrəli sürülən bütün bu qeyd-şərtlərin əsas məsələdən qaçmaq üçün bir bəhanə olduğunu bildirən Kaluşkin rus qoşunlarının müxtəlif yerlərdə osmanlılar üzərində şanlı qələbələr qazandığı bir vaxtda rus qoşunlarının və artilleriyanın miqdarı haqqında soruşmağın yersiz olduğunu söyləmişdi. Çünki hərbi

[1] ГААО, ф. 394, siy. 1, iş .590, лл. 25 об. – 29.

[2] Yenə orada, v. 28 a.ü. – 29.

[3] ГААО, ф. 394, оп. 4, д.590, л. 31-34.

əməliyyatların getdiyi yerlərdə, Osmanlı qoşunlarının hər tərəfdən sıxışdırılması rus qoşunlarının nə qədər çox olduğunu göstərir. Necə olur ki, Şah öz səfiri Xüləfaya hər şey barədə rus sarayı ilə razılığa gəlməsini əmr edir, sonra da “rus tərəfi niyə onunla razılaşdırmadan Osmanlı imperiyası ilə müharibəyə başlamışdır”,- deyə məzəmmət edir. Bundan belə görünür ki, Şah ali-həzrətləri yalnız sözdə Rusiya ilə razılığa gəlməyə hazırdır.[1] Kaluşkin bir də onu dedi ki, necə olur, Şah Rusiya səfirinin gəlməsini tələb edir, özü isə Qəndəhara gedir. Rezident eyni zamanda Xüləfanın Rusiya hökumət üzvləri ilə danışıqlarının protokolunun türkcə tərcüməsinin mətnini Mirzə Mehdi xana verdi. Mirzə Mehdi xan Kaluşkinin söylədiklərini Şaha söyləyəcəyini və tərcümənin mətnini ona oxuyacağını dedi.[2] Burada haşiyə çıxaq: şah səfirlərinin rus sarayında apardığı danışıqların məzmununun türkcəyə tərcümə olunub Nadirə göndərilməsi, bir daha Nadir şahın diplomatik danışıqları türkcə apardığını sübut edir.

Mirzə Mehdi xan Şahın yanına gedib geri qayıtdıqdan sonra Şahın vədinə sadiq olduğunu, rusların Osmanlıya qarşı çoxlu qoşun və artilleriya göndərdiklərinə inandığını, lakin o, həmin qoşunların və artilleriyanın sayını, haraya gedəcəklərini bilmək istədiyini söyləmişdi. Rus tərəfi Xüləfaya iki dövlətin ordularının birləşməməsini tapşırmışdı. Şah isə bunu zəruri hesab edir. Şah rus səfirinin onun yanına ya bu il Qəndəhara, ya da sonrakı il ayrı yerə gəlməsi tələbindən əl çəkməmişdi. Şah əgər səfirlə razılığa gəlsə, Qəndəharda az miqdarda qoşun qoyub bütün qüvvələri ilə Osmanlıya qarşı gedəcək.[3]

Kaluşkin Şahın belə vacib işdə tələsmək əvəzinə ləngidiyini, Rusiyanın səfir, həm də Qəndahara göndərməsini tələb etdiyindən təəccübləndiyini bildirmişdi. Axı Sankt-Peterburqdan Hindistan sərhədlərinə, yəni Qəndəhara qədər nə qədər məsafə

---

[1] Yenə orada,v.24 a.ü.-26

[2] Yenə orada, v. 36 və a.ü.

[3] ГААО, ф. 394, оп. 4, д.590, л 36 и об.

var və rus səfirinə ora gəlib çıxmaq asan olmayacaqdı. Yaxşı olmazdımı ki, Şah ali-həzrətləri Xüləfaya ümumi razılığa gəlmək barədə səlahiyyət versin.[1]

Gəncə müqaviləsinə görə, Kaluşkin, Şah ali-həzrətlərinin Rusiya düşmənlərini öz düşmənləri saymalı, Rusiya kiminlə, xüsusən də osmanlılarla müharibə aparırsa, rus sarayının razılığı olmadan sülh danışıqlarına başlamamalı olduğunu qeyd edərək Şahın hökmən Osmanlılara qarşı hərbi əməliyyatlara başlamalı olduğunu söylədi.[2]

Axırda Kaluşkin onda kanslerdən, keçmiş səfir knyaz Qolitsindən Şaha məktublar olduğunu deyərək, onları təqdim etmək üçün Şahın onu qəbul etməsini istədi. Şahın yanına gedib az sonra qayıdan Mirzə Mehdi xan Şahın hərəmxanaya getdiyini və məktubların Mirzə Mehdi xana verilməsini əmr etdiyini bildirdi.[3]

Sentyabrın 29-da Nadir şah İ.Kaluşkini qəbul etdikdə sonuncunun Şaha təqdim etdiyi yazılı müraciətində əvvəlcə Nadir şah seçilməsi münasibətilə rus hökumətinin adından təbrik olunur, bildirilirdi ki, Şah elçisi Mehrəli bəy Sankt-Peterburqa çatıb müvafiq fərmanı təqdim etdikdən sonra imperatriçənin yazılı təbriki göndəriləcək.[4]

Kaluşkin yenə də imperatriçənin Nadirin xahişini nəzərə alaraq Osmanlı dövləti ilə müharibəyə girdiyindən indi artıq sülh danışıqları haqqında danışmaq yox, düşmənə qarşı birgə əməliyyatları razılaşdırmaq lazım olduğunu bildirirdi. Rusiya ilə Osmanlı arasında müharibə getdiyi bir zamanda Rusiyanın Nadir şahla osmanlılar arasında danışıqlarda iştirakı mümkün ola bilməzdi.[5]

Osmanlı sarayı eyni zamanda Rusiya ilə də birtərəfli sülh müqaviləsi bağlamaq istəyir, bunun üçün Avstriya imperatoru, İngiltərə kralı və Hollandiya nazirlərinə müraciət etmişdir. İndi

---

[1] Yenə orada, v. 39.

[2] Yenə orada, v. 39.

[3] Yenə orada, v. 41 a.ü.

[4] ГААО, ф. 394, оп. 1, д. 590, лл 11-13.

[5] Yenə orada, v. 13-15.

məsləhətdir ki, Şah Osmanlının əsas qüvvələrinin Rusiyaya qarşı yönəlməsindən istifadə edib dərhal Ərzuruma tərəf getsin.[1] Daha sonra Kaluşkin rus ordusunun Perekop, Kinburn, Azov və digər bir neçə qalanı alması, Krım xanlığının paytaxtı Baxçasaraya yaxınlaşması haqqında məlumat verərək[2] Şahın osmanlılara qarşı harada və nə vaxt əməliyyatlar aparmaq niyyəti haqqında bildirməsini xahiş etdi ki, o da bu barədə öz sarayına məlumat verə bilsin.[3]

Kaluşkini dinləyən Nadir şah içəri otağa çəkilmiş və tezliklə Mirzə Mehdini yanına çağırıb Kaluşkinə aşağıdakı cavabı verməyi əmr etmişdi: "Şah sözünü heç vaxt geri götürməz və Rusiyasız osmanlılarla sülh bağlamaz. O, bir ildir ki, rusların nə qədər qüvvəsi olduğu və artilleriyasının hara hərəkət edəcəyi, osmanlılarla müharibəsi nə qədər davam edəcəyi barədə məlumat gözləyir. İki monarxın ordularının harada birləşib, düşmənə birgə hücum edəcəyini bilmək istəyir.[4] Rus sarayı mühüm bir şəxs göndərməli və ona tam səlahiyyət verməlidir ki, birgə hərəkət haqqında razılıq əldə etsin".[5]

Sonda İ.Kaluşkin S.Qolitsinin Nadir şaha yazdığı ərznaməsini Mirzə Mehdi xana təqdim etmişdi. S.Qolitsin şah elçisi Mehrəli bəyin Rusiyada yolçuluğu zamanı törətdiyi özbaşınalıqlardan şikayət edirdi.[6]

Qeyd edək ki, Nadir şahın Osmanlı sarayı ilə əlaqələri Rusiya rəsmilərini çox narahat edirdi. Kaluşkin İsfahandan göndərdiyi 5 oktyabr 1736-cı il tarixli məxfi raportunda Şahın Osmanlılarla müntəzəm əlaqə saxladığını, ötən həftə İstanbuldan 6 qasidin məktubla onun yanına gəldiyini yazırdı. Kaluşkin iki dövlət arasında hansısa gizli anlaşma ola bilməsindən ehtiyat edirdi.

---

[1] Yenə orada, v. 18 a.ü.-19.

[2] Yenə orada, v. 21 a.ü. – 22 a.ü.

[3] Yenə orada, v. 23 a.ü.-24.

[4] Yenə orada, v. 27 a.ü.-29.

[5] ГААО, ф. 394, оп. 1, д. 590, лл.29-30 об.

[6] ГААО, ф. 394, оп. 1, д. 590, л. 42 об.

Hətta Osmanlıların təhriki və təkidi ilə Şahın Qəndəhara nəzərdə tutulan yürüşü ləğv edib, qüvvələrini Rusiyaya qarşı yönəldə biləcəyindən qorxurdu. Şahın Rusiya tərəfə münasibətini şübhəli sayan[1] Kaluşkin hər ehtimala qarşı Qızlar qalası və Həştərxana məktublar göndərərək ehtiyat tədbirləri görülməsini məsləhət bilmişdi.[2]

Rezident Qızlar komendantı İvan Mixayloviçə göndərdiyi məktubda şahın tərəfini saxlayan Tarki şamxalının yanına, həmçinin Niyazabad qalasına casus göndərib şah qoşunlarının hərəkəti haqqında məlumat əldə etməsini məsləhət görmüşdü. Əgər şah qoşunlarının Rusiya sərhədlərinə hücumu haqqında məlumat varsa, bu barədə Həştərxana da bildirilməli idi.[3]

Rusiya rezidenti Nadir şaha 6 may 1737-ci il tarixli müraciətində İstanbuldan alınan xəbərə görə, Şahın səfiri Əbdül Baqi xanın sultanla sülh müqaviləsi bağladığı, hətta müqavilənin təsdiqə verildiyini qeyd edərək, Şah müqaviləni təsdiqləməzdən əvvəl şərtlərini ona və rus hökumətinə bildirməsini, rus sarayının fikrini öyrənməsini istəmişdi.[4]

Nadir şahın elçisi ilə Osmanlı höküməti arasında müqavilə imzalanmasından Kaluşkindən daha əvvəl xəbər tutan Rus hökumətinin Kaluşkinə verdiyi 7 may 1737-ci il tarixli fərmanında deyilirdi ki, əgər Nadir şah Osmanlılarla sülh müqaviləsini imzalamaq niyyətindədirsə, onu bundan daşındırmaq mümkün olmaz. Kaluşkinə bağlanan müqavilənin surətini əldə edib Rusiya sarayına göndərməsi əmr olunurdu.[5] Rezident Şaha bildirməli idi ki, madam o, ruslardan xəbərsiz Osmanlılarla müqavilə bağlamışdır, rus hökuməti də Osmanlılarla müharibəni bitirib sülh bağlamaqda sərbəstdir.[6]

---

[1] ГАОО, ф. 394, оп. 4, д. 59, л. 51.
[2] ГАОО, ф. 394, оп. 4, д. 59, v. 50 a.ü.
[3] Yenə orada, v. 52 a.ü., 53.
[4] ГААО, ф. 394, оп. 1, д. 644, лл. 7-8 об.
[5] ГААО,ф.394, оп.1, д. 644, лл. 32-33.
[6] Yenə orada, v.32 a.ü.-34.

Sultan I Mahmudla Nadir şah arasında müqavilə imzalansa da, Nadir şah Rusiyaya verdiyi vədi rəsmən pozmadı, çünki İstanbulda əldə olunmuş razılıq barışıqdan o yana getmədi, müqavilə heç vaxt şah tərəfindən təsdiq olunmadı.

Sual oluna bilər ki, neçə illərdir Osmanlı dövləti ilə çox ağır və qanlı müharibələr aparan Nadir şah indi niyə Rusiya ilə müharibə başladığından rəqibinin ağır duruma düşməsindən istifadə edib onu çökdürmək üçün hərbi əməliyyatları davam etdirmədi?

Birincisi, artıq Osmanlı işğal etdiyi bütün Səfəvi ərazilərindən sıxışdırılıb çıxarıldığından ona qarşı müharibədə güdülən əsas məqsəd yerinə yetirilmişdi; Ikincisi, dini islahat keçirib sünni-şiə ixtilafını aradan qaldırmağa ümid edən Şahın Osmanlıya qarşı yenidən müharibəyə başlaması iki dövlət arasında ixtilafın daha da dərinləşməsinə səbəb ola bilərdi. Yeri gəlmişkən qeyd edək ki, Osmanlı sərhədində yaranan sakitlikdən istifadə edərək diqqətini Şərqə tərəfə yönəldən Nadir Şah yolüstü üç ay Qəzvində qaldığı vaxt[1] Muğan qurultayında elan olunan dini islahatların keçirilməsi haqqında fərman vermişdi. Bu fərmanla duada "Əli allahın dostudur" kəlməsinin işlədilməsi qadağan edilirdi. Nadir şah həmçinin "Fatihə" və "Təkbir"dəki bu kəlamın çıxarılmasını tələb edirdi: "Qoy bizim taleyimizin ondan asılı olduğu hökmdar əbədi sağ olsun" [2] ; Üçüncüsü, əsrin əvvəllərində baş vermiş hərc-mərclik və qiyamlar, əfqan, osmanlı və rus işğalı, Osmanlılara qarşı aparılan uzun, qanlı və yorucu müharibələrdən imperiyada bərbad iqtisadi vəziyyət hakim idi, Osmanlılarla yeni əməliyyatlar vəziyyəti daha da ağırlaşdıra bilərdi. Bunun əvəzində daha zəif Böyük Moğol imperiyası ilə müharibə və zəngin Hindistanda böyük gəlirlər ələ keçirmək daha cəlbedici görünürdü.

Beləliklə, göründüyü kimi, 1726-cı ildə Rusiya Avstriya ilə Osmanlıya qarşı yönəlmiş Vyana müqaviləsini imzaladıqdan

---

[1]Лоуренс Локкарт. Надир шах,с. 131

[2]Лоуренс Локкарт. Надир шах, s . 131-132.

sonra osmanlılarla münasibətdə daha sərt siyasət yürütməyə başladığından iki imperiya arasında münasibətlər kəskinləşməyə başlayır. Bu, Azərbaycanda Rusiya və Osmanlı arasında mərzləşdirmənin həyata keşrilməsində özünü göstərir.

XVIII əsrin 20-ci illərinin ortalarından Azərbaycan türkü – Əfşar tayfasından çıxmış qeyri-adi sərkərdəlik qabiliyyətinə malik Nadirin yorulmaz fəaliyyəti sayəsində Səfəvi dövləti yenidən dirçəlməyə başlayır. Beləliklə, Nadirin Osmanlının ələ keçirdiyi Səfəvi mülklərini geri qaytarmaq uğrunda uzunmüddətli və qanlı müharibələri başlayır. Osmanlı ordusunun Nadir tərəfindən dalbadal məğlubiyyətə uğradılması 1730-cu il sentyabrın sonunda İstanbulda baş verən Patrona Xəlilin başçılıq etdiyi üsyanın əsas səbəblərindən biri olmuşdu. III Əhməd taxtdan salınmış, qardaşı oğlu Mahmud taxta çıxarılmışdı.

II Təhmasib 1732-ci il Rəşt müqaviləsini bağlamaqla Rusiyanın Kür çayından cənubda yerləşən Xəzəryanı əraziləri qaytarmasına nail olmuş, lakin Şahın osmanlılarla hərbə başlayıb ağır məğlubiyyətə uğramasından istifadə edən Nadir 1732-ci il avqustun 22 (sentyabrın 1-i) də onu taxtdan salmış, bir neçə aylıq oğlunu III Abbas adı ilə şah, özünü isə onun vəkili elan etmişdi.

Təhmasibqulu xan Osmanlılara qarşı hərbi əməliyyatları bərpa edərək bir sıra ciddi uğurlar qazandığından Osmanlı komandanlığı barış istəmiş və 1733-cü ilin fevralında Bağdad şəhərində bağlanmış müqaviləyə görə Osmanlı tərəfi, son on ildə işğal etdiyi bütün torpaqlardan imtina etmişdi. İki dövlət arasında sərhəd 1639-cu il Osmanlı-Səfəvi müqaviləsində təsbit edilmiş sərhədlər olmalı idi. Lakin bu müqavilə sultan tərəfindən təsdiq edilmədiyindən hərbi əməliyyatlar yenidən qızışdı.

Bir sıra parlaq qələbələr qazanıb Azərbaycanın cənubunu bütünlüklə azad edən Nadir ölkənin şimalına yönəlmiş, Şirvanın çox hissəsini nəzarəti altına almış, Gəncədəki Osmanlı qarnizonunun uzunmüddətli müqaviməti ilə üzləşmişdi. Şahlıq dövləti artıq xeyli gücləndiyi üçün Xəzəryanı ərazilərin Osmanlı imperiyasının əlinə düşməsi ehtimalının yoxa çıxdığını düşünən Rusiya bu ərazilərin qaytarılmasını məqbul saydı. Nadirlə rus

səfiri S.Qolitsin arasında 1735-ci il martın 10-da (21- də) Nadirin Gəncə yaxınlığındakı düşərgəsində imzalanan müqaviləyə görə Rusiya 1722-ci ildən bəri işğal etdiyi bütün Xəzəryanı ərazilərdən imtina etdi. Müqavilənin şərtlərinə görə, Nadir Rusiyanın müttəfiqi olmalı, Bakı və Dərbəndi üçüncü dövlətə verməməli idi.

Nadir Gəncə qarnizonuna yardıma tələsən Abdulla paşanın 80 minlik ordusunu darmadağın etdikdən sonra Osmanlı sultanı Gəncə, İrəvan və Tiflisi verməyə razılaşmış, tərəflər arasında yenidən sülh danışıqları başlamışdı.

Osmanlılara qarşı hərbi əməliyyatları uğurla başa çatdıran Nadir Dağıstandakı iğtişaşları yatırmağa yönəlmiş, burada hakimiyyətini nisbətən möhkəmləndirdikdən sonra 1736-cı ilin əvvəllərində imperiyanın hər yerindən hakimləri, ordu sərkərdələrini və əhali nümayəndələrini Muğan çölünə toplayıb qədim türk ənənələri nümunəsində qurultay keçirmiş və özünün şah seçilməsinə nail olmuşdu.

Qurultayın mühüm qərarlarından biri də şiəliyin əvəzinə sünniliyin bir məktəbi kimi cəfəri təriqətinə etiqad olunması haqqında qərar idi. Bununla da Nadir şah şiə-sünni ədavətinə son qoyub müsəlman birliyinə nail olmaq niyyətində idi. Qəsri-Şirin müqaviləsində göstərilmiş sərhədlər təsbit olunmaqla sülh müqaviləsi tərtib olunsa da, Osmanlı sultanı cəfəriliyi sünniliyin beşinci məktəbi kimi tanınmaqdan və Kəbədə cəfərilər üçün beşinci sütun dikəltməkdən imtina etmişdi.

Nadir şahla Osmanlılar arasında sülh danışıqları getdiyi zamanda Osmanlı-Rusiya münasibətləri kəskinləşməkdə davam edirdi və 1736-cı il mayın 28-də Rusiya Osmanlı dövlətinə qarşı rəsmən müharibə elan etdi. Rusiya Nadir şahdan 1735-ci il Gəncə müqaviləsinə uyğun olaraq Osmanlılarla hərbi əməliyyatları bərpa etməyi tələb etsə də, Nadir şah tələbə əməl etməmiş, şərqə yönəlmişdi. O, ilk növbədə Qəndəharı tabe etmək niyyətində idi.

# IV FƏSİL

## XVIII ƏSRİN 30-cu İLLƏRİNİN İKİNCİ YARISI – 40-cı İLLƏRİNDƏ XƏZƏRYANI REGİONDA RUS-OSMANLI-ƏFŞAR RƏQABƏTİ

### IV.1. Nadir şahın Hindistana və Mərkəzi Asiyaya yürüşləri.

Nadir, şah elan olunarkən keçmiş Səfəvi ərazilərindən Qəndəhar və Bəhreyn hələ də dövlətin tərkibinə qatılmamışdı. Buna görə də o, həmin əraziləri geri qaytarmaq niyyətində idi. Beynəlxalq şərait Nadirin öz planlarını həyata keçirməsinə imkan verirdi. Rusiyanın Osmanlı dövlətinə müharibə elan etməsi Nadirdə imperiyanın şimal və qərb sərhədlərinin təhlükəsizliyi üçün bu dövlətlər tərəfindən bir təhlükə yaradılmayacağı qənaəti yaradırdı. O, arxayınca Qəndəharın və Bəhreynin alınması ilə məşğul ola bilər və daha sonra isə niyyətində olduğu Hindistan yürüşünə gedə bilərdi.

Bəhreyn asanlıqla geri alındı. Nadir şahın admiral təyin etdiyi Lətif bəy ingilis kapitanından 5 min tümənə "Nozumberlənd" gəmisini satın alıb, 1736-cı il martın sonunda, ya da apreldə Buşirdən Bəhreynə hərəkət etdi. Bu zaman Bəhreyn şeyxi Məkkə ziyarətində idi. Şeyxin nümayəndəsi bir müddət müqavimət göstərsə də, qüvvələr qeyri-bərabər olduğundan təslim oldu.[1]

Qəndəhar çox möhkəm qala olduğundan Nadir şah ona birbaşa həmlə etməyərək şəhəri mühasirəyə aldı. Ordu üçün şəhərin ətrafında şəhərciyə çevrilmiş bir düşərgə salındı və bu yeni şəhərciyə Nadirabad adı verildi.[2] 11 ay davam edən mühasirədən sonra iki dəfə güclü hücum həyata keçirildi və nəhayət 1738-cı il martın 28-də Qəndəhar qarnizonu təslim oldu.[3]

---

[1]Məhəmməd Quddisi. Nadir şah. Bakı, 1999, s. 175;, s. 96, 113
[2] Lawrence Lockhart. Nadir shah, p.l39.
[3]Степан Кишмишев.Göst. əsəri,s. 143-145.

Qeyd edək ki, Nadir şah Qəndəharda olarkən 1738-ci ilin mayında Osmanlı səfiri onun yanına gəlmişdi. Səfir ilk növbədə Osmanlı sultanı I Mahmudun Nadirin taxta çıxması münasibətilə təbrikini çatdırdı. Eyni zamanda, Sultanın cəfəriliyin sünniliyin beşinci məzhəbi kimi qəbul edilməsi, Kəbədə onun üçün ayrıca bir sütunun ucaldılması təklifini rədd etdiyini bildirdi. Sultanın cavabından razı qalmadığını bildirən Nadir şah qeyd etdi ki, dinlə bağlı təklif onun xarici siyasətinin əsasını təşkil edir. Buna görə də sultan sarayına yeni elçi göndərdi.[1]

Qəndəhar alındıqdan sonra Nadir şah bütün diqqətini Hindistana yürüşə yönəltdi. Yürüş üçün rəsmi səbəb kimi şahın təqib etdiyi əfqanlara Hindistan ərazisində sığınacaq verilməsi göstərilirdi. Nadir şah əfqanların Hindistana buraxılmaması tələbi ilə bir neçə dəfə Dehliyə elçilik göndərmişdi. Böyük Moğol Məhəmməd şah bu tələbi yerinə yetirəcəyinə söz versə də, əfqanların Hindistana keçməsinin qarşısını almaq üçün təsirli tədbirlər görməmişdi. Nadirin axırıncı dəfə Hindistana göndərdiyi qullar ağası Məhəmməd xan isə bir ilə yaxın müddət keçməsinə baxmayaraq hələ də geri dönməmişdi. Öz yerinə dövlətin idarəçisi təyin etdiyi böyük oğlu Rzaqulu Mirzəyə 1739-cu il fevralın 27-də göndərdiyi fərmanda Nadir şah Hindistana yürüşə çıxmasını əsaslandıraraq elçi kimi Əlimərdan xanı Hindistana göndərib ora qaçmış və Qızılbaş dövlətinə basqınlar edən əfqanların verilməsini tələb etdiyini, lakin göndərilən elçiliklərinin heç bir fayda vermədiyini, üstəlik sonuncu elçisi, Məhəmməd xan Türkmanın isə 1 ilə yaxın müddət keçdiyinə baxmayaraq geri buraxılmadığı üçün Qəznə və Kabili alandan sonra Cahanabada istiqamət aldığını yazırdı.[2]

Nadir şah 1738-ci ilin mayın 21-də Nadirabaddan Qəznəyə hərəkət edib, Hindistana doğru yürüşə başladı.[3] Şah özü ilə yürüşə 125 min nəfərlik ordu götürmüşdü.[4]

---

[1] Maykl Aksvorti. Göst. əsəri, s. 250-251.
[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1739 г., д. 5, лл. 233 - об.
[3] Lawrence Lockhart. Nadir shah. London, p.149
[4] Yenə orada.

Mukur yaxınlığında Moğol imperiyasının sərhədini keçən Nadir şahın ordusu Qəznəni müqavimətsiz ələ keçirdi.[1] Qısa müddətdə Kabul qalası Şahın nəzarəti altına keçdi.[2] 1738-ci il sentyabr ayının əvvəllərində Cəlalabad şəhəri döyüşsüz alındı.[3] Xeybər keçidini aşan Nadir şah Peşavər şəhərinə yaxınlaşdı və şəhər müqavimətsiz təslim oldu.[4] Dekabrın ortalarında Lahor istiqamətində hərəkəti davam etdirildi[5] və 1738-ci il dekabrın sonunda Lahor Nadir şaha döyüşsüz təslim oldu.[6] Ağır səfər yorğunluğu və iki gərgin döyüşdən sonra Şah 12 gün Lahorda dincəlib hərəkətini davam etdirdi.[7]

1739-cu il fevralın 24-də hindlilərin döyüş fillərini irəli buraxmaları ilə məşhur Karnal döyüşü başlanmışdı. Nadir şah dəvələrin belinə bağlanmış səyyar təndir kimi istifadə olunan mis qazanların içərisinə doldurulmuş çır-çırpıya od vurmağı əmr etdi. Belləri qızan dəvələr vahimə içində özlərini irəli atdılar. Onların vahiməli qaçışları və nəriltiləri düşmən fillərində də bir vahimə və çaşqınlıq yaratdı. İrəliyə doğru getmək mümkün olmayanda fillər geri qaçdılar və yolları üstündə olan hind döyüşçülərini tapdaladılar.[8] Beləliklə də düşmənin vahiməli döyüş dəstəsi nəinki zərərsizləşdirildi, hətta onun vasitəsi ilə düşmənə xeyli itki də verildi.

Nadir şah ata minib özü döyüşə qatıldı və ehtiyatda saxladığı bəzi qüvvələri də döyüşə atdı. Birinci cəhddə düşmənin sıralarını yarmaq mümkün olmadı. İkinci cəhddə Nadir şah Xan Dövranın başçılıq etdiyi xəttin müqavimətini qırdı. Dövran özü ağır yaralandı, onun sevimli oğlu və bir neçə sərkərdəsi isə həlak oldu. Sərkərdəsini itirən Xan Dövranın dəstəsi geri çəkildi.

Az sonra moğol qoşunları arasında çaşqınlıq yarandı.

---

[1]Lawrence Lockhart. Nadir shah. London, p.151.

[2] Yenə orada.

[3] Mehman Süleymanov.A.k.əsəri, s.342.

[4] Yenə orada.

[5] Yenə orada, s. 347-348

[6] Степан Кишмишев.A.k.əsəri, s.188

[7] Yenə orada, s.189.

[8] Mehman Süleymanov. A. k. əsəri,s.362-263.

Məhəmməd şah qorxuya düşüb filin belindən yerə sıçradı və ata minib döyüş meydanından qaçdı.[1] Düşmən ordusunun filləri, artilleriyası, tüfəngləri Nadir şahın əlinə keçdi.

Məhəmməd şahın vəziri Nizamülmülk iki ordu arasındakı ərazidə bayraq qaldırdı. Nizamülmülk Nadir şahın düşərgəsində, eləcə də Nadir şahın özü tərəfindən yaxşı qarşılansa da, Məhəmməd şahın barış anlaşmasını imzalamaq üçün onun düşərgəsinə gəlməsini tələb etdi. Əlacsız qalmış Məhəmməd şah Nadir şahın düşərgəsinə getdi və böyük ehtiramla qarşılandı. Danışıqlar türk dilində aparılırdı.[2]

Məhəmməd şah Nadir şahın irəli sürdüyü barış anlaşmasını qəbul etdi və öz düşərgəsinə yola salındı. Moğol döyüşçülərinə evlərinə dönməyə icazə verildi.[3]

Barış şərtlərinə görə, Məhəmməd şah Moğol düşərgəsində və Dehlidə olan bütün sərvətini Nadir şahın xəzinəsinə verməli idi.[4]

Fevralın 27-də oğlu Rzaqulu Mirzəyə ünvanladığı irəlidə adı keçən fərmanında Nadir şah Böyük Moğol Məhəmməd şahın türkmən əsilli olması ilə əlaqədar çox ehtiramla qonaq edildiyini və onun üçün çadırının yanında çadır qurulduğunu yazırdı.[5] O, ordusunun ön hissələrinin artıq Cahanabada daxil olduğunu, Məhəmməd şahı türkman olduğu üçün taxtda saxlayacağını, tacını və möhürünü qaytaracağını yazırdı.[6]

Martın 12-də Nadir şah öz ordusu və Məhəmməd şahın müşayiəti ilə Dehliyə doğru hərəkətə başladı və martın 20-də ağ atın belində Dehliyə daxil oldu.[7]

Dehlidəki ilk görüş Cahan şah tərəfindən xüsusi qonaqlar üçün inşa edilmiş iqamətgahda keçirildi.[8] Nadir şah Məhəmməd

---

[1] Степан Кишмишев. A.k. əsəri.s.195-196
[2] Lawrence Lockhart. Nadir shah, 1940, p.170
[3] Maykl Aksvorti. Göst. əsəri, s. 265.
[4] Степан Кишмишев.A.k.əsəri, A. k. əsəri, s.200
[5] АВПРИ, ф. 77, оп. 1, 1739 г., д. 5, л. 238.
[6] Yenə orada, v. 239.
[7] Mehman Süleymanov. k. əsəri, s.375
[8] Maykl Aksvörti. A.k.. əsəri, s. 84-85

şahla eyni türk kökünə malik olduğunu vurğulayaraq danışıqları türk dilində aparırdı.[1]

Nadir şahın Məhəmməd şahın Hindistanı idarə etməsinə icazə verməsi müqabilində sonuncu da Nadir şaha moğolların bütün xəzinəsini – qızıl, bahalı daş-qaşlar, eləcə də tovuz quşu təsvir olunan taxtını hədiyyə etdi.[2]

Dehlidə Nadir şahla Məhəmməd şah arasında sülh müqaviləsi bağlandı. Müqavilədə müharibənin günahkarı kimi Məhəmməd şah və onun əyanları göstərilir, Nadir şahın Hindistan tacının yenidən Məhəmməd şaha qaytarıldığı bildirilirdi. Bundan əlavə Ətək və Hind çaylarının ətrafındakı Absind və Nalasəng qalalarından qərbdə olan ərazilər, yəni Peşavər, Kabul, Qəznə, Əfqanıstan, Hezarələr yaşayan ərazilər və bəzi başqa ərazilər Əfşar imperiyasının tərkibinə keçirdi.[3] Nadir şahın Məhəmməd şahdan, onun əyanlarından və əhalidən aldığı pulların, cəvahiratın və digər qiymətli əşyaların məbləği təxminən 70 kurur, yaxud 700 milyon rupi təşkil edirdi.[4]

Hicri 1151-ci ilin zilhiccə ayında (Miladi 1739-cu ilin martında) Nadir şah Rzaqulu Mirzəyə yeni bir fərman göndərir. Həmin fərmanda şah yazırdı ki, Məhəmməd şah qohum türkmən qəbiləsindən olduğuna görə taxt-tacını və möhürünü ona qaytarmışdır. Məhəmməd şah da təşəkkür əlaməti olaraq Ətək çayından qərbdəki əraziləri – Peşavər, Kabil, Qəznə, Sind vilayətlərini, Hazarejat dağlarını Əfşarlar dövlətinə bağışlamışdı.

Nadir şah qazandığı qələbənin şərəfinə 1739-cu il martın 21-dən etibarən üç il müddətinə əhalini vergilərdən azad etdiyini bəyan edirdi. Fərmanda dükanlardan toplanan rüsumların, qeyri-müsəlmanlardan toplanan verginin, “yasaq” vergisinin, rəhdarinin, poçt atlarının saxlanması üçün toplanan verginin adı çəkilir.[5]

---

[1] Yenə orada, s. 87.

[2] Yenə orada, s. 85-86

[3] Lawrence Lockhart. Nadir shah, p.183-184.

[4] Yenə orada.

[5] АВПРИ, ф. 77, оп. 1, 1739 г., д. 5, л. 243-246

Dehlidə olduğu müddətdə Nadir şah oğlu Nəsrullah Mirzəyə Məhəmməd şahın qızını aldı və toyunu etdi. 57 gün Dehlidə qalan Nadir şah 1739-cu il mayın 16-də Dehlidən yola düşdü.[1] Qayıdarkən bir sıra çətinlikləri dəf edən Nadir şahın ordusu dekabr ayında Kabula çatdı. Buradan əvvəlcə Sind vilayətini yenidən itaətə gətirmək üçün yollanan Nadir nəhayət, 1740-cı ilin mayında Nadirabada gəldi. Beləliklə, müzəffər Hindistan yürüşü başa çatdı.

Nadir şah Nadirabaddan öz dövlətinə dönməyib Türküstan yürüşünə çıxdı. Hindistanda ələ keçirdiyi sərvəti isə Məşhədin yaxınlığındakı Kelat qalasına göndərdi. Böyük oğlu Rzaqulu Mirzə də ona qoşuldu.

Bəlxə çatan Nadir şah əvvəlcədən düzəldilmiş qayıqlarla Ceyhun (Amu-Dərya) çayını adladı.[2] Əvvəlcə Buxara hakimi Əbülfəz xan məğlubiyyətə uğradıldı[3] və Nadir şah Buxaraya daxil oldu. Nadir şah Çingiz xanın nəslindən olan Məhəmməd xanın nəvəsi Tahir bəyi Xarəzmə hakim təyin etdi.[4] Daha sonra, qısa müddətli mühasirədən sonra möhkəm Xivə qalası alındı.[5]

Nadir şah Buxarada olduğu zaman Rzaqulu Mirzə icazə alıb Məşhədə qayıtdı.[6] Nadir şah Buxaradan Xarəzmə doğru hərəkət etdi. Xarəzm hakimi İlbars xanın qüvvələri ilk toqquşmada itki verib geri çəkildilər. İlbars xan Fetənk qalası yanında da Nadir şahın yolunu kəsməyə cəhd göstərdi, ancaq buna nail ola bilmədi. İlbars xan yalnız Hezarəsb qalasına sığınmaqla xilas oldu.[7]

Bir müddət sonra Nadir şahın qoşunları ilə yeni döyüşdə məğlubiyyətə uğrayan İlbars xan Həng qalasına sığındı. Bir neçə günlük mühasirədən sonra qala divarlarında yarıq yaradan şah

---

[1] Mehman Süleymanov. A. kk. əsəri, s.382

[2] Mirzə Mehdi xan Astrabadi.Göst.əsəri, s.393

[3] Lourens Lokhart. Nadir shah, p.226

[4] Lourens Lokhart. Nadir shah, p. 232; Mehman Süleymanov, s.405

[5] Mehman Süleymanov.Göst.əsəri, s.405

[6]Maykl Aksvörti. Göst. əsəri, s. 287-288.

[7] Lourence Lokhart. Nadir shah. p.230; Mehman Süleymanov. Göst. əsəri, s. 402

qoşunları qəti həmləyə keçdilər. Qorxuya düşmüş İlbars xan aman istədi. Nadir şah onu qəbul edib bağışladı.[1] Lakin sonradan şahın elçisini qətlə yetirməsi səbəbi ilə onu qətlə yetirdi.

1740-cı il oktyabrın 9-da Şah Xivədən Çarcoya doğru geriyə hərəkətə başladı.[2]

Rusiyanın hakim dairələri Nadir şahın Türküstandakı əməliyyatlarından çox narahat olurdular. Həştərxan qubernatoru knyaz Mixail Qolitsin 1740-cı ilin sentyabrnda Kinja (Gəncə) Çanayev adlı bir Həştərxan sakinini, əslən Noqay tatarını tacir adı ilə Mərkəzi Asiyaya Nadir şahın harada olması və hərəkətləri barədə dəqiq məlumat toplamaq üçün göndərdi. Çanayevin dediyinə görə, o zaman Nadir şaha Cahanşah (yəni kainatın şahı) deyə müraciət edirdilər.[3]

Nadir şah dekabrın 23-də Çarcoya çatdı, orada çox dayanmadan Mərvdən keçərək öz doğma yurduna qayıtdı. Abivərd və Dəstgirddə oldu, Kelata baş çəkdi.

Daha sonra Nadir şah Məşhədə getdi. O, Məşhədi öz imperiyasının paytaxtı hesab edirdi. Hərçənd ki, Şah hansısa vacib dövlət işlərini həyata keçirmək üçün şəhərlərdə, hətta sevdiyi Məşhəd şəhərində qaldıqda çox darıxırdı. Bir tarixçinin dediyi kimi Nadir şah imperiyasının gerçək paytaxtı yəhər və atın beli idi.[4] İmperiyanın şərqə genişlənməsi ilə əlaqədar Məşhəd İsfahana nisbətən daha mərkəzi coğrafi mövqedə yerləşirdi. Məşhəd Nadir şaha doğma olan Xorasan vilayətinin mərkəzi idi. Bundan əlavə Məşhəd İsfahandan fərqli olaraq Səfəvi sülaləsi ilə möhkəm bağlı deyildi. Nadir şah Məşhədin inkişafı üçün əlindən gələni edirdi. Mənbələrin məlumatına görə, o zaman Məşhəddə 60 min ev vardı, deməli burada 300 min nəfərə yaxın əhali yaşayırdı.[5]

---

[1] Lawrence Lockhart. Nadir shah, p.230

[2] Yenə orada, s. 230; Mehman Süleymanov. Göst. əsəri, s. 402

[3] QAAO, f. 394, siy. 4, iş. 6, v. 5 a.ü.

[4] Lawrence Lockhart. Nadir shah, p. 236

[5] Lawrence Lockhart. Nadir shah, p. 236

## IV.2. Rusiyaya böyük elçilik. Elçiliyin məqsədi nə idi?

XVIII əsrin 30-cu illərinin sonunda Nadir şahın Rusiya ilə əlaqələri çox yaxşı idi. L.Lokkart Məhəmməd Kazımın "Tarixi-Nadiri"nin itmiş birinci cildinə istinadən yazır ki, görünür 1735-ci ildə Kaluşkin Ağ Banudan (Anna İoannovnadan) məktub və hədiyyələr gətirmişdi. Hədiyyələrin içində olan qeyri-adi mexaniki oyuncaqdan Nadirin çox xoşu gəlmişdi. Nadir İmperatriçəyə cavab məktubunda yazmışdı ki, Qəndəharı aldıqdan sonra "Ağ şahzadə" ilə görüşmək şərəfinə nail olacaq və ona evlilik təklif edəcək, o zaman iki dövlət bir olacaqdır.[1]

1739-cu il dekabrın 14-də İmperatriçə Anna İoannovna Nadir şahın elçiləri Məhəmməd Rza xan Qacarı və Teyyub xan Əfşarı qəbul etmişdi.[2]

Qəbul çox təmtəraqlı olmuşdu. Elçiləri müşayiət etmək üçün iki imperator kareti (dördtəkərli araba), 5 saray kareti ilə general reyketmeyster knyaz Fyodr Şerbatov, digər saray qulluqçuları, və elçilərin minməsi üçün cins atlar səfirlərin Vasilyev adasındakı mənzilinə göndərilmişdilər.[3]

Nadir şah Rusiyadakı elçilərinin geri qayıtmasını gözləmədən Rusiya sarayına yeni elçilik göndərmək qərarına gəldi. İ.Kaluşkin 2 yanvar 1740-cı ildə İsfahandan göndərdiyi məruzəsində yazırdı: "Nadir şah deyir ki, əgər Rusiya Osmanlı dövləti ilə hələ sülh müqaviləsi bağlamamışsa, o da Osmanlıya qarşı hərbi əməliyyatlara başlamağa hazırdır". Şah Rusiya sarayının Avstriya imperatoru ilə razılığa gələrək Nadir şahın yanına elçi göndərmək niyyətini alqışlayırdı (Fərmanda diqqəti çəkən məqamlardan biri Kaluşkinin Təbriz, İrəvan, Gəncə, Tiflis, Ərdəbil, Şamaxı, Bakı və Dərbəndin Azərbaycan ərazisinə daxil olmasını qeyd etməsidir). Kaluşkinin sözünə görə, Şah Sərdar xanı Rusiyaya göndərməyə hazırlaşırdı.[4]

İ.Kaluşkin 31 yanvar 1740-cı il tarixli məruzəsində yazırdı ki,

---

[1] Yenə orada.
[2] ГААО, оп. 394, оп. 1, Дополнения, д.13, лл. 46-49.
[3] АВПРИ, ф.77, оп.1, 1739 г., д.10, л. 434.
[4] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1740 г., д. 6, лл. 11-12.

Rusiyaya göndəriləcək səfirin kuryerindən Məşhəddə olan Sərdar xanın onu Rusiyaya göndəriləcək fillərin belinə örtməkdən ötrü zərbaf parçalar almaq üçün İsfahana göndərdiyini öyrənmişdi. Səfir 16 fil aparırdı. Bunlardan 5-ini səfir öz mülahizəsi ilə nüfuzlu Peterburq əyanlarına verməli idi. Sərdar xan Məşhəddən Astrabad Rəşt-Şamaxı-Bakı-Dərbənd marşrutu üzrə hərəkət etməli idi. Nadir şah səfirə quru yolla hərəkət etməyi əmr etmişdi. Çünki, bundan əvvəl göndərilmiş fil gəmidə Bakıdan Həştərxana aparılarkən dizə qədər dəniz suyunun içində qaldığı üçün ayaqlarında yara əmələ gəlmişdi.[1]

Mirzə Mehdi xan hələ Dehlidə olarkən İrandakı Rusiya rezidenti İ.Kaluşkinə məktub göndərərək İmperatriçə Anna İoanovnaya, onun bacısına və əmisi qızına (I Pyotrun qızı Yelizaveta nəzərdə tutulur) göndəriləcək hədiyyələrin siyahısını da əlavə etmişdi.[2]

Nadir şah İmperatriçəyə brilyant qaşlı və qiymətli daşlarla bəzədilmiş 9 üzük və bir çox digər bahalı hədiyyələr, həmçinin 9 fil göndərmişdi.[3] İmperatriçənin bacısına 5 almazla və qiymətli daşlarla bəzədilmiş üzük, daha bir sıra hədiyyələr[4],Yelizaveta Petrovnaya qiymətli daşlarla bəzənmiş 5 üzük, daha bir sıra digər qiymətli daş-qaş və hədiyyələr göndərilmişdi.[5]

Qeyd edək ki,Nadir şah elə Hindistandan Osmanlı sultanına da hədiyyələr göndərmişdi.[6]

Kaluşkin elçilik heyətinin məmurlar və hərbçilər daxil olmaqla 1500 nəfərdən ibarət olduğunu yazırdı. Dağıstan ərazisində səfirliyin təhlükəsizliyini təmin etmək üçün sərdar Səfi

---

[1] Yenə orada, v. 78.

[2] Ильин. О походе Надир-шаха в Индию(исторические материалы).Астраханские губернские ведомости.1847,№№ 26-27.См.: А.А.Иванов,В.Г.Луконин,Л.С.Смесова.Ювелирные изделия Востока(Древний,средневековый периоды).Москва:Искусство,1984,с.11

[3] АВПРИ, ф.77(СРП), оп.1, 1739 г., д.10, л.433

[4] Yenə orada, v.433

[5] Yenə orada, v. 434.

[6] :А.А.Иванов,В.Г.Луконин,Л.С.Смесова.Göst.əsəri,c.11

xana 4 min döyüşçü ayırmaq əmr olunmuşdu. Beləliklə, Qızlara kimi təkcə hərbçilərdən 5 min nəfər gələcəkdi. Ümumilikdə, Qızlara 8 min adamın gələcəyi ehtimal olunurdu. Kaluşkinin yazdığına görə, elçiliyi ərzaqla təmin etmək üçün Rusiyanın himayəsində olan Əlişin Dərbəndlə Qızlar arasında olan kəndinə basqın etmək nəzərdə tutulurdu. Bununla əlaqədar Kaluşkin Rzaqulu Mirzəyə Əfşar qoşunlarını Dərbənddən o yana göndərməməsini yazmışdı.[1]

P.Q.Butkov yazır ki, Nadir şah Böyük Moğol imperatoru üzərində qələbəsi barədə xəbər vermək üçün hələ 1740-cı ilin əvvəlində öz yaxın qohumunu və ober-ştalmeysteri 16 min döyüşçü və 20 topla Rusiyaya göndərdi. [2] Elçilik Rusiya sərhəddinə yaxınlaşdığı zaman bu barədə rus sarayına məlumat verildikdə bu qədər yadelli döyüşçünün (özü də süvari) paytaxta buraxılmasının təhlükəli olduğunu düşünüb sərhəd komandirlərinə əmr edildi ki, yolda atları yemlə təmin etməyin mümkün olmayacağı, buna görə də Rusiyaya yalnız elççilik heyətinin buraxılacağı elçilərə bidirilsin.

Butkovun yazdığına görə, səfirlər Rusiya sərhədinə yaxınlaşdıqları zaman general S.Apraksin səfirliyin Qızlardan Moskvaya kimi böyük çöllərdən keçəcəyini nəzərə alaraq, belə böyük heyəti ərzaqla və atlarını alafla təmin etmək mümkün olmayacağına görə 3 min adamın götürülməsini xahiş edir. Beləliklə də səfirlik 3 minlik heyətlə Rusiyaya daxil olmuşdu.[3]

Sərdar Qırxlı bəyin elçiliyi 1739-cu il oktyabrın 23-də yola düşmüş,1741-ci il oktyabrın 2-də Peterburqa çatmışdı. Səfirliyin belə ləng hərəkət etməsi onun 14 fil aparması ilə izah olunurdu. Səfirin qəbulu və hədiyyələrin təqdim edilməsi 1741-ci il oktyabrın 6-da baş vermişdi.[4]

Elçilər 1741-ci il oktyabr ayının əvvəllərində Sankt-

---

[1] АВПРИ, ф.77,оп.1,1740 г.,д.6,лл. 78 a.ü.-79.

[2] Бутков П. Материалы, т. 1, с. 209.

[3] Yenə orada.

[4] А.А.Иванов,В.Г.Луконин,Л.С.Смесова.Ювелирные изделия Востока, сс.11-12

Peterburqa çatdı.

Bir ehtimala görə, südəmər VI İvan Antonoviçə qəyyumu olan anası Anna Leopoldovnaya qulluq göstərməyə çalışan kansler Osterman elçilərə rədd cavabı vermiş və onlara Yelizaveta ilə görüşmək imkanı verməmişdi. Digər ehtimala görə isə, nəinki evlilik təklifinə müsbət cavab verəcəyi təqdirdə, hətta ona maraq göstərəcəyi təqdirdə taxt-tacın qəyyumu Anna Leopoldovanın tərəfdarlarında Yelizavetanın taxta çıxmağa çalışması təsəvvürü yaradacağından qorxan Yelizaveta özü Nadir şahın təklifinə rədd cavabı vermişdi. Çünki, hələ bundan əvvəl – Anna İoannovnanın hökmranlığı zamanında Yelizavetadan taxta iddiaçı olmasına görə şübhələnirdilər.[1] Müasirləri arasında isə belə fikir gəzirdi ki, məhz Yelizavetadan xəbərsiz Nadir şahın təklifinə rədd cavabı verilməsi Yelizavetanı taxta hüquqları üçün açıq mübarizə aparmağa vadar etmişdi və şah elçiliyinin gəlməsindən heç iki ay keçməmiş Yelizaveta Preobrajensk polkunun qvardiyaçılarının yardımı ilə taxt-tacı ələ keçirmişdi.[2]

Yelizaveta Petrovna taxta çıxandan 25 gün sonra bu barədə Nadir şaha 28 noyabr 1741-ci il tarixdə qramota göndərmişdi. İmperatriçə iki dövlət arasında dostluq münasibətlərinin bundan sonra da davam edəcəyinə inamını bildirirdi. Rezident Kaluşkinin vəzifəsində qalması da təsdiq olunurdu.[3] Kansler Aleksey Çerkasskinin şahın oğlu dövlətin vəkili Nəsrullah Mirzəyə 28 noyabr 1741-ci il tarixli məktubunda bu haqda xəbər verilirdi.[4]

Nadir şah Tehranda olduğu zaman Rus dövlətinin nümayəndəsi Kaluşkini qəbul edərkən yəqin ki, qəbul zamanı Kaluşkin Yelizaveta Petrovnanın taxta çıxması barədə fərmanını Nadir şaha vermişdi. Nadir şah həmin fərmana cavab olaraq bir fərman yazıb göndərərək, İmperatriçəni taxta çıxması münasibəti

---

[1] А.Б.Громов, С.Н. Табаи. Персия: история реоткрытой страны. III изд. Москва:Седра,2017,с.536.

[2] Yenə orada, s.536 .

[3] ГАОО, ф. 394, оп. 4, д. 67, л. 189 об.; АВПРИ. ф 77 (СРП), оп, 1, 1741, д. 4, л. 189 об.

[4] Yenə orada, v. 5.

ilə təbrik etmişdi.

Kaluşkin Nadir şahı Dağıstan yürüşündə müşayiət edirdi. O, yürüş haqqında müşahidələrini yazıb Rusiya sarayına göndərirdi. Kaluşkinin məlumatları Nadir şaha düşmən münasibət bəsləyən, onun hərbi zəfərlərindən ehtiyatlanan bir dövlətin nümayəndəsi tərəfindən yazıldığına görə qərəzli səciyyə daşısa da, həmin yürüşləri öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir.

## IV.3. III Dağıstan yürüşü və Rusiya ilə münasibətlərin kəskinləşməsi

Təqribən 1742-ci ildən başlayaraq Nadir şahla Rusiya arasında münasibətlər kəskinləşməyə başlayır. Münasibətlərin pisləşməsinə təsir edən amillərdən biri Nadir şahın Rusiya ilə həmsərhəd olan Dağıstanda itaətsizliyə son qoymaq üçün həyata keçirdiyi hərbi əməliyyatlar olmuşdur.

Məlum olduğu kimi hələ 1738-ci ildə Car və Talada qiyam başlamış, qiyamçılar dağıstanlıların yardımı ilə Nadir şahın Azərbaycan hakimi təyin etdiyi qardaşı İbrahim xanı məğlubiyyətə uğratmışdılar. İbrahim xan öldürülmüş və cəsədi təhqir olunmuşdu. Hindistan yürüşü ərəfəsində olduğundan Nadir şah Car və Talanın, habelə Dağıstan hakimlərinin itaətsizliyinə son qoymaq üçün əməli tədbir görə bilməmişdi.

Hindistan yürüşü başa çatdıqdan sonra Nadir şah Car, Tala və Dağıstan hakimlərini itaətə gətirmək üçün tədbirlər görməyə başladı. Şah Dağıstana üçüncü yürüşünə başlamazdan əvvəl, hələ 1740-cı ilin mayında Nadirabadda olarkən Abdali tayfalarının başçısı Əbdül Qəni xana və qaynı Fətəli xana Şirvana gedib Gürcüstan və Azərbaycandakı sərkərdələrlə birləşib payız və qış dövründə Car və Tala avarlarını cəzalandırmağı tapşırmışdı. Qəni xan avarlara böyük zərbələr vurub çoxunu tabe olmağa məcbur etmişdi.[1]

Nadir şahı Dağıstan yürüşündə müşayiət edən Kaluşkinin Nadir şah haqqında təəssüratlarından məlum olur ki, Nadir

---

[1] Lawrence Lockhart. Nadir shah, p.341.

hərəkət sərbəstliyini qoruyub saxlayan qətiyyətli şəxsiyyət idi. Səfir hər hansı bir məsələ haqqında konkret söz deməyə çətinlik çəkirdi. Kaluşkinin qeydlərindən belə məlum olur ki, Nadir şahın Osmanlı imperiyası ilə münasibətləri əvvəlkindən yaxşıya, yaxud pisliyə doğru o qədər də dəyişməmişdi. Nadirin Rusiyaya münasibətinin hansı məcrada inkişaf etdiyini söyləmək də çətin idi.[1]

Nadir şah Məşhəddən hərəkət edərkən Mazandaranda Savadkuh meşəliyində onun döyüşçülərindən biri pusquda durub Şaha dalbadal iki güllə atmış, lakin yalnız Şahı sol əlinin baş barmağından yaralamağa və atını öldürməyə nail olmuşdu. Nadir şah qəsdçinin axtarıb gətirilməsini əmr etmişdi.[2]

Bir neçə gün Tehranda qaldıqdan sonra Nadir şah Qəzvinə doğru hərəkət etmiş, buradan Bərdəyə, oradan da Qəbələyə getmişdi. Qəbələdən Şahdağı keçməklə Qumuqa yollanan Şah bir ay orada qaldı. Şamxal Xaspolad xan, Surxay xan Qazıqumuqlu və usmi Əhməd xan əyanlarının müşayiəti ilə onun yanına gəlib itaətlərini bildirdilər.[3] Avqustun 14-də Nadir şah Dağıstanın mərkəzindəki Qazıqumuq qalasına daxil oldu. Rezident İ.Kaluşkin 16 sentyabr 1741-ci il tarixli məruzəsində Surxay, usmi və bir sıra Dağıstan kəndləri tabeçilik göstərdiyinə görə Nadir şahın "çox lovğalandığını", eyni zamanda rus hakimiyyət orqanlarının atlarını Əfşar dövlətinə buraxmadığına görə çox qəzəbli olduğunu yazırdı.[4]

Lakin Şahın dağıstanlıların böyük bir hissəsini köçürmək qərarı Dağıstanda Nadir şaha qarşı müqavimətin güclənməsinə səbəb olmuşdu. Kaluşkinin də 12 avqust 1741-ci il tarixli raportunda yazdığına görə, Şahın 20 min dağıstanlını öz ordusuna cəlb etmək və digərlərini də İrana köçürmək qərarı yerli əhali arasında ona qarşı müqaviməti gücləndirmişdi. Müqavimətin yatırılması üçün Nadir şah sərt tədbirlərə əl atdı. Qoşunları

---

[1] Aksvorti M. Göst. əsəri, s. 302.
[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1741, д. 7. л. 133 и об.
[3] Mehman Süleymanov. Göst.əsəri, s.411.
[4] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1741, д. 7. лл. 351-352.

dəstələrə bölərək dağlarda yerləşən müqavimət ocaqlarını yatırmağa göndərdi. Ancaq, bir çox kəndlər alınsa da, bir çoxları müqavimət göstərirdi. [1] Nadir şahın qoşunları həm mürəkkəb təbii, həm də ağır döyüş şəraiti ilə qarşılaşdılar.

Payız yaxınlaşanda Dağıstanda müqavimət daha da gücləndi. Dağlıların kiçik dəstələrlə və təbii şəraitin imkanlarından bacarıqla istifadə edərək fəaliyyət göstərməsi Nadir şah qoşunlarının böyük dəstələrlə fəaliyyətini mümkünsüz edirdi.

Məruzədən məlum olur ki, Nadir şah o, dağıstanlılar üzərində qələbə çaldıqdan sonra qaçan dağlıların Rusiya ərazisinə buraxılmamasını rus hakimiyyət orqanlarından tələb edirdi.[2]

Nadir şah Osmanlı sarayının Dağıstan hakimlərini ona qarşı qaldırdığını anlayırdı. Qəzəblənmiş şah Surxaya demişdi ki, Avar hakimini cəzalandırdıqdan sonra Surxayın uşaqlarını ələ keçirib, özünü ayaqlarından tutub bütün Dağıstanda süründürəcək və sonra osmanlılara qarşı yönələcək.[3]

Sentyabr ayında Nadir şah çətin keçilən qarlı dağ yolları ilə Avarıstandakı Xunzax qalasına doğru irəlilədi. Xunzaxı ələ keçirmək üçün aparılan əməliyyatlar qışın əvvəllərinə kimi uzandı. O qədər də təhlükə törətməyən kiçik bir qalanı ələ keçirmək əməliyyatı ilə ordunu yormaq istəməyən Şah həlledici zərbəni daha isti aylara qədər təxirə salmağı düşünürdü. O Dərbəndə çəkildi.[4] Nadir şah ərzaq və yem ehtiyatlarının daha çox olduğu Dərbənddən 3 fərsəng aralıdakı Kafir çölündə düşərgə saldı.[5]

Dağlılar Nadir şahın geri çəkilməsini onun zəifliyi kimi qiymətləndirdilər və Nadirin ayrı-ayrı dəstələrinə partizan zərbələri endirməyə başladılar. Avar döyüşçüləri şah qoşunlarını təqib edirdilər. Şah tüfəngçilərinin fitilli tüfənglərinin çoxu soyuq havada işləmirdi. Avarlar isə Rusiya və Osmanlı istehsalı olan

---

[1]Mehman Süleymanov.Nadir şah, s.412.
[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1741, д. 7. л.358 об.
[3] Yenə orada, v. 364 və a.ü.
[4] Maykl Aksvörti. Göst. əsəri, s. 306.
[5]Mehman Süleymanov. Nadir şah, s.414-415.

çaxmaqlı tüfənglərlə silahlanmışdılar və bu tüfənglər hava şəraitindən asılı olmayaraq öz işləkliyini saxlayırdı. Avarlar bu üstünlükdən, həm də bələd olduqları yerli şəraitdən məharətlə istifadə edərək Nadir şah ordusunun dəstələrinə zərbələr endirib böyük itki verirdilər.

Elə bu vaxt nəhayət ki, Nadir şaha sui-qəsd etmiş şəxsi tapıb gətirdilər. Bu vaxtilə Şahın ordusunda xidmət etmiş Nikqədəm adlı birisi idi. Nadir Nikqədəmə qəsdin təşkilatçısının adını deyəcəyi halda həyatını bağışlayacağını vəd etdi. Nikqədəm Şahı öldürməyi ona Rzaqulunun sifariş verdiyini bildirdi. Rzaqulu isə ona qarşı sürülən ittihamı qətiyyətlə rədd etsə də onun əvvəllər etdiyi ehtiyatsız davranışı və söyləntiləri Nadirin ürəyində ona qarşı güclü şübhə yaratdığından Şah Nikqədəmin sözünə inanıb oğlunun gözlərinin çıxarılması haqqında göstəriş verdi. [1] Nadir şahın sevimli oğlunun gözlərini çıxartdırması, sonra da səhvini anlayıb peşiman olması psixoloji durumuna çox ağır təsir göstərdi.

Kaluşkin 27 yanvar 1742-ci ildə Dərbənddən dağıstanlıların şah düşərgəsinin yaxınlığındakı üç səngərə hücum etdiklərini yazırdı. Nadir şah bundan çox qəzəblənmiş və bütün Dağıstanı dağıdacağı ilə hədələmişdi. Dağıstanın bütün hakimləri də toplaşıb şaha müqavimət göstərəcəklərinə and içmişdilər. Eyni zamanda onlar əgər Şah Dağıstanı tərk edib Muğan çölünə çəkilərsə, barışa və Şahın tələb etdiyi 20 min döyüşçünü verməyə hazır olduqlarını bildirmişdilər. Onlar şahın Eldar şamxalı Dağıstan hakimi təyin etməsini, dağıstanlılara məvacib verməsini tələb edirdilər.[2]

May ayının sonunda Nadir şah havaların istiləşməsi və dağlarda qarın əriməsindən istifadə edərək Tabasarana, orada toplanmış qiyamçıları məhv etməyə yönəldi. Dağıstanın hər yerindən kömək axışıb gəlməsinə rəğmən Nadir şah tabasaranlılara üstün gəldi.[3] Dibək adlı məntəqədə demək olar ki,

---

[1] Maykl Aksvörti. Göst. əsəri, s. 311.
[2] ГАОО, ф. 394, оп. 4, д. 69, лл. 1 об. – 3.
[3] Mehman Süleymanov.Göst. əsəri, s.415-416.

bütün Dağıstandan toplanmış qüvvələrə qarşı hücum çox qanlı bir döyüşlə nəticələndi. İki günlük döyüşlərdən sonra dağıstanlılar mühasirəyə düşməmək üçün geri çəkildilər.[1]

Nadir şah usmi Əhməd xanın sığındığı Qüreyş qalasını almağa dəstə göndərdi. Qala alındı və dağıdıldı. Əhməd xan Avarıstana qaçıb orada gizləndi. Beləliklə, son dərəcə qanlı və ağır döyüşlər nəticəsində Nadir şah Avarıstan istisna olmaqla Tabasaran, Qaraqaytaq və Qumuq daxil olmaqla Dağıstanın böyük hissəsini nəzarət altına aldı. O, eyni zamanda bu ərazilər üzərində nəzarəti saxlamağın çətinliyini anlayayaraq tayfa başçılarına və yerli əyanlara nəvaziş göstərdi.[2]

Nadir şahın Dağıstanda hərbi əməliyyatlar aparması qonşu rus hökumətini çox narahat edirdi. Hələ 1741-ci ildə rus hökuməti general-leytenant Tarakanova göstəriş verərək əgər o, Şah qoşunlarının, yaxud hansısa dəstəsinin Dərbənd tərəfdən Rusiya sərhədlərinə yaxınlaşmasını müşahidə edərsə, onları Rusiya sərhədlərinə buraxmamağı tapşırmışdı. Terek çayı sahilində və ya harada daha yaxşıdırsa, maneə yaradılmalıdır. Təhlükə yaxınlaşdığı zaman ilk növbədə Həştərxana nizami hissələr gətirilməli, generalın özü də təcili ora getməlidir.[3]

Tarakanov da öz növbəsində Şahın Rusiya sərhədlərinə hücum etməsi ağlabatan olmasa da, general-mayor fon Treydenə ehtiyat tədbirləri görməsini əmr etmişdi. Əgər şah qoşunlarının Qızların 60 verstliyində yerləşən Enderi kəndinə yaxınlaşması xəbəri alınsaydı, fon Treyden Şahın, yaxud sərkərdələrinin birinin yanına bir zabiti göndərib onların Rusiya sərhədinə yaxınlaşmamasını tələb etməli idi. Bu zaman Şaha bildirilməli idi ki, İmperatriçə Şahın Rusiya sərhədlərinə daxil olmasına imkan verməz. Əgər Şah deyərdisə ki, o, Rusiya hüdudlarına deyil, əleyhdarlarına qarşı gedir, ona bildirilməli idi ki, əgər o, enderililərə, kostyukovlulara və otraqunlulara qarşı hərəkət etmək

---

[1] Yenə orada, s.417.

[2] Yenə orada, s.419.

[3] АВПРИ, ф. 77, оп. 5 (1722-96 гг.), д. 2, лл. 13-14 об.

istəyirsə, bu kəndlərin Rusiya sərhədlərinə yaxın olduqları üçün Rusiya himayəsində olduqlarını bilməlidir. Buna görə də həmin kəndlərin var-yoxdan çıxarılması İmperatriçənin xətrinə dəyər. Həm də həmin kəndlərin sakinləri xilas olmaq üçün Rusiya sərhədlərinə qaça və burada şah qoşunları ilə döyüşə girə bilərlər. Onda rus qoşunları da gözləmə mövqeyi tutmayacaq. Buna görə Şah öz qoşunlarına Rusiya hüdudlarına girməyi qadağan etməlidir.[1]

Şah xəbərdarlığı qulaq ardına vurub Rusiya hüdudlarına hücum etmək niyyətinə düşərdisə, keçidlərdə istehkamlar artırılmalı, Terek çayının keçmək mümkün olan yerləri zaseklərlə və artilleriya ilə qorunmalı idi.[2]

Əgər şah qoşunlarının qarşısını almaq mümkün olmazdısa və onlar Terek çayını keçib Rusiya hüdudlarına daxil olardılarsa, sərhəddəki rus hərbi dəstələri döyüşə-döyüşə Qızlar qalasına çəkilməli, və ya qalanın yanı ilə Həştərxan yolu ilə, düzənliyə, yaxud da Terekin yuxarı axarı boyu Kabardaya və ya Qumuğa çəkilməli idilər. Əgər şah qoşunları hansısa Rusiya qalasını mühasirəyə alardılarsa, Həştərxana, general-leytenant Tarakanova təcili xəbər verilməli, tezliklə dəniz yolu ilə yeni qüvvələr göndərilərək hər cür üsulla, tüfənglərlə və artilleriya ilə düşmən dəf olunmalı, qalanı müdafiə etmək, düşmənə basqınlar edərək onun möhkəmlənməsinə yol verməmək lazım idi.[3]

Kaluşkin öldüyü üçün Rusiya nümayəndəsi vəzifəsini ifa edən səfirlik tərcüməçisi V.Bratişşev Dərbənddən göndərdiyi 12 iyun 1742-ci il tarixli məruzəsində yazırdı ki, Şahın tələbi ilə onun Dərbənddən 6 mil aralıda yerləşən düşərgəsinə getmişdir. Şahın vəziri Mirzə Mehdi xan və vaxtilə Rusiyada səfir olmuş Mirzə Məhəmməd Kafi demişdilər ki, dağıstanlılar şah təbəəsi Xurşud bəyi qarət etdiklərinə görə Nadir şah onları cəzalandırmaq

---

[1] АВПРИ, ф. 77, оп. 5 (1722-96 гг.), д. 2, лл. 13-14 об.

[1]. Yenə orada, v.15 a.ü.

[2] Yenə orada, v. 8 və a.ü.

[3] АВПРИ, ф. 77, оп. 5 (1722-96 гг.), д. 2, л. 17 об.

qərarına gəlmişdir. Bu barədə şah Rusiya tərəfinə əvvəldən xəbərdarlıq edir ki, onun Rusiya sərhədlərinə yaxınlaşması düşmənçilik hərəkəti kimi qiymətləndirilməsin və endirileylilərə qaçıb Rusiya hüdudlarında gizlənmələrinə imkan verilməsin. Bratişşev Rusiya kanslerinə, Qızlar və Həştərxandakı rus komandirlərinə bu barədə yazmalıdır.[1]

Bratişşev cavabında Endirey kəndinin guya qədimdən Rusiya himayəsində olduğunu, bunun sübutu kimi Qızlar qalasında endireylilərin əmanətlərinin saxlandığını söyləmişdi. Bratişşevin bu sözləri Nadir şaha çatdırılsa da o, fikrindən dönməmiş və bu məqsədlə Əsədulla bəyi kanslerin yanına göndərəcəyini bildirmişdi.[2]

V. Bratişşev 1742-ci ilin noyabrında Nadir şahın şimala hərəkət etdiyini yazırdı. Yəqin ki, donmuş Terek çayını keçib Qızlara getmək istəyirdi. Bu zaman Çeçen hakiminin məktubla müraciət edib Şahın təbəəsi olmaq arzusunu bildirməsi, Rusiyaya daxil olması üçün Şaha öz bələdçiliyini təklif etməsi yəqin ki, bu qərarın qəbul olunmasına təsir etmişdi. Həm də Nadir şah Kabarda və Kubandan keçərək Krıma getmək istəyirdi. Qeyd edək ki, bir sıra Şimali Qafqaz hakimləri, o cümlədən çeçen hakimi Aydəmir Nadir şaha meyil edirdi. Bratişşev 3 yanvar 1743-cü il tarixli relyasiyasında Aydəmirin Əli Sultan adlı qardaşı oğlu çeçen kadisi və üç əyanla şahın düşərgəsinə gəlib çeçenlərin ona sədaqətini bildirərək Nadir şah Rusiya sərhədlərinə yaxınlaşdıqda ona yardım vəd etdiklərini yazırdı. Şah çeçen nümayəndələrinə onun Koysu çayına gəlməsinə hazır olmalarını tapşırmışdı.[3]

V.Bratişşev Dərbənddən göndərdiyi 8 yanvar 1743-cü il tarixli məruzəsində Nadir şahın Qızlara hücum niyyətinin açıq-aydın göründüyünü yazırdı. Tərcüməçi sözünə davam edərək Rusiya hüdudlarına hücum etmək üçün 12 min döyüşçü

---

[1] ГАОО, ф. 394, оп. 4, д. 69, лл.53-54.

[2] Yenə orada.v. 54 a.ü.-55.

[3] ГАОО, ф. 394, оп. 4, д. 77, л. 1-2.

ayrıldığını, şahın bu günlərdə ordu düşərgəsinin yerini dəyişdirib Qızlar yolundakı Kösə (Koysu-T.M.) meşəliyinə keçirtmək istədiyini yazırdı.[1]

Bratişşev Qızlar komendantına müdafiə tədbirləri görməsini, Endirey və Aksayın silahlı kişilərinin, yenicə Rusiya təbəəliyini qəbul etmiş avar hakimlərinin də toplaşaraq Nadir şahın ordusuna zərbə vurmalarını tövsiyyə etmişdi.[2]

V.Bratişşev 24 və 25 yanvar 1743-cü il tarixlərində yazdığı iki məruzəsində Nadir şahın hərbi-siyasi niyyətləri haqqında ətraflı izahat verirdi. Bratişşev yazırdı ki, Nadir şah cəbbəxanasını Koysu çayı sahilində qoyub, 20 min, yaxud daha çox qoşunla Endirey kəndindən keçərək çoxlu at ilxısının olduğu Kabardaya getmək niyyətindədir. Buradan isə şəraitdən asılı olaraq Həştərxana, yaxud Saritsinə basqın etmək, yaxud da qənimətlə Kabardadan geri dönmək istəyirdi.[3]

Bratişşev bunu da yazırdı ki, Şahı Rusiyaya hücumdan çəkindirmək üçün göstərdiyi səylərə görə şahın vəziri Mirzə Mehdi xana hədiyyələr vermişdir, Şah doğrudan da Muğan çölünə hərəkət edərsə, ona 40 yaxşı xəz və bir zərbaft parça verəcəkdir. Mollabaşı da Bratişşevə rəğbətlə yanaşdığına, sarayda böyük nüfuza malik olduğuna görə Bratişşev ona da 5 cüt xəz vermək niyyətində idi.[4]

Bratişşevin inkar etməsinə baxmayaraq, faktlar rus komandirlərinin dağıstanlılara hərtərəfli yardım etdiklərini göstərirdi. General Dolqorukov Rusiya Xarici İşlər kollegiyasına 20 mart 1743-cü il tarixli raportunda Dağıstanın bir sıra hakimlərinin şahın tərəfini saxlayan şamxala, kumuklar və digərlərinə qarşı yardım istədiyini və Rusiya himayəsinə keçmək barədə ərznamə göndərdiklərini yazırdı. [5] Kollegiyadan

---

[1] ГАОО, ф. 394, оп. 4, д. 77, л. 15 a.ü.-16.

[2] Yenə orada, v. 16.

[3] ГАОО, ф. 394, оп. 4, д. 68, л..3

[4] Yenə orada.

[5] ГАОО, ф. 394, оп. 4, д. 68, л. 70.

Dolqorukova göndərilən 7 may 1743-cü il tarixli fərmanda deyilirdi ki, Rusiya himayəsinə keçmək istəyən bütün Dağıstan hakimlərinə təşəkkür edilməli, onlara müxtəlif şeylər göndərilməlidir. Dağlı hakimlər İmperatriçənin himayəsi ilə ümidləndirilməli və bildirilməlidir ki, əgər Şah Dərbənddən şimal tərəfə keçib onlara hücum etsə, rus qoşunları onların yardımına gələr.[1] Kollegiya hesab edirdi ki, Şah Rusiya sərhədlərinə hücum etmək niyyətini təxirə saldığı, Dağıstandan çəkildiyi bir vaxtda dağlı hakimləri açıq surətdə Rusiya himayəsinə çağırmaq, bu barədə onlardan yazılı razılıq almaq lazım deyil.[2] Peterburqda xəbər alınmışdı ki, Qızlar qalasının komendantı kapitan Selenski dağıstanlılara yardım etmiş, buna görə də kapitanı qandallayıb Moskvaya aparmışdılar.[3]

1743-cü il mayın 7-də rus hökumətinin V. Bratişşevə göndərdiyi fərmandan Nadir şahın vəzirlərininin Yelizaveta Petrovnanın  Şahın elçisi Məhəmməd Hüseyn xana göstərilən etinasız münasibətdən narazı qaldıqları məlum olur. Belə ki, elçi İmperatriçənin qəbul otağında olarkən o, fransız səfiri ilə oturub kart oynayırmış və şah səfiri ayaq üstə dayanıb oyuna baxmışdır. Bununla bağlı Bratişşev deməliydi ki, kart oynanıldığı vaxt masa arxasına oyunçular oturur. Səfir özü otağın hansıa bir tərəfində otura bilərdi.[4]

Həmin sənəddən aydın olur ki, Şah Rusiyada olan təbəələrinin geri qaytarılmalarını tələb edirmiş. Bu tələblə bağlı Bratişşev deməli idi ki, hələ Gəncə müqaviləsi bağlanmazdan əvvəl Rusiyada olan şah səfiri Mirzə Kazımla o zaman Rusiyada və general Levasovun korpusunda olan xristianlığı qəbul etməmiş bütün qızılbaş təbəələri qaytarılmışdır. İndi də imperator fərmanı var ki, ölkənin istənilən yerində olan xristianlığı qəbul etməmiş və qayıtmaq istəyən bütün şah təbəələrinə Rusiyadan getmək üçün şərait yaradılsın. Ancaq hal-hazırda xeyli Rusiya təbəəsi qul

---

[1] Yenə orada, v. 71.
[2] ГАОО, ф. 394, оп. 4, д. 68, лл. 71 об. – 72.
[3] Lawrence Lockhart. Nadir shah, p. 250.
[4] Yenə orada, v. 11 və a.ü.

kimi İranda saxlanılır və dənizçilik işində onlardan istifadə olunur. İki dövlət arasındakı dostluğa görə onlar Rusiyaya qaytarılmalıdırlar.[1]

Həmin sənəddən bu da məlum olurdu ki, Nadir şah rus hakimiyyət orqanlarının Gilandan Dərbəndə daşınmaq üçün gəmilər verməməsindən narazı imiş. Əvvəldən bu haqda vəd verilsə də, sonra Xəlilin Rəştdə özbaşınalıqlar etməsi bəhanə gətirilərək bu vəd yerinə yetirilməmişdi.[2] Bu məsələ ilə bağlı Bratişşev deməli idi ki, İmperatriçənin əmri ilə Həştərxan sakinlərinin o zaman Gilanda olan bütün gəmilərinə şah ordusu üçün ərzaq daşımağa icazə verilmiş və 8 gəmi bütün yayı və payızı bu iş üçün istifadə olunmuşdur. Onlardan bəziləri tufan nəticəsində dağılmış və ya zədələnmiş, buna görə də qışın gəlməsi ilə Həştərxana aparılmışlar, digərləri isə şahın ərzağını daşımaq üçün orada qalmışlar.[3]

Bratişşevin məruzəsində maraqlı bir məlumat da vardır. Bratişşevin yazdığına görə, 1742-ci ilin sonunda bağdadlı Əhməd paşanın iki kuryeri şah düşərgəsinə gəlib. Sədrəzəmdən və Bağdad paşasından gətirilən məktublar oxunduqda Şah çox qəzəblənmişdi. Sədrəzəmin məktubunda deyilirdi ki, imam Cəfərin təlimindən sünni məzhəbinə bəzi əlavələri etmək mümkün deyil. Qanun bir dəfə qəbul olunur və heç bir dəyişiklik etmək olmaz. O, ki, qaldı Şahın dini müzakirələr üçün iki üləma göndərilməsi barədə xahişinə, hətta 10 nəfər üləma da göndərmək olar. Lakin onların şah sarayına göndərilmələri əbəsdir, çünki sultan sünni məzhəbinə xüsusi qaydaların əlavə edilməsini qəbul etməyəcək. Qəzəblənmiş Nadir şah isə sultanı elə vəziyyətə salacağını və bütün Avropanın bundan təəccüblənəcəyini demişdi.[4]

Nadir şahın ordusu Dərbənddən cənuba hərəkətə başlayanda

---

[1] ГАОО, ф. 394, оп. 4, д. 77, лл. 11 об.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] ГАОО, ф. 394, оп. 4, д. 77,
v. 7-8.

aramsız yağan yağış və qar qoşunların hərəkətini daha da çətinləşdirdi.

## IV.4. XVIII əsrin 30-40-cı illərində Xəzərdə üstünlük uğrunda rus-osmanlı-əfşar beynəlxalq rəqabəti

Nadir şahla Rusiya arasında münasibətlərin kəskinləşmə səbəblərindən biri də Şahın Xəzər dənizində donanma inşa etmək üçün gördüyü tədbirlər olmuşdur. Bir sıra amillər, o cümlədən Rus hökumətinin Əfşar dövlətinə buraxılan gəmilərin sayını azaltması iki dövlət arasında ticarətin məhdudlaşmasına səbəb olurdu. Həştərxan qubernatoru knyaz Qolitsin 17 iyul 1741-ci il tarixli məruzəsində Əfşar dövlətinə aparılması üçün Sankt-Peterburqdan və digər Rusiya şəhərlərindəki yarmarkalardan Həştərxana çoxlu mal gətiriliydiyini yazırdı. Bu malları Gilana buraxılan 2 gəmiyə və Bakıya buraxılan 1 gəmiyə yükləmək heç cür mümkün deyildi. Əvvəlki illərdə Həştərxandan ildə 14 xəzinə və sahibkar gəmisi buraxılırdı. Xəzinə gəmilərindən rezident Kaluşkin və konsul Arapovla əlaqə üçün istifadə olunur, lakin sahibkar gəmiləri malları daşımaq üçün kifayət etməyəcəyindən onlara da tacirlərin malları yüklənirdi. Beləliklə, Həştərxanda yığılıb qalan malların miqdarı ildən-ilə artırdı. Bu cür vəziyyət gömrük toplanması işinə də çox mənfi təsir göstərirdi.[1]

Bu işdə Şah ingilis dənizçilərinin xidmətindən yararlanırdı. İngilislər rusların Xəzəryanı hövzədə mövqelərinin zəifləməsindən yararlanmağa çalışırdılar. Əvvəlki bölmələrdə qeyd olunduğu kimi, hələ 1720-ci illərin başlanğıcında ingilislər Osmanlı dövlətinin əli ilə rusların Xəzəryanı vilayətlərə ekspansiyasının qarşısını almağa cəhd göstərmişdilər. İngilis diplomatiyası Pyotrun planlarının həyata keçməsinin Hindistandakı ingilis mülklərinə təhlükə yaradacağını düşünürdü. İngilis hakim dairələri bu halda Hindistanla ticarətin bütünlüklə Rusiyadan keçəcəyindən və Rusiyanın ipək ticarətini inhisara alacağından ehtiyatlanırdılar. İngilislərin gümanına görə, Rusiya

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1741, д. 4. лл. 230-232.

qüvvətlənərək, özündən asılı "Yunan imperiyası" yaradacaqdı.[1] Karteretin göstərişi ilə İstanbuldakı ingilis səfiri S.Stenyan Osmanlı-Rusiya münaqişəsinin kəskinləşməsi üçün əlindən gələni edirdi.[2]

1735-ci ildə Böyük Britaniyanın Rusiya sarayı nəzdindəki nümayəndəsi K.Rondo İngiltərənin dövlət katibi Lord Harrinqtona Rusiyanın I Pyotrun zəbt etdiyi vilayətləri səfəvilərə qaytarmaq niyyəti haqqında sevinclə məlumat verirdi.[3] Rusların zəbt olunmuş Xəzəryanı vilayətləri tərk etməsindən ingilislər maksimum yararlanmağa çalışırdılar. 1734-cü ildə Rusiya ilə bağlanmış ticarət müqaviləsinin 8-ci maddəsi ingilis tacirlərinə Rusiya ərazisi vasitəsi ilə Şahlıq səltənəti ilə ticarət etmək hüququ verirdi. Bundan istifadə edən ingilislər Xəzər regionunda iqtisadi və siyasi mövqelərini gücləndirmək üçün geniş fəaliyyətə başladılar. İngiltərənin Xəzər hövzəsindəki iqtisadi və siyasi ekspansiyasını ingilis tacirlərinin 1555-ci ildə Moskva kampaniyası adı ilə təşkil olunmuş və sonralar "Rusiya kampaniyası" adlandırılan şirkəti həyata keçirirdi. Adı çəkilən şirkət ingilis hökuməti ilə sıx bağlı idi və onun üçün nəzərdə tutulmuş regionda inhisarçı hüquqa malik idi.

Rusiya ilə ticarət şirkətə yaxşı gəlir gətirsə də, onun payçıları Xəzərin qərb və cənub sahillərindəki ölkələrlə də ticarət əlaqələri yaratmağa çalışırdılar.

İngilislər dərhal 1734-cü il müqaviləsinin imtiyazlarından istifadə edə bilmədilər. Əvvəlcə kəşfiyyat səciyyəli bəzi işlər görüldü. 1735-ci ildə ehtimal ki, "Rus kampaniyası"nın agenti olan dəniz kapitanı C. Elton İngiltərədən Rusiyaya gəldi. O, 1737-1738-ci illərdə rusların təşkil etdiyi Orenburq ekspedisiyasında iştirak edirdi. Elton yerli şəraiti, o cümlədən Volqa, Kama

---

[1] J.Jakob. Reziehuden England zu Rusland und zur Turkei den Zahren 1718-1727. Bazel, 1945, p. 71-72

[2] J. Yakob . Göst. əsəri, s. 144

[3] Рондо К. Лорду Гаррингтону. СПб.., 29 марта 1735 г. Сб. РИО, ч. 76, СПб., 1891, док. 184, с. 384

çaylarını tədqiq edərək xəritəyə köçürmüşdü. Qazaxıstandan və Mərkəzi Asiyadan Şərqə əlverişli yol olmadığını öyrənən Elton yeganə əlverişli yolun Xəzərdən keçdiyi qənaətinə gəldi.[1]

1739-cu il iyunun 21-də Gilan əyalətinin baş şəhəri olan Rəştə gələn C. Elton və M. Qrem o zaman Nadir şah Hindistan yürüşündə olduğu üçün dövləti idarə edən oğlu Rzaqulu Mirzəyə ərizə yazıb göndərdilər.[2] İngilislər Xəzər dənizində azad üzmək, ölkəyə satılmaq üçün ingilis mallarını gətirmək, şahın bütün mülklərində maneəsiz ticarət hüququ, ingilis mallarını xam ipəyə və ya başqa mallara dəyişmək (bu zaman yalnız ixrac gömrüyü ödəməklə) hüququ istəyirdilər. Bundan əlavə onlar şah ordusunu geyim forması üçün mahudla təmin etmək hüququnun onların şirkətinə verilməsini istəyirdilər.[3] Rzaqulu Mirzə C.Elton və M.Qremin xahişini yerinə yetirərək ingilislərə şahın mülklərində azad və maneəsiz ticarət hüququnu təmin edən fərman imzaladı.[4]

Şahlıq mülklərinin içərisində Azərbaycan ingilislərin diqqətini xüsusilə çəkirdi. Çünki Azərbaycan coğrafi mövqeyinə görə Xəzər-Volqa yolu ilə gətirilən malların daşınmasını yüngülləşdirir və ucuzlaşdırırdı. Azərbaycanın geniş satış bazarı vardı və ingilis mallarının satışı üçün əlverişli şərait vardı. Azərbaycanda külli miqdarda xam ipək istehsal olunurdu. Xəzər hövzəsində ticarəti genişləndirməklə ingilislər mahudu Azərbaycanın beynəlxalq ticarət mərkəzləri olan sahilyanı şəhərlərinə aparıb satmaq imkanı əldə edirdilər. C.Elton Rusiyadakı Britaniya səfiri E. Finçə məktubunda yazırdı ki, Azərbaycanda mahud parçaları çox rəvan satmaq, əldə edilən pula şimal əyalətlərində bol olan xam ipək almaq olar.[5] İngilis mahudunu yerli ipəklə mübadilə etmək 80 % gəlir verirdi. Elton

---

[1]Fuad Əliyev. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı, 1964, s. 101-102.

[2] Лейла Юнусова. Göst. əsəri, s. 44.

[3] Yenə orada.

[4] Yenə orada.

[5] Приложение к письму Финча Э. Лорду Гаррингтону. Сб. РИО, т. 85, д. 32, с. 130.

məktubunda bunu da qeyd edirdi ki, Nadir şah dövlətinin şimal əyalətlərində ipəyin ən yaxşı növləri istehsal olunur və üç başlıca ipəkçilik mərkəzi var: mərkəzi Şamaxı olmaqla Şirvan, mərkəzi Qanqes (Gəncə-T.M.) olan Ərəş və Mərkəzi Rəşt olan Gilan əyalətləri.[1]

İngilisləri xam ipəklə yanaşı, ipək iplik də maraqlandırırdı. Zəfəran, qızıl boya, pambıq, zərif yun, xalçalar da ingilislərin marağında idi.

İngilislərin Azərbaycanda yalnız iqtisadi maraqları yox idi, Azərbaycan strateji mövqeyinə görə də onları cəlb edirdi. İngilislər Azərbaycanda, eləcə də Gilanda möhkəmlənməklə rusları Xəzər dənizində sıxışdırmaq niyyətində idilər. Britaniya hakim dairələri belə hesab edirdilər ki, Rusiya-Hindistan və Rusiya-İran ticarət əlaqələrinin qurulması və tərəqqisi, Rusiyanın Azərbaycan və İran xam ipəyi ilə ticarəti inhisara alması Rusiya imperiyasının iqtisadi qüdrətini artırar, onun Yaxın və Orta Şərqdə yeni ərazilər fəth etməsinə şərait yaradar[2].

C.Elton və M.Qremin ekspedisiyası nəticəsində Xəzər hövzəsində ingilis ticarətinin yayılmasının gəlirliliyinə inanan "Rus kampaniyası" Britaniya parlamentinə müraciət edərək Rusiya ərazisindən keçməklə Əfşar dövləti ilə ticarət üçün icazə istədi və 1741-ci ildə kampaniyanın xahişini təmin edən akt qəbul edildi.[3]

Rus hökuməti 1740-cı il sentyabrın 8-də ingilislərə Kazanda bir gəmi inşa etməyə icazə verdi. 1741-ci ilin avqustunda bu gəmi artıq hazır oldu. 1742-ci ilin noyabrında isə ikinci ingilis gəmisi suya buraxıldı.[4] Birinci ingilis gəmisi 1742-ci il iyunun sonunda C.Elton və T.Vudrufun komandası altında Xəzər dənizinə çatdı.[5]

---

[1] Yenə orada,s.129.

[2] Ольга Markova O., Göst əsəri, s. 193.

[3] АВПРИ, ф. 77 (СРП), оп 1, 1745 г., д. 9, лл. 13 об. – 14; Юнусова Л. Göst əsəri, s. 61.

[4] АВПРИ, ф. 35 (СРА), оп 1, 1742-1746 гг., д. 676, л. 80: Лейла Юнусова.,ы.61-67.

[5] АВПРИ, ф. 35 (СРА), оп 1, 1742-1746 гг., д. 676, л. 80 и об.

Məlum olduğu kimi, bu zaman Nadir şah Dağıstana yürüş etmişdi. Dövlətin digər əyalətlərindən ordusuna ərzaq, silah-sursat gətirilməsi üçün gəmilərə ehtiyac duyulurdu. Məhz bu məqamda C.Elton Nadir şaha öz yardımını təklif etdi. Bu təklifi məmnuniyyətlə qəbul edən[1] Şah eyni zamanda Con Eltondan Xəzər dənizində hərbi donanma yaratmaq üçün istifadə etməyi qərara aldı.

Qeyd edək ki, Nadir şah hələ bundan əvvəl Xəzərdə donanma yaratmaq işinə girişmişdi. Nadir şahın Xəzər dənizində donanma yaratmaq səylərinə qısqanclıqla yanaşan rus hökuməti şah donanmasının yaradılmasına mane olmağa çalışaraq konsula qaçqın muzurları(rus gəmilərində muzdla çalışan dənizçilərə verilən ad. Ola bilsin ki,muzdur sözünün təhrif olunmuş formasıdır) Rusiyaya qaytarmaq barədə göstəriş verdi. Hələ 1739-cu ilin yanvarında Xarici İşlər Kollegiyasından Gilandakı rus konsulu S.Arapova göndərilən fərmanda qaçqın rus kazaklarını və muzurları İmperatriçənin mərhəməti ilə ümidləndirərək Rusiyaya qayıtmağa razı salmaq tələb olunurdu.[2]

Rusiya rezidenti İ.Kaluşkin 1740-cı il 12 iyun tarixli relyasiyasında yazırdı ki, rus muzurları Mazandaranda iki böyük və üç kiçik gəmi inşa etmişlər, lakin onlar dənizdə üzməyə yararlı deyillər. Çünki içərilərinə su dolur.[3] Konsul S.Arapov isə 19 may 1741-ci il tarixində Şahın gəmiqayırmaya rəhbərlik edənləri dəyişdirdiyini və Ənzəlidə dəniz qulluqçuları üçün qəsəbə salınması haqqında göstəriş verdiyini yazırdı.[4]

Şah ticarət donanması ilə yanaşı hərbi donanma da yaratmaq niyyətində idi. S.Kaluşkinin 18 fevral 1742-ci il tarixli relyasiyasında yazdığına görə, bir müddət əvvəl Nadir şah gəmilər üzərində nəzarəti həyata keçirən Həsən bəyə bacardığı qədər gəmilər inşa etməsini, Bakı və Rəşt sakinləri arasında kəndir və rus lövbərləri axtararaq, tapılanları xəzinənin hesabına

---

[1] Лейла Юнусова.Göst. əsəri, s.50.
[2] Yenə orada.
[3] QAAO, f. 394, siy. 4, д. 68, л. 38 об.
[4] АВПРИ,ф.77( СРП), 1741 г., д. 1, л. 439.

müsadirə etməyi əmr etmişdi.[1]

Rus rezidenti İ.Kaluşkin öldüyü üçün onu əvəz edən student (tələbə-burada yəqin ki, təcrübəçi mənasında) V.Bratişşev 1742-ci il dekabrın 18-də Eltonun Dərbənddən Nadir şaha ərznamə göndərdiyini, onun sidqi-ürəklə şaha xidmət göstərmək istədiyini və öz gəmisi ilə Nadir şahın ordusu üçün Qızlar, yaxud Buynak duracaqlarına və hətta Həştərxan çölü sahillərinə ərzaq daşımağa hazır olduğunu yazırdı. Lazım gələrsə, istənilən qədər əsgəri və silah-sursatı Rusiya tərəfə daşımaq üçün gəmisini Şahın ixtiyarına verməyə hazır olduğunu bildirirdi.[2]

Bratişşev 8 yanvar 1743-cü il tarixli məktubunda Eltonun ərznaməsini alan Şahın onu hüzuruna çağırdığını yazırdı. Bu zaman Elton Şaha hər cür xidmət göstərməyə hazır olduğunu, gəmilər inşa etməyi, şah təbəələrinə dənizçiliyi öyrətməyi öhdəsinə götürdüyünü bildirirdi. Beləliklə, Şah Eltonu dənizçilik üzrə rəis təyin edib, ona tam səlahiyyət vermək niyyətində idi. Elton tezliklə gəmi tərsanələri qurmaqdan ötrü yer tapmaq üçün Ləngərud və Mazandaran sahillərinə gedəcəkdi. O, atlar və əsgərlərin daşınması üçün iri gəmilər inşa etmək barədə Şahın qarşısında öhdəlik götürmüşdü.[3]

Nadir şah 1743-cü ilin yanvarında Con Eltonu gəmiqayırma işlərinə rəis təyin edib, ona Camal bəy ləqəbi vermişdi. Elton təkcə gəmiqayırma ilə məşğul olmayıb, Nadir şahın göstərişi ilə Xəzərin Şərq tərəfindən şimala doğru sahilini də tədqiq etməli idi.[4] Şah talançı türkmənlərə qarşı möhkəm bir dayanacaq yaratmaq və Xəzərin şərq sahilində Əfşar dövlətinin mövqelərini möhkəmləndirmək, həm də dənizin qərb sahilində dağıstanlılarla müharibə üçün qoşunu azuqə və yeni qüvvə ilə təmin etmək istəyirdi.

---

[1] ГААО, ф. 394, оп. 4, д 68, л. 38 об.

[2] АВПРИ,ф.35(Сношения России с Англией),оп.1, д. 676(Выписка о Элтоне и других в Персии находящихся англичан заведенном от онаго Элтона строение мореходных судов.1742-1746),лл.3 об.

[3] АВПРИ, ф.35(СРА), оп.1, д. 676 лл.4 об-.-5

[4] Материалы по истории туркмен, с. 103

Nadir şahın Eltonla münasibətləri ilə bağlı konsul Arapov 1743-cü ilin fevralında Dərbəndə gələn kapitan Eltonun şah ordusu üçün xeyli ərzaq və sursat gətirdiyini yazırdı. Şah ona dövlətinin harasında istəsə ticarətlə məşğul ola biləcəyini söyləyib. Elton cavabında özünün tacir deyil, dəniz kapitanı, yoldaşının isə tacir olduğunu deyib. Şah Eltondan onun üçün gəmilər inşa edə biləcəyini soruşduqda o buna hazır olduğunu bildirərək 12 gəmi inşa etməyə söz vermişdi. Arapov sonra Eltonun və Şturmanın öz arvadları və uşaqları ilə gəldiyini yazırdı.[1] Elton Nadir şaha nəinki gəmilər inşa etmək, eləcə də onun təbəələrinə dənizçilik də öyrətməyi vəd etmişdi.[2]

Konsul S.Arapov Eltonun Ləngərudda gəmi inşası üçün əlverişli yer tapdığını və şaha 3 il ərzində hər birinin uzunluğu 34 arşına çatan iki gəmi inşa etməyi öhdəsinə götürdüyünü xəbər verirdi.[3]

V.Bratişşevin yazdığına görə, Elton gəmiqayırma işində 3 ingilis dülgərə böyük ümid bəsləyirdi. Onlardan biri o zaman Eltonun gəmisində mal dalınca Həştərxana göndərilmiş, o biri ikisi isə Həştərxanda idi. Buna görə də Bratişşev həmin dülgərləri İrana buraxmamağı tövsiyyə edirdi.[4]

Arapovdan və Bratişşevdən bu cür məlumatlar alınandan sonra Rusiya Xarici İşlər kollegiyasından 1743-cü il yanvarın 24-də Həştərxan qubernatoru Tatışşevə aşağıdakı məzmunda fərman göndərilmişdi: Eltonun Şahı Rusiyaya qarşı təhrik etmək cəhdləri açıq-aydın müşahidə olunduğundan qubernator Xəzər dənizinin Rusiyaya məxsus sahillərində isrehkamlar inşa etməlidir ki, adı çəkilən Elton oralara yaxınlaşa bilməsin. Elton öz gəmisində,

---

[1] АВПРИ, ф. 77 (Сношения России с Англией), оп. 1, 1743 г., д. 7, лл. 44-и об.; ГААО, ф. 394, оп 1, дополнения, 1743 г., д. 30, лл. 243, об. – 244.

[2] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1742-1746 гг., д. 676, лл. 4 об.-5, ГААО, ф. 394, оп 1, дополнения, 1743 г., д. 871, л. 230.

[3] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1742-1746 гг., д. 676, л. 14.

[4] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1742-1746 гг., д. 676, лл. 13 об.- 14, ф. 77 (СРП), оп. 1, 1743 г., д. 3, ч. 1, л. 621; ГААО, ф. 394, оп. 4, 1, 1743 г., д. 76, л. 39.

yaxud hər hansı digər gəmidə Həştərxana,və ya digər Rusiya limanına gələrsə, onu gəmidən alıb həbs etmək və dərhal Sankt-Peterburqa xəbər etmək lazımdır.[1]

1743-cü il fevralın 2-də Peterburqdakı Britaniya səfiri Veyçə (Finçə) Eltonun hərəkətləri barədə məlumat verilmiş və Eltonun İngiltərəyə çağırılması tələb olunmuşdu.[2]

Bratişşev 29 mart 1743-cü il tarıxdə Eltonun şahın ona yoldaş təyin etdyi şəxslə tərsanə üçün yer müəyyənıəşdirmək məqsədilə Mazandarana və Gilana üzdüyünü, geri qayıdarkən Həştərxan nəzarət məntəqəsini keçdiyini, kayutasında gizli olaraq gəmiqayırma üçün zəruri olan alətlər apardığını yazırdı.[3]

Çox bacarıqlı bir dənizçi olan Elton Ləngərudda və Lahicanda tərsanə qurdu. Gəmiqayırma üçün lazım olan ağacları meşədən kəsdirib sahilə gətirtdi, pambıq parçadan yelkənlər, kətan liflərdən isə kəndirlər toxutdurdu. Lövbər düzəltmək mümkün deyildi, buna görə də dənizə batmış köhnə lövbərləri axtarıb çıxardılar. Eltonun sərəncamında cəmi bir ingilis dülgəri, bir neçə rus və hindli, bir də 23 pud ağırlığında güllə atan topu olan bir gəmi var idi.[4]

Bratişşev 3 may 1743-cü il tarixdə yazırdı ki, Elton Ləngərudda hərbi freqatlar inşa etməyi, şah təbəələrinə dənizçiliyi öyrətməyi, gəmiqayırmada lazım olan bütün alətlər və vasitələri Gilanda hazırlamağı, digər mühüm şeyləri İngiltərədən gətirməyi Nadir şaha vəd etmişdir. O, üç ingilis dülgərinə böyük ümid bəsləyir. Onların birini Elton öz gəmisində bir müddət əvvəl mallarla Həştərxana göndərmişdir, digər ikisi də Həştərxandadır. Bratişşev təklif edirdi ki, nəinki üç dülgər, gəmiqayırma işindən başı çıxan digər ingilislər də Həştərxandan Əfşar dövlətinə buraxılmasın. Həmçinin Həştərxandan gəmiqayırmada lazım

---

[1] АВПРИ,ф.35 (СРА),оп.1,д.676,лл.4 об.-5; ГААО, ф.394,оп.1, Дополнения, 1743 г., д.871, лл.68-70

[2] АВПРИ,ф.35 (СРА), оп.1, д.676, л.4 об.

[3] АВПРИ,ф.35 (СРА),оп.1,1742-1746 гг., д.676, л.13.

[4] ГААО,ф.394, iş 76, v. 39 a.ü.-40.

olan alət və materialların çıxarılmasına da qadağa qoyulsun.[1] Bratişşevin təklifini nəzərə alan Xarici İşlər kollegiyası 28 may 1743-cü il tarixdə Həştərxan qubernatoru Tatişşevə fərman göndərib üç ingilis dülgərini və gəmiqayırmadan başı çıxan digər ingilisləri, eləcə də gəmiqayırmada istifadə oluna bilinən heç bir alət və materialı da müəyyən bəhanələr gətirərək Həştərxandan buraxmamasını tapşırmışdı.[2]

1743-cü il iyunun 14-də konsul Arapov Eltonun Ləngərudda üç il ərzində hər biri 34 arşın uzunluğunda olan iki gəmi inşa edəcəyi barədə söz verdiyini yazırdı. Üç gün sonra isə Arapov Nadir şahın Eltona və onunla birlikdə çalışan ingilis dülgər Şximanmatın hər birinə 2500 manat məvacib təyin edərək, onlara hər cür ehtiram göstərilməsini,onların arzularının yerinə yetirilməsini əmr etdiyini yazırdı.[3]

Rus hökuməti şahın gəmiqayırma işinə mane olmaq üçün ingilis gəmilərinin reyslərini məhdudlaşdırdı. Belə olduqda "Rus kampaniyası"nın tacirləri guya Eltonun fəaliyyətini yoxlamaq üçün digər agent Conas Hanveyi göndərdilər.[4] İrana gələn C.Hanvey nəinki Eltonu İngiltərəyə qaytarmağa cəhd göstərmədi, hətta onunla görüşüb işini bəyəndi. Eyni zamanda ehtiyatlı hərəkət etməsini və ruslara şübhə üçün daha çox əsas verməməsini tövsiyə etdi.[5]

Hanveyin heç də Eltonu İrandan çıxarmaq niyyətində olmadığını anlayan rus hökuməti Britaniyadakı səfiri knyaz İ.Şerbatova bu məsələ ilə bağlı yenidən ingilis hökumətinə müraciət etməyi tapşırdı. Şerbatova tapşırıldı ki, əgər Elton İranda qalarsa, Rusiyadan onun adına mal buraxılmayacağı barədə ingilisləri xəbərdar etsin.[6] Dövlət katibi Lord Karteret "Rus kaampaniyası"nın tacirlərini çağırıb Eltonun hərəkətlərini

---

[1] Выписка об Элтоне и других..,л. 13 об.
[2] Yenə orada,v.14
[3] Yenə orada,v.14 və a.ü.
[4] Лейла Юнусова. Göst. əsəri, s. 78.
[5] Jonas Hanway.f. 108-110.
[6] АВПРИ, ф. 35, оп. 1, 1744 г., д. 685, лл. 28 об-31.

müzakirə edəcəyinə vəd verdi. Kampaniya tacirləri Elton haqqında deyilənlərin ona düşmən münasibəti bəsləyən V.Bratişşev və S.Arapovun böhtanları olduğunu bildirdilər.[1]

1744-cü il martın 15-də V.Bratişşev Q.Bleyerin gəmisindən 3 ingilisin şahın xidmətinə keçməsi barədə məlumat verdi. Bununla əlaqədar Bratişşev təklif edirdi ki, nəinki ingilis gəmilərinə Xəzərdə üzmək qadağan edilsin, eləcə də Rusiyadan Əfşarlar dövlətinə ingilis zabitləri və dənizçilərinin keçməsi qadağan edilsin, çünki ingilislər müəyyən haqq ödəməklə mallarını rus gəmilərində daşıya bilərdilər.[2]

Rumyantsev Şerbatova 20 fevral 1744-cü il tarixli məktubunda lord Karteretin verdiyi izahatdan Karteretin Rusiyanın haqlı tələblərinə məhəl qoymadığı, Eltonun hərəkətlərinə bəraət qazandırmağa çalışdığı aydın olurdu. Rus hökuməti Eltonun İrandan çağrılmasını qətiyyətlə tələb edir, əks təqdirdə ingilis tacirlərinin tranzit ticarət imtiyazını ləğv edəcəyi ilə hədələyirdi. [3] Şerbatov yenə də Karteretdən Eltonun İngiltərəyə çağırılmasını tələb etməli idi. Əks halda rus hökuməti ingilis tacirlərinin fəaliyyətini məhdudlaşdıracaq, Eltonun ehtiyac duyduğu malların Rusiyadan ixracına imkan verməyəcək. [4] Karteretə deyilməldir ki, rus hökuməti artıq Eltonun hərəkətlərinə bəraət qazandırılması barədə heç nə eşitmək istəmir.[5]

30 aprel 1744-cü il tarixdə A.Bestujev II Yekaterinanın göstərişi ilə Şerbatova yazırdı: "Britaniya hökumətindən yenə də Eltonun geri çağırılmasını qətiyyətlə tələb etsin. Bildirsin ki, ingilis tacirləri Rusiya ərazisindən keçməklə Xəzərsahili ölkələrlə ticarətdən böyük gəlir götürürlər. Buna görə də ingilis hökuməti rus hökumətinin haqlı tələbini yerinə yetirməlidir. Rusiyadan Elton üçün heç bir mal buraxılmayacağı haqqında xəbərdarlıq

---

[1] Лейла Юнусова. Göst. əsəri, s. 82.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1744 г., д. 3,ч.1, лл. 157 об-158 об.

[3] АВПРИ,ф.35 (СРА),оп.1,д.685 (1744 г.),лл 28-29 об.

[4] Yenə orada, v. 30 və a.ü.

[5] АВПРИ,ф.35 (СРА),оп.1,д.685 (1744 г.),л.31 и об.

edilsin”.[1]

Fevralın 14-də ingilislərin “Müqəddəs Elizabet” gəmisinin kapitanı Bleyer Arapova Elton ona ikiqat artıq məvacib verdiyi üçün onun gəmisindən losmanın şahın xidmətinə keçdiyini demişdi.

1744-cü il mayın 1-də Elton Ləngərudda ingilis üslubunda 20 topu olan gəminin özülünü qoymuşdu. Gəminin inşasına ingilis usta Adam Baut rəhbərlik edirdi. Eyni zamanda Elton fərari rus muzurlarının inşa etdikləri iki balaca gəmini də yenidən quraşdırırdı.[2] Konsul Bakunin mayın 30-da məlumat verərək onun Ləngəruda göndərdiyi tərcüməçi Eltonun əsasını qoyduğu uzunluğu 45 arşın olan gəminin sürətlə inşa olunduğunu yazırdı.[3]

Konsul, guya Elton Hanveyə böyük gəlir vəd etdiyindən onun gəmiqayırmada lazım olan materialları gətirmək üçün Həştərxana getdiyini də qeyd edirdi. Buna görə də Bakunin Həştərxanda Hanveyin gəmisinin saxlanmasını məsləhət görürdü.[4]

Bu cür həyəcanlı xəbərlər alan rus hökuməti Britaniyanın Rusiyadakı konsulu Volfa məktub yazdı və Londona Şerbatova 18 may 1744-cü il tarixli buyruğunda ingilis gəmisinin İrandan Həştərxana çağrılmasına nail olmasına dair göstəriş verdi. Şerbatov ingilis gəmilərinin Xəzərdə rus gəmiçiliyinə bü cür maneçilik törətmələrinin İmperatriçə Ali-həzrətlərinin xoşuna gəlmədiyini və onun ingilislərin tranzit ticarətini qadağan edə biləcəyini bəyan etməli idi.[5]

1744-cü ilin mayında rus hökuməti Həştərxandan Eltonun adına mallar buraxılmasını qadağan etdi. İngilis gəmilərində kapitan istisna olmaqla digər ingilislərin üzməsi də qadağan edildi.[6]

---

[1] Yenə orada,v.71 a.ü.-72 a.ü.

[2] Yenə orada,v.37 və a.ü.

[3] Yenə orada,v.37 a.ü.

[4] Yenə orada,v.38

[5] АВПРИ,ф.35 (СРА),оп.1,д.685 (1744 г.),л.68 об.

[6] ГААО, ф. 394, оп. 1, д. 955, лл. 337-339; АВПРИ, ф. 35 (СРА), оп. 1, 1744 г., д. 685, лл. 71 об-73.

Rusların törətdiyi maneələrə baxmayaraq şah donanması üçün gəmilərin inşası sürətlə gedirdi. 1744-cü il iyunun 19-da Bakunin Eltonun böyük, 20 topluq gəminin özülünü qoyduğunu və gəminin ingilis üslubunda inşa edildiyini yazırdı. İşlər gəmiçilik ustası A.Bautun başçılığı altında aparılırdı.[1] Bir müddət sonra Bakunin bir böyük gəmidən savayı iki kiçik gəminin də inşa olunduğunu xəbər verirdi.[2]

1744-cü ilin sentyabrında Bratişşev Eltonun 4, bəzilərinin dediyinə görə 7 iri gəminin təməlini qoyduğunu, onlardan ikisinin yaxın vaxtda istifadəyə veriləcəyinin gözlənildiyini həyəcanla xəbər verirdi. Oktyabrın 31-də isə Bratişşev Eltonun gəmi tərsanələrinə iranlılardan və hindlilərdən daha 300 gəmi dülgərinin gətirilməsini xahiş etdiyi xəbərini verdi.[3]

Vəziyyətin belə hal aldığını görən rus hökuməti qəti tədbirlərə əl atdı və 1744-cü il noyabrın 30-da Həştərxan qubernatoruna fərman göndərilərək Həştərxanda Eltonun gəmisini saxlamaları, indi İranda olan digər ingilis gəmisini də bir yolla, Həştərxana gətirib həbs etmələri tapşırıldı.[4]

Bu zaman isə Həştərxan qubernatoru V.Tatışşev Kazandakı epidemiya ilə bağlı ikiqat karantin adı altında Eltonun gəmisini Həştərxanda saxladı.[5] İngilislərin Xəzərdəki ticarət fəaliyyətini məhdudlaşdırmaq üçün rus hökuməti Rusiyadan Xəzərsahili vilayətlərə nəinki Eltonun, eləcə də Hanveyin adına mal buraxılmasını qadağan etdi.[6]

Rus hakimiyyət orqanlarının Nadir şaha qarşı düşmən hərəkətləri sonuncunun qəzəbinə səbəb olduğundan N.Bratişşev Şahın Rusiya sərhədlərinə daxil olmaq niyyətindən şübhələnməyə başlamışdı. Buna görə də cənub sərhədlərini

---

[1] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1742-1746 гг., д. 676, л. 37.

[2] Yenə orada, v. 37 a.ü.

[3] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1744 г., д. 4, лл. 259 об-260, 351-351.

[4] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1746 г., д. 676, л. 40: ГААО, ф. 394, оп. 1, 1744 г., д. 955, л. 570 и об.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1744 г., д. 10, ч. 2, л. 624 об.

[6] ГААО, ф. 394, оп. 1, 1744 г., д. 955, лл. 552 об. - 553 об.

möhkəmləndirməyi tövsiyə edirdi.[1] Bratişşevin tövsiyyəsini nəzərə alan Rusiya senatı Qızlar və Həştərxana sərhədlərini möhkəmləndirməklə bağlı fərmanlar göndərdi. 1745-ci ilin yanvar-aprel aylarında sərhəd zonası, xüsusən də Qızlar yeni piyada alayları, draqun bölükləri, artilleriya və s. ilə möhkəmləndirildi.[2]

Belə bir vaxtda rus hökuməti ingilis hökumətindən Əfşar dövlətində olan bütün təbəələrini geri çağırmasını tələb etdi.[3] Vəziyyətin çıxılmazlığını görən "Rus kampaniyası"nın tacirləri, Xəzərdəki ingilis ticarətini xilas etmək üçün Eltondan imtina etmək qərarına gəldilər və Eltonun hərəkətlərini təqdir etmədiklərini bildirdilər. Gələcəkdə Eltonun adına heç bir mal göndərməməyi vəd etdilər.[4]

1744-cü il dekabrın 26-da isə "Rus kampaniyası" Eltona məktub göndərərək Əfşar dövlətindəki ingilis ticarətini xilas etmək naminə İngiltərəyə qayıtmasını xahiş edib, ona ildə 400 funt-sterlinq təqaüd təyin ediləcəyini bildirdi. Lakin Elton diplomatik tərzdə İngiltərəyə qayıtmaqdan imtina etdi.[5]

Şerbatovun şikayətlərinə cavab olaraq Peterburqdakı ingilis səfiri lord Travli 1744-cü il dekabrın 4-də rus hökumətinə aşağıdakı məzmunda məktub göndərdi. Böyük Britaniya kralı Rusiya imperatoru ilə möhkəm dostluğu qorumaq əzmindədir. Eltonun Rusiya maraqlarına zərər yetirməsi barədə şikayəti dinləyən kral əmr etmişdir ki, ingilis tacirləri mallarını ona, yəni Eltona göndərməsinlər. İngilis ticarət şirkəti Eltona böyük məbləğdə təqaüd (qalan həyatı ərzində ildə 2 min rubl dəyərində) təyin etmişdir ki, onun İngiltərəyə qayıtmasına nail olsun. Elton İngiltərəyə qayıtdıqdan sonra isə kral ona donanmada hansısa

---

[1] Yenə orada, iş. 4, v. 301 və a.ü..

[2] РГВИА, ф. 20, оп. 2, 1745 г., д. 4, лл. 11 и об. 12, 21, 37-38, 49-51 об.

[3] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1745 г., д. 693, л. 70-71 об.

[4] Yenə orada, 1744 –cü il, iş. 698, v. 442 və a.ü.

[5] Копия с письма Джона Элтона Комитету Российской Компании, писаннаго из Гиляни 7 февраля 1745г. // Сб. РИО, т. 108, СПб., 1898, д. 5, с. 422-425.

vəzifəni tapşırmağı vəd etmişdir.[1] İngilis hökuməti Rus hökumətindən xahiş edirdi ki, Eltonun Rusiya ərazisi vasitəsilə İngiltərəyə qayıtmasına şərait yaratsın. Bu xahişi nəzərə alan Rusiya Xarici İşlər kollegiyası Elton üçün pasport hazırlayaraq Gilandakı Rusiya konsuluna göndərmişdi.[2]

Şerbatov Britaniya hökumətinə rus hökumətinin Eltonun Şahın xidmətində olması ilə heç cür razılaşa bilməyəcəni bildirmişdi. "Rus hökuməti Xəzər dənizində ingilis gəmilərinin üzməsi ilə də razılaşa bilməz. Rus-ingilis ticarət müqaviləsinin 8-ci bəndinə hökmən əməl olunmalıdır. Şerbatov Britaniyanın dövlət katibi Qranvilə bu barədə deyə bilər, yalnız müqaviləyə ciddi əməl olunarsa, ingilis tacirləri ticarətlə maneəsiz məşğul ola bilərlər".[3]

Rus sarayından Şerbatova göndərilən fərmanda deyilirdi ki, Elton şah üçün donanma yaratmağa, rus və ingilis tacirlərini də bu işə cəlb etməyə çalışır. Şerbatov ingilis nazirlərinə deməlidir ki, biz ingilislərin bizim mənafelərimizə zərər yetirmələrinə imkan verə bilmərik. Rus hökuməti ingilis tacirlərindən cəmi 5 faiz gömrük alır, ancaq yol verə bilməz ki, qonşuluğunda donanma yaradılsın və gəmilər inşa olunsun. İngilis tacirləri mallarını rus gəmilərində daşımalıdırlar. Hökumət daşımalar üçün normal qiymətlər təyin etmişdir.[4]

Bakunin 10 yanvar 1745-ci il tarixli məruzəsində Nadir şahın Rəştə, Eltona fərman göndərdiyini, hazırlatdığı gəmiyə və ingilis şirkətinə məxsus iki gəmiyə xəzinəyə aid ərzaq və sursatı yükləyib Dərbəndə şahın yanına üzmələrini tapşırması barədə məlumat verirdi. Fərmanı alan Elton gəmini suya buraxmaq üçün çox səy göstərir. Həmin gəmi üçün 20 top da hazırlanmışdı. KonsulunLəngəruda göndərdiyi casus qayıdıb Eltonun sərəncamında iranlılardan və hindlilərdən 700 nəfərə yaxın adam – dülgər, xarrat, dəmirçi, çilingər və başqa işçilər olduğuna dair

---

[1] АВПРИ, ф. 35 (СРА), оп.1, д.676 (1742-1746 гг.), л.39об.-40.
[2] Yenə orada,v. 40 a.ü.-41.
[3] АВПРИ, ф. 35 (СРА), оп.1, д.676 (1742-1746 гг.), лл.138-139
[4] АВПРИ, ф. 35 (СРА), оп.1, д.676 (1742-1746 гг.), лл 140 və a.ü.

məlumat vermişdi. Mazandaran vilayətində və başqa yerlərdə lazımi ağac materialları hazırlanırdı. 1745-ci il ərzində Avropadan gəmi ustaları və gəmiqayırma üçün lazım olan materialların gətiriləcəyi barədə söhbətlər gedirdi.[1]

1745-ci il mayın 31-də Rusiya Xarici İşlər kollegiyasından Həştərxan qubernatoruna göndərilən sərəncamda deyilirdi ki, rus gəmisinin qəzaya uğraması və ingilis gəmisinin quma oturması ilə bağlı konsul Bakuninlə Elton arasında baş verən ixtilaf göstərir ki, ingilislər gəmiqayırmada şaha hər cür köməklik göstərir, İrandakı rus tacirlərini və gəmiçilərini sıxışdırırlar. Yalnız ticarətlə məşğul olmayıb, həm də Şah üçün gəmilər inşasına yardım edirlər. Batan rus qekbotundan (gəmi növü) və quma oturmuş ingilis gəmisindən bütün şeyləri götürüb şah təbəələrinə vermişlər. Bu xəbərləri alan rus hökuməti ingilis konsulu Volfa Eltonun hərəkətləri ilə bağlı etirazını bildirmişdi. Londondakı Rusiya səfiri knyaz Şerbatova da tapşırılmışdır ki, ingilis hökumətindən Eltonun, onun yoldaşları Bleyer və Braunun, İranda olan bütün ingilis gəmiçilərinin İngiltərəyə qaytarılmalarını tələb etsin.[2]

Rus hakimiyyət orqanlarının hər cür maneçilik törətmələrinə rəğmən Xəzərin cənubunda gəmiqayırma işi sürətlə davam edirdi. 1745-ci il yanvarın 10-da 20 toplu böyük gəmi suya salındı və xəzinəyə aid yüklərlə Dərbəndə yola düşdü. O zaman gəmi tərsanələrində 700 nəfər – dənizçilər, dülgərlər, xarratlar, meşəqıranlar və s. məşğul idi.[3]

Martın 29-da Bakunin onun tərcüməçisinin Ləngərudda birisi 12, ikisi 16 avarlı olan daha üç botun hazır olduğunu xəbər verdiyini yazırdı. Həsənkənddə də yeni gəmilər demək olar ki, artıq hazır idi. Lahıcanda yabanı qənəfdən yelkənlər hazırlamaq üçün "kanifas" fabriki inşa olunmuşdu.[4]

1747-1748-ci illərdə Rusiya səfirliyinin tərkibində

---

[1] АВПРИ, ф. 35( СРА), оп.1, д.676, лл.47-48

[2] АВПРИ, ф. 35( СРА), оп.1, д.676, лл.50-51.

[3] АВПРИ, ф. 35 (СРА), 1742-1746 гг., д. 676, лл. 69-70.

[4] Yenə orada,v. 77-78 a.ü.

Azərbaycanda və İranda olmuş İohan Yakov Lerx yazırdı ki, o, Dərbənddə Eltonun Ləngərudda inşa etdirdiyi freqatı görmüşdür. Lerx, daha sonra bu vaxta kimi Eltonun iki freqat və dörd kiçik gəmi inşa etdirdiyini və onların artıq dənizdə üzdüklərini, 4 böyük və digər yeni inşasına başlanmış gəmilərin isə hələ tərsanədə olduğunu yazırdı. Lerx Şahın Eltona admiral rütbəsi verərək 6000 rubl məvacib təyin etdiyini də bildirirdi. Ober-admiral isə Bakı hakimi Mirzə Məhəmməd xan idi.[1]

1745-ci ilin yazında "Rus kampaniyası"nın tacirləri Xəzər ticarətini təkmilləşdirmək üçün yeni layihə irəli sürürlər. Layihənin mahiyyəti Əfşar dövlətində kampaniyanın vahid kontorunun yaradılmasından ibarət idi. Bu iş K.Priston, K.Tomsen, M.Van Mirop və R.Vilderə tapşırıldı.[2]

Şah donanması sürətlə inkişaf etməkdə idi. 1745-ci ilin iyununda Bakunin Eltonun yeni inşa etdirdiyi gəminin silahla təchizatı və iki böyük bot inşa etməsi barədə yazırdı. Şah donanmasının güclənməsini Rusiya üçün təhlükə hesab edən Bakunin tezliklə rus donanmasının şah donanması ilə bacarmayacağını yazırdı.[3]

1746-cı ilin əvvəlində "Rus kampaniyası" tacirlərinin xahişi ilə ingilis kralı II Georq üçüncü dəfə Nadir şaha müraciət edərək Xəzər hövzəsində ingilis tacirlərini himayə etməyi xahiş etdi. Bu dəfə kral M.Van Mirop, N.Vilder, K.Tomsenin himayə olunmasını xahiş edirdi.[4]

Rus tacirlərinin ingilis tacirləri ilə açıq rəqabətdə uduzduğunu görən və ingilislərin Xəzər hövzəsində möhkəmlənməsini istəməyən rus hökuməti 1746-cı il noyabrın 23-də 1734-cü il rus-ingilis müqaviləsinin 8-ci maddəsini ləğv edərək ingilis tacirlərinin Rusiya ərazisindən keçərək Əfşar dövlətinə getməsini və Rusiya ərazisindən mal göndərmələrini

---

[1] Иоган Якоб Лерх. Сведения о втором путешествие.., с. 47.

[2] АВПРИ, ф. 35 (СРА), оп. 1, 1745 г., д. 694, л. 188 и об.

[3] АВПРИ, ф. 35 (СРА), 1742-1746 гг., д. 676,л. 80 и об.;АВПРИ, ф. 35 (СРА), оп. 1, 1745 г., д. 11, л. 237 и об.

[4] Jonas Hanway,p. 329-330; Лейла Юнусова. Göst əsəri, s. 116.

qadağan etdi.[1] Bu C.Eltonun Nadir şah üçün donanma inşa etmək yolunda fəaliyyəti ilə əlaqələndirilirdi. Britaniya hökumətinin bu qadağanı aradan qaldırmaq yönündə səyləri fayda vermədi.

## IV.5. Nadir şahla Osmanlı dövləti arasında münasibətlərin yenidən kəskinləşməsi. Sülh danışıqları və sülh müqaviləsinin imzalanması

III Dağıstan yürüşünü başa çatdıran Nadir şah yenidən osmanlılarla müharibəyə başladı. Şah hələ Dağıstan yürüşündə olarkən onun yanına Osmanlı dövlətindən iki elçilik gəlmişdi. 1742-ci ilin yanvarında gəlmiş birinci elçiliyə baş xəzinədar Munif əfəndi və İstanbul gömrükxanasının rəisi Nəzif əfəndi başçılıq edirdi. Onlar Nadir şahın İstanbula göndərdiyi Hacı xan Çəmişgəzəkin başçılıq etdiyi elçiliyə cavab olaraq göndərilmişdilər. Osmanlı elçiliyinin gətirdiyi məktubda məzhəb məsələsi ilə bağlı təkliflərin qəbuledilməz olması bildirilirdi. Amma Nadir şah yeni məktub hazırladaraq irəli sürülən təkliflərin qəbul ediləcəyi təqdirdə iki dövlət arasında birlik yarana biləcəyini bildirdi. Şah hesab edirdi ki, sultan müsəlmanların xəlifəsi kimi bu təkliflərə həssaslıqla yanaşmalı idi. Nadir şah irəli sürülən şərtlərin qəbul edilməyəcəyi təqdirdə bu məsələni qəti şəkildə həll etmək üçün özünün Türkiyəyə gələcəyini (təbii ki, vuruşa-vuruşa-T.M.), inşallah onun gəlişinə kimi həmin məsələnin həll ediləcəyinə ümid etdiyini yazırdı.[2]

Osmanlı sarayı Nadir şahın məktubunu aldı, lakin mövqeyindən dönmədi və cavab məktubu ilə yeni elçiliyi Nadir şahın yanına göndərdi. Elçilik 1743-cü ilin əvvəllərində Nadir şahın yanına gəldi. Osmanlı sarayı Cəfəri məzhəbinin tanınmadığı üçün üzrxahlıq edirdi. Nadir şah Osmanlı dövlətini yeni müharibəyə hazırlaşmağa çağırıb, Dağıstan yürüşü başa çatandan sonra bütün dünyanı fəth edən ordusunun Osmanlı

---

[1]П.А. Остроухов. Англо-русской договор 1734 г. СПб., 1914, с. 140.
[2]Lawrence Lockhart. Nadir shah., p. 267.

sərhəddinə doğru hərəkətə başlayacağını bildirdi.[1]

V.Bratişşev 3 may 1743-cü il tarixli relyasiyasında Əhərdən Osmanlı dövləti ilə yeni müharibəyə hazırlaşan Şahın göstərişi ilə Həmədana və Kirmanşaha ağır artilleriya, digər hərbi sursat və ərzaq toplandığı barədə yazırdı. Bütün dövlətdən orduya adamlar səfərbər edilirdi.

Nadir şah Mosula doğru hərəkətini davam etdirdi və onu mühasirəyə aldı. Bir neçə günlük atəşlərdən sonra müdafiə olunmağın getdikcə çətinləşdiyini görən Mosul hakimi Nadir şahın hüzuruna nümayəndələr göndərərək osmanlı sarayına elçilər göndərib qalanın təslim edilməsi barədə icazə alması üçün aman istədi. Nadir şah həmin təklifi qəbul etdi. Elə həmin vaxtlarda Bağdad hakimi Əhməd paşanın sultan sarayına göndərdiyi nümayəndə qayıdaraq əgər Nadir şah qoşunlarını Osmanlı sərhədlərindən geri çəkərsə, və əvvəlki beş təklif üzərində təkid etməzsə, sultanın sülh danışıqlarının bərpa edilməsinə razı olduğunu və danışıqların aparılması səlahiyyətini Əhməd paşaya verməsi xəbərini gətirdi.[2]

Nadir şahın osmanlılara qarşı hərbi əməliyyatlara ara verməsinin əsas səbəblərindən biri bu zaman Azərbaycanda yalançı şahzadələrin başçılıq etdiyi üsyanların genişlənməsi idi. Bratişşev 21 noyabr 1743-cü il tarixli Həmədandan göndərdiyi məruzəsində yazırdı ki, Nadir şahın əmri ilə Təbriz bəylərbəyi Aşur xan özünü Səfəvi şahzadəsi Sam Mirzə kimi qələmə verən burnu və qulaqları kəsilmiş yalançı şahzadəyə qarşı çıxmış, lakin Kürün sahilində baş vermiş vuruşmada məğlub olub, 300-400 nəfər itirərək geri çəkilmişdi.[3]

Bratişşevin 3 dekabr 1743-cü il tarixli məruzəsindən məlum olur ki, Nadir şah yalançı şahzadənin uğurları haqqında eşidib hətta müəyyən ərazi güzəştləri etməklə osmanlılarla sülh bağlamaq fikrinə düşüb. Üsyançılarla Muğan düzündə baş vermiş

---

[1] Yenə orada,s.270.

[2] Yenə orada, s. 277.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1743 г., д. 4, лл. 635 об.-637.

yeni döyüşdə Nadirin sərkərdəsi Fətəli xan 500-ə qədər döyüşçü itirib məğlub olmuşdu. Sam Mirzə Ağsuda möhkəmlənmiş və artıq öz adına sikkə zərb etdirməyə başlamışdı.[1]

Nadir şah yeni qüvvələr göndərməklə nəhayət ki, II Sam Mirzə üsyanını yatırmağa nail oldu. 31 yanvar 1744-cü il tarixli məruzəsində Bratişşev Sam Mirzənin şah qoşunları tərəfindən ələ keçirildiyini və Şahın əmri ilə gözlərinin çıxarıldığını yazırdı.[2] Konsul S.Arapov 15 mart 1744-cü il tarixdə Nadir şahın qoşunlarının Şamaxını alması, şəhər sakinlərinə divan tutulması barədə məlumat aldığını yazırdı. Türkiyəyə qaçmağa çalışan yalançı şahzadə Gürcüstan ərazisində Teymuraz tərəfindən ələ keçirilmiş və Nəsrullah Mirzəyə göndərilmişdi.[3]

1744-cü ildə Nadir şahla osmanlılar arasında müharibə yenidən qızışdı. Osmanlı sarayının digər yalançı şahzadə – Səfi Mirzəni dəstəkləməsi Nadir şahı bərk qəzəbləndirmişdi. Eyni zamanda Nadir şah bir sevindirici xəbər – Teymuraz və oğlu İrakli Tiflis hakimi Əli xanın başçılıq etdiyi qızılbaş qoşunları ilə birliklə Axısxa hakimi Yusif paşanın komandası altında olan Osmanlı qoşunlarını sarsıdıcı məğlubiyyətə uğratması xəbərini aldı. Nadir şah bu uğurlardan çox sevindi və minnətdarlıq əlaməti olaraq Kartlinin idarəsini Teymuraza, Kaxetinin idarəsini isə onun oğlu İrakliyə bağışladı.[4]

V.Bratişşev 11 iyul 1744-cü il tarixdə Nadir şahın düşərgəsini Göyçə yaylağından İrəvan şəhərindən 4 mil aralıda yerləşən Qırxbulaq adlanan yerə köçürdüyünü, onun osmanlılarla döyüşə hazırlaşdığını yazırdı.[5]

Eyni zamanda Nadir şah osmanlılarla müharibədə yaranmış fasilədən istifadə edərək Dağıstanın qiyamçı hakimlərini itaətə məcbur etmək işini davam etdirməyi qərara aldı. Qızlar

---

[1] Yenə orada,v. 706 a.ü.

[2] Yenə orada, 1744-cü il, iş 3, v. 88.

[3] Фуад Алиев. Антииранские.., с.188.

[4] Lawrence Lockhart. Nadir shah,p.296.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1744 г., д. 4, л. 11.

komendantı knyaz V.Obolenski 1745-ci il yanvarın 20-də Nadir şahın qəflətən Bərdədən sürətlə Dağıstana hərəkət etdiyini, qəfil yaxalanan Dağıstan hakimlərinin müqavimət təşkil edə bilməyərək itaət göstərməyə məcbur olduqlarını, Şahın Tarki hakimi Eldarı şamxal təyin edərək Samur və Mollakənd çayları arasına çəkilərək burada düşərgə saldığını yazırdı.[1]

1745-ci ilin yayında Nadir şah Qafqazda olduğu zaman Osmanlı sarayı böyük hərbi qüvvələri səfərbərliyə aldı. Mənbələrin yazlığına görə, bu, Nadir şahın qarşısına çıxan ən böyük ordu idi.[2] Qoşunlar iki qol şəklində qruplaşdırılıb müxtəlif istiqamətlərə göndərildi. Keçmiş baş vəzir Yegən Məhəmməd paşanın başçılıq etdiyi bir ordu Ərzurum-Qars marşrutu üzrə irəliləyirdi. Abdulla paşa və Əhməd paşanın başçılıq etdiyi ikinci ordu isə Diyarbəkir-Mosul marşrutu üzrə hərəkət edib Nadir şaha arxadan zərbə vurmalı idi.[3]

1745-ci il avqustun 11-də Muradtəpə ətrafında Yegən Məhəmməd paşanın başçılıq etdiyi Osmanlı ordusu ilə Nadir şahın ordusu arasında beş gün davam edən qanlı döyüş oldu. Döyüşün beşinci günü osmanlılar gecə ikən düşərgəni tərk edib qaçmağa başladılar. Nadir şahın qoşunları qaçanları təqib etdi və Arpaçayın 5 fərsəngliyində tərəflər arasında yeni döyüş baş verdi. Məhəmməd paşa da daxil olmaqla 28 min osmanlı döyüşçüsü öldürüldü, 5 min nəfər əsir alındı.[4]

Nadir bu parlaq qələbəsindən sonra bir qədər təmkinlilik göstərdi, irəliyə hərəkət etməyib, yeni sülh təklifləri ilə Qarsa, Əhməd paşanın yanına çaparlar göndərdi. İndi o, artıq Cəfəri təriqətinin tanınması və Məkkədə Kəbədə beşinci sütunun dikəldilməsi barədə israr etmirdi. Eyni zamanda Şah hələ də Van, Bağdad, Nəcəf, Kərbəla və Bəsrənin verilməsini tələb edirdi.[5]

---

[1] РГВИА, ф.20, 1/47. д. 278, лл. 6 об.-7.

[2]Mehman Süleymanov. Göst. əsəri, s.438; Laurence Lockhart. Nadir shah, p.297.

[3]Mehman Süleymanov. Göst. əsəri, s.438.

[4] Mehman Süleymanov.Nadir şah, s.438

[5] Lawrence Lockhart. Nadir shah, pp.299-300.

Cəbhədən dönən Nadir şah Sovucbulaqda olarkən Osmanlı sarayından gəlmiş elçi Nazif əfəndini qəbul etdi. Sülh müqaviləsinin mətni üzrə xeyli müzakirələr aparıldı və nəhayət, 1746-cı il sentyabrın 4-də sülh müqaviləsinin mətni hazır oldu.[1]

Müqavilə və girişdə IV Sultan Muradın dövründə imzalanmış sülh müqaviləsinə riayət olunması, onun əsasında müəyyənləşdirilmiş sərhədlərin olduğu kimi qalması və onlara dəyişiklik edilməməsi göstərilirdi.

Birinci maddəyə görə, Bağdad və Şam (Dəməşq) marşrutu ilə Məkkəyə yollanan İran və Turan zəvvarları mühafizə olunmalı, onların malları və canları qorunmalı idi; ikinci maddəyə əsasən, qarşılıqlı hörmət və dostluğun möhkəmləndirilməsi üçün üç ildən bir Osmanlı dövlətindən İrana, İrandan isə Osmanlı dövlətinə nümayəndəliklər göndərilməli idi; Üçüncü maddəyə görə, hər iki ölkədən olan əsirlər azad edilməli, onların alınıb satılmasına yol verilməməli, maneəsiz vətənə dönmələrinə şərait yaradılmalı idi.[2]

Müqaviləyə əlavədə deyilirdi ki, sərhəd əyalətlərinin hakimləri dostluq münasibətlərinə xələl gətirə biləcək hərəkətlərdən çəkinməlidirlər. Bidətçi baxışlardan imtina etmiş və sünniliyə etiqad etməyə başlamış Şah təbəələri bu vaxtdan etibarən rəşidi xəlifələrə (Əbubəkr, Ömər, Osman) hörmətlə yanaşmalıdırlar. Gələcəkdə bu adamlara da, Türkiyə və digər İslam ölkələrindən olan zəvvarlar kimi Osmanlı ərazisindən keçib Məkkə və Mədinəyə getməyə icazə verilməli, həmçinin Türkiyə və digər İslam ölkələri zəvvarlarına Mesopotamiyada müqəddəs yerləri ziyarət etməyə imkan verilməlidir. Əgər bu zəvvarlar qeyri satış üçün mal aparardılarsa, Bağdad hakimi və məmurlar onlardan vergi almamalı idilər. Türkiyə zəvvarlarına da Əfşar imperiyası ərazisində belə imtiyazlar verilməli idi. Sonda qeyd olunurdu ki, müqavilə əbədi qüvvədə qalmalıdır.[3]

---

[1]Mehman Süleymanov.Nadir şah, s.446.

[2] Mehman Süleymanov.Nadir şah, s.447; Lawrence Lockhart. Nadir shah,p.300.

[3] Lawrence Lockhart. Nadir shah, p.309.

Nazif əfəndi geri dönərkən Nadir şahın Osmanlı sultanına məktubunu da müqavilə mətni ilə birlikdə Osmanlı sarayına apardı. Məktubda sülh müqaviləsi ilə bağlı müzakirələrin qısa tarixi öz əksini tapmışdı.[1]

Müqavilənin bağlanması xəbərini çox məmnunluqla qarşılayan Sultan I Mahmud Əhməd əfəndi Köprülünün başçılıq etdiyi min nəfərlik nümayəndə heyətini qiymətli hədiyyələrlə Nadir şahın yanına göndərdi. Hədiyyələrin dəyərinə və təmtərağına görə bu elçilik Osmanlı sarayının bu vaxtadək Avropa və Asiya saraylarına göndərdiyi elçiliklərdən üstün idi.[2]

Nadir şah da Mustafa xan Şamlı və öz katibi Mirzə Mehdi xan Astrabadinin başçılıq etdiyi elçiliyi sultan sarayına göndərdi.[3]

Osmanlı nümayəndələri ilə sülh müqaviləsini imzaladıqdan sonra Nadir şah İsfahana gedərək bir müddət burada qaldı.1747-ci ilin yanvarında Şah İsfahanı tərk edərək Yəzd və Kirman yolu ilə Xorasana tərəf hərəkət etdi.[4]

Nadir şah hakimiyyəti üçün çox böyük təhlükə törədən Sistan üsyanını yatırmaq niyyətində idi. Sistan hakimi Fətəli xan Sistaninin (Kəyani) başçılıq etdiyi üsyançılar xeyli ərazini nəzarət altına almağa müvəffəq olmuşdular. Nadirin göndərdiyi dəstə nəhayət ki, Fətəli xanı tutmağa nail oldu. Lakin üsyançıların bir hissəsi Kuh-e Xace qalasına sığınaraq dirənişi davam etdirdilər. Sistan üsyanına tamamilə son qoymaq üçün Nadir şah qardaşı oğlu Əliqulu xanı 40 min qoşunla göndərdi.[5]

Amma Əliqulu xan ləng hərəkət edirdi. Bu da şahı qəzəbləndirdi. Əliqulu xanın özündən şübhələnməyə başlayan Nadir şah onun üzərinə 100 əlif (1 əlif 5 min tümənə bərabər idi) cərimə qoydu. Bu məbləği ödəmək qətiyyən mümkün deyildi və

---

[1]Yenə orada,s.305-306;Mehman Süleymanov. Nadir şah, s.448.

[2] Mehman Süleymanov.Nadir şah,s.448; Lawrence Lockhart. Nadir shah, p.306.

[3] Mehman Süleymanov.Nadir şah, s.448; Lawrence Lockhart. Nadir shah, p.306.

[4] Maykl Aksvörti. Nadir şah, s. 357.

[5] Maykl Aksvörti. Nadir şah, s. 357.

buna görə də Əliqulu xan əmisinə qarşı açıq qiyam qaldırdı.[1]

Əliqulu xan Sistan üsyançıları ilə və Nadir şahın Sistana göndərdiyi dəstə ilə danışıqlara girib onları öz tərəfinə çəkdi. Əliqulu xan əfqan tayfalarını da öz tərəfinə çəkmək üçün danışıqlara başladı. Daha sonra Əliqulu xan Herata hərəkət etdi. Herat əhalisi də onu dəstəklədi. Bu vilayətdə yaşayan şahsevən və digər tayfaların dəstələri onun qoşununa qoşuldular. Mənbənin yazdığına görə, Əliqulu xanın artıq 60 min nəfərlik qoşunu vardı.[2]

Nadir şah qarşıdakı təhlükəni hiss edirdi və Məşhədi tərk etməzdən əvvəl övladlarını və nəvəsi Şahrux Mirzəni daha təhlükəsiz yer saydığı Kelata göndərmişdi.[3]

1747-ci il iyun ayının əvvəllərində Şah 15 min nəfərlik qoşunla Xəbuşana tərəf hərəkətə başladı. Bu xəbəri eşidən Xəbuşan kürdlərinin bir hissəsi Xəbuşan qalasına sığındı, digər hissəsi isə Aladağ dağına qaçdı. Şah irəliyə hərəkətini davam etdirib Xəbuşanın 2 fərsəngliyində olan Fərəhabadda (Fəthabadda) düşərgə saldı.[4] Lakin elə buradaca, iyunun 19-dan 20-nə keçən gecə Əfşar əyanlarının sui-qəsdi nəticəsində öldürüldü.

Nadir şahın qətli xəbərini alan Osmanlı elçiləri geri qayıtdılar.

Nadir şahın qətl xəbərini alan Əliqulu xan dərhal Məşhədə yola düşdü və Nadir şahın öldürülməsindən 16 gün sonra Məşhəddə özünü şah elan etdi. Əliqulu xanın göstərişi ilə hakimiyyətinə maneələr törənməsin deyə, Nadir şahın bütün kişi övladları qətlə yetirildi. Yalnız Nadir şahın nəvəsi, Rzaqulu

---

[1] Məhəmməd Kazım Mərvi. Aləm arayi-Nadiri. c. 3, Tehran 1358 h.ş. (mil. 1980), s. 1190-1191; Lawrence Lockhart. Nadir shah, p. 310-311; Maykl Aksvörti. Nadir şah, s. 359

[2] Məhəmməd Kazım Mərvi.Aləm arayi-Nadiri.s.1190; Mehman Süleymanov.Nadir şah, s. 511.

[3] Bazen Feransəvi. Nameye təbibe Nadir şah (1365), s. 34; Xaterate təbibe məxsus Nadir h. 1370 (mil. 1991). s. 824; Lawrence Lockhart. Nadir shah, p. 310.

[4] Mehman Süleymanov. Nadir şah, s.512- 513; Məhəmməd Kazım Mərvi. Aləm arayi-Nadiri. c. 2, Tehran -1358, s. 1195.

Mirzənin oğlu 14 yaşlı Şahrux Mirzə öldürülmədi və zindana salındı. Eyni zamanda Əliqulu xan onun da öldürüldüyü barədə xəbərlər yaydırdı.[1] Tarixçilərin fikrincə, Şahrux Mirzənin anası Şah Sultan Hüseynin qızı olduğuna görə Əliqulu xan onu öldürtmədi. Səbəbi isə əgər ölkə əhalisi Əliqulu xanın şahlığını qəbul etməiyb, Səfəvi nəslindən kiminsə taxta çıxarılmasını tələb edərdisə, onda Şahrux Mirzəni şah elan etdirər, kiçik yaşlı olduğuna görə dövləti özü idarə edərdi.[2]

Bu dövrdə artıq Əfşar dövləti tam tənəzzül keçirirdi. Nadir şahın qətli ilə onun dövləti əslində süqut etdi. Şah taxtı uğrunda qanlı müharibələr başlandı. Silah gücünə Əfşar imperiyasına ilhaq edilmiş ölkələr tədricən özlərinin keçmiş müstəqilliklərini bərpa etməyə başladılar.

Nadir şahın öldürülməsi ilə onun dövlətinin dağılmasından Rusiya Xəzər hövzəsində öz mövqelərini möhkəmləndirmək üçün istifadə etdi. Xarici İşlər Kollegiyasının 1748-ci il avqustun 21-də qəbul etdiyi qərarda deyilirdi ki, “İranda hərc-mərclikdən və şahın öldürülməsindən” Eltonun həyata keçirdiyi gəmi inşaatına son qoymaq üçün istifadə etmək lazımdır. Bu məqsədlə Gilanda olan rezident Çerkasova göstəriş verilməlidir ki, “qiyamçılardan və digər iranlılardan” pulla satın alınsın və onlar artıq inşa olunmuş və ya inşa olunmaqda olan bütün gəmilər, orada yaradılmış admirallıq, ambarlar, yelkən fabrikləri və başqa fabriklər, bütün sənədlər, bir sözlə nə mümkünsə hamısını yandırsınlar. Əgər bu mümkün olmazsa, Xəzərdə üzən rus gəmilərinin kapitanlarına gizli surətdə İran gəmilərini yandırmaq, Eltonu isə tutub Həştərxana göndərmələri barədə əmr verilməli idi.[3]

Eltonun inşa etdiyi şah gəmilərinin bir hissəsi çürüsə də 1749-cu ildə hələ də yararlıları qalırdı. Rus hakimiyyət orqanları

---

[1] Süleymanov M. Göst. əsəri, s. 519.

[2] Xaterat-e təbib-e məxsus Nader // Əfrasiyabi B. Oqab-e Kelat. Tehran, 1371, s. 836.

[3] Соловьев С. История России.., кн. XI, т. 22, СС. 497-498.

hər vasitə ilə həmin gəmiləri yandırmağa çalışırdılar. 1751-ci ildə bu məqsədlə xüsusi ekspedisiya göndərildi. Lakin ekspedisiya Xəzərin cənubuna çatanda artıq Eltonun öldürüldüyünü, admirallığın və digər binaların dağıdılıb talandığını öyrəndi. Ləngərud yaxınlığında Səfidrud çayının mənsəbində dayanmış iki böyük gəmi qalmışdı ki, onları da ruslar yandırdılar.[1]

Beləliklə, fəslə yekun vurub demək olar ki, Osmanlılara qarşı hərbi əməliyyatları uğurla başa çatdıran Nadir Dağıstandakı iğtişaşları yatırmağa yönəlmiş, burada hakimiyyətini nisbətən möhkəmləndirdikdən sonra 1736-cı ilin əvvəllərində imperiyanın hər yerindən hakimləri, ordu sərkərdələrini və əhali nümayəndələrini Muğan çölünə toplayıb qədim türk ənənələri nümunəsində qurultay keçirmiş və özünün şah seçilməsinə nail olmuşdu.

Qurultayın mühüm qərarlarından biri də şiəliyin əvəzinə sünniliyin cəfəri təriqətinə etiqad olunması haqqında qərar idi. Bununla da Nadir şah şiə-sünni ədavətinə son qoyub müsəlman birliyinə nail olmaq niyyətində idi. Qəsri-Şirin müqaviləsində göstərilmiş sərhədlər təsbit olunmaqla sülh müqaviləsi tərtib olunsa da, Osmanlı sultanı cəfəriliyi sünniliyin beşinci məzhəbi kimi tanımaqdan və Kəbədə cəfərilər üçün beşinci sütun dikəltməkdən imtina etmişdi.

Nadir şahla Osmanlılar arasında sülh danışıqları getdiyi zamanda Osmanlı-Rusiya münasibətləri kəskinləşməkdə davam edirdi. 1736-cı il mayın 28-də Rusiya Osmanlı dövlətinə qarşı rəsmən müharibə elan etdi. Rusiya Nadir şahdan 1735-ci il Gəncə müqaviləsinə uyğun olaraq Osmanlılarla hərbi əməliyyatları bərpa etməyi tələb etsə də, Nadir şah tələbə əməl etməmiş, şərqə yönəlmişdi. O, ilk növbədə Qəndəharı tabe etmək niyyətində idi.

Qəndəhar alındıqdan sonra Nadir şah bütün diqqətini Hindistana yürüşə yönəltmişdi.1739-cu il fevralın 24-də baş

---

[1] Новые документы о сожжении персидских кораблей на Каспийском море в 1751 г. Вестник императорского русского исторического общества. 1951, ч. 2, сс. 34-35.

vermiş həlledici döyüşdə Nadir şah Böyük Moğol Məhəmməd şahın sayca bir neçə dəfə üstünlüyə malik ordusu üzərində parlaq qələbə çalmışdı. İki tərəf arasında bağlanan müqaviləyə görə Məhəmməd şah və onun əyanları müharibənin günahkarları sayılır, buna görə də təzminat kimi Ətək və Hind çayının ətrafındakı ərazilər Əfşar imperiyasının tərkibinə keçir, 70 kurur (700 milyon rupi) dəyərində pul və ləl-cəvahirat ödənilirdi.

Hindistandan qayıdan Nadir şah Türküstan yürüşünə çıxmış, buranın çox hissəsini tabe etməyə nail olmuşdu. Daha sonra möhkəm Xivə qalasını almışdı.

Tarixi faktların araşdırılması göstərir ki, Nadir şah Hindistan və Mərkəzi Asiyaya yürüşlərdən qayıtdıqdan sonra ilk növbədə Rusiya ilə münasibətləri normallaşdırmağa çalışmış, bu məqsədlə də zəngin hədiyyələrlə böyük bir elçiliyi Rusiyaya göndərsə də Rusiya sarayının Nadir şaha münasibəti yaxşılaşmadı.

Nadir şah yenidən itaətsizlik göstərən dağlı hakimlərini ram etmək üçün Dağıstana növbəti səfərə çıxmışdı. Dağıstanlılar əvvəlcə öz itaətlərini bildirsələr də, dağıstanlıların böyük bir hissəsini köçürmək cəhdindən sonra Nadir şaha qarşı Dağıstanda güclü dirəniş başlamışdı.

Nadir şahın Dağıstanda hərbi əməliyyatlar aparması qonşu Rusiyanı çox narahat edirdi. Qafqazdakı rus komandirlərinin dağıstanlılara yardım etməsi də Nadir şahı qəzəbləndirirdi. İki dövlət arasında münasibətləri gərginləşdirən məsələlərdən biri də Endirey, Aksay və Kostyukov kəndlərinin kimə məxsusluğu məsələsi idi.

Rusiya ilə Nadir şahın arasında münasibətləri kəskinləşdirən amillərdən biri də Şahın ingilis kapitanı C.Eltonun yardımı ilə Xəzər dənizində hərbi donanma yaratmasına Rusiyanın kəskin müqavimət göstərməsi idi. Eyni zamanda Nadir şah ingilis tacirlərini himayə etdiyindən onlar Xəzərdə rus tacirlərini sıxışdırırdılar.

Lakin Şah əsas diqqətini Osmanlı imperiyası ilə müharibəyə yönəltdiyindən Rusiya ilə gərginlik hərbi münaqişə səviyyəsinə çatmadı. Osmanlı hökumətinin dağıstanlılara yardım etməsi,

“Səfi Mirzə” adlı bir yalançı şahzadəni taxta iddiaçı kimi irəli sürməsi və Sultanın cəfəriliyi sünniliyin beşinci məzhəbi kimi tanınmaqdan qəti imtina etməsi osmanlılara qarşı yeni müharibənin başlamasına səbəb oldu.

Yegen Mehmed paşanın başçılığı ilə çox böyük bir ordu ilə Nadir şah arasında1745-ci il avqustun 11-də Muradtəpə ətrafında beş gün davam edən qanlı döyüş Nadirin parlaq qələbəsi ilə nəticələnmişdi. Nadir şah bu dəfə təmkinlilik göstərib irəliyə doğru hərəkət etməmiş, yeni sülh təklifləri ilə Qarsa Əhməd paşanın yanına nümayəndələr göndərmişdi. İndi o, artıq cəfəri təriqətinin tanınması və Məkkədə Kəbədə beşinci sütunun dikəldilməsi barədə israr etmirdi.

1746-cı ilin sentyabrında hazır olan sülh müqaviləsinin mətninə görə, IV Murad dövrünün sərhədləri qüvvədə qalırdı.Təsdiqlənmiş müqavilə mətnini aparan Osmanlı elçiliyi Nadir şahın 1747-ci il iyunun 19-dan 20-nə keçən gecə saray sui-qəsdi nəticəsində qətlə yetirildiyini eşidib geriyə, İstanbula qayıtmışdı. Nadir şah qətlə yetirildikdən sonra qardaşı oğlu Əliqulu xan Adil şah adı ilə taxta çıxsa da, Əfşar imperiyasının dağılmasının qarşısını ala bilməmişdi. Azərbaycan və İranda onlarla xırda dövlətlər – xanlıqlar yaranmışdı.

# V FƏSİL

## XVIII ƏSRİN 50-80-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN XANLIQLARININ RUSİYA VƏ OSMANLI İMPERİYASI İLƏ MÜNASİBƏTLƏRİ

### V.1. Müstəqil Azərbaycan xanlıqlarının yaranması.

Məlumdur ki, 1747-ci il iyunun 19-dan 20-nə keçən gecə Yaxın və Orta Şərqin son böyük fatehi olan Nadir şah Əfşar saray əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən sonra onun müxtəlif dillərdə danışan və müxtəlif inkişaf səviyyəsində olan xalqların qılınc gücünə itaətdə saxlandığı nəhəng imperiyası çoxlu xırda hissələrə parçalanmış, o cümlədən Azərbaycanda 20-dən çox xanlıq adlandırılan müstəqil və ya daha güclü qonşularından asılı olan kiçik dövlətlər yaranmışdı.

Beləliklə, Azərbaycan elə bil ki, əsrlər əvvəl keçdiyi siyasi parçalanma mərhələsinə yenidən daxil oldu. Necə oldu ki, Azərbaycanda vahid dövlət deyil, xırda dövlətlər yarandı? Bunun əsas səbəbi əsrin birinci yarısında ölkədə baş verən qiyamlar və üsyanlar, ölkənin uzun sürən qanlı müharibələr meydanına çevrilməsinin təsiri altında iqtisadi həyatın tənəzzülü, ayrı-ayrı bölgələr arasında iqtisadi bağların qırılması nəticəsində yenə də qapalı təsərrüfatın hökmran olması idi. XVIII əsrin ortalarında yaranmış feodal parçalanması XIV-XV əsrlərdəki feodal parçalanması ilə oxşar cəhətlərlə yanaşı, həm də fərqli xüsusiyyətlərə malik idi. Başlıca fərq yeni yaranan dövlətlərin daha kiçik olması idi.

Qeyd edək ki, xanlıq daxili idarəçilikdə müstəqilliyə malik olan inzibati-ərazi vahidi kimi hələ xeyli əvvəllərdən bəzi vilayətlərdə mövcud idi. Məsələn, Quba xanlığı bir inzibati-ərazi vahidi kimi XVIII əsrin 70-ci illərindən mövcud idi. Lənkəran və Astara xanıqları da belə irsi hakimliklər idilər.

Nadir şah imperiyası dağıldıqdan dərhal sonra qubalı Hüseynəli xan tamamilə müstəqilləşdi. Dağların və keçilməz

meşələrin, müdafiə tikililərinin çoxluğu əhalinin təhlükəsizliyi üçün təminat yaradırdı. Bu səbəbdəndir ki, Quba xanlığı gündən-günə güclənərək Azərbaycanın siyasi həyatında mühüm rol oynamağa başlayır. 1758-ci ildə atasının ölümündən sonra hakimiyyətə gəlmiş Fətəli xan dövrün görkəmli dövlət xadimi, bacarıqlı sərkərdə və diplomat olmuşdur. O, Quba xanlığının iqtisadi və hərbi qüdrətini artırmış və dağınıq Azərbaycan torpaqlarını birləşdirmək uğrunda gərgin və çətin mübarizə aparmışdır.

40-cı illərin əvvəllərində Dağıstanda gedən hərbi əməliyyatlarda göstərdiyi şücaətə görə Şah tərəfindən xan rütbəsi verilməklə Talışın Uluf mahalındakı Bədəlan kəndindən Lekar körpüsünə qədər olan torpaqların idarəçiliyi hüququnu almış lənkəranlı Seyid Abbasın oğlu Cəmaləddin bəy Nadir şah qətlə yetirildikdən sonra vətəninə qayıdıb özünü müstəqil Lənkəran xanı elan edir. Cəmaləddin bəyin sifəti qarayanız olduğu üçün ona Qara xan deyirdilər və o, mənbələrdə elə bu adla xatırlanır.[1]

Şəki xanlığı şah istibdadına qarşı mübarizədə təşəkkül tapmışdı. Məlumdur ki, Nadir şahın təyin etdiyi Məlik Nəcəfin idarəçiliyindən, daha doğrusu özbaşınalığından təngə gəlmiş şəkililərin tələbi ilə Şah əhali arasında böyük nüfuza malik, XVI əsrdə Şəkinin müstəqil hakimi olmuş Dərviş Məhəmməd xanın törəmələrindən olan Hacı Çələbi Qurban oğlunu Məlik Nəcəfə nəzarət etmək üçün vəkil təyin etmişdi. Hacı Çələbi 1743-cü ildə üsyan edib məlik Nəcəfi qətlə yetirir və özünü müstəqil xan elan edir. Osmanlılarla müharibə getdiyindən Şah yalnız 1744-cü ilin payızında Şəki üsyançılarını cəzalandırmaq üçün 15 min nəfərlik ordu ilə yürüş etsə də, Hacı Çələbinin tərəfdarları ilə birlikdə sığındığı "Gələsən görəsən" qalasının yolu dar dərələrdən və sıldırım qayalardan keçdiyindən böyük qüvvə göndərmək mümkün olmadığı üçün yalnız kiçik dəstə ilə bu qalaya hücum

[1] İradə Məmmədova. Lənkəran xanlığı Birinci Rusiya-İran müharıbəsi dövründə. Bakı: Elm, 2007,s.17-19

etmiş, bunun isə faydası olmamışdı.[1]

Bununla belə, 1746-cı ilin martında ərzaq çatışmazlığı ilə əlaqədar çətin vəziyyətə düşmüş Hacı Çələbi Nadir şahın hakimiyyətini tanıdığını etiraf etməli olmuşdu. Nadir şah Hacı Çələbinin bu etirafı ilə kifayətlənib onu yenidən Şəkiyə vəkil təsdiq etmişdi.[2] Nadir şah öldürüldükdən sonra sonra isə Hacı Çələbi yenidən özünü müstəqil xan elan edir.

XVIII əsrin 40-cı illərinin sonlarında Şəki xanlığı Azərbaycanın ən güclü xanlıqlarından idi. Qəbələ və Ərəş sultanları da Hacı Çələbinin hakimiyyətini tanımış, 1751-ci ildə Qazax və Borçalı sultanlıqları da müvəqqəti olaraq Şəki xanına tabe edilmişdi. 50-ci illərin əvvəllərində Hacı Çələbi xan gürcü çarları Teymuraz və onun oğlu II İraklinin Gəncə və digər Azərbaycan torpaqlarını ələ keçirmək cəhdinin qarşısını almışdı. 1755-ci ildə Hacı Çələbinin ölümündən sonra hakimiyyət uğrunda mübarizələr nəticəsində Şəki xanlığı xeyli zəifləyir.

Qarabağ xanlığı da Şəki xanlığı kimi şah istibdadına qarşı mübarizə prosesində təşəkkül tapmışdı. Xanlığın banisi Pənahəli bəy Cavanşir tayfasının Sarıcalı oymağından idi. Böyük qardaşı Fəzləli bəylə birlikdə şah sarayında qulluq etmiş, lakin 1738-ci ildə Fəzləli bəy kiçik bir günah üstündə edam edildiyindən saraydan qaçmışdı. Bir müddət Zəngəzur yaylaqlarında gizlənmiş, sonra ətrafına tərəfdarlar toplayaraq Gəncə, Naxçıvan, Şəki və digər inzibati mərkəzlərə basqınlar etmişdir. Onun tərəfdarlarının sayı 20 min nəfərə çatırdı.[3] Şahın qətlindən sonra özünü müstəqil xan elan edən Pənahəli xan 1748-ci ildə Kəbirli mahalındakı Bayat qalasını xanlığın iqamətgahına çevirir. Bundan sonra Qarabağın xristian məliklərinin təhriki ilə Hacı Çələbi xan Şəkili Qarabağa hücum edir, lakin uğur qazanmır. Eyni zamanda məlum oldu ki, Bayat qalası düzənlikdə yerləşdiyi

---

[1] Azərbaycan tarixi (7 cilddə).III cild. O.Əfəndiyev, M.Ə. S.Məmmədov, T.Mustafazadə və başqalarının redaktəsi ilə. Bakı, 1999, s. 383-384.

[2] Azərbaycan tarixi (7 cilddə). III cild, s. 384.

[3] Yenə orada, s. 406.

üçün düşmənin uzunmüddətli mühasirəsinə duruş gətirmək iqtidarında deyil. Buna görə də 1752-ci ildə Tərnəkütdə Şahbulağı adlı yerdə yeni qala inşa olundu. Az sonra isə daha əlçatmaz yerdə, daha möhkəm qala inşa etmək qərara alındı və məşhur Pənahabad (Şuşa) qalası inşa olundu.

Abşeron yarımadasında mərkəzi Bakı şəhəri olan Bakı xanlığı yaranmışdı. Xanlığın əsasını qoyan Mirzə Məhəmməd xan XVIII əsrin 20-30-cu illərində Bakı hakimi olmuş Dərgahqulu xanın törəməsi, uzun müddət Nadir şahın Xəzər dənizindəki hərbi donanmasının rəisi olmuşdu. Nadir şah qətlə yetirildikdən sonra isə Mirzə Məhəmməd xan vaxtilə şahın Bakıya naib təyin etdiyi Səlimi qovaraq özünü müstəqil xan elan etdi. Bu xanlığın ərazisi çox kiçik, hərbi qüvvəsi az olsa da, Bakının Xəzər sahillərində ən böyük və əlverişli liman olması, xanlıqda xeyli miqdarda neft və duz hasil edilməsi sayəsində mühüm ticarət-iqtisadi və strateji əhəmiyyət kəsb edirdi.

Keçmiş Qarabağ (Gəncə) bəylərbəyliyinin mərkəzi hissəsində Qarabağ bəylərbəylərinin nəslindən olan Şahverdi xan Ziyadoğlu öz hakimiyyətini qoruyub saxlaya bilmiş və özünü müstəqil Gəncə xanı elan etmişdi.

Azərbaycanın lap şimal-şərq ucqarında Dərbənd şəhəri və onun ətrafını əhatə edən kiçik Dərbənd xanlığı yaranmışdı.

Keçmiş Şirvan bəylərbəyliyinin mərkəzi hissəsində iki xanlıq yaranmışdı. İbrahim şah Hacı Məhəmmədəli xanı Yeni Şamaxının xanı elan etmişdi.[1] Köhnə Şamaxıda isə Xançobanı tayfasının Sərkarlar nəslindən olan Əsgər bəyin oğlu Məhəmməd Səid özünü xan elan etmişdi. Yeni Şamaxı əhalisinin İrana meyilli Hacı Məhəmmədəli xana qarşı narazılığından istifadə edən Məhəmməd Səid xan qardaşı Ağası xanın köməyi ilə 1763-cü ildə Yeni Şamaxını ələ keçirib Hacı Məhəmmədəli xanı həbs etdi.

---

[1] ПФАРАН, фонд 3, оп. 33, д. 41, л. 3 и об; Михайло Чульков. Историческое описание Российской коммерции…, с. 623; Гаси Абдуллаев. Из истории Совето-Восточного Азербиджана в 60-80-е годы XVIII века. Баку: Изд. АН Азерб. ССР,1958, с. 100.

Kür və Araz çaylarının qovuşduğu yerdə Tale Həsən xan kiçik Cavad xanlığının əsasını qoymuşdu. Kür çayının mənsəbində (tarixi ədəbiyyatda çox vaxt sultanlıq adlandırırlar) daha kiçik bir xanlıq – Salyan xanlığı yaranmışdı. Bu xanlıq çox qısa müddətdə mövcud olmuş, 1756-cı ildə o zaman Quba xanı Hüseynəli xanın vəliəhdi olan Fətəli bəy Salyanı ələ keçirib Quba xanlığına birləşdirmişdi.[1]

Azərbaycanın qərb hissəsində yerləşən Naxçıvan xanlığının əsasını kəngərli tayfa başçısı Hüseynqulu xan qoymuşdu. 60-80-ci illərdə hakimiyyət uğrunda gedən mübarizə bu xanlığın zəifləməsinə səbəb olmuş, nəticədə Naxçıvan xanlığı Xoy, Qarabağ, İrəvan xanlıqları, Kartli-Kaxeti çarlığı və İran hökmdarları arasında mübarizə obyektinə çevrilmişdi.[2] Qərbdə yaranmış digər xanlığın – İrəvan xanlığının əsasını keçmiş Çuxursəd (İrəvan) bəylərbəyliyinin ərazisində xalq üsyanına başçılıq etmiş Mir Mehdi xan Qacar qoymuşdur. 1751-ci ildə urmiyalı Fətəli xanın sərkərdəsi Azad xan İrəvanı zəbt etmiş, yalnız 1755-ci ildə Mir Mehdi xanın qardası Həsənəli xan İrəvanda öz hakimiyyətini bərqərar etməyə nail olmuşdu. Taxta keçən digər qardaş Hüseynəli xan xanlığı xeyli gücləndirməyə, onun müstəqilliyini möhkəmləndirməyə nail olmuşdu.[3]

Azərbaycanın cənubunda – Urmiya gölünün qərb və cənub sahilində Urmiya xanlığı yaranmışdı. Xanlığın əsasını Nadir şahın sərkərdələrindən biri olmuş Fətəli xan Əfşar (1747-1763) qoymuşdur. Onun qonşu xanlıqları tabe etmək siyasəti geniş vüsət almış və obyektiv olaraq Azərbaycan torpaqlarını birləşdirmə siyasətinə çevrilmişdir. Nadir şahın keçmiş sərkərdəsi Azad xanı və onun qoşununu öz tərəfinə çəkmiş Fətəli xan bir neçə cənub xanlığını özündən asılı vəziyyətə salmağa nail olmuş, 50-ci illərin ortalarında Qarabağ xanlığına hücum edərək Şuşa qalasını mühasirəyə almışdı. Qarabağlı Pənahəli xan böyük oğlu

---

[1] Гаси Абдуллаев. Из истории Совето-Восточного Азербайджана..,с.100.

[2] Yenə orada.

[3] Tofiq Mustafazadə. Azərbaycan-Rusiya münasibətləri.., s. 25.

İbrahim ağanı girov verməklə mühasirədən xilas olmuşdu. Bundan sonra Fətəli xan şah taxtına iddiaçılar – Kərim xan Zənd və Məhəmməd Həsən xanla toqquşmuş, 1763-cü ildə məğlubiyyətə uğramış və Kərim xanın göstərişi ilə edam edilmişdi. Bundan sonra Urmiya xanlığı xeyli zəifləmişdir.[1]

Urmiya gölündən şimalda yerləşən Xoy xanlığının əsasını Nadir şahın əmri ilə qətlə yetirilmiş Xoy vilayətinin hakiminin yerinə təyin olunmuş oğlu Şahbaz xan qoymuşdu.[2] Urmiya xanlığından şərqdə əsası Əliqulu xan Müqəddəm tərəfindən qoyulmuş Marağa xanlığı yerləşirdi. Marağa və Urmiya xanlıqlarından şimalda əsası Nadir şahın sərkərdələrindən biri olmuş Bayat tayfa başçısı Əhməd Sultan tərəfindən qoyulmuş[3] Makı xanlığı yerləşirdi. O qədər də böyük ərazisi və əhəmiyyətli iqtisadiyyatı olmayan Makı xanlığı Türkiyə, Azərbaycan və İran arasında yerləşdiyindən çox önəmli coğrafi və strateji əhəmiyyətə malik idi.

Cənubi Azərbaycanın mərkəzi hissəsində əsası Dünbili tayfasından olan Nəcəfqulu xan tərəfindən qoyulmuş Təbriz xanlığı yerləşirdi. Nəcəfqulu xan hakimiyyətini möhkəmləndirmək üçün urmiyalı Fətəli xan Əfşardan yardım aldığından bir müddət ondan asılı vəziyyətdə qalmışdı.[4]

Təbriz xanlığından şərqdə Ərdəbil xanlığı yerləşirdi. Onun əsasını Şahsevən tayfa başçısı Nəzərəli xan (1747-1787) qoymuşdu. Təbriz və Ərdəbil xanlıqlarının arasında Sərab, bu xanlıqdan cənubda isə Zəncan xanlığı yerləşirdi. Sərab xanlığının banisi Şəqqaqi tayfa başçısı Əli xan (1747-1786) idi. Zəncan xanlığının banisinin də adı Əli xan idi.[5]

Azərbaycan xanlıqları, hər biri öz hakimiyyətini möhkəmləndirmək üçün əvvəllər Səfəvi dövlətinin tərkibinə daxil olmuş bütün əraziləri, o cümlədən zəngin və mühüm

---

[1] Tofiq Mustafazadə. Azərbaycan-Rusiya münasibətləri,s.25.
[2] Yenə orada, s. 26.
[3] Yenə orada.
[4] Yenə orada.
[5] Yenə orada.

geostrateji əhəmiyyətə malik Azərbaycan torpaqlarını tutmağa can atan şah taxtına iddiaçılarla mübarizə şəraitində yaranıb, inkişaf edirdilər.

Nadir şahın qətlindən sonra dövlətdə hakimiyyəti ələ alan Əliqulu xan gələcəkdə çətinliyə düşərsə, Nadir şahın nəvəsi-Rzaqulu Mirzənin II Təhmasibin bacısından olan oğlu Şahruxu taxta çıxarıb dövləti adından idarə etmək niyyətində idi.[1] Əliqulu xan tezliklə Adil şah təxəllüsü aldı. Lakin yeni şahın qardaşı İbrahim Mirzə Nadir şahın yaxın qohumu Əmiraslan xanla birləşib əyyaşlığa qurşanan və dövləti idarə etmək qabiliyyətinə malik olmayan Adil şaha qarşı çıxdılar və 1748-ci ilin sonunda ona qalib gəldilər. Tehrana qaçan Adili qardaşı İbrahim Mirzə əvvəlcə kor etdirdi, sonra isə qətlə yetirdi.[2] Adil şahın öz yanında girov kimi saxladığı şahzadə Şahrux Məşhədə getdi, lakin yolda kürd quldurları tərəfindən kor edildi.[3]

İbrahim Mirzə əvvəlcə Şahruxu müdafiə adı altında çıxış etməklə dövlətdə ali hakimiyyəti ələ keçirməyə çalışırdı. İbrahim Mirzə onu İraqi-Əcəmə dəvət etdi. Xorasan əyanları İbrahim Mirzənin dəvətində bir təhlükə görüb Şahruxun onun yanına getməsinə mane oldular və 1748-ci ilin oktyabrında Şahruxu Məşhəddə şah elan etdilər.[4] Bundan xəbər tutan İbrahim Mirzə də bir həftə sonra özünü şah elan etdi və Şahruxa qarşı yürüşə çıxdı. Lakin əfqan və özbək sərkərdələrinin daha çox irəli çəkilməsindən narazı olan azərbaycanlı qızılbaş tayfaları yolda İbrahim şahı tərk etdilər. Bir qədər sonra əfqanlar və özbəklər də onu tərk etdilər. Şahrux şahın tərəfdarları ordusuz qalan İbrahim

---

[1] Lawrence Lockhart. Nadir shah. A critical study based mainly upon the contemporary sources. London, 1938, p. 263.

[2] Салех Алиев. Междоусобные войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха//Иран (история и культура в средние века и новое время). Издательство Наука. М., 1980, с. 30-31.

[3] Самуил Гмелин. Путешествие по России. т. III, половина первая, сс. 180-181.

[4] Салех Алиев. Göst. əsəri, s. 31.

şahı ələ keçirib qətlə yetirdilər.[1]

Qum şəhərinin ətrafında yaşayan türk xələc tayfaları Səfəvilər nəslinə mənsub olan Mir Seyid Məhəmmədi 1750-ci ilin yanvarında II Süleyman adı ilə şah elan etdilər.[2] Tezliklə, Məşhəd hakimi Yusifəli xan Cəlayiri II Süleymanı taxtdan salıb, kor Şahruxu yenidən taxta çıxardı. Şahruxun hakimiyyəti yalnız Xorasanla məhdudlaşırdı və fasilələrlə 1795-ci ilə kimi davam etmişdir.

XVIII əsrin 50-ci illərində şah hakimiyyəti uğrunda mübarizənin mərkəzi İranın orta hissəsinə keçir və siyasi meydana farsdilli tayfalar olan zəndlərin nümayəndəsi – Kərim xan və Bəxtiyarilərin nümayəndəsi Əlimərdan xan çıxır. Kərim xan Əlimərdan xanın yardımı ilə İsfahanı alıb burada özünü III İsmayıl adı ilə şah elan etmiş Mirzə Əbu Turabı özündən asılı vəziyyətə saldı.[3] Bir müddət sonra iki müttəfiq arasında münaqişə yarandı və 1754-1755-ci illər arasında İsfahandan bir qədər aralıda baş vermiş döyüşdə Əlimərdan xan məğlubiyyətə uğrayıb həlak oldu.[4]

Qeyd edək ki, hələ bundan əvvəl – 1753-cü ildə Kərim xan Zənd böyük ordu ilə Azərbaycanın cənubuna hücum etmiş, lakin avqustun sonunda urmiyalı Fətəli xan Əfşar və müttəfiqləri tərəfindən Qəzvindən cənubda məğlubiyyətə uğradılmışdı. İsfahana qaçmış Kərim xan qorxusundan burada da qala bilmədi və Şiraza getdi. Fətəli xan Əfşarın və onun sərkərdəsi Əfqan Azad xanın qəzəbindən qorxan Şiraz əhalisi qala qapılarını Kərim xanın üzünə bağladı. Qəmşə adlı yerdə baş vermiş döyüşdə Kərim xanın ordusunun qalıqları da məhv edildi. Vahiməyə düşmüş Kərim xan Hindistana qayıtmaq fikrinə düşmüşdü. [5] Lakin İranın

---

[1] Yenə orada. Салех Алиев. Göst. əsəri,s.31.

[2] Yenə orada, s. 32; Степан Кишмишев. Göst. əsəri, s. 224.

[3] Кишмишев, с. 226; Салех Алиев. Göst. əsəri, s. 42-44.

[4] Салех Алиев. Göst. əsəri, s. 44-45;Самуил Гмелин. Göst. əsəri, II c., I his., s. 188-189.

[5] Hüseyn Dəlili. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin II yarısında). Bakı, Elm, 1979, s. 113; Салех Алиев. Göst. əsəri, s. 44-45.

cənubundakı tayfaların başçıları Kərim xana yardım göstərdilər və sonuncu 1754-cü ilin iyulunda Kamaric bölgəsində əfşarların və əfqanların qüvvələrini darmadağın etdi. Azad xan şimala qaçdı.[1]

XVIII əsrin 50-ci illərinin əvvəllərində şah taxtına real namizədlərdən biri də Qacar tayfasının Yuxarıbaş tirəsininn başçısı olan, vaxtilə II Təhmasibin etimad-üd-dövləsi olmuş və 1726-cı ildə qətlə yetirilmiş Fətəli xan Qacarın oğlu Məhəmmədhəsən xan idi. Qeyd edək ki, Məhəmmədhəsən xan hələ 1744-1745-ci illərdə Astrabad və Mazandaranda qacarları və qonşu türkmənləri Nadir şaha qarşı qaldırmış və müvəqqəti olaraq Astrabadda hakimiyyəti ələ keçirməyə nail olmuşdu.

Nadir şahın qətli ərəfəsində ona qarşı mübarizə zəminində Məhəmmədhəsən xan və Əliqulu xan yaxınlaşsalar da, sonuncu şah taxtını ələ keçirdikdən sonra onlar arasında düşmən münasibət yaranır və qüvvəsi az olan Məhəmmədhəsən xan yenə Türkmən çöllərinə qaçır. Əliqulu xan türkmənləri Məhəmmədhəsən xanın iki oğlunu ona verməyə məcbur edir, o zaman 6 yaşı olan böyük oğlu – Ağa Məhəmmədi axtalatdırır.[2] Bu hadisə kiçik oğlanın psixikasına çox mənfi təsir göstərir, onun amansızlaşmasına səbəb olur. Əliqulu xan həlak olduqdan sonra Ağa Məhəmməd xan atasının yanına qaçır. II Süleyman şah Məhəmmədhəsən xana Astrabad vilayətinin hakimliyini tapşırmış və yeni mövqeyindən istifadə edən Məhəmmədhəsən xan tezliklə hakimiyyətini Mazandarana və Gilana yaya bilmişdi.

Xeyli qüvvətlənmiş Məhəmmədhəsən xan şah taxt-tacı uğrunda mübarizəyə qoşulur və 1752-ci ildə Kərim xan Zəndi məğlub edir. 1755-ci ilin yazında isə onu tamamilə məhv etmək üçün mərkəzi İrana yürüş edir. Rəqibini yenidən məğlubiyyətə

---

[1] Салех Алиев. Göst. əsəri, s. 47-48.

[2] Жизнеописание Ага-Магомет-хана Каджара основателя ныне царствующей в Персии династии, с краткием обозрением последовавших по его смерти главнейших происшествии. Сын Отечества и Северный Архив (Журнал словесности, политики и истории). Том XLIX (Сына Отечества часть 171-ая, Северного Архива 85-ая ). СПб.: 1835, с. 273.

uğradıb İsfahana daxil olur. Kərim xan az miqdarda tərəfdarı ilə qaçıb Şirazda möhkəmlənir. Məhəmmədhəsən xan Şirazı tutmaq istəsə də Fətəli xan Əfşarın və Azad xanın Gilanı tutmaları xəbərini eşidib ora getməli olur, O, 1757-ci ilin əvvəllərində Gilanı yenidən öz nəzarəti altına qaytarır. Həmin ildə Məhəmmədhəsən xan Təbrizi ələ keçirib Urmiya qalasını mühasirəyə aldı.[1] Fətəli xan Əfşar üzərində qələbədən sonra Məhəmmədhəsən xan hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymaq qərarına gəlir və Qarabağ xanlığına yürüş edir. Şuşanı mühasirəyə alsa da, Cənubi Azərbaycanda və İranda şahlıq uğrunda mübarizənin yenidən qızışması xəbərini alaraq Qarabağı tərk etməli olur.[2]

1758-ci ilin yazında Məhəmmədhəsən xan Fətəli xan Əfşarın və Şahbaz xan Xoylunun qüvvələrini cəlb etməklə İsfahan şəhərini ələ keçirir və sonra Şirazı mühasirəyə alır. Lakin mühasirə uzandığından buradan Mazandarana çəkilir. Yuxarıbaş qacarları da daxil olmaqla bir çox müttəfiqləri Məhəmmədhəsən xanı tərk etdilər. Mazandaranda çox az qalmış tərəfdarı ilə zəndlərin güclü dəstəsi ilə döyüşdə məğlub və həlak oldu.[3]

Məhəmmədhəsən xan öldükdən sonra Azərbaycanın cənubunda öz mövqelərini möhkəmləndirən Fətəli xan Əfşar hətta Qarabağ xanlığına yürüş etdi. Fətəli xanın Şimali Azərbaycanda olmasından istifadə edən Kərim xan Zənd öz qüvvələrini bərpa edib 1760-cı ilin payızında Azərbaycana ikinci yürüşə başladı. Lakin dörd ay mühasirədə saxlasa da, Təbrizi ala bilmədi. Müdafiəçilərin inadlı müqaviməti və havaların soyuması Kərim xanı Tehrana qayıtmağa vadar etdi.[4]

1762-ci ilin mayında Kərim xan yenidən Azərbaycana yürüşə başladı. Xoy və Salmas şəhərləri arasında Qaraçəmən düzündə Kərim xanla Azərbaycan xanları arasında həlledici döyüş baş verdi. Döyüşün birinci günü Fətəli xan Əfşarın başçılıq etdiyi

---

[1] Салех Алиев. Göst. əsəri, s. 49.
[2] Yenə orada, s. 50.
[3] Yenə orada, s. 51.
[4] Yenə orada, s. 52-53.

qüvvələr düşmənin sol cinahını dağıdıb Zənd döyüşçülərini qaçmağa məcbur etdilər. Lakin Azərbaycan xanlarının döyüşçüləri arxayınlaşıb qarətlə məşğul olmağa başladığından ertəsi gün düşmən əks-hücuma keçdi və Fətəli xan Urmiya qalasına çəkilməli oldu.[1]

Urmiya qalasını mühasirəyə alan Kərim xan Fətəli xanla düşmən münasibətdə olan Azərbaycan xanlarını da yardıma çağırdı. 9 aylıq mühasirədən sonra vəziyyətin ümidsizliyini görən Fətəli xan 1763-cü ilin fevralında təslim oldu. Qardaşı Zəki xanın Əlimərdan xanla birləşib İsfahanda ona qarşı qiyam qaldırdığını eşidən Kərim xan təcili ora getməli oldu. O, Fətəli xanı ailəsi ilə birlikdə özü ilə apardı və yolda Fətəli xan qətlə yetirildi. Kərim xan onun düşərgəsində olan Azərbaycan xanlarını – qarabağlı Pənahəli xanı, gəncəli Şahverdi xanı, naxçıvanlı Hacı xan Kəngərlini, qaradağlı Kazım xanı, xoylu Şahbaz xanı, təbrizli Nəcəfqulu xanın böyük oğlu Fərzəli bəyi, marağalı Əlimərdan bəyi, irəvanlı Hüseynəli xanın qardaşlarını, gəncəli Şahverdi xanın qardaşı Rzaqulu bəyi, sərablı Əli xan Şəqqaqini və başqalarını guya Fətəli xan üzərində qələbəyə həsr olunacaq təntənələrdə iştirak etmək adı ilə özü ilə apardı və faktiki olaraq onları Şirazda girov kimi saxladı.[2]

Qeyd edək ki, qardaşı Zəki xanın qiyamını yatırdıqdan sonra Kərim xan Ərdəbilə gəlib buradan qubalı Fətəli xana məktub yollayıb Şamaxı şəhərinə hücum etmək niyyətində olduğunu bildirmişdi. Fətəli xan isə cavabında Kərim xanın Kür çayından bu tərəfə keçməməsini məsləhət bilmişdi.[3]

## V. 2. Müstəqil Azərbaycan xanlıqlarının yaranmasına Rusiya və Osmanlı imperiyalarının münasibəti

---

[1] Салех Алиев. Göst.əsəri, s. 53; Hüseyn Dəlili. Azərbaycanın cənub xanlıqları.., s. 120-121.

[2] Салех Алиев. Göst. əsəri, s. 53-54; Hüseyn Dəlili. Azərbaycanın cənub xanlıqları..., s. 121-125.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 2, (1722-1796 гг.), л. 32 и об.

## V.2.1. Rusiyanın Azərbaycan xanlıqlarına münasibəti

Azərbaycan xanlıqları yarandıqdan sonra aralarında torpaq, sərvətlər və təbəələr uğrunda kəskin mübarizə getdiyindən onlar həm digər xanlıqlar arasında müttəfiqlər axtarır, həm də qonşu güclü dövlətlərin yardımına nail olmağa çalışırdılar. Azərbaycan xanlarının xarici meyilləri birmənalı deyildi. Onlar öz müstəqilliklərini qorumaq üçün güclü Rusiya və Osmanlı dövlətləri ilə münasibətdə manevretmə siyasəti yürüdürdülər. Azərbaycanın şimal və şərq hissəsində yerləşən xanlıqlar daha çox Rusiya ilə əlaqələrin qurulub inkişaf etdirilməsinə çalışırdılar. Təsadüfi deyil ki, bakılı Mirzə Məhəmməd xan 1749-cu ilin sonunda öz elçisi Mirzə Fəhimi Həştərxana göndərib Rusiya hökmdarının onu himayəyə götürməsini xahiş etmişdi.[1] 1753-cü ildə isə qubalı Hüseynəli xanın nümayəndəsi Həştərxana gedərək rus hakimiyyət orqanlarından şəkili Hacı Çələbi xana qarşı mübarizədə yardım istəmişdi.[2]

Azərbaycan xanlarının manevr siyasətinə sübut kimi qeyd edək ki, bir müddət əvvəl Hüseynəli xanın özü də Hacı Çələbi xanla birlikdə öz nümayəndələrini Osmanlı sultanının yanına göndərərək Dərbənd və Bakı şəhərlərini zəbt etmək üçün qoşun göndərilməsini xahiş etmişdi.[3]

Bakılı Mirzə Məhəmməd xan 1750-ci ildə Həştərxan qubernatoru Brılkinə müraciətində ingilis kapitanı Eltonun Nadir şah üçün inşa etdiyi bir botu almaq istədiyini, Eltonun isə onun bu istəyini rədd etdiyini yazırdı. Buna görə də xan Eltonu tutmaqda Mirzə Məhəmməd xana yardım üçün Həştərxandan üç gəmi göndərilməsini, yaxud da bu barədə sahildəki gəmilərin kapitanlarına əmr olunmasını istəyirdi. Mirzə Məhəmməd xan iddiasını vaxtilə Nadir şahın hərbi dəniz qüvvələrinin rəisi –

[1] ГААО, ф. 394, оп. 1 (Дополнения), д. 90, л. 45об.; Фуад Алиев. Антииранские выступления..., с. 228-229; Марзия Искендерова. Бакинское ханство. Баку, Чашыоглу, 1999, с. 95.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1753г., д. 4, лл. 227-228.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1750г., д. 6, л. 304.

“ober-admiralı” olması və Ləngərudda gəmi inşasına başçılıq etməsi ilə əsaslandırırdı.[1]

Azərbaycan xanlarının öz gəmilərinin olmasını arzulamayan Rusiya hakimiyyət orqanları Bakı xanının xahişini yerinə yetirməmişdilər, lakin onunla münasibətləri də tam korlamaq istəmirdilər. 1753-cü ilin sonunda Bakıya göndərilmiş poruçik F.Baratov xanla söhbətində onu rus çarının himayəsi ilə ümidləndirmişdi.[2]

Azərbaycan xanlıqlarının güclənməsində maraqlı olmayan Rusiya bir çox zəruri malların – dəmir, dəmir lövhələr, ox ucluqları, qızıl və gümüşün həm külçə halında, həm də sikkə şəklində ixracını, lövbər, gəmi yelkəni üçün lazım olan parça və kanatların ixracını qadağan etmişdi.[3]

Yeri gəlmişkən, qeyd edək ki, Kommers-kollegiyanın prezidenti Soymonov 1754-cü ildə Xarici İşlər kollegiyasına Nadir şah qətlə yetirildikdən sonra Rusiya tacirlərinin Xəzərsahili şəhərlərdə ticarət etmələrinin çətinləşdiyindən,[4] indi rusların Şərq ticarətində başlıca gəlirinin rus gəmilərində malların daşınması üçün alınan rüsumdan ibarət olduğunu yazırdı. Soymonov bu işdə də bir problem olduğunu qeyd edirdi – rus hərbi gəmiləri yerli tacirlərin mallarını daşımağa başlamışdılar ki, bununla nəinki mülki gəmi sahiblərinə zərər yetirirdilər, eləcə də hərbçi olduqları üçün çox vaxt gəmilərini gömrük yoxlamasından yan keçirirdilər və bundan istifadə edən Azərbaycan və İran tacirləri, qadağan olunduğu halda qızıl və gümüş pulları Rusiyadan apara bilirdilər.[5]

Rusiya hakimiyyət orqanları o zaman Azərbaycanda cərəyan edən siyasi hadisələrlə yaxından maraqlanırdılar. 1760-cı ilin yayında Həştərxan qubernatoru Neronov quberniya

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1750г., д. 6, л. 455 и об.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1761 г., д. 2, л. 158.

[3] РГАДА, ф. 276, оп. 1, д. 618, лл. 1-3 об.

[4] Архив Государственного Совета. т. II, с. 718.

[5] Yenə orada, s. 719-720.

dəftərxanasının tərcüməçisi Əbdürrəşid Altışevi məktubla qubalı Fətəli xanın yanına göndərib Şamaxı xanlığı ətrafında baş verən hadisələr haqqında məlumat almaq istəmişdi.[1]

Altışev Rusiyaya qayıtdıqdan sonra qubernator qubalı Fətəli xanın 8 min nəfər döyüşçüsü və ona qoşulmuş 12 min dağıstanlı döyüşçü ilə Köhnə Şamaxı hakimi (söhbət Məhəmməd Səid xan və qardaşı Ağası xandan gedir. T.M.) iki il ərzində ona verməli olduğu 12 min manatı vermədiyi üçün gedib həmin şəhəri mühasirəyə aldığını öyrənmişdi. 10 gün keçsə də, Fətəli xan Köhnə Şamaxını ala bilməmiş və döyüşçülərinə şəhər ətrafındakı kəndlərin sakinlərini əsir almağı, heyvanlarını və əmlaklarını qarət etmələrini əmr etmişdi. Altışevin yazdığına görə, Quba xanının göstərişi ilə böyük bir kəndin 5 min sakini Salyana köçürülmüşdü.[2]

Əbdürrəşidin yazdığına görə, Kuban sərəskəri Bahadır Gəray sultanın nümayəndəsi Fətəli xanın yanına gəlib sərəskərin məktubunu, habelə İstanbul ustalarının hazırladıqları tüfəng, yay, qızıl və gümüşlə işlənmiş qolçaq gətirmişdi. Qonağın şərəfinə axşam ziyafəti təşkil edilmiş və Əbdürrəşid də həmin ziyafətdə iştirak etmişdi. Ziyafət zamanı Əbdürrəşid sərəskərin nümayəndəsindən öyrənmişdi ki, Kuban sərəskəri Fətəli xana dağ çərkəzləri temirqoylulara qarşı yürüşə çıxacağı, sonra da Kabardaya gedəcəyi, ola bilsin ki, Qızlara da toxunacağı və Quba xanının bitərəf qalmasını istəməsi haqqında məlumat verir.[3] Bu fakt artıq o zaman Fətəli xanın nəinki Azərbaycanda, bütövlükdə Qafqaz regionunda böyük nüfuza malik olduğunu göstərir.

Rusiya hökuməti Azərbaycan və Gilanın ticarət imkanlarını nəzərə alaraq bu yerlərdə ticarətin təşkilinə yardım göstərmək məqsədilə konsulluqlar açırdı.

İmperatorun 31 mart 1762-ci il tarixli fərmanı ilə Bakı və Ənzəli limanlarında konsulluqlar açılmalı idi. 1763-cü ildə İlya

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1761 г., д. 2, л. 158 об.

[2] Yenə orada, v. 152 və a.ü.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1761 г., д. 2, л. 153.

İqumnov Ənzəli limanına, Mixail Sulyakov isə Bakı limanına konsul vəzifəsinə göndərilmişdi. İ.İqumnov 1765-ci ildə öldüyü üçün onu Qavril Boqolyubov əvəz etmişdi.[1] II Yekaterinanın göstərişi ilə Kommers-kollegiya konsul Sulyakovun məlumatını dinləmişdi. Sulyakov yazırdı ki, indi Bakı limanında rus təbəələrindən rəhdar alınmır, bunun əvəzində rus mallarını alan yerli tacirlərdən hər zərif mahud tayına görə 3 manat, yun mahudu və digər parçaların hər tayına görə 70 qəpik alınır. Sulyakov dəvələrlə Şamaxıya böyük miqdarda ingilis malları gətirildiyini də xəbər verirdi. Bu mallar rus mallarına nisbətən ucuz satıldığına görə, rus ticarətinə böyük zərbə dəyir. İngilislər həm İranda, həm də Azərbaycan daxilində sərbəst hərəkət etmək hüququna malik olduqları halda, rus tacirləri yalnız limanlarda ticarətlə məşğul ola bilərdilər. Qubalı Fətəli xanla Şamaxı hakimləri arasında münaqişə olduğundan Şamaxıdan Bakıya gedən karvanların yolda qarətlərə məruz qalması da rus ticarətinə mənfi təsir göstərirdi.[2] Rusiyadan qızıl, gümüş və qırmızı mis pulların ixracının qadağan olunması da rus tacirləri üçün əngəl törədirdi.[3]

Qeyd edək ki, bu zaman Bakı xanı ilə gərgin münasibətlərdə olan qubalı Fətəli xan Bakının maliyyə durumunu pisləşdirmək məqsədilə konsulluğun Salyanda açılmasını, Rusiya-Azərbaycan ticarətinin əsas mərkəzinin bura köçürülməsini istəyirdi. Yəqin elə buna görədir ki, Ənzəliyə konsul təyin olunan İlya İqumnov Ənzəliyə gedərkən Salyana da dəymişdi. O, 1763-cü il noyabrın 28-də Salyan şəhərinin yaxınlığındakı Kafarud adasına gəlmişdi (fikirləşirdi ki, orada rus tacirləri olar, lakin burada öz hakiminin ağır vergilərindən qaçmış ona qədər gilanlı ailəsinin yaşadığı cəmi 5-6 qamış koma görmüşdü). İqumnov adaya gəldikdən az sonra bir neçə adlı-sanlı salyanlı gəlib ona ərzaq məhsulları gətirərək konsulun Salyanda qalmasını arzulamışdılar.[4]

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 5, 1734-1781 гг., д. 5, л. 141.

[2] Yenə orada, v. 169 a.ü.-170.

[3] Yenə orada, v. 170.

[4] РГАДА, ф. 276, оп. 1, д. 637, л. 1 об.

İqumnov Salyan duracağının bir neçə cəhətdən Ənzəlidən üstün olduğunu, buranın gəmilərin dayanması üçün daha təhlükəsiz olduğunu bildirərək yazırdı ki, Quba xanının Rusiya təbəələrinə rəğbətlə yanaşması sayəsində rus tacirləri burada gömrük icarədarları tərəfindən təzyiqə məruz qalmadan ticarət edə bilərlər və Ənzəlidən fərqli olaraq burada tez-tez yerli quldur dəstələrinin basqınlarına məruz qalmazlar.[1]

Fətəli xan 1764-cü il fevralın 6-da Rusiya konsulu İlya İqumnova yazdığı məktubunda onun Salyan limanına gəlməsindən məmnunluğunu bildirirdi. Xan Ağa Əli bəyi göndərmişdir ki, konsul üçün yaxşı bir yerdə ev tiksin.[2] Hələ Ənzəlini görmədiyi, həm də Kommers-kollegiyadan Salyanda qalmaq haqqında göstəriş almadığı üçün İqumnov Salyanda qalmayıb Ənzəliyə getmişdi.[3]

Ənzəliyə gəlib burada şəraitlə tanış olan İqumnova Kərim xan Zəndin rus tacirlərindən də İran tacirlərindən tutulduğu miqdarda gömrük rüsumu tutulmasını tələb etdiyi məlum oldu. Doğrudur, Hidayət xan buna müqavimət göstərirdi. Lakin İqumnov hesab edirdi ki, indiki xan digəri ilə əvəz olunduqda rus tacirlərindən gömrük alınacağı ehtimalı böyükdür və belə halda ona Salyana köçməyə icazə verilməsini istəyirdi.[4]

Salyanda rus konsulluğunun açılması isə Bakı xanını narazı salmışdı.

Mixail Sulyakov 1766-cı ildə göndərdiyi məruzələrinin birində onunla Bakı xanı arasında baş verən ixtilaf haqqında ətraflı məlumat verirdi. Sulyakov Bakı xanının onunla və rus tacirləri ilə pis rəftar etdiyinə və Quba və Şamaxı xanları arasındakı ixtilafla bağlı Rusiya tacirlərinin quru yolla Şamaxı ilə sərbəst ticarət edə bilmədiklərinə görə konsulun və rus tacirlərinin Bakıda qalmasını faydasız və təhlükəli sayırdı. Buna görə də Sulyakov rus tacirləri ilə birlikdə Rusiyaya və rus tacirlərinə

---

[1] РГАДА, ф. 276, оп. 1, д. 637, л. 2.

[2] РГАДА, ф. 276, оп. 1, д. 637, лл. 13-15.

[3] Yenə orada.

[4] Yenə orada, v. 6 a.ü.

müsbət münasibət bəsləyən Fətəli xanın əlində olan Karqalıya (Salyan yaxınlığındakı adaya) köçməyi qərara almış, lakin Bakı xanının xahişini nəzərə alaraq və rus hökumətinin necə qərar qəbul edəcəyini gözləyərək hələlik köçməyi təxirə salmışdı.[1]

Xarici İşlər kollegiyasında Sulyakovun məruzələri araşdırılmışdı. Qəbul edilən qərarda deyilirdi ki, hələ Çekalevskinin konsul olduğu zamanda da Bakı xanının və digər dəniz kənarı ərazilərin hakimlərinin Rusiya konsuluna və Rusiya tacirlərinə mənfi münasibətləri müşahidə olunduğundan Sulyakovun yerli hakimlərlə münasibətlərində ehtiyatlı olması tövsiyyə olunur.[2]

Sulyakovla Bakı xanı arasında mübahisəyə səbəb olan məsələlərdən biri xristianlığı qəbul etmiş Məhəmməd adlı şəxsin Həştərxandan Bakıya gələrək Rusiyaya qayıtmaq istəməməsi ilə bağlı olmuşdu. Kollegiyadan bildirirdilər ki, Sulyakov Məhəmmədi heç kimin xəbəri olmasın deyə gəmidə tutmaq əvəzinə şəhərdə tutub öz mənzilinə qapamışdı. Bundan xəbər tutan Bakı xanı Məhəmmədin azad olunmasını tələb etmişdi. Rədd cavab aldıqda isə Sulyakova qəzəblənmişdi.[3] Narazılıq yaranmasına səbəb olan məsələlərdən biri də rus konsulluğunun dəftərdarı Ryabtsevin konsulluq binasından çıxdıqdan sonra silahlı adamların onu tutub xanın hüzuruna aparmaq istəmələri ilə bağlı olmuşdu. Kollegiya hesab edirdi ki, Ryabtsev hansısa qeyri-etik hərəkəti ilə buna əsas vermişdir.[4]

Bakı xanının onun şikayətləri üzrə lazımi tədbirlər görməməsindən gileylənən Sulyakova xatırladılırdı ki, konsulluğun mühafizəçiləri yerli-yersiz, vaxt-bivaxt şəhərə çıxır, özlərini yaxşı aparmırlar. Bu da sakinlərin və yerli hakimiyyət orqanlarının haqlı narazılığına səbəb olur. Konsula tapşırılırdı ki, konsulluq əməkdaşlarının hərəkətlərinə ciddi nəzarət etsin, ehtiyac olmadıqca onların konsulluq binasından çıxmalarına

---

[1] АВПРИ,ф.77(СРП),оп.7,д.139,л.1 и об.
[2] Yenə orada,v.2 a.ü.-3.
[3] Yenə orada,v.4 a.ü.-5.
[4] Yenə orada,v.6

icazə verməsin. O ki qaldı konsulun və tacirlərin ayrı yerə köçmək istəmələrinə bu məsələnin həlli konsulun ixtiyarına buraxılırdı.[1] Nəhayət, rus hökuməti Mixail Sulyakovu Bakıdan buraya keçirdi. Fətəli xan Salyanda Rusiya konsulluğunun yaradılmasından çox məmnun qalmış və hətta 1770-ci ildə özü gəlib Salyan şəhərinin qarşısındakı adada yerləşmiş Sulyakovla görüşmüşdü.[2]

Arxiv sənədlərindən məlum olur ki, rus hakimiyyət orqanları XVIII əsrin 60-cı illərinin ortalarından Azərbaycan xanlarından ən çox Quba xanına diqqət yetirməyə başlamışdı. Bu həmin xanlığın XVIII əsrin 50-ci illərinin sonlarında getdikcə güclənməsi və Azərbaycanın şimal-şərq xanlıqları içərisində yüksəlməsi ilə əlaqədar idi. İrəlidə qeyd olundğu kimi hələ 1756-cı ildə Hüseynəli xanın oğlu Fətəli bəy Salyana yürüş edib buranı Quba xanlığına birləşdirmişdi. 1758-ci ildə Hüseynəli xanın vəfatından sonra xan taxtına çıxan Fətəli xan bir il sonra – 1759-cu ildə sakinlərin Dərbənd xanı Məhəmməd Hüseyn xandan narazılığından istifadə edib yerli feodalların bir hissəsinin yardımı ilə Dərbəndə daxil olur və buranı öz iqamətgahına çevirir. 1765-ci ildə isə Fətəli xan nikah diplomatiyası vasitəsilə, bacısı Xədicə Bikəni Mirzə Məhəmməd xanın oğlu Məlik Məhəmməd xana verməklə Bakı xanını özündən asılı vəziyyətə salmışdı. Həmin ildə Fətəli xan Şamaxı xanlığını tabe etmək uğrunda mübarizəyə başlayır. Şəki hakimi Hüseyn xan Şamaxı xanları Məhəmməd Səid və Ağası qardaşlarına yardım etdiyi üçün Fətəli xan istədiyi nəticəyə nail ola bilmirdi. Buna görə də Hüseyn xana Şamaxı xanlığının ərazisini bölüşdürməyi təklif etdi. Hüseyn xan bu təkliflə razılaşdı və 1768-ci ildə həmin xanların qoşunları iki istiqamətdən Şamaxı xanlığının ərazisinə daxil oldular. Hüseyn xan ona sığınmış Ağası xanın gözlərini çıxartdırdı və bunu Fətəli xanın göstərişi ilə etdiyini dedi. Şamaxı xanlığının böyük hissəsi Quba xanlığına birləşdirildi və bu ərazi Fətəli xanın təyin etdiyi

[1] АВПРИ,ф.77(СРП),оп.7,д.139,л.8 об.-9 об.
[2] РГАДА, ф. 276, оп. 1, д. 637, л. 66 и об.

naib tərəfindən idarə olunmağa başlandı. Az sonra isə iki xan arasında ixtilaf yarandığından Fətəli xan Şamaxı xanlığının digər hissəsini də öz nəzarəti altına aldı. Elə həmin il – 1768-ci ildə Kür və Araz çaylarının qovuşuğunda yerləşən kiçik Cavad xanlığı könüllü surətdə Quba xanından asılılığı qəbul etdi.[1]

Alınan məlumata görə, Fətəli xan Kür çayını keçib cənubdakı əraziləri də ələ keçirərək Kərim xan Zəndə qarşı çıxmaq niyyətində idi.[2]

Fətəli xan öz nüfuzunu Azərbaycanın cənubuna hətta İrana yaymaq üçün yanında bir qondarma "Səfəvi şəhzadəsi"də saxlayırdı. 1759-cu ilin avqustunda Yelizaveta Petrovnanın adına məktub yazan həmin yalançı şahzadə özünü II Təhmasibin oğlu Süleyman Mirzə kimi qələmə verərək atası Səbzəvarda qətlə yetirildikdən sonra bir neçə il gizlənməli olduğunu yazırdı. 4-5 il öncə qaçıb qubalı Hüseynəli xanın yanına gələrək ona sığınmışdır. Hüseynəli xan vəfat etdikdən sonra "Süleyman Mirzə" onun varisi Fətəli xanın təkidlərinə baxmayaraq Qubanı tərk edib İrana gedibmiş. 8 aya kimi orada qaldıqdan sonra İran əhlinin pis vəziyyətdə olduğunu görüb yenidən Qubaya qayıtmışdır.[3] Yalançı şahzadə rus sarayına gəlmək (yəqin ki, şah taxtını ələ keçirməkdə dəstəyə nail olmaq üçün) istədiyini yazırdı.[4]

### V.2.2. Osmanlı dövləti ilə Azərbaycan xanlıqları arasında əlaqələrin yaranması.

Bir sıra Azərbaycan xanlıqları yarandıqları gündən Osmanlı imperiyası ilə sıx münasibətlər yaratmağa, onun dəstəyini qazanmağa çalışırdılar. Şəkili Hacı Çələbi xan 1747-ci ildə Osmanlı sədrəzəminə məktub göndərərək, Şirvan və Dağıstan əhalisinin Nadir şaha qarşı üsyana qalxdığını və Nadirin qətlə yetirildiyini yazır, yeni bir şah taxta çıxdığı təqdirdə qızılbaşların,

[1] Гаси Абдуллаев.Азербайджан в XVIII в…, с.231
[2] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 16, л. 26 об.
[3] АВПРИ, ф. 77 (СРП), оп. 1, 1755 г., д. 6, лл. 34-35.
[4] Yenə orada, v. 36-37.

eləcə də Rusiyanın müdaxiləsinə qarşı onların müdafiə olunmasının zəruriliyini vurğulayırdı.[1]

Gəncəli Şahverdi xan isə 1750-ci ildə Osmanlı sədrəzəminə göndərdiyi məktubda əvvəllər Gəncə xanlığının onun nəslinə mənsub olduğunu, Osmanlı hökuməti tərəfindən alınıb Sarı Mustafa paşanın idarəçiliyinə verildiyini yazırdı. Təhmasibqulu (Nadir şah) hakimiyyətə gəldikdən sonra Gəncə yenidən Ziyadoğlu nəslinin idarəçiliyinə keçmişdir. İndi şah olmadığından Şahverdi xan sultana itaət edir.[2] Şahverdi xan 1751-1752-ci illər arasında yazdığı bir məktubda onun Gəncə üzərində hakimiyyətinin rəsmiləşdirilməsi üçün Osmanlı hökumətinin müvafiq sənəd verməsini xahiş edirdi.[3] Şamaxılı Məhəmməd Səid xan 1760-cı ildə Çıldır valisi Süleyman paşaya yazdığı məktubda Süleyman paşanın ona məktub yazmasından məmnunluğunu ifadə edir, Kaxeti çarı Teymurazın Rusiyaya yaxınlaşmasına diqqəti çəkirdi.[4]

Osmanlı sarayı Rusiyanın Kartli və Kaxeti çarlıqlarından istifadə edərək Cənubi Qafqaza müdaxiləsinin güclənməsindən ehtiyat edirdi. Sultan III Mustafa (1757-1774) sədrəzəmə məktub yazaraq Kartli çarı ilə birləşib Azərbaycan ərazilərini zəbt etmək istəyən rus çarına qarşı hansı tədbirlər görülməsinin lazım olduğunu müzakirə etmək üçün onunla görüşməsini arzulamışdı. Sultan narahatlığını gizlətməyərək yazırdı ki, əgər dağıstanlılar gürcü çarını məğlub edib bəzi əraziləri ələ keçirməzlərsə, o, Gəncə və Şamaxı şəhərlərini zəbt edər və İrəvanı ələ keçirər.[5]

### V.3. XVIII əsrin 60-cı illərinin ikinci yarısı – 70-ci illərdə Azərbaycan Rusiya və Osmanlı imperiyalarının siyasətində

---

[1] BOA, Hatt-ı Humayun, nr. 153.
[2] Yenə orada, nr. 153.
[3] BOA, Hatt-ı Humayun, nr. 224.
[4] BOA, Hatt-ı Humayun, nr. 225; Cemal Gökçe. Göst. əsəri, s. 105-106.
[5] BOA, Ali Emiri, III Ahmet, nr. 21756. Osmanlı Devletinin Azerbaycan Türk Hanlıkları ile münasebetlerine dair arşiv belgeleri, I c., nr. 8, s. 57.

**V.3.1. 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi və Azərbaycan xanlıqları.**

XVIII yüzilliyin ikinci yarısında Qara dənizə çıxış əldə etməyə can atan Rusiya Şimali Qara dəniz sahillərini əhatə edən və Osmanlı imperiyasından asılı olan Krım xanlığını ələ keçirmək qətiyyətində idi. Rusiyanın bu niyyəti 1768-1774-cü illərdə davam etmiş Rusiya-Osmanlı müharibəsinə gətirib çıxardı. Müharibə ərəfəsində və müharibə dövründə Azərbaycan xanlarının eyni dinə və soykökə malik Osmanlı dövləti ilə vahid cəbhədə çıxış etmələrini önləmək üçün rus hakimiyyət orqanları xanlıqlarla əlaqələri genişləndirirlər.

Rus diplomatları Azərbaycan xanlarına guya Rusiyanın xanlıqları istila etmək niyyəti olmadığını və xanların qorxmadan yardım üçün Rusiyaya müraciət edə biləcəklərini təlqin etməyə çalışırdılar. Çarizmin Osmanlı təsirinə qarşı ehtiyatlanması əsassız deyildi. Salyandakı rus konsulu Sulyakov bütün sünni məzhəbli azərbaycanlıların Osmanlı dövlətinə hüsn-rəğbət bəslədiklərini yazırdı.[1]

Osmanlı sultanı III Mustafa (1757-1774) 1769-cu ildə Gəncə, Təbriz, Quba, İrəvan, Dağıstan və Kabarda hakimlərinə fərman göndərərək onlardan Xəzər sahilindəki bütün limanlara qoşun göndərmələrini xahiş etmişdi.[2] Osmanlı sultanı xristian dövlətləri islamı yox etmək üçün birləşdiklərindən müsəlman hakimlərini də birləşib müqavimət göstərməyə çağırmışdı.[3]

Bu zaman Salyandan yenidən Bakıya köçürülmüş konsul M.Sulyakov Osmanlının Qafqazda fəallaşdığına diqqəti çəkərək 6 mart 1770-ci il tarixli məruzəsində daim Bakı limanında dayanması üçün bir bot göndərilməsini xahiş edirdi. Sulyakovun fikrincə, qubalı Fətəli xan istisna olmaqla xanların çoxu Osmanlıya meyilli olduğundan hər hansı həyəcanlı xəbəri

---

[1] АВПРИ,ф.77(СРП),оп.5,д.16,лл.208 и об.

[2] Osmanlı devletinin Azerbaycan türk hanlıkları ile.., c.1, nr.8, v.57;277-278.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 5, 1767-1769 гг., д. 16, лл. 277 об.-278.

vaxtında Rusiyaya çatdırmaq zərurəti vardı.[1]

Sulyakov Xarici İşlər Kollegiyasına 8 iyul 1770-ci il tarixli məruzəsində Rusiya qoşunlarının Gürcüstana daxil olması ilə əlaqədar Təbriz, Qarabağ, Gəncə, Şəki və Şamaxı xanlarının möhkəm təşvişə düşdüklərini yazırdı. Konsul sözünə davam edərək aldığı mötəbər məlumata görə yuxarıda adı çəkilən xanların öz aralarında hər cür ixtlafları unudub Rusiya təcavüzünə qarşı hazır olmaq barədə razılığa gəldiklərini bildirirdi.[2]

Sulyakov 1770-ci ildə Həştərxan qubernatoru Beketova və Xarici İşlər kollegiyasına Osmanlı sultanı Tarki şamxalına, Qaraqaytaq usmisinə, Avar və Qazıqumuq xanlarına, Akuşa kadisinə, Quba xanına "Allah naminə Rusiyaya qarşı birgə çıxış etmələri" üçün müraciət etdiklərini xəbər verirdi.[3] Yenə həmin ildə Sulyakov polkovnik Nemiçə xəbər verirdi ki, Osmanlı sultanı 1770-ci ilin noyabrında üç nəfəri dağlı hakimlərinin, həmçinin tanınmış Fətəli xanın yanına göndərmişdir ki, həmdin olduqları üçün həmin hakimlər və Fətəli xan Sultana yardım göstərsinlər. Bu zaman adı çəkilən hakimlərə kifayət məbləğdə pul göndəriləcəyi vəd edilmişdi.[4]

Həştərxan qubernatoru Beketov da iki Osmanlı məmurunun Dərbəndə gəldiyini yazırdı. Sultanın elçiləri Fətəli xandan xanlığın ərazisindən rus qoşunlarını Azərbaycana və İrana buraxmamağı xahiş etmişdilər.[5] Rus casusu, milliyətcə erməni olan Eyvazov isə Dərbənddə Fətəli xanın yanına gəlmiş iki osmanlı təbəəsinin xan sarayında qaldığını, Sultanın onları Fətəli xanı Osmanlı dövlətinin tərəfinə çəkmək üçün göndərdiyini yazırdı. Fətəli xanın mülkləri Rusiya yaxınlığında olduğu üçün o həm dənizdə, həm də quruda Rusiya qoşunlarının qarşısını almağa çalışmalı idi.[6]

---

[1] АВПРИ,ф.77(СРП),оп.7,д.148,лл.2-3

[2] Yenə orada,v. 35

[3] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 17, л. 25.

[4] Yenə orada,v.434.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 6, лл. 4-7.

[6] АВПРИ,ф.77(СРП),оп.7,д.148,лл. 277 об.-278.

Osmanlı hökuməti Qafqazda ruslara qarşı yerli hakimlərin cəbhəsini açmaqla başlıca hərbi əməliyyat meydanında Rusiyanın qüvvələrinin azalmasına nail olmağa çalışırdı.

Azərbaycan və Dağıstan hakimlərinin sultan hökumətinin çağrışlarına münasibətini öyrənmək üçün rus hakimiyyət orqanları Vasili Knyazev adlı birisini Azərbaycana və Dağıstana göndərdilər. Gizli surətdə bir sıra məlumatlar toplayan Knyazev müsəlman hakimlərinin Qızlara və Gürcüstana basqın etmək barədə planının olduğunu təsdiqləyirdi. [1] Qızlar komendantı polkovnik Nemiç də dağlı hakimlərinin – Tarki şamxalının, Qaraqaytaq usmisinin, Avar xanının, Tabasaran və Akuşa kadilərinin, həmçinin qubalı Fətəli xanın Rusiyaya qarşı hərbi əməliyyata hazırlaşdıqlarını xəbər verirdi. [2] Həştərxan qubernatoru Beketov da bu məlumatı təsdiqləmişdi.[3]

Azərbaycan xanlarının Osmanlı dövləti ilə yaxınlaşmasından təşvişə düşən Rusiya hökuməti öz qoşunlarını Azərbaycanın hüdudları yaxınlığında cəmlədi. İmeretiya və Kartli-Kaxeti çarlarına Qafqaz cəbhəsində rus qoşunlarına və artilleriyasına bəzi yardım göstərmələri üçün müraciət edildi.[4]

Konsul Sulyakov 1770-ci il oktyabrın 5-də Salyandan Beketova yazırdı ki, o, rus hökumətinin göstərişinə uyğun olaraq Quba, Şəki, Qarabağ, Gəncə xanlarının yanına öz tərcüməçisini göndərib və Rusiyanın onlara qarşı pis niyyətdə olmamasını bəyan etmişdir.[5] Sulyakov yazırdı ki, digər hakimlərin yanına göndərdiyi kuryerlər qayıtsa da qubalı Fətəli xandan onun Rusiyaya qarşı müşahidə olunan soyuqluğu səbəbindən hələ heç bir cavab almamışdır. [6]

Bakıdakı Rusiya konsulluğunun tərcüməçisi M.Murtuzaliyev

---

[1] АВПРИ, ф.77(СРП), оп.5,д.6,лл.4-7

[2] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 6, л. 4, 7; Yenə orada,iş 17, v. 251.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 18, л. 103.

[4] Гаси Абдуллаев. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, Изд. АН Азерб. ССР, 1965, с. 500.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 7, д. 150, л. 46 и об.

[6] Yenə orada.

1771-ci ilin yanvarında məlumat verirdi ki, ötən il dekabrın 31-də Osmanlı sultanı Fətəli xanı Osmanlı dövlətini dəstəkləməyə təşviq etməsi üçün bir nəfəri Fətəli xanın yanına göndərmişdi.[1] Fətəli xan həm Rusiyanı, həm də özünün şiə təbəələrini narazı salmamaq üçün camaat qarşısında Osmanlı sultanı Rusiyaya qarşı müharibədə yardım göstərməsini tələb etsə də, onun bu müharibədə heç kimin tərəfini tutmayacağını söyləmişdi. Murtuzaliyevin sözünə görə, əslində isə bir müddət əvvəl Fətəli xana Sultan tərəfindən göndərilən böyük miqdarda pul verilmişdi və xan Osmanlı təbəəsi Qasım ağanı müsbət cavabla Türkiyəyə göndərmək istəyirdi.[2]

Osmanlı sarayı böyük hərbi qüvvəsini və siyasi təsirini nəzərə alaraq Quba xanlığını öz tərəfindən müharibəyə cəlb etməyə daha çox səy göstərirdi. Yuxarıda adını çəkdiyimiz Knyazev Fətəli xanın yanında olarkən onun əyanlarının danışıqlarından bu ərəfədə Türkiyədən üç nəfərin Fətəli xanın və Dağıstan hakimlərinin yanına gəlib sultan fərmanını gətirdiklərini öyrənmişdi. Sultan onların Rusiyaya qarşı müharibədə Osmanlıya yardım göstərməli olduqlarını bildirirdi. Tarki şamxalı, Akuşa kadisi, Qaraqaytaq və Avar hakimləri bu məsələ barədə məsləhətləşmək üçün Fətəli xanın yanına gəlmiş, Sultana yardım göstərmək qərara alınmışdı. Fətəli xan bu məsələ ilə əlaqədar Sultana məktub yazaraq döyüşçüləri saxlamaq üçün lazımi məbləğdə pul göndərməsini xahiş etmişdi. Knyazevin sözünə görə, Fətəli xan və Dağıstan hakimləri imkan olarsa Gürcüstana, yaxud Qızlara hücum edəcəkdilər. Knyazevin yazdığına görə, hətta Fətəli xan dağıstanlılarla daha çox yaxınlaşmaq üçün şiəlikdən imtina edib sünniliyə keçəcəyini bəyan edibmiş.[3]

Qızlar ermənisi Anton Antonov da 1771-ci ilin yanvarında rus məmurlarına yazdığı donosda Fətəli xanın osmanlı nümayəndələrini buraxıb divan çağırdığını xəbər verərək, divanda Fətəli xanın

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 7, д. 150, л. 23.

[2] Yenə orada, v. 23 a.ü.

[3] Yenə orada,v. 10-11.

Sultanın kömək gözlədiyini, bir müsəlman kimi bunu etməyə borclu olduqlarını bildirdiyini yazırdı. Lakin Sultan uzaqda, Rusiya isə yaxındadır. Buna görə də yaxşı-yaxşı fikirləşib sonra cavab verməliyik. Sonra Dərbənddən Qubaya gələn Fətəli xan burada da Osmanlı elçilərini təkrar qəbul etmişdi.[1]

Qafqaz xəttindəki rus qoşunlarının komandanı Azərbaycan xanlarının Rusiyaya qarşı çıxmaq üçün qoşun toplamaları ehtimalından təşvişə düşərək, bir sıra xanlara bununla bağlı narahatlığını bildirmişdi. Rusiyadan ehtiyat edən Qarabağ, Şəki və Gəncə xanları konsul Sulyakova məktub yazaraq, onu Gürcüstana hücum etmək niyyətində olmadıqlarına əmin etmişdilər.[2] Sulyakov 12 fevral 1771-ci il tarixli relyasiyasında Fətəli xanın Qızlar və Həştərxan ətrafında yaşayan müsəlman xalqları ilə birlikdə Rusiyaya qarşı hansısa bir hərəkətə hazırlaşdığını, Bakıdan Qızlara quru yolunun təhlükəli olmasına baxmayaraq, çapar göndərib Həştərxan qubernatorunu və Qızlar komendantını xəbərdar etməsi barədə yazmışdı.[3]

Qızlar komendantı Salyanda olan Sulyakova istinadən Dağıstan hakimlərinin Tarki şamxalının, Qaraqaytaq usmisinin, Avar xanının, Tabasaran və Akuşa kadilərinin, həmçinin Fətəli xanın Rusiyaya qarşı hərbi əməliyyatlara hazırlaşdıqlarını yazırdı.[4]

Azərbaycan xanlarının Osmanlı tərəfindən hərbi əməliyyatlara başlamaq ehtimalından təşvişə düşən rus hökuməti bir sıra əks-tədbirlər gördü. Həştərxan qubernatoru dərhal bir qrup botu (yüngül gəmi növü) silahlandırıb, komplektləşdirməyi və guya konsul Sulyakovun mallarını daşımaq adı ilə ticarət gəmisi bayrağı altında Xəzərin qərb sahillərinə göndərməyi təklif edirdi.[5] Kazandan və digər Volqaboyu şəhərlərdən qoşunların bir hissəsi Qızlar və Terek rayonlarına göndərildi.[6]

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 7, д. 150, лл. 18-20.
[2] Yenə orada,v. 25-31.
[3] Yenə orada, v. 6 a.ü.
[4] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 18, л. 103.
[5] АВПРИ, ф. 77 (СРП), оп. 5, д. 16, лл. 284-285.
[6]Гаси Абдуллаев. Азербайджан в XVIII веке, с. 500-501.

Lakin Azərbaycan xanları Osmanlı dövlətinə rəğbət bəsləsələr də Rusiyanın güclü olduğunu görüb ona qarşı açıq çıxış etməkdən ehtiyat etdilər.

### V.3.2. Kiçik Qaynarca sülhündən sonra Rusiya və Osmanlı imperiyalarının Qafqaz siyasəti və Azərbaycan

1768-1774-cü illər müharibəsini qələbə ilə başa çatdıran Rusiya onun üçün əlverişli olan Kiçik Qaynarca sülh müqaviləsinin imzalanmasına nail olmuşdu. Rusiyanın Qara dəniz sahilinə çıxışını və dəniz ətrafındakı bir sıra ərazilərin Rusiyaya keçməsini təsbit edən müqavilə bütövlükdə qeyri-bərabər xarakterdə idi. Əvvəllər İngiltərə və Fransanın Osmanlı imperiyası ərazisində malik olduğu kapitulyasiya adlı imtiyazlı ticarət rejimi Rusiyaya da şamil edildi. Rusiya Qara dənizdə qeyri-məhdud miqdarda hərbi-dəniz donanması saxlamaq hüququ aldı.[1]

Kiçik Qaynarca müqaviləsi ilə xeyli ərazi və imtiyazlar əldə edən Rusiyanın işğalçı nəzərləri daha uzaqlara, o cümlədən Azərbaycana yönəlmişdi. Hələ ki, Azərbaycanı zəbt etmək imkanı olmayan rus hökuməti gələcəkdə məqam düşəndə niyyətini həyata keçirməyi asanlaşdırmaqdan ötrü kəşfiyyat səciyyəli tədbirlər görürdü. 1768-1775-ci illərdə professor T.A.Qildenştedt Qafqazı ətraflı öyrəndi. Onu əsasən faydalı qazıntılar maraqlandırırdı.[2]

Bu dövrdə Rusiya Elmlər Akademiyasının həqiqi üzvü professor Samuel Qotlib Qmelinin Xəzəryanı vilayətləri öyrənmək üçün iki dəfə ekspedisiyası təşkil edildi. Əgər Qildenştedt əsasən Gürcüstanı tədqiq etmişdisə, Qmelin başlıca

---

[1] Договоры России с Востоком. Политические и торговые (сост. Т.Д.Юзефович). СПб.. 1869, с. 23-26; Эльмира Джахиева. Договоры России с Турцией, Ираном и правителями Кавказа 1774-1813 гг. Махачкала, 2006, сс. 32-39.

[2] Т.А. Гильденштедт. Географическое и статьическое описание Грузии и Кавказа, СПб., 1809, с. 2.

diqqətini Azərbaycan ərazilərinə yönəltmişdi.[1] Qmelinin ekspedisiyası 1772-ci il iyunun əvvəllərində gəmi ilə Həştərxandan yola düşdü.[2]

Ekspedisiya iyunun 13-də Dərbənddə sahilə çıxdı və Fətəli xanın əmri ilə Qmelinə qalması üçün mənzil ayırdılar. Ayın 14-də xan Qmelini qəbul etdi. Həştərxan qubernatorunun Qmelinlə bağlı zəmanət məktubunu dinlədikdən sonra Fətəli xan Qmelinə hər cür köməklik edəcəyinə söz verdi.[3]

Dərbənd şəhərini ətraflı tədqiq edən Qmelin Dərbənddən cənuba səyahətini quru yolla davam etdirmək istəyirdi. Fətəli xan əvvəlcə professora 15 minik atı və 2 araba verməyi vəd etsə də, sonra vədini yerinə yetirmədi və buna görə də Qmelin Bakıya gəmi ilə üzməli oldu. Qmelinin fikrincə yəqin ki, xan onun ekspedisiyasının kəşfiyyat məqsədi güddüyündən şübhələnmiş, buna görə də o, xanın mülkləri haqqında daha çox şey öyrənə bilməsin deyə səyahətini quru yolla davam etdirməsini istəməmişdi.[4]

Bununla belə Qmelin Bakıya səyahətinin əhəmiyyətli hissəsini quru yolla davam etdirdi. Belə ki, iyulun 9-da Dərbənddən gəmi ilə hərəkət edən Qmelin, ayın 12-də Niyazabadın yaxınlığında öz yoldaşları ilə sahilə çıxıb, gəmini yüklərlə Bakıya yola saldı, özü isə kirayə atlar götürüb Qubaya doğru hərəkət etdi.[5]

Ekspedisiya ayın 14-də Quba şəhərinə çatdı. Qubanın təsvirini verən Qmelin şəhərdə həm şiələrin, həm də sünnilərin yaşadığını qeyd edərək bunun Fətəli xanın hər iki məzhəbə hörmətlə yanaşması ilə izah edirdi. Qmelinin sözlərinə görə,

---

[1] Самуил Г.Гмелин. Путешествие по России (для исследования царств влетества). Т. 3, половина первая. СПб., 1785, сс. 1-2.
[2] Yenə orada, s. 6.
[3] Yenə orada, s. 10-11.
[4] Yenə orada, s. 43-44.
[5] Yenə orada, s. 47-48.

Fətəli xan özünü şiə hesab etsə də sünniləri də çox sevirdi.[1]

İyulun 21-də ekspedisiya üzvləri Qubanı tərk edib cənuba doğru hərəkətini davam etdirdi və ayın 27-də Bakı şəhərinə çatdı. Ertəsi günü Qmelin bakılı Məlik Məhəmməd xanın qəbuluna getdi. Xan Qmelinin gəlişindən təəcübləndiyini söylədikdə o bildirmişdi ki, gəlişinin yeganə məqsədi Həştərxandan göndərilən zəmanət məktubunda göstərilən kimidir, yəni, o, Xəzərin qərb sahillərinin təbiətini öyrənib, təsvir edib Avropada maraqlananlara çatdıracaqdır. Qmelin yazır ki, xan ya sadəlövlüyündən bunu anlamamış, ya da inamsızlığından bunu bəhanə hesab etmişdi.[2]

İyulun 29-da S.Qmelin Bakının ətrafını müşahidə etdi, ertəsi günü isə onu çox maraqlandıran neft quyularına baxdı.[3]

Avqustun 1-də Qmelin yenidən Məlik Məhəmməd xanın qəbuluna getdikdə Qmelinin neft quyularını müşahidə etməsindən artıq xəbəri olan xan səyyahın nə üçün neft quyularının yanına getdiyini soruşdu və Rusiyada əcnəbinin belə hərəkət etməsinə imkan verilməyəcəyini bildirdi. Məlik Məhəmməd xan Qmelinin verdiyi hədiyyələri də çox aşağı qiymətləndirib dedi ki, yalnız nəzakət qaydalarını pozmamaq naminə hədiyyələri qaytarmır. Qmelin qaldığı mənzilə qayıtdıqda mənzilin qarşısına iki güdükçü qoyulduğunu gördü.[4]

Qeyd edək ki, qubalı Fətəli xan da Qmelinin ekspedisiyasının əsil məqsədinin casusluq olduğunu güman edirdi. O, avqust ayında Şamaxıda Qmelini təkrar qəbul edərkən bitki toplanmasının gözdən pərdə asmaq üçün olduğunu yaxşı başa düşdüyünü söyləmişdi. Fətəli xan yalnız Rusiya ilə münasibətləri korlamamaq xatirinə ekspedisiyanın işinə maneçilik törətmirdi.[5] Bəziləri Qmelinin ekspedisiyasını rus qoşunlarının Azərbaycana

---

[1]Самуил Г.Гмелин. Путешествие по России (для исследования царств влетества). Т. 3, половина первая,сс. 48-49.

[2] Yenə orada, s. 61-62.

[3] Yenə orada, s. 65-67.

[4] Yenə orada, s. 77.

[5] Yenə orada, s. 108-109.

və Şimali İrana gözlənilən yürüşü ilə əlaqələndirirdilər. Sentyabr ayında şayiə Qmelinin ekspedisiyasının arxasınca rus qoşunlarının gələcəyi barədə yayılmışdı.[1] Bu şayiə tam əsassız deyildi. Elə bu vaxt Xarici İşlər kollegiyası Həştərxan qubernatorundan Qızlardan Dərbənd, Bakı və Rəşt şəhərlərinə qədər məsafə, xanlıqların gücü və vəziyyəti haqqında dəqiq məlumat verməyi tələb etmişdi.[2]

S.Qmelin Bakı şəhərinin görünüşünün ətraflı təsvirini vermiş, Bakıda başlıca olaraq neft və duz hasil olunduğunu, eləcə də dünyada nadir zəfəran bitkisinin yetişdirildiyini vurğulamışdı.

Avqustun 10-da Qmelin onu gəzdirən gəmiyə Salyana üzməsini tapşırıb, özü Şamaxıya doğru hərəkət etdi və ayın 13-də Köhnə Şamaxıya çatdı.[3]

Səyyah avqustun 20-də Yeni Şamaxıya yollanmış və beş gün orada qalmışdı. Bu günlərdə Fətəli xan da Yeni Şamaxıda imiş və səyyah onunla tez-tez görüşdüyünü yazır.[4] Bir həftə sonra Yeni Şamaxıdan Salyana doğru hərəkət edən Qmelin Salyanda xeyli çox, sentyabrın 1-dən-sentyabrın 30-dək qaldı.[5]

Salyandan cənuba doğru hərəkət edən Qmelin Ənzəli, Rəşt və Əribazara getmiş, 1772-ci ilin yazında isə dəniz yolu ilə Həştərxana dönmüşdü.[6]

Rus hökuməti Qmelinin ekspedisiyasından məmnun qalmış və onu yenidən səfərə göndərmək qərarına gəlmişdi. 1773-cü ilin iyununda S.Qmelinin ikinci ekspedisiyası Həştərxandan gəmi ilə yola düşdü. Ekspedisiya əvvəlcə Xəzərin şərq sahilləri ilə üzdü, sonra isə qərbə istiqamət götürərək sentyabrın 1-də Astrabada çatdı. Buradan Qmelin Xəzərin cənub-şərq sahili ilə geri qayıtdı, əvvəlcə Lənkərana gələrək 5 gün orada qaldı.[7]

---

[1] АВПРИ, ф 77 (СРП), оп. 1, 1780 г., д. 17, л. 247.
[2] Yenə orada, v. 58.
[3] Самуил Г. Гмелин. Göst. əsəri, s. 87-88.
[4] Yenə orada, s. 109.
[5] Yenə orada, s. 113.
[6] ПФАРАН, ф. 3, оп. 33, д. 20, л. 12.
[7] Yenə orada,v. 116 a.ü.

Bu dövrdə Fətəli xan Qubalı ilə Hüseyn xan Şəkili arasında baş verən silahlı əməliyyatlar üzündən quru yolu təhlükəli olduğundan Qmelin dekabrın 1-dən 24-dək Salyanda gözləməli oldu.[1] Ekspedisiya 4 gün sonra Bakıya çatdı. Burada Qmelinin göstərişi ilə limanın və ətraf yerlərin planı çəkildi.[2]

1774-cü il yanvarın ortalarında ekspedisiya quru yolla Bakıdan şimala hərəkət edərək dekabrın 20-də Dərbəndə çatdı. Ekspedisiya atların dincəlməsi üçün bir müddət Dərbənddə qaldı və fevralın 4-də bu şəhəri tərk edib Qızlara doğru irəlilədi.[3] Məlumdur ki, S.Qmelin Qaraqaytaqdan keçən zaman onun casus olmasından şübhələnən usmi Əmir Həmzə Qmelini və ekspedisiya üzvlərini həbs etmiş, Qmelin dustaqlıqda ölmüşdü.[4]

Qmelin əsir düşərkən bir yolla səyahətnaməsinin əlyazmasını Rusiyaya göndərə bilmişdi. Alimin ölümündən sonra səyahətnaməsinin üç cildi nəşr olunmuşdur. Dördüncü cildin 136 səhifədən ibarət mətni isə hələlik nəşr olunmamış və Rusiya Elmlər Akademiyası Arxivinin Peterburq filialında saxlanır.[5]

Biz həmin hissəni 2013-cü ildə nəşr olunmuş kitabımızda çap etdirmişik.[6] Həmin əlavəni diqqətlə nəzərdən keçirərkən bir sıra maraqlı məlumatları görmək olur. Qmelin Xəzərətrafı ölkələrlə ticarətə rusların müstəsna hüquqa malik olduğunu iddia edir. Bu ticarətdə Həştərxanın xüsusi rolunu vurğulayır. Qmelin yazırdı ki, Xəzər ticarəti haqqında mühakimə yürüdülsə, bu ticarətin şübhəsiz çox gəlirli olduğunu qeyd etmək olar. Əgər Rusiyada manufakturalar inkişaf edərsə, Xəzərsahili ölkələrdən onlar üçün çoxlu xammal gətirmək olar. Rusiya mallarının və Avropadan

---

[1] ПФАРАН, ф. 3, оп. 33, д. 20,л. 177 и об.

[2] Yenə orada, v. 122.

[3] Yenə orada, v. 123 a.ü. – 124 a.ü.

[4] Абдуллаев Г. Азербайджан в XVIII веке, сс. 527-528.

[5] ПФАРАН, ф. 3, оп. 33, д. 20,л.177.

[6] Tofiq Mustafazadə. Azərbaycan-Rusiya münasibətləri (XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəlləri). Bakı; 2013, s.363-375; Həmçinin bax: Россия и азербайджанские ханства во II пол. XVIII -в начале XIX вв том III (1776-1800 гг). Баку-2018,сс.

Rusiyaya gətirilən malların Xəzərsahili ölkələrə aparılıb satılması da çox gəlirli işdir.[1]

Həmin dövrdə Xəzər ticarətinin tənəzzül vəziyyətində olduğunu vurğulayan Qmelin bu ticarəti yenidən canlandırmaq üçün bir sıra mühüm tədbirlərin həyata keçirilməsini vacib sayırdı. I Pyotru Xəzər ticarətinin banisi adlandıran Qmelin Pyotrun Şirvanı və Gilanı işğal etməsi ilə məqsədinə çatdığını zənn etdiyini yazır.[2] Qmelin Nadirin hakimiyyətə gəlməsi ilə bölgədə siyasi sabitliyin yaranması nəticəsində Xəzər ticarətinin genişləndiyini vurğulayaraq, Nadirin ölümündən sonra Xəzər ticarətinin tənəzzülə uğradığını qeyd edir.[3]

S.Qmelin ermənilərin Rusiyanın Xəzər ticarətinə böyük zərbə endirdiklərini qeyd edir. Erməni millətinə mənsub Şərq tacirləri rus tacirlərinin makleri və prikazşikləri vəzifələrinə düzələrək, türk və fars dillərini bilmələrindən istifadə edib öz faydaları üçün çalışırdılar. Onlar rus tacirlərinin aldadılmasına şərait yaradır, Şərq bazarlarını ucuz Avropa malları ilə doldurmaqla Rusiya mallarının satılmasına əngəl törədirdilər.[4]

I Pyotrun İrandakı erməni ticarət şirkətləri ilə bağladığı müqavilələrə görə ermənilər Azərbaycan və Gilan ipəyini yalnız Rusiyaya ixrac etməyi öhdələrinə götürsələr də onlar qətiyyən öhdəliklərinə əməl etmir, ipəyin çox hissəsini Osmanlı imperiyasına, oradan da Qərbi Avropa ölkələrinə aparırdılar.[5]

İngilislərə Rusiya vasitəsilə öz yun məmulatlarını Şərq ölkələrinə daşımağa və Şərq ölkələrindən xam ipəyin Rusiya

---

[1] Самуил Г. Гмелин. Приложения о Каспийском торге (Рукопись содержащее в себе описание русско-персидской торговли и мерах ее развитии//ПФАРАН, ф. 3, оп. 134 (Физическая экспедиция Гмелина). Д. 40, л. 5 и об. См: Россия и азербайджанские ханства во II пол. XVIII - начало XIX вв. Том I (1751-1775) (составитель, транслитерация и комментарии Т.Мустафазаде). Баку: 2018, с.230.

[2] Самуил Гмелин. Приложение…ПФАРАН, ф. 40, оп. 33, д. 20,л. 6 об.

[3] Yenə orada, v. 8 a.ü.

[4] Самуил Гмелин. Приложение…ПФАРАН, ф. 40, оп. 33, д. 20,л.11 и об.

[5] Yenə orada, v. 13 a.ü. və 14 a.ü.

vasitəsilə ixracına icazə verilməsini Qmelin Rusiyanın Xəzər ticarətinə vurulan ikinci ağır zərbə kimi dəyərləndirirdi.[1] Nadir şahın apardığı müharibələr nəticəsində Azərbaycan və İran əhalisinin var-yoxdan çıxmasını Qmelin Xəzər ticarətinin tənəzzülünün digər mühüm səbəbi sayırdı.[2]

Rus tacirləri bir məsələdə də uduzurdular. Məlumdur ki, Rusiya hökuməti ölkədən xaricə pul aparılmasını qadağan etmişdi. Xam ipək ala bilmək üçün Rusiyadan ixrac etdikləri malları yerli sakinlərə və tacirlərə gələn ilin ipək məhsulunun əvəzində borca verirdilər. Yeni məhsul yetişdikdə isə yerlilər məhsulun qiymətini qaldırırdılar ki, bununla da rus tacirlərinə xeyli maddi ziyan dəyirdi.[3]

Qmelin rus Xəzər ticarətini inkişaf etdirmək üçün ingilis və holland şirkətləri tipində rus ticarət şirkətinin təsis olunmasını təklif edirdi. İran, Azərbaycan və digər Xəzəryanı ölkələrə Avropa mallarını aparmaq, həmin ölkələrdə istehsal olunan məhsulları Rusiyaya gətirmək həmin şirkətin inhisarında olmalı idi. Milliyyətindən asılı olmayaraq hər bir tacir müəyyən edilmiş məbləğdə kapital qoymaqla şirkətə üzv ola bilərdi. Tacirlərin bu şirkətə üzv olmaları ilə onların arasındakı rəqabət aradan qalxacaqdı.[4]

Qmelin təklif edirdi ki, rus hökuməti Xəzərin cənub sahilində bir yer götürsün və orada ticarət faktoriyası açılsın. Şirkət rus və Avropa mallarını ətraf kəndlərin sakinlərinə pulsuz verib, əvəzində ipək məhsulu yetişən zaman əvvəlcədən müəyyənləşdirilmiş qiymətlə malın dəyəri həcmində xam ipəyi almalı idi.[5]

Faktoriyada qala da inşa olunmalı, hərbi heyətin yarısı topçulardan ibarət olmalı idi. Burada sənətkarlar da məskunlaşdırılmalı, faktoriyanın öz əkin yerləri, bağları, mal-

---

[1] Самуил Гмелин. Приложение..,ПФАРАН, ф. 40, оп. 33, д. 20,лл. 12-13 об.

[2] Yenə orada, v.15 a.ü..

[3] Yenə orada, v. 20 a.ü.

[4] Yenə orada, v. 24 a.ü., 32 a.ü.

[5] Yenə,v.38-39.

qarası da olmalı idi.[1]

Qmelin usmi Əmir Həmzə tərəfindən həbs edilən zaman Osmanlı dövləti ilə müharibə getdiyindən rus hökuməti usmiyə qarşı cəza tədbiri görə bilmədi, ancaq bu hadisəni də unutmadı. Tezliklə usmidən intiqam almaq üçün fürsət yarandı.

Məlumdur ki, 1774-cü ilin yayında Fətəli xanla Əmir Həmzənin başçılıq etdiyi əleyhdarları arasında Gavduşan çölündə qanlı vuruşma baş vermiş, Fətəli xan ağır məğlubiyyətə uğrayaraq Salyana getmişdi. Düşmənlər Dərbəndi mühasirəyə almış, Fətəli xanın Dərbəndin mühasirəsini ləğv etmək cəhdləri boşa çıxmışdı.[2] Buna görə də o, Mirzə Bayatı kömək və himayə xahişi ilə Rusiya sarayına göndərmişdi.[3]

Çar sarayında Fətəli xanın elçisi yaxşı qarşılanmış, II Yekaterina Fətəli xanın xahişinə cavab olaraq, həm də Qmelinin ölümündə günahkar olan usmi Əmir Həmzəni cəzalandırmaq üçün bir neçə piyada və topçu taborunun Dərbəndə göndərilməsi barədə Qafqaz xəttindəki rus qoşunlarının komandanı general de-Medemə fərman göndərmişdi.[4] De-Medem 1775-ci ilin martında Əmir Həmzənin mülklərinə qoşun yeritdi. Fətəli xanın müttəfiqi Tarki şamxalı Murtuzəli də de-Medemə qoşuldu.[5] Əmir Həmzə Dərbəndin mühasirəsindən əl çəkib de-Medemə qarşı çıxdı, lakin məğlub oldu.[6] Fətəli xan de-Medemə Dərbəndə daxil olmağı və Quba xanlığını Rusiya himayəsinə almağı təklif etdi. De-Medem Dərbəndə daxil oldu[7] və bir müddət şəhərdə qaldıqdan sonra 4500 nəfərlik qusar eskadronunu burada saxlayıb şəhəri tərk etdi.[8]

---

[1]Самуил Гмелин. Приложение..,ПФАРАН, ф.. 40,оп.33,д.33,л.39 и об.
[2] Гаси Абдуллаев. Азербайджан в XVIII веке, с. 539.
[3] Yenə orada, s. 324-325.
[4] Сб. РИО, т. 135, СПб., 1911, сс. 207-213; İbrahim bəy Hacınski. Qubalı Fətəli xanın həyatı ( tərcüməçi F.Babayev). Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1959, s. 15, Вадим Левиатов. Очерки из истории Азербайджна в XVIII веке. Баку, Изд. АН Азерб. ССР, 1948, сс. 136-137.
[5] Вадим Н. Левиатов. Göst. əsəri, s. 137.
[6] Аббаскули Ага Бакиханов А. Гюлистани-Ирам, Баку, 1991, с. 102.
[7] Петр Г. Бутков. Материалы для новой истории Кавказа, ч. 2, сс. 20-21.
[8] Аббаскули Ага Бакиханов. Гюлистани-Ирам, Баку, 1991, с. 184.

1775-ci ilin yazında Fətəli xan Rusiyaya yeni, daha səlahiyyətli elçilik göndərdi. Elçiliyə Dərbənd hakimi və xanlıq naziri vəzifələrini daşıyan Mirzə bəy Fərhadbəyov başçılıq edirdi.[1] Elçilik 1775-ci ilin iyununda Moskvaya çatdı.[2] Fətəli xan elçi ilə onun başçılıq etdiyi Şimal-Şərqi Azərbaycanın Rusiya himayəsinə qəbul olunması barədə ərznamə göndərmişdi. Xan imperatriçədən düşmənlərinə qarşı mübarizədə yardım istəyir, əvəzində Dərbəndi Rusiyaya verəcəyini vəd edir və hətta şəhərin açarlarını da göndərmişdi. Qeyd edək ki, XVIII yüzilliyin ikinci yarısında Dərbənd hələ də məlum dərəcədə Rusiya, Osmanlı imperiyası və İran üçün öz strateji və siyasi əhəmiyyətini saxlayırdı.

Ərznamədə Fətəli xan həmişə Rus dövlətinə sadiq olduğunu, rus tacirlərinə himayə göstərdiyini və onları qoruduğunu vurğulayırdı. Xan Dərbənd, Şirvan vilayəti, Muğan düzünü də özünə tabe etdiyini yazaraq bildirirdi ki, Rusiya ilə Osmanlı dövləti arasında müharibə başlayarkən Osmanlı sultanı xan üçün Qars şəhərinə cins ərəb atları, qılınc, bahalı zirehlər, böyük pul xəzinəsi göndərərək onun müharibədə Osmanlı tərəfindən iştirak etməsini istəmişdir. Lakin Fətəli xan Rusiyaya sədaqətini pozmayaraq bu təklifi və hədiyyələri qəbul etməmişdi.[3]

Ərznamədə qeyd olunurdu ki, Qaytaq usmisi, qazıqumuqlu Məhəmməd xan, Tabasaran kadisi, canqutaylı Əli Sultan, Məhəmməd Dişsiz bir sıra başqa hakimlərlə birləşib Rusiyaya göstərdiyi sədaqətə görə Fətəli xanı cəzalandırmaq üçün onunla savaşa girmiş, Quba, Gülhan və Şirvanı ələ keçirmişdilər. Ağır vəziyyətə düşən Fətəli xan Mirzəbəy Fərhadbəyovu II Yekaterinaya ünvanladığı yardım xahişli məktubu ilə Qızlara Qafqaz xəttindəki rus qoşunlarının komandanı general de-Medemin yanına göndərmişdi. De-Medem Fətəli xana yardım məqsədilə hərbi qüvvə ilə usminin mülklərinə daxil olmuş və

---

[1] Tofiq Mustafazadə. Quba xanlığı, Bakı, Elm, 2005, s. 124-125.
[2] Аббаскули Ага Бакиханов. Гюлистани-Ирам, с. 163.
[3] АВПРИ,ф.77 (СРП), оп. 8, (1765-1797 гг.), д. 15, лл. 13-14.

usmi Fətəli xanın mülklərində olan qoşunlarını geri çəkməyə məcbur olmuş, beləliklə də Fətəli xan Quba, Gülhan və Şabran üzərində hakimiyyətini bərpa edə bilmişdi. Şirvan isə hələ də düşmənlərinin əlində qalırdı. Xan xahiş edirdi ki, ruslar buranı da yenidən Quba xanlığına birləşdirmək üçün ona yardım göstərsinlər.[1]

Daha sonra Fətəli xan həmin günlərdə bütün İranda hakimiyyətdə olan Kərim xan Zəndin bir neçə nümayəndəsini çoxlu hədiyyələr, böyük pul xəzinəsi və qoşun ilə göndərərək onun ali hakimiyyətini qəbul etməyi təklif etdiyi, əvəzində hərbi yardım vədi haqqında məlumat verir, lakin Fətəli xanın yenə də Rusiyaya sadiq qalaraq xanın təklifini rədd etdiyini yazırdı.[2]

Ərznamənin sonunda Fətəli xan onun Krım xanı və Kartli-Kaxeti çarı statusunda, yəni daxili idarəçilikdə tam sərbəstliyini saxlamaq şərtilə Rusiya himayəsinə qəbul olunmasını, hələ də düşmənlərinin əlində qalan mülklərinin geri qaytarılmasına hərbi yardım göstərmək barədə de-Medemə göstəriş verilməsini xahiş edirdi.[3]

Göründüyü kimi, Fətəli xan heç də xanlığın Rusiyaya birləşdirilməsini istəmir, yalnız Rusiyanın ali hakimiyyətini qəbul etmək, bununla onun hərbi yardımını qazanmaq və Rusiyaya arxalanaraq Azərbaycan torpaqlarının birləşdirilməsini davam etdirmək istəyirdi. Lakin, Rusiya özü bilavasitə Azərbaycan torpaqlarını zəbt etmək istədiyindən Fətəli xanın xahişini yerinə yetirmədi. 1775-ci il iyunun 22-də Dövlət Şurasında de-Medemin raportu oxundu. De-Medem Fətəli xanın Rusiya himayəsinə keçmək istəyindən, elçi göndərərək usmi ilə müharibəsindən əvvəl Kür çayına qədər əlində olan torpaqları geri almaqda yardım istəməsindən, Dərbənddə 800 nəfərlik qarnizon qoymasından, lazım gəldikdə yardıma toplar və sursatla birlikdə daha 10 min əsgər göndərilməsi xahişindən yazırdı. Dövlət Şurası

---

[1] АВПРИ,ф.77 (СРП), оп. 8, (1765-1797 гг.), д. 15, лл.15-16.
[2] Yenə orada, v. 16-17.
[3] Yenə orada, v. 17.

qərara aldı ki, Fətəli xana müstəqil qaldıqca Rusiya qoşunlarının Quba xanlığından qoparılmış mülklərin geri alınmasında ona yardım göstərə bilməyəcəyi bildirilsin. Şura hesab etdi ki, de-Medemi sonrakı hərəkətlərdən çəkindirmək lazımdır, çünki bu Rusiyanı sonsuz ara müharibələrinin iştirakçısına çevirə bilər.[1]

1775-ci il iyulun 2-də Ali Dövlət Şurasının növbəti iclasında de-Medemdən rus hərbi qüvvəsinin Dərbənddən çıxarılmasını tələb edən qətnamə qəbul olundu. Rus qoşunu Dərbənddən çıxarılıb Qızlara aparıldı.[2]

Bu cür qərarın qəbul edilməsinə XVIII əsrin 70-ci illərində Y.Puqaçovun başçılığı ilə kəndli müharibəsi nəticəsində dövlətin ağır durumda olması da təsir göstərmişdi. Digər tərəfdən də rus hökuməti Osmanlı ilə qanlı müharibəni yenicə bitirmişdi və Rusiya əlverişli Kiçik Qaynarca sülhünün şərtlərinin pozulmaması üçün regiona qoşun yeridib Osmanlı sarayını qıcıqlandırmaq istəmirdi. İmperatriçə bu münasibətlə yazırdı: “Əgər biz öz sərhədlərimizi Qızlardan İrana tərəf genişləndirmək istəsək, onda Porta öz növbəsində İranla bilavasitə qonşu olduğu üçün bu cür hərəkət edərək ona yaxın İran ərazilərini tutar”.[3]

Çariçə yazırdı ki, beynəlxalq şərait indi həmin ölkələrdə, yəni Cənubi Dağıstanda və Azərbaycanda rus qoşunlarının hərəkətlərini davam etdirməsini lüzumsuz edir. Bu, Dağıstan xalqlarını Rusiyaya qarşı qaldırır, Osmanlı imperiyasında, Rusiyaya qonşu dövlətlərdə Rusiyaya qarşı şübhə doğurur.[4] De-Medem mürəkkəb beynəlxalq şəraitdə Dərbənddə qoşun saxladığına görə töhmət aldı.[5]

Doğrudan da rus qoşunlarının Dağıstana yürüşü və

---

[1] Архив Государственного Совета. Т. 1. Совет в царствование императрицы Екатерины II (1768-1796 гг.). ч. 1 (отделение историческое. СПб., 1869, сс. 787-788.
[2] Сб. РИО, т. 135, сс. 435-436; Гаси Абдуллаев. Азербайджан в XVIII веке…, с. 534.
[3] Сб.РИО, т. 135, с. 473.
[4] Yenə orada, s. 435-436.
[5] Гаси Абдуллаев. Азербайджан в XVIII веке., с. 534.

Dərbənddə rus hərbi hissəsinin yerləşdirilməsi Osmanlı imperiyasının və bir sıra Qərbi Avropa dövlətlərinin narahatlığına səbəb olmuşdu. Osmanlı sarayı bunu Rusiyanın osmanlılarla bağladığı sülh müqaviləsini pozması və yeni müharibəyə hazırlaşmasının təzahürü hesab edirdi.[1] Rus hökuməti yaranmış gərginliyi yumşaltmaq üçün bəyanat verərək bütün narahatlıqların əbəs olduğunu, Rusiya tərəfindən Kiçik Qaynarca sülh müqaviləsinin heç vaxt pozulmayacağını, Dərbənddə yerləşdirilən hərbi kontingentin sayının 2 min nəfəri ötmədiyini bildirdi.[2]

Osmanlı hökumətinin Rusiyanın Cənubi Dağıstandakı niyyətləri və Quba xanlığına hərbi yardımının səbəbləri haqqında rəsmi sorğusuna cavab olaraq II Yekaterina Osmanlı vəzirinin Dərbənd şəhəri və oradakı xanla bağlı Rusiya sarayının hərəkətləri barədə rəyinin təəccüb doğurduğunu yazmışdı.[3] II Yekaterina İstanbuldakı səfiri Repninə Rusiyanın Dərbənd şəhərini özünə birləşdirmək niyyətində olmadığını, Cənubi Dağıstana yürüşün Rusiyanın nüfuzunu yüksəltmək və Rusiya sarayına lazımi hörməti bərpa etmək məqsədi güddüyünü Osmanlı hökumətinə açıqlamağı buyurmuşdu.[4]

Qeyd edək ki, Rusiyanın işğalçı planlarından ehtiyat edən bir sıra Azərbaycan xanları bu niyyətin qarşısının alınması üçün Osmanlı imperiyasına daha tez-tez müraciət etməyə başlamışdılar. Xoylı Əhməd xanın 1775-ci ildə Çıldır valisi Süleyman paşaya göndərdiyi məktubunda Tatarıstan və Lehi (Krım xanlığı və Polşanı – T.M.) istilasından qüvvət alan Rusiyanın və onunla ittifaqda olan II İraklinin təcavüzünə imkan

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 8, д. 478, л. 134; Гаси Абдуллаев. Азербайджан в XVIII веке.., с. 531.

[2] АВПРИ, ф. 77 (СРП), оп. 8, д. 487, л. 104; Гаси Абдуллаев. Азербайджан в XVIII веке.., с. 531.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 8, д. 443, лл. 47-48; Гаси Абдуллаев. Азербайджан в XVIII веке.., с. 531.

[4] АВПРИ, ф. 77 (СРП), оп. 8, д. 443, лл. 47-48; Гаси Абдуллаев. Азербайджан в XVIII веке.., с. 531.

verilməməsi üçün Azərbaycan və Qafqaz xanlarının "Dövləti-Aliyə", yəni Osmanlı dövləti əmrində hərbdə iştirak etmələrinin vacibliyi vurğulanırdı.[1] Şəkili Məhəmməd Həsən xan 1775-ci ildə Osmanlı sədrəzəminə yazdığı məktubunda xəzinə katibi İbrahim bəy vasitəsilə göndərilən məktubun alındığını, gürcülər tərəfindən mühasirəyə alınan Gəncə qalasının ətraf hakimlərin və Osmanlının yardımı ilə davam gətirdiyini bildirirdi. Məktubda İraklinin oğlu Almaz Mirzə və kürəkəni Davud bəy ilə Şəmsəddili Əli Sultanın böyük qüvvə ilə Gəncəyə hücum edib, lakin uğur qazanmamaları haqqında məlumat verilirdi.[2] Digər bir mənbədə bununla bağlı deyilirdi ki, II İrakli bir qədər rus döyüşçüsü, toplarla "Sarı Mustafa" qalasını (Gəncə – T.M.) 9 ay mühasirədə saxlamış, sonra Məhəmməd Həsən xan muzdlu dağıstanlı döyüşçülər və Çıldır valisi ilə birlikdə II İraklini oradan uzaqlaşdırmışdılar.[3] İrəvan xanı da 1775-ci ilin iyununda Qars valisi İzzət Mehmet paşaya məktub yazıb Osmanlı dövlətinə sədaqətindən bəhs edirdi.[4]

Kartli-Kaxeti çarı II İrakli rus qoşunlarının Azərbaycana gəlməsini istəyir və hər cür köməklik göstərəcəyini vəd edirdi. O, Qafqazdakı rus qoşunlarının komandanı general de-Medemə 30 may 1775-ci il tarixli müraciətində generalın rus hökumətindən icazə alıb Yeni Şamaxıya gəlməsini xahiş edirdi. Rus qoşunları Salyandan qayıqlarla Kür çayı ilə 100 verst sərbəst üzə, bir qədər çətinliklə də olsa daha yuxarıya doğru hərəkət edə bilərlər. Gürcü hakimi də öz qoşunları ilə onların qarşısına gələr. II İrakli Kür çayının hər iki sahili ilə Tiflisə kimi hamar yol olduğunu da yazırdı.[5]

Şəkili Məhəmməd Həsən xan 1776-cı ildə Sultana yazdığı məktubunda "İblis simalı II İrakli" Rusiyaya tabeçilik göstərərək

---

[1] Cemal Gökçe. Kafkasya ve Osmanlı imperatorluğunun Kafkasya siyaseti (Doktora tezi). İstanbul, 1979, s. 106.

[2] BOA, Hatt-ı Humayun, nr. 941.

[3] Yenə orada.

[4] Yenə orada.

[5] АВПРИ, ф. 77 (СРП), оп. 6, 1775 г., д. 470, л. 86 и об.

Azərbaycan torpaqlarına və ələlxüsus İrəvan xanlığına təcavüz edərsə, Azərbaycan xanları və Dağıstan hakimlərinin onu dəf etmək üçün ittifaqda birləşəcəkləri bildirilirdi.[1] Məhəmməd Həsən xan daha sonra Kabardadan Rusiya ilə Gürcüstanı birləşdirən yolun salınmasından, bu yolla daim Gürcüstana toplar, cəbbəxana və sair göndərilməsindən bəhs edirdi. Elə həmin ildə yazdığı digər məktubunda Məhəmməd Həsən xan yenə də İraklinin İrəvan qalasına hücum edəcəyi təqdirdə Azərbaycan və Dağıstan hakimlərinin birləşəcəyini bəyan edirdi.[2] Məhəmməd Həsən xan daha sonra yazırdı ki, bir neçə il Gəncəyə nəzarəti ələ alan İraklinin burada rus əsgərlərini yerləşdirmək niyyəti məlum olduqda Şəki xanı əhalinin Gəncəyə ərzaq aparmasını qadağan etmiş və bu düşmənin niyyətlərinin pozulmasına təsir göstərmişdi.[3]

Ərdəbilli Nəzərəli xan da 1776-77-ci ildə (hicri 1190) tarixli məktubunda Çıldır valisi Süleyman paşa vasitəsilə göndərilən fərmanın və yardımın alındığını, İraklinin təcavüzünə qarşı mübarizə əzmində olduğunu bildirirdi.[4] Yenə həmin ildə xoylu Əhməd xan Çıldır valisinə Rusiya ilə ittifaqda olan İraklinin təcavüzünə yol verməmək üçün Azərbaycan xanlarının sultanın əmrində müharibəyə hazır olduqlarını və bəzi lazımi sursatı almaq üçün İstanbuldan xəzinədar katibi İbrahim bəy vasitəsilə müəyyən məbləğdə pul göndərildiyini yazırdı.[5]

Osmanlı hökuməti rusların məqamı əlverişli sayıb Cənubi Qafqaza hücum edəcəyi ehtimalını nəzərə alaraq Şəki, Qarabağ xanları, şamaxılı Məhəmməd Səid xan və başqa hakimlərin II İraklinin yenə də ola biləcək hücumuna qarşı birləşməyini arzu

---

[1] BOA, Hatt-ı Humayun, nr. 94 B, 947; Osmanlı Devletinin Azerbaycan Türk Hanlıkları ile münasebetlerine Dair arşiv belgeleri, I c., nr. 11, s. 64.
[2] BOA, Hatt-ı Humayun, nr. 94 B, 944; Osmanlı Devletinin Azerbaycan Türk Hanlıkları ile münasebetlerine dair arçiv belgeleri, I c., nr. 12, s. 67.
[3] BOA, Hatt-ı Humayun, nr. 94 M, 947; Osmanlı Devletinin Azerbaycan Türk Hanlıkları ile münasebetlerine dair arşiv belgeleri, I c., nr. 12, s. 67.
[4] BOA, Hatt-ı Humayun, nr. 97.
[5] Yenə orada, nr. 94 A, 94 D.

edirdi.[1]

Qeyd edək ki, Rusiya hakimiyyət orqanlarının Azərbaycan xanlarına qarşı etimadsızlığı, bir sıra hallarda onlarla həqarətli rəftarı, hətta Rusiyaya çox rəğbət bəsləyən qubalı Fətəli xan kimi adamın da bu dövlətə münasibətində tərəddüd yaranmasına səbəb olurdu. Məsələn, 1775-ci ilin payızında Müşkürdən bir qədər aralı Samur çayının mənsəbi yaxınlığında Yemelyan Skvortsov adlı bir rus tacirinə məxsus gəminin batması ilə əlaqədar ixtilaf yaranmışdı. Yükü xam ipək və ipək parçalardan ibarət gəmidə Həştərxan, Quba, Dərbənd, Bakı, İsfahan, Tula, Gilan, gürcü, erməni, tatar və hind tacirlərinin malları vardı. Gəmidə o zaman üçün böyük olan məbləğdə – 452.442 rubl dəyərində mal olmuşdu.[2]

Quba hakimiyyət orqanları bu qəza baş verən kimi itmiş malların axtarışı və toplanması üçün qubalılardan və rus məmurlarından ibarət bir heyəti hadisə yerinə yolladılar. Təcili görülən tədbirlər nəticəsində ətrafda yaşayan sakinlərdən 25 min rubl dəyərində mal götürülərək Qızlara göndərildi.[3]

Quba xanının daxili və xarici düşmənləri, o cümlədən ermənilər belə bir şayiə yaydılar ki, guya qəza nəticəsində itib-batmış mallar Quba hakimiyyət orqanlarının iştirakı ilə yerli sakinlər tərəfindən qarət olunmuşdur. Bəziləri qarətin izlərini itirməkdən ötrü yaxın kəndlərin sakinlərinin xilas olan sərnişinləri və gəmi heyətini öldürdüyünü, malların isə Quba xanı və naibi tərəfindən mənimsənilərək Dərbənddə, Qubada və Bakıda gizlədildiyini deyirdilər. Həştərxan quberniya dəftərxanası milliyyətcə erməni olan mayor Mirzəbəy Vahanovu və digər erməni Minas Dilyansovu hadisəni tədqiq etmək üçün bölgəyə göndərdi.[4]

İtmiş malların sahibləri, əsasən erməni tacirləri ilə birlikdə Fətəli xanı malların mənimsənilməsində günahkar saymaq üçün

[1] BOA, HH, nr. 94 C; Belgeler, I c., nr. 11, s. 63, 279.
[2] Гаси Абдуллаев.Азербайджан в XVIII веке.., с. 570.
[3] Yenə orada.
[4] Гаси Абдуллаев. Азербайджан в XVIII веке, с. 572.

can atan Vahanov bir qrup ermənininin böhtanlarını həqiqət kimi qələmə verərək guya gəmi qəzasından xilas olan iki erməni və dörd nəfər azərbaycanlı tacirin Şahdağ yaxınlığında olan bir kənddə saxlanıldığını, gəmidəki bütün malların isə yerli əhali tərəfindən mənimsənildiyini bildirir və Fətəli xanın cəzalandırılmasını tələb edirdi.[1]

Vahanov və erməni taciri Diqlyansovun təhriki ilə malları bir yerə toplayıb möhürləyən xan məmuru Dərbənddəki rus hərbi dəstəsinin komandiri mayor İ.Kridner tərəfindən döyüldü, içərisində təkcə rusların deyil, İran, Quba, Dərbənd və Bakı tacirlərinin də payı olan mallar zorla alındı.[2] Bununla yanaşı Fətəli xanın imperator sarayına göndərdiyi elçisi Mirzə bəy Fərhadbəyov geri qayıdarkən Qızlarda general de-Medem tərəfindən saxlanmışdı.[3]

Fətəli xan imperatiçəyə ərznamələr yazaraq qətiyyən günahkar olmadığını bildirib obyektiv təhqiqat aparılmasını xahiş etmişdi.[4] Xan eyni zamanda knyaz Q. Potyomkinə də məktub göndərərək bu məqsəd üçün ədalətli, qərəzsiz və etibar edilən bir şəxsin Azərbaycana göndərməsini xahiş edirdi. Həmin şəxs əgər xanın günahkar olduğunu sübut edərdisə, xan layiq olduğu cəzanı çəkməyə hazır olduğunu bildirirdi.[5]

General de-Medem Mirzə bəyi Qızlarda saxlayıb buraxmasa da, elçi gizli surətdə rus hökumətinin başçısı Nikita İvanoviç Paninin Fətəli xana yazdığı məktubu Dərbəndə göndərməyə nail olmuşdu. Məktubdan aydınlaşırdı ki, Fətəli xanın düşmənlərinin ələ keçirdiyi bütün ərazilərin qaytarılmasına yardım göstərilməsi barədə xahişi, guya bu yerlərin İrana məxsusluğu, Rusiyanın müdaxiləsinin yolverilməzliyi səbəbilə rədd olunur. Fətəli xanın general de-Medemə təqdim etdiyi Dərbənd qalasının açarları da Mirzə bəy vasitəsilə geri qaytarılırdı. Rusiya hökumətinin bu

---

[1] Yenə orada.

[2] Yenə orada, s. 575.

[3] РГВИА, ф. 52, оп. 1, д. 408. л. 143 об.

[4] РГВИА, ф. 52 (Потемкины), оп. 1, д. 408. л. 141 и об.

[5] РГВИА, ф. 52, оп. 1, д. 408. л. 145.

hərəkətindən mütəəssir olan Fətəli xan II Yekaterinaya məktubunda Osmanlı və İran hökmdarlarından dəfələrlə ona hər cür yardım göstərilməsi haqqında təkliflər alsa da Rusiyaya sədaqətinə görə bu təklifləri qəbul etmədiyini yazırdı. İndi Rusiyanın ona yardımdan imtina etməsi xanı xeyli təəssüfləndirir. Fətəli xan eyni zamanda qeyd edirdi ki, güclü düşmənlərinin olduğu bir şəraitdə hal-hazırda bütün İranda hakimiyyətə malik olan Kərim xanın qohumluq təklifini rədd etməsi onun vəziyyətini daha da çətinləşdirə bilər. Bu səbəbdən də Kərim xana də müsbət cavab verməyə məcburdur.[1]

Skvortsovun gəmisinin qəzaya uğraması məsələsinə toxunan Fətəli xan ya I Pyotrun zamanından bəri qəzaya uğramış gəmilərdən sahilə atılan malların həmin ərazinin sahibinə çatması qaydası olsa da tapılan malların rus hökmdarının göstərişinə uyğun bölüşdürüləcəyini bildirirdi. Göndərilən malların içərisində Dərbənd, Bakı, Quba tacirlərinin və Fətəli xanın özünün də malları varmış.[2]

Fətəli xan, həmin malların içərisində yerli tacirlərə və İran tacirlərinə məxsus malların da olduğunu, onların xandan öz mallarını tələb etdiyini nəzərə alaraq, bütün malların yalnız Rusiya təbəələrinə verilməsini düzgün saymasa da düşmənləri onunla rus hakimiyyət orqanları arasında münasibətlərin kəskinləşməsindən istifadə etməsinlər deyə de-Medemin tapılan bütün malların Fromqolsa, Minasa və Rusiya təbəələrinə verilib Həştərxana göndərilməsi tələbi ilə razılaşmağa məcbur olmuş, bütün malları Fromqolsa və Minasa təhvil vermişdi.[3] Bununla kifayətlənməyən Fromqols və Minas yeni iddia ilə çıxış etmişdilər: guya gəmidə 1 milyon rubl dəyərində mal varmış, xan malların çoxunu özünə saxlamışdır, buna görə də de -Medem bir milyon manatlıq malın qaytarılmasını tələb edir.[4]

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 408. лл. 162-163.

[2] Yenə orada, v. 148.

[3] Yenə orada,v.149, 151.

[4] РГВИА, ф. 52, оп. 1, д. 408. лл. 153.

Rus komandanlığı Fətəli xana qarşı ittihamları gücləndirdikdə xan da komandanlığa qarşı soyuq münasibət nümayiş etdirməyə başladı. Dərbənddəki rus hərbi dəstəsi komandirinin Dərbəndə qaçmış 8 Rusiya təbəəsi olan kəndlinin geri qaytarılması haqqında xahişi Fətəli xan tərəfindən rədd olundu. Hətta bu məsələ ilə bağlı general de-Medemin ciddi təhdidinə baxmayaraq Fətəli xan əgər ruslar onun qaçmış kəndlilərini verməsələr, o da heç kəsi qaytarmayacaq cavabını verdi.[1]

Nəhayət ki, rus hökuməti Fətəli xanın günahsız olduğunu anladı və II Yekaterina 15 dekabr 1776-cı il tarixli buyruğu ilə de-Medemdən bundan sonra əndazədən çıxmamağı və Quba xanının iki elçisinin – Mirzə bəy Fərhadbəyovun və Hacı bəyin dərhal Qubaya buraxılmasını əmr etdi.[2] Çox keçmədən de-Medem vəzifədən azad olundu və general Yakobi Qafqaz xəttindəki rus qoşunlarının komandanı təyin olundu.[3]

Rusiya hakimiyyət orqanları ilə münasibətləri normallaşdıqdan sonra Fətəli xan 1777-ci ildə knyaz Q.Potyomkinə məktub yazaraq onun elçisinə göstərdiyi xoş münasibətə görə ona minnətdarlığını ifadə edir, eyni zamanda elçisi Mirzəbəy Fərhadbəyovun rus sarayında qəbul olunub yola salındıqdan sonra Qızlarda general de-Medem tərəfindən saxlanıldığına görə İmperatriçənin fərmanından xəbərsiz olduğunu bildirirdi.[4]

Beləliklə, göründüyü kimi, Nadir şah qətlə yetirildikdən sonra taxta çıxmış qardaşı oğlanları Əliqulu (Adil şah), daha sonra İbrahim şah Əfşar imperiyasının dağılmasının qarşısını ala bilməmiş, Azərbaycan və İranda onlarla xırda dövlətlər – xanlıqlar yaranmışdı. Yarandığı gündən torpaq, sərvət və təbəələr uğrunda bir-biriləri ilə fasiləsiz və qanlı mübarizə aparmaları

---

[1] Гаси Абдуллаев.Göst. əsəri,s.580.
[2] Гаси Абдуллаев., Göst. əsəri, (1965), s. 583.
[3] АВПРИ, ф. 77 (СРП), оп. 6, (1776-1777), д. 478, лл. 187-188.
[4] Yenə orada,v. 178-179.

xanlıqları güclü qonşu dövlətlər tərəfindən asan udula bilən tikəyə çevirdi.

Qonşu dövlətlərdən ilk növbədə Rusiya Azərbaycan üçün daha böyük təhlükə törədirdi. 1768-1774-cü illər müharibəsində Osmanlıya qalib gələn Rusiya bu zaman üçün başlıca vəzifəsini – Qara dənizə çıxış əldə etmək vəzifəsini yerinə yetirmiş oldu. Müharibə ərəfəsində və müharibə dövründə Azərbaycan xanlıqlarının eyni dinə və söykökə malik Osmanlı dövləti tərəfində çıxış edəcəyindən ehtiyat edən Rusiya hakimiyyət nümayəndələri xanlarla əlaqələrini genişləndirmişdilər və guya Rusiyanın xanlıqları istila etmək niyyəti olmadığını onlara təlqin etməyə çalışırdılar.

Xəzər hövzəsinə diqqətini bir qədər artıran Rusiya hələ ki, Azərbaycanı işğal etmək üçün real imkanlara malik olmadığından bəzi kəşfiyyat səciyyəli tədbirlər gördü. 1768-1774-cü illərdə professor Qildenştedt Qafqazı ətraflı öyrənmiş, professor, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü olan S.Qmelinin rəhbərliyi ilə Xəzəryanı vilayətləri öyrənmək üçün iki dəfə ekspedisiya təşkil etdi. 1774-cü ilin yanvarında Bakıdan quru yolu ilə Rusiyaya hərəkət edən ekspedisiya Qaraqaytaqdan keçən zaman usmi Əmir Həmzə Qmelinin casus olmasından şübhələnib onu həbs etmiş, səyyah dustaqlıqda ölmüşdü.

1774-cü ilin yayında qubalı Fətəli xanla Əmir Həmzənin başçılıq etdiyi rəqibləri arasında Gavduşan düzündə qanlı toqquşma baş vermiş, Fətəli xan ağır məğlubiyyətə uğradığından Dərbənd Əmir Həmzə və tərəfdarları tərəfindən mühasirəyə alınmışdı. Çətin vəziyyətə düşən Fətəli xan yardım üçün Rusiyaya müraciət etmiş, Rusiyanın həm regionda mövqeyini möhkəmləndirmək, həm də S.Qmelini həbs edib dustaqlıqda ölümünə bais olmuş Əmir Həmzəni cəzalandırmaq məqsədilə usminin mülklərinə qoşun yeritməsi Dərbəndin mühasirəsini aradan qaldırmaq zorunda qalmış Fətəli xan bu şəhər üzərində nəzarətini bərpa edə bilmişdi. De-Medemin başçılıq etdiyi rus hərbi dəstəsinin Dərbəndə daxil olması Osmanlı hökumətinin kəskin narazılığına səbəb olmuş, bu dövlətlə yenicə bağladığı

sülh müqaviləsini pozmaq istəməyən II Yekaterina hökuməti de-Medemin dəstəsini Dərbənddən çıxarmağa məcbur olmuşdu.

Fətəli xanla Rusiya arasında münasibətlərin heç də həmişə səmimi səciyyə daşımadığını, arada soyuqluq, hətta gərginlik müşahidə olunduğunu da qeyd etmək lazımdır. Fətəli xan Rusiyanın himayəsini qəbul edib, onun yardımından istifadə edərək Azərbaycan torpaqlarını birləşdirmək siyasətini davam etdirmək istəsə də, Rusiya özü bilavasitə Azərbaycan torpaqlarını istila etmək niyyətində olduğundan Fətəli xanın himayə xahişini rədd etmişdi.

Rusiyanın işğalçılıq planlarından şübhələnən bir sıra Azərbaycan xanları – xoylu Əhməd xan, şəkili Məhəmməd Həsən xan, irəvanlı Hüseynəli xan, ərdəbilli Nəzərəli xan Osmanlı hökumətinə məktublar göndərərək hərbi və maliyyə yardımı göstərilməsini xahiş edirdilər.

# VI FƏSİL

## XVIII ƏSRİN 80-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN XANLIQLARI RUSİYA VƏ OSMANLI İMPERİYALARININ SİYASƏTİNDƏ

### VI.1. Rusiyanın Azərbaycan ərazisində vassal dövlətlər yaratmaq planı

Kiçik Qaynarca sülhündən sonra rus hökuməti Krımı ilhaq etmək və Cənubi Qafqazı ələ keçirmək üçün fəal siyasət yürütməyə başladı. XVIII əsrin son otuzilliyində Rusiya tənəzzül keçirən dövlətlərlə əhatə olunduğundan (İsveç, Reç Pospolita (Polşa) və Osmanlı imperiyası) onun öz işğalçılıq siyasətini reallaşdırmaq üçün əlverişli beynəlxalq şərait yaranmışdı. Rusiya 1768-1774-cı illər müharibəsində Osmanlıya qalib gələrək Kiçik Qaynarca sülhü nəticəsində Kinburn, Kerç, Yeniqala və Azovu zəbt etmişdi ki, nəticədə sultan Krımın Osmanlıdan asılılığının ləğvinə məcbur qalmışdı. 1772-ci ildə Polşanın birinci bölüşdürülməsi nəticəsində o, qərbdə bir sıra ərazilər zəbt etmişdi.

Yüzilliyin 80-ci illərinin əvvəllərində "Şərq məsələsi" rus xarici siyasətində mühüm yer tutmuş, rus diplomatiyasının əsas diqqəti "Şərq məsələsi"nin mühüm hissəsini təşkil edən, mahiyyəti Osmanlı imperiyası ilə yeni müharibə təqdirində Moldova, Valaxiya və Bessarabiyadan ibarət "müstəqil Dakiya" dövləti yaratmaq, şərait əlverişli olduqda Yunan (Bizans) imperiyasını bərpa etmək, onun taxtına II Yekaterinanın 1779-cu ildə doğulmuş ikinci oğul nəvəsi böyük knyaz Konstantini oturtmaqdan ibarət olan "Yunan məsələsi" (və ya Bizans məsələsi) layihəsini həyata keçirməyə yönəlmişdi.[1]

Bezborodkonun məşhur memarundumunda artıq çoxdan hazırlanmaqda olan "Yunan layihəsi" qəti tərtibatını tapdı. 1781-ci ilin mayında Avstriya imperatoru II İosiflə ittifaqa nail olan II

---

[1] Ашот Иоаннисян. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия. Изд.во АН Арм. ССР, Ереван, 1947, с. 12.

Yekaterina nəinki Krımı ilhaq etmək, həm də daha geniş planları həyata keçirmək üçün əlverişli ilkin şərait yetişdiyini düşünürdü.

Rusiyanın işğalçılıq siyasətinin digər istiqaməti Qafqaz idi. Şimali və Cənubi Qafqazın qərb hissəsi Osmanlı dövlətinin hakimiyyəti altında olduğundan, artıq Osmanlıya qarşı mübarizənin gedişi bu regionda möhkəmlənməyi zəruri edirdi. Qafqazın Şərq hissəsi - Xəzər dənizinin sahili də Rusiyanı az cəlb etmirdi. Xəzər ticarəti çoxdan idi ki, Rusiya üçün birinci dərəcəli əhəmiyyət kəsb edirdi. Qafqazın Şərq hissəsində möhkəmlənməklə Rusiya həm də Osmanlı ilə mübarizə üçün əlverişli platsdarm əldə etmiş olurdu.

Rusiyanın Qafqaza ekspansiyası üçün əlverişli zəmin də var idi. Cənubi Qafqazın qərb hissəsində Osmanlıdan asılı xırda gürcü dövlətləri və müstəqil Kartli-Kaxeti çarlığının mövcudluğu və ümumiyyətlə Cənubi Qafqazda müəyyən sayda xristianların yaşaması çarizmin "xilaskar" görkəmi alıb onlardan maşa kimi istifadə etməsinə imkan verirdi. Azərbaycanın və İranın bir-birləri ilə düşmənçilik edən çoxlu xanlıqlara parçalanmış şəkildə olması da Rusiyanın bu regiona irəliləməsini asanlaşdırırdı.

1762-ci ildə Kaxeti çarı Teymuraz öldükdən sonra Kartli çarı olan oğlu II İraklinin hər iki çarlığı birləşdirməsi gürcü dövlətinin güclənməsinə səbəb olmuşdu. İrakli qonşu müsəlman xanlıqlarına qarşı mübarizədə həmetiqad pravoslav Rusiyasının yardımına bel bağlayırdı. Azərbaycan xanları arasında didişmələr Kartli-Kaxeti çarlığının işğalçılıq hərəkətlərinə də şərait yaradırdı. 1768-1774-cü illər müharibəsinin gedişində İrakli Rusiya ilə hərbi ittifaq bağladı və rus qoşunları Gürcüstana gəldilər. Lakin rusların gürcülərlə birlikdə osmanlılara qarşı apardığı hərbi əməliyyatlar uğurlu olmadı və rus qoşunları üç ildən sonra Gürcüstanı tərk elməli oldular.[1]

Cənubi Qafqazın bəzi bölgələrində yaşayan azsaylı ermənilər və ermənilərin təsiri altına düşmüş alban mənşəli xristianlar da Rusiyanın bu regionda irəliləməsində mühüm rol oynamışlar. O

---

[1] Ашот Иоанисян. Россия и армянское.., (1947), с. 5.

zaman erməni millətçiliyinin mühüm mərkəzi İrəvan xanlığının ərazisində yerləşən Üçmiəzzin (Üçkilsə) katolikosluğu idi. İri torpaq sahələrinə malik olub böyük gəlir götürən katolikoslar təkcə dini deyil, həm də müəyyən dərəcədə siyasi hakimiyyətə malik idilər. Artıq XVIII əsrin 60-cı illərində Üçmiəzzin katalikosları Rusiya ilə əlaqə qurmuşdular. 1768-ci ildə II Yekaterina katolikos Simeonun müraciətinə cavab olaraq qramota göndərib ona və erməni xalqına imperator mərhəməti vəd etmişdi.[1]

Bir sıra ölkələrdə, ilk növbədə Hindistanda olan erməni koloniyalarının burjuaziyası da bu dövrdə Cənubi Qafqazda ayrıca dövlət qurmaq xəyalına düşmüşdü. Kəlküttə və Londonda təhsil alan, daha sonra Rusiyaya gələn İosif Emin XVIII əsrin 60-cı illərində erməni dövləti yaradılması üçün səy göstərirdi.[2] Rus hökumətindən pasport və kansler Voronsovdan Kartli-Kaxeti çarı II İrakliyə tövsiyyə məktubu olan İ. Emin 1763-cü ilin yazında Tiflisə gəlir, II İrakli ilə, İmeretiya çarı Solomonla, Qarabağ məlikləri və Alban katolikosu ilə danışıqlar aparır. Ancaq əməli bir nəticə əldə etməyib Qızlara qayıdıb burada yerli ermənilər arasında millətçilik təbliğatı aparan Emin özünü artıq "erməni şahzadəsi" kimi təqdim etməyə başlayır. Onun belə avantüristliyindən və fırıldaqçılığından hiddətlənən Qızlar komendantı Emini Həştərxana yollayır.[3]

Uğursuzluğundan ruhdan düşməyən İ.Emin rus hökuməti üzvləri ilə danışıqlar apararaq Rusiyanın himayəsi altında "gürcü-erməni federasiyası" yaratmağı təklif edirdi.[4]

Rusiyadakı erməni varlıları da erməni dövləti yaratmaq xəyalına düşmüşdülər. Hələ 1764-cü ildə Sarafov digər varlı ermənilərin razılığı ilə Rusiya Xarici İşlər kollegiyasına "Ermənistanın azad olunmasını" və Rusiyanın himayəsi altında

---

[1] Ашот Иоаннисян. Россия и армянское национальное движение (1947), с. 15.

[2]Ашот Иоанисян. Иосиф Эмин. Ереван, Изд-во Ер. Ун-та, 1945, с. 136.

[3] Yenə orada,s. 94-95.

[4] Ашот Иоаннисян. Россия и армянское национальное движение (1947),сс. 14-15, Ашот Иоанисян. Иосиф Эмин, сс.84-85, 94-95, 102-103.

erməni dövlətinin yaradılmasını nəzərdə tutan təklif etmişdi.[1] Rusiyaya köçən varlı erməni tacirinin oğlu olan İvan (Ovanes) Lazarev Peterburq sarayının zərgəri vəzifəsinə daxil olaraq, müxtəlif yollarla və hiylə ilə rus hakimiyyət orqanları ilə sıx əlaqələr yaratmış və maliyyə fırıldaqları vasitəsilə Rusiyanın ən varlı şəxslərindən birinə çevrilmişdi. O, Peterburqda erməni kilsəsi tikdirmişdi və Rusiyadakı bütün ermənilərin himayəçisi kimi çıxış etməyə çalışırdı.

İ.Lazarevlə yanaşı çox fəallıq göstərən erməni xadimlərindən biri də Rusiyadakı erməni kilsəsinin arxiyepiskopu İosif Arqutinski idi. 1743-cü ildə Gürcüstanda doğulmuş İ.Arqutinski gəncliyində Üçmiəzzin monastrında xidmətə başlamış, 1773-cü ildə isə Üçmiəzzin katolikosu İosifi Rusiyada erməni kilsəsinin fəaliyyətini nizamlamaq üçün göndərmişdi. Arqutinski dini işlərlə kifayətlənməyərək millətçilik fəaliyyətinə başlayır. O, Krım ermənilərinin köçürülüb Rostov şəhəri yanında Yeni Naxçıvan qəsəbəsinin salınmasında mühüm rol oynamışdı. 1775-ci ildə katolikos İ.Arqutinskini Rusiyadakı erməni yeparxiyasının rəisi təyin etmişdi.[2]

Rus hakimiyyət orqanları "erməni məsələsi"ni ilk dəfə gündəmə gətirdikləri zaman rus məmurları məhz İ.Lazarev və İ.Arqutinski ilə danışıqlara başladılar. 1780-ci ilin yanvarın əvvəlində İ. Arqutinski və İ. Lazarevi "mühüm və məxfi dövlət işləri"ni müzakirə etmək üçün dəvət etdilər. Yanvarın 1-də rus zabiti İvan Qoriç Arqutinskidən Cənubi Qafqaz və İran əraziləri, ayrı-ayrı şəhərlər arasında məsafə, yerli hakimlərin qüvvələri haqqında lazımi məlumatları öyrəndi. Ertəsi günü general A.V.Suvorov Lazarevlə birlikdə Arqutinskinin yanına gəldi. 2 saat ərzində Suvorov Cənubi Qafqazda vəziyyət, Eçmiədzinin durumu haqqında məlumat aldı. Suvorov erməniləri ümidləndirərək rusların "erməni dövlətini bərpa edəcəklər"ərini bildirdi. [3] Yanvarın 3-də Q.Potyomkin

---

[1] Ашот Иоанисян. Россия и армянское (1947), с. 14.
[2] Yenə orada,s. 19-21.
[3] Ольга Маркова. Россия, Закавказье и международное отношения XVIII веке. Москва, 1966, с. 22.

İ.Arqutinskini və İ.Lazarevi yanına çağırıb onlardan ermənilər və gürcü çarı haqqında məlumat istədi. Lazarev və Arqutinski təkidlə mərkəzi İrəvan şəhəri olmaqla erməni dövlətinin yaradılmasını xahiş etdilər. Knyaz, "bu xahişi yerinə yetirmək olar, ancaq rusların ermənilərin yardımına gəlməsi üçün hüquqi əsas olsun deyə katolikos və adlı-sanlı ermənilər müvafiq vəsatətlə müraciət etməlidirlər", deyə bildirdi.[1]

10 gün sonra, yəni yanvarın 13-də Suvorov Lazarev və Arqutinskini yanına çağırıb, bu dəfə Qarabağ məlikləri haqqında soruşmağa başladı. Ermənilər nəinki Qarabağ məlikləri, həm də Sisyan və Qafandakı xristianlar, David bəyin üsyanı haqqında da məlumat verdilər. Sonra Gürcüstan və gürcü çarı İrakli haqqında suallara cavab verildi. Az sonra ermənilərin verdiyi məlumatlar, eləcə də təkliflər yazılı halda tərtib edilib Suvorova təqdim olundu.[2]

Verilən məlumatda böyük saxtakarlıq edilərək Qarabağın xristian alban məlikləri erməni dövlətçiliyinin qalıqları kimi təqdim olunurdu. İddia edilirdi ki, bu məlikliklərin əsasında Azərbaycan ərazisində "Ermənistan dövləti bərpa oluna bilər".[3]

Qeyd edək ki, bütün Qafqaz və İran işləri knyaz Potyomkinə tapşırılmışdı. Onun Qafqaz işləri üzrə səlahiyyətli nümayəndəsi və Qafqaz xəttindəki rus qoşunlarının yeni komandanı təyin olunmuş qardaşı oğlu general-poruçik Pavel Sergeyeviç Potyomkinə Cənubi Qafqaza və İrana yeni yürüşü hazırlamaq, gürcülər və ermənilərlə bağlı planları gerçəkləşdirmək tapşırılmışdı. Bu məqsədlə P.Potyomkin gürcü çarı II İrakli və ermənilərlə əlaqə yaratmalı idi.[4]

Fevralın 17-də knyaz Q.Potyomkin Arqutinski və Lazarevi yanına çağırıb onlarla söhbət etdi. Söhbət əsasən kilsə məsələlərinə həsr olunmuşdu.[5] Bundan sonra knyaz Potyomkinin dəvəti ilə fevralın 18-də knyaz Potyomkinlə birlikdə bir çox rus

---

[1] Yenə orada,s. 16.
[2] ПФАРАН, ф. 3, оп. 34, д. 14, лл. 23-24.
[3] Иоанисян А.Р. Россия и армянское..(1947), с. 19-21.
[4] Ольга Маркова. Göst. əsəri,s. 16.
[5] Ольга Маркова. Göst. əsəri,s. 21.

əyanlarının iştirak etdiyi Müqəddəs Yekaterinanın adına adlandırılan yeni erməni kilsəsinin açılışında Arqutinskinin etdiyi moizədə erməni xalqının tarixinə ekskurs edilir, ermənilərin "müsibətli vəziyyəti"ndən bəhs olunurdu. Arqutinski yaltaqcasına bildirirdi ki, tanrı şərəfli Rusiya imperatoru Böyük Pyotrda "Haylar ölkəsi"nə yardım göstərmək fikrini oyatmışdır. Pyotrun "erməniləri xilas edib", erməni dövləti yaratmaq niyyəti gerçəkləşməsə də, tanrı Yekaterinanın simasında layiqli varis vermişdir. Arqutinski imperatriçənin və əyanlarının canına dua oxuyaraq onlardan erməni xalqına "məhəbbət, mərhəmət və qayğı" göstərmələrini xahiş edirdi. Əvvəlcədən mətni ruscaya çevrilib yayımlanan bu moizə erməni dövlətinin yaradılması üçün açıq müraciət idi.[1]

Erməni millətçilərinin bu müraciəti rus sarayının Cənubi Qafqazda işğalçılıq fəaliyyətini canlandırmaq istəyi ilə üst-üstə düşürdü. Hələ 1780-ci il yanvarın 11-də knyaz Potyomkin A.Suvorovun adına göndərdiyi bu cür məxfi göstərişdə imperatorun xanları silah gücü ilə ram etmək qərarına gəldiyi bildirilir, bu vəzifənin icrası üçün onu seçdiyi elan olunurdu. Suvorov dərhal Həştərxana yola düşməli, donanmanı, nəqliyyat vasitəsi kimi istifadə oluna biləcək qeyri-hərbi gəmiləri nəzərdən keçirməli, onların sayı və yararlılığı barədə qasidlərlə knyaz Potyomkinə məlumat göndərməli, sahil boyunca Rəştə hansı əlverişli yollar olduğunu və quru ilə hərəkət edən qoşunların hərəkətini donanma ilə necə uzlaşdırmağı öyrənməli, donanmanın harada sahilə yaxınlaşmasını müəyyənləşdirməli idi.[2]

II Yekaterinanın bu məsələ ilə bağlı buyruğunda isə rus

[1] Yenə orada, s. 23-24.

[2] Александр В.Суворов. Документы (Сборник документов под общей редакцией ген. – лейтенанта А.В.Сухомлина и ген.-май. В.А.Сырова). т. 2 (под. ред. Г.В.Мещерякова), Москва, Военное Изд. Воен. Министерства Союза ССР, 1951, с. 21-23; Армяно-русские отношения в XVIII веке (сб. документов). Т. IV (1760-1800 гг.). под редак. М.Г.Нерсисяна. Изд-во АН Арм. ССР, Ереван. 1990, сс. 89, 152; Российская Государственная Библиотека. Отдел рукописей. Собрание Суворова, ч. 15, лл. 21-23.

konsulunu həbsdə saxlayan rəştli Hidayət xanın, guya rus tacirlərini sıxışdıran və qarət edən Quba və Bakı xanlarının "qaba hərəkətləri" qeyd olunur, rus ticarətini bərpa etmək və onu gələcək üçün təhlükəsiz sığınacaqla təmin etmək, bu xanları cilovlamaqdan ötrü hərbi səfərin təşkil olunması əmr edilirdi.[1]

Q.Potyomkin imperatriçənin buyruğuna əsaslanaraq xüsusi təlimatda Suvorova dərhal Həştərxana gedib oradakı quru qoşunlarına və Xəzər donanmasına komandanlığı qəbul etməyi əmr edirdi. Suvorova vəziyyətə uyğun quru və dəniz əməliyyatları üçün lazım olan qoşunların miqdarını müəyyənləşdirmək, quru qoşunlarını və donanmanı artilleriya, sursat və ərzaqla təchiz etmək tapşırılırdı. Rusiyaya sadiq xanlarla mülayim, itaət göstərənlərlə "insanpərvər" davranmaq, müqavimət göstərənləri cəzalandırmaq əmr olunurdu. Suvorovun başlıca vəzifəsi rus tacirləri üçün təhlükəsiz sığınacaq təmin etmək, bu məqsədlə Gilan xanından lazımi ərazi almaq, istehkam inşa edib, orada qarnizon qoymaqdan ibarət idi. Suvorov vaxt itirmədən əməliyyata başlamalı, müvəqqəti olaraq Dərbənddə rus qarnizonu yerləşdirməli, gürcü çarı İrakliyə, Quba xanına, digər hakimlərə imperatriçənin "sülhsevər niyyətləri"ni bildirməli idi.[2]

Beləliklə, qoşunların əsas hissəsinin Dərbənddən keçməklə quru yolla, digər hissəsinin isə gəmilərlə dəniz yolu ilə Gilana hərəkət etməsi planlaşdırıldı. Bu səfərin əsas məqsədləri Quba, Bakı və Gilan xanlarını itaətə gətirmək, Cənubi Qafqazda Rusiyanın təsirini gücləndirmək və Xəzər dənizində rus ticarətinin inkişafı üçün şərait yaratmaqdan ibarət idi. Deyilən məqsədlərə çatmaq üçün Gilanda möhkəmləndirilmiş rus faktoriyası salıb orada daimi rus qarnizonu saxlanmalı idi.

Moskvadan Həştərxana yola düşən Suvorov burada yürüşə hazırlıq görməyə başladı. Aprelin 10-da dövlət katibi Turçaninova yazdığı məktubda Suvorov xəritələrin tərtib

---

[1] Собрание Суворова, ч. 15, лл. 22-23 об.

[2] Александр В. Суворов В.А. Документы, т. 2, сс. 222-223; Армяно-русские отношения в XVIII веке. т. IV, док. 91, сс. 154-155.

edilməkdə olduğu, onun türk yazısını demək olar ki, öyrəndiyi bildirilirdi.[1]

Suvorovun kağızları içərisində Rəştə, İrəvana, hətta İsfahana, Şiraza və Fars körfəzinə qədər olan yollar, onların üzərindəki yaşayış məskənləri haqqında ətraflı məlumat var. Sənədlərin içərisində Gürcüstan haqqında, Azərbaycan xanlıqları, xüsusən Qarabağ xanlığı haqqında qiymətli məlumatlar vardır.[2]

Lakin 1780-ci ildə ermənilərin və Qarabağın xristian albanlarının səbirsizliklə gözlədikləri rus qoşunlarının yürüşü baş tutmadı. Eyni zamanda İbrahimxəlil xan xəyanətkar məliklərə divan tutmağa başladı. Dizaqlı məlik İsay öldürüldü.[3] Məlik Adam, Məlik İsrail, Məlik Yusuf və Məlik Bəylər isə uzun müddət İbrahimxəlil xana müqavimət göstərə bilməyəcəklərini anlayaraq ümidlərini rus qoşunlarının gəlişinə bağlayırdılar. Onlar 1781-ci il sentyabrın 2-də II Yekaterinanın, Potyomkinin və Suvorovun adlarına ayrı-ayrı ərizə yazmışdılar. Məliklər arşaki və alban çarlarının nəslindən olduqlarını bildirir, onları düşməndən xilas etsin deyə imperatriçəyə yalvarırdılar. Məliklər daha sonra Qarabağın sərvətləri haqqında məlumat verir, burada qızıl, gümüş, qurğuşun, mis və dəmir mədənlərinin, ipək, pambıq, çəltik və arı pətəklərinin, çoxlu əkin sahələri, çəmənlik, çaylar, meyvə bağlarının olduğunu, bol şərab istehsal olunduğunu yazırdılar. Knyaz Potyomkinə edilən müraciət də təxminən eyni məzmunlu idi. Məliklər Qarabağa 10 minədək piyada rus döyüşçüsünün göndərilməsini xahiş edir, rus qoşunlarının yürüşü təqdirində özlərinin müsəlmanlara qarşı mübarizəyə qalxacaqlarını vəd edirdilər. Məliklər, Rusiyadan göndəriləcək qoşunların sərkərdəliyinə Suvorov təyin edilərsə, onların bundan

---

[1] Александр В. Суворов. Документы, т. 2, М., 1951, с. 164.

[2] Бумаги героя Суворова 1780 и 1783 годы в бытность его в Астрахани и на Кубане о Персии и Кавказа. Написано рукою Суворова 28 февраля 1780 г. РГВИА, оп. 52 (Потемкины), оп. 1, д. 218, л. 2-37.

[3]Бумаги героя Суворова 1780 и 1783 годы в бытность его в Астрахани и на Кубане о Персии и Кавказа. Написано рукою Суворова 28 февраля 1780 г. РГВИА, оп. 52 (Потемкины), оп. 1, д. 218, л.. 22.

məmnun olacaqlarını da bildirirdilər.[1]

Məliklər Suvorova məktubda onun çoxsaylı qoşunla Qarabağa gələcəyini eşidib sevindiklərini yazırdılar. Amma indiyədək onun gəlmədiyini görüb knyaz Potyomkinə müraciət edərək on minlik qoşun göndərilməsini xahiş edir, Suvorovdan da bu xahişin dəstəklənməsini istəyirdilər. [2] Qarabağda rus qoşunlarının təchizatı üçün ərzaq da toplanmışdı.[3]

## VI.2. Qraf Voynoviçin başçılığı ilə hərbi-dəniz ekspedisiyası.

Ancaq rus qoşunlarının Cənubi Qafqaza yürüşü 1781-ci ildə də gerçəkləşmədi. Çünki bu illərdə rus sarayını ən çox Krım xanlığını işğal etmək düşündürürdü və qüvvələrini iki cəbhəyə bölmək istəmirdi. Bu səbəbdən də geniş quru və dəniz əməliyyatları əvəzinə kiçik miqyaslı dəniz ekspedisiyası təşkil etmək qərara alındı və bu ekspedisiyaya başçılıq etmək 2-ci dərəcəli kapitan Voynoviçə həvalə olundu. Suvorov isə 1781-ci ilin dekabrında Həştərxandan geri çağrıldı.[4]

Hərbi-dəniz ekspedisiyasının təşkilinə bu amil də təsir göstərmişdi: 1775-ci ildə Şimali Amerika müstəmləkələrinin azadlıq uğrunda İngiltərəyə qarşı müharibəyə başlamaları səbəbindən Hindistanla okean ticarəti üçün ciddi maneə yaranmışdı. Hind tacirləri Avropa ilə ticarət üçün quru yolu axtarırdılar, Buxara və Xivədən Orenburqa gəlirdilər. Lakin onlar Mərkəzi Asiyanın səhralıq yerlərindən keçdikləri üçün gözlənilməz təhlükələrlə qarşılaşmalı olurdular. Buna görə də rus hökuməti Xəzərin cənub sahilində Şərq ölkələri ilə ticarəti cəmləməli olan təhlükəsizliyin təmin olunduğu bir faktoriya təsis

---

[1] РГВИА, ф. 52 (Потемкины), оп. 1, д. 266, л. 6 и об.; д. 270, лл. 5 и об., 7, 47, 51 об.; Ашот Ионнисян. Россия и армянское.., с. 33.

[2] РГВИА, ф. 52 (Потемкины), оп. 1, д. 266, лл. 5-7.

[3] АВПРИ, ф. 100 (СРА), оп. 3, д. 464, л. 7 и об.

[4] Александр В. Суворов. Документы, т. 2, сс. 27.

etmək qərarına gəlmişdi.[1] Bir qədər əvvəl Sankt-Peterburqda olan türkmən elçisi Xəzərin cənubunda yerləşən Oqurçinsk adasının ticarət faktoriyasının salınması üçün əlverişli olduğunu bildirmişdi.[2]

Qraf Voynoviçin komandanlıq etdiyi eskadra üç 20 toplu freqatdan, bir bombardmançı gəmidən, iki göyərtə botundan ibarət idi. Voynoviçə verilən gizli təlimata görə o, Həştərxanda eskadraya komandanlığı qəbul etdikdən sonra dənizə çıxıb Oqurçinsk adasını tapmalı idi.[3]

Eskadra 1781-ci il iyulun 29-da Həştərxandan cənuba üzdü, iyulun 13-də bir qədər dincəlmək üçün Bakının yaxınlığındakı adalardan birinə yaxınlaşdı. Lakin burada dincəlməyin mümkün olmadığını görən Voynoviç Şərqə doğru üzdü.[4] İyulun 21-də eskadra Oqurçinsk adasına çatdı. Tədqiqat bu adanın ticarət faktoriyası üçün yaramadığını göstərdiyindən Voynoviç Astrabad körfəzinə tərəf üzdü və ayın 25-də eskadra həmin körfəzə daxil oldu.[5]

Məlum oldu ki, Astrabad hakimi Ağa Məhəmməd xan Qacar Qəzvin ətrafında düşərgə salmışdır və oradan tezliklə qayıtmayacaq. Bu səbəbdən də Voynoviç Qacarın yanına adam göndərib onu gəlişinin məqsədindən agah etdi.[6] İlk əvvəl Ağa Məhəmməd xan Voynoviçin məktubunun mahiyyətinə çox da varmadan ona müsbət cavab verdi. 4 ay ruslara yaxşı münasibət göstərdi. Uzun danışıqlardan sonra Astrabad körfəzinin sahilində Qaradovin çayının mənsəbinin ruslara verilməsi barədə razılıq əldə edildi. Lakin Voynoviçin danışıqlar bitməmiş 1781-ci ilin payızında burada gəmi duracağı ilə yanaşı 18 dəniz topu ilə təchiz

---

[1] Карл Габлиц К. Исторический журнал бывщего в 1781-1782 гг. на Каспийском море под командованием флота капитана второго графа Войнович-Сочинение Карла Габлица. Москва, 1809, сс. VI-VII.

[2] Yenə orada, s. VII.

[3] Yenə orada, s. VII-VIII.

[4] Карл Габлиц К. Исторический журнал бывщего в 1781-1782 гг.., с.. 9.

[5] Yenə orada, s. 15-16, 18.

[6] Yenə orada, s. 20.

olunmuş istehkam inşa etməsi Qacarın qəzəbinə səbəb oldu. O, Voynoviçin bu hərəkətini saymazyanalıq və əzələ nümayişi kimi dəyərləndirdi. Bir tərəfdən də rusların 60 minlik qoşunla İrana daxil olacağı haqqında şayiələr dolaşırdı. Bu səbəbdən Ağa Məhəmməd xan şübhəli müttəfiqdən yaxasını qurtarmaq qərarına gəldi. Dekabr ayında yerli xanlardan biri Voynoviçi öz yanına qonaq çağırdı. Burada silahlı adamlar Voynoviçi və onunla gələnləri dövrəyə alıb, rus eskadrasının dərhal Astrabad körfəzini tərk etməsini tələb etdilər. Voynoviç bu tələblə razılşmalı oldu.[1]

1782-ci il yanvarın 2-də Voynoviç Sarini tərk etsə də Peterburqdan yeni sərəncamlar gözləyərək Astrabad körfəzində qaldı.[2] Daha sonra Balxan (Qaraboğaz göl?) körfəzinə üzüb oranı tədqiq etdikdən sonra Bakıya istiqamət götürdü. Bakı yaxınlığında dəniz sahilində xüsusi hazırlanmış qərargahda qubalı Fətəli xanla görüşdü. Voynoviç Bakı xanının rus tacirlərini incitməsi barədə Fətəli xana şikayət etdi. Voynoviçlə Fətəli xan arasında ticarət sazişi imzalandı.[3]

Avqustun sonunda Bakı körfəzini tərk edən Voynoviç sentyabr ayında Həştərxana yollandı.[4]

## VI. 3. Rusiyanın Azərbaycan ərazisini zəbt etmək niyyətləri.

Voynoviçin ekspedisiyasının uğursuzluğu Rusiyanın Xəzər dənizindəki mövqelərinin hələ möhkəm olmadığını göstərdi. Buna görə də rus hökuməti 1782-ci ilin payızında "İran məsələsi"ni həll etməyin zəruri olması nəticəsinə gəldi. Xəzər dənizi sahillərində Rusiya təsirini möhkəmləndirmək üçün nəinki Xəzəryanı vilayətləri yenidən ələ keçirmək, həm də Cənubi Qafqazda Kartli-Kaxeti çarlığı ilə yanaşı digər oyuncaq bir xristian dövləti yaratmaq, bu iki dövləti regionda Rusiyanın ön

---

[1] Карл Габлиц. Göst. əsəri, s. XV-XVIII.

[2] Yenə orada, s. XX-XXI.

[3] Yaqub Mahmudov, Kərim Şükürov. Azərbaycan.Beynəlxalq münasibətlər və diplomatiya tarixi..,s.265-266.

[4] Карл Габлиц. Göst. əsəri, s. XXV-XXVI.

qalasına çevirib, onlara arxalanmaq qərarlaşdırıldı.

Q.A.Potyomkin 1782-ci il aprelin 6-da P.S.Potyomkinə yazırdı: “Çar İrakli ilə əlaqələrimizin möhkəmlənməsinin əhəmiyyətini dərk edəcəksiniz. Şuşalı İbrahim xanı devirməli, Qarabağda Rusiyanın himayəsi altında müstəqil erməni vilayəti təşkil edilməlidir”.[1]

Qeyd edək ki, bu illərdə Rusiyanın Azərbaycan xanları ilə, o cümlədən qubalı Fətəli xan ilə münasibətləri kifayət qədər mürəkkəb idi. Fətəli xanın gürcü şahzadəsi Aleksandra öz yanında sığınacaq verməsi iki tərəf arasında müəyyən soyuqluq yaratmışdı. Rusiyadan qaçmış təbəələrin geri qaytarılmasına dair məlumat toplanması adı altında əslində Qızlar komendantına gürcü şahzadəsi Aleksandr haqqında məlumat toplamaq tapşırılmışdı.[2]

Qızlar komendantının göndərdiyi şəxslər komendantın adından Fətəli xandan Aleksandrı Rusiyaya verməsini, ya da gəldiyi yerə göndərməsini tələb edirdilər.[3] Məlumdur ki, Kartli-Kaxeti çarlığı Rusiya himayəsindən istifadə edib bütün Cənubi Qafqazı özünə tabe etməyə, ilk növbədə Gəncəni tutmağa can atırdı. Bu isə o dövrdə Azərbaycanın ən qüdrətli xanı olan qubalı Fətəli xanın kəskin müqavimətinə rast gəlirdi. Bu səbəbdən də o, 1782-ci ildə İrakliyə rəqib ola biləcək VI Vaxtanqın oğlu Bakardan olan nəvəsi Aleksandra öz sarayında sığınacaq vermişdi. Aleksandr rus ordusunda kapitan rütbəsində xidmət edirdi. 1762-ci ildə taxtdan salınıb öldürülmüş III Pyotra sədaqətlə xidmət göstərdiyinə görə 1766-cı ildə rütbəsi əlindən alınaraq Rusiyadan deportasiya olunmuşdu. [4] Aleksandr İmeretiyaya gələrək Kartli-Kaxetidə hakimiyyəti ələ almaq üçün fəaliyyətə başlamış, lakin heç nəyə nail olmayıb Dağıstana getmiş və qubalı Fətəli xandan onun Gürcüstanda hakimiyyəti ələ

---

[1] Ольга Маркова. Göst. əsəri, s. 101.

[2] Грамоты и другие исторические документы XVIII столетия…, т. II, д. 12-13, сс. 16-17.

[3] АВПРИ, ф.77, оп, 6, д.15, л.126

[4] Петр Бутков. Материалы.., ч. II, с. 141.

almasına yardım göstərməsini xahiş etmişdi.[1]

Bu II İraklini təşvişə salmışdı. O, 1782-ci il dekabrın 21-də rus imperatorundan onun və varislərinin hakimiyyətini qorumasına yardım göstərməsini xahiş edirdi. Əgər Rusiya Osmanlı imperiyası ilə müharibəyə başlayarsa, II İrakli ona hər cür yardım göstərməyə hazır olduğunu bildirir, eyni zamanda əvvəllər Gürcüstana məxsus olduğu üçün Axalsıx(Axısxa) və Qars vilayətlərini alıb ona verməsini Rusiyadan xahiş edirdi. II İrakli onun Rusiya himayəsinə qəbul olunmasını və hələlik Gürcüstana iki Rusiya alayının göndərilməsini xahiş edirdi.[2]

Rusiya sarayı Aleksandrın verilməsini tələb edəndə Fətəli xan Aleksandrın onun qonağı olduğunu bildirib tələbi yerinə yetirməkdən imtina etmişdi.[3] Eyni zamanda Fətəli xan II İraklinin həddini aşmasından, qarabağlı İbrahimxəlil xanla birlikdə mərhum Şahverdi xanın oğlu Məhəmməd xanı hiylə ilə tutub Qarabağda saxlayıb, Gəncədə öz naiblərini qoyub vergi toplamalarından şikayət edirdi.[4] Fətəli xanın sözünə görə, onlar uğurdan ruhlanaraq Naxçıvan, Təbriz və İrəvana, nəticədə bütün Azərbaycana hakim olmaq istəyirdilər.[5]

Fətəli xan sözünə davam edərək II İrakli və İbrahimxəlil xanın Qaradağ hakimi Mustafa xanı və sərkərdələrini də hiylə ilə tutub Qarabağda saxlamalarını və Qaradağdan vergi topladıqlarını yazırdı. Fətəli xan iki il ərzində onların azad olunması üçün üç dəfə İrakliyə müraciət etmiş, İrakli isə bu xahişi rədd etmişdi. Quba xanı yazaraq xanlar, rəislər və bütün Azərbaycan xanlarının II İraklinin və İbrahimxəlil xanın hərəkətlərindən narazı olduqlarını və dəfələrlə nümayəndələrini

---

[1] Грамоты и другие исторические документы столетия…,т.2, вып.2,д.16,сс.24-26.

[2]Грамоты и. др. ист. документы, т. 2, вып. 2, д. 16, сс. 24-26.

[3] АВПРИ, ф.77 (СРП) оп.6 (1765-1769 гг), д.15, лл.126-128;Грамоты и другие исторические документы, т. II, вып. II, д. 14, с. 19

[4] АВПРИ, ф.77(СРП), оп. 6. д.15, лл.128-129. Грамоты и другие исторические документы, т. II, вып. II, д. 14, с. 19

[5] АВПРИ, ф.77(СРП), оп. 6. д.15, v. 128-129.

Fətəli xanın yanına göndərib adı çəkilən iki şəxsin özbaşınalıqlarına son qoymasını xahiş etdiklərini bildirirdi. Fətəli xan hesab edirdi ki, Azərbaycan xanlarının ləyaqətini və hüquqlarını qorumaq onun borcudur, buna görə də öz narazılığını İrakliyə və İbrahimxəlil xana dəfələrlə bildirsə də. onlar xahişə əməl etməmişdilər. Eyni zamanda Dağıstan hakimləri onun yanına (Fətəli xanın – T.M.) gələrək Gürcüstana basqın etməyi təklif etmişdilər. Fətəli xan yazırdı ki, əgər Gürcüstana səfər dayandırılsa, əvvəla, Dağıstan hakimləri gözlərini dikdikləri qənimətdən məhrum olacaq, ikincisi, Məhəmməd xan və Mustafaqulu xan həbsdə qalacaqdır. Digər tərəfdən, II İrakli və İbrahimxəlil xan çox güclənəcək. Yalnız Dağıstan hakimləri Quba xanlığına hücum etdikləri təqdirdə imperatriçə Qızlar komandirinə Fətəli xana hərbi yardım əmr edəcəyi barədə vəd verərdisə, xan Aleksandrı ruslara verməyə razı olduğunu yazırdı.[1]

Fətəli xan, İrakli Rusiya sarayının himayəsində olduğu üçün rus hökumətinin ondan öz naibini Gəncədən geri çağırmasını, İrəvan xanından pul istməməsini, ona məxsus Gürcüstanla kifayətlənməsini tələb etməli olduğunu yazırdı.[2]

Sözünə davam edən Fətəli xan İbrahimxəlil xanın danışıqlar aparmaq adı ilə bakılı Məlik Məhəmməd xanı Qarabağa çağırıb həbs etdiyini, iki il onu Qarabağda saxladığını bildirirdi. Buna görə o, Dağıstan hakimləri ilə birlikdə II İrakliyə və İbrahimxəlil xana qarşı yürüşə çıxmaq qərarına gəlmiş, lakin bu zaman Qızlar komendantı Hacı Mirzə bəy və poruçik Batırev vasitəsi ilə Rusiyanın buna qarşı olduğunu bildirdiyindən bu səfərdən imtina etdiyini qeyd edirdi.[3]

Ərznamədə qraf Voynoviçin hərəkətlərindən şikayət də yer almışdı. Xan yazırdı ki, bu ilin iyul ayında rus eskadrasının kapitanı Voynoviç Bakı yaxınlığında durduğu zaman Fətəli xanın yanına adam göndərərək hansısa bir məsələni müzakirə etmək

---

[1] АВПРИ, ф.77 оп.6,д. 15, лл.132-134 ; Грамоты т. II, вып. II, д. 14, с.22-23

[2] АВПРИ, ф.77 оп.6 (1765-1769 гг), д.15, лл.132-134; Грамоты.., см: т. 2, ч. 2, д. 14, сс. 22-23..

[3] АВПРИ, ф.77 оп.6 (1765-1769 гг), д.15, лл.131.

üçün Bakıya gəlməsini istəmişdi. Fətəli xan Bakıya gəlmiş və Voynoviçlə görüşmüşdü. Görüş zamanı heç bir səbəb olmadığı halda Voynoviç qəflətən onunla kobud rəftar etməyə başlamış, üstəlik 3-4 topla silahlanmış 3-4 gəmini sahilə yaxınlaşdırıb şəhərə atəş açdırmışdı. Voynoviç qışqıra-qışqıra imperatriçənin bakılı Məlik Məhəmməd xandan 50 min rubl alması, Bakını toplarla dağıtması, yaxud Məlik Məhəmməd xanı şəhərdən qovub, yerinə ayrısını hakim təyin etməsi üçün ona səlahiyyət verdiyini bildirmişdi. Fətəli xanın onu sakitləşdirməyə çalışmasına baxmayaraq qraf təhqiramiz hərəkətlər etməkdə davam etmişdi. Xan qeyd edirdi ki, görünür Voynoviç Astrabad körfəzində olarkən də belə qeyri-etik hərəkətlər etdiyi üçün onu oradan qovmuşdular. Fətəli xan II Yekaterinadan konsullardan və göndərdiyi rəsmi şəxslərdən yerli hakimlərlə nəzakətlə davranmağı tələb etməsini xahiş edirdi.[1] Məktubun sonunda Fətəli xan Həştərxanda və Qızlarda Azərbaycan və İrandan olan tacirlərə qarşı özbaşınalıqlar edilməsindən gileylənirdi.

Rusiya qoşunlarının Cənubi Qafqaza gözlənilən yürüşü baş tutmasa da, Azərbaycan ərazisində erməni dövləti yaratmaq xülyasında olan erməni siyasətbazları usanmadan bu yöndə fəaliyyətlərini davam etdirirdilər. 1782-ci ilin dekabrında bu zaman Qızlardan Naxçıvan na Donu şəhərinə gedən arxiyepiskop İ. Arqutinski Georgiyevskə Potyomkinin yanına gəldi və onların arasında söhbətdən sonra Cənubi Qafqaza dair planlar razılaşdırıldı.[2] Dekabrın 21-də P.Potyomkin İ.Arqutinskiyə üç maddədən ibarət yazılı sorğu verdi: uzun müddət dövlətləri olmayan ermənilər “azad qəlblər üçün zəruri olan iradə əzmi”ni saxlamışlarmı?; Ermənilərin çoxu ticarətlə məşğul olduğu üçün, indiki vəziyyətlərini əlverişli sayıb “yaxşı gələcək”dən üstün tutmazlar ki? Potyomkin Qafqazdakı ermənilərin sayı, onların sosial mövqeyi ilə, patriarx və məliklərin erməni əhalisinə nə

---

[1] АВПРИ,ф.77 (СРП),оп.6 (1765-1769 гг.),д.15,л. 140; Грамоты..,т.2,ч.2., с.23

[2] РГВИА, ф. 52 (Потемкины), оп. 1, д. 20, ч. 1, лл. 72-73.

dərəcədə təsirə malik olmaları ilə maraqlanırdı.[1]

P.Potyomkini həm də Tiflisdən, yaxud Dərbənddən hərəkət edərkən yol üzərində hansı şəhərlərin, çayların, göllərin, dağların və meşələrin olması, Tiflisdən Ağrıdağa, İrəvana və başqa yerlərə, yaxud Dərbənddən və Şamaxıdan Ağrıdağa və Naxçıvana qədər möhkəmləndirilmiş qalalar olub-olmaması maraqlandırırdı. O, məxsusi olaraq Qarabağ xanının qalasının harada olduğunu, oraya necə getmək mümkün olduğunu soruşur, bu qala haqqında ətraflı məlumat istəyirdi.[2]

Bir həftə sonra İ.Arqutinski P.Potyomkinin sorğusuna ətraflı cavab verib ermənilərin xristian dininə inamlarını və ruh yüksəkliyini itirmədiklərini, "əsarətdən qurtarmağı çox möhkəm arzuladıqlarını", lakin zülmkarların vahiməsi onları hərəkət etməkdən çəkindirdiyini bildirdi. Öz fikrini təsdiqləmək üçün Arqutinski, Emin Tiflisə gəldikdə ermənilərin onun ətrafına cəmləndiyini söyləyirdi. Yalnız gürcü çarının onu sürgün etməsi (daha doğrusu qovması – T.M.) ona öz planlarını gerçəkləşdirməyə imkan verməmişdir;[3]

Arqutinski Qarabağın dağlıq hissəsindəki beş alban məlikini erməni məlikləri kimi qələmə verərək onların bütövlükdə on min evə malik təbəələrinin olduğunu iddia edir, Tiflis və Dərbənd vasitəsilə Qarabağa gedən yolları təsvir edir və əgər ruslar hər iki yoldan qoşun göndərmək niyyətindədirlərsə, artilleriya və hərbi sursatı Dərbənd yolu ilə göndərməyin yaxşı olacağını bildirirdi. İlk növbədə Dərbəndi tutub Quba xanını həbs etmək lazım gəldiyini, əks halda İranın içərilərinə hərəkət etməyin təhlükəli olduğunu bildirirdi. Çünki dağlı xalqları arxadan ruslara qarşı silah qaldıra bilərdilər. Fətəli xanın and və vədlərinə inanmaq olmaz, çünki o, dəyişkən xasiyyətlidir, xanın məmurlarından,

---

[1] РГАДА, ф. 23 (Госархив), оп. 1, д. 13, ч. 1, лл. 162-164; Арм-русские отношения, т. IV, д. 123, сс. 201-202.

[2] РГАДА, ф. 23 (Госархив), оп. 1, д. 15, ч. 1, лл. 162-164; Арм-русские отношения, т. IV, д. 123, сс. 202-203.

[3] АВПРИ. ф. 100 (СРА), оп 3, д. 414, лл. 155-156; Арм.-русские отношения.., т. IV, д. 125, сс. 204-205.

yaxud uşaqlarından girovlar götürmək lazımdır. Dərbənddən və Şamaxıdan keçməklə hərəkət edilərsə, Gəncədən keçmək lazımdır. Şuşa öz mövqeyinə görə alınmazdır, lakin uzunmüddətli mühasirəyə tab gətirməz. Cənubi Qafqazın kənd təsərrüfatı və təbii sərvətlərini müfəssəl təsvir edən Arqutinski bildirirdi ki, rus ordusunu taxılla təmin etmək o qədər də çətin olmaz. Arxiyepiskop hər vəchlə rusların diqqətini Osmanlı imperiyası ərazisində yaşayan ermənilərə yönəltməyə çalışaraq orada qat-qat çox erməninin yaşadığını vurğulayırdı.[1]

P.Potyomkinin tapşırığı ilə Arqutinski yeni, daha geniş məlumat tərtib etdi. Həmin məlumatda Qarabağ məliklərindən daha geniş bəhs edilir, onlarla İbrahimxəlil xan arasındakı münasibətlər ətraflı təsvir olunurdu. Arqutinski etiraf edirdi ki, məlik Şahnəzər İbrahimxəlil xana sədaqətlidir, ruslar məlik Mirzəxana etibar edə bilməzlər. Dizaqlı məlik İsaqın ölümündən sonra vəziyyət aydın deyil, yalnız məlik Adama və məlik Yusifin oğluna etibar etmək olar. İlk vaxtlar isə yalnız məlik Adamla əlaqə saxlamaq məsləhətdir. Göründüyü kimi, 80-ci illərin əvvəllərinə kimi Qarabağın dağlıq hissəsinin nəinki sadə sakinləri, hətta məliklərin çoxu İbrahimxəlil xana loyal olmuşlar. Yalnız rus hakimiyyət orqanlarının təhrikləri və İ.Arqutinski tipli erməni siyasətbazlarının fitnələri nəticəsində məliklər xana qarşı xəyanət yoluna girmişdilər.

Arqutinski yenə də Osmanlı imperiyasında yaşayan ermənilərlə bağlı sərsəm ideyalarını irəli sürürdü. O, rus ordusunun Ağrıdağa – İrəvana və Eçmiədzinə (Üçmüəzzinə) kimi irəliləyəcəyinə ümid etdiyini bildirir, eyni zamanda bu bölgədə ermənilərin sayının az olduğunu etiraf edirdi. Osmanlı imperiyasında isə daha çox erməninin olduğunu, onların rusları sevdiyini və gəlişlərini arzuladığını yazırdı. Arqutinski həm də qeyd edirdi ki, Osmanlı imperiyasının Cənubi Qafqaza yaxın yerlərində yaşayan bütpərəst yezidi kürdləri hələ 1768-1774-cü

---

[1] РГАДА, ф. 23 (Госархив), оп. 1, д. 13, ч. 1, лл. 162-164; Арм-русские отношения, т. IV, д. 125, сс. 206-207.

illər müharibəsi zamanı Üçmiəzzin katolikosuna məktub yazaraq rusların onları "türk zülmündən azad edəcəklərinə" inamlarını ifadə etmişdilər və indi də həmin kürdlər rusların gəlməsi xəbərini eşitsələr, onlara qoşularlar.[1]

Qeyd edək ki, 1783-cü ildə Arqutinski daha da irəli gedərək "rus-erməni müqaviləsi" layihəsini tərtib edir. 18 maddədən ibarət olan bu mətn əslində təkliflər, tövsiyyələr və "gələcək Ermənistanın siyasi quruluşu haqqında" xülyalar səciyyəsi daşıyırdı. Arqutinski Rusiyadan asılı olacaq bu "dövlət"də erməniləri qorumaq üçün bir rus generalının başçılığı ilə rus qoşun dəstəsinin yerləşdirilməsini təklif edirdi. Bunun əvəzində ermənilər Rusiyaya xərac ödəməli, zərurət yarandıqda lazımi yardım göstərməli idilər. İmperatriçə ermənilərin içərisindən, yaxud öz yaxın adamlarından birini bu dövlətin taxtına oturda bilər. Kimin erməni çarı olmasından asılı olmayaraq dövlətin paytaxtı Vaqarşapat, yaxud Ani, ya da Ağrı vadisindəki hər hansı şəhər ola bilər. Arqutinski daha da irəli gedərək yazırdı ki, Xəzər dənizində "Ermənistan"ın sərəncamına bir şəhər verilməlidir. Sonda Arqutinski Q.Potyomkinin erməni xalqının xeyirxahı və himayəçisi olmasından dolayı erməni xalqı ilə imperatriçə arasında vasitəçi kimi çıxış etməsini arzulayırdı.[2]

Cənubi Qafqazdakı niyyətlərini həyata keçirmək üçün rus hökuməti müxtəlif şəxslərdən istifadə edirdi. Belə şəxslərdən biri də milliyyətcə alman, ixtisasca həkim Yakov Reyneqs olmuşdur. O, əvvəlcə İstanbulda olmuş, sonra Kartli-Kaxeti çarı II İraklinin dəvəti ilə Tiflisə gəlmişdi. Reyneqs çarın xəstə oğlu Georgini müalicə etmiş, Gürcüstanda metallurgiyanın inkişafında, barıt zavodu və bir sıra digər müəssisələrin inşasında mühüm xidmətlər göstərmişdi. Üç il Gürcüstanda qalan Reyneqs İraklidən hansısa bir xahiş etmiş, xahişi təmin olunmadıqda isə Gürcüstanı tərk etmişdi.[3]

---

[1] РГАДА, ф. 23 (Госархив), оп. 1, д. 13, ч. 2, лл. 162-164 об.

[2] Ашот Иоаннисян. Россия и армянское..., с. 47-49.

[3]Ашот Иоаннисян. Россия и армянское..,с. 52.

1781-ci ilin iyulunda Rusiyaya gələn Reyneqs Mozdokda o zaman Qafqaz xəttindəki rus qoşunlarının komandanı Fabrisianla tanış olur, sonuncu onu Peterburqa gətirərək knyaz Potyomkinə təqdim edir. Potyomkin Şərq dillərini bilən və uzun müddət Qafqazda yaşamış bu ağıllı və fərasətli adamdan istifadə etmək qərarına gəlir. Polkovnik rütbəsi verilən Reyneqs bir il sonra – 1782-ci ildə yenidən, bu dəfə artıq Rusiya emissarı kimi Gürcüstana qayıdır.[1]

1782-ci ilin dekabrında II İrakli Q.Potyomkinə polkovnik Reyneqsin onun sarayına gəldiyini və məmnunluqla qəbul edildiyini yazırdı.[2] Qısa müddət Tiflisdə qalan Reyneqs dekabrın 26-da 60 nəfərlik mühafizə dəstəsinin müşaiyəti ilə erməni katolikosu Qukas Karnetsi ilə görüşmək üçün Üçmuəzzinə yola düşür,[3] oradan da guya "ticarət işlərini qaydaya salmaqdan ötrü gəldiyini" izah etmək üçün İrəvana Hüseynəli xanın yanına gedir. Xan onu, təmtəraqla qəbul etsə də, daxili bir inamsızlıq nümayiş etdirdi. Yalnız Reyneqsin söhbətindən sonra onun şübhələri dağıldı və hətta İrəvan qalasının planını çəkməyə icazə verdi.[4]

Reyneqs knyaz Potyomkinə göndərdiyi məktubda İrəvan vilayətini təsvir edərək onun çox zəngin olduğunu, xanın ildə yarım milyon manata kimi gəlir götürdüyünü qeyd edirdi.[5] O, eyni zamanda bölgəyə üç yol olduğunu yazırdı: birinci yol – Qafqaz dağlarından keçən yol qısa, lakin çətin idi, ikinci yol – Qara dənizdən İberiyaya olan əlverişlidir, lakin çox vaxt tələb olunur; üçüncü yol Xəzər dənizindən keçməklə iki qola ayrılır – 1) Həştərxandan Kür çayının mənsəbinədək, sonra da çayla üzü

---

[1] Yenə orada,s. 52.

[2] Грамоты и другие исторические документы XVIII столетия относящиеся к Грузии. т. 2, вып. 2, Тифлис, 1902, с. 26; РГВИА, ф. 52 (Потемкины), оп. 1, д. 32, лл. 99-100.

[3] РГВИА, ф. 52, оп. 2, д. 90, л. 3.

[4] РГВИА, ф. 52, оп. 1, д. 90, лл. 3-7 об; А. Иоаннисян. Россия и арм., с. 55.

[5] РГВИА, ф. 52, оп. 1, д. 90, лл. 3-7 об; Арм-русск. отношения, т. IV, д. 132, с. 215; А.Иоаннисян. Россия и арм., с. 56.

yuxarı; 2) Qızlardan keçən quru yolu.[1]

Tiflisə qayıdan Reyneqs özü ilə Üçmüəzzin katolikosu Karnetsinin knyaz Potyomkinə məktubunu da aparmışdı. Katolikos knyazın məktubunu aldığını yazaraq, “bədbəxt” erməni xalqına göstərdiyi qayğıya görə minnətdarlığını bildirirdi. Güman edilir ki, Reyneqs özü ilə Qanzasarda iqamət edən alban katolikosu Ovanesin (İohan) və Qarabağ məliklərinin məktublarını da aparmışdı. Erməni tarixçisi A.İoannisyanın da etiraf etdiyi kimi, əslində bu məktublar Qarabağda yazılmamış, Üçmüəzzində məlik Adam tərəfindən tərtib olunmuşdu, yəni saxta idilər. Məliklər, yepiskoplar, keşişlər, yüzbaşılar təbəələr adından onları imperatriçənin himayəsi altına almaq xahiş olunurdu.[2]

Tiflisə qayıtdıqdan sonra Reyneqs Üçmüəzzinə səfəri haqqında hesabatla yanaşı knyaz Potyomkinə digər bir məktub yazıb burada Cənubi Qafqazdakı siyasi durumun ümumi səciyyəsini də vermişdi.[3] Cənubi Qafqazdakı şəraiti Rusiya üçün çox əlverişli sayan Reyneqsin sözünə görə, Kartli-Kaxeti çarı II İrakli Rusiya vassallığını qəbul etməkdə israrlı idi. Reyneqsə görə, gürcülərin və ermənilərin Rusiyaya bağlılığı o qədər güclü idi ki, onlara saqqallarını qırxmaq əmr olunsa belə, bunu edərdilər. O, II İraklinin Rusiya ilə ittifaqa can atdığını,Tiflisdə iki alay qoşun saxlamağın faydalı olacağını düşünürdü.[4]

Reyneqs, Cənubi Qafqazdakı bütün xanlar Rusiyadan qorxduğuna, osmanlılar zəif, paşalar arasında didişmələr getdiyinə, gürcülər və aysorlar osmanlı hakimiyyətindən narazı olduqlarına görə rus qoşunlarının bu regionda asanlıqla uğur qazana biləcəyinə əminliyini ifadə edirdi. Onun yazdığına görə, Aderbiqanın (Azərbaycanın – T.M.) müqəddəratı rus

---

[1] Yenə orada, v. 7 və a.ü.

[2] РГВИА, ф. 52 (Потемкины), оп. 1, д. 90, лл. 3-7 об; Иоаннисян А. Россия и арм., с. 56.

[3] РГВИА, ф. 52 (Потемкины), оп. 1, д. 90, лл. 3-7 об; Арм-русск. отношения, т. IV, д. 132, сс. 216-217.

[4] РГВИА,ф.52,оп.1, д. 90, л.6

qoşunlarının İraklinin yardımına gəlməsindən asılı idi. Reyneqsin fikrincə, Gürcüstana rus əsgərləri gələrdisə, məliklərin sözü ilə təkcə Qarabağ və Qaradağ xanlıqlarından 30 min xristian ailəsi iki gündə "müsəlmanların əsarəti"ni devirərdilər.[1]

Y. Reyneqs Üçmüəzzində danışıqlar apardığı bir zamanda general P.Potyomkin də öz casusları – Qabriel Qaraxanovu və Mkrtıç Qekasovu Qarabağa göndərib məliklərlə və Qanzasar alban katolikosu ilə əlaqə yaratmağa səy göstərdi. Casuslar məlikləri ümidləndirməli, Azərbaycandakı vəziyyət haqqında ətraflı məlumat toplamalı idilər.[2] P.Potyomkin, casusu osmanlılar tərəfindən tutularsa, özünün ifşa olunmaması üçün məliklərə və alban katolikosuna məktubları bu zaman Georgiyevskə gəlmiş İ. Arqutinskinin adından yazmışdı. Məktublarda 1783-cü ildə hökmən rusların Azərbaycan xanlıqlarına hücumunun başlanacağı bildirilir, yerli xristianların Potyomkinin gəlişini gözləməli olduğu qeyd edilirdi.

Katolikos Ovanes general Potyomkindən məktub gəldiyini eşidincə məlikləri də baş məbədə topladı və onlar ruslara canla-başla xidmət etmək barədə and içdilər. Alban katolikosu 22 yanvar 1783-cü il tarixli məktubunda özünün və Qarabağın beş məliyinin adından Rusiya himayəsini arzuladıqlarını bəyan edirdi.[3]

1783-cü ilin mart ayında Rusiyaya qayıdan Potyomkinin casusları[4] məliklərin və Alban katolikosu Ovanesin məktublarını da P.Potyomkinə və İ.Arqutinskiyə çatdırdılar. Katolikos və qardaşları, bir neçə yepiskop və məliklər – Adam, Abov, Danil və İsrail tərəfindən 5 mart 1783-cü ildə imzalanan məktubda onların rus generalının 12 min nəfərlik qoşunla Qarabağa səfərə çıxmaq niyyətindən xəbər tutub çox sevindikləri və bu qoşunu lazımi ərzaq, ot-alafla təmin edəcəklərinə dair vəd verdikləri deyilirdi. Məktub müəlliflərinin fikrincə, müsəlmanlarda lazımi qorxunu yaratmaq üçün Potyomkin Qarabağa

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 90, лл. 6-7 об.

[2] РГАДА, ф. 23 (Госархив), оп. 1, д. 13, ч. 5, лл. 151-152.

[3] РГВИА, ф. 52, оп. 1, д. 270, лл. 89-90; Арм.-русск. отн. т. IV, д. 128, с. 209.

[4] Иоаннисян А. Росс. и армянское.., с. 61.

daha böyük – 30 minlik ordu ilə gəlməli idi.[1] 1783-cü ilin aprelində general Potyomkinə çox ehtiyatlı şəkildə məktub yazan Üçmüəzzin katolikosu Q.Karnetsi rahib olduğu üçün "heç nədən başı çıxmadığını" bildirərək generala lazımi məlumatları verməkdən imtina etmiş, yalnız ümumi sözlərlə ruslara sədaqətini və rəğbətini izhar etməklə kifayətlənmişdi. Lakin Arqutinskinin göstərişi ilə bu zaman rus xidmətində olan erməni M.Vahanov məktubu ruscaya çevirən zaman Qukasın dumanlı ifadələrini "bütün erməni xalqının qalibiyyətli rus qoşunlarını gözlədiyi" ifadəsi ilə əvəzləmişdi.[2]

Qeyd edək ki, Cənubi Qafqazda özündən asılı yeni oyuncaq xristian dövləti yaratmağa çalışan Rusiya həm də Fətəli xanın gücünün artmasında özünün Azərbaycana dair işğalçılıq niyyətlərinin gerçəkləşməsinə maneə gördüyünə görə hər vəchlə onun təsirinin məhdudlaşdırılmasına çalışırdı. Rus hökuməti Fətəli xana alternativ kimi devrilmiş Krım xanı Şahin Gərayı irəli sürürdü. 1783-cü il martın 28-də vitse-kanslerin Xarici İşlər kollegiyası üzvləri ilə növbəti müşavirəsində başqa məsələlərlə yanaşı Şahin Gərayın İrana göndərilib hökmranlığa təyin olunması məsələsi və onun idarə edəcəyi dövlətin sərhədləri də müzakirə olunmuşdu. Kollegiya hesab edirdi ki, "İran ərazisi" Şahın Gərayın əvvəllər idarə etdiyi ərazidən çox genişdir, buna görə də ona bütün İran ərazisi yox, yalnız bir hissəsi verilməlidir.[3]

Müşavirənin protokolunda Qafqazdakı rus siyasətinin məqsədləri də əksini tapmışdı: "Xəzər dənizinə yiyələnmək", "gürcülər və

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 13, ч. 3, л. 74; Арм.-русск. отн. т. IV, д. 139, сс. 227-229.

[2] Иоаннисян А. Росс. и армянские.., сс. 66-67.

[3] АВПРИ, ф. 5 (Секретные мнения иностранной коллегии), д. 580, лл. 115-119.

ermənilərlə ittifaq”. [1] Rusiya hökuməti İbrahimxəlil xanı devirmək niyyətində daha israrlı idi. Aprelin 4-ü və 6-da Q.Potyomkin P.Potyomkinə daha iki göstəriş göndərdi. Birinci göstərişdə P.Potyomkinə İbrahimxəlil xanı devirmək, Dərbəndi zəbt etmək əmr olunurdu. Dərbəndi zəbt etmək üçün 4 taborun və lazımi sayda artilleriyanın kifayət edəcəyi qeyd olunurdu.[2] İkinci göstərişdə qarşıdakı yürüş üçün nəzərdə tutulmuş 100 min əşrəfidən (çervondan) 59 min holland əşrəfisinin bir mayorun müşaiyəti ilə göndərildiyi deyilirdi. P.Potyomkin bu pulu alıb gələcəkdə lazım olan xərclər üçün saxlamalı idi. Əlavə olaraq kəllər və arabalar almaq üçün 10 min rubl da göndərilirdi.[3] Aprelin 10-da kansler Bezborodko şəxsən özü P. Potyomkinə bundan belə generalın şücaətləri barədə xəbərlər gözləyəcəyini yazırdı.[4]

Bu dövrdə rus hakimiyyət dairələrində Cənubi Qafqazın bəzi vilayətlərini tutmaq və burada oyuncaq xristian dövləti yaratmaq məsələsinin müzakirəsi davam edirdi.[5] Statssekretar (dövlət katibi) A.P.Xrapovitski öz memuarlarında yazırdı: “…mən sandıqda knyaz Potyomkin Tavriçeskinin İrandakı hərc-mərclikdən istifadə edərək Bakı və Dərbəndi tutub, Gilanı birləşdirməklə böyük knyaz Konstantin Pavloviçə çatmaq üçün Albaniya adlandırılacaq dövlət yaratmaq haqqında məxfi

---

[1] АВПРИ, ф. 5, д. 580, в. 116-117.

[2] РГВИА, ф. 52, оп. 2, д. 32, л. 1 и об., д. 90, л. 8 и об.; ПФАРАН, ф. 99, оп. 2, д. 14, лл. 29-30.; Армяно-русск. отн., т. 4, д. 146, с. 239.

[3] Архив Ин-та истории, Петербургского филиала РАН, ф. 36 (Воронцовы), д. 583, ч. 1, л. 149 и об.

[4] Русский Архив, 1879, кн. 2, с. 429.

[5] АВПРИ, ф. 5 (Секретные мнения иностранной коллегии), д. 582, лл. 103-106; Гаси Абдуллаев. Из истории…, с. 125.

layihəsini tapdım".[1] Qarabağ və Qaradağ xanlıqlarının ərazisini də bu yaradılacaq dövlətin tərkibinə qatmaq nəzərdə tutulurdu. Rus qoşunlarının cənuba yürüşü 1783-cü ilin yazına nəzərdə tutulmuşdu. Rus qoşunları həm Xəzər dənizinin qərb sahili ilə Dərbənddən Ənzəliyə, həm də Gürcüstan tərəfdən Qarabağ, Qaradağ və İrəvan xanlıqlarına yeriməli idi. Planın həyata keçirilməsi Qafqaz xəttindəki rus qoşunlarının komandanı general P.Potyomkinə həvalə olunmuşdu.[2]

Knyaz Potyomkin 1783-cü il mayın 19-da imperatriçəyə P.Potyomkinin ona əlverişli məqamda İbrahimxəlil xanı devirmək, onun hakimiyyəti altında olan xristianları hakimiyyətə gətirmək, bununla imperatriçənin knyaz Potyomkin vasitəsilə məliklərə verdiyi vədə uyğun olaraq Asiyada, xristian dövlətini bərpa etmək mümkün olacağını təklif etdiyini yazırdı. [3] Q.Potyomkin P.Potyomkinə qonşu hakimlərdən, eləcə də İbrahimxəlil xandan Fətəli xana qarşı istifadə etmək, Dərbəndi rus dəstələri ilə tutmaq barədə göstəriş verdiyini qeyd edirdi.[4]

Elə həmin gün P.Potyomkinə məxfi order göndərən knyaz Potyomkin 6 aprel tarixli göstərişini təsdiqləyərək Fətəli xanın özünü tutmağı əmr etdi. Bu məqsəd üçün digər xanların Fətəli xana qarşı olan düşmənçiliyindən istifadə edib, Fətəli xana zərbə endirməyə yönəltmək lazım idi. P.Potyomkin hələlik İbrahimxəlil xanın devrilməsi fikrindən əl çəkərək ondan da Fətəli xana qarşı mübarizədə istifadə olunmasını təklif edirdi.[5]

Fətəli xanın gürcü şahzadəsi Aleksandra gürcü taxtına yiyələnməkdə yardım göstərmək niyyətindən xəbər tutan general Potyomkin buna mane olmaq üçün 1783-cü ilin payızında iki

---

[1] Памятные записки А.П.Храповцикого. Чтения в императорском обществе истории древностей Российских при Московском Универстете, кн. 2, Москва, 1872, с. 37. Гаси Абдуллаев. Из истории, с. 125.

[2] Русский Архив, кн. 2, 1879, с. 429.

[3] ПФАРАН, ф. 99, оп.2, д. 42, л. 30.

[4] ПФАРАН, ф. 99, оп.2, д. 42, л. 30.; РГВИА, ф.52, оп.2, д.32, л.1, и об

[5] РГАДА, ф. 23, оп.1ч. 4, лл. 26-27.

kifayət qədər güclü hərbi dəstə təşkil etməyə başladı. Bir dəstə Sulak çayının sahilində, keçmiş Svyatoy Krest qalasının yaxınlığında, digər dəstə isə, Terek çayı sahilində Daryal dərəsinin girəcəyində durmalı idi. Əgər Fətəli xan və şahzadə Aleksandrın tərəfdarı knyaz Amilaxvari öz niyyətlərini gerçəkləşdirməyə başlardılarsa, birinci dəstə Dərbəndə doğru, ikincisi isə Gürcüstana doğru irəliləməli idi.[1]

P.Potyomkin qarşıya qoyulan vəzifəni yerinə yetirmək üçün 4 tabor və lazımi qədər artilleriya və məsləhət gördüyü sayda süvari ilə Dərbəndi zəbt etməli idi. Xəzər donanması da general Potyomkinin sərəncamına verilirdu. Donanma Həştərxandan Dərbəndə sursat daşımalı idi. Potyomkin Dərbənddə Fətəli xanı, və gürcü şahzadəsi Aleksandrı ələ keçirərdisə, onları Həştərxana göndərməli idi.[2] Qarşıdakı yürüşə diplomatik hazırlıq görmək və əlverişli zəmin yaradılması məqsədilə P.Potyomkin aprelin 12-də bu zaman Tiflisdə olan Y.Reyneqsə fars dilində yazılmış məktub göndərdi. Reyneqsin Azərbaycan xanları arasında yaymalı olduğu bu məktubda xanlar arasındakı toqquşmaların acı nəticələri tünd boyalarla təsvir olunurdu:"İran, qanda üzərək bərəkətli məskən yerinə biabırçı hala düşmüşdür, meyidlərlə örtülmüş, əkinlər atılmış, münbit tarlalar səhraya döndərilmiş, şəhərlərin sərvəti talan olunmuş, tacirlər qarət edilmiş, zülm və qisasdan qaçan təbəələr və əkinçilər rifah ziyasının onların üzərinə düşəcəyindən əlini üzərək əvvəllər çiçəklənməkdə olan torpağı göz yaşları ilə suvarırlar".[3]

Reyneqs Azərbaycan xanlarına, ilk növbədə İrəvan, Təbriz və Xoy xanlarına ara mübarizəsini dayandırıb sakit dayanmalarını, bununla Rusiyanın himayəsinə nail ola biləcəklərini təlqin etməli idi.[4]

Xanlara ünvanlanmış bu məktub yalnız Azərbaycan

---

[1] Вадим Левиатов. Göst. əsəri, s. 143.

[2] ПФАРАН, ф. 99, оп. 2, д. 42, л. 2 и об.

[3] РГАДА, ф. 23, оп. 1, д. 13. ч. 5, лл. 62-63.

[4] Yenə orada,v. 62-63.

xanlarında vahimə yaradıb onları himayə üçün Rusiyaya müraciətə vadar etmək deyil, həm də onları Osmanlı dövləti ilə yaxınlaşmaqdan çəkindirmək məqsədi də güdürdü. Çünki bu dövrdə rus hakimiyyət orqanlarına İbrahimxəlil xanın və Fətəli xanın Rusiya təcavüzünə qarşı birgə mübarizə aparmaq üçün osmanlı paşaları ilə danışıqlar aparmaları haqqında xəbərlər çatmaqda idi.[1]

Rusiyanın Cənubi Qafqaza yürüş təşkil etmək fikri bəzi erməni xadimlərində böyük ümidlər yaratmışdı.1783-cü il iyulun 5-də alban patriarxı İohan (Qvanes), iki yepiskop və bir neçə məlik P.Potyomkinə rus ordusu bölgəyə yürüş edərsə, lazımi ərzaq və sursatla onu havayı təmin etməyə hazır olduqlarını yazırdı.[2]

Potyomkin Qarabağdakı vəziyyəti, eləcə də nəzərdə tutulan yürüşlə bağlı vəziyyəti müzakirə etmək üçün Qarabağ xristianlarından bir nəfər səlahiyyətli şəxsi göndərmələrini tələb etmişdi. Lakin P.Potyomkinin məktubu alındığı zaman məlik Adam ölübmüş və onun dəfninə ətraf yerlərdən çox adam, o cümlədən İbrahimxəlil xanın oğlu 200 adlı-sanlı şəxslə toplandığından katolikos, digər ruhanilər və məliklər belə şəraitdə kimisə generalın qərargahına göndərməyi təhlükəli saymış və buna görə də məktub göndərməklə kifayətlənmişdilər.[3]

General P.Potyomkin knyaz Q.Potyomkindən 1784-cü ilin yanvarında Qarabağ və Qaradağda müstəqil dövlət qurulandan sonra burada hansı formada hökumət qurulmalı olduğunu, yoxsa o, öz mülahizəsi ilə hərəkət etməlidir?- deyə soruşurdu; İrəvan xanlığı "Ermənistan"ın bir hissəsi sayılmalı, yaxud İrakliyə tabe olmalıdırmı? Şuşalı İbrahim xana və qubalı Fətəli xana indi nəvaziş göstərmək lazımdır ki, sonra onları ələ almaq asan olsun, onların hər ikisi, yaxud biri ələ keçirildiyi təqdirdə, onları hara göndərməli. Bunun xalqın narazılığı əsasında edildiyinin bəyan

[1] РГАДА, ф. 23, оп. 1, д. 13. ч. 5, лл. 63-64.
[2] РГАДА, ф. 23, оп. 1, д. 13. ч. 3, лл. 319-320.
[3] Yenə orada,v.a.ü., 329 və a.ü.

olunmasına icazə veriləcəkmi?[1] Knyaz Q.Potyomkin qraf. Bezborodkaya yazırdı ki, onun fikrincə, Rusiya yalnız Bakıya qədər olan yerləri tutmalı, Qarabağ və Qaradağ isə II İraklinin mülklərinə birləşdirilməlidir.[2]

Eyni zamanda ruslar 1783-cü ildən Şimali Qafqazdan Gürcüstana gedən yolu düzəltməyə başladılar. 1784-cü ilin yazında bu yolun başlanğıcında Vladikavkaz (mənası "Qafqaza yiyələn") rəmzi adı verilən qala inşa olundu.[3]

Cənubi Qafqazı, ilk növbədə Azərbaycanı zəbt etməyi qarşısına məqsəd qoymuş rus hökuməti bölgədəki vəziyyəti öyrənməyə xüsusi diqqət yetirirdi. Təsadüfi deyildi ki, bir neçə il Rusiyanın Gürcüstandakı nümayəndəsi olmuş polkovnik S.D.Burnaşev 1786-cı ildə Tiflisdə yazdığı və 1793-cü ildə Kurskda nəşr olunmuş məlum əsərində Azərbaycan xanları və onların qüvvələri haqqında məlumat verirdi. Burnaşev bütün müstəqil Azərbaycan xanlarının Rusiyaya qorxu ilə yanaşdıqlarını və buna görə də osmanlılarla ittifaqa meyil etdiklərini yazırdı.[4]

### VI.4. Osmanlı dövlətinin Qafqazda Rusiya ekspansiyasına qarşı birlik təşkil etmək cəhdləri.

1783-cü ildə Rusiya ilə Kartl-Kaxeti çarlığı arasında Georgiyevsk traktatının imzalanması Osmanlı hökumətində böyük narahatlıq doğurdu. Çıldır valisi Süleyman paşa saraya göndərdiyi məktubunda gürcü çarı ilə rus hökuməti arasında on

---

[1] РГАДА, ф. 23, оп. 1, д. 13. ч. 8, лл. 417 и об.

[2] АВПРИ,ф.5 (Секретные мнения Коллегии иностранных дел),оп.1, д.582(1783-1787 гг.), л.104

[3] Вадим Левиатов. A.k. əsəri,s.143.

[4] Степан Д.Бурнашев. Описание областей Адрибежанских в Персии и их политического состояния. Курск, 1793 с.5; См также: Россия и азербайджанские ханства во второй половине -нач. веков(Сборник документов).т. 2(1776-1800гг.).Составитель, автор транслитерации и примечаний д. и. н.,проф., заслуженный деятель Азербайджана Т. Т. Мустафазаде.Баку:2020,с.205.

üç maddəlik bir anlaşma imzalandığına görə Azərbaycan və Dağıstan hakimlərinin son dərəcə narahat olduqlarını yazaraq onlara təsəlli vermək məqsədilə elçilər göndərilməyin zəruriliyini vurğulayır, əks təqdirdə bölgədə vəziyyətin osmanlılar üçün xoşagəlməz hal alacağını yazırdı.[1]

Bəyazid mütəssərifi İshaq paşa 8 noyabr 1783-cü il tarixli təhrirində gürcü çarının Azərbaycan xanlarının yanına adamlar göndərdiyini və tabe olmalarını tələb etdiyini, tabe olmazlarsa, rus dövlətinin 40 minlik ordu və toplarla onlara hücum edəcəyi ilə hədələdiyini yazmışdı.[2]

Süleyman paşa 31 dekabr 1783-cü il tarixli təhrirində Şimali Qafqazdakı rus ordusundan 3 min döyüşçünün artıq Ananur yolu ilə Gürcüstana gəldiyini hələ bundan əvvəl xəbər verdiyini qeyd edərək, Rusiyadan 80 top və külli miqdarda silah gətirildiyini də yazırdı. O, yazda daha 3,5 min rus əsgərinin Kartli-Kaxetiyə, 12 min əsgərin isə Açıqbaş (İmereti) hakimi Solomonun yanına gələcəyini, bununla da Osmanlı sərhədləri üçün təhlükə yaranacağını yazırdı.[3]

Rusiyanın Kartli-Kaxeti çarlığını öz himayəsi altına almasına Osmanlı hökuməti bütün Azərbaycan xanlarını və Dağıstan hakimlərini Rusiyaya qarşı birləşməyə, Rusiyanı Türkiyəyə və Cənubi Qafqaza buraxmamağa, Qafqaz dağlarından keçən yolu dağıtmağa çağırmaqla cavab verdi. Kartli-Kaxeti ilə həmsərhəd paşalıqlarda qoşunlar döyüş vəziyyətinə gətirildi. Axısxa, Ərzurum, Qars və Bəyazid paşaları İrəvan və digər Azərbaycan xanlıqları ilə əlaqə yaradaraq, onları Rusiyanın əlaltısı İrakliyə qarşı birgə çıxış etməyə çağırırdılar.[4]

Ənzəlidəki rus konsulu Tumanovski həştərxanlı tacir, milliyyətcə erməni olan Vasili Abramovun məlumatına əsaslanaraq Həştərxan qubernatoru Jukova Ərzurum və

---

[1] BOA, Hattı- Humayun,nr.110.Mehmet Ali Çakmak.Cöst.əsəri,s.133

[2] BOA, Hatt-ı Humayun, nr. 437; Belgeler, II c., nr. 19, s. 78-79. Kafkas araştırmaları. I, s. 92.

[3] BOA, Hatt-ı Humayun, nr. 448.

[4] РГВИА, ф. 52, оп. 1, д. 331, ч. 1, лл. 27-28.

Bəyaziddə böyük miqdarda qoşun toplandığını, bu qoşunların sərkərdəsinin Azərbaycan xanları ilə əlaqədə olduğunu, onları Osmanlı dövlətinə hərbi yardım göstərməyə çağırdığını, hərbi qulluğa daxil olacaq hər bir şəxsə ildə 200 rubl veriləcəyinin vəd olunduğunu yazırdı.[1] 1783-cü ilin payızında Xəlil əfəndinin başçılığı ilə Qafqaza göndərilən Osmanlı nümayəndə heyətinin məqsədi Azərbaycan və Dağıstan hakimləri ilə Rusiyaya və Kartli-Kaxetiyə qarşı hərbi ittifaq bağlamaq idi.[2] Şirvan və Qarabağda olduqdan sonra Xəlil əfəndi İrəvana getdi. Sonra isə yenidən Qarabağa, İbrahimxəlil xanın yanına gəlib Şuşada öz qərargahını qurdu. II İraklinin qubalı Fətəli xanın yanına göndərdiyi Mirzə Qurgen Mixaylo adlı birisi geri döndükdən sonra bildirmişdi ki, o, xanın yanında olarkən, Süleyman paşanın nümayəndəsi məktub və hədiyyələrlə gəlibmiş. Fətəli xan Qurgendən ehtiyat edərək məktub və hədiyyələri gizli şəkildə alıbmış. Qurgenin sözünə görə, Süleyman paşa 3 min əşrəfi pul, xəz kürk və saat göndərmişdi.[3]

II İraklinin digər nümayəndəsi Andronnikov 1784-cü ilin aprelində çara yazırdı ki, Xəlil əfəndi Şirvan və Dağıstanda olmuş, indi isə Şuşaya gəlmiş, tezliklə İrəvan yolu ilə Türkiyəyə qayıdacaqdır.[4] Qeyd edək ki, tarixi məlumatlara görə, 1784-cü ilin yanvarında Şuşaya 8 min döyüşçü toplanmışdı.[5] Xunzax hakiminin oğlu, Qaytaq usmisinin qardaşı oğlu, canqutaylı Əli Sultan, Çeçenistanın bir neçə hakimi bura gəlmişdi. Polk kvartirmeysteri Mixail Markov yazırdı ki, bu qoşunlar İbrahimxəlil xanın rəqibi Hacı xana qarşı mübarizə adı ilə toplanır, əslində isə onları Osmanlı sərhədinə göndərmək nəzərdə tutulur.

Yakovlev adlı casus Ənzəlidəki Rusiya konsulu Skiliççiyə

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 330, л. 3.

[2] РГВИА, ф. 52, оп. 1, д. 331, ч. 1, л. 31 и об., ч. 11, л. 68 и об.; Ольга Маркова. Göst. əsəri, s. 203.

[3] РГАДА, ф. 15, оп. 1, д. 17, лл. 37 об.-38.

[4] РГВИА, ф. 52, оп. 1, д. 331, ч. 4, л. 11.

[5] РГВИА, ф. 52, оп. 1, д. 331, ч. 1, л. 79-80.

keçən il qubalı Fətəli xan, xoylu Əhməd xan və başqa Azərbaycan xanlarından, habelə Dağıstan hakimlərindən cəmi 17 nəfərin Sultan sarayına öz nümayəndələrini göndərdiklərini eşitdiyi barədə məlumat vermişdi. Nümayəndələr Osmanlı hökumətinə Rusiyanın Qafqazda yeni xristian dövləti yaratmaq niyyətini pozmaq üçün Azərbaycan və Dağıstan hakimlərinin kifayət qədər gücləri olduğunu, lakin maliyyə imkanlarının məhdud olduğunu yazırdılar.[1]

Lakin, Rusiyanın əks-tədbirləri nəticəsində Xəlil əfəndi Azərbaycan və Dağıstan hakimlərinin Rusiyaya və Kartli-Kaxetiyə qarşı birgə mübarizəsini təşkil edə bilmədi. General P.Potyomkin 1784-cü ilin setyabrında tələsik Tiflisə gəlmişdi.[2] Rus hökuməti Azərbaycan xanlarının yanına elçilər və hədiyyələr göndərməklə yanaşı, həm də xanların Gürcüstanla münasibətlərini nizamlamalarını tələb etmişdi.[3] Xəlil əfəndi Azərbaycan və Dağıstan hakimlərinin Rusiyaya və onun əlaltısı II İrakliyə qarşı birgə çıxışını təşkil edə bilməsə də, onun səfəri tamamilə nəticəsiz qalmadı. İrəlidə də qeyd olunduğu kimi bir sıra xanlar yardım üçün sultana müraciət etdilər. 1784-cü ilin aprelində İstanbula dönən Xəlil əfəndi Azərbaycan və Dağıstan hakimlərinin yardım haqqında çağrışlarını Sultana çatdırdı. Yardım xahişi edənlərin arasında qubalı Fətəli xan da vardı.[4]

## VI.5. Qubalı Fətəli xanın Azərbaycanın cənubunu birləşdirmək cəhdinə Rusiyanın müqaviməti.

Fətəli xan 1783-cü ildə P.Potyomkinə yazdığı məktubunda Nadir şahın oğlu Rzaqulu Mirzə Səbzəvarda şah II Təhmasibi ailə üzvləri ilə birlikdə qətlə yetirərkən bir xeyirxah kəndxudanın Təhmasibin oğlu Abbas Mirzəni xilas etdiyini, bu şəxsin Nadirin və Kərim xanın hakimiyyəti dövründə müxtəlif yerlərdə

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 331, ч. 4, л. 51.

[2] Ольга П. Маркова. Göst. əsəri, s. 201.

[3] Fuad Əliyev, Məhəmməd Əliyev. Naxçıvan xanlığı, Bakı, 1996, s. 58.

[4] РГВИА, ф. 52, оп. 1, д. 331, ч. 6, л. 8; д. 350, ч. 5, лл. 24-25; д. 331, ч. 7, л. 74 и об.; Ольга Маркова. Göst. əsəri, s. 207.

gizləndiyini yazırdı. İndi o, xanların taxtda Səfəvi nəslindən olan bir şəxsi görmək arzularından xəbər tutub Salyana gəlmişdir. Fətəli xan bu günlərdə Ərdəbilə gedəcəyini, digər xanların da buraya gəlib "Abbas Mirzə"yə sədaqət andı içəcəklərini yazmışdı.[1]

Əslində Fətəli xan Abbas Mirzə adlı qondarma şahzadədən öz siyasi məqsədlərini gerçəkləşdirmək üçün istifadə etmək niyyətində idi və bu səbəbdən onu həqiqi vəliəhd kimi qəbul etmişdi.

İbrahimxəlil xan da 1784-cü ilin yanvarında Süleyman paşaya ötən il bir nəfərin Urmiyada zühur edərək yalandan özünün Səfəvi şahzadəsi olduğunu bəyan etdiyini, lakin tərəfdar tapmadığından qaçıb Ərdəbilə getdiyini, burada xəstələnib tam sağalmamış Quba xanlığı tərəfə geçdiyini yazmışdı. Xoylu Əhməd xan həmin şəxsin Fətəli xanın yanında olduğunu yazırdı.[2] İbrahimxəlil xan "Abbas MİrzƏ"nin Fətəli xana yazdığı məktubu ələ keçirərək P. Potyomkinə göndərmişdi. Məktubda qondarma şahzadə Məşhəddən Yəzdə gəldiyini, Əlimurad xan bu şəhərə hücum edərkən orada olduğunu, sonra isə Salyana gəldiyini yazırdı.[3] Lakin rus hökuməti Fətəli xanın planına öz münasibətini dərhal bildirmədi.

Fətəli xan bu şəxsi şah taxtına oturtmaq, bu yolla nəinki bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirmək, hətta İrana öz təsirini yaymaq istəyirdi. Buna görə də Fətəli xan qonşu böyük dövlətlərin – Rusiyanın və Osmanlı imperiyasının dəstəyinə nail olmaq istəyirdi. Xan Rusiyanın dəstəyinə nail olmaq üçün öz elçisi Mirzə Sadıq Məmmədvəliyevi Peterburq sarayına göndərmişdi. [4] Mirzə Sadıq bildirirdi ki, əgər rus hökuməti Fətəli xanın yardımına bir-iki alay əsgər göndərərsə, xan bütün İranı, hətta Hindistan sərhədlərinə kimi tuta bilər.[5]

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 286, ч. 1, л. 49 и об.
[2] Гаси Абдуллаев. Из истории…, с. 122.
[3] РГАДА, ф. 15, оп. 1, д. 192, л.99, РГВИА, ф. 52, оп. 1, д. 286, ч. 1, л. 61.
[4] Петр Г. Бутков. Göst. əsəri. II his., s. 140.
[5] РГВИА, ф. 52, оп. 2, д. 32, л. 138 и об.

Yəqin ki, Fətəli xan Ağa Məhəmməd xan Qacar, və ya Əlimurad xan Zənd şah taxtına yiyələndiyi təqdirdə, ona Cənubi Azərbaycan torpaqlarını birləşdirməyə imkan verməyəcəklərini anlayırdı. Buna görə də o, "Abbas Mirzə"ni taxta oturtmaqla ölkənin cənubunu birləşdirmək vəzifəsini asanlaşdırmış olardı. Digər tərəfdən də Fətəli xan ehtiyat edirdi ki, Osmanlı dövləti, eləcə də İngiltərə və Fransa Ağa Məhəmməd xan Qacarın, ya da Əlimurad xanın tərəfində çıxış edə bilərlər. Buna görə də xan özünü Rusiyanın regiondakı maraqlarının müdafiəçisi kimi qələmə verməklə sonuncunun dəstəyinə nail olmaq istəyirdi.

P.Potyomkin Fətəli xanın bu niyyəti barədə 1783-cü ilin sonlarında hökumətə məlumat verərək, əgər "Abbas Mirzə" doğrudan da taxta çıxarılarsa, hansı tədbirlər görməli, yaxud sadəcə seyrçi kimi qalmalı olduğunu soruşurdu. Xüsusən də əgər isfahanlı Əlimurad xan "Abbas Mirzə"yə qarşı qoşun göndərsə, o hansı mövqe sərgiləməli idi?[1]

Fətəli xan da 1783-cü ilin aprel ayında P.Potyomkinə yazdığı ilk məktubunda onun yanına gələn "Abbas Mirzə"ni Salyanda saxladığını təsiqləmişdi. P.Potyomkinin Fətəli xanın yanına göndərdiyi mayor Qauzen geri dönərkən Fətəli xanın lənkəranlı Qara xan və Aslan xanla birləşərək Ərdəbilə gedib qondarma şahzadəni şah elan etmək, sonra da "şah"ın adından Rusiyaya elçi göndərmək istədiyini bildirmişdi. Bu məsələ ilə bağlı rus hökumətinin mövqeyini soruşan general hələlik rus hökumətinin mövqeyini öyrənənədək II İrakliyə məktub göndərib Təbriz, İrəvan və Xoy xanlarının Fətəli xanla birləşmələrinə yol verməməyə çağırmışdı.[2]

Rusiya Fətəli xana yardım göstərməməklə yanaşı, onun Osmanlı dövlətindən yardım almasının qarşısını da almaq istəyirdi. P.Potyomkin 1783-cü ilin mayında knyaz Potyomkinə göndərdiyi raportda yazırdı: "Əgər Fətəli xan türklərin köməyinə arxalansa, ləzgi və dağlıları onun əleyhinə qaldırmaq çətin deyil.

---

[1] РГВИА, ф. 52, оп. 2, д. 32, л. 138 и об.

[2] РГВИА, ф. 52, оп. 1, д. 286, ч. 1, л. 48.

Onun başını qarışdırmaq lazımdır ki, türklər yadından çıxsın…”.[1]

Onun yanına gəlmiş rus məmurları Karakozov və Batırevlə söhbətində Fətəli xan Gəncə və Ərdəbil şəhərlərini zəbt etdikləri üçün II İrakliyə və İbrahimxəlil xana qarşı ordu topladığını bildirmişdi. Məmurlar xanın bu hərəkətinin rus sarayının narazılığına səbəb olacağını bildirəndə, Fətəli xan etiraz edərək rus hökumətinin gürcü çarını Azərbaycan xanlarının işlərinə qarışmaqdan çəkindirməli olduğunu demişdi.[2]

Qarşıdakı yürüşə Rusiyanın loyal münasibətinə nail olmaq üçün Fətəli xan güzəştə gedərək gürcü şahzadəsi Aleksandrı rus hakimiyyət orqanlarına təslim etdi. S.Burnaşev 11 dekabr 1783-cü il tarixli məktubunda II İrakliyə nə qədər boyun qaçırsa da nəhayət, Fətəli xanın knyaz Aleksandrı, burnukəsik Amilaxvari və daha iki nəfəri verdiyini və onların artıq Həştərxana gətirildiyini yazırdı. Beləliklə də, çar artıq bu tərəfdən arxayın ola bilərdi.[3] Aleksandrı Həştərxana gətirib təhvil verən Komarski Fətəli xanın qoşun toplayıb Qaraqaytaq hakimi və usmi ilə birləşib digər hakimləri də cəlb etməklə “Abbas Mirzə”ni şah elan etmək fikrində olduğunu bildirmişdi.[4]

Rusiyanın cavabı çox ləngidiyindən Fətəli xan Rusiyanın cavabını gözləməyərək rəqiblərini qabaqlamaq qərarına gəldi. General Potyomkin 1784-cü ilin yanvarında knyaz Potyomkinə yazdığı məktubunda Azərbaycan və Dağıstan hakimlərinin “Misir Abbasi”ni (Abbas Mirzəni – T.M.) şah taxtına çıxarmaq istədiklərini yazırdı. Generalın aldığı məlumata görə, Fətəli xan və bir çox hakimlər şahların taxta çıxdığı Ərdəbilə yollanırdılar. P. Potyomkin bununla əlaqədar, xüsusən də əgər Əlimurad xan Abbas Mirzəyə qarşı qoşun göndərərsə, onun necə hərəkət etməli olduğu barədə göstəriş verilməsini istəyirdi.[5] Görünür Fətəli xan İsfahan, Qəzvin və Nəcəfin ali ruhaniləri ilə sövdələşmiş, onlar

---

[1] AMEA, TİEA, iş 1795, III his., s. 536.

[2] РГВИА, ф. 52, оп. 1, д. 263, л. 78.

[3] Новые материалы для знедеятельности.., док. 12, с. 14.

[4] Вадим Левиатов. Göst. əsəri, s. 144.

[5] РГВИА, ф. 52, оп. 2, д. 32, л. 138 и об.

“Abbas Mirzə”ni tanıdıqlarını və ona tabe olacaqlarını təsdiq edən sənədə imza atıb, möhürlərini basmışdılar.[1]

Fətəli xan ilk növbədə Cənubi Azərbaycanın Təbrizdən sonra ikinci böyük şəhəri olan Ərdəbili ələ keçirmək istəyirdi. O, 1784-cü ilin yazında yürüşə başlayaraq may ayında döyüşsüz Ərdəbil, sonra isə Meşkin şəhərlərini tutdu. Bu şəhərlərin sakinləri Fətəli xanı sevinclə qarşıladılar.[2] Lakin Fətəli xanın Azərbaycanın cənubuna yürüşü qonşu hakimlərin, ilk növbədə II İraklinin və rus sarayının mənfi reaksiyasına səbəb oldu. Fətəli xanın köhnə düşmənləri – Qaraqaytaq usmisi, Avar xanı və bir sıra gigər Dağıstan hakimləri Quba xanlığını arxadan hücumla təhdid edərək Dərbənd və Qubaya basqın etməyə hazırlaşırdılar.[3] Eyni zamanda İbrahimxəlil xan və Ərdəbildən qovulmuş Nəzərəli xan da Fətəli xana müqavimət göstərmək niyyətində idilər. Xoylu Əhməd xan da onlara yardıma 3 min döyüşçü göndərmişdi.[4] II İrakli də hər vəchlə rus hökumətini Fətəli xanın yürüşünün Rusiyanın mənafeyinə zidd olduğuna inandırmağa çalışırdı. Əslində, doğrudan da Fətəli xanın yürüşü Rusiyanın niyyətlərinə uyğun gəlmirdi.

Rusiya sarayı P.Potyomkinə Fətəli xanın qoşunlarının cənuba hərəkətinin davam etdirilməsinin qarşısını almaq barədə direktiv verdi. Knyaz Potyomkinin göstərişi ilə qonşu hakimləri, ilk növbədə İbrahimxəlil xanı Fətəli xana qarşı qaldırmaq qərara alındı. Q.Potyomkinin bu məsələ ilə bağlı buyruqlarında deyilirdi: “Əgər Quba xanı sözə qulaq asmazsa, və yürüşünü davam etdirərsə, Dərbəndi tutmaq, yaxud digər xanları Fətəli xana qarşı yönəltmək lazımdır”. General Potyomkin və knyaz Potyomkin Fətəli xandan öz qoşunlarını buraxmağı tələb etdilər. Knyaz Potyomkin Fətəli xana öz hərəkətlərinin nəticəsini

---

[1] Гаси Абдуллаев. Из истории Северо-восточного Азербайджана…, с. 120.
[2] РГВИА, ф. 52, оп. 1, д. 131, л. 31; Петр Г. Бутков. Göst. əsəri. II his., s. 140-141.
[3] РГВИА, ф. 52, оп. 1, д. 286, ч. 4,лл. 28-29; Гаси Абдуллаев. Из истории…, с. 125.
[4] Гаси Абдуллаев. Из истории…, с. 124.

düşünməyi tövsiyyə etdi.[1]

Rusiyanın təzyiqləri və qonşu hakimlərin Quba xanlığının ərazisini təhdid etməsi üzündən Fətəli xan uğurla başlanmış cənub yürüşünü dayandırıb geri dönməli oldu. Muş hakimi Mahmud paşa da Osmanlı sarayına qubalı Fətəli xanın Səfəvi şahzadəsi olduğunu iddia etdiyi bir nəfəri şah taxtında oturtmaq üçün qoşun toplayıb, Ərdəbilə hücum etdiyini xəbər vermişdi. Mahmud paşanın yazdığına görə, təbrizli Xudadad xan da Fətəli xanı dəstəkləyirdi. İbrahimxəlil xan, xoylu Əhməd xan və bir sıra başqa xanlar isə Fətəli xandan geri dönməsini tələb etmiş, onu buna vadar etmək üçün Təbrizə daxil olmuşdular. Bu zaman xeyli adam həlak olubmuş.[2]

### VI.6. Rusiyanın Qarabağ xanlğına dair məkrli siyasəti. Osmanlının bölgədə Rusiya ekspansiyasına müqavimət cəhdləri.

İrəlidə qeyd olunduğu kimi, II İrakli 1783-cü il Georgiyevsk müqaviləsi imzalandıqdan sonra rusların yardımı ilə öz ərazisini Azərbaycan torpaqları hesabına genişləndirməyə çalışırdı. Məlumdur ki, bir neçə il əvvəl İrakli və İbrahimxəlil xan Gəncə xanlığının idarəçiliyini öz aralarında bölüşdürmüşdülər.

Rus hakimiyyət orqanları İbrahimxəlil xanı müdafiəyə hazırlıqla bağlı tədbirlərindən çəkindirməyə çalışır, eyni zamanda onunla diplomatik münasibətləri normal səviyyədə saxlamaq istəyirdilər. P.Potyomkin xandan onun yanına rəsmi nümayəndə göndərməsini istədi və 1784-cü il fevralın 4-də Qarabağ elçisi Mirzə Vəli Rusiyaya yola salınmaq üçün S.Burnaşevlə birlikdə Mozdoka P.Potyomkinin yanına getdi. Elçi ilə göndərdiyi məktubda İbrahimxəlil xan Rusiya himayəsinə keçmək arzusunda olduğunu bildirir, eyni zamanda Reyneqsin hərəkətlərindən gileylənirdi. Xan həm də Rusiya təbəəliyinə keçəcəyi təqdirdə

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 86, ч. 2, л. 83; Петр Г. Бутков. Göst. əsəri. II his., s. 141; Гаси Абдуллаев. Из истории…, с. 123-124.

[2] BOA, Hatt-ı Humayun, nr. 1333. Cemal Gökçe. Göst. əsəri, s. 114.

xanlığın daxili işlərinə heç kəsin qarışmayacağına, düşmənlərinə qarşı mübarizədə ona yardım göstəriləcəyinə təminat verilib-verilməyəcəyini soruşurdu.[1] Çox keçməmiş İbrahimxəlil xan digər nümayəndəsi, Hacı İsmayılı Tiflisə göndərərək İraklidən Rusiya təbəəliyini qəbul edəcəyi təqdirdə mülklərinin hansısa hissəsinin əlindən alınmayacağı barədə təminat verilib-verilməyəcəyini öyrənmək istəmişdi. İrakli də bu məsələ ilə bağlı S.Burnaşevin mövqeyini öyrənmək istəmişdi. Sonuncu isə imperatriçənin himayəsini arzulayan belə kiçik hakimin müstəsna tələblər irəli sürmək əvəzinə yalnız imperatriçənin səxavətinə ümid edə biləcəyini bildirmişdi.[2]

General P.Potyomkin 1784-cü il martın 15-də İbrahimxəlil xanın Mirzə Vəli ilə, Xoy xanının isə İmamqulu bəylə məktublar göndərdikləri yazırdı. P.Potyomkin İbrahimxəlil xanın nümayəndəsi Mirzə Vəlini geriyə göndərərək, İbrahimxəlil xan doğrudan da Rusiya himayəsini qəbul etmək istəyirsə, səlahiyyətli elçilik göndərməlidir, – deyə bildirmişdi.[3]

Qeyd olunduğu kimi rus hökuməti İbrahimxəlil xanı devirib Qarabağda xristian məlikləri hakimiyyətə gətirmək niyyətində idi və bu səbəbdən də onun Rusiya təbəəliyinə keçmək istəyinə müsbət yanaşa bilməzdi. Knyaz Q.Potyomkin 1784-cü il aprelin 4-də II Yekaterinaya yazırdı: "İbrahimxəlil xan Rusiyanın yardımı ilə məliklərin onun hakimiyyəti altından çıxacağını görüb bunun qarşısını almaq üçün Rusiya himayəsini qəbul etmək istəyir. Lakin imperatriçənin də rəyinə görə Qarabağda xristian hakim olmalıdır".[4]

Knyaz Q.Potyomkin 1784-cü ildə II Yekaterinaya onun göstərişinə uyğun olaraq Qarabağ və Qaradağa adamlar göndərildiyini, oralarda yaşayan xristianlara Rusiya himayəsinə sığınmalarını təlqin etməli olduqlarını yazırdı. Bu xristianların

[1] РГАДА, ф. 23, оп 1, д. 13, ч. 7, лл. 268-273; А.Ионнисян. Göst. əsəri, s. 98.
[2] РГАДА, ф. 23, оп 1, д. 13, ч. 7, лл. 267-268; А.Ионнисян. Göst. əsəri, s. 101.
[3] АВПРИ, ф. 77 (СРП), оп. 6, 1784 г., д. 469, лл. 3-4.
[4] АВПРИ, ф. 77 (СРП), оп. 6, 1784 г., д. 460, лл. 1-2.

Rusiyaya rəğbəti günbəgün artır.[1]

Rusiyaya göndərdiyi elçiliyin uğursuzluğunu görən İbrahimxəlil xan Rusiya əleyhinə ittifaq bağlamaq üçün digər xanlarla razılığa gəlmək və hətta öz köhnə rəqibi qubalı Fətəli xanla barışmaq niyyətinə düşmüşdü.[2] Eyni zamanda İbrahimxəlil xan xəyanətkar məlikləri cəzalandırmışdı. Mənbələrdən məlum olur ki, 1784-cü ilin əvvəlində İbrahimxəlil xan məlik Abovu buraxsa da, ondan muzdlu dağıstanlı döyüşçülərə ödəmək üçün 5 min manat tələb etmişdi.[3]

Bu dövrdə Osmanlı dövləti də Cənubi Qafqazda öz təsirini gücləndirməyə çalışırdı. Sultan Qafqaz hakimlərinin yardım haqqında xahişlərinə cavab olaraq 1784-cü ilin payızında İbrahim Əfəndinin başçılığı ilə 60 nəfərlik yeni nümayəndə heyətini regiona göndərdi. Sultan öz fərmanında müsəlmanları "müqəddəs müharibə"yə - cihada və "Rusiya hücumlarının qarşısını almaq üçün birləşməyə" çağırırdı. [4] S.Burnaşevin verdiyi məlumata görə, İbrahim əfəndi özü ilə Azərbaycan, Qafqaz və Dağıstan hakimlərinə paylamaq üçün 40 ədəd dördminlik əşrəfi gətirmişdi.[5] Qubalı Fətəli xanın, İbrahimxəlil xanın hər birinə 7 min əşrəfi, xoylu Əhməd xana daha çox pul, həm də saat və kürk üçün samur xəzi, daş-qaşla bəzənmiş saat göndərilmişdi. Əslində göndərilən pul məbləği daha çox idi. Çünki Hidayət xana, Məhəmməd xana da pul göndərilmişdi. Bundan əlavə İrəvan, Təbriz, Qaradağ, Urmiya, Ərdəbil, Naxçıvan, Bakı, Şəki xanlarına, Ömər xana, şamaxılı Məhəmməd Səid xana da pul və mükafatlar göndərilmişdi.[6]

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 6, д. 469, л. 1 и об.

[2] РГАДА, ф. 23, оп 1, д. 13, ч. 7, л. 379; Yenə orada, his. 8, v. 74; А. Ионнисян. Россия… и арм…, с. 100.

[3] Арм.-русск. отн. т. 4, с. 298.

[4] РГВИА, ф. 52, оп. 1, д. 350, ч. 2, л. 14 и об.: Ольга П. Маркова. Göst. əsəri, s. 206.

[5] АВПРИ, ф. 89 (СРТ), оп. 5 (?), д. 625, л. 27; Fuad Əliyev, Urfan Həsənov. İrəvan xanlığı, Bakı, 1997, s. 73.

[6] РГВИА, ф. 52, оп. 1, д. 350, ч. 2, л. 5 об.

İbrahim əfəndinin səfəri əsasən uğurlu oldu. Şamaxı, Şəki, Xoy, Qarabağ xanları, Car camaatlarının ağsaqqalları, habelə bir sıra Dağıstan hakimləri Axısxa paşası ilə ittifaq yaradıb Rusiyanın təcavüzünə qarşı birgə müqavimət göstərəcəklərinə söz verdilər. 1785-ci ilin yazında bağlanmış müqavilələr andla möhkəmləndirildi. Hakimlərin nümayəndələri İbrahim əfəndi ilə birlikdə İstanbula yola düşdülər.[1] İbrahimxəlil xan, Fətəli xan, xoylu Əhməd xan sultana məktub göndərərək onun himayəsi altında olmağı arzuladıqlarını bəyan etdilər.[2] Osmanlı sultanı bu istəyi razılıqla qarşıladı. Qarabağ və Xoy xanlarına rusların və gürcülərin əlinə keçməməsi üçün tezliklə İrəvan şəhərini almaq barədə göstəriş verdi.[3]

Sultanın əmri ilə Trabzon, Ərzurum, Axısxa və Qars şəhərlərində Osmanlı qoşunları Qafqaza yürüş üçün hazırlıq vəziyyətinə gətirildilər. Bu yerlərin paşaları İrəvan və digər Azərbaycan xanları ilə birləşib Tiflis şəhərinə hücum etməyə hazırlaşırdılar. Yürüşdə iştirak edəcək hər bir nəfərə 200 rubl məbləğində pul vəd olunmuşdu.[4] Sultan sarayı Xəlil Əfəndinin başçılığı ilə Cənubi Qafqaza yeni nümayəndə heyəti göndərdi.

Osmanlı hökumətinin Azərbaycanda ən çox diqqət yetirdiyi məntəqələrdən biri mühüm strateji əhəmiyyətə malik İrəvan idi. Xəlil Əfəndi İrəvan xanını II İrakliyə qarşı təşviq etmişdi. Yəqin elə bunun nəticəsi idi ki, xan II İrakliyə bac verməkdən imtina etmişdi.[5] Bu zaman Hüseynəli xanın əleyhdarları tərəfindən qətlə yetirilməsi nəticəsində xanlıq daxilində vəziyyət mürəkkəb idi. Çıldır valisi Süleyman paşa gürcü çarının bu vəziyyətdən istifadə

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 350, ч. 2, л. 27; Ольга П.Markova. Göst. əsəri, s. 207.

[2] А.Иоаннисян. Россия и армянское., с. 165.

[3] Fuad Əliyev, Urfan Həsənov. İrəvan xanlığı, Bakı, 1997, s. 73; РГВИА, ф. 52, оп. 1, д. 32, лл. 159-160.

[4] РГВИА, ф. 52, оп. 1, д. 330, лл. 2-3. Fuad Əliyev, Urfan Həsənov. İrəvan xanlığı, Bakı, 1997, s. 73.

[5] BOA, Hatt-ı Humayun, nr. 3; Cevdet Dahiliye, nr. 15122; Belgeler, I c., nr. 23, s. 84-85, 296.

edərək İrəvanı zəbt edəcəyindən ehtiyat edirdi. Buna görə də Sultandan Bəyazid və Muş sancaqları mütəssəriflərinə II İraklini dəf etmək üçün Azərbaycan xanlarına yardım göstərmək barədə əmr verməsini xahiş edirdi.[1]

Çox ola bilər ki, gürcü çarının fitnələri nəticəsində 1784-cü ilin yayında Qulaməli xan qardaşı ilə birlikdə qətlə yetirilmiş, Hüseynəli xanın anası gürcü olan digər oğlu Məhəmməd taxta çıxarılmışdı.[2] Süleyman paşanın bu barədə saraya göndərdiyi təhriratın üzərində Sultanın qoyduğu dərkənarda qeyd olunurdu ki, İrəvan qalasını İraklinin sui-qəsdindən qorumaq üçün Çıldır valisi, Bəyazid mütəssərifi və Qars mühafizinə məktublar göndərilərək onlara Xoy xanı ilə ittifaqda İrəvanı müdafiə etmələri əmr olunsun.[3]

Doğrudan da II İrakli nəinki İrəvana, eləcə də Naxçıvana təsirini yaymaq üçün yürüşə hazırlaşırdı.[4] Lakin Osmanlı hökumətinin gördüyü əks-tədbirlər nəticəsində bu yürüş baş tutmadı. Gürcü çarının 1784-cü ilin payızında Gəncə şəhərinə hücumu da uğur qazanmamışdı.

Bir məsələni də qeyd etmək lazımdır ki, hələ Qulaməli xanın sağlığında İrəvanda olmuş Osmanlı nümayəndələri onun saray əyanları və xanlar içərisində nüfuzunun az olmasını görüb qardaşı Məhəmmədin Xoy xanının Məhəmməddən 30 yaş böyük olan qızına evlənməsinə nail olmuş və beləliklə də osmanlı meyilli Xoy xanının İrəvan xanlığının daxili işlərinə qarışması üçün zəmin yaranmışdı.

### VI.7. Rusiya hökumətinin İsfahanlı Əlimurad xanla sövdələşmə cəhdi.

Qeyd edək ki, elə bu dövrdə Rusiyanın Cənubi Qafqazda dinc yolla möhkəmlənməsi üçün əla bir fürsət yaranmışdı. Məlumdur

---

[1] BOA, Hatt-ı Humayun, nr. 324-G; Belgeler, I c., nr. 23, s. 74-75, 287-288.
[2] BOA, Hatt-ı Humayun, nr. 860; Belgeler, I c., nr. 27, s. 95-96, 303.
[3] BOA, Hatt-ı Humayun, nr. 860; Belgeler, I c., nr. 27, s. 93, 302.
[4] Fuad Əliyev, Urfan Həsənov. İrəvan xanlığı, s. 75.

ki, 1779-cu ildə Kərim xan Zəndin ölümündən sonra Mərkəzi İranda hakimiyyəti Zəndlər sülaləsinin digər bir nümayəndəsi Əlimurad xan ələ keçirmişdi.

Əlimurad xan özünü İran hökmdarı elan etsə də, Mazandaran, Astrabad, Xorasan hakimləri, habelə Azərbaycan xanları onun hakimiyyətini tanımırdılar. Buna görə də Əlimurad xan hələ 1783-cü ildə nümayəndəsi Məhəmməd bəyi Qafqaz xəttinə göndərmişdi. O, Rusiya sarayına səfir göndərib onunla ittifaq bağlamaq niyyətində olduğunu bildirmişdi. [1] Hakimiyyətinin legitimləşdirilməsi üçün o, Rusiyadan yardım almaq qərarına gəldi. Rusiya hakimiyyət orqanları da öz növbəsində Əli Murad xanın gücünün artdığını görərək onunla əlaqə yaratdılar. P.Potyomkinin göstərişi ilə İstanbul ermənisi Akop Antonov İsfahana gələrək 1784-cü il yanvarın 20-də Əli Murad xanın vəziri ilə görüşmüş, vəzir Potyomkinin məktubunu və hədiyyələri götürərək Əli Murad xana təqdim etmişdi.[2]

Qəbul zamanı Potyomkinin məktubu ilə tanış olan Əlimurad xan şah Abbas və Nadir şah kimi Rusiya ilə dostluğu davam etdirmək istədiyini, Rus sarayının rezident göndərməsini arzuladığını və onun yaşama xərclərini bütünlüklə ödəməyi öhdəsinə götürdüyünü bildirdi. Əlimurad xan hətta irəli gedərək əgər imperatriçə istəsə İranın yarısını ona bağışlaya biləcəyini söyləyərək ancaq imperatriçənin mülkləri geniş olduğundan buna ehtiyacı olmadığını bildirmişdi.[3]

Cənubi Qafqazı öz mülklərinə qatmağı planlaşdıran Rusiya üçün bu müraciət göydəndüşmə olduğundan ona həvəslə cavab verildi. Knyaz Q. Potyomkin 1784-cü ilin mayında Əlimurad xanın təklifindən faydalanmaq barədə müsbət rəyini kansler Bezborodkaya bildirərək yazmışdı: "Bundan böyük xeyir qazanmaq, Ermənistan ölkəsini və Albaniyanı təşkil etməli olan

---

[1] РГВИА, ф. 52, оп. 2, д.25, лл. 2-6.

[2] Yenə orada, if.52, siy.1, iş 37, v.53-54.

[3]РГВИА, ф. 52, оп. 2, д. 37, л. 56 и об..Бутков ч.2, с.146; Ольга Маркова. A.k.əsəri,s.191

hissəni, İraklinin çarlığını qurmaq olar”.[1] Qubalı Fətəli xanın Azərbaycanın cənub torpaqlarını birləşdirmək səylərinin artması da çar hökumətini Əlimurad xanla danışıqları sürətləndirməyə təhrik edirdi.

Əlimurad xan elçisi vasitəsilə göstəriləcək yardım müqabilində vaxtilə Rusiyanın əlində olmuş torpaqlardan (1722-1735-ci illərdə Rusiya işğalında olmuş Xəzəryanı ərazilərdən söhbət gedir – T.M.) əlavə Qarabağ, Qaradağ, Naxçıvan və İrəvan vilayətlərini Rusiyaya güzəştə getməyə hazır olduğunu bildirirdi.[2] Göründüyü kimi, əslində Əlimurad xan heç bir hüququ çatmadığı Azərbaycan torpaqlarını Rusiyaya güzəştə getmək hesabına onunla sövdələşməyə çalışırdı.

Əvvəlcə Rusiya hökuməti Əlimurad xanla Ağa Məhəmməd xan Qacar arasında mübarizənin nəticəsi aydın olmayana qədər Əlimurad xana cavab verməməyi qərara aldı. Nəhayət, 1784-cü ilin payızında polkovnik Tamara Əlimurad xanla danışıqlar aparmaq üçün İrana göndərildi. Knyaz Q. Potyomkinin Tamaraya verdiyi təlimatda deyilirdi: “Dağınıq hissələrin bir dövlətdə birləşdirilməsi oranın çiçəklənmiş vəziyyətə gətirilməsi üçün bir vasitədir. Siz bununla həmin hakimin (Əlimurad xanın – T.M.) qüruruna təsir edə bilərsiniz. Lakin bu zaman ona bu monarxiyanı yalnız iranlılardan təşkil olunmasının məqsədəuyğunluğunu təlqin edə bilərsiniz. Bu cür birlik möhkəm və sabit olacaqdır, həmişə boynundan əsarəti atmağa çalışan xalqların müxtəlifliyi isə dövlətin gücünü artırmır, əksinə parçalayır və zəiflədir. Bunu mən Ermənistan və digər ətraf əyalətlər haqqında deyirəm; Çünki Gürcüstanın özünə gəlincə, bu barədə heç nə deməməli; onun müqəddaratı artıq həll olunmuşdur. Buna Portanın (Osmanlı dövlətinin – T.M.) barışmazlığını və onun niyyətlərini də əlavə etmək lazımdır. Onun şöhrəti və namusu bu paxıl qonşuya qarşı durmağı və onun niyyətlərini puça çıxarmağı tələb edir. Əgər

---

[1] РГВИА, ф. 52, оп. 2, д. 37, лл. 63-64; Ольга Маркова.Göst. əsəri, s. 188.
[2] Петр Г.Бутков. Материалы, ч. 2, с. 146; Ольга Маркова О. Göst. əsəri, s. 191.

ermənilər türklərlə iranlılar arasında bufer olaraq qalsalar, bu İranı təhlükəsiz edəcəkdir”.[1]

1784-cü ilin sentyabrın 30-da Bezborodko öz iştəhasını daha da artıraraq adı çəkilən təlimata izahında Əlimurad xandan Osmanlı imperiyası ilə müharibəsi təqdirində əldə edəcəyi “erməni torpaqları”nı da güzəştə getməsini və osmanlılara qarşı müdafiə ittifaqı bağlamaq barədə razılığının alınmasını da təklif edirdi. Potyomkinin göstərişlərini dəqiqləşdirən Bezborodko “Dərbənd və lazım olan digər yerlərin” Rusiyaya ilhaqının da Əlimurad xan tərəfindən tanınmasını tələb edirdi. Bundan əlavə “Alban çarlığı yaxud vilayəti”ni təşkil edəcək torpaqlar haqqında da aydın qərar qəbul edilməli idi.[2]

1785-ci il yanvarın əvvəllərində Əlimurad xanın elçisi Məhəmməd xan və Tamara Şimali Qafqazdan Tiflisə yola düşdülər. Oradan isə İsfahana hərəkət etdilər. Bir sıra Azərbaycan xanları Əlimurad xanla Rusiya arasında Azərbaycan xanlıqlarının suverenliyinə xələl gətirən sövdələşmə olacağından şübhələnib elçilərin hərəkətinə mane oldular. Xoylu Əhməd xan elçiləri üzdə mehribanlıqla qarşılasa da, onları hərəkətlərini davam etdirməyə qoymadı. [3] Bu zaman Rusiya elçisinin hərəkətini davam etdirməsinə lüzum da qalmadı, çünki 1785-ci ilin fevralında Əlimurad xan İsfahandan dörd günlük məsafədə qəflətən öldü.[4]

II İrakli 1785-ci ilin yanvar-mart aylarında knyaz Çavçavadzeyə yazırdı ki, Mirzə Rəbi ilə birlikdə Əlimurad xanın yanına göndərilən Tamara Xoy xanlığına çatanda Xoy hakimi Məhəmməd xan onlardan xanlıq ərazisində çox qalmamalarını tələb etmişdi. Həm də xəbər alınmışdı ki, Hacı Əli paşa Mirzə Rəbini öldürməyi, Tamaranı isə dustaq etməyi əmr etmişdir. Bu

---

[1] Николай Ф. Дубровин. История войны и владычества русских на Кавказа, т. 2, СПб., 1886, (Московский Архив Главного Штаба.Инструкция Тамаре).сс. 171-172; Ольга Маркова. Göst. əsəri, s. 190.

[2] РГВИА, ф. 52, оп. 2, д. 25, лл. 10-11.

[3] Ольга Маркова. Göst. əsəri, s. 191.

[4] Yenə orada; Петр Г.Бутков. Göst. əsəri, II his., s. 155

səbəbdən Tamara İrəvana qayıtmış, burada isə İrandan gələn tacirlərdən Əlimurad xanın öldüyünü və onun mülklərində çaxnaşma başladığını eşitmişdi. Buna görə də Tamara Rusiyaya dönməli olmuşdu.[1]

Tarixi ədəbiyyatda Əlimurad xanın Rusiyaya ərazi güzəştləri barədə özünün təklifindən ölümündən bir qədər əvvəl, 1784-cü ilin sonunda imtina etməsi haqqında məlumat da var.[2] Əlimurad xanın mövqeyindəki bu cür kəskin dönüşün baş verməsində fransız diplomatiyasının da rolu olmuşdu. Yaxın və Orta Şərqdə möhkəmlənməyə çalışan Fransa hökumətinin 1784-cü ildə göndərdiyi emissarı Feriyer Sövbef Əlimurad xanı Rusiya ilə ittifaqdan və ona ərazi güzəştləri etməkdən çəkindirməyə çalışırdı. Hətta xana Fransa və Osmanlı dövləti ilə ittifaq bağlamaq təklif olunurdu.[3]

V.Tamara Əlimurad xanın ölümünə qəti əmin olduqdan sonra Mərkəzi İranda hakimiyyəti ələ keçirən Cəfər xana məktub göndərərək, onu Əlimurad xanın siyasətini davam etdirməyə çağırmışdı. Lakin Cəfər xan Ağa Məhəmməd xan Qacardan qorxaraq İsfahandan Şiraza qaçdı[4] və beləliklə də Rusiyanın Azərbaycanı İranla bölüşdürmək cəhdi baş tutmadı.

### VI.8. 80-ci illərin ortalarında Rusiya və Osmanlı dövlətlərinin Azərbaycan xanlıqları ilə münasibətləri.

Əlimurad xanın ölümündən sonra Azərbaycanın cənubunda və İrəvanda ara müharibələri yenidən qızışdı. Bu zaman Azərbaycanın cənubunda ən qüdrətli xanlıq Xoy xanlığı idi. Xoylu Əhməd xan əvvəlki illərdə İrəvan, Naxçıvan və Qaradağ xanlıqlarını özündən asılı vəziyyətə salmışdı. Təbrizli Nəcəfqulu xan lazımi vaxtlarda Xoy xanına yardım edirdi. Qarabağ xanlığı da Xoy xanlığının yaxın müttəfiqi idi. Onlar Qaradağ xanlığını öz aralarında bölüşdürmüşdülər, qaradağlı Mustafa xan isə Xoy

---

[1] РГАДА, ф. 15, д. 197, оп. 1, лл. ?.
[2] Гаси Абдуллаев. Из истории..., с. 128.
[3] Петр Г. Бутков. Göst. əsəri, II his., s. 149.
[4] Fuad Əliyev, Urfan Həsənov. İrəvan xanlığı, s. 69.

qalasında girov saxlanırdı.[1]

Xoylu Əhməd xanın artan gücü və nüfuzu Osmanlı imperiyası və Rusiyanın diqqətini çəkməyə bilməzdi. Əhməd xan özü də bu dövlətlərlə sıx münasibətlər yaratmaqda maraqlı idi. Osmanlı sultanı Xoy xanına İran hakimləri tərəfindən təhlükə olacağı təqdirdə yardım edəcəyinə söz verdi, onu yüksək hərbi rütbə – "sərəsgər" rütbəsi ilə təltif etdi.[2] Əhməd xan Osmanlı sarayından artilleriya ilə birlikdə 2 min nəfərlik qoşunun göndərilməsini istəmişdi.[3] Lakin Osmanlı sarayı hələ lüzum olmadığı bir zamanla Əhməd xanın yardımına qoşun göndərilməsini Rusiya ilə münasibətləri korlayacağından ehtiyat etdiyi üçün bu istəyi yerinə yetirmədi. Bununla belə Əhməd xanı məyus etməmək üçün Ərzurum valisi Hacı Əli paşaya Əhməd xana Xoya bir neçə top və bir qədər sursat göndərilməsini tövsiyyə etdi.[4] Hacı Əli paşanın ölümü bu tövsiyyənin yerinə yetirilməsinə imkan vermədi.[5]

Xoylu Əhməd xan öz hakimiyyətini qorumaq xatirinə Osmanlı dövləti və Rusiya arasında manevr edirdi. O, öz nümayəndələrini Sankt-Peterburqa göndərmiş, II Yekaterinadan təbəəliyə qəbul olunmasını xahiş etmişdi.[6]

Azərbaycanın şimalında isə qubalı Fətəli xan dağınıq Azərbaycan torpaqlarını birləşdirmək siyasətini davam etdirirdi. Fətəli xan böyük qoşunla Şəkini mühasirəyə almış, çətin vəziyyətə düşən Hüseyn xan aman istəmiş, bundan sonra Fətəli xan Şamaxıya qayıtmışdı.[7] Knyaz Potyomkin kansler qraf

---

[1] Nisə Mustafayeva. Göst. əsəri, s. 47-48.

[2] Петр Г. Бутков.. Göst. əsəri, II his., s. 145.

[3] Ахмед Джевдет паша. Описание событий в Грузии и Черкесии по отношению к Османской империи от 1192 года по 1202 года Хиджры (1775-1785).

[4] Ахмед Джевдет паша. Göst. əsəri, s. 382.

[5] РГВИА, ф. 52, оп. 1, д. 250, ч. 9, л. 108 и об.

[6] Nisə Mustafayeva. Göst. əsəri, s. 55.

[7] РГВИА, ф. 52, оп. 1, д. 408, л. 189.

Bezborodkoya Fətəli xanın kral adı almaq istədiyini yazırdı.[1]

Fətəli xan onun birləşdirmə siyasəti üçün mühüm maneə olan II İrakli ilə münasibətləri nizamlamağa çalışırdı və buna görə də II İraklidən nümayəndəsini göndərməsini istəmişdi. Irakli də Mirzə Qurgeni göndərmişdi. Qurqen yazırdı ki, o, Fətəli xanın yanına gəldiyi gün sultan fərmanı, üç min əşrəfi, Bramant saatları və xəz kürk ilə Çıldır valisi Süleyman paşanın xəzinədarı da Fətəli xanın yanına gəlibmiş. Fətəli xan Qurqenin yanında sultan nümayəndəsini qəbul etməsə də, bir qədər sonra qəbul etmişdi. Qurqenin yazdığına görə, sultan fərmanında Kartli çarının Rusiyanın yardımı ilə bütün Azərbaycan və İrana yiyələnmək istədiyi deyilirdi. Bunun qarşısını almaq üçün xanlar hərəkətə keçərdilərsə, osmanlılar da Gürcüstana hücum edib rusları buradan qovardılar.[2]

Bu dövrdə fəal xarici siyasət yürüdən digər Azərbaycan xanı Qarabağ hökmdarı İbrahimxəlil xan idi. 1785-ci ilin iyul ayında general P.Potyomkin İbrahimxəlil xanın Rusiya təbəəliyini qəbul etmək haqqında ərznaməsini aparan elçisi Musa sultanı Qafqaz xəttindən Moskvaya yola saldı. Knyaz Potyomkin bu məsələ ilə bağlı imperatriçəyə Rusiyanın silahı qarşısında vahimə və zülm altında inləyən xristianların imperatorun ali hakimiyyəti altında olmaq arzusu xanı Rusiyaya təbəəliyə qəbul olunması barədə ərznamə yazmağa vadar etdiyini bildirirdi.[3]

Bundan bir həftə sonra göndərdiyi raportunda P.Potyomkin Fətəli xanın da imperatriçənin himayəsinə qəbul olunmaq barədə ərizə ilə məmuru Mirzə Sadığı göndərdiyini yazırdı.[4]

P.Potyomkin belə hesab edirdi ki, onları asan ələ almaq olsun deyə hələlik hər iki xana nəvaziş göstərmək lazımdır. Eyni zamanda general əgər xanların hər ikisini, yaxud birisini ələ keçirmək mümkün olsa, onları hara göndərmək lazım olduğunu

[1] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 1, л. 69.
[2] РГАДА, ф. 15, д. 197, оп. 1, лл. 37 об.-38.
[3] РГВИА, ф. 52, оп. 2, д. 32, л. 77.
[4] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 1, л. 290.

soruşurdu.[1]

Bu dövrdə İbrahimxəlil xanın II İrakli ilə münasibətlərində bir soyuqluq yaranmışdı. II İrakli 1786-cı il noyabrın 2-də P.Potyomkinə yazırdı ki, əvvəllər İbrahimxəlil xanla müttəfiq idi və o da Rusiya himayəsinə qəbul olunmaq istədiyini bildirirdi. Lakin İbrahimxəlil xan məliklərin P.Potyomkinlə gizli əlaqə saxladığını öyrənəndən sonra bərk qəzəblənərək Abovu məliklikdən azad etmiş, II İrakli ilə müttəfiqliyi kəsmiş və artıq Rusiya himayəsinə də daxil olmaq istəmirdi. O, artıq Osmanlı sarayı ilə, Batal və Süleyman paşalarla əlaqə saxlayır, paşaları İrakliyə hücum etməyə təşviq edirdi. İbrahimxəlil xan iki dəfə Osmanlı sultanından hədiyyələr və yardım vədi almış, İraklinin istəyinə rəğmən Gəncədə xan hakimiyyətini bərpa etmişdi.[2]

Qeyd edək ki, yerli hakimlər arasında nifaq salıb, onları özündən asılı vəziyyətə salmaq rus hakim dairələrinin də sevimli metodu idi. Belə ki, P. Potyomkin 1786-cı il avqustun 5-də knyaz Q.Potyomkinə yazırdı ki, o, Qafqaz xəttinin komandanlığına gəldiyi gündən dağlı və dağətəyi hakimlər arasında ixtilaf yaratmağa çalışmışdır. Məqsəd xəttə yaxın olan hakimləri ram edə bilmək idi. Bu məqsədlə də çeçenləri və qaraçayları öz tərəfinə çəkməyə çalışmışdı.[3] Elə bu səbəbdəndir ki, o, qubalı Fətəli xanla Avar xanı arasında hərbi toqquşmanın yaxınlaşması haqqında xəbərləri məmnunluqla qarşılamışdı.[4] Rusiyanın əlaltısı II İrakli qubalı Fətəli xanı İbrahimxəlil xandan ayırmağı, onun İrakli ilə barışmasına nail olmağı təklif edirdi. Fətəli xanın yanına nümayəndə göndərdiyini yazaraq Potyomkindən də İbrahimxəlil xandan ayrılıb II İrakli ilə barışması üçün Fətəli xana təsir göstərməsini xahiş edirdi.[5]

Bu illərdəAzərbaycan xanları üçün cənubdan təhlükə güclənir. Əlimurad xanın ölümündən sonra Ağa Məhəmməd xan

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 350, ч. 4, л. 234.

[2] РГВИА, ф. 52, оп. 1, д. 366, ч. 4, л. 253.

[3] Yenə orada, v.1.

[4]РГВИА, ф. 52, оп. 1, д. 350, ч. 4.,л.234

[5] Yenə orada.

Qacarın İranda güclənməsi Azərbaycan xanlarını narahat edirdi. General Potyomkin 4 dekabr 1786-cı ildə knyaz Q. Potyomkinə Ağa Məhəmməd xan Qacarın Gilanı tutandan və Hidayət xanı qətlə yetirdikdən sonra Azərbaycanın şimalına yaxınlaşdığını yazırdı. Ağa Məhəmməd xan İbrahimxəlil xandan itaət tələb edərək ona qarşı ordu ilə gələcəyi ilə hədələmişdi. İbrahimxəlil xan qubalı Fətəli xandan yardım istəmiş, Fətəli xan isə özü Ömər xan Avarlının hücumundan ehtiyat etdiyi üçün hələlik müsbət cavab verməmişdi.[1]

Qacar təhlükəsinin güclənməsi Azərbaycanın şimal xanlarını yardım üçün qonşu dövlətlərə müraciət etməyə vadar edirdi. P. Potyomkin 28 yanvar 1787-ci il tarixli raportunda Q.Potyomkinə yazırdı ki, knyazın geri göndərdiyi Fətəli xanın elçisi Hacı İbrahimi dünən Salyana yola salmışdır. Elçi ilə söhbətdən P.Potyomkin anlamışdı ki, Fətəli xan hökmən Rusiya himayəsini qəbul etmək, həm də II İrakli ilə eyni hüquqa malik olmaq istəyir.[2]

Fətəli xan yeni elçisi Mirzə Sadığı imperatriçənin himayəsinə qəbul olunması barədə xahişlə göndərmiş, P.Potyomkin elçini paytaxta yola salmışdı. [3] Xan II Yekaterinaya məktubunda təbəələri ilə birlikdə II İrakli kimi Rusiya təbəəliyinə qəbul olunmasını xahiş edirdi.[4]

General yazırdı: “Ağa Məhəmməd xan İranda tam güclədikdən sonra təbii ki, Azərbaycanı tutmağa çalışacaq və bundan sonra ona təsir etmək çətin olacaq”. [5] II İrakli P.Potyomkinə yazırdı ki, onun Ağa Məhəmməd xanın yanına göndərdiyi knyaz Zaxari Sisianov və knyaz Usup Baratovcki Tiflisə qayıdıb Qacarın Tehranda olduğunu və Novruz bayramından sonra Azərbaycana hərəkət etmək niyyətində olduğunu bildirmişlər. İbrahimxəlil xan zəncanlı Əli xana yazırdı

[1] РГВИА, ф. 52, оп. 1, д. 366, ч. 4, л. 243.
[2] РГВИА, ф. 52, оп. 1, д. 366, ч. 4, л. 242
[3] Yenə orada,v.290
[4]РГВИА, ф. 52, оп. 1, д. 366, ч. 4, л.291.
[5] Yenə orada.

ki, Ağa Məhəmməd xanın Azərbaycana hücumu hamının məhv olması demək olacaqdır. Buna görə də onu ölkəyə buraxmaq olmaz. İbrahimxəlil xan yardıma hərbi qüvvə və pul göndərəcək. Əli xan belə vədlərdən ruhlanıb cənubdakı digər xanlardan da yardım istədi və Cəfər xan Zəndi də yardıma çağırdı. Onun məktubunu ələ keçirən təbrizli Xudadad xan məktubu Qacara göndərmiş, Qacar Əli xanı yanına çağırtdırıb gözlərini çıxartdırmışdı. Qacar tayfasından bir nəfəri Zəncana hakim təyin edib, bundan sonra Tehrana hərəkət edən Ağa Məhəmməd xan Cəfər xan Zəndə qarşı bir dəstə göndərdi. Cəfər xan məğlub olub Şiraza qaçdı. Şiraz sakinləri Qacara məktub yazıb Cəfər xanı təslim etməyə hazır olduqlarını bildirdilər.[1]

Rus hərbçilərinin 1787-ci ilin əvvəlində ələ keçirdikləri məktubdan aydın olur ki, İbrahimxəlil xan rus və gürcü hissələrinin Qarabağa yürüşü ərəfəsində Osmanlı sultanı III Səlimə yardım üçün müraciət edibmiş. Xan Molla Həsəni sultan sarayına göndərdiyini yazırdı.[2] Görünür bu müraciət cavabsız qalmamışdı. Gürcüstandakı Rusiya nümayəndəsi S.Burnaşev 16 iyun 1787-ci il tarixli raportunda Sultanın fərman göndərərək İrəvanın Azərbaycan şəhəri olduğu üçün gürcü çarı ora hücum edərsə, osmanlılar tərəfindən müdafiə olunacağını bildirirdi.[3] Sultanın Xoy xanına göndərdiyi fərmanda İranda hökmdar olmamasından istifadə edən Tiflis valisinin (gürcü çarı nəzərdə tutulur-T.M.) Azərbaycanı talan etmək üçün qoşun göndərdiyi deyilirdi. Lakin unutmuşdur ki, bizim öz hökmdarı olmayan ölkəni müdafiə etmək haqqımız var. Buna görə də Sultan Bağdad, Van və Muş paşalarına əgər Tiflis valisi cəsarət edib sərhədi keçsə, onların Azərbaycana hərbi yardım göndərmələrini əmr etmişdir.[4]

Qeyd edək ki, Rusiya ilə Osmanlı imperiyası arasında yalnız Qafqazda deyil, həm də Azərbaycanın cənubunda da təsir

---

[1]РГВИА,ф.52,оп.1,д.416,ч.1,л.355
[2] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 1, л. 353. Арм.-русск. отн., т. 4, с. 353.
[3] РГВИА,ф.52,оп.1,д.416,ч.1,л.354
[4] Yenə orada.

uğrunda rəqabət gedirdi. Həm də XVIII əsrin 80-ci illərinin ikinci yarısında burada Osmanlı dövlətinin mövqeyinin zəiflədiyini qeyd etmək lazımdır. Bu Cənubi Azərbaycanda Osmanlının başlıca dayağı olan xoylu Əhməd xanın taxt-tac mübarizəsində rəqibləri tərəfindən qətlə yetirilməsi ilə bağlı idi.

## VI.9. Rus və gürcü hərbi dəstəsinin Azərbaycana yürüşünün uğursuzluğu.

1787-ci il iyulun 1-də Tiflisə gələn məlik Bahtamın oğlunun S.Burnaşevə verdiyi məlumata görə, məliklər gizli surətdə II İraklidən Qarabağa yürüş etməsini xahiş etmişdilər. Bir həftə sonra S.Burnaşev P.Potyomkinə İbrahimxəlil xanın Qanzasar patriarxını və məlikləri həbs etdiyini, sonuncuların işgəncələrə dözməyərək günahlarını boyunlarına aldıqlarını və P.Potyomkindən gələn bütün məktubları və hədiyyələri xana verdiklərini yazırdı. Patriarx qorxudan ölmüşdür. Xan 15 min rubl alaraq məlikləri azad etmişdir. Məliklər gizli surətdə II İraklinin yanına adam göndərərək onlara yardım göstərməsini xahiş etmişdilər.[1]

Eyni zamanda II İrakli İbrahimxəlil xanın tərəfdarı olan Cavad xanın Gəncədə hakimiyyətdən uzaqlaşdırılmasını tələb etsə də, gəncəlilər bu tələbi rədd etdilər. İrakli gürcü hərbi dəstələri və rus taboru ilə Gəncəyə yürüşə çıxdı. Avar hakimi Ömər xanın xəstə olması səbəbindən İrakliyə qarşı çıxa bilməməsi yürüş üçün əlverişli şərait yaradırdı. Bu zaman müvəqqəti olaraq İrakli ilə yaxınlaşmış Fətəli xan da Şəki xanı ilə birlikdə İbrahimxəlil xana qarşı çıxdı. Lakin, sonradan Ömər xanın onun mülklərinə basqın edəcəyi barədə xəbər alan Fətəli xan geri qayıtdı. Eyni zamanda o, elçi göndərərək II İraklidən Gəncə xanlığını "rahat buraxması"nı istədi.[2] Görünür Fətəli xan İraklinin Gəncənin müqəddaratını təkbaşına həll etməsini

---

[1] РГВИА, 52, оп. 1, д. 416, ч. 1, л. 353. Арм.-русск; Арм-русск. отн; ч. 4, д. 235, с. 353.

[2] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 2, л. 101.

istəmirdi.

S.Burnaşev gürcü çarına 2-3 min süvari toplayıb Kürün sağ sahili ilə Gəncəyə yürüş etməyi təklif etmişdi. Bununla, həm də qazaxlılara təsir göstəriləcəkdi. [1] Xəbər alınmışdı ki, Qazax mahalının rəisi Əhməd ağa 1500 ailəni götürüb Qarabağa hərəkət etmişdi. İrakli qalan qazaxlıların da köçməsinin qarşısını almaq üçün şahzadə Yulonu hərbi qüvvə ilə ora göndərmişdi.[2]

Burnaşev avqustun 12-də gürcü qoşunları və bir rus taboru ilə Tiflisdən yola düşdü. Qazax mahalında qazaxlıların köçünün qarşısını almaq üçün bura gəlmiş digər rus taboru və şahzadə Yulonun başçılıq etdiyi gürcü dəstələri də Burnaşevin qoşunları ilə birləşdilər. Avqustun 17-18-i arasında müxtəlif yerlərdən gürcü döyüşçüləri də gəldi və birlikdə gürcü qoşunlarının sayı 2 minə çatdı. Burnaşev ayın 20-də yürüşü davam etdirmək niyyətində idi.[3]

Avqustun 21-də rus-gürcü qoşunlarının ön dəstəsi Şəmsəddil qalasında olan Əli Sultanla toqquşdu. 10 nəfər itirən Əli Sultan əsir düşdü.[4]

Sentyabrın 3-də rus-gürcü qoşunları irəliyə hərəkət edib Şəmkirin 23 verstliyinə çatdılar. Ertəsi gün Əli Sultanın iki qardaşı gəlib II İrakliyə 10 min ailəni geriyə, yaşayış yerlərinə qaytarmağa hazır olduqlarını bildirdilər. İrakli Əli Sultanı da azad edib onları buraxdı və ayın 5-də rus-gürcü qoşunları Gəncə şəhərinin ətrafındakı bağlara çatdılar.[5]

II İrakli knyaz Çavçavadzeyə şahzadə Yulon və sərkərdə Davidlə 8 min döyüşçünü Gəncəni almağa göndərdiyini yazırdı. Mühasirəyə alınmış Gəncədə ərzaq qıtlığı yaranmışdı. Aclıqdan hər gün 10-15 nəfər ölürdü.[6]

Sentyabrın 9-da gəncəli Cavad xana aşağıdakı tələblər

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 2, лл. 30 об.

[2] Yenə orada.

[3] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 2, л. 59.

[4] Yenə orada, v. iş 416, his. 2, v. 100.

[5] Yenə orada, v. 101.

[6] РГАДА, ф. 15, д. 185, л. 242 и об.

göndərildi. Əli Sultan və şəmsəddillilər təslim edilsin. İbrahimxəlil xanın nümayəndəsi Həzrətqulu bəy Gəncədən qovulsun; Cavad xan girovlar versin. Cavad xan girovlar verməyə razı olduğunu, lakin şəmsəddilliləri verməyəcəyini və İbrahimxəlil xanla ittifaqdan əl çəkməyəcəyini bəyan etdi.[1]

Sentyabrın 12-də Cavad xana yeni tələblər göndərildi. Cavad xan ildə 5 min manat xərac verməli, doğma qardaşını və 6 nəfər nüfuzlu əyanı əmanət kimi göndərməli idi.[2]

Şuşada həbsdən qaçmlş və təbəələri ilə birlikdə qəsrdə gizlənmiş məlik Abovun və məlik Məclumun göndərdikləri şəxs sentyabrın 13-də gəlib məliklərin Gürcüstana keçmək arzusunda olduqlarını bildirdi. Bu xəbəri alan II İrakli düşərgəni Gəncəçaydan o tərəfə, daha 4 verst irəli çəkməyi qərara aldı.[3]

Elə həmin gün, yəni sentyabrın 13-ü rus-gürcü qoşunları artıq düşərgədən hərəkətə başladıqları bir vaxtda S.Burnaşev general P.Potyomkindən Gürcüstandakı rus qoşunlarını dərhal Qafqaz xəttinə çəkmək barədə əmr aldı. Generaldan rus taborlarının heç olmazsa yaza kimi Gürcüstanda qalması xahiş olunsa da, o, buna razılıq vermədi. P.Potyomkin Qafqaz xəttindəki rus qoşunlarına komandanlığını general Qudoviçə təhvil verərək Peterburqa döndüyünü, buna görə də heç bir yeni sərəncam vermək hüququnda olmadığını bildirdi.[4]

II İrakli Gəncə xanı ilə müqavilə imzalanması və məliklərin Qarabağdan çıxmasına imkan yaradılması üçün daha 3 gün həmin yerdə qalmalarını xahiş etdi.[5]

Məliklərin və təbəələrinin Qarabağdan təhlükəsiz çıxmalarını təmin etmək üçün Şahzadə Yulon 2000 nəfərlə irəli göndərildi. 20 verst getdikdən sonra Yulon İbrahimxəlil xanın Gəncəyə yardım üçün göndərdiyi 1500 nəfərlik dəstə ilə qarşılaşdı. Baş

---

[1] Yenə orada, v. 101 və a.ü.

[2] Yenə orada, v. 101 a.ü.-102.

[3] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 2,л. 102.

[4] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 2, лл. 100-103.

[5] Yenə orada, v. 187.

verən döyüşdə gürcülər qalib gəlsələr də, geri qayıtmalı oldular, çünki Burnaşev çox gözləyə bilməyəcəyini bildirmişdi. Cavad xan düşmənlərin geri çəkiləcəyini anlayıb pul xəracı və girovlar verməkdən imtina etdi. Sentyabrın 18-də rus-gürcü qoşunları geriyə – Tiflisə doğru hərəkətə başladılar.[1] Məliklər rus qoşunları ilə birlikdə Qafqaz xəttinə getdilər.[2] Rus qoşunlarının onu tərk etdiyini görən II İrakli də geri qayıtdı.[3]

Rus-gürcü qoşunlarının Azərbaycana yürüşünün yarımçıq dayandırılmasının səbəbi nə idi? Məsələ burasındadır ki, bu zaman artıq yeni Rusiya-Osmanlı müharibəsi başlanmışdı. 1768-1774-cü illər müharibəsinin təcrübəsi Rusiyanın Gürcüstanda hərbi qüvvə saxlamasının faydasız olduğunu göstərmişdi. Çünki az qüvvə ilə gürcüləri qorumaq çətin idi. Belə olduqda Rus hökuməti azsaylı rus qüvvələrinin onsuz da lazım gələrsə Kartli-Kaxetini osmanlı qoşunlarından müdafiə edə bilməyəcəyini, əksinə Osmanlının bura qoşun göndərməsi üçün bəhanə verəcəyini fikirləşirdi.[4] Rus qoşunları çıxarılardısa, gürcü çarı osmanlılarla sülh münasibətlərinin saxlanması haqqında razılığa gələ bilərdi.

Rus taborlarının Gürcüstandan çıxarılması, Vladiqafqaz qalasının da dağıdılması, gürcü səfiri Çavçavadzenin Rusiyadan geri çağırılması və knyaz Potyomkinin başçılığı ilə rus ordusunun İstanbula doğru irəliləməsi haqqında şayiə öz bəhrəsini verdi. Osmanlılar Cənubi Qafqazda cəbhə açmayaraq əsas diqqətlərini Avropa cəbhəsinə verdilər.

### VI.10. Şəmkirçay sahilində görüş.

Rusiyanın müqaviməti üzündən II İraklini bitərəfləşdirməyə nail olmayan Fətəli xan manevr edib, İrakliyə Cənubi Azərbaycana və İrana birgə yürüş gerçəkləşdirməyi təklif etdi. İrakli də Fətəli xanla ittifaqa girərək onunla birlikdə Cənubi

---

[1] РГВИА, ф. 52, оп. 1, д. 416, ч. 2, лл. 187.
[2] АВПРИ, ф. 77 (СРП), оп 3, д. 464, лл. 7 об.-8.
[3] Ольга Маркова. Göst. əsəri, s. 234.
[4] Ольга Маркова. Göst. əsəri, s. 234.

Azərbaycanda və hətta İranda öz təsirini yaymağa çalışırdı. Nadir şahın nəvəsi, şah taxtına iddiaçılardan biri olan Nəzərəli xana Tiflisdə sığınacaq verilmişdi.[1]

Rusiyaya qarşı barışmaz mövqe tutan Ağa Məhəmməd xanın güclənməsi Rusiyanın Fətəli xanın cənuba yürüş planına müsbət yanaşmasına təkan verdi. P.Potyomkin hələ 1786-cı ilin sonlarında Fətəli xana məktub yazaraq onu Ağa Məhəmməd xanın hücum təhlükəsi ilə əlaqədar II İrakli ilə barışmağa çağırmışdı.[2]

Beləliklə də Fətəli xan Cənubi Azərbaycana qarşıdakı yürüşlə bağlı olaraq Kartli-Kaxetini və Rusiyanı bitərəfləşdirməyə nail oldu. 1789-cu ilin yanvarında Fətəli xanın təşəbbüsü ilə Şəmkirçayın sol sahilində onunla II İrakli arasında görüş oldu. Görüşdə İraklinin zəbt etdiyi Şəmsəddil sultanlığının Gəncə xanlığına qaytarılması barədə razılıq əldə edildi.[3] Gələn il Fətəli xanın cənuba yürüş etməsinə razılıq verildi.[4]

Lakin görüş zamanı Fətəli xanın qəfil xəstələnməsi və geri qayıdarkən 1789-cu ilin martın 22-də Bakıda vəfat etməsi səbəbindən planlaşdırılan yürüş baş tutmadı.

Beləliklə mənbələrin təhlili göstərir ki, XVIII əsrin 80-ci illərinin ortalarından Rusiyanın Osmanlı dövlətinə basqısı yenidən güclənir, çünki beynəlxalq şərait rusların xeyrinə idi. 70-ci illərin ortalarından özünün Şimali Amerikadakı müstəmləkələri, eyni zamanda Fransa və Hollandiya ilə müharibə vəziyyətində olan İngiltərə Rusiyanın yardımına ehtiyac duyduğundan onu öz tərəfinə çəkmək üçün II Yekaterinanın böyük həvəs göstərdiyi türkləri Avropadan qovmaq və "Yunan imperiyası" yaratmaq ideyasını dəstəkləməyə başladı.[5]

İngiltərə eyni zamanda Avstriyanın öz müttəfiqi Fransa ilə

---

[1] Ольга Маркова О. Göst. əsəri, s. 267.

[2] РГВИА, ф. 52, оп. 1, д. 336, ч. 4, л. 255 и об.

[3] İbrahim bəy Hacınski. Qubalı Fətəli xanın həyatı (tərcüməçi F.Babayev). Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1959, s. 68-69.

[4] Yenə orada, s. 69.

[5] Ольга Маркова. Göst. əsəri, s. 238.

münasibətlərini pisləşdirmək üçün Rusiya-Avstriya yaxınlaşmasına kömək etməyə başladı. Bunun nəticəsi olaraq 1781-ci ilin yazında iki dövlət arasında bağlanmış müqaviləyə görə Osmanlı imperiyasının Rusiyaya hücumu təqdirində Avstriya Rusiyaya hərbi yardım göstərməyi öhdəsinə götürdü; 1783-cü ildə Rusiyanın Krım xanlığını ilhaq etməsi Avropa ölkələrinin kəskin müqavimətinə rast gəlmədi. Rusiya Krımın işğalını rəsmiləşdirdikdən sonra əsas diqqətini Qafqaza yönəltdi. Məhz Rusiyanın bu regiondakı ekspansiyaçı siyasəti 1787-ci ildə Rusiya ilə Osmanlı imperiyası arasında yeni müharibənin başlanmasının əsas səbəblərindən biri olmuşdur.

Müharibə başlayandan sonra tərəflərin hər biri Azərbaycan və Dağıstan hakimlərini öz tərəfinə çəkməyə çalışırdı. Sultanın Çıldır valisi Süleyman paşaya göndərdiyi fərmanda deyilirdi ki, Azərbaycan xanları və Dağıstan hakimlərini birləşdirib II İraklini cəzalandırmaq, Qızlar şəhərinə hücum təşkil etmək lazımdır.[1] Osmanlıların tərəfindən çıxış etməyə razı salmaq üçün bir hacıbaşı çoxlu hədiyyə və pullarla Dağıstan hakimlərinin və İbrahimxəlil xanın yanına göndərildi. Hərbi əməliyyatlarda iştirak edəcək hər kəsə pul veriləcəyi vəd olunurdu.[2] Lakin bu dövrdə ara müharibələri getdiyindən Azərbaycan xanlarının Rusiyaya qarşı müharibədə birləşmələri mümkün deyildi. Ümumiyyətlə, Azərbaycan xanları dinbir və etnik cəhətdən yaxın Türkiyəyə meyil etsələr də, Rusiyadan ehtiyatlanır və hadisələrin gedişini izləyirdilər.

Rusiya da öz növbəsində, Qafqaz hakimlərini öz himayəsinə almaq, onları Osmanlı dövlətindən uzaqlaşdırmaq istəyirdi. Eyni zamanda Rusiya himayəsi altında olan Kartli-Kaxetini müdafiə etmək imkanında olmadığından Cənubi Qafqazdakı gərginliyi azaltmaq üçün İrakliyə Çıldır valisi Süleyman paşa ilə danışıqlara girməyi tövsiyyə etdi. Süleyman paşa ilə II İrakli arasında danışıqlar bir-birinə hücum etməmək haqqında saziş bağlanması

---

[1] Ахмед Джевдет паша. Göst. əsəri, s. 391-392.

[2] Петр Бутков. Göst. əsəri, II his., s. 202.

ilə nəticələndi.[1] Bir müddət sonra isə Gürcüstanda hərbi qüvvələr saxlamağın onun üçün əlavə problemlər yaradacağını düşünən rus hökuməti özü qoşunlarını buradan çıxardı.

Beləliklə, tarixi araşdırmadan məlum olur ki,bir sıra erməni siyasətbazları (İ.Emin və b.) da Azərbaycan ərazisində erməni dövləti yaratmaq xəyalına qapıldıqları zaman onların bu arzusu rus hökumətinin Cənubi Qafqazda işğalçılıq fəaliyyətini gücləndirmək istəyi ilə üst-üstə düşmüşdü. Çünki, "Bizans layihəsi"nin ikinci hissəsi Qafqazda mövcud gürcü çarlığını gücləndirməklə yanaşı digər oyuncaq xristan dövləti yaratmaqdan ibarət idi. Buna görə də, təxminən elə bu vaxt knyaz Potyomkin general A.Suvorova Xəzəryanı vilayətlərə yürüşə hazırlaşmaq üçün göstəriş vermişdi. Yürüşün məqsədləri içərisində Dərbənddə rus qarnizonu yerləşdirmək və Gilanda istehkamı inşa etmək vəzifələri də vardı.

Lakin 80-ci illərin əvvəllərində rus sarayı əsas diqqəti Krım xanlığını işğal etməyə yönəltdiyindən nə 1780, nə də 1781-ci ildə Xəzəryanı vilayətlərə yürüş gerçəkləşdirilmədi. Geniş quru və dəniz əməliyyatları keçirmək əvəzinə, 1781-ci ildə Voynoviçin başçılığı ilə hərbi dəniz ekspedisiyası təşkil edildi. Lakin Quba xanı ilə ticarət müqaviləsi bağlanmasından əlavə bu ekspedisiyanın ciddi faydası olmamışdı.

Rusiya hakimiyyət orqanları Azərbaycan ərazisində erməni dövləti qurmaq yönündə fəaliyyətlərini davam etdirirdilər. Hətta, 1782-ci ilin aprelin 6-da Qafqaz xəttindəki rus qoşunlarının yeni komandanı general P.Potyomkinə İbrahim Xəlil xanı devirib, Qarabağda Rusiyanın himayəsi altında müstəqil xristian vilayəti təşkil etmək üçün zəmin hazırlamaq barədə göstəriş vermişdi. Rusiyanın bu siyasəti müstəqilliyə can atan Qarabağın xristian məliklərini və Alban katolikosunu fəaliyyətə ruhlandırırdı.

Rusiya həm də qubalı Fətəli xanın Qarabağa hakimiyyətini yaymağa müqavimət göstərirdi. 1783-cü ilin əvvəllərində qubalı Fətəli xanın Qarabağa və Qaradağa yürüşü haqqında məlumat

[1] Ольга Маркова. Göst. əsəri, s. 229-231.

alan P.Potyomkin dərhal ona məktub göndərib onun nəinki artıq Rusiyanın himayəsində olan Gürcüstanın hüdudlarına girməməsini, eləcə də Qarabağda və Qaradağda yaşayan azsaylı xristian əhalisinə xətər yetirməməsini tələb etmişdi. Hətta knyaz Potyomkin P. Potyomkinə Dərbəndi tutmasını əmr etmişdi. Rus hakimiyyət orqanları Fətəli xanı tutmaq üçün ona düşmən digər xanlardan istifadə etməyi düşünürdülər.

Kartli-Kaxeti çarı II İraklinin Rusiya himayəsindən istifadə edib, bütün Cənubi Qafqazı özünə tabe etməyə, ilk növbədə Gəncəni tutmağa can atması o zaman Azərbaycanın ən qüdrətli xanı olan qubalı Fətəli xanın kəskin müqavimətinə rast gəlirdi. Hətta, Fətəli xan 1782-ci ildə VI Vaxtanqın oğlu Bakarın övladı knyaz Aleksandra öz sarayında sığınacaq verərək gürcü taxtına yiyələnməkdə yardım göstərəcəyini də vəd etmişdi. Lakin Rusiyanın əks tədbirləri Fətəli xanı II İrakliyə qarşı çıxış etməkdən çəkindirdi, üstəlik P.Potyomkinin tələbi ilə knyaz Aleksandrı rus komandanlığına təslim etdi.

Bundan sonra Fətəli xan diqqətini yanında saxladığı "Abbas Mirzə" adlı yalançı şahzadəni şah taxtına əyləşdirməyə yönəldir və bu işdə Rusiyanın yardımına nail olmağa çalışırdı. Rusiya hökuməti isə Fətəli xanda özünün Azərbaycana dair iddialarının gerçəkləşməsi üçün maneə gördüyündən onun təsirinin məhdudlaşdırılmasına çalışırdı. Hətta devrilmiş Krım xanı Şahin Gərayı İrana göndərib şah taxtında oturtmaq fikrinə düşmüşdü.

Rusiyanın Gürcüstanı himayəyə almasından və Gürcüstana yol çəkməsindən narahat olan Osmanlı sarayı Azərbaycan xanlarını və Dağıstan hakimlərini Rusiyaya qarşı birləşməyə, Rusiyanı Osmanlı hüdudlarına və Cənubi Qafqaza buraxmamağa, Qafqaz dağlarından keçən yolu dağıtmağa çalışırdı. Lakin 1783-cü ilin payızında Xəlil Əfəndinin başçılığı ilə Qafqaza gələn sultan nümayəndələri Azərbaycan və Dağıstan hakimlərinə Rusiyaya və Kartli-Kaxetiyə qarşı ittifaq bağlamağı təklif etsələr də, Rusiyanın əks-tədbirləri nəticəsində Xəlil Əfəndi Azərbaycan və Dağıstan hakimlərinin Rusiyaya və Kartli-Kaxetiyə qarşı mübarizəsini təşkil edə bilmədi.

Sonrakı ilin payızında İbrahim Əfəndinin başçılığı ilə Qafqaza göndərilən yeni nümayəndə heyətinin səfəri əsasən uğurlu olmuş, 1785-ci ilin yazında bir sıra hakimlərlə müqavilə imzalanmışdı.

Osmanlı hökumətinin Azərbaycanda ən çox diqqət yetirdiyi məntəqələrdən biri İrəvan idi. Burada Osmanlı təsirini möhkəmləndirmək üçün İrəvanda olan Osmanlı nümayəndələri Məhəmmədin Osmanlıya meyilli Xoy xanının ondan böyük olan qızı ilə evlənməsinə nail olmuşdular.

XVIII əsrin 80-ci illərində qubalı Fətəli xanın Azərbaycanı birləşdirmə siyasətinin yenidən güclənməsi müşahidə olunur. O,1784-cü ilin may ayında döyüşsüz Ərdəbili, sonra da Meşkini ələ keçirmişdi. Fətəli xanın Azərbaycanın cənubuna yürüşü Rusiya sarayının və II İraklinin, eləcə də ona əks mövqedə dayanan Dağıstan hakimlərinin və Azərbaycan xanlarının kəskin reaksiyasına səbəb olmuşdu. Fətəli xan uğurla başlamış Cənub yürüşünü dayandırıb geri dönməli oldu.

Bu dövrdə Rusiya hakim dairələrində Cənubi Qafqazın bəzi vilayətlərini tutub, oyuncaq xristian dövləti yaratmaq barədə müzakirələr davam edirdi. Knyaz Potyomkin Bakı, Dərbənd və Gilanı tutub böyük knyaz Konstantin Pavloviçə çatmaq üçün xristian Albaniya dövlətinin bərpa edilməsi təklifini irəli sürürdü. Tərtib edilmiş plana əsasən rus qoşunlarının həm Xəzər dənizinin qərb sahili ilə Dərbənddən Ənzəliyə, həm də Gürcüstan tərəfdən Qarabağ, Qaradağ və İrəvan xanlıqlarına yeriməsi, həm də qonşu hakimləri Fətəli xana qarşı qaldırmaq qərara alındı. General Potyomkin Fətəli xandan qoşunlarını buraxmağı tələb etdi.

Elə bu dövrdə Rusiyanın Cənubi Qafqazda dinc yolla möhkəmlənməsi üçün əla fürsət yaranır. 1779-cu ildə Kərim xan Zənd ölәndən sonra Zəndlər sülaləsinin digər bir nümayəndəsi Əlimurad xan Mərkəzi İranda hakimiyyəti ələ keçirmişdi. Çoxları onu hökmdar kimi tanımaq istəmirdi. Bu səbəbdən Əlimurad xan Rusiyanın dəstəyinə nail olmaq üçün 1783-cü ildə general Potyomkinin yanına nümayəndəsini göndərərək Xəzəryanı əraziləri, habelə Qarabağ, Qaradağ, Naxçıvan və İrəvan

xanlıqlarının ərazisini Rusiyaya güzəştə getməyə hazır olduğunu bildirmişdi. Bu fürsətdən yararlanmaq istəyən rus hökuməti 1784-cü ilin payızında polkovnik Tamaranı Əlimurad xanla danışıqlar aparmaq üçün İrana göndərmişdi. Lakin, elçilik İsfahana yaxınlaşdığı zaman 1785-ci ilin fevralında Əlimurad xan vəfat etdi.

Əlimurad xanın ölümündən sonra Azərbaycanın cənubunda və İranda ara müharibələrinin yenidən qızışdığı zaman Xoy xanlığı Azərbaycanın cənubunda ən güclü xanlıq idi. Onun hakimi Əhməd xanın artan gücü və nüfuzu Osmanlı imperiyası və Rusiyanın diqqət mərkəzində idi. Osmanlı sultanı Əhməd xana İran hökmdarları tərəfindən təhlükə olacağı təqdirdə yardım vəd edib, ona "sərəsgər" ali hərbi rütbəsi verdi. Xoylu Əhməd xan isə öz hakimiyyətini qorumaq naminə Osmanlı dövləti və Rusiya arasında manevr edirdi. O öz nümayəndəsini Sankt-Peterburqa göndərərək Rusiya təbəəliyinə qəbul olunmasını xahiş etmişdi.

Ümumiyyətlə, digər Azərbaycan xanları da manevr siyasətini yürütməkdə davam edirdilər. 1785-ci ildə Qarabağ xanının elçisi Musa Sultan və Quba xanının elçisi Mirzə Sadıq da himayəyə qəbul olunmaq barədə ərizələrlə Sankt-Peterburq sarayına göndərilmişdilər.

Qeyd edək ki, Rusiya və Osmanlı imperiyaları arasında təkcə Qafqazda deyil, Cənubi Azərbaycanda təsir uğrunda da rəqabət vardı. Həm də XVIII əsrin 80-ci illərinin ikinci yarısında Osmanlının başlıca dayağı olan xoylu Əhməd xanın rəqibləri tərəfindən qətlə yetirilməsindən sonra Osmanlı dövlətinin təsirinin zəifləməsi müşahidə olunur.

Bu dövrdə Rusiyanın himayəsinə arxalanaraq Qarabağ xanlığı ərazisində özləri üçün dövlət qurmağa çalışan məliklər daha da fəallaşmışdılar. İbrahimxəlil xan çevik hərəkət edərək Qanzasar patriarxını və qiyamçı məlikləri – Abovu və Məclumu cəzalandırmışdı. Patriarx qorxudan ölmüş, məliklər 15 min manat verməklə xilas olmuş, sonra da gizli surətdə II İraklinin yanına adam göndərərək yardım istəmişdilər. II İrakli həm məliklərin xahişini nəzərə alaraq, həm də Gəncədə İbrahimxəlil xanın

tərəfdarı olan Cavad xanı devirmək üçün Tiflisdəki iki rus taboru ilə birlikdə yürüşə çıxmışdı. Lakin 1787-ci ildə yeni Osmanlı-Rusiya müharibəsinin başlaması ilə əlaqədar rus komandanlığının qüvvələrini səpələməmək üçün Gürcüstandakı rus taborlarının Şimali Qafqaza çəkməsi nəticəsində yürüş yarımçıq qalmış, məliklər rus qoşunları ilə birlikdə Qafqaz xəttinə getmişdilər.

Rusiyanın müqaviməti üzündən II İraklini bitərəfləşdirməyə nail olmayan qubalı Fətəli xan manevr edərək, ona Cənubi Azərbaycana və İrana birgə yürüş etməyi təklif etdi. Rusiyaya qarşı barışmaz mövqe tutan Ağa Məhəmməd xanın güclənməsi Rusiyanı bu dəfə Fətəli xanın cənuba yürüş planına razılıq verməyə vadar etdi. Məlumdur ki, 1789-cu ilin yanvarında Şəmkirçayın sol sahilində qarşıdakı yürüşlə bağlı olaraq Fətəli xan və II İrakli arasında görüş keçirilmişdi. Lakin görüş zamanı Fətəli xan qəfil xəstələnmiş və geri qayıdarkən Bakıda vəfat etmişdi. Bu səbəbdən planlaşdırılan yürüş baş tutmamışdı.

1787-ci ildə yeni Rusiya-Osmanlı müharibəsi başladıqdan sonra tərəflərin hər biri Azərbaycan və Dağıstan hakimlərini öz tərəfinə çəkməyə çalışırdı. Azərbaycan xanları eyni soykökə malik dinbir Türkiyəyə meyillənsələr də, Rusiyadan ehtiyat edir, Osmanlının tərəfində açıq çıxış etməkdən çəkinirdilər və hadisələrin gedişini izləyirdilər. Bu müharibədə də qalib gəlib 1792-ci il Yassı sülh müqaviləsi ilə Osmanlını Cənubi Qafqazda fəal siyasət yürütməkdən məhrum edən Rusiya bölgədə öz ekspansiyasını gücləndirdi.

# VII FƏSİL

## XVIII YÜZİLLİYİN 90-cı İLLƏRİNDƏ AZƏRBAYCANDA RUSİYA-QACARLAR İRANI VƏ RUSİYA – OSMANLI QARŞIDURMASI

### VII.1. XVIII əsrin 90-cı illərində Cənubi Qafqazda Rusiya-Qacar qarşıdurması

#### VII.1.1. Ağa Məhəmməd xan Qacarın yüksəlişi və Azərbaycanın cənub xanlıqlarını tabe etməsi.

XVIII əsrin ikinci yarısındakı II Rusiya-Osmanlı müharibəsində qalib gəlib, 1792-ci il Yassı sülh müqaviləsi ilə Osmanlını Cənubi Qafqazda fəal siyasət yürütməkdən məhrum edən Rusiya bu bölgədə ekspansiyasını gücləndirdi. Bu illərdə Rusiya Cənubi Qafqazda hökmranlıq uğrunda mübarizədə yeni bir namizəd Ağa Məhəmməd xan Qacarın rəqabəti ilə qarşılaşır.

Ağa Məhəmməd xan Məhəmmədhəsən xan Qacarın böyük oğlu idi. Vaxtilə Əliqulu xan (Adil şah) onu axtalatdırmışdı. Atası 1758-ci ildə şah taxtı uğrunda mübarizədə həlak olduqdan bir neçə il sonra qardaşı Hüseynqulu xanla birlikdə girov kimi Şiraza, Kərim xan Zəndin sarayına göndərilmişdi. Bir müddət sonra Hüseynqulu xan Kərim xan tərəfindən Damğana hakim təyin olunmuş, ancaq 1774-cü ildə türkmənlərlə toqquşmada həlak olmuşdu. Ağa Məhəmməd xan isə 1779-cu ilə - Kərim xanın ölümünə qədər girovluqda qalmışdı. Bu müddət ərzində Astrabad və Mazandaran qacarlarına Ağa Məhəmməd xanın anadan ögey qardaşları başçılıq etmişdi. Kərim xanın ölümündən sonra 36 yaşlı Ağa Məhəmməd xan gizli şəkildə 6 nəfərin müşayiəti ilə Şirazı tərk edərək Mazandarana gəlmiş və hakimiyyət uğrunda mübarizəyə başlamışdı. Ağa Məhəmməd xan bütün qacarların başçısı ola bilmiş və şah taxtına iddiaçılardan birinə çevrilmişdi. Qacarlara və türk tayfalarına arxalanan Ağa Məhəmməd xan türkçülüyü ön plana çəkirdi. Eyni zamanda o, Kərim xanın tacir və sənətkarları himayə etmək siyasətini davam etdirərək əhalinin

xeyli hissəsinin rəğbətini qazanmağa nail olmuşdu.

Şah taxtı uğrunda mübarizədə Ağa Məhəmməd xanın əsas rəqibi Zəndlər idi. İrəlidəki fəsildə qeyd olunduğu kimi 80-ci illərin əvvəllərində zəndlərin ən güclü nümayəndəsi Əlimurad xan öz tayfasından olan rəqibləri, eləcə də Ağa Məhəmməd xan üzərində qələbə qazanaraq İranın şimalına və mərkəzinə öz hakimiyyətini yaymış və İsfahanı öz iqamətgahına çevirmişdi. Ağa Məhəmməd xanın qardaşlarından ikisi – Murtuzaqulu xan və Mustafaqulu xan da Əlimurad xanın tərəfinə keçmişdilər.

1785-ci ilin əvvəlində Əlimurad xanın ölməsi Ağa Məhəmməd xanın fəallaşması üçün şərait yaratmış və o, Tehranı ələ keçirməyə nail olmuşdu.[1]

Şimali İranda möhkəmlənən Ağa Məhəmməd xan nəzərlərini Azərbaycanın cənubuna yönəltdi. Bu zaman böyük nüfuza malik xoylu Əhməd xanın ölümündən sonra burada vəziyyət mürəkkəb idi, xanlıqlararası müharibələr qızışmışdı. Bu isə onların itaətə gətirilməsini asanlaşdırırdı. Ağa Məhəmməd xanın gücünü görən bir çox Cənubi Azərbaycan xanları 1788-ci ildə itaətlərini bildirdilər.[2]

Tabe olmayanları itaətə gətirmək üçün Ağa Məhəmməd xan müxtəlif diplomatik üsullardan istifadə edirdi. Məsələn, urmiyalı Əli xanın böyük nüfuza malik olmasını nəzərə alaraq ona çatdırdı ki, əgər Əli xan Qacarın hakimiyyətini döyüşsüz qəbul edərsə, onu öz vəziri təyin edib Azərbaycanın idarəçiliyini ona tapşıracaq.[3] Bir müddət Əli xanla mehriban davranaraq tam etimadını qazanan Ağa Məhəmməd xan onun gözlərini çıxartdırdı.[4] Əli xanın qohumu Məhəmmədqulu xan Urmiyanın yeni hakimi elan olundu. Ancaq, Ağa Məhəmməd xan Urmiya xanlığının ərazisini tərk edən kimi Məhəmmədqulu xan ona tabe olmaqdan imtina etdiyi üçün Ağa Məhəmməd xan Urmiya

---

[1] РГВИА, Ф 52, оп. 1, д.350, ч. 5, л. 17

[2] Жизнеописание Ага Магомет-хана Каджара..,с.278.

[3] Yenə orada

[4] Tofiq Mustafazadə. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, 2002, s.209.

hakimliyini Məhəmmədqulu xanın qardaşı oğlu Hüseynqulu xana vəd edərək onu əmisinə qarşı qaldırdı.[1]

Azərbaycanın cənub xanlıqları özlərini Qacar təhlükəsindən qorumaq üçün yardım almaq məqsədilə Osmanlı dövlətinə müraciət etdilər. 1790-cı ilin əvvəllərində marağalı Əhməd xan, xoylu Hüseyn xan və irəvanlı Məhəmməd xan sultan III Səlimə müraciət edərək Ağa Məhəmməd xana qarşı mübarizədə yardım istədilər. [2] Lakin bu zaman Rusiya ilə növbəti müharibə getdiyindən, həm də Sultan, Qacara Rusiyanın onun sərhədləri yanında irəliləməsinə mane ola biləcək bir qüvvə kimi baxdığından Azərbaycan xanlarının müraciətinə cavab vermədi.

1790-cı ildə Ağa Məhəmməd xan öz sərkərdəsi Mustafa xan Qacarı 6 minlik qoşunla Səraba, Sadıq xanın üzərinə göndərdi. Baş verən döyüşdə ağır məğlubiyyətə uğrayan Sadıq xan Qaradağa qaçdı.[3] 1791-ci ildə Təbriz istiqamətində hərəkət edən Ağa Məhəmməd xan yolüstü Seyidabad kəndində düşərgə salıb dayandı və Cənubi Azərbaycan xanlarından ona itaət göstərmələrini və sədaqət əlaməti olaraq öz uşaqlarını, övladlarını və qardaşlarını girov kimi göndərmələrini tələb etdi. Xoy, Təbriz, Ərdəbil, Qaradağ və Naxçıvan xanları bu tələbi yerinə yetirdilər. Qaradağda gizlənən Sadıq xan Şəqqaqi də öz qoşunu ilə Ağa Məhəmməd xanın düşərgəsinə getməyə məcbur oldu. Xanların hər birinin üzərinə Qacar xəzinəsinə illik xərac ödəmək öhdəliyi qoyuldu.[4] Beləliklə, Azərbaycanın cənub xanları Qacardan asılı vəziyyətə düşdülər.

Bəzi müəlliflərin yazdığına görə, Ağa Məhəmməd xan 1791-ci ildə özünü şah elan etmiş, tacqoyma mərasimini isə təxirə salmışdı.[5] Çünki ənənəyə görə şah tacını başına qoymaq istəyən

---

[1] Tofiq Mustafazadə. XVIII yüzillik..., s.249-250

[2] Yenə orada.

[3] Нина А.Кузнецова. Политическое и социально-экономическое положение Ирана в конце XVIII –первой половине XIX вв. Очерки новой истории Ирана. Москва: Наука,1978,с.8

[4] Nisə Mustafayeva. Cənubi Azərbaycan xanlıqları. Bakı, Azərnəşr-1995, s.61.

[5] Ольга Маркова. Göst.əsəri, s. 283

hər bir şəxs imperiyanın (yəni Səfəvilərin) sərhədlərini bütövlükdə bərpa etməli idi. Bunun üçün isə Azərbaycanın şimal xanlıqlarını və Kartli-Kaxeti çarlığını da itaətə gətirmək lazım idi.

Ağa Məhəmməd xan ağıllı və hiyləgər, öz zəmanəsinə görə yüksək savada malik bir adam idi. O, Əlimurad xandan fərqli olaraq Rusiyaya ərazi güzəştləri etmək niyyətində deyildi. Bu isə Rusiyanı təmin etmirdi. Buna görə də Rusiya Ağa Məhəmməd xana düşmən olan və Rusiyaya ərazi güzəştləri vəd edən qardaşları Murtuzaqulu xan və Mustafaqulu xanı dəstəkləmək istəyirdi.[1]

1786-cı ildə İsfahan və Gilanı ələ keçirdikdən sonra Ağa Məhəmməd xanın Q.A.Potyomkinə məktub göndərib ruslara dost münasibət göstərmək niyyətini bildirməsi rus hökumətində bir tərəddüd yaratdı. [2] Hətta, 1787-ci ilin əvvəllərində Q.A.Potyomkinin və P.S.Potyomkinin adından Ağa Məhəmməd xana qazandığı qələbələr münasibətilə təbrik məktubu və qiymətli hədiyyələr göndərildi. [3] Ağa Məhəmməd xan Potyomkinlərin təbrikinə cavab olaraq 1787-ci ilin yayında öz elçisi Mirzə Məhəmməd xanı Rusiyaya göndərib Rusiya ilə dostluğu özü üçün xoşbəxtlik saydığını bəyan etmiş və bu dostluğun müqavilə ilə möhkəmləndirilməsinin zəruriliyini vurğulamışdı. [4] Ağa Məhəmməd xan rus hakimiyyət orqanları ilə əlaqələri intensivləşdirməklə Rusiyanın Murtuzaqulu xana əməli yardım göstərməsinə mane oldu.

Tezliklə Rusiya hakim dairələri Ağa Məhəmməd xanın ərazi məsələlərində Rusiyaya heç bir güzəşt etmək niyyətində olmadığını anlayıb onun elçisini Sankt-Peterburqa buraxmadılar.[5]

Həştərxan qubernatoru Bryançininovdan Murtuzaqulu xanın məktubunu alan Qudoviç onun Rusiya himayəsini arzulaması haqqında Q.Potyomkinə yazmış eyni zamanda Qudoviç

---

[1] Джамал Мустафаев. Северные ханства Азербайджана и Россия.., с.71
[2] РГВИА, ф. 52, оп. 2, д. 32, л.23
[3] РГВИА, ф.846, оп..16, д.399, лл. 105-106; Маркова О. Россия.., с.217.
[4] РГВИА, ф. 52 он. 1, д.416, 1,я.311
[5] РГВИА, ф. 52 он.1,д.416, ч.1, л. 476 и об.

Murtuzaqulu xana və digər hakimlərə nəvazişli məktublar göndərmişdi.[1]

Qudoviç eyni zamanda Xəzər donanmasının komandanı general-mayor dərəcəli kapitan Şişkinə rus ticarətinə himayə üçün gəmilər göndərilərkən Ənzəliyə yola düşəcək rəisə Murtuzaqulu xana xeyirxah münasibət göstərməsini, lakin ona düşmən xanlarla toqquşmaya girməməsini tapşırmışdı. Qudoviç hesab edirdi ki, Rusiyaya sədaqətli xanları gücləndirməklə yanaşı, Rusiyaya xeyirxah münasibət göstərməyən hakimlərin gücünü başqasının əli ilə azaltmaq daha faydalıdır.[2] Qudoviç hesab edirdi ki, İsfahanı alandan sonra çox güclənmiş və Rusiyaya tərəf heç bir müsbət jest göstərməyən Ağa Məhəmməd xanın zəiflədilməsi zəruridir.

Təkcə Murtuzaqulu xan deyil, Azərbaycan xanları da bir-birlərinə qarşı mübarizədə yardım üçün Rusiyaya müraciət edirdilər. 1791-ci ilin martında qubalı Əhməd xan öldükdən sonra, yerinə taxta çıxan qardaşı Şeyxəli xan iyunun sonunda Qudoviçə məktub göndərərək Bakını qaytarmaqda ona yardım olunmasını xahiş edirdi. Onun sözünə görə, Əhməd xanın ölümü ilə əlaqədar onun Bakı naibi təyin etdiyi Məhəmmədqulu xan Quba xanlığından ayrılmışdır. Şeyxəli xan Qudoviçdən Bakını mühasirə edərkən ona dəstək kimi Bakı yaxınlığında lövbər salmış Rusiya gəmilərindəki toplardan bir neçə atəş açılmasını xahiş edirdi:[3] Ancaq çox keçməmiş, cəmi on dörd gün sonra Qudoviç Bakıda mühasirədə olan Məhəmmədqulu xandan məktub aldı. Sonuncu özünü Bakının qanuni hakimi adlandıraraq, Rusiya imperatorunun himayəsinə daxil olmaq istəyini bəyan edir və Bakını mühasirəyə almış Şeyxəli xana qarşı yardım xahiş edirdi. Qudoviç dərhal Şişkinin yanına kuryer göndərərək hərəkət etməzdən əvvəl vəziyyəti dəqiq öyrənib, Məhəmmədqulu xanın həqiqi hakim, yoxsa, tabelikdən çıxmış naib olduğunu

[1]РГВИА, ф. 52, оп. 2, д. 32, л.23
[2] Кавказский сборник, Т. XVIII, Тифлис, 1897, сс.420-421.
[3] Yenə orada,s. 422.

aydınlaşdırmağı, dəqiq məlumat aldıqdan sonra vəziyyətə uyğun hərəkət etməyi tapşırdı. [1] Qudoviçin sözünə görə ümidsiz vəziyyətə düşmüş Məhəmmədqulu xan xərac verməyə razılaşaraq Şeyxəli xanla barışmışdı.[2]

Sonra Qudoviç digər xanların yardımı ilə Murtuzaqulu xanın Rəşt və Ənzəlini qardaşı Ağa Məhəmməd xan Qacardan aldığını yazırdı. [3] Lakin, Qudoviç Ağa Məhəmməd xanın Murtuzaqulu xanı Gilandan qovduğunu da yazırdı. Murtuzaqulu xan indi Lənkəran xanlığının ərazisində idi. Ağa Məhəmməd xan qardaşına qarşı 12 minlik qoşun göndərmişdi. Lakin Murtuzaqulu xan lənkəranlı Mustafa xanın yardımı ilə bu qüvvəni dəf etmişdi. Ağa Məhəmməd xanın ordusu geri çəkilməli olmuşdu.[4]

Qudoviç Ağa Məhəmməd xana qarşı açıq çıxmağı münasib bilməyərək, eyni zamanda Murtuzaqulu xana yardım göstərilməsini, Ağa Məhəmməd xanı isə zəiflətməyi məsləhət görürdü.[5] 1792-ci ilin aprelində rus hökuməti Murtuzaqulu xana yardım göstərmək qərarına gəldi. 1792-ci il avqustun 12-də Dövlət Şurasında İ.Qudoviçin 26 iyul 1792-ci il tarixli raportu oxunanda isə artıq Qudoviçin Azərbaycan və İran xanlarının daxili mübarizələrinə qarışmamaq şərtilə onların himayəyə qəbul olunmasına tərəfdar çıxdığı məlum oldu. O, Murtuzaqulu xana açıq hərbi yardım göstərməyi məqsədəuyğun saymır, yalnız artilleriya və mütəxəssislər göndərilməsinin gərəkdiyini yazırdı. Şura Qudoviçin rəyi ilə razılaşdı.[6]

Ağa Məhəmməd xanın qarşısında duruş gətirə bilməyən Murtuzaqulu xan 1792-ci ilin payızında rus freqatına minib Gilandan qaçdı, və bir neçə ay Azərbaycanda qaldıqdan sonra

---

[1] Кавказский сборник, т. XVIII, Тифлис, 1897, с.423.

[2] Yenə orada, s.424.

[3] Yenə orada, s.426.

[4] Yenə orada, s.427

[5] Архив Государственного Совета. т.1. Совет в царсвование императрицы Екатерины II (1768-1796 г.г) ч.2 (отделение юридическое) СПБ.:1867, с.793.

[6] Архив Государственного Совета. т.1,ч.2, с793-794.

1793-cü il aprelin sonunda Həştərxana üzdü. O, II Yekaterina ilə görüşmək istəsə də, Sankt-Peterburqa getməsinə icazə verilmədi.[1]

Dövlət Şurasının 23 fevral 1793-cü il tarixli iclasında Qudoviçin bakılı Hüseynqulu xanı Rusiya himayəsinə qəbul edib-etməmək barədə sorğusuna cavab olaraq, Bakı əvvəllər Qubadan asılı olduğundan indi Quba xanının güclü olub-olmadığı və Bakını öz asılılığında saxlaya bilib-bilməyəcəyinin öyrənilməli olduğu bildirildi.

Əgər Quba xanı güclüdürsə, onu və ondan asılı xan kimi Bakı xanını himayəyə qəbul etmək olar. Yox əgər Bakı xanı müstəqildirsə, bu xanları ayrı-ayrılıqda himayəyə qəbul etmək lazımdır.[2] Həmin il avqustun 11-də Qudoviçin Dövlət Şurasında oxunan növbəti məktubundan qubalı Şeyxəli xanın nümayəndəsi Mirzə Həsənin onun yanına gələrək xanın adından Rusiyaya sədaqət andı içdiyi məlum oldu. Bakılı Hüseynqulu xanla bağlı hökumətin rəyi hələ məlum olmadığından, hələlik onun nümayəndəsinə sədaqət andı içdirməyib öz yanında saxlayır. Qudoviçin 1794-cü ilin əvvəlinə dair digər raportundan Şeyxəli xanın öz nümayəndəsinin qəbul etdiyi sədaqət andını təsdiqləməkdən boyun qaçırıdığı məlum olur.[3]

Bu zaman isə İranda Ağa Məhəmməd xan mövqeyini möhkəmləndirməkdə idi. Ağa Məhəmməd xan Murtuzaqulu xanla yanaşı, zəndlərlə mübarizəni də davam etdirirdi. 1791-ci ildə o, Şiraza hücum etdi. Lütfəli xan Zəndin ən çox etibar etdiyi adamlarından olan şəhərin kələntəri Hacı İbrahimi ələ ala bildi.[4] Hacı İbrahim şəhəri qoruyan elatları tərksilah etdi. Qacarın sənətkarlara və tacirlərə himayə göstərməsindən xəbərdar olan Şirazın sənətkarları və tacirləri onun tərəfinə keçdilər. Beləliklə, Şiraz müqavimətsiz ələ keçirildi, Lütfəli xan isə Kirmana qaçdı.[5]

---

[1]Николай Дубровин. История войны и владычства..,т.3, СПб.,1886, сс-5-6; Кавказский сборник, Т. XVIII, Тифлис, 1897, с.420-421

[2] Архив Государственного Совета, т.1, ч. 2, с. 793

[3] Yenə orada, s. 795-796.

[4] Нина Кузнецова. Göst.əsəri, s.110

[5] Степан Кишмишев. Göst.əsəri, s.246.

1794-cü ildə Ağa Məhəmməd xan çox böyük bir ordu ilə Lütfəli xanın sığındığı Kirman şəhərini mühasirəyə almış, beş aylıq mühasirədən sonra şəhərdə aclıq başladığından Lütfəli xan gizli yolla oranı tərk edib qaçmışdı.[1] Avqust ayında şəhərə daxil olan Bəm şəhərinə sığınan Lütfəli xan orada ələ keçirilərək qətlə yetirilmişdi.[2]

Beləliklə, Ağa Məhəmməd xan 90-cı illərin ortalarına artıq bütün əsas rəqiblərini məhv etmiş, İran və Azərbaycanın cənub hissəsini itaətə gətirmişdi. İndi artıq Şimali Azərbaycan xanlarını və Kartli-Kaxeti çarlığını tabe etmək işinə girişmək olardı. Bu zaman mövcud beynəlxalq şərait də Ağa Məhəmməd xanın Cənubi Qafqaza səfəri üçün əlverişli idi. Qərbi Avropa dövlətləri, ilk növbədə Fransa Qacarın əli ilə Rusiyanın cənuba hərəkətinin qarşısını almağa çalışırdılar. Fransa hökumətinin hələ 1792-ci ildə Osmanlı imperiyası və İrana göndərdiyi təbiətşünaslar Olivye və Bürger bu ölkələrlə Fransa arasında ticarət və siyasi münasibətlər yaradılması adı altında məxfi tapşırıqlar yerinə yetirməli – Qacarları Osmanlının köməyi ilə Rusiyaya qarşı mübarizəyə təhrik etməli idilər.[3]

1794-cü ildə səyyah adı ilə İrana və Cənubi Qafqaza gələn fransız hərbçisi Feryer Sofbef Ağa Məhəmməd xanı Osmanlı – Qacar ittifaqı yaratmağın zəruriliyinə inandırmağa çalışmalı idi.[4]

Sonralar, Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza yürüşü xəbərini Fransa hökuməti məmnunluqla qarşılamışdı. Fransız hökuməti 1796-cı ilin yanvarında İstanbuldakı konsuluna Qacarın yanına adam göndərməyi və Rusiya hüdudlarında

---

[1] АВПРИ, Ф. 110 (СРГ), оп. 3, д.455 (Переписка грузиеских князей и владельцов с императорским двором, с 1193 по 1799), л.158 и об.

[2] Степан Д.Кишмишев. Göst.əsəri, s.248; Нина Кузнецова. Göst.əsəri,s. 9; Архив Государственного Совета, т.1, ч. 2, с. 793

[3] Грамоты и другие истор.док-ты, т.1 с.5; М.Игамбердыев. Иран в международных отношениях первой трети XIX века. Самарканд, 1961, с.40

[4] Р.Т.Титанян. Армянские источники о нашествии Ага Магомед хана в 1795 г.г АКД, Ереван, 1979, с.5

yaşayan müsəlmanları ruslara qarşı qaldırmağa cəhd etməyi tapşırmışdı.[1]

Cənubi Qafqaza hücuma hazırlaşan Ağa Məhəmməd xan Qacar Ərdəbilə ordu toplayırdı. O, bütün xanlara məktub göndərərək itaət göstərmələrini tələb etdi.[2]

### VII.1.2. Ağa Məhəmməd xan Qacarın Azərbaycanın şimalına birinci yürüşü.

Ağa Məhəmməd xan ordusunu iki yerə bölüb bir hissəsini İrəvana, digər hissəsini isə Muğana göndərmək, Şamaxı, Şəki, Qarabağ və Lənkəran xanlarını itaətə aldıqdan sonra Qarabağdan keçməklə Gürcüstana hücum etmək niyyətində idi.[3]

Öz qüvvələri ilə Ağa Məhəmməd xanı dəf edə biləcəklərinə əmin olmayan xanlar yardım üçün Rusiya ilə yanaşı Osmanlı dövlətinə də müraciət etdilər.[4] Lakin, irəlidə qeyd olunduğu kimi 1791-ci ildə Rusiya tərəfindən ağır məğlubiyyətə uğradılmış Osmanlı hökuməti Cənubi Qafqazda fəal siyasət yürütmək imkanından məhrum olmuşdu. Buna görə də xanlara yardım vədləri verməklə kifayətlənib real yardım göstərmədi.

Ağa Məhəmməd xan əvvəlcə şimal xanlıqlarını diplomatik yolla özündən asılılığa salmağa cəhd göstərdi. Sərkərdəsi Süleyman xanı Təbrizə göndərib göstəriş verdi ki, xanların Qacarın hakimiyyətini tanımalarına nail olsun, sonra onların da qüvvələrini birləşdirib Kartli-Kaxeti çarlığına hücum etsin.[5] Qarabağ, Lənkəran və Şamaxı xanları bu təklifi rədd edib, Qacarı şah kimi tanımaqdan imtina etdilər. Yalnız Gəncəli Cavad xan

---

[1] Р.Т.Титанян. Göst.əsəri, s.5

[2] АВПРИ, Ф. 110 (СРГ), оп. 3, 1793-1799 гг, д.455, л.169; Арм-руск. отн., т.4, с.410.

[3] АВПРИ, Ф. 110 (СРГ), оп. 3, д.455, л.169.

[4] Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasında münasebetlere dair arşiv belgeleri,c.1, Ankara, 1992, s.131-132

[5] Николай Дубровин. История войны.., т.3, чч. 7-8; Николай Дубровин. Поход Зубова в Персию в 1796 году// Военный сборник, 1874, N 2-6 (Отд.оттиск), с.13

həm Qacar soyundan olduğu üçün, həm də qonşu Qarabağ xanlığı və Kartli-Kaxeti çarlığı tərəfindən sıxışdırıldığı üçün bu çağırışa müsbət cavab verdi. [1] Qəzəblənmiş Ağa Məhəmməd xanın göstərişi ilə 4 min nəfərlik Qacar hərbi dəstəsi 1794-cü ildə Xudafərin körpüsündən keçərək Qarabağa soxuldu. Lakin gürcü qoşunlarının da yardım göstərdiyi Qarabağ qoşunları Qacar dəstəsini məğlubiyyətə uğradıb Arazdan cənuba çəkilməyə vadar etdilər.[2]

Ağa Məhəmməd xanın elçisinin qubalı Şeyxəli xanın yanına gedərək onu itaətə dəvət etdiyini öyrənən Qudoviç Şeyxəli xanın yanına bir zabit göndərmişdi. Əgər Ağa Məhəmməd xanın adamı gələrsə, Şeyxəli xan ona Rusiya himayəsində olduğu üçün Qudoviçin razılığı olmadan heç bir cavab verə bilməyəcəyini deməli idi.[3]

Kartli-Kaxeti çarı II İrakli Ağa Məhəmməd xanın Gürcüstana hücum edəcəyindən narahat olduğunu Qudoviçə bildirmişdi. Knyaz Q. Cavcavadzenin 1795-ci ildə Rusiya Xarici İşlər kollegiyasına göndərdiyi məlumata görə, II İrakli Ağa Məhəmməd xanın artıq Gəncə şəhərini tutduğunu və İrəvan şəhərini mühasirəyə aldığını, Gürcüstana hücum etmək niyyətinin qəti olduğunu yazırdı. Qacarın qoşunlarının sayı İraklinin və onun müttəfiqi İmeretiya çarı Solomonun qoşunlarının ümumi sayından xeyli çox olduğundan İrakli 3 min rus əsgərinin göndərilməsini təkidlə xahiş edirdi.[4]

Ağa Məhəmməd xan artıq Gürcüstan sərhəddinə yaxınlaşsa da, Qudoviç onun Gürcüstana hücuma cəsarət edəcəyinə o qədər də inanmırdı. O, yanına gəlmiş Ağa Məhəmməd xanın nümayəndəsinə Gürcüstan Rusiyanın himayəsində olduğu üçün Qacarın buraya hücum etməməsini tövsiyyə etmişdi.[5] Qudoviç

---

[1] Николай Дубровин. Поход Зубова, с.13; Грамоты и другие исторические документы.., с.102

[2] Фуад Алиев. Карабахское ханство.., с.77

[3] АВПРИ, ф.110(СРГ), оп. 3,д. 455, л. 167,168

[4] Грамоты и др. ист. док., т.2, вып. 2, с.90-91

[5] Yenə orada, səh.83, s.102

gürcü çarına Qacarın əsas qüvvələrini Muğana yeridəcəyini, yalnız bir sıra Azərbaycan xanlıqlarını, ilk növbədə Qarabağ xanlığını tabe etdikdən sonra Gürcüstana hücum edə biləcəyini bildirmişdi.[1]

Cənubi Qafqaza yürüş üçün Ağa Məhəmməd xan bəzi məlumatlara görə, 45 min, digər məlumatlara görə isə, 60 min,[2] bir başqa məlumata görə isə, hətta 60-100 min arasında döyüşçü toplamışdı.[3]

İrəlidə də qeyd olunduğu kimi Cavad xan Gəncəli Qacarı dəstəkləməyə hazır idi. Xeyli tərəddüd edən Şəki, Şamaxı və Bakı xanları son nəticədə öz mülklərini Qacar ordusunun dağıdıcı yürüşündən qorumaq üçün Ağa Məhəmməd xandan asılılığı qəbul etdiklərini bildirdilər. Bütün Şirvanın hakimiyyətinin ona veriləcəyi vədindən ruhlanan qubalı Şeyxəli xan hələ bundan əvvəl Qacarın hakimiyyətini tanıdığını bildirmişdi.[4]

Ağa Məhəmməd xan özü əsas qüvvələrlə yürüşə başlamazdan əvvəl bir hərbi dəstəni Lənkəran xanlığına qarşı göndərdi. Müqavimət göstərmək iqtidarında olmayan Mir Mustafa xan dağlara qaçdı, xanlıq sakinlərinin bir hissəsi isə Sarı adasındakı rus hərbi gəmilərinin himayəsinə sığındı.[5]

Ağa Məhəmməd xan ordunun əsas hissəsi ilə mayın sonlarında yürüşə başladı və iyunun sonlarında Şuşaya yaxınlaşıb, ondan 8 verst aralıda düşərgə saldı. Şuşa qalasını birbaşa həmlə ilə almağın mümkünsüzlüyünü anlayan Qacar İbrahimxəlil xanı hərbi hiylə yolu ilə qaladan çıxarıb açıq döyüşdə məğlub etməyə cəhd göstərsə də, buna nail olmadı. Şuşa mühasirəyə alındı, lakin 33 günlük mühasirədə heç bir nəticə hasil olmadı. Qarabağ xanı və təbəələrinin inadlı müqaviməti

[1] АВПРИ, ф.110(СРГ), оп. 3,д. 455, л.168-169

[2] Жизниеописание.., с.290

[3] Персидский поход Зубова (Написано В.А. Потто). СПб., 1848, с.60; Петр Бутков.Göst.əsəri, hissə 2, с.331

[4] Николай Дубровин. Георгий XII, последний цар Грузии и присоединения ее к Росии. СПб., 1867, с.10.

[5] Николай Дубровин. Поход Зубова, с.200

şəraitində, başlıca olaraq süvarilərdən ibarət ordusu ilə Şuşa kimi möhkəmləndirilmiş qalanı almağın çətinliyini görən Ağa Məhəmməd vaxtı boş yerə itirmək istəməyərək Şuşanın mühasirəsindən əl çəkib əvvəlcə Gəncəyə getdi və buradan nümayəndəsini II İraklinin yanına göndərib tabe olmasını tələb etdi. Lakin İrakli Rusiyadan yardım gələcəyinə ümid bəsləyərək rədd cavabı verdi.[1]

Qacar ordusu isə sürətlə hərəkət edib 1795-ci il sentyabrın əvvəllərində Tiflisə yaxınlaşdı. Qüvvələr çox qeyri-bərabər idi. Tiflis yaxınlığında baş verən döyüşdə müttəfiqləri tərəfindən tərk olunmuş II İraklinin ordusu darmadağın edildi və döyüş meydanından qaçdı. II İrakli ailəsi və tərəfdarlarının bir hissəsi ilə dağlarda gizləndi. Qacar qoşunları Tiflisə daxil oldular. Şəhər qarət olundu. 16 min nəfər əsir edildi.[2] V.Qudoviç hesab edirdi ki, Tiflisdə kifayət qədər top olduğu, Ağa Məhəmməd xanın isə cəmi 2, özü də o qədər yaxşı olmayan topu olduğu üçün II İrakli Tiflisdə qalıb uzun müddət müqavimət göstərə bilərdi.[3]

Tiflisi fəth etdikdən sonra gözlənilmədən Muğan çölünə çəkilən Ağa Məhəmməd xan İrakliyə ona tabe olması şərtilə "sülh və dostluq" təklif etdi. Qacar, İrakliyə məktubunda oğlunu girov verməsini, Qarabağdan Gürcüstana qaçmış sakinlərin verilməsini, eləcə də Azad xandan qalmış böyük almazın və knyaz Q. Potyomkinin göndərdiyi saatın ona verilməsini tələb etmiş, bu tələblər yerinə yetirilərsə, Tiflisdə götürdüyü 30 min əsiri azad edəcəyini, Tiflisdə yandırılmış bütün binaları təmir edəcəyini, İrakli ilə ittifaq bağlayacağını vəd etmişdi.[4] Gürcü çar ailəsinin bəzi üzvləri Ağa Məhəmməd xanın ali hakimiyyətini qəbul etməyə hazır idilər. İraklinin kiçik oğlu Aleksandr Ağa Məhəmməd xandan Tiflisə qayıtmasına icazə almış, Qacardan asılılığı qəbul edərək həm öz yerinə, həm də atasının yerinə

[1]Николай Дубровин. История.., т.3, сс.34-35

[2] Жизниеописание..,с. 332-333

[3] Грамоты и др. документы, Т. 2, вып. 2, д. 90, с.109

[4] Грамоты и документы, т. 2, вып. 2, д. 90, с. 111

sədaqət andı içmişdi.[1]

II İrakli II Yekaterinaya 8 yanvar 1796-cı il tarixli məktubunda Ağa Məhəmməd xanın Gürcüstan ərazisini tərk etsə də, 300 verstdən çox aralanmayaraq Muğan çölündə düşərgə saldığını, Qarabağa və Gürcüstana yenidən hücum etmək niyyətində olduğunu yazırdı. Gürcü çarı hesab edirdi ki, yanız güclü rus qoşun hissəsinin göndərilməsi yolu ilə Qacarın qarşısını almaq olar.[2] Qeyd edək ki, artıq dekabr ayında Tiflisə müəyyən qədər rus silahlı qüvvəsi gəlmişdi.[3]

1795-ci il oktyabrın 18-də Rusiyanın Ali Şurasında Tiflisin Ağa Məhəmməd xan tərəfindən alınıb dağıdılması haqqında məlumat dinlənilərək müzakirə olundu. Qərara alındı ki, Qudoviçə göstəriş verilsin ki, o, nəinki Rusiya himayəsində olan Kartli-Kaxeti torpaqlarının azad olunması üçün tədbirlər görsün, lazım gələrsə, Ağa Məhəmməd xanın hakimiyyəti altında olan yerlərə cəza yürüşü təşkil etsin.[4]

Azərbaycan xanlarının bir çoxu, o cümlədən Şeyxəli xan ehtiyatlı davranmaqda davam edirdilər. Şeyxəli xan bir yandan Ağa Məhəmməd xanı qarşılamaq üçün bahalı hədiyyələr hazırlayır, digər tərəfdən də Rusiyanın Qacar hökmdarına olan mənfi münasibətindən faydalanmağa çalışırdı. O, 1795-ci ilin oktyabrında elçisi Murtuzaqulu bəyi Qudoviçin qərargahına göndərərək Ağa Məhəmməd xana qarşı mübarizəyə hazırlaşması üçün pul göndərməsini istədi. Şeyxəli xan hətta on günə qədər istədiyi məbləği almasa, çarəsiz qalıb Qacara tabe olacağı ilə hədələyirdi. Maraqlıdır ki, Rusiyadan pul yardımı istəsə də, Şeyxəli xan Qudoviçin ona yardım üçün rus hərbi dəstəsinin göndərilməsi təklifini rədd etmişdi. Görünür, rus hərbi dəstəsinin gəlməsinin onun müstəqilliyinə təhlükə törədəcəyindən ehtiyat edirdi. Qudoviç Şeyxəli xana bir qədər sonra pul göndəriləcəyini, tezliklə rus qoşunlarının Quba xanlığına yaxınlaşacağını bildirir

---

[1] Ольга Маркова. Göst.əsəri, s.289.

[2] АВПРИ, ф.110(СРГ), оп. 3,д. 455, л. 232.

[3] Yenə orada,v.232-233

[4] Дубровин Н. Göst.История..,т.3,с.91

və heç bir halda Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etməməsini tövsiyyə edirdi.[1]

Muğandakı düşərgəsindən Ağa Məhəmməd xan qohumlarından birini – Mustafa xan Dəvəlini Şamaxıya hakim təyin etdi. Lakin sonuncu sakinlərlə amansız rəftar etdiyi üçün sakinlər tərəfindən qətlə yetirildi. Əhali Ağa Məhəmməd xanın şamaxılılara divan tutacağını gözləsə də, Şamaxı sakinləri onun yanına gəlib aman diləyən kimi, Ağa Məhəmməd xan dərhal onları əfv etdi. Bu zaman İrəvan xanı da Qacara tabeçiliyini bildirdi.[2] Ağa Məhəmməd xan Pəmbək, Borçalı və Qazaxı İrəvan xanının idarəçiliyinə verdi.[3]

Ser Con Malkolmun yazdığına görə, 1795-ci ilin sonunda Ağa Məhəmməd xan nəhayət ki, tacqoyma mərasimini keçirdi.[4] Bir çox mənbələrdə tacqoyma mərasiminin 1796-cı ilin martında həyata keçirildiyi qeyd olunsa da, Ağa Məhəmməd Qacarın tacqoyma mərasiminin 1795-ci ilin sonunda həyata keçirildiyini doğru saysaq, onda bu mərasimin Muğanda keçirildiyini qəbul etməliyik.

1796-cı ilin əvvəllərinə kimi Muğanda qalan Qacar buradan Xorasana hərəkət etdi. Məşhəd sakinləri Nadir şahın nəticəsi Nadir Mirzənin hakimiyyətindən çox narazı idilər və buna görə də Ağa Məhəmməd şahı sevinclə qarşıladılar. Nadir Mirzə Şahın yaxınlaşdığını eşidib şəhərin idarəsini kor atası Şahruxa tapşırıb qaçdı. Şahrux isə Qacara itaətini bildirsə də[5], işgəncələr verib onu Nadir şahın xəzinəsinin yerini deməyə məcbur etdilər. İşgəncələrə dözməyən Şahrux həlak oldu. Ağa Məhəmməd şah rusların Azərbaycana yürüşü xəbərini eşidib sentyabrın 20-də dərhal Tehrana qayıtdı və hərbi əməliyyatlara başlamaq üçün əlverişli zaman olmadığından yazı gözləmək qərarına gəldi.[6]

---

[1] AMEA, TİEA, iş 1795, s.13
[2] Жизниеописание.., с. 334-335.
[3] Николай Дубровин. История..,т.3,с.65
[4] Жизнеописание.., с.335-336
[5] Yenə orada,s.337-338
[6] Yenə orada,s.343

Bəzi xanlar Qacar təhlükəsindən qorunmaq yolunu Rusiya himayəsini qəbul etməkdə görürdülər. Lənkəranlı Mir Mustafa xanın elçisi Mir Əsədulla bəy 1796-cı il fevralın 10-da öz xanının adından Rusiya imperatorunun təbəəliyinə daxil olmaq barədə andlı öhdəlik imzaladı.[1]

## VII.2. Rusiyanın Azərbaycanda möhkəmlənmək üçün göstərdiyi ikinci cəhd. V.Zubovun başçılığı ilə rus ordusunun Azərbaycana hərbi müdaxiləsi.

### VII.2.1. Rus ordusunun Azərbaycana hücumunun səbəbləri və əsas strateji hədəflər.

Ağa Məhəmməd Qacarın Rusiyanın rəsmi himayəsində olan Kartli-Kaxeti çarlığına hücumu, Tiflisi viran etməsi Rusiyanın regiondakı nüfuzunu xeyli sarsıtdı. Rus hökuməti sarsılmış nüfuzunu bərpa etmək, Qacarın Cənubi Qafqazda möhkəmlənməsinə yol verməmək üçün bura hərbi yürüş təşkil etmək qərarına gəldi.

Böyük hərbi qüvvələr toplayıb, onları səfərə hazırlayıb göndərmək üçün müəyyən vaxt tələb olunduğundan əvvəlcə Cənubi Qafqaza daha kiçik hərbi qüvvələr göndərildi. 1795-ci ilin noyabrında hərbi dəstələr Şərqi Gürcüstana, dekabrında isə Xəzəryanı vilayətlərə daxil oldu. Gürcüstana göndərilən 1500 nəfərdən ibarət 6 topu olan iki tabora polkovnik Sıroxnev, Xəzəryanı ərazilərə göndərilən 3365 nəfərdən ibarət və 6 topu olan dəstəyə isə general İ.Savelyev başçılıq edirdi.

Savelyevin dəstəsi 1796-cı il fevralın ortalarında Dərbənd şəhərinə yaxınlaşdı.

Savelyev Şeyxəli xandan Rusiya təbəəliyini qəbul etdiyi üçün qalanın qapılarının açılmasını tələb etdi. Şeyxəli xan nəinki bu tələbi qəbul etmədi, hətta onun döyüşçüləri rus qoşunlarına güclü atəş açdı.[2] Dərbənd müdafiəçilərinin əzmini qıra bilməyəcəyini

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 6, д. 474, лл: 19-20

[2] AMEA TİEA, iş 1795, I his., s. 31

anlayan Savelyev danışıqlara başladı. Şeyxəli xan da danışıqlar yolu ilə vaxt qazanmaq və mövqeyini möhkəmləndirmək məqsədi güdürdü.

İ.Savelyevin yürüşünün tamamilə boşa çıxdığını görən rus komandanlığı bu dəstənin tamamilə məhvinin qarşısını almaq üçün onun Dərbənddən xeyli geri çəkilib, təhlükəsiz bir yerdə düşərgə salıb ordunun əsas hissəsinin gəlməsini gözləməsini əmr etdi.[1]

II Yekaterinanın məşuqlarından biri olan Platon Zubovun 24 yaşlı gənc qardaşı general Valerian Zubov yürüşə gedəcək ordunun komandanı təyin olundu. Fevralın 19-da II Yekaterinanın bu ordu qarşısında qoyulan vəzifələri göstərən buyruğu dərc olundu.[2] Buyruqda Qacarın Rusiyaya və onun himayəsində olan xanlara düşmənçilik münasibəti vurğulanır, bununla bir növ rus qoşunlarının yürüşünə haqq qazandırılırdı. Buyruqdan məlum olur ki, V.Zubovun qarşısına yalnız Ağa Məhəmməd xanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq deyil, həm də İrandan keçməklə Hind okeanına getmək kimi uzağa gedən vəzifə qoyulmuşdu.

Rus hərb tarixçisi V.Pottovun yazdığı kimi, V.Zubovun başçılıq etdiyi rus ordusunun yürüşü əslində “Yunan layihəsi”nin yeniləşdirilmiş variantı idi. Bu layihəyə görə, V.Zubov Qacar ordusunu darmadağın edib, İranı ələ keçirdikdən sonra Kiçik Asiyanı zəbt etməli və buradan hərəkət edib İstanbul şəhərini mühasirəyə almalı idi. Eyni zamanda A.Suvorovun başçılıq etdiyi digər ordu Balkan yarımadası və Ədirnə istiqamətindən, P.Zubovun komandanlıq etdiyi rus hərbi donanması isə Qara dənizdən həmlə edərək İstanbulun işğalını başa çatdırmalı idilər.[3]

Rus qoşunlarının başlıca məqsədlərindən biri də Cənubi Qafqazda xristian amilini gücləndirmək olmuşdur. P.Zubov 30 aprel 1796-cı il tarixli məktubunda II İrakliyə yazırdı ki, onun

---

[1] РГВИА, ф. 41, оп. 2,д. 614, л.41 и об

[2] РГАДА, ф. 1406, оп. 1, д. 339, лл. 329 об.

[3] Василий Потто. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. т.II, чч. 1-3, 1885, с.286.

hakimiyyəti Araz çayından Osmanlı imperiyasının sərhədlərinə qədər uzanmalıdır. II Yekaterina V.Zubovun qarşısında Gəncə və İrəvan xanlarını Kartli-Kaxeti çarlığına birləşdirmək vəzifəsi qoymuşdu.[1]

Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq məsələsini də unutmayan Çarlıq hökuməti bu planın həyata keçirilməsi üçün canfəşanlıq edən Rusiya ermənilərinin arxiyepiskopu İ.Arqutinskini V.Zubovun rəsmi məsləhətçisi təyin etmişdi. İ.Arqutinski isə Dərbəndə gəldikdən sonra Qarabağ məliklərinə müraciət edərək rus qoşunlarının yürüşünün başlıca məqsədinin guya erməniləri müsəlmanların əsarətindən xilas etməkdən ibarət olduğunu bildirmişdi.[2]

Yeri gəlmişkən, həmişə olduğu kimi, Rusiya hakim dairələri indi də Cənubi Qafaqazda möhkəmlənmək üçün dini amillərdən istifadə etməyə çalışırdılar. Təsadüfi deyil ki, V.Zubov bir qədər sonra Gəncəni zəbt etmək üçün göndərdiyi general Rimski-Korsakova verdiyi təlimatda pravoslav məzhəbli xristianları müsəlmanların əsarətindən tezliklə azad etməyi tələb edirdi.[3] Eyni zamanda rus komandanlığı yerli müsəlman əhalinin müqavimətindən qorxaraq planlarını gizlətməyə çalışırdı. Rimski-Korsakova verilmiş təlimatda bu məsələ barədə müsəlmanlarda vaxtından əvvəl şübhə yaranmasının yolverilməz olduğu deyilirdi. Qarabağ məlikləri və digər xristianların vaxtından əvvəl çıxışlarına yol verilməməsi məsləhət görülürd.[4]

Buyruqda Ağa Məhəmməd xanla Osmanlı sarayı arasındakı münasibətlərə də diqqət çəkilirdi. Rusiya hakim dairələri Qacarla Osmanlı sarayı arasında hansısa gizli razılaşmanın olmasına şübhə etmirdilər. Osmanlı sərhədlərinin lap yanı ilə hərəkət edən qacar qoşunlarının heç yerdə Osmanlı ərazilərinə toxunmamaları, digər yandan da sərhədyanı paşaların Qacarın bütün tələblərini

---

[1] Грамоты и другие исторические документы.., т.1, сс. 140-142

[2] Николай Дубровин. Истори войны.., т. 3, с. 142-148

[3] Гевхар Мамедова. О походе В. Зубова в Азербайджан в 1796 г Баку, 2003, с.50

[4]Yenə orada.

yerinə yetirmələri və ona hər zaman rəğbət göstərmələri, hətta onun tələbi ilə qoşunları üçün ərzaq göndərmələri aydın şəkildə tərəflər arasında razılıq olduğunu göstərirdi. Hətta rus hökuməti belə hesab edirdi ki, osmanlıların öz təhlükəsizliyini təmin etmək pərdəsi altında, Asiyadakı sərhəd paşalarına artilleriya, zəruri ehtiyatlar, xüsusən də hərbi sursat göndərmələri "yırtıcının" (Ağa Məhəmməd xanın – T.M) əli ilə Rusiya mənafelərinə zərbə endirilməsi üçün bu ehtiyatların qacarların əlinə keçməsi məqsədini güdürdü.[1]

Buyruğun əsas hissəsi qarşıdakı hərbi əməliyyatların istiqamətlərinin müəyyənləşdirilməsinə və hərbi əməliyyat planlarına həsr olunmuşdu. Yürüşü iki istiqamətdən – Dəryal keçidi vasitəsilə Gürcüstan və Dərbənd keçidi vasitəsilə Azərbaycan istiqamətində gerçəkləşdirmək planlaşdırılırdı. Dəryal keçidi vasitəsilə hərəkət edən, Qafqaz korpusu adlandırılan hərbi birləşmə Gürcüstandan keçərək Gəncə xanlığını zəbt etməli və Qarabağ xanlığının ərazisinə daxil olmalı idi. Bu korpus Qarabağda xristianları hakimiyyətə gətirməli və sonra Xəzər korpusu adlanan əsas korpusla birləşib növbəti hərbi əməliyyatlarda iştirak etməli idi.[2]

Əsas hərbi əməliyyatlar Xəzər korpusu tərəfindən Xəzər dənizi sahili boyunca cənub istiqamətində aparılmalı idi. Bakı zəbt olunmalı və rus ordusunun təchizat bazasına çevrilməli idi. Burada Xəzər korpusunun qüvvələri hərbi dəniz qüvvələri ilə əlaqə yaratmalı və kontr-admiral Fyodorovun quruya çıxardığı qüvvələrlə birləşməli idilər.[3]

Xəzər və Qafqaz korpusları birləşdikdən sonra əvvəlcə əməliyyatlar Kür və Araz çayları arasındakı əraziyə keçirilməli, Xəzər donanması quru qoşunlarını dəstəkləməli idi. [4] Ağa Məhəmməd xan Arazın cənub tərəfinə sıxışdırılmalı və Arazdan

---

[1] АВПРИ,ф.77 (СРП), оп. 5, д.2( 1722-1796 гг.), лл. 304 об-305
[2] РГВИА, ф..52 (Потемкины), оп.1,д.20, ч.1,лл. 8-9
[3] АВПРИ, Ф. 77 (СРП), оп. 5,д. 2, лл. 315 - 316
[4] Yenə orada, v. 315. ü.-316

o tərəfdə yaşayan əhali xana qarşı çıxmağa təhrik edilməli idi.[1]

Bakını almaqla V.Zubov dəniz qüvvələri ilə birləşməklə yanaşı, burada ordunun təchizat bazasını təşkil etməli idi. Əgər Qacarı məğlub etmək mümkün olardısa, rus ordusu irəliyə hərəkətini davam etdirməli idi. Yürüşün birinci mərhələsi bütün hissələrin Araz sahilində birləşməsi ilə başa çatacaqdı.[2]

Buyruqda yürüşün əsl məqsədləri pərdələnərək belə ifadə olunurdu: Gürcüstanı azad etmək, gürcü çarını, Qarabağ məliklərini, Ağa Məhəmməd xana qətiyyətlə və mərdanə müqavimət göstərmiş şuşalı İbrahimxəlil xan və digər sıxışdırılmış, Rusiyaya xeyirxah münasibət bəsləyən xanları gücləndirmək.[3]

Yürüşün 1796-cı ilin payızında başlayacaq ikinci mərhələsində rus ordusu Araz çayını keçərək Azərbaycan xanlarının yardımı ilə Qacarın ordusunu darmadağın etməli, dənizdən və qurudan həmlə ilə Gilanı ələ keçirib burada Murtuzaqulu xanın hakimiyyətini bərpa etməli idi. Əlverişli şərait yaranardısa rus ordusu Astrabad və Mazandaran vilayətlərini, Xəzər dənizinin şərq sahillərini ələ keçirməli idi. İmperatriçə yazırdı ki, “bununla Xəzər dənizinin nəinki bütün suları, həm də bütün limanlar və sahilləri bizim əlimizdə olacaq”.[4] Görünür, II Yekaterina sələfi I Pyotrun Xəzər dənizini Rusiyanın daxili gölünə çevirmək planını gerçəkləşdirmək istəyirdi.

V.Zubova çox ətraflı – 30 maddədən ibarət bir təlimat da verilmişdi. Təlimatda yürüşlə bağlı konkret əməli tədbirlər öz əksini tapmışdı.

Təlimatın 7-ci bəndinə əsasən, Bakı alındıqdan sonra burada ordunun təchizat bazası təsis olunmalı idi. Təlimatda daha sonra deyilirdi ki, Xəzər donanması ilə Rusiyaya rəğbət bəsləyən Bakı və Lənkəran xanlarını dəstəkləmək üçün kontr-admiral

[1] Yenə orada, v. 315 - 316
[2] АВПРИ, Ф. 77 (СРП), оп. 5,д. 2, лл. 310 – 317.
[3] Yenə orada,v. 314 a.ü. - 315
[4] Грамоты и другие исторические докуиенты..,ч. 1, сс. 147-149.

Fyodorovun başçılığı ilə quruya çıxarılan qüvvələr və Qafqaz korpusu ilə fasiləsiz və etibarlı əlaqə yaradılıb, bu yolla bütün qüvvələr birləşdirildikdən sonra Araz çayına qədər bütün ərazilər nəzarətə alınmalı, bununla da güclü istilər düşənədək hərbi əməliyyatların birinci mərhələsi başa çatdırılmalı, qoşunlar payızadək dincəlmək üçün Araz kənarında yerləşdirilməli idilər.[1]

Rus qoşunları Xəzəryanı vilayətlərə daxil olmazdan əvvəl həmin yerlərin əhalisi içərisində İmperatriçənin bəyannaməsi və V.Zubovun bildirişləri yayılmalı idi. 1796-cı ilin martında nəşr olunmuş II Yekaterinanın qarşıdakı yürüşlə bağlı manifestində yürüşün keçəcəyi yerlərin hakimlərinə və sakinlərinə elan olunurdu ki, guya yürüşün məqsədi Ağa Məhəmməd xanı cəzalandırmaq, xalqları onun zülmündən qurtarmaqdır. [2] İmperator manifesti həm rus, həm də türkcə çap olunmuşdu.[3]

V.Zubovun 1796-cı ilin may ayında Cənubi Qafqaz xalqlarına etdiyi müraciət də təxminən Yekaterinanın manifestindəki fikirləri tamamlayırdı.[4]

V.Zubova hərbi hakimiyyətlə yanaşı siyasi hakimiyyət də verilmişdi. İran və Cənubi Qafqazda Rusiyanın işlər vəkili təyin edilmiş Kovalenski də Zubova tabe idi. Murtuzaqulu xan da Kovalenski ilə Qafqaza göndərilməli idi.[5]

### VII.2.2. V.Zubovun başçılığı ilə rus ordusunun Azərbaycana hərbi yürüşü və Azərbaycan xanları ilə münasibətlər

Lazımi miqdarda hərbi qüvvəni vaxtında toplamaq mümkün olmadığından Qafqaz xəttinə gələn V.Zubovla İ.Qudoviçin məşvərətində Qafqaz korpusunun yaradılması və onun

---

[1] РГВИА, Ф.846, оп.16, д.2799, лл. 1-7 об., Арм-русск.отношения, т.4, док.286, сс. 419-420.

[2] РГВИА, Ф.846 оп.16, д.2799, лл. 367-375; Николай Дубровин. История., т.3, сс. 124-129

[3] АВПРИ, Ф. 77 оп. 5, д,2 лл. 360 - 372

[4] Bax: Арм-русск. отн.,ч.4, док.293, с.431.

[5] АВПРИ, ф. 77 (СРП), оп.6, д. 487, лл. 8,32

Gürcüstana yeridilməsi planı təxirə salındı.[1]

V.Zubov yürüşdə iştirak etməli bütün qüvvələrin gəlməsini gözləmədən 1796-cı il aprelin 13-də 22.305 nəfərlik ordu ilə Qızlardan Dərbəndə tərəf hərəkət etdi. Ayın 27-də Zubov Urus bulaq adlı yerə çatıb dayandı. Qaraqaytaq usmisinin qardaşı və Tabasaran kadisinin oğlu itaətlərini bildirmək üçün Zubovun yanına gəldilər. Onlardan çətin də olsa Qaraqaytaq və Tabasaran ərazisindən Dərbəndin cənubuna keçmək üçün yol olduğunu öyrənən Zubov general-mayor Bulqakova öz briqadası ilə bələd verilən yolla hərəkət edib şəhərin cənubuna çıxmasını[2] əmr etdi.

Aprelin 29-da bundan əvvəl Dərbəndi almağa cəhd göstərmiş, uğur qazanmayıb Dərbənddən geriyə çəkilmiş Savelyevin dəstəsi Zubovun ordusuna birləşdi. Bununla da rus ordusunda döyüşçülərin sayı 26 min nəfərə çatdı.[3]

84 km-lik dağlıq sahəni yerli hakimlərin bələdçiliyi ilə 3 günə keçən Bulqakovun dəstəsi mayın 3-də Dərbəndin cənubuna çıxdı və Dubarı adlanan hissəsinin qarşısında düşərgə saldı.[4] Şeyxəli xan əsas qüvvələri şimal istiqamətində cəmləşdirdiyindən Bulqakovun dəf olunması üçün əhəmiyyətli qüvvə ayıra bilmədi.

Eyni zamanda Şeyxəli xan yardım xahişi ilə Osmanlı sarayına məktub göndərib o və onun əcdadlarının həmişə sultana sadiq olduqlarını bildirirərək, rus qoşunları Dərbəndə yaxınlaşdığı zaman Ağa Məhəmməd xan Qacardan yardım xahiş etdiyini, Qacarın isə ona məlum olmayan səbəblərdən Azərbaycanı tərk edib İranın içərilərinə getdiyini yazırdı.[5] Xan yardıma hərbi qüvvə istəməklə yanaşı yazırdı: “Əgər məsafənin uzaqlığına görə bunu etmək mümkün deyilsə, heç olmazsa, sultan sarayı Dağıstan hakimlərinə fərman və pul göndərib onlara Quba xanına yardım etmələrini tapşırsın”.[6]

---

[1] Николай Дубровин. История.., т. III сс. 86-87.
[2] Николай Дубровин. История.., т. III,сс. 102-103
[3] РГВИА, ф.41, оп.2, д.614а, л. 66;Там же, д. 62а, лл.10 об-11
[4] РГАДА, ф. 1406, оп. 1,д. 339, лл 46-48.
[5] Николай Дубровин.История..,III, с.103-104
[6] Yenə orada,s.103-105

Nə Qacardan, nə də Osmanlıdan yardım ala bilməsə də, Şeyxəli xan müqavimət göstərmək əzmində idi. Mayın 1-də Zubov Dərbəndə kütləvi hücum təşkil etdikdə şəhərdən 1 mil aralıda Quba və Dərbənd süvariləri kazakları qarşıladılar, lakin məğlub oldular.[1] Mayın 3-dən 4-nə keçən gecə Bulqakovun dəstəsi cənubdan qalaya yaxınlaşdı. Mayın 6-dan 7-nə keçən gecə ruslar üç topdan ibarət batareya qurdular və sübh tezdən həmin batareya 12 funtluq toplardan qalanın ön bürcünü atəşə tutdu. Ancaq 80 atəşdən sonra bürcə demək olar ki, xətər yetirilmədiyi məlum oldu. Bürcü həmlə ilə almaq qərara alındı. Müdafiəçilərinin qəhrəman müqavimətinə baxmayaraq bürc alındı.[2] Mayın 8-də ruslar qala divarlarının lap yaxınlığında mövqe tutub şəhəri güclü artilleriya atəşinə tutdular.[3] Bir neçə gün davam edən atəşlərdən sonra qala divarlarında yarıq əmələ gəldi, mayın 10-da isə künc bürcündə deşik açıldı.[4]

Şəhər əhalisi əhalinin bir hissəsini qırğından xilas etmək, şəhəri tamamilə dağılmaqdan qurtarmaq üçün Şeyxəli xandan qalanın təslim olunmasını tələb etdi. Şeyxəli xan öz məiyyəti ilə qaladan çıxaraq təslim olduğunu bildirdi.[5] Zubov Şeyxəli xanı bir çadırda dustaq kimi saxladı.

Dərbəndin alınmasına görə V.Zubovu 2-ci dərəcəli Müqəddəs Georgi ordeni ilə təltif edən II Yekaterina onu qiymətli hədiyyələrlə mükafatlandırdı. Digər generallara və zabitlərə də orden və medallar verildi. Sıravi əsgərlərin hər birinə 1 rubl verildi.[6]

Dərbəndin asanlıqla ələ keçirilməsində şəhərin müdafiəsindəki çətinliklərlə bərabər şəhərdə yaşayan bir ovuc ermənінin satqınlığı da müəyyən rol oynamışdı. V.Zubovun ordusunda olan A. Araratiski adlı bir erməninin yazdığına görə,

---

[1] Аббаскули ага Бакиханов. Гюлистан-и Иран, с.175.
[2] Николай Дубровин. Göst.əsəri, III с.,s. 111-113
[3] Yenə orada, s.113-114
[4] АВПРИ, ф. 77, (СРП), оп.7,д.158, лл.55-56
[5] АВПРИ, ф. 77, (СРП) оп.7,д.158, л.56 и об
[6] Николай Ф. Дубровин.История..,т.III,с.116-117

ruslara qalanın atəş açmaq üçün əlverişli olan nöqtələrini, qalanı su ilə təmin edən bulağın yerini göstərməsi üçün ermənilər öz içərilərindən bir nəfəri gecə iplə qala divarından aşağı endirmiş və həmin erməni lazımi məlumatı Zubova çatdırmışdı.[1]

Zubov İmperatriçənin adından Şeyxəli xanın bağışlanacağını vəd etsə də, sonradan xanı hakimiyyətdən uzaqlaşdırdı. Fətəli xanın qızı Pəricahan xanım Dərbənd şəhərinin hakimi təyin olundu.[2]

V.Zubovun fikrincə, Şeyxəli xan əvvəllər Rusiyaya qarşı sədaqət andı içsə də, rusları şəhərə buraxmaqdan imtina etdiyinə, rus ordusu xeyli itki verdiyinə görə qarnizon döyüşçüləri hərbi əsir sayılır, sakinlər və torpaqları isə qaliblərin sərəncamına keçir. Lakin o, Dərbənd sakinlərini öz sərəncamında saxlamaqdan heç bir fayda, bu şəhərdən kiçicik bir xeyirlə istifadə imkanı görmürdü. Yalnız V.Zubov ehtiyat xatirinə, həm də dərbəndlilərin rəğbətini qazanmaq məqsədilə onların Şeyxəli xanın taleyindən çox narahat olduqlarını görərək, fikirləşdi ki, əvvəl nəzərdə tutduğu kimi Şeyxəli xanı Həştərxana sürgün etsə, bununla şəhəri təlatümə gətirə bilər. Həm də onu Dağıstan ərazisilə göndərmək təhlükəlidir, mühafizə dəstəsi kimi böyük hərbi qüvvə göndərmək isə korpusun qüvvəsini azaldar. Eyni zamanda Zubov xanı Rusiyaya sürgün etməklə mahal naiblərinin özbaşına hərəkət etmələri üçün şərait yaranacağını ehtimal edirdi. Şeyxəli xanı Dərbənddə saxlamaq da təhlükəli idi, çünki hələ onun həqiqətən peşmançılıq keçirdiyi sübut olunmamışdı. Bütün bunları nəzərə alan Zubov hesab edirdi ki, Şeyxəli xanın Bakı xanı ilə əlaqələri olduğuna və başqa işlərdə faydalı ola biləcəyini, həm də xanın öz sədaqətini, sübut etməsi üçün imkan yaratmaq məqsədilə xanı özü ilə aparması məsləhətdir – bu zaman xan və sakinləri ruslara qarşı müqavimətə təhrik edən məmurları da Zubov özü ilə aparacaqdı. Zubov xanlığın əhalisini və xanın

---

[1] Azərbaycan tarixi (uzaq keçmişlərdən 1870-ci illərə qədər) S.Əliyarlının redaktəsi ilə. Bakı – 1996, s.551.

[2] Николай Дубровин. Göst.əsəri, III c.,s. 115; Вадим Левиатов. Göst.əsəri, s. 179-180

ailəsini tamamilə sakitləşdirmək üçün, xanlığın idarəsini xanın böyük bacısına (Pəricahan xanıma) tapşırıb, rusların nisbətən etibar etdikləri məmurları, xüsusən Xıdır bəyi ona köməkçi təyin etmək məqsədəuyğun sayırdı, bu şərtlə ki, idarəçiliyə rus qarnizon rəisi nəzarət etsin. Həm də Zubov Xıdır bəydən və Dərbənddə saxlanılacaq digər məmurlardan əmanətlər alıb onlardan qarnizon rəisinin əmrlərinə tabe olacaqları barədə öhdəlik götürmələrini planlaşdırırdı.[1] Zubov hesab edirdi ki, bu yolla sakinlər sakitləşdiriləcək, əsir alınmış xanın özü və bacısı isə rus komandanlığının "humanistliyinə" əmin olacaq və İmperatriçənin onların taleyini rəhmli surətdə həll edəcəyinə onlarda ümid yaradılacaq, bu yolla onların sədaqəti təmin ediləcəkdi.[2] Şeyxəli xanın 11 məmuru xanı Rusiyaya qarşı mübarizəyə təhrik etməkdə təqsirli bilinib Həştərxana sürgün edildi.[3]

Beləliklə, V.Zubov yazdığı kimi, Dərbəndin idarəsini Pəricahan xanıma həvalə edib Xıdır bəyi də ona köməkçi təyin etmiş, Xıdır bəydən və digər məmurlardan girovlar almışdı.[4]

Zubovun korpusu iki həftə yerində arxasının təmin olunmasını gözləyib, Rusiyadan gələn əlavə qüvvələri də birləşdirdikdən sonra mayın 24-də Bakı istiqamətində hərəkət etdi. Zubov Şeyxəli xanı da özü ilə aparırdı. İyunun 6-da rus ordusu demək olar ki, heç bir müqavimətə rast gəlmədən Qubanı ələ keçirib Bakı istiqamətində hərəkətini davam etdirdi.[5]

Hərbi qüvvəsi çox az olduğu üçün bakılı Hüseynqulu xan iyunun 13-də rus ordusunun Gilgilçay sahilindəki düşərgəsinə gedib Bakı qalasının açarlarını Zubova təqdim etdi.[6] Bir neçə gün sonra general-mayor Raxmanovun başçılıq etdiyi hərbi birləşmə

---

[1] АВТРИ, ф. 77, (СРП) оп.7,д.159, л.17 и об.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] Yenə orada, v.7.
[5] Вадим Левиатов. Göst.əsəri, s. 180
[6] Николай Дубровин. Göst.История.., т.III, с.133

Bakı şəhərinə daxil oldu.[1]

Zubovun özünün başçılıq etdiyi əsas qüvvələr Bakıdan hərəkət edərək Şamaxı xanlığının ərazisinə daxil oldular. Bakı ətrafında nəinki meşə, otlaq, hətta ümumiyyətlə bitki örtüyü olmadığından Zubov düşərgə yeri kimi Köhnə Şamaxını seçdi.[2]

Rus ordusu ilə birgə hərəkət etməyə məcbur olan Şeyxəli xan tədricən rusların sayıqlığını zəiflətməyə nail olub, iyunun 19-da Pir Xəlil kəndinə yaxın bir yerdə növbəti at çapması zamanı məharəti ilə rusları məftun edib, qəflətən uzaqlaşdı və atını yaxınlıqda yerləşən kəndə tərəf çevirdi, əvvəlcədən kənddə onu gözləyən süvarilərə qarışıb onlarla birlikdə kəndi tərk etdi. Süvarilər üç dəstəyə bölündüyündən ruslar Şeyxəli xanın hansı dəstədə olduğunu müəyyənləşdirə və onu tuta bilmədilər.[3]

Şamaxı hakimi Mustafa xanın Rusiyaya münasibəti birmənalı deyildi. Ağa Məhəmməd xanın hücumu zamanı ona müqavimət göstərmək iqtidarında olmayan Mustafa xan bu zaman Dərbənd yaxınlığında olan İ.Savelyevə müraciət edərək yardım istəmişdi.[4] Qacarın qoşunları Şimali Azərbaycan ərazisini tərk etdikdən sonra Mustafa xan mövqeyini dəyişmiş, öz qardaşını girov göndərmək barədə Zubovun tələbini rədd etmişdi.[5]

İyulun əvvəllərində rus ordusu Şamaxı xanlığının ərazisinə daxil olub Qurdbulaq yaylağında düşərgə saldığı zaman Mustafa xan Zubovun görüşünə getməkdən imtina etdi; Zubov nümayəndələr göndərib Mustafa xanda ruslara qarşı olan inamsızlığı aradan qaldırmağa çalışdı. Nəhayət iyulun 7-də Mustafa xan öz əyanları ilə birlikdə rusların düşərgəsinə getdi. Zubov İmperatriçənin adından Mustafa xana himayədarlıq ediləcəyinə söz verdi. Mustafa xan da öz növbəsində Rusiyaya

---

[1] Марзия Искендерова.Бакинское ханство,с.91

[2] АВПРИ, ф. 77, (СРП) оп. 7, д.160, л.109 и об.

[3] Николай Дубровин. Поход Зубова.., с.с. 136-137

[4] РГВИА, ф.41 оп-2, д.614, лл. 73-75.

[5] АВПРИ, ф. 77, (СРП) оп.7, д.158, л.177 об.

sadiq olacağını vəd etdi.[1]

Şəkili Səlim xan nümayəndəsini göndərib Rusiya himayəsinə keçmək haqqında öhdəliyi imzaladı.[2] Lakin Səlim xanın itaəti zahiri səciyyə daşıyırdı, o, gizlin surətdə Qazıqumuq xanı ilə Rusiyaya qarşı mübarizə üçün birləşməyə çalışırdı.[3]

İstilər düşdüyündən rus ordusu iyul ayını Qurdbulaq yaylağında keçirdi, avqust ayında isə Pirsaat çayını keçib qışlamaq üçün Cavada getdi.[4]

V.Zubov iyulun ortalarında ştabın baş kvartermeysteri Tixonovu Qurdbulaqdan Gəncəyə kimi olan yolu öyrənmək üçün göndərmişdi. Tixonov bu sərəncamı yerinə yetirərək yolu öyrənmiş və ətraflı təsvirini vermişdi. Həmin təsvir hal-hazırda Rusiya İmperiyası Xarici Siyasət Arxivinin 77 saylı fondunda 7-ci siyahı üzrə 158 saylı qovluqda mühafizə olunur.

Azərbaycan xanları V.Zubova inamsızlıqla yanaşmaqda davam edirdilər. Şəkiyə göndərilmiş rus casusu qayıdaraq dörd gündür ki, gecələr məmurların xanın yanına toplaşdığını və nəhayət hamının silahlanması haqqında əmr verildiyi xəbərini gətirmişdi.[5]

Bununla belə xanlar üzdə də olsa rus komandanlığı ilə mehriban davranmağa məcbur idilər. İbrahimxəlil xan oğlu Əbülfət ağanı Qarabağın bir neçə əsilzadəsi ilə birlikdə qiymətli hədiyyələr, o cümlədən cins atlarla V.Zubovun düşərgəsinə göndərdi. Əbülfət ağanın gətirdiyi məktubda xan ümumi sözlərlə Rusiya dövlətinə sədaqətli olduğunu, ona itaət edəcəyini bildirirdi.[6] Zubov Qarabağ xanının elçilərini ehtiramla qəbul etdi və xanın məktubunu İmperatriçəyə göndərdi. Baş komandan İbrahimxəlil xana qiymətli hədiyyələr göndərib, onu Rusiya

---

[1] РГВИА, ф.41 оп.2, д.614 а, л.316.

[2] Николай Дубровин. История, т.3, сс 142-144.

[3] Николай Дубровин. История, т.3, сс.144-145.

[4] Вадим Левиатов. Göst.əsəri, s.182.

[5] АВПРИ, Ф. 77, (СРП) оп.7, д.158, л.172.

[6] Yenə orada.

imperatriçəsinin himayəsi ilə ümidləndirdi.[1] Eyni zamanda Zubov qiymətli iri daşlarla bəzənmiş bir əsanı da o zaman xanın vəziri olan Molla Pənah Vaqifə göndərdi.[2]

İbrahimxəlil xan zahirdə özünü Rusiyaya sədaqətli kimi qələmə versə də, gizlindən V. Zubova qarşı sui-qəsd təşkil etməyə təşəbbüs göstərdi. O, qəsdi icra etmək üçün o zaman rus ordusunun qərargahında olan Zəndlər ailəsinə mənsub Nurəli xan adlı bir gəncdən istifadə etməyi planlaşdırırdı. Ağa Məhəmməd xan bu ailənin demək olar ki, bütün kişi üzvlərini məhv etdiyindən Nurəli xan Rusiyaya qaçmışdı. Tarki yaxınlığında Dərbəndə tərəf hərəkət edən Savelyevin dəstəsi ilə qarşılaşmış, Savelyev onu Qızlara Qudoviçin yanına göndərmişdi. Qudoviç Nurəli xanı Rusiyaya yola salmağa hazırlaşdığı bir zamanda V.Zubov Qafqaz xəttinə gəlmiş və Nurəli xana onunla birlikdə yürüşdə iştirak etməyi təklif etmişdi.[3] Zubovun düşərgəsinə gəlmiş Qarabağ elçiləri Nurəli xanla gizli əlaqə yaratmış, xanın göndərdiyi 3 min manat pulu ona verərək bildirmişdilər ki, Nurəli xan Zubovu qətlə yetirsə, İbrahimxəlil xan özünün Cənubi Qafqazın gözəli sayılan qızını ona ərə verəcəkdir.[4]

Nurəli xan bu təkliflə razılaşaraq şəkili Səlim xan və şamaxılı Mustafa xanla əlaqə yaratmışdı. Düşünülmüş plana görə xanların birləşmiş qüvvələri rus ordusunun düşərgəsini mühasirəyə almalı, Nurəli xan Zubovun düşərgəsinə soxularaq onu öldürməli, bundan sonra isə xanların birləşmiş qüvvələri rus qoşunlarını məhv etməli idi. Axmaq bir təsadüf nəticəsində hazırlanan qəsdin üstü açıldı. Bir gün Nurəli xan at çaparkən papağı başından düşmüş, içindəki məktub da üzə çıxmışdı. Rus əsgəri məktubu götürüb Zubova çatdırmışdı. Nurəli xan həbs edilərək Həştərxana sürgün edilmişdi.[5]

---

[1] Mirzə Camal Qarabaği. Tarixi Qarabağ. Bakı, 1959, s.28-29

[2] Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. I kitab, s.55.

[3] АВПРИ, ф. 77, (СРТ) оп.6,д.487, лл.228-229

[4] Вадим Левиатов. Göst.əsəri, s.183.

[5] Бутков П. Göst.əsəri, III his., s.397-398; Дубровин Н. Поход Зубова.., с.6; Дубровин Н История.., т.3, СПб., с.149-153.

V.Zubovun yürüş jurnalında yazıldığına görə, avqustun 7-də baş komandan (V.Zubov) Nurəli xanın ötən gün düşərgədən çıxıb gecəni İbrahimxəlil xanın nümayəndəsinin çadırında keçirdiyindən xəbər tutmuş və Nurəli xanı sorğu-suala tutmağı tapşırmışdı. Sorğu zamanı Nurəli xan İbrahimxəlil xanın öz qızını, böyük miqdarda cehizlə verməyi vəd edərək ona rus düşərgəsindən müntəzəm məlumat verməyi tapşırdığını demişdi.[1]

Maraqlıdır ki, sonralar Nurəli xan V.Zubova sui-qəsd hazırladığını tamamilə inkar etmişdi. O, 1798-ci ildə rus hökumətinə təqdim etdiyi ərizəsində yazırdı ki, bir müddət Zubovun düşərgəsində qaldıqdan sonra Rusiyaya göndərilməsini xahiş etmiş, baş komandan (V.Zubov) isə bundan qəzəblənərək avqustun sonlarında onu və nökərlərini həbs edərək əmlakını əlindən almışdı.[2]

V.Zubova qarşı sui-qəsd söhbətlərinin yayılması İbrahimxəlil xanın bu işdə əli olması ehtimalını yaratdığından, xan şübhələri özündən uzaqlaşdırmaq üçün yenidən Zubova məktub göndərib onun yanına 12 minlik rus qoşunu göndərilməsini xahiş etdi. O, bu qoşunla birlikdə Naxçıvan istiqamətində hərəkət edərək Rusiyaya qarşı olan qüvvələri cəzalandıracağını bildirirdi. Xan II İraklinin İrəvan yolunu, Zubovun isə Təbriz istiqamətini tutmasını tövsiyyə edirdi.[3]

Rusiya ermənilərinin arxiyepiskopu İ.Arqutinskinin xanlıqların ərazisində erməni dövləti yaradılması yönündə apardığı təşviqat da Azərbaycan xanlarında Rusiyaya qarşı bir etimadsızlıq yaratmışdı. Arqutinski Üçmüəzzin patriarxı ilə əlaqə yaradıb Qarabağda və Cənubi Qafqazın digər yerlərində yaşayan qriqoryan xristianlara göndərdiyi məktubda guya rus qoşunlarının "erməni dövləti" yaratmaq üçün gəldiyini yazmışdı.[4]

İbrahimxəlil xanın Rusiyaya münasibətinin kəskin surətdə dəyişməsinin səbəbi rusların malikləri ona qarşı çıxışa təhrik

[1] АВПРИ, Ф. 77, (СРП) оп.7, д.158, л.160 и об.
[2] АВПРИ, Ф. 77, (СРП) оп. 6,д.478, л.230 и об. 231.
[3] Петр Г.Бутков. Göst əsəri. II his., s.405.
[4] АВПРИ, ф.77(СРП), оп.7, д.159, лл. 147-148.

etməsi olmuşdu. Məlumdur ki, İ.Arqutinski hələ 1793-cü ildə Azərbaycan ərazisində erməni dövləti yaradılması və bu dövlətin hakiminin Rusiya tərəfindən təyin olunmasını nəzərdə tutan bir “rus-erməni müqaviləsi” layihəsi hazırlamışdı. 1796-cı il yürüşü zamanı Arqutinski həmin üzdəniraq layihəni rus dövlət xadimlərinə təqdim etmişdi. Arxiyepiskop Zubova Kür çayını adlayıb Muğanda düşərgə salmağı, İbrahimxəlil xandan böyük oğlunun və beş məliyin komandası altında qoşun göndərilməsinin tələb olunmasını tövsiyyə edirdi. Xan qoşun göndərməkdən imtina edərdisə, Zubov məliklərin yardımı ilə onu hakimiyyətdən uzaqlaşdırıb Şuşa şəhərini işğal etməli idi.[1] Arqutinskinin vədlərindən ruhlanan beş məlik İbrahimxəlil xana qarşı mübarizəyə hazırlaşmağa başlamışdı. Məliklərin xəyanətindən xəbər tutan xan rus ordusu Azərbaycanı tərk edən kimi onları cəzalandırmışdı.[2] 1796-cı il avqustun 8-də Şuşadan Zubovun düşərgəsinə qayıdan casus, Həştərxan ermənisi Sergey Boqdanovun verdiyi məlumatda deyilirdi ki, Üçmüəzzin patriarxından və arxiyepiskop Arqutinskidən rusların gəlməsi ilə əlaqədar vilayətdə xristianların “müsəlman zülmündən xilas olacağı haqqında” məktublar alınması ilə məliklər arasında çaxnaşma baş vermişdir. Qəzəblənən İbrahimxəlil xan məliklər dinc durmasalar məlik Cəmşidi edam edəcəyi ilə hədələyək demişdi: “Mən bilirəm ki, rus ordusu Cənubi Qafqaza, gürcü çarı güclənsin, İbrahimxəlil xanı və digər müsəlman hakimləri özünə tabe etsin deyə göndərilmişdir.[3]

Məliklər həm də hər vəchlə İbrahimxəlil xanı rus komandanlığının nəzərində ləkələməyə çalışırdılar. Məlik Cəmşid adı çəkilən Boqdanova İbrahimxəlil xanın Səlim xan və Mustafa xanla yazışması, uzun müddətdən bəri Səlim xanla düşmən münasibətdə olan İbrahimxəlil xanın Səlim xanın bacısını alacağına, Nurəli xana pul göndərilməsi və öz elçisi

---

[1] Мустафаев Дж. Северные ханства. С.96
[2] АВПРИ, Ф. 100, (СРА) оп. 3,д.464, л.8 об.
[3] АВПРИ, Ф. 77, (СРП) оп. 7,д.160, л.160 и об-161.

Mirzə Məmmədəliyə Nurəli xanı Qarabağ xanının tərəfinə çəkməsini tapşırmasına dair yazılı məlumat göndərmişdi.[1]

Rus ordusunun Azərbaycanın içərilərinə doğru irəliləməsi Osmanlı rəsmilərini, o cümlədən sultan III Səlimin özünü narahat etmişdi. Osmanlı hökuməti bütün vasitələrlə rusların irəliləyişini dayandırmağa çalışırdı. Osmanlı sərhəd paşaları karvan yolları və körpüləri sıradan çıxarır və bu işə yerli hakimləri cəlb etmək istəyirdilər. Həmin məqsədlə Axısxa paşası Şamaxı və Şəki xanlarının yanına öz adamlarını göndərmişdi. [2] Lakin rus komandanının cəzasından ehtiyat edən xanlar paşanın çağırışına cavab vermədilər. Qubalı Şeyxəli xan isə ruslara qarşı mübarizəni fəal surətdə davam etdirirdi. Rus komandanlığı Şeyxəli xana və onun müttəfiqi qazıqumuqlu Surxay xana qarşı mübarizə üçün ciddi tədbirlər görürdü. Qubada gizli surətdə general-mayor Bulqakovun komandası altında altı piyada taboru yerləşdirmişdi.

Sentyabrın sonunda Qazıqumuq xanı və Şeyxəli xanın 13-15 minlik qoşunu Quba xanlığının şimal hissəsinə daxil olub Alpan kəndinə yaxınlaşdı. Oktyabrın 1-də Quba və Dağıstan üsyançılarının birləşmiş qüvvələri rusları tələyə salıb qəfil onlara hücum etdilər. Baş verən döyüşdə Bakunin, kapitan Semyonov, daha 5 zabit və 245 əsgər öldürüldü.[3] Rus komandanlığı bir alayı döyüş yerinə göndərməklə üsyançıları geri çəkilməyə vadar etdi.[4]

V.Zubov Alpan döyüşündən sonra Şeyxəli xanı tamamilə xanlıq hüququndan məhrum etmək qərarına gəldi. Noyabrın 3-də Şeyxəli xanın kiçik, anadan ögey qardaşı Həsən Quba xanı elan olundu.[5]

Oktyabrın əvvəllərində rus ordusu Qurdbulaq yaylağından

---

[1] Yenə orada, v.161 və a.ü.

[2] Həsənbala Sadıqov. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi, Bakı, 1991, s.40-41.

[3] П.О.Бобровский. История 13-го лейб гренадерского Эриванского его величества полка за 250 (1642-1892 гг). 3. Егеря (1786-1816). СПб.: 1893, с.68

[4] Yenə orada.

[5] Николай Ф. Дубровин. История.., III c. 167

Yeni Şamaxıya hərəkət etdi. Zubov 1000 nəfərlik bir dəstə ayırıb general Rimski-Korsakovun komandası altında Gəncəyə göndərdi. II İrakli və İbrahimxəlil xan tərəfindən sıxışdırılmış vəziyyətdə olan Cavad xan ruslarla da düşmənçiliyə girməkdən çəkindi və dekabrın 13-də qala darvazalarını Rimski-Korsakovun üzünə açdı.[1]

Rus komandanlığının planına görə, Rimski-Korsakovun dəstəsi Gəncədə dayanaraq II İraklini Ağa Məhəmməd xanla mübarizəyə ruhlandırıb, onu İrəvana qoşun göndərməyə sövq etməli idi. Rimski-Korsakov həm də şimal xanlarını, ilk növbədə İbrahimxəlil xanı öz qoşunlarını Ərdəbil və Təbriz istiqamətində göndərməyə vadar etməli idi. Dənizdən desant çıxarmaqla rus eskadrası onlara yardım etməli idi.[2]

Beləliklə də göründüyü kimi, artıq Rusiyanın nəzərləri Cənubi Azərbaycana və Xəzər dənizinin cənubuna yönəlmişdi. V.Zubov oktyabrın 2-də Üçmüəzzin patriarxı Q.Karnetsiyə ordusunun artıq Kür çayının sahilinə çatdığını və Muğan çölündən keçib düşmənin (Ağa Məhəmməd şah Qacar nəzərdə tutulur – T.M.) düz ürəyinə zərbə endirməyə hazırlaşdığını yazırdı. O, Gürcüstan və Azərbaycan hüdudlarında tam təhlükəsizlik yaratmaq, bu ərazilərdə axmaq təsirləri aradan qaldırmaq üçün general Aleksandr Mixayloviç Rimski-Korsakovun komandası altında güclü korpusun Gəncədə yerləşməsi haqqında sərəncam verdiyini də qeyd edirdi.[3]

Erməni əsilli rus mayoru A.Serebrov oktyabrın 3-də V.Zubova yazırdı ki, Ağa Məhəmməd xan mötəbər məlumatlara görə Rusiya ordusunun Azərbaycana daxil olmasına dair məlumat alıb Azərbaycandakı qoşunlarının çoxunu paytaxt Tehrana çağırmış, yalnız İrəvanda müəyyən qədər qüvvə saxlamışdır. Ordunun bir hissəsini Təbriz və Qəzvin arasında yerləşdirmiş, özü yüngül süvari dəstələri ilə Xorasana, burada qiyam edən və

---

[1] РГВИА, ф. 41,оп. 1, д.384, л.1 и об; Джамал Мустафаев. Göst. əsəri, s.96.
[2] АКАК, Т. 2, Тифлис, 1868, док.38, с. 185
[3] АВПРИ, ф. 100 (СРА), оп. 3, 1796 г., д. 462, л.52 и об.

itaət göstərməyən hakimləri cəzalandırmaq üçün yönəlmişdir. Tehrandan yola düşməzdən əvvəl Ağa Məhəmməd xan qardaşı oğlu Məhəmmədəli bəyi məktublarla qubalı Şeyxəli xanın, şamaxılı Mustafa xanın, şəkili Səlim xanın və gəncəli Cavad xanın yanına göndərmişdir. Əsgər xan şifahi surətdə xanlara rus ordusunu mümkün qədər ölkənin içərisinə, Araza qədər, Ərdəbil vilayətinə çəkmələri təklif etməlidir. Onda o Xorasandan dönüb rus ordusunu mühasirə edəcəkdir. İrəvandakı qoşunlar da, arxadan mühasirəni tamamlayacaqlar. Sağ cəbhəni isə adı çəkilən xanlar təşkil edəcəklər.[1]

Serebrov hesab edirdi ki, ruslar gecikmədən İrəvan şəhərini almalıdırlar, çünki İrəvanın tabe edilməsi ilə bütün Azərbaycan könüllü tabe olar, Gürcüstanın təhlükəsizliyi təmin edilər. Qafqaz korpusu Qarabağdan və İrəvan xanlığı ərazisindən maneəsiz keçməklə Araz sahilinə gələr, Osmanlı sərhəddindəki yolu nəzarət altında saxlayar.[2]

Oktyabrın 28-də rus ordusunun general Platovun başılıq etdiyi öncül hissələri Yeni Şamaxıya yaxınlaşdı.[3] Rusların onu cəzalandıracağından ehtiyat edən Mustafa xan tələsik Yeni Şamaxını tərk edib Fitdağa sığındı.[4] Zubov noyabrın 2-də Mustafa xanı hakimiyyətdən kənarlaşdırdı və əvəzində onun qardaşı Qasım xanı Şamaxı xanı elan etdi. Yeni xan rus qoşunlarının himayəsi altında qardaşına qarşı çıxdı.[5]

Zubov Yeni Şamaxıda çox dayanmayıb oradan da hərəkət edərək noyabrın 21-də Cavad şəhəri yaxınlığında Kürün sol sahilində düzənlikdə düşərgə saldı.[6]

Azərbaycanda möhkəmlənməyi qarşısına məqsəd qoymuş rus hakimiyyət orqanları bir sıra siyasi-iqtisadi tədbirlər həyata keçirməyə çalışırdılar. İşğal olunmuş ərazilərdə Rusiyanın

---

[1] РГВИА, ф.846, оп. 16, д.2801, л.1.

[2] Yenə orada, v. 1a.ü.

[3] Николай Ф. Дубровин. История.., сс.190-191

[4] Джамал Мустафаев. Göst. əsəri, s.37.

[5] Аббаскули ага Бакиханов. Гюлистани-Ирам.., сс. 145-146;

[6] Петр Г.Бутков. Göst.əsəri, II his., s.414.

səlahiyyətli nümayəndəsi təyin edilmiş polkovnik Kovalenski yerli hakimlərlə münasibətləri qaydaya salmalı idi. Yürüş artıq bitdikdən 1-2 il sonra Zubov rusların mövqeyini möhkəmləndirmək və diyarın iqtisadi mənimsənilməsini təmin etmək üçün layihə hazırlanmışdı. Həmin layihəyə görə, Kürlə Arazın qovuşduğu yerdə - Cavadın yaxınlığında II Yekaterinanın şərəfinə Yekaterinaserd adlanan qala salınmalı idi. Bura iki min cavan rus əsgəri göndərilməli, gürcülər və ermənilər onlara gəlin verməyə məcbur edilməli idilər[1]. Həmin qala cənuba qarşı yönəlmiş dayaq məntəqəsi olmalı idi. Bu qala ticarət qovşağı, Xəzər, Cənubi Qafqaz, qismən də Mərkəzi Asiya və İran ticarətinin iri bazarı olmalı idi.[2]

Zubov yazırdı ki, Nadir şahın hakimiyyəti dövründə 1732 və 1735-ci il müqavilələrinə görə, Xəzər ticarətində geniş imtiyazlara malik olan Rusiya böyük gəlir götürürdü. Nadir şahın ölümündən sonra taxt-tac uğrunda mübarizələr, xanlıqlar arasında müharibələr Xəzərətrafı ölkələri var-yoxdan çıxardığına, tacirlərin həyatının və mallarının təhlükəsizliyi təmin olunmadığına görə Xəzər ticarəti tənəzzülə uğramışdı. İndi ruslar əsasən gəmilərində yerli tacirlərin mallarını daşımaqdan gəlir götürürdülər.[3]

Xəzər sahillərindəki limanlardan danışarkən, Xəzərin qərbində Həştərxandan cənubda ilk sahil şəhəri Dərbənd olsa da, bu şəhərin heç bir limanı olmadığı üçün gəmilərin ona yaxınlaşa bilmədiyini, sahildən aralı, açıq dənizdə lövbər salmağa məcbur olduqlarını qeyd edən Zubov buna görə də dərbəndlilər və ətraf yerlərin sakinlərinin Rusiya ilə ticarəti quru yolla Qızlar vasitəsilə apardıqlarını yazırdı.[4] Zubovun qeyd etdiyi kimi Dərbənddən bir qədər cənubda əlverişli Niyazabad duracağı olsa da, burada ticarət həyatı demək olar ki, sönmüşdü. Çünki Niyazabadın

---

[1] [Валериан ] Зубов. Общее обозрешие торговли с Азиею (записка) // Русский Архив, 1873 кн. 5, ч. 8, с. 193; Вадим Левиатов. Göst.əsəri, s.187.
[2] Вадим Левиатов. Göst. əsəri. S.187
[3] Архив СПб. ИИ РАН, Русская секция, ф. 36, оп. 1, д. 553, л.4 и об.
[4] Yenə orada, v.5

ətrafında yaşayan sakinlər öz mallarının bir hissəsini Dərbəndə, digər hissəsini isə Bakıya aparırdılar. Onlar Bakıda mallarının əvəzinə neft, duz və Rusiya malları alırdılar.[1]

Bakının Xəzər sahilində ən yaxşı liman olduğunu qeyd edən Zubov, Bakı limanında gəmilərin 7 sajen dərinlikdə təhlükəsiz dura bildiklərini yazırdı. O, sözünə davam edərək Bakının ətrafında çoxlu neft quyuları və ən yaxşı duz olduğunu vurğulayır, bu malları, həm də burada satılan Rusiya mallarını almaq üçün Mazandaran, Gilan, Lənkərandan və Azərbaycanın digər yerlərindən tacirlərin buraya gəldiklərini, ipəyin bol olduğunu və dənizə çıxışı olmayan Şamaxı, Kür və Araz çaylarına qədər ərazidə yerləşən torpaqları əhatə edən bütün Şirvan sakinlərinin öz mallarını Bakıya gətirdiklərini yazırdı.[2]

Rusiyanın Xəzər ticarəti üçün yeganə əlverişli və faydalı yerin Bakı olması qənaətinə gələn Zubov, Bakı vasitəsilə Mazandaran və Gilan vilayətləri ilə intensiv ticarət əlaqəsi saxlamaq mümkün olduğunu qeyd edirdi. Bakıdan Fars körfəzinədək təhlükəsiz quru yolu da vardı. Bu yol zəngin vilayətlərdən keçir və hələ Böyük şah Abbas tərəfindən nizama salınmış, lazımi yerlərdə karvansaralar vardı. Bir yol isə Təbriz, Ərdəbil, Sultaniyyə, Tehran, Qəzvin, Kaşan, İsfahan, Luristan, Xuzistan, Farsdan və digər şəhər və yerlərdən keçirdi. Ehtimal ki, bu yolla mallar İrandan Gürcüstana gətirilir, sonra da Qara dəniz vasitəsilə bütün Avropaya daşınırmış.

Zubov belə fikirləşirdi ki, əgər Bakı lazımi surətdə qurulsa və hər kəs burada özünü və əmlakını tam təhlükəsizlikdə hiss etsə, bu şəhər şübhəsiz bütün İran ticarətinin qovşağına çevrilər və bütün varlı tacirləri özünə cəlb edər. Onda Mazandaran və Ənzəli limanları lazımsız kimi öz-özünə məhv olacaq, bütün bu vilayətlərin malları kirjimlərlə (sallarla) Bakıya daşınacaq.[3]

Zubov bir məsələni də xüsusi qeyd edir. Hindistanda gebrlər

---

[1] Архив СПб. ИИ РАН, Русская секция, ф. 36, оп. 1, д. 553, л.5

[2] Архив СПб. ИИ РАН, Русская секция, ф. 36, оп. 1, д. 553, л.5 об.

[3] Yenə orada, v. 6 a. ü.

təriqətinin başlıca təriqət olduğu məlumdur və hindlilərin bir çoxu indiyədək Bakı ətrafındakı odları ziyarət edirlər. Müəllif sual verirdi: Bakının qurulması və burada ticarətin genişlənməsi ilə Bakını hindlilərin Məkkəsinə çevirmək olmazmı?[1]

Zubova görə, II Yekaterinanın Cənubi Qafqaza ordu göndərməsinin məqsədi onsuz da geniş olan imperiya sərhədlərini genişləndirmək deyildi, əsl məqsəd Rusiyanın ləyaqətini açıqca təhqir etmiş olan yırtıcı Ağa Məhəmməd xanı cəzalandırmaq və İranda Rusiya ticarətini canlandırmaq idi.[2]

Zubov yazırdı ki, indi öz-özünü saxlamaq iqtidarında olmayan Gürcüstanın sərhədlərini Kürlə Arazın qovuşuğuna kimi uzadıb, Araz boyunda yerləşən Şuşa, Naxçıvan və İrəvanı, Qara dəniz sahilindəki İmeretiyanı ona birləşdirmək lazımdır. Onda Rusiyanın müttəfiqi kimi Gürcüstan güclənər və bölgədə hökmran olar.[3]

Gəncədən sonra Kür çayı gəmiçilik üçün yararlı olar, buna görə Gəncəni Gürcüstana birləşdirməklə sonuncu Rusiya ilə Qara dəniz yolu ilə yanaşı, digər, daha əlverişli kommunikasiya əldə etmiş olar. Beləliklə, bu ölkə güclü olaraq Rusiya üçün möhkəm dayaq və yeni sərvət mənbəyi olar.[4]

Zubovun yazdığına görə, Böyük Yekaterina uzaqgörənlik göstərərək Gürcüstanın Rusiya ilə əlaqəsini təmin etmək, o bölgədə Rusiya hakimiyyətini bərqərar etmək, ticarəti genişləndirmək üçün Arazın Kürə töküldüyü yerdən bir qədər aşağıda qala salınmasını qərara almışdı. Bu qalanın və habelə Bakı limanının planları artıq hazırlanmışdı. Yekaterinaserd adlandırılacaq yeni şəhərdə Roma koloniyaları tipində 2 min gənc əsgər məskunlaşdırmaq, onları həm silahla, həm də əkinçilik alətləri ilə təmin etmək planlaşdırılırdı. Gürcülər və ermənilər həmin əsgərlərə qadınlar verməli idilər. Gürcüstanla daimi dostluq əlaqələri şəraitində bu məntəqə Rusiyanın region ilə

[1] Yenə orada, v. 7.
[2] Архив СПб. ИИ РАН, Русская секция, ф. 36, оп. 1, д. 553, л.7.
[3] Yenə orada, v.7 a.ü.
[4] Yenə orada, v.7 a.ü. 8.

ticarətini yırtıcı dağlı xalqlarının basqınlarından qorumaq iqtidarında olardı.[1]

Beləliklə, Rusiya Bakı vasitəsilə İran ticarətini Həştərxana yönəldə, Qafqaz xəttini dağlıların basqınlarından qoruya bilər, hətta Osmanlı dövləti ilə müharibə təqdirində Osmanlını hərbi qüvvələrinin bir hissəsini Anadolu sərhədlərində saxlamağa vadar edərdi.[2]

Ehtimal ki, yürüşdən bir-iki il sonra V Zubov öz mülahizələrini yazmaqla bu yürüşün məqsədəuyğunluğunu əsaslandırmağa və I Pavelin yürüşü dayandırmasının yanlış olduğunu sübuta yetirməyə çalışmışdır.

Zubovun layihəsi "Russkiy Arxiv" jurnalının 1873-cü ilə aid 5-ci kitabının 8-ci hissəsində nəşr olunmuşdur. Nəşr zamanı bir sıra yerlər buraxılmışdır. Hal-hazırda əlyazma Rusiya EA Sankt-Peterburq Tarix İnstitutunun elmi arxivində qorunur və biz həmin mətndən istifadə etmişik.

1796-cı il noyabrın 6-da II Yekaterinanın ölümü V.Zubovun kifayət qədər uğurla davam edən yürüşlərinin dayandırılmasına səbəb oldu.

Taxta çıxan oğlu I Pavel anasının siyasətinə əks siyasət yürütməyə başladı. O, rus ordusunun Azərbaycandan dərhal çıxarılması haqqında sərəncam verdi. Anasının məşuqlarından biri olduğu üçün Platon Zubova nifrət bəsləyən I Pavel onun qardaşı Valeran Zubova deyil, birbaşa alay komandirinə qoşunların Qafqaz xəttinə geri qayıtması haqqında sərəncam göndərdi. Qafqaz xəttindəki bütün qoşunların komandanlığı yenidən general-feldmarşal İ. Qudoviçə həvalə edildi.[3]

Qışda atların yolda hərəkətinin, artilleriyanın aparılmasının çətinliyi üzündən rus qoşunlarının çıxarılması 1797-ci ilin martına kimi çəkdi.[4]

---

[1] Yenə orada, v. 8.

[2] Архив СПб. ИИ РАН, Русская секция, ф. 36, оп. 1, д. 553,л.8 и об.

[3] Николай Ф. Дубровин. Göst əsəri, III his., s.195; Левиатов В. Göst. əsəri. s.188

[4] Вадим Левиатов. Göst. əsəri. s.188.

Geniş əraziləri işğal etmiş rus qoşunlarının I Pavel tərəfindən geri çağrılması bir tərəfdən, böyük xərclərlə (31.700 min rubl)[1] bağlı idi.

Rusiya ordusunun Azərbaycanı tərk etməsi ruslara qulluq göstərənləri pis vəziyyətə qoydu. Ağa Məhəmməd xan tərəfindən sıxışdırılan lənkəranlı Mir Mustafa xan 1796-cı ildə Rusiya Xarici İşlər kollegiyasına yazırdı ki, o, Rusiya imperiyasının himayəsinə nail olmaq məqsədilə öz məmuru Əsədulla bəyi ərznamə ilə rus sarayına göndərmişdir. Ağa Məhəmməd xan Mir Mustafa xanın Rusiya ilə əlaqəsindən xəbər tutub çoxsaylı qoşunla Lənkəran xanlığına hücum etmişdir. Mir Mustafa xan Salyanın Rusiya himayəsində olmasından əmin olduğuna görə bir neçə ailəni ora göndərmişdir. Lakin orada onlarla çox pis rəftar olunmuşdur. Mir Mustafa xan özünün rusların nəzarəti altında olan Sarı adasında olduğunu və həmişə Rusiya imperiyasına xidmət göstərmək əzmində olduğunu yazırdı.[2]

1797-ci ilin əvvəlində rus imperatorunun adından Mir Mustafa xana göndəriləcək cavab məktubunun layihəsi hazırlanmışdı. Layihədə deyilirdi ki, xanın elçisi və əmisi oğlu Mirzə Məhəmməd bəy rus sarayında qəbul olunmuş, xanın ərznaməsini təqdim etmiş və vətənə buraxılmışdır. Mir Mustafa xan imperator himayəsi ilə ümidləndirilirdi.[3]

Qarabağ melikləri – Vərəndə məliyi Cəmşid, Gülüstan məliyi Fridon və Petros yüzbaşı 1797-ci il avqustun 1-də general İ.Qudoviçə təqdim etdikləri ərznamədə 1796-cı ildə V. Zubovun başçılığı ilə rus ordusu Azərbaycana hərbi səfər edəndə məliklərin məlik Fridonu Zubovun yanına göndərib onları İbrahimxəlil xanın əsarətindən xilas etməyi xahiş etdiklərini yazırdı. Rus ordusunun qayıtması məlikləri çətin vəziyyətə salmış,[4] Məlik Abov Tiflisə – general Rimski-Korsakovun yanına gəlib, sonuncu

---

[1] Tofiq Mustafazadə. Azərbaycan-Rusiya münasibətləri.., s.241

[2] АВПРИ, ф. 77 оп. 6, (1796-1800 гг.), д.474 (Талышинского ханства), лл. лл. 11-13.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 6 (1796-1800 гг.), д.474,лл. 188-189 об.

[4] АВПРИ, ф. 100 (СРП), оп. 3 д.464 (1797-1799 гг.), л.8 и об.

öz təbəələrini Qarabağdan çıxara bilsin deyə Gəncədə dayanmış rus hərbi dəstəsinə bu məlikin mülklərinə yaxınlaşmasını xahiş etmişdir.[1] Ancaq bu arada Ağa Məhəmməd şah Qarabağa hücum etmiş və o məlik (Cəmşiddən - ?) 70 min manat alınmasını, əks halda edam olunmasını əmr etmişdir. Yalnız tezliklə şah qətlə yetirildiyindən məlik Gəncəyə qaça bilmişdir.[2]

Elə bu vaxtlarda məliklər I Pavelin Azərbaycanda yaşayan və rus ordusuna yürüşü zamanı yardım göstərmiş xristianların Rusiyaya köçmələrinə icazə verilməsi haqqında fərmanından xəbər tutub, məliklərin ən yaşlısı olan Fridonu göndərərək məliklərin təbəələrinin Qarabağdan çıxmasına şərait yaratmaları üçün Gürcüstandakı rus qoşunlarına Şuşaya yürüməlıəri barədə göstəriş verilməsini xahiş etmişlər.[3]

Beləliklə, ilkin mənbələrin və tarixi ədəbiyyatın araşdırılması göstərir ki, 1787-1791-ci illər müharibəsində qalib gəlməklə Rusiya əsas rəqibi Osmanlı imperiyasını Cənubi Qafqaz işlərinə fəal müdaxilə imkanından məhrum etmiş, lakin bu illərdə Cənubi Qafqazda hökmranlıq uğrunda Rusiyaya yeni rəqib – artıq bütün İranı və Azərbaycanın cənubunu özünə tabe etmiş Ağa Məhəmməd xan Qacar meydana çıxmışdır. Azərbaycanın cənub xanlıqları özlərini Qacar təhlükəsindən qorumaqdan ötrü yardım üçün Osmanlı sultanına müraciət etsələr də, bu zaman Rusiya ilə müharibə getdiyi üçün, həm də Ağa Məhəmməd xana Rusiyanın Osmanlı sərhədləri yaxınlığında irəliləməsinə mane ola biləcək qüvvə kimi baxdığından Sultan xanların yardım çağırışına cavab verməmişdir. Çarəsiz qalan cənub xanlarının çoxu Qacara itaət göstərməyə məcbur olmuşlar.

Ağa Məhəmməd xan Rusiyaya ərazi güzəştləri etmək istəmədiyindən rus hökuməti onun rəqiblərini– ilk növbədə ögey qardaşı Murtuzaqulu xanı dəstəkləyirdi. Lakin Murtuzaqulu xan qardaşının qarşısında duruş gətirə bilməyib 1787-ci ilin payızında

---

[1] Yenə orada.

[2] АВПРИ, ф. 100 (СРП), оп. 3 д.464 (1797-1799 гг.), л.8 об.-9.

[3] Yenə orada, v.10 və a.ü.

rus freqatına minib Gilandan qaçmış, sonra Rusiyaya üzmüşdü.

1794-cü ildə əsas rəqibi Lütfəli xan Zəndi məğlubiyyətə uğradıb məhv etməklə Ağa Məhəmməd xan İranı və Azərbaycanın cənubunu tabe etmək işini başa çatdırmış və bundan sonra artıq diqqətini Azərbaycanın şimalının və Kartli-Kaxeti çarlığının itaətə gətirilməsinə yönəltmişdi. Mövcud beynəlxalq şərait Qacarın Cənubi Qafqaza yürüşü üçün əlverişli idi. Qərbi Avropa dövlətləri, ilk növbədə Fransa Qacarın vasitəsilə Rusiyanın cənuba hərəkətinin qarşısını almağa çalışırdılar.

Ağa Məhəmməd xan ordunun əsas hissəsi ilə 1795-ci il mayın sonlarında Şuşaya yaxınlaşdı, lakin 33 günlük mühasirə nəticə vermədiyindən boş yerə vaxt itirmək istəməyərək Süleyman xanı bir dəstə ilə Şuşa ətrafında qoyub özü Gürcüstana doğru hərəkət etmişdi. Sentyabrın əvvəllərində Ağa Məhəmməd xan ordusu ilə Tiflisə yaxınlaşmış, bu şəhərin yaxınlığında baş verən döyüşdə gürcülər darmadağın edilmiş və döyüş meydanından qaçmışdılar. Tiflisi aldıqdan sonra qəflətən Muğan çölünə çəkilən Qacar 1795-ci ilin sonunda (çox ehtimal ki, Muğanda) yüngülvari tacqoyma mərasimi keçirib Xorasana hərəkət etmiş, burada hakimiyyətdə olan Nadirin nəticəsi Nadir Mirzəni hakimiyyətdən kənarlaşdırıb geri qayıtmışdı.

Ağa Məhəmməd Qacarın Rusiyanın rəsmi himayəsində olan Kartli-Kaxeti çarlığına hücum etməsi Rusiyanın regiondakı nüfuzunu xeyli sarsıtdığından rus hökuməti sarsılmış nüfuzunu bərpa etmək, Qacarın Cənubi Qafqazda möhkəmlənməsinə yol verməmək üçün bura ordu göndərmək qərarına gəlmişdi.

II Yekaterinanın məşuqlarından biri olan Platon Zubovun 24 yaşlı qardaşı Valerian Zubovun komandan təyin edildiyi ordunun qarşısına yalnız Ağa Məhəmməd şahı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq deyil, həm də İrandan keçməklə Hind okeanına çıxmaq vəzifəsi qoyulmuşdu. Birləşmiş qüvvələr yürüşə davam edərək İstanbulun işğalını başa çatdırmalı idilər. Rusiya ordusunun yürüşünün başlıca məqsədlərindən biri də Cənubi Qafqazda xristian amilini gücləndirməkdən ibarət idi. İraklinin

hakimiyyətini Araz çayına kimi yaymaq, Gəncə və İrəvan xanlıqlarını Kartli-Kaxeti çarlığına birləşdirmək nəzərdə tutulurdu. Rusiyadakı ermənilərin arxiyepiskopu İ.Arqutinskini V.Zubovun məsləhətçisi təyin edən rus hökuməti erməni dövləti yaratmaq məsələsini də gündəlikdə saxlayırdı. Yerli əhalinin güclü müqavimətinə səbəb olmamaq üçün yürüşün əsl məqsədləri gizlədilirdi. Göstərilirdi ki, guya yürüşdə məqsəd Gürcüstanı azad etmək, Qarabağ məliklərini və Qacarın sıxışdırdığı, Rusiyaya rəğbət bəsləyən xanları dəstəkləməkdir.

Qafqaz xəttinə gələn V.Zubov 1796-cı il aprelin 13-də Qızlardan Dərbəndə tərəf hərəkət etdi. Şeyxəli xan şəhəri təslim etməkdən qəti imtina etdiyi üçün Zubov hərbi əməliyyatlara başladı, bir neçə gün davam edən atəşlərdən sonra qala divarlarında yarıqlar əmələ gəldiyindən, şəhər Şeyxəli xandan təslim olmasını tələb etdi və xan bu tələbi yerinə yetirməli oldu.

Zubov İmperatriçənin adından Şeyxəli xanın bağışlandığını elan etsə də, sonradan onu hakimiyyətdən uzaqlaşdırıb, ondan böyük olan bacısı Pəricahan xanımı Dərbənd şəhərinin hakimi təyin etdi. Şeyxəli xanı isə Dərbənddə saxlamaqdan da qorxaraq özü ilə götürmüşdü.

Rusiya ordusu Quba və Bakını ələ keçirdikdən sonra, bu ordunun mütləq Şamaxı xanlığı ərazisinə daxil olacağını anlayan Mustafa xan xeyli çağırışlardan sonra əyanları ilə birlikdə rusların düşərgəsinə gəlmiş, Zubov İmperatriçənin adından Mustafa xana himayə, xan da Rusiyaya sədaqət vəd etmişdi.

Rusiya ordusunun Azərbaycana hücumu Osmanlı sultanı III Səlimi narahat etmişdi və o, yerli hakimləri rus hərbi hissələrinin irəliləyişinə mane olmağa çağırmışdı. Lakin Azərbaycan xanlarından yalnız rusların nəzarəti altından qaçmağa nail olmuş Şeyxəli xan rus ordusuna qarşı fəal mübarizəni davam etdirirdi. Buna görə də V.Zubov Şeyxəli xanı tamamilə xanlıq hüququndan məhrum edərək, onun anadan ögey qardaşı Həsəni Quba xanı elan etmişdi.

1796-cı il oktyabrın əvvəllərində Rusiyadan əlavə yardım alan V.Zubov Yeni Şamaxıya doğru hərəkət etdi. O, bir dəstəni

Gəncəyə göndərmiş, həm II İrakli, həm də İbrahimxəlil xan tərəfindən sıxışdırılan Cavad xan çarəni Rusiya himayəsində görərək qala qapılarını rusların üzünə açmışdı. Zubovun yaxınlaşdığını görən Mustafa xan cəzalandırılacağından qorxaraq Yeni Şamaxını tərk edib Fitdağa sığındı. Zubov onun əmisi oğlu Qasımı Şamaxı xanı elan etdi. Yeni Şamaxıdan hərəkət edərək noyabrda Kür və Araz çaylarının qovuşuğunda Cavad şəhəri yanında düşərgə saldı.

Zubov rus qoşunlarının mövqelərini möhkəmləndirmək və diyarın iqtisadi cəhətdən mənimsənilməsini sürətləndirmək üçün bir layihə hazırlamışdı. Layihəyə görə, Cavad şəhərinin yaxınlığında II Yekaterinanın şərəfinə Yekaterinaserd adlandırılacaq bir şəhər salınmalı, bura iki min cavan rus əsgəri yerləşdirilməli idi. Gürcülər və ermənilər onlara qız verməyə məcbur edilməli idilər. Bu qala Rusiyanın cənubunda həm dayaq məntəqəsi, ticarət qovşağı, həm də Xəzər, Cənubi Qafqaz, qismən də Orta Asiya və İran ticarətinin iri bazarı olmalı idi.

1796-cı il noyabrın 6-da II Yekaterinanın qəflətən vəfat etməsilə V.Zubovun uğurla davam edən yürüşü dayandırıldı. Taxta çıxan I Pavel anasına nifrət bəslədiyi üçün əks siyasət yürütməyə başladı. Bu səbəbdən də rus ordusunun cənuba yürüşünü dayandırdı.

# VIII FƏSİL

## XVIII ƏSRİN SONU-XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN RUSİYA-QACAR-OSMANLI MÜNASİBƏTLƏRİNDƏ. GÜLÜSTAN MÜQAVİLƏSİ

### VIII.1. Ağa Məhəmməd şah Qacarın Azərbaycanın şimalına II yürüşü.

Rusiya qoşunları Azərbaycanın hüdudlarını tərk etdikdən az sonra Ağa Məhəmməd şah Qacar (1796-cı ilin martında tacqoyma mərasimi keçirmişdi) Azərbaycanın şimal hissəsinə ikinci yürüş etdi. Şimal xanlarına göndərdiyi fərmanlarında qeyd-şərtsiz tabe olmalarını tələb edən Qacar əks təqdirdə onları sərt şəkildə cəzalandırılacaqları ilə hədələyirdi. Qarabağlı İbrahimxəlil xana ünvanlanmış fərmanda deyilirdi ki, əgər xan sağ qalmaq istəyirsə hakimiyyəti oğluna verib Məkkə ziyarətinə getməlidir.[1]

Qacar ordusunun Əliqulu xan tərəfindən başçılıq edilən ön dəstələri 1797-ci ilin yazında Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə daxil oldu. Naxçıvanlı Kəlbəli xanın gözləri çıxarıldı.[2] İrəvan xanlığı və sakinlərinin bir hissəsi İrana köçürüldü.[3]

Ordunun Ağa Məhəmməd xanın başçılıq etdiyi əsas hissəsi Qarabağa daxil oldu. Bu dövrdə bir çox xanlıqlarda, o cümlədən Qarabağ xanlığında baş vermiş quraqlıqdan sonra kəskin aclıq hökm sürdüyündən ərzaq ehtiyatı olmayan İbrahimxəlil xan Şuşanı tərk edib ailəsi ilə yardım almaq üçün Car-Balakən camaatlarına, qohumu Ömər xanın yanına getdi.[4]

Xanın şəhəri tərk etməsi əhali arasında ümidsizlik və vahimə yaratdı. Əyanlar müqavimət göstərməyin faydasız olduğunu düşünərək, əhalinin təhlükəsizliyinə təminat verilməsi şərtilə qalanı təslim etdilər. Lakin Ağa Məhəmməd şah qalaya daxil olan

---

[1] Жизнеописание.., с.24
[2] Гусейн Далили. Исторический очерк.., сс. 66-67
[3] Жизнеописание.., с. 124
[4] Mirzə Adıgözəl bəy. Qarabağnamə// Qarabağnamələr, I kitab, s.57

kimi verdiyi vədi pozaraq bir sıra adamları cəzalandırdı. Yüzlərlə adam, o cümlədən İbrahimxəlil xanın vəziri Molla Pənah Vaqif həbs edildi. Gürcüstana yeni səfərə hazırlaşan Qacar Şuşada olmasının yeddinci günündə, 1797-ci il iyulun 4-də öz nökərləri Səfərəli və Abbas tərəfindən qətlə yetirildi. Qatillər qəsdin əsas təşkilatçısı sayılan Sadıq xan Şəqqaqiyə sığındılar. Sadıq xan onları da götürüb, guya şahın tapşırığı ilə İbrahimxəlil xanın dalınca getdiyini söyləyərək qalanı tərk edib Arazdan cənuba keçdi. [1] Şahın ölüm xəbəri yayılan kimi qacar döyüşçüləri dağılışıb evlərinə döndülər.

## VIII.2. XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycan Rusiya və Qacarlar İranının siyasətində.

Ağa Məhəmməd şah qətlə yetirildikdən sonra Şahın öz sağlığında vəliəhd təyin etdiyi qardaşı oğlu Fətəli xan hakimiyyəti ələ aldı. O, Ağa Məhəmməd xanın babası Fətəli xanın şərəfinə adlandırıldığına görə Ağa Məhəmməd şah tərəfindən nəvazişlə “Baba xan” deyə çağırılırdı. Fətəli şah bütün rəqiblərinə qalib gələ bilib dövlətdə sabitliyi bərpa etdi.

XVIII əsrin sonlarında Fətəli şah hələ bir müddət səltənətin daxili işləri ilə, yeni rus çarı I Pavel isə Avropa işləri ilə məşğul olduğundan Şimali Azərbaycan xanlarının üzərindəki təhlükə qısa müddətə də olsa sovuşmuşdu. Xanlar bundan istifadə edib birləşmədilər, əksinə ara mübarizəsi yeni qüvvə ilə qızışdı.

I Pavel Cənubi Qafqazda diplomatik yolla möhkəmlənməyə üstünlük verirdi. O, Qafqaz xəttindəki rus qoşunlarının komandanı qraf Qudoviçə Rusiyaya qarşı “xeyirxah olan” Azərbaycan və Dağıstan hakimlərini bir federativ dövlətdə birləşdirməyi təklif etdi.[2]

Konsul Skibinevski Xarici İşlər kollegiyasına göndərdiyi məruzatda yazırdı ki, Fətəli şah Lənkəranlı Mir Mustafa xanı

---

[1] Mirzə Adıgözəl bəy. Qarabağnamə// Qarabağnamələr, I kitab (tərtib edən və çapa hazırlayanı A.Fərzəliyev) Bakı, Yazıçı, 1989, s.58.

[2] Евгений И. Козубский. История города Дербента. Темирхан-Шура, 1906, с.123; Вадим Левиатов. Göst. əsəri, s.193

Rəştdən sıxışdırmaq, yaxud da həbs etmək istəyir, buna görə də xan yaxınlıqda dayanmış rus hərbi gəmilərindən himayə xahiş etməyə məcbur olacaqdır. Skibinevskinin fikrincə, bu halda rus gəmiləri Lənkəran sahillərinin yaxınlığında üzməklə xana dəstək nümayiş etdirməlidirlər.[1] Qudoviç isə I Pavelin 9 mart 1797-ci il tarixli buyruğunu əsas gətirərək Skibinevskinin təşəbbüsünə qarşı çıxmış və İmperatorun göstərişinə əsasən Talış sahillərinə yaxınlıqda yerləşən Sarı adasında bundan sonra qoşun saxlamamaq, adanı möhkəmləndirməmək, yalnız adanın yaxınlığında bir-iki hərbi gəmi dayanmalı olduğunu yazırdı.[2]

Elçiyə yeni etimadnamə məktubu göndərən Mir Mustafa xan yazırdı ki, Qacar qoşunları üç dəfə onun mülklərinə basqın etmiş və qarətlər törətmişlər. Təhlükəli anlarda Gilandakı rus konsulu ona yardım göstərmişdir. Bu səbəbdən də o, konsulun Lənkəranda olmasını arzulayır.[3]

1798-ci ildə Sankt-Peterburqa gələn Mir Mustafa xanın elçisi Mirzə Məhəmməd bəylə göndərdiyi məktubunda Lənkəran xanı yazırdı ki, Ağa Məhəmməd şahın göstərişi ilə Gilana aparılmış Lənkəran ailələrini geri qaytarmaqdan ötrü yürüş etməyə hazırlaşır və bu zaman orada olan rus konsulu Skibinevskini də Lənkərana gətirməyə icazə istəyir. Qraf Qudoviç konsulun Gilandan Lənkərana aparılmasına icazə verməmişdi. Çünki bir sıra xanların da Gilana iddiası olduğundan Mir Mustafa xanın buraya yürüşü onun düşmənlərinin artmasına səbəb ola bilərdi. Qudoviç həm də hesab edirdi ki, vəziyyət dəyişdiyindən Mir Mustafa xan, Qacarın ölümündən əvvəl Rusiyaya yola saldığı və artıq Həştərxanda olan elçisinə verdiyi etimadnaməsini yeniləməlidir.[4]

Skibinevskinin Xarici İşlər kollegiyasına 12 sentyabr 1797-ci il tarixdə Sarı adasından göndərdiyi məruzəsindən məlum olur ki, Fətəli şah demək olar ki, bütün sərkərdələrin və vilayət

---

[1] АВПРИ, Ф. 77, (СРП) оп.6,д.474, л.94 и об.

[2] Yenə orada.

[3] Yenə orada, iş 476, v.91 və a.ü.

[4] АВПРИ, Ф. 77 (СРП), оп.6, д.474, лл.89-90 об.

hakimlərinin ona itaət etmələrinə nail olmuşdu. Yalnız Sadıq xan Fətəli şahın Şirazda olduğunu, Süleyman xanın yanındakı döyüşçülərin isə dağılışdığını güman edərək Tehrana yürüşə başlamış, lakin Ərdəbillə Təbriz arasında Süleyman xanla baş vermiş döyüşdə məğlub olaraq Ağa Məhəmməd şahın qatillərini yeni şaha təslim etməli oldu.[1] Bundan sonra Şəki, Şamaxı, Lənkəran, Bakı və Quba xanları nümayəndələrini göndərərək Fətəli şahı hakimiyyətə gəlməsi münasibətilə təbrik etdilər. Lənkəranlı Mustafa xan Ağa Məhəmməd şahın göstərişi ilə İrana aparılmış ailələrin geri qaytarılmasını xahiş etmişdi. Fətəli şah bu xahişi yerinə yetirməyə söz versə də, Süleyman xanı və Hidayət xanın oğlu Hüseynəli ağanı Mir Mustafa xanı Gilandan qovmaq, imkan olarsa, onun özünü də ələ keçirmək tapşırığı ilə göndərdi. Buna görə Mir Mustafa xan tələsik Rəşti tərk edərək Lənkəran xanlığına gedən yerdə mövqe tutmuşdu ki, xanlığa olacaq hücumun qarşısını alsın.[2]

Skibinevski yazırdı ki, Mir Mustafa xan rus gəmilərinin kapitanlarının himayəsini axtarır. Guya Qudoviç gəmi kapitanlarına göstəriş vermişdir ki, Lənkəran sahillərinə yaxınlaşmaqla Mir Mustafa xanı müdafiə etsinlər. Qudoviç isə bunu təkzib edərək belə göstəriş vermədiyini bildirmişdi. Çünki, imperator I Pavel 1797-ci il martın 9-da Sarı adasının tutulması və möhkəmləndirilməməsi, yalnız adanın yanında bir-iki gəmi dayanmasına dair göstəriş vermişdi. Xəzərdəki İran hərbi gəmiləri ilə mehriban rəftar olunması da tapşırılmışdı.[3]

Lənkəran xanının Qacara açıq müqavimət göstərmədiyini, yalnız mərhum şahın qəzəbindən qorxaraq öz iqamətgahını tərk edib rusların əlində olan Sarı adasında bir müddət gizlənməklə xeyli gəlirindən məhrum olduğunu nəzərə alaraq Fətəli şah Rəşt gəlirlərindən ildə 1000 manatın ona verilməsi haqqında fərman

---

[1] АВПРИ,ф.77(СРП),оп.6,д.489(1797-1800).Рапорты графа Гудовича и консула Скибиневского, л.7 и об.

[2] АВПРИ,ф.77(СРП),оп.6,д.489(1797-1800), лл.7 и об.

[3] АВПРИ, ф. 77 (СРП), оп. 6 д.474. лл. 94-95 об.

vermişdi.[1]

Lakin Mir Mustafa xan yenə də ehtiyat edirdi. O, 1799-cu il iyulun 1-də Rusiya Xarici İşlər kollegiyasına yazıb, Fətəli şah onun mülklərinə hücum etməyə hazırlaşdığına görə rus hökumətinin Sarı adasının yanına bir gəmi göndərməsini xahiş etdi ki, zərurət olduğu təqdirdə xan bu adada sığınacaq tapa bilsin.[2]

Konsul Skibinevski 31 may 1798-ci il tarixli məruzatında Fətəli şahın elçisi Mir Seyid Həsənin bir sıra başqa təkliflərlə yanaşı Rusiya konsulluğunun Sarı adasından Ənzəli limanına köçürülməsini təklif edəcəyəni yazaraq bu təklifə etiraz edir. Skibinevski fikrini əsaslandırmaq üçün Azərbaycan və İranda rus ticarətinin vəziyyətini təsvir edərək, İranın əsas ticarət mərkəzlərinin İsfahan və Rəşt olduğunu, Rusiya tacirlərinin İranın daxili şəhərlərinə getməyə qorxduqlarını yazırdı.[3]

Skibinevski sonra ayrı-ayrı şəhərlərdə rus ticarətinin vəziyyəti haqqında məlumat verirdi. O, Dərbəndlə bağlı bu şəhərin ticarətinin o qədər də əhəmiyyətli olmadığını, yalnız ətrafdakı dağlı sakinlərin ticarət üçün bu şəhərə gəldiklərini, Həştərxandan Dərbəndə gəmilərlə mahud, boya, səndəllər, digər boya materialları gətirildiyini yazırdı. Rusiyadan Dərbəndə gətirilən mallar arasında ətriyyat, şəkər, ipək və pambıq və kətan parçalar, yazı kağızı, metal məmulatı, sandıqlar, qaşıq, çay bardaqları, sink qutular, çit parçalar və başqa malların da adlarını çəkmək olar. Dərbənddən isə quru yolu ilə Qızlara, gəmilərlə Həştərxana minlərlə pud qızıl boya (marena) və s. aparılırdı. Konsul Dərbənddə sahilin narahat və təhlükəli, gəmilərə mal yükləməyin çətin olduğunu, burada bir-iki gəminin qısa müddətə durduğunu, bu səbəbdən marenanı Həştərxana yollamaq üçün Bakıya aparıldığını yazırdı.[4]

Bakını Xəzərin cənub-qərb sahilində ən yaxşı liman

---

[1] Yenə orada,v.13

[2] АВПРИ, ф. 77 (СРП), оп. 6 д.474. лл.123-124 об.

[3] Yenə orada, v.27 və a.ü.

[4] Yenə orada,v.30

adlandıran Skibinevski buraya Şamaxıdan və Azərbaycanın digər yerlərindən, Gilandan, Mazandarandan tacirlərin gəldiyini yazırdı. Konsul Bakıda tədavüldə olan pulların Gilan və Rusiya pullarına nisbətən aşağı keyfiyyətə malik olsa da, tacirlərin burada satdıqları malların əvəzinə neft alıb onu Ənzəliyə göndərməklə çıxış yolu tapdığını bildirirdi. Nefti isə burada Gilan puluna satıb, əvəzində ipək və digər mallar alırdılar. Mallar başlıca olaraq rus gəmilərində daşındığından rus gəmi sahibləri yaxşı gəlir götürürdülər. Gilana və Mazandarana daşımaq üçün kifayət qədər mal olmadıqda isə Bakıya Niyazabaddan və Lənkərandan odun, Ənzəlidən və Mazandarandan çəltik və digər mallar daşınırdı. Bu səbəbdən rus gəmiləri Bakıya həvəslə yan alırdılar.[1]

Skibinevski Həştərxandan Bakıya gətirilən malların çeşidlərinin Dərbəndə gətirilən malların çeşidləri ilə eyni olduğunu, lakin daha böyük miqdarda gətirilirdiyini qeyd edirdi. Çünki, Bakıdan bu mallar quru yolu ilə təkcə Şamaxı, Şəki, Gəncə, Qarabağ və Tiflisə daşınmırdı, həm də dəniz yolu ilə rus gəmilərində, bəzən isə səndəl adlanan qayıqlarda Gilan və Mazandarana daşınırdı. Bakıda adları sadalanan mallardan savayı dəmir lövhələri, çəkicləri, mis sırğaları və qalaydan hazırlanmış şamdanları, üzüklər, ülgüc, buğda unu, tafta, savır və kalmık xırdavatını, kazak üzəngilərini gəlirlə satmaq olurdu.[2]

Rusiya konsulu Salyanla bağlı yazırdı ki, vaxtilə I Pyotrun Kür çayını böyük ticarət arteriyasına çevirməyə çalışdığını, lakin çayın mənsəbində qolları lilləndiyindən gəmilərin üzməsinin çətinləşdiyinu yazırdı. Kür və Araz çayları sürətlə axdığına və bu çaylarda sualtı daşlar olduğuna görə gəmilərin üzməsi üçün təhlükə yaranırdı. Həştərxandan Salyana gətirilən malların çeşidi Bakıya gətirilən malların çeşidi kimi idi.[3]

Rus konsulu Lənkərana dəniz sahilinə yaxın məsafədə Qızılağac körfəzində yerləşən Sarı adasının gəmilərin yan alması

[1] АВПРИ, ф. 77 (СРП), оп. 6 д.474, л31
[2] Yenə orada.
[3] Yenə orada,v.32 a.ü.

üçün çox əlverişli olmasına baxmayaraq istilər zamanı quyulardakı şirin su bir qədər şorlaşdığından insanların yaşaması üçün əlverişsiz olduğunu yazırdı. Adadakı göllərdə su yayda istilər zamanı iyləndiyindən burada yaşayan insanların səhhətinə pis təsir göstərir. Bu səbəbdən Rusiya təbəəsi olan tacirlər Sarı adasında ticarətlə məşğul olmaq istəmirlər. Yerli tacirlər də burada ticarət məskəni salmağa meyilli deyillər. Deməli Sarı adasında konsulun olması faydasızdır.[1]

M.Skibinevski Xarici İşlər kollegiyasına göndərdiyi 15 may 1799-cu il tarixli raportunda Fətəli şah rus qoşunlarının İrəvanı zəbt etmək üçün Gürcüstana gəlmələri haqqında xəbər alıb İrəvan xanının yardımına müəyyən qədər qoşun göndərməyi əmr etdiyini yazırdı.[2]

XVIII əsrin sonlarında Fətəli şah hələ bir müddət səltənətin daxili işləri ilə, yeni rus çarı I Pavel isə Avropa işləri ilə məşğul olduğundan Şimali Azərbaycan xanlarının üzərindəki təhlükə qısa müddətə də olsa sovuşmasından xanlar nəinki istifadə edib birləşmədilər, hətta ara mübarizəsi yeni qüvvə ilə qızışdı.

Cənubi Qafqazda diplomatik yolla möhkəmlənməyə üstünlük verən I Pavel Qafqaz xəttindəki rus qoşunlarının komandanı qraf Qudoviçə Rusiyaya qarşı "xeyirxah olan" Azərbaycan və Dağıstan hakimlərini bir federativ dövlətdə birləşdirməyi təklif etdi.[3]

I Pavel Azərbaycan xanlarını Rusiyanın himayəsi altında federasiyada birləşdirməklə ayrı-ayrı xanlıqların Qacarların təsiri altına düşməsinə mane olmaq istəyirdi. Bununla həm də gələcəkdə bu xanlıqların Rusiya tərkibinə qatılması üçün zəmin yaradılmış olurdu.

I Pavelin federasiya ideyasını gerçəkləşdirmək üçün Qafqaz xəttindəki rus qoşunlarının yeni baş komandanı Knorrinq yerli

---

[1] АВПРИ, ф. 77 (СРП), оп. 6 д.474,л.33 и об.
[2] АВПРИ, ф.77 (СРП), оп. 6, д. 474 ( Персия.Талышинского ханства), л.16 и об.
[3] Евгений Козубский. История города Дербента. Темирхан-Шура, 1906, с.123; Вадим Левиатов. Göst. əsəri, s.193

hakimləri və ya onların nümayəndələrini öz yanına dəvət edib, aralarındakı düşmənçiliyin zərərini və əmin-amanlıq şəraitində yaşamağın zəruriliyini başa salmalı, onları aralarında baş verən çəkişmələri adət-ənənə, qanun və ya münsiflər vasitəsilə həll etməyə çağırmalı idi. Bu mümkün olmasa, onlar Rusiya imperatoruna müraciət etməli idilər. Yerli hakimlər Şahın basqın təhlükəsinə qarşı birləşməli idilər, bu ittifaqa Tarki şamxalı, usmi və Tabasaran kadisi də cəlb edilməli, onlar öz təbəələrinin digər hakimlərin təbəələrini qarət etməkdən çəkindirəcəklərinə and içməli idilər.[1]

1800-cü ilin ortalarında bir sıra şimal-şərqi Azərbaycan xanlıqları və Dağıstan hakimlərinin, habelə Lənkəran xanlığının nümayəndələri Sankt-Peterburqa yollandılar. Onların məqsədi Rusiyanın himayəsinə nail olmaq idi. Çar sarayında aparılan danışıqlardan sonra, 1800-cü il avqustun 28-də nümayəndələrin hər birinə məzmunu eyni olan məktublar verildi. Məktublarda yuxarıda adları çəkilən hakimlərin hər birinə öz aralarında razılığa gəlmək və ittifaq yaratmaq təklif olunurdu.[2]

Çarın 28 avqust 1800-cü il tarixli buyruğunda bir çox Azərbaycan və Dağıstan hakimlərinə, o cümlədən, qubalı Şeyxəli xana və dərbəndli Həsən xana öz aralarında sülh münasibətləri yaratmaq məsləhət görülürdü. Şeyxəli xan və Həsən xan bu məsləhətə əməl edərək Samur çayı sahilində görüşüb barışdılar. 1802-ci ildə Həsən xan vəfat etdi. Şeyxəli xan Dərbəndə gedib onu dəfn etdi. İmamqulu bəyi Dərbənd naibi təyin edib Qubaya qayıtdı.[3]

XIX əsrin astanasında Qərbi Avropanın aparıcı dövlətləri İngiltərə və Fransanın başları bir-birlərinə qarşı ölüm-dirim savaşına qarışdığından onların Rusiyanın Cənubi Qafqaz istiqamətində ekspensiyasına qarşı tədbirlər görmək imkanı olmasa da, bu dövlətlər həmin istiqamətdə müəyyən səylər

---

[1] Джамал Мустафаев. Göst.əsəri, s. 108.
[2] Tofiq Mustafazadə. Azərbaycan-Rusiya münasibətləri..,s. 249-250.
[3] Аббаскули ага Бакиханов А. Гюлистан-и Ирам., с.184

göstərirdilər. 1800-cü ilin sonunda ingilis Ost-Hind şirkətinin Hindistan qubernatoru Lord Uezli Fətəli şahın yanına kapitan Con Malholmun başçılıq etdiyi bir nümayəndə heyəti göndərir. Malholmun şah vəziri Hacı İbrahimlə apardığı danışıqlar nəticəsində 1801-ci il yanvarın 4-də bir siyasi və bir ticarət müqaviləsi bağlandı. Siyasi müqaviləyə görə, İngiltərə Qacarlara Cənubi Qafqazda möhkəmlənməyə yardım göstərməyi vəd edirdi. Bu müqavilə Azərbaycan xanlıqlarına və Rusiyaya qarşı çevrilmişdi. Hətta ingilislərin Lənkəranda qacarlar üçün dəniz limanı inşa etmək barədə razılıq əldə edilməsinə dair məlumat var. [1] Ticarət müqaviləsində Bakı xanının razılığı belə soruşulmadan İranla Bakı arasında ticarətdə ingilislərin vasitəçiliyi ilə bağlı maddə salınmışdı.[2]

Baş komandan K.F.Knorrinq 1801-ci ilin mart ayının 12-də I Pavelin sui-qəsd nəticəsində qətlə yetirilməsindən sonra hakimiyyətə gəlmiş oğlu I Aleksandra 4 iyun 1801-ci il tarixli raportunda Fətəli şah qəbul etdiyi ingilis elçisini ölkəsinə buraxdıqda ingilis hökumətindən manufaktura ustaları və gəmiqayırmadan, gəmiləri hərbi silahlarla təchiz etmək işindən başı çıxan 300 nəfər usta göndəməsini xahiş etmək üçün Qəzvin taciri Hacı Xəlili də onunla birgə İngiltərəyə göndərdiyini yazırdı. Əgər Şahın bu arzusu yerinə yetirilsə, Şah ingilislərə Bəndər-Abbasda və digər limanlarda ticarət etməyə icazə verəcəyini, əfqanlar Hindistana basqınlar edə bilsinlər deyə onları narahat etməyəcəyini vəd edirdi. Çünki Böyük Moğol hökmdarı əfqanlarla mübarizəyə məşğul olmadıqda ingilislərin Hindistana ekspensiyasına mane ola bilirdi. Knorrinq həm də, bir müddət əvvəl qacar xanlarının Şaha qarşı gerçəkləşdirmək istədikləri qəsdin üstünün açılması, uzun müddət Ağa Məhəmməd şahın və Fətəli şahın yanında böyük nüfuzu olan Hacı İbrahimin də şübhəli bilinib, gözlərinin çıxarılması haqqında məlimat verirdi.

---

[1] Həsənbala Sadıqov. Azərbaycan Avropa dövlətlərinin diplomatiyasında (1747-1829). Bakı, Təfəkkür, 2004, s.93-94.

[2] АКАК, т.2. Тифлис, 1868, док. 222, с.240.

I Aleksandr Rusiyanın Avropa siyasətində köklü dəyişiklik etdi. Atasından fərqli olaraq Fransa ilə deyil, İngiltərə ilə ittifaq siyasətinə üstünlük verdi. Bu səbəbdən də artıq İngiltərə Rusiyaya qarşı mübarizədə Qacarlar dövlətini açıq dəstəkləyə bilməzdi və Malholmla bağlanan müqavilə lazımsız bir kağız parçasına çevrildi.

İran və Azərbaycanı Fransanın siyasət orbitinə daxil etmək istəyən Fransa imperatoru Napoleon Bonapart məqamdan istifadə edib 1805-ci ilin mayında emissarı Amadey Joberi Şərqə göndərdi. Joberə İran, Türkiyə və Azərbaycan ərazilərini tədqiq etmək və Rusiya ilə sərhəddəki vəziyyəti öyrənmək tapşırılmışdı. Digər bir emissara – Romyeyə də bu cür tapşırıq verilmişdi. Romyenin Fətəli şaha təqdim etdiyi məktubda Xəzər dənizində gəmilər inşa etmək üçün yardım təklif olunurdu.[1]

Rusiya hakim dairələri Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaqdan ötrü şirnikləndirmək, aldatmaq, qorxutmaq kimi vasitələrdən istifadə edir, lazım gəldikdə isə güc tətbiq etməkdən belə çəkinmirdilər. Yeni çar I Aleksandrın Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsini təsdiq edən 12 sentyabr 1801-ci il tarixli fərmanında ətraf hakimləri və xalqları ilə münasibətləri saxlamaqla yanaşı, Rusiyanın himayəsində olmaq istəyənlərin sayını artırmaq lazım olması, xüsusilə hələ də Fətəli şaha tabe olmayan, buna görə də öz təhlükəsizlikləri üçün Rusiyaya meyilli olacaq İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqları Rusiyanın tərəfə çəkməyin zəruriliyi vurğulanırdı.[2]

I Aleksandrın Q. Knorrinqə 25 aprel 1802-ci il tarixli təlimatında qeyd edilirdi ki, bəzi məlumatlara görə, Fətəli şahın İrəvana yürüşə hazırlaşması, uğur qazanacağı təqdirdə Gürcüstana da hücum edəcəyi qeyd olunur, buna görə də Knorrinqin Gürcüstana qoşun göndərməsini təqdir edir və hətta buradakı qoşunları bir qrenader taboru və bir fliqer bölüyü ilə

---

[1] Sadıqov H. Azərbaycan Avropa.., s.97.

[2] АКАК, т.2. док. 548, с.436.

gücləndirməyə icazə verilirdi. [1] Çar hesab edirdi ki, Şah qoşunlarının qarşısını İrəvan xanlığı ərazisində kəsmək daha məqsədəuyğundur. Lazım gəldikdə İrəvan şəhərini tutmaq olar. Bunu asanlaşdırmaq üçün isə İrəvan xanının Rusiya himayəsini qəbul etməsinə nail olmaq gərəkdir. Bu üsulla Gəncəni də tutmaq olar.[2]

1802-ci ildə Qafqazdakı rus qoşunlarının yeni komandanı təyin edilən keçmiş gürcü knyazlarının nəslindən olan, mənşəcə gürcü olsa da, tərbiyə etibarı ilə qəddar rus şovinisti olan Pavel Dmitriyeviç Sisianov müstəmləkə siyasətinin fəal tərəfdarı idi. O, özünün əsas vəzifəsini Rusiyanın Cənubi Qafqazda əldə etdiyi strateji əməliyyat meydanını genişləndirərək sərhədləri Araz çayına çatdırmaq, işğal edilmiş əraziləri Türkiyə və İrandan köçürüləcək ermənilərlə məskunlaşdırmaqda görürdü. İmperator I Aleksandr Sisianova tam hərəkət sərbəstliyi vermişdi. Ona Xəzər donanmasına sərəncam vermək hüququ da verilmişdi.[3]

Rusiya hökuməti Qafqaz siyasətində Üçmüəzzin kilsəsindən bir alət kimi istifadə etdiyindən katolikos seçkisinə xüsusi diqqət yetirirdi. 1801-ci ildə İ. Arqutinski öldükdən sonra yerinə David seçilmişdi. Lakin rus hökuməti bununla razılaşmır və öz adamı olan Danilin bu vəzifəyə keçməsinə çalışırdı. Aleksandr 1802-ci il mayın 13-də Məhəmməd xana fərmanında Danilin erməni katolikosu taxtına oturmasına şərait yaradılmasını tələb edirdi.[4] Bu tələbi yerinə yetirən Sisianov 6 fevral 1803-cü il tarixində İrəvan hakimi Məhəmməd xana Danili katolikos kimi tanımağı məsləhət görürdü.[5] Sisianov naxçıvanlı Kəlbəli xana da məktub yazaraq ondan da Danilin katolikos kimi tanınmasına dəstək göstərməsini xahiş edirdi.[6]

Məhəmməd xan Sisianovun xahişini rədd edərək Danili

---

[1] РГВИА, ф. Непременный Совет,1754-1759 гг., д.3, лл. 6 об.- 8.

[2] РГВИА, ф. Непременный Совет,1754-1759 гг., д.3, лл. 10.

[3] Кавказский календарь на 1848 год. Тифлис, 1847, с.141.

[4] АКАК, т.II. док. 679, с.546.

[5] АКАК, т.II,док. 1214, с. 609.

[6] Yenə orada, II c., sənəd 1215 , səh.609-610.

katolikos kimi tanımaqdan imtina etmişdi. Sisianov I Aleksandra 12 mart 1803-cü il tarixli raportunda yazırdı ki, xanın belə açıq itaətsizliyinin cəzasız qalması Rusiyanın regiondakı nüfuzuna xələl gətirə bilər. Buna görə də İrəvan yolu üstündəki dağlarda qar əriyən kimi 6 taborla İrəvana getmək və Danili patriarx taxtına çıxarmaq, Məhəmməd xanı inadkarlığına görə cəzalandırmaq və erməni tacirləri verdiyi vədi yerinə yetirib ərzaqla təmin etsələr, İrəvanda qarnizon qoymaq fikrindədir.[1]

Azərbaycanın onlarla xanlıqlara parçalanmış olması onu Rusiya üçün asan udula bilən tikəyə çevirmişdi. Həm də bu zaman Rusiyanın Cənubi Qafqazdakı rəqibləri çox zəif idilər. Qacarlar İranı XIX əsrin əvvəllərində bölgədə Rusiyanın ekspansiyasına mane olmaq iqtidarında deyildi. İrəlidə qeyd olunduğu kimi, bu zaman İngiltərə və Fransanın başları bir-birləri ilə müharibəyə qarışdığından Qacar İranına fəal dəstək vermək imkanına malik deyildilər. Bu dövrdə Osmanlı imperiyası da zəif durumda idi. Sultan III Səlim ordunu yenidən qurmağa başlamış, bu iş hələ başa çatmamışdı.

Xəzəryanı vilayətlərin tutulmasını birinci dərəcəli vəzifə sayan çar hökuməti bu ərazidə yerləşən xanlıqların hakimlərini öz tərəfinə çəkmək üçün müxtəlif vasitələrdən istifadə edirdi. Birisinə Fətəli şahdan müdafiə olunmaq üçün yardım vəd verilir, digərinə "düşmənlərdən" qorunmaq üçün Rusiya himayəsinə alınacağı vəd olunurdu.

Əvvəlcə I Aleksandr atasının Rusiyanın himayəsi altında Şimali Qafqaz və Azərbaycan hakimlərinin birliyini yaratmaq siyasətini davam etdirmək istədi. Çarın tapşırığı ilə Sisianov xanlarla danışıq aparmaq üçün Georgiyevsk şəhərində görüş təyin etdi. Quba, Bakı, Lənkəran xanları, Tarki şamxalı, Qaraqaytaq usmisi, Tabasaran qazisi sentyabrın 12-si üçün görüşə dəvət olundu. Lakin görüş 1802-ci il dekabrın 26-da, həm də Bakı xanının iştirakı olmadan keçirildi. Görüşdə giriş və 12 maddədən ibarət "Georgiyevsk müqaviləsi" adlanan bir sənəd imzalandı. Bu

---

[1] РГВИА, ф. Непременный Совет,1754-1759 гг., д.3, л. 611.

müqaviləyə görə, xanlar aralarında olan düşmənçilik, narazılıq və çəkişmələri bir tərəfə qoyub, mübahisələri dinc yolla həll etməyə, şah qoşunları hücum etdiyi təqdirdə ona qarşı birgə mübarizə etməyə, ticarəti genişləndirəcəklərinə söz verirdilər. Müqavilə bəndlərindən beşi ticarət məsələlərinin tənzimlənməsinə, digər maddələr isə hərbi-siyasi məsələlərə, Qacar təhlükəsinin dəf olunmasına həsr edilmişdi. Qafqaz və Azərbaycan hakimləri Qacar İranı tərəfdən təhlükə yarandığı təqdirdə Qafqazdakı rus qoşunlarının baş komandanının rəhbərliyi altında öz qüvvələrini birləşdirəcəklərinə dair öhdəlik götürürdülər .[1]

Çox keçməmiş rus hökuməti üzündəki maskanı bir kənara atdı və Sisianov Azərbaycan ərazilərinə qarşı hücuma başladı. Qeyd edək ki, əslində Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalı bir müddət öncə başlamışdı.

Məlumdur ki, 1801-ci il fevralın 16-da elan olunan imperator manifesti ilə Kartli-Kaxeti çarlığının ləğv edilib Rusiyaya birləşdirilməsi bəyan olunmaqla yanaşı əhalisinin əksəriyyətinin azərbaycanlıların təşkil etdiyi əzəli Azərbaycan torpaqları – Pəmbək, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarının Kartli-Kaxeti çarlığının tərkibində Rusiyaya ilhaqı da elan olunmuşdu.[2] Beləliklə də Azərbaycan ərazilərinin çarlıq Rusiyası tərəfindən işğalının başlanğıcı qoyulmuşdu. Bu həmin ərazilərdə yaşayan azərbaycanlılar içərisində güclü həyəcana səbəb oldu. 6 min pəmbəkli öz yaşayış məskənini tərk edib İrəvan xanlığına köçdü.[3] Lakin ruslar hərbi qüvvə tətbiq etməklə həmin sakinlərin çoxunu geri qaytardılar.[4]

Şəmşəddil sultanlığı əhalisinin xeyli hissəsi Gəncə xanlığına köçdü. Solomon Avalov başda olmaqla Şəmşəddilə hərbi dəstə göndərildi. [5] Gəncəli Cavad xan bölgədəki rus qoşunlarının

---

[1] Мустафаев Д. Северные ханства Азербайджана и Россия (конец XVIII-XIX В.) Баку, 1989, с.142

[2] Николай Дубровин. История.., т.3, с. 372.

[3] Yenə orada, s.403.

[4] АКАК, т.2. док. 800, с.699.

[5] Yenə orada, sənəd 789. s.699.

komandanı general-mayor Lazarevdən rus qoşunlarının Şəmşəddildən çıxarılmasını tələb etdi. O, Qafqazdakı rus qoşunlarının komandanı general Knorrinqə Şəmşəddilin qədimdən Gəncəyə məxsus olduğunu, 700 ildir onun nəsli tərəfindən idarə olunduğunu, buna görə də rus qoşunlarının buradan çıxarılmalı olduğunu yazırdı.[1]

Martın 2-də Sisianov Azərbaycan ərazilərinə qarşı açıq hücuma başladı. O, General-mayor Qulyakovun başçılığı altında 7-8 minlik güclü bir dəstəni Cara tərəf göndərdi.[2] Qeyri-bərabər döyüşdə carlılar rus qoşunlarına məğlub olaraq geri çəkildilər. Rus qoşunları Qanıq (Alazan) çayını keçdilər.[3] Balakən, daha sonra Car zəbt olunub dağıdıldı.[4] Çarəsiz vəziyyətdə qalan camaatların nümayəndələri Tiflisə yollandılar. 1803-cü il aprelin 12-də baş tutan görüşdə Sisianov camaatların Rusiya təbəəliyini qəbul edib, ildə 200 pud ipək verməlרini tələb etdi. Camaatlar girovlar verməli və ruslara istədikləri kəndlərdə qoşun yerləşdirmək hüququ verən öhdəliyi imzalamalı idilər.[5] Nümayəndələr qoyulan tələbləri qəbul etməli oldular. Car-Balakən camaatları ilə birlikdə İlisu sultanlığı da Rusiya təbəəliyinə alındı.[6]

Car-Balakən camaatları və İlisi sultanlığını tabe etdikdən sonra Sisianov əsas zərbəni Gəncə xanlığına endirmək qərarına gəldi. İrəlidə qeyd olunduğu kimi, hələ 1802-ci ildə Kartli-Kaxeti çarlığı ilə birlikdə Gəncə xanlığına məxsus Şəmşəddil sultanlığının Rusiyaya birləşdirilməsi Sisianovla gəncəli Cavad xan arasındakı münasibətlərin kəskinləşməsinə səbəb olmuşdu. Sisianov nəinki rus qoşunlarının Şəmşəddili tərk etməsi barədə tələbə əhəmiyyət vermirdi, üstəlik, Cavad xandan Rusiyaya sədaqət əlaməti olaraq oğlu Uğurlu ağanı Tiflisə göndərməyi

---

[1] АКАК, т.2. док. 824, с.819.

[2] Дубровин Н.Ф. Закавказье от 1803 по 180 СПб. 1866, с.93.

[3] Mirzə Adıgözəl bəy.Qarabağnamə. Qarabağnamələr, s.65

[4] Николай Ф. Дубровин. Закавказье.., с.95

[5] Vidadi Umudov. Göst.dis-yası, s.40 АКАК, т.2, док 1387, с.685.

[6] АКАК, т.2, док 1387, с.685.

tələb edirdi.[1]

Rədd cavabı alan Sisianov 1803-cü il noyabrın sonunda 12 topu olan 6 taborla Gəncəyə doğru hərəkət etdi, Şəmkirdə dayanıb hədə-qorxu dolu məktub göndərərək Cavad xandan Gəncənin təslim olunmasını tələb edərək əks təqdirdə Gəncə ətrafını oda və qılınca verəcəyini bəyan etdi.[2]

Cavad xan Sisianova qarşı çıxdı, lakin Gəncənin iki verstliyində Quru Qobu adlı yerdə baş verən döyüşdə məğlub oldu.[3] Gəncəni mühasirəyə alan Sisianov dekabrın 29-da qalanın təslim edilməsi ilə bağlı ultimatum verdi. Cavad xan xanlığın bütün əhalisi ilə birlikdə Rusiya təbəəliyinə keçməli, ildə 20 min rubl bac verməli, Gürcüstanda yerləşən rus qoşunlarını ərzaqla təchiz etməli, oğlunu girov verməli idi.[4]

Xan ultimatumu rədd etdi.[5] 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları şəhərə qəti həmlə etdilər. Düşmən şəhərə soxulsa da, gəncəlilər doğma şəhərlərini qəhrəmancasına müdafiə etməkdə davam edirdilər. Döyüşün gedişində Cavad xan həlak oldu.[6] Gəncə zəbt edilərək I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol adlandırıldı.[7]

Eyni zamanda Sisianov general Qulyakovu böyük hərbi qüvvə ilə tabe olmaq istəməyən, bac ödəməkdən boyun qaçıran Car-Balakən camaatlarının üzərinə göndərdi. Qulyakov 1804-cü il yanvarın 10-da Carı tutaraq yandırdı.[8] Yerli sakinlər Carı tərk edib dağlara və meşələrə qaçdılar. Qulyakov onları təqib etməyə başladı. Lakin ruslar Zaqatala dərəsinə çatan kimi carlılar hər tərəfdən ruslara atəş açdılar. Qulyakovun özü, 118 zabit və əsgər

---

[1] АКАК, т.2, док. 1171, с.588.

[2] АКАК, т.2, док 1173, сс.588-589.

[3] Mirzə Adıgözəl bəy.Qarabağnamə. Qarabağnamələr, I c.,s.65.

[4] АКАК, т.2, док 1179, с.591.

[5] Yenə orada, s. 590.

[6] Mirzə Adıgözəl bəy.Qarabağnamə. Qarabağnamələr,I c., s.66.

[7] АКАК, т.2, док 1186, с.593-594.

[8] Василий Потто. Кавказская война, т.2, чч. 1-3, с.96; Николай Дубровин. Закавказъе.., с.377.

öldürüldü, 134 zabit və əsgər isə yaralandı.[1]

Rus qoşunları geri çəkilsələr də Sisianovun cəza tədbirlərindən ehtiyat edən carlılar xəracın bir hissəsi ilə nümayəndələrini Sisianovun yanına göndərdilər.

Gəncə və Car-Balakənin işğalından sonra rus komandanlığı diqqətini İrəvan xanlığına yönəltdi. İrəlidə qeyd olunduğu kimi, rus komandanlığı Ücmiəzzinin katolikosluq taxtı uğrunda gedən mübarizədən xanlığın daxili işlərinə qarışmaq, burada öz təsirini yaymaq üçün istifadə edirdi. Sisianov İrəvan hakimi Məhəmməd xana məktub göndərərək Danilin Tiflisə göndərilməsini, İrəvan qalasında rus qoşunlarının yerləşməsinə icazə verməsini, xərac ödəməsini və Rusiyaya sədaqət andı içməsini tələb edirdi. Bu zaman Qacarlardan formal asılılığı olan Məhəmməd xanın Şahla münasibətləri yaxşı deyildi, Fətəli şah onun xanlığı müstəqil surətdə idarə etməsindən narazı idi və buna görə də Məhəmməd xanı vəzifəsindən kənarlaşdırmağa çalışırdı.[2] Belə vəziyyət İrəvan xanını ehtiyatlı olmağa vadar edirdi.

## VIII.3. I Rusiya-Qacar müharibəsi və Gülüstan müqaviləsi.

Cənubi Qafqazda Rusiya işğallarının artmasını İran üçün də təhllükəli sayan Fətəli şah 1804-cü ilin iyununda bu ölkəyə müharibə elan etdi.

Qacarların müharibəyə girməsi ilə Azərbaycan xalqının ruslara qarşı mübarizəsi gücləndi. Əvvəlcə Qazax və Borçalı elatları Rusiyaya itaətdən imtina etdilər. Hətta İmeretiyadan gürcü şahzadələri də gəlib şah tərəfdən vuruşan gürcü vəliəhdi Aleksandrla birləşdilər.[3] Aleksandrın başçılıq etdiyi qüvvələrlə yerli üsyançıların Tiflis-İrəvan yolunu bağlaması rus qoşunlarının vəziyyətini daha da ağırlaşdırdı.

Məlum olduğu kimi rus qoşunları iyulun əvvəlində Gümrü və Üçmüəzzini tutaraq İrəvan qalasını mühasirəyə aldılar. Lakin,

---

[1]Vidadi Umudlu.Şimali Azərbaycan (2004), s.44.

[2]АКАК, т.2, док. 1224, с.613

[3] Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr, I c., s.69

Tiflisdən gələcək ərzağı qarşılamaq üçün göndərilən Montrezorun dəstəsi Qarakilsədə demək olar ki, tamamilə məhv edildi. [1] Çıxılmaz vəziyyətə düşən Sisianov sentyabrın 2-də mühasirəni qaldırıb və Tiflisə dönmək barədə qərar qəbul etdi.[2]

İrəvana uğursuz yürüşündən sonra, əvvəlcə İmeretiya və Minqreliyada Rusiyaya qarşı üsyanları yatıran Sisianov Azərbaycan ərazilərini zəbt etmək üçün əməliyyatları davam etdirmək qərarına gəldi. Qarşıda Qarabağ, Şəki və Şamaxı xanlıqlarını ələ keçirmək vəzifəsi dururdu.

Qarabağ xanlığı həm öz strateji mövqeyinə, həm də insan və iqtisadi potensialına görə digər xanlıqlar arasında daha mühüm yer tuturdu. O zaman qacar sərkərdələrinin və Şahın özünün rəyinə görə bu xanlığın paytaxtı Şuşa şəhəri qacarlar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı sayılırdı.[3] Əgər Şah Qarabağda öz mövqeyini möhkəmləndirərdisə, bütün Cənubi Qafqazı öz təsirində saxlamaq imkanı və rusların buradan çıxarılması üçün gerçək imkan əldə edəcəkdi. Yox əgər Rusiya Qarabağ xanlığına nəzarəti ələ keçirərdisə, nəinki Arazdan şimaldakı Azərbaycan xanlıqlarını ələ keçirmək üçün əla platsdarm əldə olunacaqdı, eləcə də İranın özü üçün təhlükə yaranacaqdı.

Böyük oğlu və vəliəhd Məhəmmədhəsən ağanın təsiri ilə qocalmış İbrahimxəlil xan xanlığın xilasını Rusiya himayəsində axtarmağa başladı. Xanın ruslarla yaxınlaşmasını müşahidə edən Fətəli şah bu yaxınlaşmaya mane olmaq üçün xanın oğlu Əbülfət ağanı 5 minlik qoşunla 1805-ci ilin yanvarında Qarabağa göndərdi. Əbülfət ağa məğlub edilərək Arazın cənubuna sıxışdırıldı.[4]

Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının daha böyük

---

[1] Vidadi Umudov V. Göst. Dis-sı, s.54

[2] Yenə orada.

[3] Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair// Qarabağnamələr, I kit., s.182

[4] Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xanın və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zaman hadisələri.s.231-232

dəstəsinin Qarabağa hücumu ehtimalı İbrahimxəlil xanı yardım üçün Rusiyaya müraciət etməyə vadar etdi. O, Rusiyaya itaət etmək niyyətində olduğunu bildirdi.[1] Sisianov mayor Lisaneviçi Şuşaya göndərdi ki, xanlığın Rusiya təbəəliyinə qəbul olunması şərtləri ilə İbrahimxəlil xanı tanış etsin və bu barədə müqavilənin imzalanması üçün Gəncəyə gəlişini təşkil etsin.[2]

Elə bu vaxt Şah da Kərim və Abdulla xanları İbrahimxəlil xanın yanına göndərib heç vəchlə Rusiyaya tabe olmamasını, rus qoşunlarını Qarabağa buraxmamasını, İranın giriş qapısı sayılan Xudafərin körpüsünün rusların nəzarəti altına verilməməsini xahiş etmişdi.[3] Qarabağ xanından qaneedici cavab almayan Fətəli şah Rəhim xan da daxil olmaqla nümayəndələrini yenidən Şuşaya yolladı və rus qoşunlarının qarşısının kəsilməsi üçün Əsgəran qalalarının möhkəmləndirilməsini, Şuşanın 3 verstliyində qurulacaq istehkamlarda və Şahbulaq qalasında qacar hərbi dəstəsinin yerləşməsini təklif etdi. Bütün xərclərin qacar xəzinəsindən ödənilməsi nəzərdə tutulurdu.[4] İbrahimxəlil xan bu dəfə şah nümayəndələrini həbs etdi.[5]

Lisaneviçin Qarabağa gəlişi ilə əlaqədar İbrahimxəlil xan bütün bəylərin iştirakı ilə divan çağırdı. Altı gün davam edən məsləhətləşmədən sonra bütün bəylər Rusiya təbəəliyini qəbul etmək tələbini rədd etdilər. Buna baxmayaraq xan müqavilə layihəsindəki maddələrlə razılaşdığını Lisaneviçə bildirdi.[6]

1805-ci il mayın 14-də (yeni təqvimlə 26-da) Sisianovun Gəncədən 20 verst aralı Kürəkçay sahilində rus ordusunun düşərgəsində Sisianovla İbrahimxəlil xan arasında “Andlı öhdəlik” adlanan müqavilə imzalandı. Bu müqaviləyə görə, Qarabağ xanı Rusiya təbəəliyini qəbul edir və qonşu dövlətlərlə müstəqil əlaqə saxlamaqdan imtina edirdi. Şuşada 500 nəfərlik rus qarnizonu

---

[1] АКАК, т.2, док 1421, сс.697-698
[2] Yenəorada,s.698-699
[3] Mir Mehdi Xəzani. Qarabağ tarixi. Qarabağnamələr, II kit., s.167.
[4] Rzaqulu bəy Mirzə Camal oğlu. Göst əsəri, s.232.
[5] Mir Mehdi Xəzani. Göst əsəri, s. 168.
[6] Николай Ф.Дубровин. Закавказъе, с.406

yerləşdirilməli, xan ildə 8 min qızıl əşrəfi (çervon) bac ödəməli, nəvəsini həmişəlik Tiflisdə qalması şərtilə girov verməli idi.[1]

İbrahimxəlil xan İrandan, yaxud hər hansı digər dövlətdən asılı olmamağa and içir (I maddə), Rus imperatoru özü və varisləri adından İbrahimxəlil xanın və varislərinin təhlükəsizliyinin və mülklərinin bütövlüyünün qorunacağını vəd edirdi. (II maddə). Üçüncü maddədə xan hakimiyyətinin ötürülməsi qaydası təsbit olunurdu. İbrahimxəlil xandan hakimiyyət böyük oğluna, sonra da onun böyük oğluna keçəcəkdi. Hakimiyyət dəyişikliyi çarın fərmanı ilə təsdiq olunmalı idi.[2]

Burada bir məqamı qeyd etmək olar ki, andlı öhdəliyin mətnini nəzərdən keçirdikdə erməni adı çəkilmədiyini görürük. Yəni Qarabağda erməni ünsürü yox dərəcəsində idi.

1805-ci il mayın 21-də yenə də Kürəkçay sahilində şəkili Səlim xanla da eyni məzmunda müqavilə imzalandı. Yeganə fərq xəracın həcmində idi. Şəki xanı ildə 7 min qızıl ödəməyi öhdəsinə götürürdü.[3] Bəzi əsərlərdə Səlim xanın da İbrahimxəlil xanla eyni gündə müqavilə imzaladığı, sadəcə Sisianovun öz xidmətlərini şişirtmək üçün müqavilələrin müxtəlif vaxtlarda imzaladıqlarını yazdığını bildirirlər.[4] Doğrudan da İbrahimxəlil xanla müqavilə bağlanarkən Səlim xanın Kürəkçay düşərgəsində olması bu cür iddiaya inanmaq ehtimalı yaradır.

Bəs Səlim xanı Rusiya təbəəliyini qəbul etməyə nə vadar etmişdi? Məsələ burasındadır ki, Səlim xan bir müddət öncə şamaxılı Mustafa xanla Şəkidə hakimiyyəti ələ almaq üçün yardım göstərməsi barədə razılıq əldə etmiş, Mustafa xan 1804-cü ilin fevralında Şəki xanlığına daxil olaraq hakimiyyətdə olan Məhəmmədhəsən xanı həbs edib Şamaxıya göndərmişdi, lakin Səlim xanı hakimiyyətə gətirmək əvəzinə Şəkini idarə etmək üçün öz naibini təyin etmişdi. Aldadıldığını görən Səlim xan Mustafa xanın yanından qaçaraq Şəkiyə getmiş və burada özünü

---

[1] АКАК, т.2, док 1436, сс.704-705.
[2] Yenə orada.
[3] Yenə orada, sənəd, 1301, s.647.
[4] Azərbaycan tarixi (uzaq keçmişlərdən 1870-ci illərə qədər), s.591.

Şəki xanı elan etmişdi.[1] O, öz hakimiyyətini möhkəmləndirmək və şamaxılı Mustafa xandan qorunmaq üçün Rusiya təbəəliyini qəbul etməyi qərara almış, Sisianov da onun bu istəyindən məharətlə istifadə etmişdi.

Baş komandan 22 may tarixli raportunda Qarabağ və Şəki xanlıqlarının Rusiya imperatorunun himayəsinə alınması münasibətilə I Aleksandrı təbrik edərək, Qarabağı öz mövqeyinə görə Azərbaycanın və deməli İranın qapısı adlandırırdı. Şuşa qalasının açarları və Kürəkçay müqavilələrinin mətnləri raporta əlavə olunmuşdu.[2]

P.Sisianov İbrahimxəlil xana general-leytenant rütbəsi verib ona müvafiq məvacib təyin olunması, daş-qaşla bəzənmiş qılıncla mükafatlandırılmasını, xanın böyük oğlu və varisi Məhəmmədhəsən ağaya general-mayor rütbəsi verilib, ona müvafiq məvacib təyin olunmasını, almazlarla bəzədilmiş, üstündə "sədaqətinə görə" yazısı olan medalla təltif olunmasını, xanın kiçik oğlu Xanlar ağaya müvafiq məvaciblə polkovnik rütbəsi verilməsini təklif edirdi.[3]

Sisianovun təklifini bəyənən Rusiya imperatoru 6 iyul 1805-ci il tarixdə Qarabağ və Şəki xanlarının, onların oğlanlarının rütbələrlə və müvafiq dərəcələrlə təltif edilməsi və müvafiq məvacib təyin olunması barədə fərman imzalamışdı.[4] Qarabağ və Şəki xanlıqlarının Rusiyaya tabe edildiklərini görən Fətəli şah rusların Qarabağda daha da möhkəmlənmələrinə yol verməmək üçün oğlu Abbas Mirzəyə böyük qüvvə ilə Qarabağa hərəkət etməyi tapşırdı. Bu zaman Kürəkçay müqaviləsinə əsasən, Lisaneviçin başçılıq etdiyi 6 bölükdən ibarət Şuşa qarnizonundan əlavə bir dəstə rus hərbçisi də Qarabağ qoşunları ilə birlikdə Araz sahilində keşik çəkirdi.1805-ci ilin ortalarında Xudafərin körpüsü yanında baş verən döyüşdə ruslar məğlub olub geri çəkildilər.[5]

---

[1] Николай Дубровин. Закавказье.., с.408-409.

[2] АКАК, т.2, док. 1436, сс.702-703.

[3] Yenə orada,s.711-712.

[4] АКАК, т.2, док . 1453, с.713; док. 1456, с.713.

[5] Mirzə Rəhim Fəna.Tarixi-cədidi-Qarabağ//Qarabağnamələr,II kitab,s.268

Eyni zamanda Şuşada ruslara qarşı itaətsizlik başlandı.[1] Bundan xəbər tutan Sisianov İbrahimxəlil xana məktubunda heç bir əsas olmadan onun sadiqliyinə inanmadığını bildirir, onu gah bu tərəfə, gah da o tərəfə meyil etməkdə günahlandırırdı.[2]

Əsgəran qalasını tutaraq Şuşanı mühasirədə saxlayan Qacar qoşunları Lisaneviçin köməyinə göndərilən Karyaginin dəstəsinin qarşısını kəsərək ona ağır zərbə vurdular. Lakin məlik Vanyanın bələdçiliyi ilə ruslar qacar qoşunlarının arxasına keçərək Şahbulağı ələ keçirdilər. Yeni qüvvə alaraq Abbas Mirzəni Qarabağdan sıxışdıran Sisianov Şuşaya tərəf hərəkət etdi.[3]

Abbas Mirzə isə gözlənilmədən Yelizavetpol əyalətinə daxil olaraq Gəncə qalasını mühasirəyə aldı. Cəncə sakinlərinin bir çoxu qacarların tərəfinə keçdi və iyulun 17-də qacar qoşunları qalanı atəşə tutdular.[4]

Çətinliklə də olsa şah qoşunlarını tutduqları ərazilərdən sıxışdırmağa nail olan Sisianov artıq Şamaxı xanlığını itaətə gətirmək qərarına gəldi. Bu xanlıq həm ərazisinin böyüklüyünə, həm də əhalisinin çoxluğuna görə digər xanlıqlardan fərqlənirdi. Qubalı Fətəli xanın ölümündən sonra Xançobanı nəslinin nümayəndələri nəinki Şamaxı xanlığının müstəqilliyini bərpa etmişdilər, hətta bilavasitə Quba xanlığının tərkibinə daxil olmuş Salyan mahalını, habelə keçmiş Cavad xanlığının ərazisini də ələ keçirmişdilər. Qonşu xanlıqlara nisbətən Şamaxı xanlığının daxili siyasi vəziyyəti daha sabit idi. Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, XVIII əsrin 90-cı illərindən başlayaraq Şamaxı və Lənkəran xanlıqları arasında Salyana sahib olmaq uğrunda kəskin mübarizə gedirdi.

Sisianovun göstərişi ilə İbrahimxəlil xan Mustafa xanı Rusiya

---

[1]Василий Потто. Кавказская война,т.1,с.199
[2] АКАК,т.2,док.1447,сс.709-710.
[3] Василий Потто.Кавказская война..,т.2,сс.201-217
[4] Vidadi Umudlu. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə(1801-1828).Bakı:Elm,2004,s.59.

təbəəliyini qəbul etməyə həvəsləndirməyə başladı. [1] Eyni zamanda rus komandanı Ərəş qalasını nəzərdən keçirmək bəhanəsi ilə Şamaxı xanlığının sərhədinə yaxınlaşdı.[2] Təhlükə hiss edən Mustafa xan öz elatlarını və digər təbəələrini toplayıb Fit dağındakı qalasına çəkildi.[3]

1805-ci il avqustun 15-də Sisianov Mustafa xandan İrandan və ya hansı başqa dövlətdən asılı olmamasını etiraf etməsini Rusiyanın ali hakimiyyətini qəbul etməsini, Cavadı Qarabağ xanına qaytarmasını, rus imperatoruna sədaqət rəmzi kimi qardaşı İsmayıl bəyi və uşaqlarını girov verməsini, hər il rus xəzinəsinə 10 min çervon (əşrəfi) verməyi öhdəsinə götürməsini və Həştərxandan Bakıya və oradan Gürcüstana gedən karvanların təhlükəsiz keçməsini təmin etmək üçün məmurlar təyin olunmasını tələb etdi.[4]

Sisianov bunun əvəzində Rusiya imperatorunun onu Şamaxı xanı kimi tanıyacağını və təsdiq edəcəyini, onun və varislərinin mülklərinin təhlükəsizliyinin, onların xan taxtına keçməsinin təmin ediləcəyini, əgər Mustafa xan Kür çayı mənsəbində qala tikilərkən lazım gələrsə işçilər verəcəksə, Salyanın onun əbədi mülkiyyətində qalacağını vəd edirdi. Sisianov Mustafa xanı qardaşı Haşım bəylə barışdırmağı vəd edirdi.[5]

Mustafa xan Sisianova göndərdiyi cavab məktubunda komandanın xəbəri olmadan qonşu xanlarla da əlaqə saxlamamaq haqqında tələblə bağlı bildirirdi ki, yalnız Şeyxəli xan və Şəki hakimi Səlim xanla əlaqə saxlayır. Qarabağ təbəələrini qaytarmaq tələbinə gəldikdə isə Mustafa xan yazırdı ki, onların bir hissəsi Şirvan sakini olub və geri qayıtmışlar; ikinci hissəsi aclıq zamanı gəlmişlər, bunlardan bəziləri Mustafa xan tərəfindən satın alınmış, digərləri çörəklə təmin olunmuş, bəziləri hətta Şamaxı qadınları ilə evlənərək Şamaxı təbəələri olmuşlar; üçüncü hissəsi

---

[1] АКАК, т.2,док.1356,с.671.
[2] АКАК, т.2,док.1352,с..667.
[3] Mirzə Adıgözəl bəy.Qarabağnamə.Qarabağnamələr,I c.,s.73.
[4] АКАК, т.2. д. 1348, с.674.
[5] АКАК, т.2. д,559, сс.674-675

Şah qoşunlarının Qarabağa basqınlarından qaçaraq Şamaxı xanlığına gəlmiş, burada özlərinə ev tikmiş və geri qayıtmaq fikrində deyillər. Ümumiyyətlə həm Şamaxı, həm də Qarabağ bir padşahın mülkləri olduğundan Sisianov Qarabağdan Şamaxı xanlığına gəlmiş təbəələrin geri qaytarılmasında təkid etməməlidir. Haşım bəylə bağlı şərtə gəldikdə isə, Mustafa xan onun dalınca adam göndərmiş, əgər o qayıdarsa, xanlıq ərazisində məskunlaşdırılacaqdı. 10 min əşrəfi ödəmək tələbinə gəlincə, Mustafa xan 10 min əşrəfi deyil, Səlim xanın ödəyəcəyi məbləğdə xərac ödəməyə hazır olduğunu yazırdı. Xan əmanətlər verməyə də razı idi. Eyni zamanda o, Cavad keçidini İbrahimxəlil xana verməkdən qəti imtina edərək yazırdı ki, bura heç vaxt Qarabağ xanlığının tərkibində olmamış, keçid Muğanla Şirvan arasında yerləşir. Xan Salyanda istehkam inşası üçün işçilər vermək tələbi ilə də razılaşırdı. Mustafa xan Gürcüstana gedən karvanların təhlükəsizliyinə də təminat verirdi.[1]

Sisianov Mustafa xana xəracın miqdarının da azaldıla bilməyəcəyini, Cavadın Qarabağ xanlığına məxsusluğunu göstərən sübutlar təqdim olunmayınca buranın Mustafa xanın mülkiyyətində qalacağını bildirmişdi. Mustafa xan Sisianova cavab məktubunda təklif olunan müqavilə şərtlərini əsasən qəbul etdiyini yazsa da, bəzi şərtlərin dəyişdirilməsini tələb edirdi. Şeyxəli xanla bütün əlaqələri kəsib, tacirlərə və karvanlara Quba xanlığına getməyi qadağan etmək tələbi ilə bağlı yazırdı ki, Şeyxəli xanla bütün əlaqələrini kəssə də, tacirlərə və karvanlara Quba xanlığına getməyi qadağan edə bilməz. Çünki, bu xanlıq qonşuluqda yerləşdiyindən taxıl və bir sıra zəruri şeylər oradan gətirilir, həm də Quba xanlığı Şamaxı ilə Dağıstan arasında yerləşdiyindən Dağıstanla ticarət də bu xanlığın ərazisindən keçməklə aparılır.

Qarabağ sakinlərinin geri qaytarılması tələbi ilə bağlı Mustafa xan əslən qarabağlı olan köçkünləri qaytarmağa hazır olduğunu, ancaq onlardan qəti olaraq Mustafa xanın təbəəliyini

---

[1] АКАК, т.2. д.1350, с.с.675-676

qəbul edənləri qaytara bilməyəcəyini yazırdı. İldə 8 min əşrəfi xərac ödəmək tələbi ilə də bağlı xan şirvanlıların pul gəlirlərinin az olduğunu nəzərə alaraq həmin məbləği azaltmağı xahiş edirdi. Əmanətlər məsələsi ilə bağlı yazırdı ki, özü məsləhət bildiyi 4 bəy uşağını göndərəcək.[1]

Sisianov 1805-ci il oktyabrın 8-də Mustafa xana yazırdı ki, onun məktubunu alıb 6-cı maddə istisna olmaqla təklif olunan müqavilə şərtləri ilə razılaşdığını öyrənmişdi. Yəni Mustafa xan özü məsləhət bildiyi bəy övladlarını əmanət verməyi şərt kimi qoyur. Sisianov isə deyirdi ki, kim himayə axtarırsa, deyilənə əməl etməlidir. Sisianov həm də xanı məzəmmət edərək yazırdı: "Siz mənimlə müqavilə bağlayırsınız, həm də Fətəli şahdan hədiyyələr qəbul edirsiniz. Eyni zamanda iki ağaya xidmət göstərmək olmaz".

Mustafa xan knyaz Eristov və Maqsud bəy vasitəsilə müqaviləni imzalamaq üçün Kürəkçay sahilinə gələ bilməyəcəyini bildirmişdi. Heç bir dövlət qiyabi şəkildə müqavilə imzalamır. Traktat layihəsinin 3-cü maddəsinə əsasən də siz müqaviləni baş komandanın iştirakı ilə imzalamalısınız. Deməli, mən sizin yanınıza Şirvana gəlməli deyiləm. Müqavilə əlahəzrət imperatora məxsus ərazidə imzalanmalıdır. Siz iki məmurunuzla Kürəkçay sahilinə gəlsəniz təhlükəsizliyiniz tamamilə təmin olunacaq.[2]

Mustafa xan cavabında yazırdı ki, şahın göndərdiyi xələti və atı aldığına görə onu məzəmmət etmək doğru deyil. Çünki bunları qəbul edərkən o, hələ Rusiya təbəəsi deyildi. Xan deyirdi ki, əgər Sisianov Mustafa xanın Rusiya himayəsinə girməsini faydalı sayırsa, qoy bir nəfər müvəkkilini göndərsin, onda xan müqaviləni imzalayar və sədaqət andı içər.

Sisianovun Mustafa xanın qışda ruslara, yayda isə Şaha xidmət etməsi barədə məzəmmətinə cavab olaraq xan bu məzəmmətin yersiz olduğunu yazırdı. Çünki o, hələ Rusiya

---

[1]АКАК, т.2. д.1350, сс.676-678.
[2] АКАК, т.2. д.1355, с.670.

himayəsinə qəbul olunmaq barədə öhdəliyə imza atmamışdır, buna görə də hələ hərəkət sərbəstliyi hüququ var.[1]

Noyabrın 9-da Sisianov Mustafa xana, ya sülh üçün Qarniçayda görüşəcəklərini, ya da hərb üçün Fitdağa gələcəyini yazdı.[2] Şamaxı xanlığının ərazisinə yaxınlaşan baş komandan sonuncu ruslara yardım etsin deyə Mustafa xanın qardaşı Həşim bəylə danışıqlara girib xanlıq taxtını ona vəd etdi.[3]

Mustafa xanın sığındığı Fitdağ qalasını uzun müddət mühasirədə saxlamadan fəth etmək mümkün deyildi. Sisianov isə burada çox ləngimək istəmirdi və Mustafa xanı silah işlətmədən itaətə gətirmək üçün yollar arayırdı. O cümlədən, şəkili Səlim xana Şamaxı xanlığında hakimiyyəti vəd etməklə iki xanın arasını vurmaq istəyirdi.[4]

Hakimiyyətin əldən gedəcəyini görən Mustafa xan güzəştə getməli oldu. Sisianovla ilk görüşü rus düşərgəsindən kənarda açıq yerdə, az miqdarda əsgərin müşayiəti ilə dekabrın 24-də oldu. Sisianov yazırdı ki, bu xanlıqda 25 min ev olduğundan, xanlığın əlverişli mövqeyini nəzərə aldığından Mustafa xanın nazı ilə oynamalı olmuşdu.[5]

Nəhayət,1805-ci il dekabrın 25-də rus ordusunun Çartma dağındakı düşərgəsində Mustafa xan Rusiya himayəsinə daxil olmaq haqqında giriş və 11 maddədən ibarət traktatı imzaladı. Birinci maddədə Mustafa xan özünün və varislərinin adından İrandan və digər hər hansı dövlətdən asılı olmayacağına, yalnız Rusiya imperatoruna sədaqətli olacağına Qurana əl basmaqla and içirdi. İkiinci maddəyə əsasən rus imperatoru özü və varisləri adından Mustafa xanın və varislərinin hakimiyyətinin və mülklərinin toxunulmazlığını vəd edirdi.

Müqavilədə deyilirdi ki, Mustafa xan öldükdən sonra uşağı qalmazsa imperator onun qardaşlarından ən ləyaqətlisini xan

---

[1] АКАК, т.2. д.1355, с.670
[2] АКАК, т.2. д.1354, с.669.
[3] Yenə orada,sənəd 1355,səh.670.
[4] АКАК, т.2, док.1357,с.671
[5] АКАК, т.2. д.1366, с.674.

taxtına təyin edəcək. Mustafa xan baş komandanın razılığı olmadan qonşu xanlarla əlaqəyə girməməli, əgər onlardan hansısa nümayəndə və ya məktub gələcəksə, mühümlərini baş komandana göndərməli və cavab vermək üçün icazə istəməli, şah tərəfindən göndərilən heç bir adam və məktubu ümumiyyətlə qəbul etməməli idi.

Müqavilədə Şamaxı xanının daxili idarəçilikdə suverenliyinin saxlanması təsdiq olunur, Salyanın Şamaxı xanına mənsubluğu təsdiqlənirdi. [1] Mustafa xan əslən qarabağlı olan köçkünləri İbrahimxəlil xana verməyi öhdəsinə götürürdü. Əgər Qarabağ xanı Cavadın ona məxsusluğunu təsdiq edərdisə, Cavad ona veriləcəkdi. Həştərxandan gəlib Gürcüstana gedən karvanların Şamaxı xanlığı ərazisindən təhlükəsiz keçidi təmin olunmalı idi.

Müqavilədə Şamaxı xanlığının rus xəzinəsinə illik 8 min əşrəfi verməsi təsbit olunur, traktatın əbədi müddətə imzalandığı qeyd edilirdi.

Rusiya himayəsinə daxil olduqdan sonra da Mustafa xan qonşu dövlətlərlə gizli surətdə əlaqələrini davam etdirirdi. Məsələn, 1808-1809-cu ilə aid bir məlumatdan Mustafa xanın Dağıstan hakimlərindən biri olan Xambutay xanla Rusiyaya qarşı gizli ittifaqa girdiyi anlaşılır. Elə həmin dövrdə Mustafa xan digər Azərbaycan xanları ilə birlikdə Osmanlı sultanından Rusiyaya qarşı ittifaq bağlamaq haqqında təklif almışdı.

Mustafa xanın öz sərbəstliyini qorumaq təzahürlərindən biri də Fitdağdakı qalasını möhkəmləndirmək səylərini davam etdirməsi, digər təzahürü isə rus komandanlığının qadağalarına baxmayaraq İran karvanlarının xanlıq ərazisindən keçməsinə imkan verməsi idi. [2] Mustafa xan xanlıq ərazisindəki rus hərbçilərinin fəaliyyətini məhdudlaşdırmağa çalışırdı.

Məlum olduğu kimi 1806-cı ilin fevralında Sisianov Bakı önündə Hüseynqulu xanla görüş zamanı xanın yaxın adamları

---

[1] АКАК, т.2. д.1366, с.674

[2] АКАК, т.3. д.579, с.317

tərəfindən qətlə yetirilmişdi. Bu Cənubi Qafqazdakı rus qoşunlarının durumuna xeyli dərəcədə mənfi təsir göstərdi. Pirqulu xanın başçılıq etdiyi qacar qoşunları Şəki xanlığı istiqamətində hücuma keçdilər. Abbas Mirzənin özü isə əsas qüvvələrlə Aslandüzə gələrək Qarabağ istiqamətində hücuma keçməyə hazırlaşırdı. Pirqulu xanın dəstəsi Şəki xanlığı ərazisinə daxil olsa da, rus ordu hissəsinin yaxınlaşacağını görüb Şamaxı xanlığının ərazisinə getdi, oradan da cənuba çəkildi.[1] Bundan sonra rus komandanlığı Aslandüzə toplaşmış qacar ordusuna ağır zərbə vurdu.

1807-ci ilin yazında Şəki üsyanı yatırıldıqdan sonra qorxuya düşən Mir Mustafa xan yenə də Rusiya və Qacarlar dövləti arasında manevr etməyə başladı. 1809-cu ilin əvvəlində Rusiyanın Cənubi Qafqazda vəziyyətinin pisləşməsi ilə əlaqədar Mir Mustafa xan qacarların baş vəziri Mirzə Bozorg ilə görüşüb birlikdə ruslara hücum etmək barədə məsləhətləşmələr aparmışdı.[2]

Qarababa kəndi yaxınlığında qacarların rus qoşunları üzərində qələbə çalması Şahı yaranmış yeni şəraitdən istifadə edərək rusları Azərbaycanın şimalından sıxışdırıb çıxarmağa ruhlandırdı. Şah hökuməti başlıca diqqətini Lənkəran xanlığına yönəldərək Mir Mustafa xanı öz tərəfinə çəkməyə çalışırdı. 1809-cu ilin avqustunda Şah bir sıra Azərbaycan xanlarını Lənkəran xanlığına qarşı göndərdi. Lakin bu qüvvələr Lənkəranı ala bilmədi.[3]

1809-cu ilin sentyabrında isə üstün qacar qüvvələri Lənkəran şəhərini tuta bildilər. Mir Mustafa xan Qamışavanda qalaya sığınsa da[4] formal olaraq qacarlardan asılılığı qəbul etməli oldu.[5] Bundan sonra şah qoşunları xanlıq ərazisini tərk etdilər.

---

[1] Mehman Süleymanov. Gülüstan müqaviləsi. II his., s.546-547.

[2] АКАК, т.3 д.903, с.515

[3] İradə Məmmədova. Lənkəran xanlığı Birinci Rusiya-İran müharibəsi dövründə. Bakı, 2007, s.39-40.

[4] АКАК, т.4 д.880, сс.584-585

[5] İradə Məmmədova. Göst. əsəri. s. 49

Sonralar, Mir Mustafa xan yenidən Rusiyaya meyil etməyə başladı. Buna görə də 1812-ci il avqustun sonlarında qacar qoşunları yenidən Lənkəranı tutdular.[1]

1813-cü ilin yazında İrəvan hakimi Hüseyn xanın xanlıq ərazisinə soxulmuş rus hərbi dəstəsini məğlubiyyətə uğratması şah sarayında müharibənin gedişini dəyişdirməyə ümid yaratdı və qacar qoşunları təmas xəttinə yaxın məsafədə toplanmağa başladılar. Lakin o zaman Napoleonla mübarizə hələ bitmədiyindən İngiltərə Rusiyanın qacarlarla mübarizəyə cəlb olunmasını arzulamırdı və buna görə də Rusiya ilə qacarlar arasında sülh müqaviləsinin tezliklə imzalanmasında maraqlı idi. Rtişşevlə ser Qor Uzeley arasında yazışmalar fəallaşdı.

Uzeley iki dövlət arasında sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün şah sarayında görüşlərə və danışıqlara başladı. O, şahın vəziri Mirzə Səfini sülh bağlanmasına razı sala bildi. Uzeley Fətəli şahla görüşüb sülh müqaviləsinin şərtlərinin onun istəklərinə uyğun formalaşdırılacağını vəd etdi. Şah bunun mümkünlüyünə şübhəsini ifadə etdikdə səfir rusların işğal etdikləri əraziləri müvəqqəti olaraq öz nəzarətləri altında saxlayacaqlarını və münasib məqam yetişən kimi onları tərk edəcəklərini söylədi. O, hətta bu maddəni əks etdirən müqavilə layihəsi də hazırladı.[2]

General Rtişşev Uzeleyin Rusiyanın Azərbaycan xanlıqları ilə bağlı iddialarını təmin edəcək sülh müqaviləsinin imzalanması üçün şah hökumətinə təsir etməsini alqışlayırdı. Tanınmış tarixçi alim M.Süleymanovun haqlı olaraq qeyd etdiyi kimi Azərbaycan xanlıqlarının Rusiyaya verilməsi üçün Rusiya ilə Qacarlar dövləti arasında siyasi alverə qatılan Qor Uzeleyin "xidmətləri"ni rus hökuməti minnətdarlıqla yad edirdi.[3]

Danışıqlar prosesinin sürətləndirilməsi üçün Rtişşev əvvəlki Qacar nümayəndələrinin danışıqlardan kənarlaşdırılmasını tələb

---

[1] İradə Məmmədova. Göst. əsəri. s. 80.
[2] Mehman Süleymanov. Gülüstan müqaviləsi, s.553
[3] Yenə orada, s.553-554

etdi. Həm də rus generalı danışıqlara Abbas Mirzənin ətrafındakı əyanların göndərilməməsini arzuladı, çünki onun fikrincə, həmin əyanlar Abbas Mirzə kimi təslimçilik şərtləri ilə razılaşmayacaqlardı. Rtişşev danışıqlara şah sarayı nümayəndələrinin qatılmasını arzulayırdı. Konkret olaraq Mirzə Səfinin namizədliyini müdafiə edirdi.[1]

Abbas Mirzə və onun ətrafı, ilk növbədə Mirzə Bozorg Rusiyaya ərazi güzəştlər edilməsinin qəti əlehdarları idilər. Lakin Qacar ordusunda yenidənqurma hələ ilkin mərhələdə idi və rus ordusunun qarşısının kəsib hərbi şəraiti dəyişdirmək iqtidarında deyildi. Beynəlxalq şərait də Qacarların xeyrinə deyildi. Danışıqlarda vasitəçilik edən İngiltərə əslində birtərəflilik göstərərək Rusiyanın maraqlarının təmin olunmasına çalışırdı.

Qeyd edək ki, Fətəli şah heç də Qafqaza iddialarından əl çəkmək niyyətində deyildi. Uzeley 1813-cü il iyunun 31-də (iyunun 30-da) Sultaniyyədə Fətəli şahla görüşməyə nail olub onu danışıqlara başlamağa razı sala bildi. Şah sülh müzakirələrinə başlamağı, eyni zamanda danışıqlarda Abbas Mirzənin də iştirak etməsini əmr etdi.[2]

Danışıqların başlanmasına razılaşmağa məcbur olan Şah eyni zamanda Uzeleydən tələb etdi ki, rusların sülh müqaviləsi bağlanandan sonra işğal etdikləri ərazilərdən çıxacaqları haqqında öhdəlik aktı hazırlansın. Uzeley belə bir sənəd hazırladı. Sənəddə deyilirdi ki, Qacar dövlətinin səfiri Rusiya paytaxtına yetişəndən sonra İngiltərənin səyləri və Qacar şahzadəsinin xahişinə əsasən Rusiyanın böyük imperatoru Qarabağ, Şirvan, Şəki və Bakı vilayətlərini İrana qaytaracaqdır. Adları çəkilən ərazilər Qacarlara qaytarılana qədər İngiltərə Qacar dövlətinə yardım göstərəcəyini vəd edirdi.[3]

Şahı müqaviləyə imzalamağa vadar etmək üçün Uzeley, Rusiya ilə sülh danışıqları başlanmazsa, İngiltərənin maliyyə yardımının

---

[1]Mehman Süleymanov. Gülüstan müqaviləsi, s.554.
[2] Yenə orada, s 557
[3] Yenə orada,s..559

kəsiləcəyi ilə hədələdi. Ölkənin ağır iqtisadi durumunda Şah İngiltərənin yardımlarının, ümumiyyətlə, bu ölkə ilə münasibətlərin kəsilməsini istəmirdi və bu səbəbdən də danışıqların başlanmasına razı oldu. Şah Uzeleyin təzyiqi altında Mirzə Bozorqun danışıqlardan kənarlaşdırılmasına razı oldu. Uzeleyin danışıqlarda vasitəçi rolundan yalnız İngiltərənin mənafeyi üçün istifadə etməsi onun İngiltərənin Xarici İşlər nazirinə göndərdiyi məktubu təsdiq edirdi. O, İngiltərənin dostu və müttəfiqi Rusiyaya kömək göstərdiyindən məmnunluğunu ifadə edərək yazırdı ki, iki ölkə arasında sülh müqaviləsi imzalandıqdan sonra Rusiyanın Qafqazdakı qoşunlarından İngiltərənin və Rusiyanın ümumi düşməninə qarşı (Bonapart nəzərdə tutulur – T.M.) mübarizədə istifadə oluna biləcəkdir.[1]

Şah sarayının sülh danışıqlarına başlamağa razılaşmasından sevinən general Rtişşev 1813-cü il iyul ayının ortalarında sülh danışıqlarının keçirilməsi üçün 50 günlük atəşkəs elan olunmasını və danışıqların rusların nəzarəti altında olan Qarabağın Gülüstan kəndində keçirilməsi təklifi ilə Uzeleyə məktub yazdı.[2]

Şah tərəfi Rtişşevin təkliflərini qəbul etdi və Mirzə Əbülhəsəni danışıqlarda Şahın nümayəndə heyətinin rəhbəri təyin etdi. Eyni zamanda şah sarayı işğal edilmiş ərazilərin müəyyən hissəsinin qaytarılmasında israr edir və təklif edirdi ki, sülh müqaviləsinə bununla bağlı maddə salınsın. Bu təklifi qətiyyətlə rədd edən Rtişşev yalnız status-kvonun saxlanması şərtilə müqavilə imzalanmasını tələb edərək təklif etdi ki, imzalanacaq sülh müqaviləsinə ayrıca bir əlavə qəbul edilsin və həmin əlavədə göstərilsin ki, sülh müqaviləsi imzalandıqdan sonra şah sarayı Peterburqa nümayəndə heyəti göndərib öz xahişləri və təkliflərini təqdim etsin.[3]

Çıxılmaz vəziyyətə düşmüş şah sarayı general Rtişşevin bütün şərtlərini qəbul etməyə məcbur oldu. Mirzə Əbülhəsən

---

[1]Mehman Süleymanov. Gülüstan müqaviləsi, s.559-566

[2] Yenə orada, s.563

[3] Yenə orada, s.564

Tehrandan yola düşüb sentyabrın 27-də Gülüstan kəndinə çatdı. General Rtişşev sentyabrın 21-dən bu kənddə idi.[1]

Müqavilənin hansı şərtlərlə bağlanacağı artıq məlum olduğundan Uzeley danışıqlarda iştirak etmədi. Mirzə Əbülhəsən xanla general Rtişşev arasında sentyabrın 27-də baş tutmuş ilk görüş tanışlıq səciyyəsi daşıyırdı. Əsas müzakirələrə girişməzdən əvvəl tərəflər 50 günlük barış anlaşması haqqında danışıqlar apardılar və oktyabrın 1-də belə bir anlaşma imzalandı.[2]

Barış anlaşmasının imzalanmasından dərhal sonra sülh müqaviləsi şərtlərinin müzakirəsi başladı. Mirzə Əbülhəsən general Rtişşevin status-kvonun saxlanması əsasında müqavilənin şərtlərinin hazırlanması təklifini qəbul edib sülh müqaviləsinin imzalanmasından əvvəl müqaviləyə əlavə qəbul edilməsini xahiş etdi.

Rtişşev bu təkliflə razılaşmaq istəmədi. Ancaq Mirzə Əbülhəsənin təkidindən sonra əlavənin təklif olunan məzmununu dəyişdi. Müqavilə imzalanandan sonra şah sarayının nümayəndəsi Rusiyaya gedib müqavilənin şərtləri ilə bağlı xahişləri Rusiya imperatoruna çatdıra bilərdi.[3]

Gərgin müzakirələrdən sonra 1813-cü il oktyabrın 12-də sülh müqaviləsinin şərtləri razılaşdırıldı və elə həmin gün Rtişşev və Mirzə Əbülhəsən müqaviləni imzaladılar. Müqavilənin birinci maddəsində əvvəllər iki dövlət arasında mövcud olmuş düşmənçiliyə və ədavətə son qoyulduğu bildirilir, Şahın və onun varisinin statusu təsbit olunurdu.

Məlumdur ki, o zamana qədər Rusiya Fətəli şahı şah kimi, Abbas Mirzəni də vəliəhd kimi tanımırdı. Bu səbəbdən də Gülüstan müqaviləsində Rusiya dolayısı ilə Fətəli şahı İran hökmdarı kimi tanıyırdı.[4]

Müqavilənin əsas maddəsi olan ikinci maddədə Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Azərbaycanın şimal

---

[1] Yenə orada,s.567

[2] АКАК, Т. 5 с. 734; Mehman Süleymanov. Gülüstan müqaviləsi, s.568.

[3] Mehman Süleymanov. Gülüstan müqaviləsi s.570

[4] Yenə orada, s.574

xanlıqlarının Rusiya tərəfindən işğalı rəsmiləşdirildi və iki dövlət arasındakı sərhəd müəyyənləşdirilirdi. [1] Üçüncü maddədə isə deyilirdi ki, Şah özü və varisləri adından Qarabağ, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı, Talış (Lənkəran) xanlıqlarını və Yelizavetpol dairəsinə çevrilmiş Gəncə xanlığını, bütün Dağıstanı, Şuragöl əyalətini, İmeretiya, Quriya, Minqreliya və Abxaziya ilə birlikdə Gürcüstanı Rusiya imperiyasının mülkü sayır.[2]

Dördüncü maddəyə görə, xarici müdaxiləçilər İran dövlətinin daxili işlərinə qarışmasın deyə Rusiya imperatoru Şahın vəliəhd elan ediləcək oğluna yardım etməyi öhdəsinə götürürdü. [3] Məlumdur ki, əslində Fətəli şah Gülüstan müqaviləsinin bağlanmasından hələ xeyli əvvəl dördüncü oğlu Abbas Mirzəni öz vəliəhdi təyin etmişdi. Tarixçilər, ondan böyük qardaşları olduğu halda Abbas Mirzənin vəliəhd elan olunmasını həm onun savadlı və bacarıqlı olması, həm də Ağa Məhəmməd şahın belə bir vəsiyyəti ilə izah edirlər: Valideynlərinin hər ikisi Qacar tayfasından olman şahzadə vəliəhd təyin oluna bilər (Abbas Mirzənin anası da qacarlardan idi). Sual oluna bilər: Vəliəhd artıq məlum olduğu halda müqaviləyə niyə onun adı yazılmamışdır.[4] Yəqin ki, müqavilə hələ təsdiqlənməmiş rus hökuməti Abbas Mirzənin vəliəhd kimi adının müqaviləyə salınmasına etiraz etmişdi.

Hər iki dövlətin ticarət gəmilərinə Xəzər dənizində sərbəst üzmək və qarşı tərəfin limanlarına daxil olmaq hüququ verilirdi. Hərbi gəmilərə gəlincə, Xəzər dənizində yalnız Rusiya hərbi gəmiləri üzə bilərdi( V maddə).[5]

---

[1] Yaqub Mahmudov, Kərim Şükürov. Azərbaycan Beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828). Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Bakı, 2009, s.438-439.

[2] Yenə orada, s.439

[3] Yenə orada, s.439-440

[4] Yaqub Mahmudov, Kərim Şükürov . Göst.əsəri, s.439-440; Süleymanov M. Gülüstan müqaviləsi, II hissə, s.578-579.

[5] Yenə orada, s.440.

Gülüstan müqaviləsi tarixin ən böyük ədalətsizliklərindən oldu. Azərbaycan iki yerə parçalandı, uzun müddətə müstəqilliyini itirdi.

Gülüstan müqaviləsi imzalandıqdan sonra da Qacar sarayı Şimali Azərbaycan xanlıqlarının hansısa birinin ərazisini qaytarmağa ümid edirdi. Qor Uzeleyin məsləhəti ilə Mirzə Əbülhəsən onunla birlikdə Sankt-Peterburqa yola düşdü. Elçilik 1814-cü ilin mayında bu şəhərə çatdı. Lakin Mirzə Əbülhəsən xanın apardığı danışıqların heç bir faydası olmadı. Rus hökuməti hər hansı ərazini güzəştə getməkdən qətiyyətlə imtina etdi.

Beləliklə, tarixi hadisələrin izlənməsi göstərir ki, Rusiya qoşunları Azərbaycanı tərk etdikdən sonra Ağa Məhəmməd şahın Azərbaycanın şimal hissəsinə ikinci yürüşünün əsas hədəfi yenə Qarabağ olmuşdur. Bu dövrdə bir çox xanlıqlarda, o cümlədən Qarabağ xanlığında baş vermiş quraqlıqdan sonra kəskin aclıq hökm sürdüyündən ərzaq ehtiyatı olmayan İbrahimxəlil xan Şuşanı tərk edib Car-Balakən camaatlarına, qohumu Ömər xanın yanına getdiyindən əyanlar müqavimət göstərməyin faydasız olduğunu düşünərək sakinlərin təhlükəsizliyinə təminat verilməsi şərtilə qalanı təslim etdilər. Lakin Ağa Məhəmməd şahın Şuşada olmasının yeddinci günündə, 1797-ci il iyulun 4-də öz nökərləri tərəfindən qətlə yetirilməsi nəticəsində başsız qalmış Qacar qoşunu dağılıdığından Qacarların Qarabağ xanlığını tabe etmək niyyəti baş tutmadı.

Ağa Məhəmməd şahın öz sağlığında vəliəhd təyin etdiyi qardaşı oğlu Fətəli xan taxta çıxdığından hələ bir müddət dövlətinin daxili işləri ilə, yeni rus çarı I Pavel isə Avropa işləri ilə məşğul olduğundan Şimali Azərbaycan xanlıqları üzərində təhlükə qısa müddətə aradan qalxmışdı. Xanlar məqamdan istifadə edib birləşmək əvəzinə, yenidən bir-birləri ilə mübarizəyə girişmişdilər. Pavel Azərbaycan xanlarını Rusiyanın himayəsi altında federasiyada birləşdirməklə ayrı-ayrı xanlıqların Qacarların təsiri altına düşməsinə mane olmaq, gələcəkdə bu xanlıqların Rusiyaya birləşdirilməsi üçün zəmin yaratmaq istəyirdi.

1801-ci il martın 1-də I Pavel saray sui-qəsdi nəticəsində öldürüldükdən sonra taxta oğlu I Aleksandr keçdi. Atasından fərqli olaraq o, Fransa ilə deyil, İngiltərə ilə ittifaq siyasətinə üstünlük verdiyindən İngiltərə Rusiyanın cənuba doğru irəliləyişinə açıq müqavimət göstərə bilmədi.

Məlumdur ki, 1801-ci il fevralın 16-da elan olunan imperator manifestinə görə, Kartli-Kaxeti çarlığının ləğv edilib Rusiyaya birləşdirilməsi bəyan olunmaqla yanaşı, əhalisinin əksəriyyətinin azərbaycanlıların təşkil etdiyi əzəli Azərbaycan torpaqları – Pəmbək, Qazax, Borçalı və Şəmsəddil sultanlıqlarının da Kartli-Kaxeti çarlığının tərkibində Rusiyaya ilhaqı bəyan olunurdu. Beləliklə də, Azərbaycan ərazilərinin çarlıq Rusiyası tərəfindən işğalının başlanğıcı qoyuldu.

Rusiya hakim dairələri Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaqdan ötrü müxtəlif vasitələrdən istifadə edir, lazım gəldikdə zor tətbiq edirdilər. Əvvəlcə, I Aleksandr atasının Rusiyanın himayəsi altında Şimali Qafqaz və Azərbaycan hakimlərinin birliyini yaratmaq siyasətini davam etdirmək istədi. 1802-ci il dekabrın 26-da Georgiyevsk şəhərində Quba, Lənkəran xanları, Tarki şamxalı, Qaraqaytaq usmisi, Tabasaran usmisi ilə rus komandanı arasında görüş keçirildi və “Georgiyevsk müqaviləsi” imzalandı. Xanlar aralarındakı düşmənçilik, narazılıq və çəkişmələri bir yana qoyaraq mübahisələri dinc yolla həll edəcəklərinə, şah qoşunları hücum edəcəyi təqdirdə ona qarşı birgə mübarizə edəcəklərinə söz verirdilər. Hakimlər söz verirdilər ki, Qacarlar tərəfindən təhlükə yarandıqda Qafqazdakı rus qoşunlarının baş komandanının rəhbərliyi altında öz qüvvələrini birləşdirəcəkdir.

Çox keçməmiş rus hökuməti üzündəki pərdəni bir kənara atdı və 1802-ci ildən Qafqazdakı rus ordularının komandanı olan general Sisianov Azərbaycan ərazilərinə qarşı açıq hücuma başladı. O, 1803-cü il martında rusların 7-8 minlik güclü bir dəstəsi qeyri-bərabər döyüşdə Car-Balakən camaatlarını məğlub etdi, Balakən və Car zəbt olundu. Camaatlar Rusiya təbəəliyini qəbul edib ildə 200 pud ipək verməyi öhdələrinə götürdülər. İlisu

sultanlığı da Rusiya təbəəliyinə alındı.

Bundan sonra Sisianov əsas zərbəni Gəncə xanlığına qarşı yönəltdi. Gəncəli Cavad xan təslim olmaqdan imtina etdiyindən Sisianov şəhəri mühasirəyə aldı və 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə edilən qəti həmlə ilə başlayan qanlı döyüşdən sonra, Gəncə zəbt edildi.

Rusların Cənubi Qafqazda irəliləyişinin qarşısını almaq məqsədilə Fətəli şah 1804-cü ilin iyununda Rusiyaya müharibə elan etdi. Gəncənin və Car-Balakən camaatlarının işğalından sonra Sisianov əsas diqqətini İrəvan xanlığına yönəltdi. İyulun 25-də Gümrü və Üçmüəzzini tutan rus qoşunları İrəvanı mühasirəyə aldılar. Lakin ruslar İrəvan müdafiəçilərinin müqavimətini qıra bilmədilər və Sisianov indi əsas diqqətini Qarabağ xanlığına yönəltdi. O zaman Şuşa Qacarlar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı sayılırdı.

Böyük oğlu Məhəmmədhəsən ağanın təsiri ilə və Qacarların Qarabağa hücumlarına qarşı yardım almaq məqsədilə İbrahimxəlil xan nicatı Rusiya himayəsinə girməkdə gördü və Sisianovla danışıqlara başladı. 1805-ci il mayın 14 (yeni təqvimlə 26-sı) Sisianovun Gəncədən 20 verst aralı Kürəkçay sahilindəki düşərgəsində Sisianovla İbrahimxəlil xan arasında “Andlı öhdəlik” imzalandı. Müqaviləyə görə, Qarabağ xanı Rusiya təbəəliyini qəbul edir və qonşu dövlətlərlə müstəqil əlaqə saxlamaqdan imtina edirdi.

Mayın 21 (iyunun 1-i) yenə də Kürəkçay sahilində şəkili Səlim xanla da eyni məzmunda müqavilə imzalandı. Şəkili Səlim xan bu addımı öz hakimiyyətini möhkəmləndirmək və Mustafa xandan qorunmaq üçün atmışdı.

Bundan sonra Sisianov diqqətini həm ərazisinin böyüklüyünə, həm də əhalisinin sayına görə xanlıqlar içərisində öncül yerlərdən birini tutan Şamaxı xanlığına yönəldir. Çıxılmaz vəziyyətə salınan Mustafa xan 1805-ci il dekabrın sonunda Rusiya təbəəliyini qəbul etmək haqqında Kürəkçay müqavilələri ilə eyni şərtlərə malik həmin müqaviləni imzalamalı oldu.

Şamaxı xanlığını tabe etməklə Bakı və Lənkəran xanlıqlarını

işğal etmək üçün platsdarm əldə edən Sisianov yanvarın sonunda Bakı önünə gələrək Hüseynqulu xandan qeyd-şərtsiz təslim olmasını tələb etdi. Amma fevralın 8-də şəhər darvazası önündə görüş zamanı xanın yaxınları Sisianovu qətlə yetirdiyindən rus qoşunları vahiməyə düşərək gəmilərə minib Sarı adasına üzdülər.

Sisianovun qətlindən sonra Rusiyanın Azərbaycandakı mövqeləri xeyli sarsılmış, yalnız Rusiya yeni qüvvələr yeritməklə vəziyyəti öz xeyrinə dəyişməyə nail olmuşdu. 1806-cı ilin iyununda isə rus qoşunları şəhər daxilindəki təslimçi qüvvələrin yardımı sayəsində Dərbəndə daxil ola bilmişdilər. İyulda üstün rus qüvvələri Qubaya yaxınlaşdıqda Şeyxəli xan zahiri itaət göstərməyə məcbur oldu. Artıq Şeyxəli xana qətiyyən etibar etməyən rus hökuməti, onu hakimiyyətdən kənarlaşdırıb xanlığın idarəçiliyini naib titulu ilə Hacı bəyə tapşırır.

1806-cı ilin iyununda mayor Lisaneviçin başçılıq etdiyi rus hərbçiləri qarabağlı İbrahimxəlil xanı, onun Qacarlarla gizli əlaqə saxlamasını bəhanə gətirib, bir neçə ailə üzvü və nökərləri ilə birlikdə vəhşicəsinə qətlə yetirdikdə bu qətliam Şimali Azərbaycanda Rusiyadan narazılığı son həddə çatdırdı. Qətlə yetirilənlər arasında şəkili Səlim xanın İbrahimxəlil xanın zövcəsi olan bacısı da olduğu üçün qəzəblənmiş şəkililər rus kazaklarına hücum edib bir hissəsini qətlə yetirmişdilər. Rus qoşunları Şəki xanlığının ərazisini tərk etməyə məcbur olmuş, Car-Balakən camaatları da üsyan etmişdilər.

Azərbaycanda mövqeləri zəiflədiyinə, digər yandan da Osmanlı imperiyası ilə yeni müharibə yaxınlaşdığına və həm də Fransa ilə münasibətləri kəskinləşdiyinə görə Rusiya Cənubi Qafqazda hərbi əməliyyatlarını müəyyən müddətə məhdudlaşdırmağı, yalnız Bakını istila etməyi qərara almışdı. General Bulqakovun başçılıq etdiyi böyük rus qüvvələri Bakıya yaxınlaşdığı zaman, müqavimətin mənasız olduğunu anlayan Hüseynqulu xan öz yaxın adamları ilə İrana getdi və oktyabrın 3-də Bakı rusların əlinə keçdi. Bakı xanlığı ləğv edilərək Rusiyanın bir əyalətinə çevrildi.

Bakını zəbt etdikdən sonra rus komandanlığı əsas diqqətini

üsyanların yatırılmasına yönəltdi. Şəkidə üsyan yatırıldı və xanlığın idarəçiliyi Səlim xanın kiçik qardaşı Fətəli bəyə tapşırıldı. Dekabrın sonuna yaxın Rusiya tabeçiliyindən imtina etmiş Car-Balakən camaatları da yenidən itaətə gətirildi.

Beləliklə, 1806-cı ildə İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Azərbaycanın şimal hissəsi əsasən rusların nəzarəti altında idi. Osmanlı imperiyası ilə yeni müharibəyə başladığından rus hökuməti Qacar sarayı ilə sülh bağlamaq istəyirdi. Şah hökuməti məqamdan istifadə edib rusların işğalında olan bəzi ərazilərdən imtina etməsi şərtilə sülh bağlanmasına razı idi. 1807-ci ilin əvvəllərində sülh danışıqları başlasa da, tərəflərin mövqelərində böyük fərq müşahidə olunduğundan (rus hökuməti işğal etdiyi ərazilərin heç birini güzəştə getmək istəmir, Qacar sarayı isə rus qoşunlarının nəinki Azərbaycanın Şimal hissəsindən, ümumiyyətlə Cənubi Qafqazdan, eləcə də Qızlara qədərki Dağıstan torpaqlarından çıxmasını tələb edirdi) danışıqlara ara verildi.

Qudoviçin başçılığı ilə rus ordusu 1808-ci ilin oktyabrında İrəvanı mühasirəyə alsa da, İrəvan müdafiəçilərinin kəskin dirənişi ilə qarşılaşdı və uğur qazana bilmədi. Bundan sonra müvəqqəti olaraq regionda Qacarların təsirinin güclənməsi müşahidə olunur. Qarababa kəndi yaxınlığında Qacarların rus qoşunları üzərində qələbə çalması Şahı yaranmış yeni şəraitdən istifadə edərək rusları Azərbaycanın şimalından sıxışdırıb çıxarmağa ruhlandırdı. 1809-cu ilin sentyabrında Qacar qüvvələri Lənkəran şəhərini ələ keçirdilər. Mir Mustafa xan Qamışavana sığındı. O, formal da olsa Şahdan asılılığını etiraf etdi.

Rusların nüfuzuna vurulan böyük zərbə həm də qubalı Şeyxəli xanın barışmaz mübarizəsi idi. Buna görə də 1809-cu ildə Rusiya hökuməti Quba xanlığını rəsmən ləğv edərək Rusiyanın bir əyalətinə çevirdi. 1810-cu ildə Qubada ruslara qarşı ümumi üsyandan sonra isə burada komendant idarəçiliyi tətbiq olundu.

Qacarlara xəyanət edib minlərlə təbəəsi ilə Rusiya tərəfə keçmiş xoylu Cəfərqulu xanın Şəki hakimi təyin olunması narazılıqla qarşılanmış və 1807-ci ilin yazında yerli əhalinin

üsyanına səbəb olmuşdu. Bu üsyanı və daha sonra 1808-ci ilin yazında qalxan üsyanı da ruslar çətinliklə yatıra bildilər.

1812-ci ilin aprelində Əsgəranda Rusiya ilə Qacarlar arasında sülh danışıqları yenidən başladıqda ruslar İrəvan və Naxçıvan xanlıqlarını, Qacarlar isə Lənkəran xanlığını tələb etdiyindən danışıqlar nəticə vermədən dayandırıldı.

Bu arada isə vəliəhd Aslandüzə hərəkət edərək burada rus ordusu ilə döyüşə girmiş, lakin ağır məğlubiyyətə uğramışdı. Rus komandanlığı da təşəbbüsün onun əlinə keçməsindən istifadə edib Lənkərana hücum təşkil etdi. Ağır döyüşlərdən sonra, ruslar nəhayət ki, 1813-cü il yanvarın əvvəllərində Lənkəran qalasını zəbt etməyə müvəffəq oldular. Aslandüz qələbəsi və Lənkəran şəhərinin alınması Rusiya-Qacar müharibəsinin gedişini qəti surətdə Rusiyanın xeyrinə dəyişdi. Beləliklə, mövqeyini möhkəmləndirən Rusiya danışıqlarda artıq Lənkəran xanlığının da Rusiya torpaqları sırasına daxil olunmasını tələb etdi.

Yeni şəraitdə aparılan danışıqlarda İngiltərənin iştirakının artdığını xüsusi qeyd etmək lazımdır. İngilis hökuməti regionda gedən proseslərdən öz maraqları üçün istifadə etməyə çalışırdı. Qacarlar dövləti ilə münasibətlər yaratmaq işinə ingilis hökuməti uzun müddət Hindistanda çalışmış və Şərqi yaxşı tanıyan Qor Uzeleyi cəlb etdi. Napoleonun 1812-ci ilin iyununda Rusiyaya hücumu ilə əlaqədar Rusiyanın İngiltərənin də iştirak etdiyi antifransız koalisiyasına daxil olması ilə əlaqədar ingilislər artıq müttəfiq olduqları Rusiyaya qarşı müharibədə Qacarlara yardım edə bilməzdilər. Əksinə onlar bu iki dövlət arasında sülhə nail olmaq istəyirdilər ki, Rusiya bütün qüvvələrini Fransaya qarşı müharibəyə cəlb edə bilsin.

Rusiya ilə sülh məsələsində Qacar dövləti daxilində iki mövqeyin olduğunu qeyd etmək lazımdır. Fətəli şah və onun sarayı ruslara ərazi güzəştləri hesabına sülh bağlamağa razı idisə, vəliəhd Abbas Mirzə və onun sarayı yalnız bütün Cənub-Şərqi Qafqazın, yəni Azərbaycanın şimal torpaqlarının rus işğalından azad edilib Qacarlar dövlətinə keçməsi şərtilə sülh müqaviləsi bağlanmasına razı idi.

1812-ci il oktyabrın əvvəllərində Aslandüzdə Qafqazdakı rus qoşunlarının komandanı Rtişşevin nümayəndəsi general Axverdovla Abbas Mirzənin nümayəndəsi Mirzə Əbülhəsən arasında ingilis səfirliyinin əməkdaşı Moryenin iştirakı ilə görüş keçirildi.

Napoleonla müharibə hələ bitmədiyinə görə İngiltərə Rusiya qüvvələrinin Qacarlarla mübarizəyə cəlb olunmasını istəmədiyindən tezliklə sülh bağlanmasında maraqlı idi. Q.Uzeley Rtişşevlə fəal yazışmalar aparırdı, eyni zamanda şahla görüşüb sülh müqaviləsinin onun istəklərinə uyğun tərtib olunacağını vəd etdi. Uzeleyin təsiri ilə danışıqların başlanmasına razılıq verən Şah eyni zamanda Uzeleydən rusların sülh müqaviləsi imzalandıqdan sonra işğal etdikləri ərazilərdən çıxacaqları barədə razılıq almasını tələb etdi. Uzeley Fətəli şahı sülh müqaviləsi bağlamağa vadar etmək üçün sülh danışıqları başlanmazsa, İngiltərənin maliyyə yardımının kəsiləcəyi ilə də hədələdi.

Çıxılmaz vəziyyətə düşmüş Qacar sarayı Rtişşevin şərtlərini qəbul etməli oldu. Qarabağın Gülüstan kəndində Rtişşevlə Fətəli şahın nümayəndəsi Mirzə Əbülhəsən arasında danışıqlar başladı.

Nəhayət, 1813-cü il oktyabrın 12-də müqavilənin son mətni hazır oldu və imzalandı. Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Azərbaycanın şimal xanlıqlarının, habelə Dağıstanın və Şərqi Gürcüstanın Rusiya tərəfindən ilhaqı rəsmiləşdirilərək iki dövlət arasında sərhəd müəyyənləşdirildi. Müqavilədə Xəzər dənizində yalnız Rusiya hərbi qüvvələrinin üzə biləcəyi göstərilirdi ki, bu da müqavilənin qeyri-bərabər xarakterini bir daha sübut edir.

Beləliklə də, tarixin ən böyük ədalətsizliklərindən biri baş verdi. Gülüstan müqaviləsi ilə Azərbaycan iki yerə parçalandı.

# X Ü L A S Ə

XVIII-XIX əsrin əvvəllərində qonşu iri dövlətlər – Rusiya və Osmanlı imperiyasının siyasətində Azərbaycan xüsusi yer tutmuşdur.

İsti dənizlərə çıxış əldə etmək ən böyük arzularından biri olan I Pyotr 1711-ci ildə Prut müharibəsində Osmanlı tərəfindən ağır məğlubiyyətə uğradığından Qara dənizə çıxış ümidlərini tamamilə itirdiyi üçün cənubda bütün diqqətini Xəzər dənizinə və ətrafındakı ölkələrə yönəltmişdi. O, 1722-ci ildə Səfəvi dövlətinin faktiki dağılmasından istifadə edərək yüz minlik ordu ilə hərbi yürüşə çıxmış, lakin Dərbəndi asanlıqla ələ keçirsə də, Osmanlı dövlətinin kəskin etirazı və bir sıra digər səbəblər üzündən yürüşü yarımçıq dayandırıb ordunun əsas hissəsi ilə Rusiyaya qayıtmalı olmuşdu. Bununla belə Rusiya kiçik dəniz ekspedisiyaları göndərmək yolu ilə Bakını, Salyanı, Rəşti ələ keçirdi.

Osmanlı imperiyası da həm 1699-cu il Karlovça müqaviləsinə görə Avropadakı ərazi itkilərinin yerini doldurmaq, həm də Səfəvi ərazilərinin, ilk növbədə Cənubi Qafqazın əzəli rəqibinin əlinə keçməsinə mane olmaq üçün 1723-cü ilin yazından bölgədə hərbi əməliyyatlara başlamışdı.

Eyni istiqamətdə irəliləmələri iki imperiya arasında müharibə təhlükəsi doğurduğundan İsveçlə qanlı Şimal müharibəsini (1700-1721) yenicə bitirmiş I Pyotr yeni ciddi müharibəyə, Osmanlı dövləti kimi güclü rəqiblə müharibəyə girməyi arzulamırdı və fransız diplomatiyasının araçılığı ilə Səfəvi ərazilərini bölüşdürməkdən ötrü Osmanlı ilə razılığa gəlmək üçün danışıqlara başladı. Rusiya kimi böyük dövlətlə hərbi toqquşmadan ehtiyat edən sədrəzəm (baş vəzir) İbrahim paşa Nevşehirli də anlaşmaya meyilli idi. 1723-1724-cü illərdə Osmanlı rəsmiləri ilə Rusiyanın İstanbuldakı rezidenti İvan Neplyuyev arasında keçirilən danışıqlarda əsas mübahisə obyekti Azərbaycan torpaqları olmuşdur. Osmanlı tərəfi rus çarının heç bir hüququ olmadığı üçün Dərbənd və Bakıdan əl çəkməsini, Rusiya tərəfi isə bütün Xəzəryanı zolağın onda, Ərdəbil, Təbriz

və Sultaniyyə şəhərlərinin səfəvilərdə qalmasını tələb edirdi.

Uzun danışıqlardan sonra, nəhayət, 1724-cü il iyunun 24-də İstanbulda iki dövlət arasında imzalanmış müqaviləyə görə, Osmanlı dövləti Azərbaycanın çox hissəsinə, İranın qərb hissəsinə nəzarəti əldə edir, lakin Bakı, Dərbənd, Salyan, Lənkəran, Gilan və digər Xəzəryanı ərazilərin Rusiyaya keçməsinə razılıq verirdi. Şirvan vilayəti, onun Rusiyaya keçən dənizkənarı zonası istisna olmaqla, Osmanlı sultanının himayəsi altında yarımmüstəqil xanlıq elan olunurdu.

İstanbul müqaviləsi ilə Azərbaycanı süni surətdə dörd yerə (Rusiyaya aid ərazilər, Osmanlıya keçən ərazilər, Şahın nəzarəti altında qalan ərazi və yarımmüstəqil Şirvan xanlığı) bölündü. Müqavilə iki imperiyanın özgə ərazilərini bölüşdürmək haqqında sövdələşməsi idi. İstanbul müqaviləsi Osmanlı-Rusiya ziddiyyətlərini aradan qaldırmadı, yalnız müəyyən müddətə yumşaltdı.

Bu müqavilə Osmanlı dövlətinə Səfəvi ərazilərini ələ keçirmək üçün diplomatik əsas yaratdı və müqavilədən sonrakı il yarım müddətində müqavilə üzrə osmanlılar onlara ayrılmış bütün ərazilər üzərində nəzarəti gerçəkləşdirdilər. Çar Rusiyası da Kür çayından cənubdakı sahilyanı Azərbaycan ərazilərini, habelə Dərbənd və Bakı arasındakı sahilyanı zolağı ələ keçirdi.

1726-cı ildə Rusiya Avstriya ilə Osmanlı dövlətinə qarşı yönəlmiş Vyana müqaviləsini imzaladıqdan sonra osmanlılarla münasibətdə daha sərt siyasət yürütməyə başladığından iki imperiya arasında münasibətlər yenidən kəskinləşməyə başlayır.

Osmanlı və Rusiya imperiyaları işğal etdikləri Azərbaycan ərazilərində əsaslı iqtisadi dəyişikliklər etmədilər. Onları yalnız təbii sərvətlərdən istifadə maraqlandırırdı. Rus hökuməti ilk növbədə Bakı neftini mümkün qədər çox həcmdə daşıyıb aparmağa çalışırdı. Eyni zamanda o, Azərbaycanda özünə sosial dayaq yaratmaqdan ötrü xristianları, ilk növbədə erməniləri Xəzəryanı vilayətlərə köçürüb məskunlaşdırmağa çalışırdı.

Azərbaycan əhalisi içərisində Rusiya və Osmanlı hakimiyyətindən narazılıq mövcud olduğundan qeyri-mütəşəkkil

çıxışlar baş verirdi.

XVIII əsrin 20-ci illərinin ortalarından Azərbaycan türkü – Əfşar tayfasından çıxmış qeyri-adi sərkərdəlik qabiliyyətinə malik Nadirin yorulmaz fəaliyyəti sayəsində Səfəvi dövləti yenidən dirçəlməyə başlayır. 1726-cı ilin payızında II Təhmasibə qoşulub Təhmasibqulu təxəllüsünü götürən Nadir tezliklə dövlətin faktiki idarəçisinə çevrilmişdi. Əfqanların başçısı Əşrəf şah üzərində bir sıra parlaq qələbələr qazanan Nadir 1729-cu ilin noyabrında İsfahana daxil oldu.

Bundan sonra Nadirin Osmanlının ələ keçirdiyi Səfəvi mülklərini geri qaytarmaq uğrunda uzunmüddətli və qanlı müharibələri başlayır. Osmanlı ordusunun Nadir tərəfindən dalbadal məğlubiyyətə uğradılması 1730-cu il sentyabrın sonunda İstanbulda baş verən Patrona Xəlilin başçılıq etdiyi üsyanın əsas səbəblərindən biri olmuşdur. III Əhməd taxtdan salınmış, qardaşı oğlu Mahmud taxta çıxarılmışdı.

II Təhmasib 1732-ci il Rəşt müqaviləsini bağlamaqla Rusiyanın Kür çayından cənubda yerləşən Xəzəryanı əraziləri qaytarmasına nail olmuş, lakin Şahın osmanlılarla hərbə başlayıb ağır məğlubiyyətə uğramasından istifadə edən Nadir 1732-ci il avqustun 22- də (sentyabrın 1-i) onu taxtdan salmış, bir neçə aylıq oğlunu III Abbas adı ilə şah, özünü isə onun vəkili elan etmişdi.

Təhmasibqulu xan osmanlılara qarşı hərbi əməliyyatları bərpa edərək bir sıra ciddi uğurlar qazandığından Osmanlı komandanlığı barış istəmiş və 1733-cü ilin fevralında Bağdad şəhərində bağlanmış müqaviləyə görə, Osmanlı tərəfi, son on ildə işğal etdiyi bütün torpaqlardan imtina etmişdi; iki dövlət arasında sərhəd 1639-cu il Osmanlı-Səfəvi müqaviləsində təsbit edilmiş sərhədlər olmalı idi. Lakin bu müqavilə sultan tərəfindən təsdiq edilmədiyindən hərbi əməliyyatlar qızışdı.

Bir sıra parlaq qələbələr qazanıb Azərbaycanın cənubunu bütünlüklə azad edən Nadir ölkənin şimalına yönəlir. Şirvanın çox hissəsini nəzarəti altına almış, Gəncədəki osmanlı qarnizonunu uzunmüddətli müqaviməti ilə üzləşmişdi. Şahlıq dövləti artıq xeyli gücləndiyi üçün Xəzəryanı ərazilərin Osmanlı

imperiyasının əlinə düşməsi ehtimalının yoxa çıxdığını düşünən Rusiya bu ərazilərin qaytarılmasını məqbul saydı. Nadirlə rus səfiri S.Qolitsin arasında 1735-ci il martın 10-da (21) Nadirin Gəncə yaxınlığındakı düşərgəsində imzalanan müqaviləyə görə Rusiya 1722-ci ildən bəri işğal etdiyi bütün Xəzəryanı ərazilərdən imtina etdi. Müqavilənin şərtlərinə görə, Nadir Rusiyanın müttəfiqi olmalı, Bakı və Dərbəndi üçüncü dövlətə verməməli idi.

Nadir Gəncə qarnizonuna yardıma tələsən Abdulla paşanın 80 minlik ordusunu İrəvan yaxınlığındakı Üçkilsə kəndi yanında Zəngi çayı sahilində darmadağın etdikdən sonra Osmanlı sultanı Gəncə, İrəvan və Tiflisi verməyə razılaşmış, tərəflər arasında yenidən sülh danışıqları başlamışdır.

Osmanlılara qarşı hərbi əməliyyatları uğurla başa çatdıran Nadir Dağıstandakı iğtişaşları yatırmağa yönəlmiş, burada hakimiyyətini nisbətən möhkəmləndirdikdən sonra 1736-cı ilin əvvəllərində imperiyanın hər yerindən hakimləri, ordu sərkərdələrini və əhali nümayəndələrini Muğan çölünə toplayıb qədim türk ənənələri nümunəsində qurultay keçirmiş və özünün şah seçilməsinə nail olmuşdu. Qurultayın mühüm qərarlarından biri də şiəliyin əvəzinə sünniliyin cəfəri təriqətinə etiqad olunması haqqında qərar idi. Bununla da Nadir şah şiə-sünni ədavətinə son qoyub müsəlman birliyinə nail olmaq niyyətində idi. Qəsri-Şirin müqaviləsində göstərilmiş sərhədlər təsbit olunmaqla sülh müqaviləsi tərtib olunsa da, Osmanlı sultanı cəfəriliyi sünniliyin beşinci məzhəbi kimi tanınmaqdan və Kəbədə cəfərilər üçün beşinci sütun dikəltməkdən imtina etmişdi.

Nadir şahla osmanlılar arasında sülh danışıqları getdiyi zamanda Osmanlı-Rusiya münasibətləri kəskinləşməkdə davam edirdi və 1736-cı il mayın 28-də Rusiya Osmanlı dövlətinə qarşı rəsmən müharibə elan etmişdi. Rusiya Nadir şahdan 1735-ci il Gəncə müqaviləsinə uyğun olaraq osmanlılarla hərbi əməliyyatları bərpa etməyi tələb etsə də, Nadir şah tələbə əməl etməmiş, şərqə yönəlmişdi. O, ilk növbədə Qəndəharı tabe etmək niyyətində idi.

Qəndəhar alındıqdan sonra Nadir şah bütün diqqətini

Hindistana yürüşə yönəltmişdi. İrana tez-tez basqınlar edən əfqanların Hindistan ərazisində sığınacaq tapması yürüşə rəsmi səbəb kimi göstərilirdi. 1738-ci il mayın 21-də Nadir şah Nadirabaddan Hindistana doğru hərəkətə başlayıb Qəznə və Cəlalabad şəhərlərini döyüşsüz ələ keçirdi.

1739-cu il fevralın 24-də baş vermiş həlledici döyüşdə Nadir şah rəqibin sayca bir neçə dəfə üstünlüyə malik ordusu üzərində parlaq qələbə çaldı. İki tərəf arasında bağlanan müqaviləyə görə, Məhəmməd şah və onun əyanları müharibənin günahkarları sayılır, buna görə də təzminat kimi Ətək və Hind çayının ətrafındakı ərazilər Əfşar imperiyasının tərkibinə keçir, 70 kurur (700 milyon rupi) dəyərində pul və ləl-cəvahirat ödənilirdi.

Hindistandan qayıdan Nadir şah Türküstan yürüşünə çıxmış, buranın çox hissəsini tabe etməyə nail olmuşdu. Daha sonra möhkəm Xivə qalasını almışdı.

Nadir yürüşlərdən qayıtdıqdan sonra ilk növbədə Rusiya ilə münasibətləri normallaşdırmağa çalışmış, bu məqsədlə də zəngin hədiyyələrlə böyük bir elçiliyi Rusiyaya göndərmişdi. Lakin Rusiya sarayının Nadir şaha münasibəti yaxşılaşmadı və Nadirin bir sıra istəkləri də yerinə yetirilmədi.

Nadir şah yenidən itaətsizlik göstərən dağlı hakimlərini ram etmək üçün Dağıstana növbəti səfərə çıxır. Dağıstanlılar əvvəlcə öz itaətlərini bildirsələr də, ancaq, dağıstanlıların böyük bir hissəsini köçürmək cəhdindən sonra Nadir şah Dağıstanda güclü müqavimətə rast gəldi. Dağlıların kiçik dəstələrlə və təbii şəraitin imkanlarından məharətlə istifadə edərək mübarizə aparması Şahın böyük dəstələrlə mübarizə aparmasını imkansız edirdi. Avarıstana daxil olsa da Nadir şah buranı itaətə gətirə bilmədi və qışda hərəkət etmək tamamilə çətinləşdiyindən Dərbəndə çəkildi.

Nadir şahın Dağıstanda hərbi əməliyyatlar aparması qonşu Rusiyanı çox narahat edirdi. Rusiya hakimiyyət orqanları Nadir şahın Kabarda və Kubandan keçərək Krıma getmək istədiyini ehtimal edirdilər. Qafqazdakı rus komandirlərinin dağıstanlılara yardım etməsi də Nadir şahı qəzəbləndirirdi. İki dövlət arasında münasibətləri gərginləşdirən məsələlərdən biri də Endirey, Aksay

və Kostyukov kəndlərinin kimə məxsusluğu məsələsi idi. Nadir şah hesab edirdi ki, bu kəndlər əvvəllər Səfəvilərə məxsus olduğundan Rusiya onlardan əl çəkməlidir.

Rusiya ilə Nadir şahın arasında münasibətləri kəskinləşdirən amillərdən biri də Şahın ingilis kapitanı C.Eltonun yardımı ilə Xəzər dənizində hərbi donanma yaratmasına Rusiyanın kəskin müqavimət göstərməsi idi. Eyni zamanda Nadir şah ingilis tacirlərini himayə etdiyindən onlar Xəzərdə rus tacirlərini sıxışdırırdılar.

Lakin Rusiya ilə gərginlik hərbi münaqişə səviyyəsinə çatmadı. Osmanlı hökumətinin dağıstanlılara yardım etməsi, "Səfi Mirzə" adlı yalançı şahzadəni taxta iddiaçı kimi irəli sürməsi və Sultanın cəfəriliyi sünniliyin beşinci məzhəbi kimi tanınmaqdan qəti imtina etməsi osmanlılara qarşı yeni müharibənin başlamasına səbəb oldu.

1745-ci ilin yayında Osmanlı sarayı bütün hərbi qüvvələrini səfərbərliyə alaraq Yegen Mehmed paşanın başçılığı ilə çox böyük bir ordunu Nadir şaha qarşı göndərmiş, 1745-ci il avqustun 11-də Muradtəpə ətrafında beş gün davam edən qanlı döyüş Nadirin parlaq qələbəsi ilə nəticələnmişdi. Nadir şah bu dəfə təmkinlilik göstərib irəliyə doğru hərəkət etmədi, yeni sülh təklifləri ilə Qarsa Əhməd paşanın yanına nümayəndələr göndərdi. İndi o, artıq Cəfəri təriqətinin tanınması və Məkkədə Kəbədə beşinci sütunun dikəldilməsi barədə israr etmirdi.

1746-cı ilin sentyabrında hazır olan sülh müqaviləsinin mətninə görə, IV Murad dövrünün sərhədləri qüvvədə qalırdı. Nazif əfəndi müqavilənin mətni ilə geri dönərkən Şah rəsmi tarixçisi Mirzə Mehdi xanı da onunla birlikdə İstanbula yola saldı. Sultan I Mahmud müqaviləni təsdiqləyib, şah sarayına göndərmək üçün zəngin hədiyyələrinə görə Osmanlı sarayının bu vaxtadək Avropa və Asiya saraylarına göndərdiyi elçiliklərdən olan üstün elçilik təşkil etmişdi. Lakin elçilik yolda ikən Nadir şahın 1747-ci il iyunun 19-dan 20-nə keçən gecə saray sui-qəsdi nəticəsində qətlə yetirildiyini eşidib geriyə, İstanbula qayıtmışdı.

Nadir şah qətlə yetirildikdən sonra qardaşı oğlu Əliqulu xan

Adil şah adı ilə taxta çıxsa da, Əfşar imperiyasının dağılmasının qarşısını ala bilməmişdi. Azərbaycan və İranda onlarla xırda dövlətlər – xanlıqlar yaranmışdı.

Xanlıqlar yarandığı gündən torpaq, sərvət və təbəələr uğrunda bir-biriləri ilə fasiləsiz və qanlı mübarizə aparırdılar ki, bu da onları güclü qonşu dövlətlər tərəfindən asan udula bilən tikəyə çevirirdi.

Məlumdur ki, XVIII yüzilliyin II yarısında Rusiya xarici siyasətinin başlıca vəzifəsi Qara dənizə çıxış əldə etmək olmuşdur. 1768-1774-cü illər müharibəsində Osmanlıya qalib gələn Rusiya həmin vəzifəni yerinə yetirməyə nail oldu. Müharibə ərəfəsində və müharibə dövründə Azərbaycan xanlıqlarının eyni dinə və söykökə malik Osmanlı dövləti tərəfində çıxış edəcəyindən ehtiyat edən Rusiya hakimiyyət nümayəndələri xanlarla əlaqələrini genişləndirərək onlara guya Rusiyanın xanlıqları istila etmək niyyəti olmadığı fikrini təlqin etməyə çalışırdılar .

1774-cü il Kiçik Qaynarca sülh müqaviləsi ilə Qara dənizə çıxış hüququ əldə edən çar hökuməti indi Xəzər hövzəsinə diqqətini bir qədər artırmışdı. Hələ ki, Azərbaycanı işğal etmək üçün real imkanlara malik olmayan rus hökuməti bir sıra kəşfiyyat səciyyəli tədbirlər gördü. 1768-1774-cü illərdə professor Qildenştedt Qafqazı ətraflı öyrənmiş, professor, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü olan S.Qmelinin rəhbərliyi ilə Xəzəryanı vilayətləri öyrənmək üçün iki dəfə ekspedisiya təşkil olunmuşdu. Qildenştedt əsasən Gürcüstanı tədqiq etmiş, Qmelinin ekspedisiyalarının əsas diqqəti isə Azərbaycana yönəlmişdi.

Rusiya hökuməti Qmelinin ekspedisiyasından məmnun qaldığından onu ikinci səfərə göndərmişdi. Geri qayıdarkən 1774-cü ilin yanvarında ekspedisiya Qaraqaytaqdan keçdiyi zaman usmi Əmir Həmzə Qmelinin casus olmasından şübhələnib onu həbs etmiş, səyyah dustaqlıqda ölmüşdü. Lakin Qmel əsir düşərkən tərtib etdiyi səyahətnaməsinin əlyazısını bir yolla Rusiyaya göndərə bilmişdi.

Məlumdur ki, 1774-cü ilin yayında qubalı Fətəli xanla Əmir Həmzənin başçılıq etdiyi rəqibləri arasında Gavduşan düzündə qanlı toqquşma baş vermiş, ağır məğlubiyyətə uğrayan Fətəli xan Salyana getmişdi. Dərbəndi düşmən mühasirəsindən azad edə bilməyən Fətəli xan yardım üçün Rusiyaya müraciət etmiş, Rusiya həm regionda mövqeyini möhkəmləndirmək, həm də S.Qmelini həbs edib dustaqlıqda ölümünə bais olmuş Əmir Həmzəni cəzalandırmaq məqsədilə usminin mülklərinə qoşun yeritmiş, usmi Dərbəndin mühasirəsini aradan qaldırıb öz mülklərinə çəkilmək zorunda qalmışdı. Bundan sonra general de Medemin başçılıq etdiyi rus hərbi dəstəsinin Dərbəndə daxil olması Osmanlı hökumətinin kəskin narazılığına səbəb olmuş, bu dövlətlə yenicə bağladığı sülh müqaviləsini pozmaq istəməyən II Yekaterina hökuməti de Medemin dəstəsini Dərbənddən çıxarmağa məcbur olmuşdu.

Qeyd etmək lazımdır ki, Fətəli xanla Rusiya arasında münasibətlər heç də həmişə səmimi səciyyə daşımamış, arada soyuqluq, hətta gərginlik müşahidə edilmişdir. Fətəli xan Rusiyanın himayəsini qəbul etmişdi. onun yardımından yararlanaraq Azərbaycan torpaqlarını birləşdirmək siyasətini davam etdirmək istəsə də, Rusiya özü bilavasitə Azərbaycan torpaqlarını istila etmək niyyətində olduğundan Fətəli xanın himayə xahişini rədd etmişdi.

Rusiyanın işğalçılıq planlarından şübhələnən bir sıra Azərbaycan xanları – xoylu Əhməd xan, şəkili Məhəmməd Həsən xan, irəvanlı Hüseynəli xan, ərdəbilli Nəzərəli xan Osmanlı hökumətinə məktublar göndərərək hərbi və maliyyə yardımı göstərilməsini xahiş edirdilər.

Yemelyan Puqaçovun başçılıq etdiyi kəndli müharibəsini (1773-1775) yatırdıqdan sonra, ölkədə daxili sabitliyi bərpa edən Rusiya şərq və cənub istiqamətində fəaliyyətini genişləndirir. Rusiya diplomatiyasının mahiyyəti Osmanlı imperiyasına məxsus Moldova, Valaxiya və Bessarabiyadan ibarət oyuncaq "Dakiya" dövləti yaratmaq, sonra isə İstanbulu tutaraq Bizans imperiyasını bərpa edib, II Yekaterinanın ikinci nəvəsi olan Konstantini bərpa

olunacaq “imperiya”nın taxtına oturtmaqdan ibarət olan (Bizans yaxud Yunan) layihəsini həyata keçirmək istəyi idi.

Rusiyanın işğalçılıq siyasətinin digər istiqaməti Qafqaz idi. Burada xırda gürcü dövlətlərinin mövcudluğu Rusiya ekspansiyasının yayılmasında baza rolunu oynaya bilərdi. Ümumiyyətlə Cənubi Qafqazda müəyyən qədər xristianların yaşaması, Rusiyanın buraya “xilaskar” görkəmində daxil olmasına şərait yaradırdı.

“Bizans layihəsi”nin ikinci hissəsi Qafqazda mövcud gürcü çarlığını gücləndirməklə yanaşı oyuncaq erməni dövləti yaratmaqdan ibarət idi. Cənubi Qafqazın bəzi bölgələrində yaşayan azsaylı ermənilər və ermənilərin təsiri altına düşmüş alban mənşəli xristianlar da Rusiyanın bu regionda irəliləməsində mühüm rol oynayırdılar. Erməni millətçiliyinin mühüm mərkəzi 1445-ci ildə Cahanşah Qaraqoyunlunun Kilikiyadan köçürüb gətirdiyi Üçmiəzzin katolikosluğu idi. Alban mənşəli xristianlar Qarabağ xanlığının dağlıq hissəsində yaşayırdılar və məlik adlı beş feodal ailəsi tərəfindən idarə olunurdu.

Knyaz Potyomkin general A.Suvorova Xəzəryanı vilayətlərə yürüşə hazırlaşmaq haqqında göstəriş versə də, 80-ci illərin əvvəllərində rus sarayı əsas diqqəti Krım xanlığını işğal etməyə yönəltdiyindən nə 1780, nə də 1781-ci ildə Xəzəryanı vilayətlərə yürüş gerçəkləşdirilmədi. Geniş quru və dəniz əməliyyatları keçirmək əvəzinə 1781-ci ildə Voynoviçin başçılığı ilə hərbi dəniz ekspedisiyası təşkil edildi. Lakin Quba xanı ilə ticarət müqaviləsi bağlanmasından əlavə bu ekspedisiyanın ciddi faydası olmadı.

Rusiya hakimiyyət orqanları Azərbaycan ərazisində erməni dövləti qurmaq yönündə fəaliyyətlərini davam etdirirdilər. Hətta, 1782-ci il aprelin 6-da Qafqaz xəttindəki rus qoşunlarının yeni komandanı general P.Potyomkinə İbrahimxəlil xanı devirib, Qarabağda Rusiyanın himayəsi altında müstəqil erməni vilayəti təşkil etmək üçün zəmin hazırlamaq barədə göstəriş verilmişdi. Rusiyanın bu siyasəti müstəqilliyə can atan Qarabağın xristian məliklərini və Alban katolikosunu fəaliyyətə ruhlandırırdı.

General P.Potyomkin bu yöndə fəaliyyəti davam etdirmək üçün məliklərlə gizli irtibat qurmuşdu.

Rusiya həm də qubalı Fətəli xanın Qarabağa hakimiyyətini yaymağa müqavimət göstərirdi. 1783-cü ilin əvvəllərində qubalı Fətəli xanın Qarabağa və Qaradağa yürüşü haqqında məlumat alan P.Potyomkin dərhal ona məktub göndərib onun nəinki artıq Rusiyanın himayəsində olan Gürcüstanın hüdudlarına girməməsini, eləcə də Qarabağda və Qaradağda yaşayan azsaylı xristian əhalisinə xətər yetirməməsini tələb etmişdi. Hətta knyaz Potyomkin P. Potyomkinə Dərbəndi tutmasını əmr etmişdi. Rus hakimiyyət orqanları Fətəli xanı tutmaq üçün ona düşmən olan digər xanlardan istifadə etməyi düşünürdülər.

Kartli-Kaxeti çarı II İraklinin Rusiya himayəsindən yararlanıb bütün Cənubi Qafqazı özünə tabe etməyə, ilk növbədə Gəncəni tutmağa can atması o zaman Azərbaycanın ən qüdrətli xanı olan qubalı Fətəli xanın kəskin müqavimətinə rast gəlirdi. Hətta, Fətəli xan 1782-ci ildə VI Vaxtanqın oğlu Bakarın övladı knyaz Aleksandra öz sarayında sığınacaq vermiş, ona gürcü taxtına yiyələnməkdə yardım göstərəcəyini vəd etmişdi. Bundan xəbər tutan P.Potyomkin Fətəli xana mane olmaq üçün 1783-cü ilin payızında iki kifayət qədər güclü dəstə təşkil etməyə başladı. Əgər Fətəli xan niyyətini gerçəkləşdirməyə başlardısa, bu dəstələrdən biri Dərbəndə doğru irəliləməli idi. Bu cür əks tədbirlər Fətəli xanı II İrakliyə qarşı çıxış etməkdən çəkindirdi, üstəlik o, P.Potyomkinin tələbi ilə knyaz Aleksandrı rus komandanlığına təslim etdi.

Bundan sonra Fətəli xan diqqətini yanında saxladığı "Abbas Mirzə" adlı yalançı şahzadəni şah taxtına əyləşdirməyə yönəldir və bu işdə Rusiyanın yardımına nail olmağa çalışırdı. Rusiya hökuməti isə Fətəli xanın simasında özünün Azərbaycana dair iddialarının gerçəkləşməsi üçün maneə gördüyündən onun təsirinin məhdudlaşdırılmasına çalışırdı. Hətta devrilmiş Krım xanı Şahin Gərayı İrana göndərib şah taxtında oturtmaq fikrinə düşmüşdü.

Rusiyanın Gürcüstanı himayəyə almasından və Gürcüstana

yol çəkməsindən narahat olan Osmanlı sarayı Azərbaycan xanlarını və Dağıstan hakimlərini Rusiyaya qarşı birləşməyə, Rusiyanı Osmanlı hüdudlarına və Cənubi Qafqaza buraxmamağa, Qafqaz dağlarından keçən yolu dağıtmağa çalışırdı. Lakin 1783-cü ilin payızında Xəlil Əfəndinin başçılığı ilə Qafqaza gələn sultan nümayəndələri Azərbaycan və Dağıstan hakimlərinə Rusiyaya və Kartli-Kaxetiyə qarşı ittifaq bağlamağı təklif etsələr də, Rusiyanın əks-tədbirləri nəticəsində Xəlil Əfəndi Azərbaycan və Dağıstan hakimlərinin Rusiyaya və Kartli-Kaxetiyə qarşı mübarizəsini təşkil edə bilmədi.

Sonrakı ilin payızında İbrahim Əfəndinin başçılığı ilə Qafqaza göndərilən yeni nümayəndə heyətinin fəaliyyəti əsasən uğurlu olmuş, bir sıra hakimlərlə 1785-ci ilin yazında müqavilə imzalanmışdı. Osmanlı hökumətinin Azərbaycanda ən çox diqqət yetirdiyi məntəqələrdən biri İrəvan idi. Buna görə də İrəvanda olan Osmanlı nümayəndələri azyaşlı Məhəmməd xanın Osmanlıya meyilli Xoy xanının ondan böyük olan qızı ilə evlənməsinə nail olmuşdular.

XVIII əsrin 80-ci illərində qubalı Fətəli xanın Azərbaycanı birləşdirmə siyasətinin yenidən güclənməsi müşahidə olunur. O, 1784-cü ilin may ayında döyüşsüz Ərdəbili, sonra da Meşkini ələ keçirmişdi. Fətəli xanın Azərbaycanın cənubuna yürüşü Rusiya sarayının və II İraklinin, eləcə də ona əks mövqedə dayanan Dağıstan hakimlərinin və Azərbaycan xanlarının kəskin reaksiyasına səbəb olmuşdu. Bu dövrdə Rusiya hakim dairələrində Cənubi Qafqazın bəzi vilayətlərini tutub, oyuncaq xristian dövləti yaratmaq barədə müzakirələr davam edirdi. Knyaz Potyomkin Bakı, Dərbənd və Gilanı tutub böyük knyaz Konstantin Pavloviçə çatmaq üçün xristian Albaniya dövlətinin bərpa edilməsini təklif edirdi. Tərtib edilmiş plana əsasən rus qoşunları həm Xəzər dənizinin qərb sahili ilə Dərbənddən Ənzəliyə, həm də Gürcüstan tərəfdən Qarabağ, Qaradağ və İrəvan xanlıqlarına yeriməli idi. Eyni zamanda qonşu hakimləri Fətəli xana qarşı qaldırmaq qərara alındı. General Potyomkin Fətəli xandan qoşunlarını buraxmağı tələb etdi. Rusiyanın təzyiqi və

qonşu hakimlərin təhdidləri üzündən Fətəli xan uğurla başladığı Cənub yürüşünü dayandırıb geri dönməli oldu.

Elə bu dövrdə Rusiyanın Cənubi Qafqazda dinc yolla möhkəmlənməsi üçün əla fürsət yaranır. 1779-cu ildə Kərim xan Zənd öləndən sonra Zəndlər sülaləsinin digər bir nümayəndəsi Əlimurad xan Mərkəzi İranda hakimiyyəti ələ keçirir. Çoxları onu hökmdar kimi tanımaq istəmədiyindən Əlimurad xan Rusiyanın dəstəyinə nail olmaq istəmiş və 1783-cü ildə nümayəndəsini general Potyomkinin yanına göndərərək, Xəzəryanı əraziləri, habelə Qarabağ, Qaradağ, Naxçıvan və İrəvan xanlıqlarının ərazisini Rusiyaya güzəştə getməyə hazır olduğunu elan etmişdi. Buna cavab olaraq rus hökuməti 1784-cü ilin payızında polkovnik Tamaranı Əlimurad xanla danışıqlar aparmaq üçün İrana göndərmiş, lakin 1785-ci ilin fevralında elçilik İsfahana yaxınlaşdığı zaman Əlimurad xan vəfat etdiyindən Tamara geri dönməli olmuşdu.

Əlimurad xanın ölümündən sonra Azərbaycanın cənubunda və İranda ara müharibələri yenidən qızışdı. Bu zaman Azərbaycanın cənubunda ən güclü xanlıq Xoy xanlığı idi. Onun hakimi Əhməd xanın artan gücü və nüfuzu Osmanlı imperiyası və Rusiyanın diqqətini çəkirdi. Osmanlı sultanı Əhməd xana İran hökmdarları tərəfindən təhlükə olacağı təqdirdə yardım vəd edib, ona "sərəsgər" ali hərbi rütbəsi verdi. Xoylu Əhməd xan isə öz hakimiyyətini qorumaq naminə Osmanlı dövləti və Rusiya arasında manevr edərək öz nümayəndəsini Sankt-Peterburqa göndərərək Rusiya təbəəliyinə qəbul olunmasını xahiş etdi.

Ümumiyyətlə, digər Azərbaycan xanları da manevr siyasətini yürütməkdə davam edirdilər. 1785-ci ildə Qarabağ xanının elçisi Musa Sultan və Quba xanının elçisi Mirzə Sadıq da himayəyə qəbul olunmaq barədə ərizələrlə Sankt-Peterburq sarayına göndərilmişdilər.

Qeyd edək ki, Rusiya və Osmanlı imperiyaları arasında təkcə Qafqazda deyil, Cənubi Azərbaycanda təsir uğrunda da rəqabət vardı. Həm də XVIII əsrin 80-ci illərinin ikinci yarısında Osmanlının başlıca dayağı olan xoylu Əhməd xanın rəqibləri

tərəfindən qətlə yetirilməsindən sonra Osmanlı dövlətinin təsirinin zəifləməsi müşahidə olunur.

Bu dövrdə Rusiyanın himayəsinə arxalanaraq Qarabağ xanlığı ərazisində özləri üçün dövlət qurmağa çalışan məliklər daha da fəallaşırlar. İbrahimxəlil xan çevik hərəkət edərək Qanzasar patriarxını və qiyamçı məliklər Abovu və Məclumu cəzalandırmışdı. Patriarx qorxudan ölmüş, məliklər 15 min manat verməklə xilas olmuş, sonra da gizli surətdə II İraklinin yanına adam göndərərək yardım istəmişdilər. II İrakli həm məliklərin xahişini nəzərə alaraq, həm də Gəncədə İbrahimxəlil xanın tərəfdarı olan Cavad xanı devirmək üçün Tiflisdəki iki rus taboru ilə birlikdə yürüşə çıxmışdı. Lakin 1787-ci ildə yeni Osmanlı-Rusiya müharibəsinin başlaması ilə əlaqədar rus komandanlığının qüvvələrini səpələməmək üçün Gürcüstandakı rus taborlarının Şimali Qafqaza çəkməsi nəticəsində yürüş yarımçıq qalmış, məliklər rus qoşunları ilə birlikdə Qafqaz xəttinə getmişdilər.

Rusiyanın müqaviməti üzündən II İraklini bitərəfləşdirməyə nail olmayan qubalı Fətəli xan manevr edərək, ona Cənubi Azərbaycana və İrana birgə yürüş etməyi təklif etdi. Rusiyaya qarşı barışmaz mövqe tutan Ağa Məhəmməd xanın güclənməsi bu dəfə Rusiyanı Fətəli xanın cənuba yürüş planına razılıq verməyə vadar etdi. Məlumdur ki, 1789-cu ilin yanvarında Şəmkirçayın sol sahilində qarşıdakı yürüşlə bağlı olaraq Fətəli xan və II İrakli arasında görüş keçirilmişdi. Lakin görüş zamanı Fətəli xanın qəfil xəstələnməsi və geri qayıdarkən Bakıda vəfat etməsi üzündən planlaşdırılan yürüş baş tutmadı.

1787-ci ildə yeni Rusiya-Osmanlı müharibəsi başladıqdan sonra tərəflərin hər biri Azərbaycan və Dağıstan hakimlərini öz tərəfinə çəkməyə çalışırdı. Azərbaycan xanları eyni soykökə və dinbirliyinə malik Türkiyəyə meyil etsələr də, Rusiyadan ehtiyat etdiklərindən Osmanlının tərəfində açıq çıxış etməkdən çəkinirdilər və hadisələrin gedişini izləyirdilər. Bu müharibədə də qalib gəlib 1792-ci il Yassı sülh müqaviləsi ilə Osmanlını Cənubi Qafqazda fəal siyasət yürütməkdən məhrum edən Rusiya bu bölgədə öz ekspansiyasını gücləndirdi. Lakin bu illərdə Cənubi

Qafqazda hökmranlıq uğrunda Rusiyaya yeni rəqib peyda olur. Bu artıq bütün İranı və Azərbaycanın cənubunu özünə tabe etmiş Ağa Məhəmməd xan Qacar idi.

Azərbaycanın cənub xanlıqları özlərini Qacar təhlükəsindən qorumaqdan ötrü yardım üçün Osmanlı sultanına müraciət etsələr də, bu zaman Rusiya ilə müharibə getdiyi üçün, həm də Ağa Məhəmməd xana Rusiyanın Osmanlı sərhədləri yaxınlığında irəliləməsinə mane ola biləcək qüvvə kimi baxdığından Sultan xanların yardım çağırışına cavab verməmiş, çarəsiz qalan cənub xanlarının çoxu Qacara itaət göstərməyə vadar olmuşdu.

Ağa Məhəmməd xan Rusiyaya ərazi güzəştləri etmək istəmədiyindən rus hökuməti onun rəqiblərini – ilk növbədə ögey qardaşı Murtuzaqulu xanı dəstəkləyirdi. Lakin Murtuzaqulu xan qardaşının qarşısında duruş gətirə bilməyib 1787-ci ilin payızında Gilanda rus freqatına minib qaçmış, bir neçə ay Azərbaycanda qaldıqdan sonra 1793-cü ilin aprelində Rusiyaya üzmüşdü.

1794-cü ildə əsas rəqibi Lütfəli xan Zəndi məğlub və məhv etməklə Ağa Məhəmməd xan İranı və Azərbaycanın cənubunu tabe etmək işini başa çatdırmış və bundan sonra artıq diqqəti Azərbaycanın şimalının və Kartli-Kaxeti çarlığının itaətə gətirilməsinə yönəltmişdi. Ənənəyə görə, yeni şahın taxta çıxması üçün əvvəlki Səfəvi dövlətinin ərazi bütövlüyü bərpa olunmalı idi. Bunun üçün isə Azərbaycanın şimalı və Şərqi Gürcüstan tabe olunmalı idi. Mövcud beynəlxalq şərait Qacarın Cənubi Qafqaza yürüşü üçün əlverişli idi. Qərbi Avropa dövlətləri, ilk növbədə Fransa Qacarın vasitəsilə Rusiyanın cənuba hərəkətinin qarşısını almağa çalışırdılar.

Ağa Məhəmməd xan ordunun əsas hissəsi ilə 1795-ci il mayın sonlarında Şuşaya yaxınlaşdı. Lakin 33 günlük mühasirə nəticə vermədiyindən vaxtı boş yerə itirmək istəməyərək Süleyman xanı bir dəstə ilə Şuşa ətrafında qoyub özü Gürcüstana doğru hərəkət etdi. Sentyabrın əvvəllərində Ağa Məhəmməd xan ordusu ilə Tiflisə yaxınlaşdı. Bu şəhərin yaxınlığında baş verən döyüşdə gürcülər darmadağın edilərək döyüş meydanından qaçdılar. Tiflisi aldıqdan sonra qəflətən Muğan çölünə çəkilən

Qacar 1795-ci ilin sonunda (çox ehtimal ki, Muğanda) yüngülvari tacqoyma mərasimi keçirib Xorasana doğru hərəkət etdi və burada hakimiyyətdə olan Nadirin nəticəsi Nadir Mirzəni hakimiyyətdən kənarlaşdırıb geri qayıtdı.

Ağa Məhəmməd Qacarın Rusiyanın rəsmi himayəsində olan Kartli-Kaxeti çarlığına hücum edib, Tiflisi viran etməsi Rusiyanın regiondakı nüfuzunu xeyli sarsıtdığından Rusiya hökuməti sarsılmış nüfuzunu bərpa etmək, Qacarın Cənubi Qafqazda möhkəmlənməsinə yol verməmək üçün bura ordu göndərmək qərarına gəldi.

II Yekaterina məşuqlarından biri olan Platon Zubovun 24 yaşlı qardaşı Valerian Zubovu bu orduya komandan təyin etdi. Zubovun qarşısına yalnız Ağa Məhəmməd şahı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq deyil, həm də İrandan keçməklə Hind okeanına çıxmaq vəzifəsi qoyulmuşdu. Birləşmiş qüvvələr yürüşə davam edərək İstanbulun işğalını başa çatdırmalı idilər. Rusiya ordusunun yürüşünün başlıca məqsədlərindən biri də Cənubi Qafqazda xristian amilini gücləndirməkdən ibarət idi. İraklinin hakimiyyətini Araz çayına kimi yaymaq, Gəncə və İrəvan xanlıqlarının Kartli-Kaxeti çarlığına birləşdirilməsi nəzərdə tutulurdu. Rusiyadakı ermənilərin arxiyepiskopu İ.Arqutinskini V.Zubovun məsləhətçisi təyin edən rus hökuməti erməni dövləti yaratmaq məsələsini də gündəlikdə saxlayırdı.

Yerli əhalinin güclü müqavimətinə səbəb olmamaq üçün yürüşün əsl məqsədləri gizlədilərək guya yürüşdə məqsədin Gürcüstanı azad edilməsi, Qarabağ məliklərinin və Qacarın sıxışdırdığı, Rusiyaya rəğbət bəsləyən xanların dəstəklənməsi göstərilirdi.

V.Zubova verilmiş çox ətraflı – 30 maddədən ibarət təlimatda qarşıya qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsi üsulları əks olunmuşdu.

Lazımi miqdarda hərbi qüvvəni vaxtında toplamaq mümkün olmadığından Qafqaz xəttinə gələn V.Zubov bütün qüvvələrin gəlməsini gözləmədən 1796-cı il aprelin 13-də Qızlardan Dərbəndə tərəf hərəkət etdi.

Şeyxəli xan şəhəri təslim etməkdən qəti imtina etdiyi üçün Zubov hərbi əməliyyatlara başladı. Bir neçə gün davam edən atəşlərdən sonra qala divarlarında yarıqlar əmələ gəldiyindən, şəhər əhalisinin bir hissəsi əhalini qırğından xilas etmək, şəhəri tamamilə dağılmaqdan qurtarmaq üçün Şeyxəli xandan təslim olmasını tələb etdi və xan bu tələbi yerinə yetirməli oldu.

Zubov İmperatriçənin adından Şeyxəli xanın bağışlandığını elan etsə də, sonradan onu hakimiyyətdən uzaqlaşdırıb, böyük bacısı Pəricahan xanımı Dərbənd şəhərinin hakimi təyin etdi. Şeyxəli xanı isə Dərbənddə saxlamaqdan da qorxaraq özü ilə götürdü.

İyunun 6-da müqavimətə rast gəlmədən Qubanı ələ keçirən Rusiya ordusu Bakı istiqamətində hərəkətini davam etdirdi. Hərbi qüvvəsi çox az olduğu üçün bakılı Hüseynqulu xan şəhəri təslim etmişdi.

Rus ordusunun mütləq Şamaxı xanlığı ərazisinə daxil olacağını anlayan Mustafa xan xeyli çağırışlardan sonra əyanları ilə birlikdə rusların düşərgəsinə gəlmiş, Zubov İmperatriçənin adından Mustafa xana himayə, xan da Rusiyaya sədaqət vəd etmişdi.

Zubovun Şamaxı istiqamətində hərəkət etdiyi zaman Şeyxəli xan rusların sayıqlığını kütləşdirərək qaçmağa nail olur.

Rusiya ordusunun Azərbaycana hücumu təbii ki, Osmanlı sultanı III Səlimi narahat etmiş və o, yerli hakimləri rus hərbi hissələrinin irəliləyişinə mane olmağa çağırmışdı. Lakin Azərbaycan xanlarından yalnız Şeyxəli xan rus ordusuna qarşı fəal mübarizəni davam etdirirdi. 1796-cı il sentyabrın sonunda Alpan kəndi yaxınlığında Şeyxəli xanın qüvvələri ilə rus hərbi dəstəsi arasında baş verən qanlı döyüşdə ruslara ağır zərbə endirildi və onlar böyük itkilər verdilər. V.Zubov Şeyxəli xanı tamamilə xanlıq hüququndan məhrum edərək, onun anadan ögey qardaşı Həsəni Quba xanı elan etdi.

1796-cı il oktyabrın əvvəllərində Rusiyadan əlavə yardım alan V.Zubov Yeni Şamaxıya doğru hərəkət etdi. Zubovun yaxınlaşdığını görən Mustafa xan cəzalandırılacağından qorxaraq Yeni Şamaxını tərk edib Fitdağa sığındı. Zubov onun əmisi oğlu

Qasımı Şamaxı xanı elan etdi.

Zubov bir dəstəni Gəncəyə göndərmiş, həm II İrakli, həm də İbrahimxəlil xan tərəfindən sıxışdırılan Cavad xan çarəni Rusiya himayəsində görərək qala qapılarını rusların üzünə açmışdı.

Yeni Şamaxıdan hərəkət edən Zubov noyabrda Kür və Araz çaylarının qovuşuğunda Cavad şəhəri yaxınlığında düşərgə salmışdı.

Zubov rus qoşunlarının mövqelərini möhkəmləndirmək və diyarın iqtisadi cəhətdən mənimsənilməsini sürətləndirmək üçün bir layihə hazırlamışdı. Həmin layihəyə görə Cavad şəhərinin yaxınlığında II Yekaterinanın şərəfinə Yekaterinaserd adlandırılacaq bir şəhər salınmalı idi. Bura iki min cavan rus əsgəri yerləşdirilməli, gürcülər və ermənilər onlara qız verməyə məcbur edilməli idi. Bu qala Rusiyanın cənubunda dayaq məntəqəsi olmaqla yanaşı, ticarət qovşağı, Xəzər, Cənubi Qafqaz, qismən də Orta Asiya və İran ticarətinin iri bazarı olmalı idi.

1796-cı il noyabrın 6-da II Yekaterinanın qəflətən vəfat etməsi V.Zubovun kifayət qədər uğurla davam edən yürüşünün dayandırılmasına səbəb oldu. Taxta çıxan I Pavel anasına nifrət bəslədiyi üçün əks siyasət yürütməyə başladı, antifransız koalisiyasından çıxıb, Fransa ilə yaxınlaşmağa başladı.

Rus qoşunları Azərbaycanı tərk etdikdən sonra Ağa Məhəmməd şah Azərbaycanın şimal hissəsinə ikinci yürüş etdi. Əliqulu xanın başçılıq etdiyi ön hissələr 1797-ci ilin yazında Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə daxil oldu. Ordunun Ağa Məhəmməd şah tərəfindən başçılıq edilən əsas hissəsi isə Qarabağa daxil oldu. Bu dövrdə bir çox xanlıqlarda, o cümlədən Qarabağ xanlığında baş vermiş quraqlıqdan sonra kəskin aclıq hökm sürdüyündən ərzaq ehtiyatı olmayan İbrahimxəlil xan Şuşanı tərk edib Car-Balakən camaatlarına, qohumu Ömər xanın yanına gedir.

Xan paytaxtı tərk etdiyindən əyanlar müqavimət göstərməyin faydasız olduğunu düşünərək, sakinlərin təhlükəsizliyinə təminat verilməsi şərtilə qalanı təslim etdilər. Gürcüstana yeni səfərə hazırlaşan Ağa Məhəmməd şah Şuşada olmasının yeddinci

günündə, 1797-ci il iyulun 4-də öz nökərləri tərəfindən qətlə yetirildi. Başsız qalmış Qacar qoşunu dağıldı, döyüşçülər öz evlərinə döndülər.

Ağa Məhəmməd şahın öz sağlığında vəliəhd təyin etdiyi qardaşı oğlu Fətəli xan taxta çıxmış, yeni şah hələ bir müddət dövlətinin daxili işləri ilə, rus çarı I Pavel isə Avropa işləri ilə məşğul olduğundan Şimali Azərbaycan xanlıqları üzərində təhlükə qısa müddətə aradan qalxmışdı. Xanlar məqamdan istifadə edib birləşmək əvəzinə, yenidən bir-birləri ilə mübarizəyə girişdilər. I Pavel Azərbaycan xanlarını Rusiyanın himayəsi altında federasiyada birləşdirməklə ayrı-ayrı xanlıqların Qacarların təsiri altına düşməsinə mane olmaq, gələcəkdə bu xanlıqların Rusiyaya birləşdirilməsi üçün zəmin yaratmaq istəyirdi.

1801-ci il martın 1-də I Pavel saray sui-qəsdi nəticəsində öldürüldükdən sonra taxta keçən oğlu I Aleksandr atasından fərqli olaraq İngiltərə ilə ittifaq siyasətinə üstünlük verdi. Bu səbəbdən İngiltərə Rusiyanın cənuba doğru irəliləyişinə açıq müqavimət göstərə bilmədi.

Məlumdur ki, 1801-ci il fevralın 16-da elan olunan imperator manifestinə görə, Kartli-Kaxeti çarlığının ləğv edilib Rusiyaya birləşdirilməsi bəyan olunmaqla yanaşı, əhalisinin əksəriyyətinin azərbaycanlıların təşkil etdiyi əzəli Azərbaycan torpaqları – Pəmbək, Qazax, Borçalı və Şəmsəddil sultanlıqlarının da Kartli-Kaxeti çarlığının tərkibində Rusiyaya ilhaqı bəyan olunurdu. Beləliklə də, Azərbaycan ərazilərinin çarlıq Rusiyası tərəfindən işğalının başlanğıcı qoyuldu.

Rusiya hakim dairələri Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaqdan ötrü müxtəlif üsullardan – şirnikləndirmək, aldatmaq və qorxutmaqdan istifadə edirdi. Lazım gəldikdə isə zor tətbiq edirdilər. Əvvəlcə, I Aleksandr atasının Rusiyanın himayəsi altında Şimali Qafqaz və Azərbaycan hakimlərinin birliyini yaratmaq siyasətini davam etdirmək istədi. 1802-ci il dekabrın 26-da Georgiyevsk şəhərində Quba, Lənkəran xanları, Tarki şamxalı, Qaraqaytaq usmisi, Tabasaran usmisi ilə rus

komandanı arasında görüş keçirildi və "Georgiyevsk müqaviləsi" imzalandı. Xanlar aralarındakı düşmənçilik, narazılıq və çəkişmələri bir yana qoyaraq mübahisələri dinc yolla həll edəcəklərinə, şah qoşunları hücum edəcəyi təqdirdə ona qarşı birgə mübarizə edəcəklərinə söz verdilər. Hakimlər Qacarlar tərəfindən təhlükə yarandıqda Qafqazdakı rus qoşunlarının baş komandanının rəhbərliyi altında öz qüvvələrini birləşdirəcəklərinə söz verirdilər.

Çox keçməmiş rus hökuməti üzündəki pərdəni bir kənara ataraq 1802-ci ildən Qafqazdakı rus ordularının komandanı olan general Sisianov Azərbaycan ərazilərinə qarşı açıq hücuma başladı. 1803-cü ilin yazında qeyri-bərabər döyüşdə Car-Balakən camaatları məğlub edildi, Balakən və Car zəbt olundu. İlisu sultanlığı da Rusiya təbəəliyinə alındı.

Bundan sonra Sisianov əsas zərbəni Gəncə xanlığına qarşı yönəltdi. Cavad xan təslim olmaqdan imtina etdiyindən Sisianov şəhəri mühasirəyə aldı və 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə edilən qəti həmlə ilə başlayan qanlı döyüşdən sonra Gəncə işğal edildi.

Artıq rusların Cənubi Qafqazda irəliləməsinə seyrçi qala bilməyən və onların qarşısını İrandan uzaqda-Cənubi Qafqazda almaq məqsədilə Fətəli şah 1804-cü ilin iyununda Rusiyaya müharibə elan etdi. Qacar dövlətinin müharibəyə qoşulması Rusiya ekspansiyasınım zəifləməsinə səbəb olmadı. İyulda Gümrü və Üçmüəzzini tutan rus qoşunları İrəvanı mühasirəyə aldılar. Lakin İrəvan müdafiəçilərinin müqavimətini qıra bilməyən Sisianov əsas diqqətini həm öz strateji mövqeyinə, həm də insan və iqtisadi potensialına görə digər xanlıqlar içərisində mühüm yer tutan Qarabağ xanlığına yönəltdi. O zaman bu xanlığın paytaxtı Şuşa Qacar dövləti üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı sayılırdı.

Böyük oğlu Məhəmmədhəsən ağanın təsiri ilə və Qacarların Qarabağa hücumlarına qarşı yardım almaq məqsədilə İbrahimxəlil xan nicatı Rusiya himayəsinə girməkdə gördü və Sisianovla danışıqlara başladı. 1805-ci il mayın 14-də (yeni

təqvimlə 26-sı) Sisianovun Gəncədən 20 verst aralı Kürəkçay sahilindəki düşərgəsində Sisianovla İbrahimxəlil xan arasında "Andlı öhdəlik" imzalandı. Müqaviləyə görə, Qarabağ xanı Rusiya təbəəliyini qəbul edir və qonşu dövlətlərlə müstəqil əlaqə saxlamaqdan imtina edirdi. Şuşada 500 nəfərlik rus qarnizonu yerləşdirilməli, xan ildə 8 min qızıl əşrəfi (çervon) xərac ödəməli, nəvəsini həmişəlik Tiflisdə qalmaq şərtilə girov verməli idi. Əvəzində rus tərəfi xanın və bütün varislərinin Qarabağın əbədi hakimi olacağına, xanlıq ərazisinin bütövlüyünün qorunmasına zəmanət verirdi.

Mayın 21-də (iyunun 1-i) yenə də Kürəkçay sahilində şəkili Səlim xanla da eyni məzmunda müqavilə imzalandı. Rusiya, təbəəliyə qəbul olunmuş xanların sədaqətinə nail olmaq üçün onlara general rütbəsi, müxtəlif hədiyyələr vermişdi.

Fətəli şah rusların Qarabağda möhkəmlənməsinə yol verməmək üçün oğlu və vəliəhd Abbas Mirzəni böyük qüvvə ilə Qarabağa göndərmişdi. 1805-ci ilin ortalarında Xudafərin körpüsü yaxınlığında Qacar qüvvələri rusları məğlubiyyətə uğradıb, hətta Şuşanı mühasirəyə alsalar da, son nəticədə ruslar onları tutduqları ərazilərdən sıxışdırıb çıxarmağa nail oldular.

Bundan sonra Sisianov diqqətini həm ərazisinin böyüklüyünə, həm də əhalisinin sayına görə xanlıqlar içərisində öncül yerlərdən birini tutan Şamaxı xanlığına yönəldir. Çıxılmaz vəziyyətə salınan Mustafa xan 1805-ci il dekabrın sonunda Rusiya təbəəliyini qəbul etmək haqqında Kürəkçay müqavilələri ilə eyni şərtlərə malik həmin müqaviləni imzalamalı oldu.

Şamaxı xanlığını tabe etməklə Bakı və Lənkəran xanlıqlarını işğal etmək üçün platsdarm əldə edən Sisianov yanvarın sonunda Bakı önünə gəldi və Hüseynqulu xandan qeyd-şərtsiz təslim olmasını tələb etdi. Hüseynqulu xan qala qapılarının açarlarını verməyə razı olduğunu bildirsə də, fevralın 8-də şəhər darvazası önündə görüş zamanı xanın yaxın adamları Sisianovu qətlə yetirdilər. Sisianovun başçılıq etdiyi rus qoşunları vahiməyə düşərək gəmilərə minib Sarı adasına üzdülər.

Sisianovun qətlindən sonra Rusiyanın Azərbaycandakı

mövqeləri xeyli sarsılmış, Rusiya yalnız yeni qüvvələr yeritməklə vəziyyəti öz xeyrinə dəyişməyə nail olmuşdu. 1806-cı ilin iyununda isə rus qoşunları şəhər daxilindəki təslimçi qüvvələrin yardımı sayəsində Dərbəndə daxil ola bildilər. İyulda üstün rus qüvvələri Qubaya yaxınlaşdıqda Şeyxəli xan zahirən itaət göstərməyə məcbur oldu. Artıq Şeyxəli xana qətiyyən etibar etməyən rus hökuməti, onu hakimiyyətdən kənarlaşdırıb xanlığın idarəçiliyini naib titulu ilə Hacı bəyə tapşırır.

1806-cı ilin iyununda mayor Lisaneviçin başçılıq etdiyi rus hərbiçiləri qarabağlı İbrahimxəlil xanı, onun qacarlarla gizli əlaqə saxlamasını bəhanə gətirib, 17 ailə üzvü və nökərləri ilə birlikdə vəhşicəsinə qətlə yetirdikdə bu qətliam Şimali Azərbaycanda Rusiyadan narazılığı son həddə çatdırmışdı. Qətlə yetirilənlər arasında şəkili Səlim xanın İbrahimxəlil xanın zövcəsi olan bacısı da olduğu üçün qəzəblənmiş şəkililər rus kazaklarına hücum edib bir hissəsini qətlə yetirdilər. Rus qoşunları Şəki xanlığının ərazisini tərk etməyə məcbur oldu. Car-Balakən camaatları da üsyan etdilər.

Azərbaycanda mövqeləri zəiflədiyinə, digər yandan da, Osmanlı imperiyası ilə yeni müharibə yaxınlaşdığına və həm də Fransa ilə münasibətləri kəskinləşdiyinə görə Rusiya Cənubi Qafqazda hərbi əməliyyatlarını müəyyən müddətə məhdudlaşdırmağı, yalnız Bakını istila etməyi qərara almışdı. Böyük rus qüvvələri Bakıya yaxınlaşdığı zaman, müqavimətin mənasız olduğunu anlayan Hüseynqulu xan öz yaxın adamları ilə İrana getdi. Oktyabrın 3-də Bakı rusların əlinə keçdi. Bakı xanlığı ləğv edilərək Rusiyanın bir əyalətinə çevrildi.

Bakını zəbt etdikdən sonra rus komandanlığı əsas diqqətini üsyanların yatırılmasına yönəldir. Şəkidə üsyan yatırıldı və xanlığın idarəçiliyi Səlim xanın kiçik qardaşı Fətəli bəyə tapşırıldı. Dekabrın sonuna yaxın Car-Balakən camaatları da yenidən itaətə gətirildi.

Beləliklə, 1806-cı ildə İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Azərbaycanın şimal hissəsi əsasən rusların nəzarəti altında idi. Osmanlı imperiyası ilə yeni müharibəyə başladığından

rus hökuməti Qacar sarayı ilə sülh bağlamaq istəyirdi.1807-ci ilin əvvəllərində sülh danışıqları başlasa da, tərəflərin mövqelərində böyük fərq müşahidə olunduğundan (rus hökuməti işğal etdiyi ərazilərin heç birini güzəştə getmək istəmir, Qacar sarayı isə rus qoşunlarının nəinki Azərbaycanın şimal hissəsindən, ümumiyyətlə Cənubi Qafqazdan, eləcə də Qızlara qədərki Dağıstan torpaqlarından çıxmasını tələb edirdi) danışıqlara ara verildi.

Qudoviçin başçılığı ilə rus ordusu 1808-cii ilin oktyabrında İrəvanı mühasirəyə aldı. Lakin İrəvan müdafiəçilərinin kəskin dirənişi ilə qarşılaşdı və uğur qazana bilmədi.

Bundan sonra müvəqqəti olaraq regionda Qacarların təsirinin güclənməsi müşahidə olunur. Qarababa kəndi yaxınlığında Qacarların rus qoşunları üzərində qələbə çalması Şahı yaranmış yeni şəraitdən istifadə edərək rusları Azərbaycanın şimalından sıxışdırıb çıxarmağa ruhlandırdı. 1809-cu ilin sentyabrında Qacar qüvvələri Lənkəran şəhərini ələ keçirdilər. Mir Mustafa xan Qamışavana sığındı. O, formal da olsa Şahdan asılılığını etiraf etdi.

Rusların nüfuzuna vurulan böyük zərbə həm də qubalı Şeyxəli xanın barışmaz mübarizəsi idi. Buna görə də rus hökuməti 1809-cu ildə Quba xanlığını rəsmən ləğv edib, Rusiyanın bir əyalətinə çevirdi. 1810-cu ildə Qubada ruslara qarşı ümumi üsyandan sonra isə burada komendant idarəçiliyi tətbiq olundu.

Qacarlara xəyanət edib minlərlə təbəəsi ilə Rusiya tərəfə keçmiş xoylu Cəfərqulu xanın Şəki hakimi təyin olunması narazılıqla qarşılanmış və 1807-ci ilin yazında yerli əhalinin üsyanına səbəb olmuşdu. Ruslar həm bu üsyanı, daha sonra isə 1808-ci ilin yazında qalxan üsyanı da çətinliklə yatıra bildilər.

Rusiya Fransa ilə yaxınlaşan böyük müharibə ərəfəsində Qacar İranı ilə sülh bağlamağa çalışırdı. Qafqazdakı rus qoşunlarının baş komandanı Rtişşevə sərhəd xəttinin Kür, Araz və Arpa çayları boyunca keçməsi haqqında əvvəllər irəli sürülən tələblərdən imtina edilməsi və yalnız artıq işğal olunmuş

ərazilərin Rusiyada qalması şərtinin irəli sürülməsi barədə göstəriş verildi.

1812-ci ilin aprelində Əsgəranda Rusiya ilə Qacarlar arasında sülh danışıqları yenidən başladıqda ruslar İrəvan və Naxçıvan xanlıqlarını, qacarlar isə Lənkəran xanlığını tələb etdiyindən danışıqlar nəticə vermədən dayandırıldı.

Uğurları genişləndirmək istəyən vəliəhd Aslandüzə hərəkət edərək burada rus ordusu ilə döyüşə girmiş, lakin ağır məğlubiyyətə uğramışdı. Rus komandanlığı da təşəbbüsün onun əlinə keçməsindən istifadə edib Lənkərana hücum təşkil etdi. Ağır döyüşlərdən sonra, ruslar nəhayət ki, 1813-cü il yanvarın əvvəllərində Lənkəran qalasını zəbt etməyə müvəffəq oldular.

Aslandüz və Lənkəran qələbələri Rusiya-Qacar müharibəsinin gedişini qəti surətdə Rusiyanın xeyrinə dəyişdi. Bu yenidən başlayan sülh danışıqlarında Rusiyanın mövqeyini möhkəmləndirdi. Əgər bir müddət əvvəl rus tərəfi sərhədin Kür və Araz çaylarından keçməsini, Lənkəran xanlığının isə Rusiyanın himayəsi altında müstəqil xanlıq kimi qalmasını tələb edirdisə, indi bu xanlığın da Rusiya torpaqları sırasına daxil olunmasını tələb etdi.

Yeni şəraitdə aparılan danışıqlarda İngiltərənin iştirakının artdığını xüsusi qeyd etmək lazımdır. İngilis hökuməti regionda gedən proseslərdən öz maraqları üçün istifadə etməyə çalışırdı. Qacarlar dövləti ilə münasibətlər yaratmaq işinə ingilis hökuməti uzun müddət Hindistanda çalışmış və Şərqi yaxşı tanıyan Qor Uzeleyi cəlb etdi.

Napoleonun 1812-ci ilin iyununda Rusiyaya hücumu ilə əlaqədar Rusiyanın İngiltərənin də iştirak etdiyi antifransız koalisiyasına daxil olması ilə əlaqədar ingilislər artıq müttəfiq olduqları Rusiyaya qarşı müharibədə Qacar dövlətinə yardım edə bilməzdilər. Onlar əksinə bu iki dövlət arasında sülhə nail olmaq istəyirdilər ki, Rusiya bütün qüvvələrini Fransaya qarşı müharibəyə cəlb edə bilsin.

Rusiya ilə sülh məsələsində Qacar dövləti daxilində iki mövqeyin olduğunu qeyd etmək lazımdır. Fətəli şah və onun

sarayı ruslara ərazi güzəştləri hesabına sülh bağlamağa razı idisə, vəliəhd Abbas Mirzə və onun sarayı yalnız bütün Cənub-Şərqi Qafqazın, yəni Azərbaycanın şimal torpaqlarının rus işğalından azad edilib Qacarlar dövlətinə keçməsi şərtilə sülh müqaviləsi bağlanmasına razı idi.

1812-ci ilin oktyabrın əvvəllərində Aslandüzdə Qafqazdakı rus qoşunlarının komandanı Rtişşevin nümayəndəsi general Axverdovla Abbas Mirzənin nümayəndəsi Mirzə Əbülhəsən arasında ingilis səfirliyinin əməkdaşı Moryenin iştirakı ilə görüş keçirildi. Tərəflərin irəli sürdükləri şərtlər bir-birindən əsaslı surətdə fərqlənirdi. Rusiya son dövrdə Qafqazda işğal etdiyi ərazilərin onda qalmasını, Qacar tərəfi isə işğal edilmiş bütün ərazilərin boşaldılmasını istəyirdi.

Napoleonla müharibə hələ bitmədiyinə görə İngiltərə Rusiya qüvvələrinin Qacarlarla mübarizəyə cəlb olunmasını istəmədiyindən də tezliklə sülh bağlanmasında maraqlı idi. Q. Uzeley Rtişşevlə fəal yazışmalar aparırdı. Eyni zamanda şahla görüşüb sülh müqaviləsinin onun istəklərinə uyğun tərtib olunacağını vəd etdi. Uzeleyin təsiri ilə danışıqların başlanmasına razılıq verən Şah eyni zamanda Uzeleydən tələb etdi ki, rusların sülh müqaviləsi imzalandıqdan sonra işğal etdikləri ərazilərdən çıxacaqları barədə razılıq alsın. Uzeley Fətəli şahı sülh müqaviləsi bağlamağa vadar etmək üçün, sülh danışıqları başlanmazsa, İngiltərənin maliyyə yardımının kəsiləcəyi ilə də hədələdi. Çıxılmaz vəziyyətə düşmüş Qacar sarayı Rtişşevin şərtlərini qəbul etməli oldu. Qarabağın Gülüstan kəndində Rtişşevlə Fətəli şahın nümayəndəsi Mirzə Əbülhəsən arasında danışıqlar başladı.

Rtişşevin, status-kvonun saxlanması əsasında müqavilə şərtlərinin hazırlanması haqqında təklifini qəbul edən Mirzə Əbülhəsən xanın xahişi ilə sülh müqaviləsi imzalanmazdan əvvəl müqaviləyə əlavə qəbul edilsə də, Rtişşev əlavənin təklif olunan məzmununu dəyişdi. Rtişşevin dəyişdiyi mətndə artıq müqavilə imzalandıqdan sonra bir sıra ərazilərin Rusiya tərəfindən geri qaytarılmasından söhbət getmirdi, göstərilirdi ki, müqavilə

imzalanandan sonra şah sarayının nümayəndəsi Rusiyaya gedib müqavilənin şərtləri ilə bağlı xahişləri Rusiya imperatoruna çatdıra bilər.

Nəhayət, 1813-cü il oktyabrın 12-də müqavilənin son mətni hazır oldu və imzalandı. Müqavilənin əsas maddəsi olan ikinci maddəyə görə Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Azərbaycanın şimal xanlıqlarının, habelə Dağıstanın və Şərqi Gürcüstanın Rusiya tərəfindən ilhaqı rəsmiləşdirilir və iki dövlət arasında sərhəd müəyyənləşdirilirdi. Müqavilədə göstərilirdi ki, Xəzər dənizində yalnız Rusiya hərbi qüvvələri üzə bilər, bu isə müqavilənin qeyri-bərabər xarakterini bir daha sübut edir.

Beləliklə də, tarixin ən böyük ədalətsizliklərindən biri baş verdi, Gülüstan müqaviləsi ilə Azərbaycan iki yerə parçalandı.

Sonda onu qeyd edək ki, XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Rusiya və Osmanlı imperiyalarının Azərbaycana münasibətinin müqayisəli təhlili göstərir ki, əsrin birinci yarısında hər iki dövlət Azərbaycanı tutmağa çalışdığı halda, əsrin ikinci yarısında-XIX əsrin əvvəllərində Osmanlı dövləti Azərbaycan ərazilərini ələ keçirmək haqqında düşünmür, məhdud imkanları daxilində xanlıqların Rusiya işğalına müqavimətini dəstəkləyirdi.

**TOFİQ MUSTAFAZADEH**

## NEIGHBORING STATES AND AZERBAIJAN IN THE 18th-EARLY 19th CENTURIES

At the turn of the 18th and 19th centuries, Azerbaijan held a special place in the policies of the neighboring major powers-the Russian and Ottoman Empires.

It was one of the most pressing ambitions of Peter I to gain access to the "warm seas" as he had finally lost hope of gaining access to the Black Sea after being severely defeated by the Ottomans in the Prut War of 1711, and thus turned his attention towards the Caspian Sea and the adjacent states to the south. In 1722, he took advantage of the de facto collapse of the Safavid state and embarked on a military expedition with an army of one hundred thousand, but despite the effortless conquest of Derbent, he was forced to abandon the campaign and leave for Russia with the majority of the army due to the vehement resistance of the Ottoman state and a multitude of other causes. However, Russia used limited naval operations to capture Baku, Salyan, and Rasht.

During the spring of 1723, the Ottoman Empire initiated armed campaigns in the area to recapture lost areas in Europe as stipulated under the terms of the Treaty of Carlowitz signed in 1699 and also to prevent the Safavid access to land, particularly the South Caucasus, to an age-old rival.

As their advance in the same direction threatened war between the two empires, Peter I, having recently concluded the bloody Northern War with Sweden (1700-1721), did not want to engage in another serious war with another strong enemy like the Ottoman Empire and opened negotiations with the Ottomans through French diplomacy with a view to reaching an

agreement regarding the division of Safavid lands. Peter I, who had just concluded the bloody Northern War with Sweden (1700-1721), did not want to start a new, serious war with a strong foe like the Ottoman Empire because their advances in the same direction threatened to bring the two empires to war. Therefore, he started talks with the Ottomans, mediated by French diplomacy, to come to an agreement on the division of Safavid territories. An agreement was also preferred by Ibrahim Pasha Nevşehirli, the grand vizier, who was apprehensive about a military conflict with a superpower such as Russia. The Azerbaijani lands were the primary point of contention in the 1723–1724 negotiations between Ottoman officials and Ivan Neplyuyev, a Russian living in Istanbul. The Russian side insisted that the entire Caspian strip remain with the Safavids, while the cities of Ardabil, Tabriz, and Sultaniye remain with the Safavids, while the Ottoman side requested that the Russian tsar give up Derbent and Baku because he had no rights.

Finally, following long discussions, according to the treaty concluded on 24th June 1724 in Istanbul by both states, the Ottoman state obtained dominance over the majority of Azerbaijan and the region of western Iran, but gave its consent on the ceding of Baku, Derbent, Salyan, Lenkoran, Gilan and other provinces of the Caspian area to Russia. The Shirvan territory, not including its part beyond the Caspian Sea, was declared a semi-independence khanate under Ottoman Sultan protection.

The Istanbul treaty artificially divided Azerbaijan (territories which was ceded to Russia and Ottomans, territory under the control of Shah and semi-independent Shirvan khanate) into four parts. The Istanbul treaty did not eliminate the Ottoman-Russian confrontation, but only temporarily softened it.

The Istanbul treaty created the diplomatic basis for taking over the Safavid territory, and within a year and a half after it's signing, the Ottomans took control of the territories ceded to them. And tsarist Russia, relying on the Treaty of Istanbul, seized

the lands of Azerbaijan south of the Kura River, including the coastal Caspian zone between Derbent and Baku.

Due to the fact that after the sign of the Vienna Treaty of Alliance with Austria in 1726, directed against the Ottoman state, Russia began to pursue a tougher policy which led to escalation of relations between the two empires again.

Neither the Ottoman nor the Russian Empires in any way changed economic activities in territories that they occupied. All they wanted was to tap natural resources. The Russian state first tried to market more oil from Baku. At the same time it tried to resettle Christians, particularly armenians, to Caspian lands for the purpose of having a social foundation for themselves.

Disorganized demonstrations took place among the Azerbaijani population due to dissatisfaction with the Russian and Ottoman administration. Since the mid-20s of the 18th century, the Safavid state began to revive again thanks to the tireless work of Nadir, a native of the Azerbaijani Afshar tribe, who possessed outstanding military leadership. Having joined Tahmasib II in the autumn of 1726 and adopted the nickname Tahmasibgulu Khan, Nadir soon became the de facto ruler of the state. Having won several brilliant victories over the leader of the Afghans, Eshref Shah, in November 1729, he (Nadir) entered Isfahan.

Following that, Nadir starts his protracted and brutal campaigns to free the Ottoman-occupied Safavid territories. Nadir then began protracted and brutal warfare to retake the Safavid lands that the Ottoman Empire had taken from them. The successive defeats of the Ottoman army by Nadir were one of the main reasons for the uprising led by Patrona Halil in Istanbul at the end of September 1730. Sultan Ahmet III was dethroned, and his nephew Mahmud ascended the throne.

Having concluded the Rasht Treaty with Russia in 1732, Shah Tahmasib II achieved the return of the coastral Caspian territories of Russia located in the south of Kura river. However, Nadir took advantage of the crushing defeat of Tahmasib, who began

hostilities with the Ottomans, and, deposing the latter on August 22 (September 1), 1732, placed the infant Tahmasib on the throne under the name Shah Abbas III, and declared himself his “vekil”, i.e. regent.

The Ottoman command requested an armistice after Tahmasbgulu Khan resumed military operations against the Ottomans and achieved several significant victories. In February 1733, an agreement was reached in Baghdad that confirmed the borders established by the Ottoman-Safavid treaty of 1739 and stipulated that the Ottoman side would return all the lands it had captured over the previous ten years. However, because the Sultan failed to justify the treaty, hostilities erupted once more.

After a series of brilliant victories, Nadir liberated the entire southern part of Azerbaijan and headed for the north of the country. Having taken control of most of Shirvan, he faced stubborn resistance from the Ottoman garrison of Ganja. The strengthening of the Shah's state convinced Russia that the Caspian provinces were unlikely to fall into the hands of the Ottomans, so it considered their return to the Safavids acceptable. According to the agreement concluded in Nadir’s camp near Ganja on March 10 (21), 1735 with the Russian Ambassador Sergei Galitsin, Russia renounced all the Caspian provinces conquered after 1722. According to the terms of this agreement, Nadir was supposed to be an ally of Russia and not concede Baku and Derbent to a third party.

After Nadir defeated the 80,000-strong force of Abdullah Pasha on the banks of the Zengi River, near the village of Uchkilsa, heading to help the besieged Ganja garrison, the Ottoman Sultan abandoned Ganja, Irevan and Tiflis and peace negotiations commenced between the parties.

Having successfully completed the military operation against the Ottomans, Nadir headed to Dagestan to quell the unrest. After consolidating his power there, Nadir, in early 1736, following the ancient Turkic tradition, convened a “kurultai” (congress) in the Mugan steppe, bringing together regional rulers, military leaders

and representatives of the population from all corners of the empire, at which he achieved the election of himself as shah. One of the important decisions of the Kurultai was the transition from Shiism to the Jafari Sunni sect. By doing this, he pursued the goal of achieving Muslim unity, putting an end to the enmity between Sunnis and Shiites. Although an agreement was drawn up confirming the borders established by the Gasri-Shirin Treaty, the Ottoman Sultan refused to recognize the Jafari sect as the fifth sect of Sunnism and establish a fifth column in the Kaaba for the Jafaris.

During the peace negotiations between Nadir and the Ottomans, the Ottoman-Russian relations continued to escalate, and on May 28, 1736, Russia officially declared war on the Ottoman state. Although Russia demanded that Nadir Shah resume military operations following the terms of the Ganja Treaty, he did not comply with this requirement and headed east. He intended to subjugate Gandahara first.

After the capture of Gandahar, he turned all his attention to the campaign in India. The Afghans' finding asylum in India, who often raid Iran, was cited as the official reason for this campaign. Starting on May 21, 1738, the movement from Nadirabad to India, the Shah occupied the cities of Ghazna and Jalalabad without a fight. Nadir Shah won a brilliant victory in the decisive battle of February 24, 1739 at Karnal, which outnumbered the enemy. According to the agreement concluded between the two countries, the Great Mughal Muhammad Shah and his courtiers were considered the main culprits of the war, therefore, as an indemnity, Nadir Shah received territories around the Etek and Indus rivers, 70 kururs (i.e. 700 million rupees) in money and jewelry.

Upon his return from India, Nadir Shah undertook a campaign in Turkestan and occupied most of the region. Later, he captured the impregnable Khiva fortress.

After returning from his campaigns, Nadir Shah first of all tried to normalize relations with Russia, so he sent a large

embassy to Russia with rich gifts. But the attitude of the Russian court towards Nadir did not improve and some of the shah's wishes were not fulfilled.

Nadir Shah embarked on another campaign in Dagestan in order to suppress the newly disobedient mountain rulers. At the beginning, the Dagestanis were submissive. However, after Nadir Shah's attempt to relocate some Dagestanis to different parts of the empire, he faced strong resistance in Dagestan. Acting in small detachments and skillfully using their natural advantages, the mountaineers did not give the shah the opportunity to involve them in major battles. Although Nadir Shah entered Avaristan, he could not overcome it and retreated to Derbent, as traffic was difficult in winter.

Nadir Shah's military actions in Dagestan worried neighboring Russia. The Russian authorities suspected that Nadir Shah, having crossed Kabarda and Kuban, wanted to go to Crimea. In addition, the help of the commanders of the Russian troops to the Dagestanis embittered the Shah. The issue of the ownership of the villages of Andy, Aksai and Kostyukov was one of the aggravating relations between the two states. Nadir Shah believed that Russia should abandon them, since these villages had previously belonged to the Safavids.

Among the factors that worsened Nadir Shah's relations with Russia was the fact that Russia prevented Nadir Shah from building a military fleet in the Caspian Sea with the help of British captain John Elton. At the same time, Nadir Shah's patronage of English merchants led to their oppression of Russian merchants on the Caspian Sea.

However, the Shah's main focus was on the struggle against the Ottoman Empire, so the tension in relations with Russia did not reach a military conflict. The Ottoman Empire's assistance to the Dagestanis, its nomination of the impostor “Sefi Mirza” as a contender for the Shah’s throne, and the Sultan’s refusal to recognize the Jafari sect as the fifth sect of Sunni Islam caused the outbreak of a new war against the Ottomans.

In the summer of 1745, the Ottoman court sent a large army under the command of Yegen Mehmed Pasha against Nadir Shah. The battle near Murad Tepe, which began on August 11, 1745, lasted 5 days and ended with the brilliant victory of Nadir Shah. This time, Nadir Shah showed restraint and did not move forward, but sent his representatives to Ahmed Pasha in Kars with new peace proposals. Nadir Shah no longer insisted on recognizing the Jafari sect as the fifth sect of Sunni Islam.

According to the peace treaty prepared in September 1746, the borders of the Sultan Murad IV period remained in force. When the Ottoman ambassador Nazif Efendi returned with the text of the treaty, the official chronicler of the Shah's court, Mirza Mehdi Khan, was also sent with him to Istanbul. Sultan Mahmud I, who confirmed the agreement, organized an embassy to be sent to the Shah's palace, which surpassed all embassies sent to European and Asian courts in terms of the value of gifts. However, while on the road, news was received about the assassination of Nadir Shah on the night of June 19-20, 1747, so the embassy returned to Istanbul.

His nephew Aligulu Khan, who ascended to the throne after the assassination of Nadir Shah, and was nicknamed “Adil Shah”, could not prevent the collapse of the vast Afshar empire. Dozens of small khanate states have emerged in Azerbaijan and Iran.

Since their formation, there have been endless and bloody wars between the khanates over lands, wealth, and subjects, which turned them into a tasty morsel for the powerful neighboring powers.

It is known that in the second half of the 18th century, the main task of Russian foreign policy was to gain access to the Black Sea. Russia was able to solve it by defeating the Ottoman Empire in the war of 1768-1774. Fearing that the Azerbaijani khanates would side with the co-religionist Ottoman Empire on the eve and during this war, the Russian authorities expanded ties with them and suggested that Russia had no plans to occupy them.

Having obtained the right of access to the Black Sea under

the Kucuk-Kainardzha Treaty of 1774, the tsarist government took some reconnaissance steps During 1768-1774. Professor Gildensdet comprehensively explored the Caucasus, mainly Georgia, and under the leadership of Professor Samuel Gmelin, a full member of the Russian Academy of Sciences, an expedition was twice organized to explore the Caspian regions.

Upon his return from the second expedition, Gmelin was arrested by the Karakaitag ruler usmi Amir Hamza, who suspected him of espionage, and the scientist died in prison, however, the traveler managed to send the manuscript of his diary to Russia.

It is known that, in the summer of 1774, a bloody battle took place on the Gavdushan plain between Fathali Khan and his opponents, led by Amir Hamza. Fathali Khan, who suffered a heavy defeat, went to Salyan. Unable to liberate Derbent from the enemy encirclement, Fathali Khan turned to Russia for help. In order to strengthen its position in the region and punish utsmiya Amir Hamza for the death of Gmelin, Russia sent a detachment to the possessions of Amir Hamza. Having activated the blockade of Derbent, usmi was forced to withdraw to his own place. The entry of a Russian detachment led by General de Medem into Derbent aroused the sharp discontent of the Ottoman court. Unwilling to violate the peace treaty that had just been signed, the government of Catherine II was forced to retreat and withdrew de Medem's detachment from Derbent.

It should be noted that relations between Fathali Khan and the Russian authorities were not always smooth, sometimes there was coldness and even tension. By accepting Russian patronage, Fathali Khan tried to get its help in the unification of the Azerbaijani lands. However, due to its aggressive ambitions towards Azerbaijan, Russia rejected Fathali Khan's request for patronage.

Some Azerbaijani khans – Ahmad Khan of Khoy, Muhammad Hassan Khan of Sheki, Husseinali Khan of Irevan and Nazarali Khan of Ardabil, guessing about Russia's aggressive

intentions, sent letters to the Ottoman Sultan asking for military and financial assistance.

Having strengthened internal stability after the suppression of the peasant war led by Yemelyan Pugachev (1773-1775), Russia is expanding its activities in the eastern and southern directions. Russian diplomacy wanted to implement the so-called “Byzantine” or “Greek” project, the essence of which was to create a puppet state of Dacia in the territories belonging to the Ottoman Empire – Moldova, Wallachia and Bessarabia, and then, Istanbul, to restore the Byzantine Empire, putting Catherine's second grandson Constantine on its throne.

Another area of Russia's aggressive policy was the Caucasus. The Georgian kingdoms that existed here could become a springboard for the spread of Russian expansion. In general, the presence of a number of Christians in the South Caucasus gave rise to Russia's entry here in the role of savior. The second part of the “Byzantine Project” was to create a puppet Armenian state along with the strengthening of the Georgian kingdom that existed in the Caucasus. The small number of Armenians living in some parts of the South Caucasus and the Christians of Albanian origin who fell under their influence played an important role in Russia’s advancement in this region. An important center of Armenian nationalism was the Etchmiadzin Catholic Monastery, which was transferred in 1445 from Cilicia by Jahanshah Garagoyunlu.

